بسم الله الرحمن الرحيم

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

Bakı-2009

Azərbaycan Respublikası
Bakı İslam Universitetinin
Zaqatala Şöbəsi

İPƏKYOLU NƏŞRİYYATI

Kitabın adı: SİYƏRİ-NƏBİ
Müəllif: Heyət
Elmi və Bədii Redaktor: Eldar Kərimov
Məsləhətçi: BİU-nun Zaqatala şöbəsinin müdiri İbrahim İbrahimov
Nəşrə hazırlayan: Sedat Demir
Dizayn: Afiq İsgəndərov

Bu kitab Bakı İslam Universitetinin Zaqatala şöbəsi üzrə Pedaqoji Şuranın 10 fevral 2009-cu il tarixli IV iclasının 5 saylı qərarı ilə çap edilmişdir.

Ünvan:
Zaqatala şəh. H. Əliyev prospekti №88/A
İndeks: AZ 6200

Tel./Faks: (+994) 174 5-21-83 & 5-32-46
www.zaqatalailahiyyat.edu.az
Dərs kitabları - 10

Zaqatala-2009

# SİYƏRİ-NƏBİ

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

## HƏZRƏT MƏHƏMMƏD MUSTAFA

- Səllallahu əleyhi və səlləm -

Uca Allah buyurur:

"(Ya Peyğəmbər!) **Şübhəsiz, sən böyük bir əxlaq üzərindəsən!"** (əl-Qələm, 4).

"(Ey möminlər!) **Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər** (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"** (əl-Əhzab, 21).

**"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat deyirlər** (xeyir-dua verirlər). **Ey iman gətirənlər! Siz də ona salavat deyib layiqincə salamlayın!"** (əl-Əhzab, 56)

**"Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir"** (əl-Həşr, 7).

**"Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və** (şəkk-şübhə, riya, küfr və nifaq şeylərlə) **əməllərinizi puça çıxartmayın"** (Məhəmməd, 33).

**"Allaha və Peyğəmbərə itaət edənlər** (axirətdə) **Allahın nemətlər verdiyi nəbilər** (peyğəmbərlər), **siddiqlər** (tamamilə doğru danışanlar), **etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər, şəhidlər və salehlərlə** (yaxşı əməl sahibləriylə) **bir yerdə olacaqlar!"** (ən-Nisa, 69).

**"Məgər bilmirlərmi ki, Allaha və Onun Peyğəmbərinə qarşı çıxanı içində əbədi qalacağı cəhənnəm atəşi gözləyir"** (ət-Tövbə, 63).

İPƏKYOLU NƏŞRİYYATI

Rəsulullah (s.ə.s) buyurur:

*"Həqiqətən də, mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim".* ("Müvətta", Hüsnül-hüquq, 8).

*"Cinlərin və insanların (Rəbbinə qarşı) üsyankar olanlarından başqa yerdə və göydə olan bütün varlıqlar mənim Allahın rəsulu olduğumu bilirlər"* (Əhməd bin Hənbəl, "Müsnəd", III, 310).

*"Sizə iki şey qoyub (əmanət) edib gedirəm. Bunlara möhkəm sarıldığınız müddətdə əsla dəlalətə (səhv yola) düşməzsiniz: Allahın kitabı (Qurani-Kərim) və Rəsulunun sünnəti"* ("Müvətta", Qəzavü-qədər, 3).

Həzrət Mövlanadan:

"Bu can bu bədəndə olduğu müddətdə Quranın köləsiyəm. Məhəmməd muxtarın (s.ə.s) yolunun torpağıyam... Biri bu sözlərimdən başqa söz nəql edərsə, o adamdan bezaram, o sözdən də..."

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

## MÜNDƏRİCAT

**HƏZRƏT MƏHƏMMƏD MUSTAFA ............................................13**

**ÖN SÖZ.....................................................................................15**

**GİRİŞ ........ ...............................................................................19**

**İslamın meydana çıxmasında ərəbistanın beşik (məskən) seçilməsinin hikməti ..................................................21**

**Ümmül-Kura: Məkkə ....................................................................24**

**Kəbənin tarixi və müqəddəs olması ..................................................25**

**Kəbənin ilahi nəzarət altında olduğunu göstərən ibrətamiz hadisə: Fil əhvalatı ..........................................................28**

**BİRİNCİ HİSSƏ**

**PEYĞƏMBƏRLİKDƏN ÖNCƏ HZ. MƏHƏMMƏD** ....................33

Hz. Peyğəmbərin anadan olması və uşaqlığı ........................................33

Hz. Peyğəmbərin uşaqlığı və gəncliyi ..................................................34

Hz. Xədicə ilə evlənməsi ....................................................................38

Kəbədə hakimlik ...............................................................................38

**İKİNCİ HİSSƏ**

**PEYĞƏMBƏRLİYİN MƏKKƏ DÖVRÜ ........................................41**

Vəhyin gəlməyə başlaması: Çin çıxan yuxular ....................................41

İPƏKYOLU NƏŞRİYYATI

**PEYĞƏMBƏRLİYİN İLK ÜÇ İLİ: GİZLİ DƏVƏT DÖVRÜ......43**

İlk vəhy və vəhyin gəlməsində fasilə yaranması ................................43

Peyğəmbərlərin sifətləri ..........................................................................47

Vəhyin yenidən gəlməyə başlaması ........................................................51

İlk müsəlmanlar ........................................................................................52

**PEYĞƏMBƏRLİYİN DÖRDÜNCÜ İLİ ..........................................55**

Artıq dincəlmək vaxtı keçdi.....................................................................55

İşgəncə dövrü ............................................................................................65

**PEYĞƏMBƏRLİYİN BEŞİNCİ İLİ ..................................................71**

Həbəşistana hicrət ve qaranik məsələsi ..................................................71

Həbəşistana ikinci hicrət ..........................................................................73

**PEYĞƏMBƏRLİYİN ALTINCI İLİ ..................................................79**

Hz. Həmzənin müsəlman olması ............................................................79

Hz. Ömərin müsəlman olması .................................................................80

**PEYĞƏMBƏRLİYİN YEDDİNCİ-DOQQUZUNCU İLLƏRİ:**
**ÜÇ İL DAVAM EDƏN BOYKOT .......................................................85**

Şəqqi-qəmər: ayın iki yerə bölünməsi möcüzəsi ...................................87

**PEYĞƏMBƏRLİYİN ONUNCU İLİ ..................................................91**

Kədər ili: Hz. Xədicənin və Əbu Talibin vəfatı ......................................91

Taif səfəri ..................................................................................................92

Allah Rəsuluna və Qurana qarşı ittihamlar ............................................97

İPƏKYOLU NƏŞRİYYATI

**PEYĞƏMBƏRLİYİN ON BİRİNCİ İLİ ........................................101**
Məhbubun həbibinə bənzərsiz lütfü: Merac ....................................101
Meracdan bir neçə məqam ..............................................................111
Meracın əks-sədası ..........................................................................112
Əqabə görüşü ...................................................................................114

**PEYĞƏMBƏRLİYİN ON İKİNCİ VƏ ON ÜÇÜNCÜ İLLƏRİ ..............................................117**
Birinci əqabə beyəti ..........................................................................117
İkinci əqabə beyəti (peyğəmbərliyin on üçüncü ili) ..........................118
Məkkə dövrünün təhlili ....................................................................123

**PEYĞƏMBƏRLƏRİN SON ÇARƏSİ: HİCRƏT .......................125**
Hicrətə icazə verilməsi və Mədinəyə hicrət .......................................125
Çətin səfər .........................................................................................131
Gözlənilən əziz yolçu.........................................................................136
Təməli təqva ilə qoyulan məscid: Quba məscidi ...............................137
Ranunə vadisində ilk cümə namazı....................................................137

**PEYĞƏMBƏRLİYİN MƏDİNƏ DÖVRÜ: HİCRƏTİN BİRİNCİ İLİ .............................................................141**
Mədinənin vəziyyəti...........................................................................143
Peyğəmbər məscidinin və səadət evinin tikilməsi və ilk əzan ...........................................145
Savaşa icazə verilməsi .......................................................................146

İPƏKYOLU NƏŞRİYYATI

**HİCRƏTİN İKİNCİ İLİ ..................................................... 149**
Batni-Nəhlə səfəri ..................................................... 149
Qiblənin dəyişməsi ..................................................... 150
Oruc, fitrə sədəqəsi və zəkat ..................................................... 152
Böyük Bədir müharibəsi ..................................................... 154
Mələklərin yardımı ..................................................... 161
Bədrin Aslanları ..................................................... 164
Bədirdən dönüş ..................................................... 166
Əsirlərə münasibət ..................................................... 167
Qənimətlərlə bağlı hökm ..................................................... 169
Səvik müharibəsi (Zilhiccə 2/ May 624) ..................................................... 170
Yəhudilər və Bəni Qaynuqa müharibəsi ..................................................... 171

**HİCRƏTİN ÜÇÜNCÜ İLİ ..................................................... 175**
İbrət təcəllilәri ilə dolu bir hərb: Uhud müharibəsi ..................................................... 175
Şəhidlərin başçısı həzrət Həmzə ..................................................... 179
Uhud şəhidləri ..................................................... 184
Hamraul-Əsəd (8 Şəvval 3/ 24 Mart 625) ..................................................... 185
Miras məsələsi ..................................................... 186

**HİCRƏTİN DÖRDÜNCÜ İLİ ..................................................... 189**
Rəci hadisəsi (Səfər 4/ İyul 625) ..................................................... 189
Biri-Maunə hadisəsi (Səfər 4/ İyul 625) ..................................................... 191
Bəni Nadirin xain planı ..................................................... 193
İçki və qumarın qadağan edilməsi ..................................................... 196
Zatü-r –Riqa (Məhərrəm 5/ İyun 626) ..................................................... 199
Bədri-Suğra (Kiçik Bədir) (Zilqədə 4/ Aprel 626) ..................................................... 200

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

**HİCRƏTİN BEŞİNCİ İLİ ................................................................203**
Övladlığa götürməyin ləğv edilməsi....................................................203
Hicabın fərz buyurulması.....................................................................205
Müreysi müharibəsi .............................................................................207
Təyəmmüm ..........................................................................................209
İftira hadisəsi........................................................................................210
Dözülməz bir məşəqqət və dərd üstünə dərd:
Xəndək müharibəsi .............................................................................218
Xəndəkdə verilən müjdə .....................................................................219
Xəndəkdə çəkilən məşəqqətlər ...........................................................220
Hərb hiylədir ........................................................................................222
Bəni Qureyzə müharibəsi (23 Zülqədə 5/ 15 Aprel 627)..................223

**HİCRƏTİN ALTINCI İLİ .................................................................227**
Fəthlərin Açarı: Xudeybiyə sazişi
Kəbə həsrəti ilə yolçuluq ....................................................................227
Beyətür-Ridvan: Allahın razı olduğu beyət .......................................230
Xudeybiyə sazişi: Dəvətin yeni mərhələsi..........................................231
Parlaq fəth: Qat-qat artan hidayət bərəkəti ........................................235

**HİCRƏTİN YEDDİNCİ İLİ ............................................................239**
Hökmdarları İslama dəvət...................................................................239
Xain və fəsad çıxaran yəhudiyə son zərbə:
Xeybərin fəthi .....................................................................................247
Muta məsələsi .....................................................................................251
Ümrətül-Qəza (Zülqədə 7/ Mart 629) ................................................253

İPƏKYOLU NƏŞRİYYATI

**HİCRƏTİN SƏKKİZİNCİ İLİ....................................................255**
Bir Ovuc Səhabənin yazdığı dastan: Mutə müharibəsi ......................255
Xalid bin Vəlidin komandirlik bacarığı .............................................257
Haqq gəldi batil yıxıldı: Məkkənin fəthi ............................................259
Əfv bayramı ........................................................................................266
Məkkəlilərin beyəti .............................................................................269
Əmanəti əhlinə verin! .........................................................................270
Bənzəri olmayan bir vəfa ....................................................................271
Hüneyn müharibəsi .............................................................................272
Evtas müharibəsi .................................................................................275
Taifin mühasirəsi ................................................................................275
Qənimətlərin bölünməsi ......................................................................276
Bir müsəlmanı öldürməyin cəzası.......................................................282

**HİCRƏTİN DOQQUZUNCU İLİ.................................................285**
Dil qılıncı ............................................................................................285
Böyük bir iman imtahanı: Təbük səfəri ..............................................289
İnfaq səfərbərliyi .................................................................................293
Səatül-Usrə: Çətinlik zamanı ..............................................................296
Təbük şəhidi ........................................................................................298
Münafiqlərin xəyanətləri və Məscidi-Dirar ......................................299
Kiçik cihaddan böyük cihada ..............................................................300
Tövbələri qəbul edilməyən üç səhabə .................................................301
İbadətsiz dində xeyir yoxdur ...............................................................304
Təbük səfərindən sonra baş verən hadisələr ........................................305
Elçilər ili ..............................................................................................305
Həcc vəzifəsi .......................................................................................307

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

**HİCRƏTİN ONUNCU İLİ...............................................................309**
Varlıq nurunun ilk və son həcci: VİDA HƏCCİ ................................309
Bu gün dininizi tamamladım...........................................................313

**HİCRƏTİN ON BİRİNCİ İLİ ..........................................................315**
Vüsal və Böyük Vida: UCA DOSTA ÜLVİ YOLÇULUQ ...............315

**ƏN GÖZƏL ÖRNƏK ........................................................................326**

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

# ÖN SÖZ

Nəbilər silsiləsinin ilk və son halqası, seyyidül-kövneyn (iki cahan ulusu), rəsulus-səkaleyn (iki məxluqun: insanların və cinlərin rəsulu), imamul-harameyn (iki müqəddəs şəhərin: Məkkə və Mədinənin imamı), varlıq nuru, aləmlərə rəhmət

HZ. MƏHƏMMƏD MUSTAFA (s.ə.s)

Bütün məxluqatın var olmasının səbəbi Məhəmmədin nuru olduğu üçün Hz. Peyğəmbəri (s.ə.s) və Onun "Həbibim" ilahi xitabına nail və layiq olacaq səviyyədə yaşadığı müstəsna, dəyərli həyatını bu aciz sətirlər çərçivəsində haqqı ilə ifadə etmək, əslində, mümkün deyil. Amma Onun düzgün başa düşülməsi və anladılması üçün hər kəsin gücü çatdığı qədər yol qət etməsinin, iş görməsinin saysız-hesabsız faydaları var. Bax, bunu nəzərə alaraq yaza bildiklərimizlə Hz. Peyğəmbərin (s.ə.s) nümunəvi şəxsiyyətindən mümkün olduğu səviyyədə cüzi də olsa pay almaq, faydalanmaq, Onun əxlaqı ilə əxlaqlanmaq bizim üçün ən böyük şərəfdir. Yoxsa, Onu layiqli şəkildə anlaya və anlada bilmək iddiasından çox uzağıq. Bir lampa keçə ilə örtülüb sonra iynə ilə deşilsə, həmin deşikdən işıq şüaları ox kimi çölə süzülər, bizim sözlərimiz də Allahın Elçisinin (s.ə.s) möhtəşəm həqiqəti qarşısında bu tərzdə qəbul olunmalıdır. Çünki kainatın uca Yaradıcısının:

**"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat deyirlər** (xeyir-dua verirlər). **Ey iman gətirənlər! Siz də ona salavat deyib layiqincə salamlayın!"** (əl-Əhzab, 56) buyuraraq saysız-hesabsız mələkləri ilə birgə **"səlatu-səlam"** gətirdiyi və لعمرك **"Canına and olsun ki..."** (əl-Hicr, 72) buyuraraq dəyərini, şanını ucaltdığı bu peyğəmbərlər sultanının kamalının fəzilətlərini layiqli şəkildə dərk etmək və qavramaq kəlmələrin, sözlərin məhdud imkanları çərçivəsində əsla mümkün deyil.

Divan ədəbiyyatının böyük şairlərindən olan Şeyx Qalibin Hz. Peyğəmbərə (s.ə.s) qarşı hörmət və məhəbbətini dilə gətirdiyi duyğulu bir nəti, həqiqəti necə də gözəl ifadə edir:

*"Sən Peyğəmbərlərin sultanı, şanı uca bir padşahsan, Peyğəmbərim! Çarəsizlərə əbədi dövlət* (və dərdlərinə dəvasan)*, Peyğəmbərim! İlahi*

İPƏKYOLU NƏŞRİYYATI

*divanda* (məhşərin dəhşətli günlərində ümmətinin) *başında, lap önündə olan* (mehriban himayədarsan)*, Peyğəmbərim! (Uca Allahın) "Sənin Ömrünə and olsun!" - deyərək and içdiyi ilahi andla təsdiqlənmiş və dəstəklənmiş* (uca bir elçisən), *Peyğəmbərim!..*

Sən Hz. Əhməd, Mahmud, Məhəmmədsən, Peyğəmbərim! Uca Allahın bizə lütf etdiyi, ilahi dəstəyə, köməyə nail və layiq olmuş bir sultansan, Peyğəmbərim..."

Hz. Peyğəmbərin (s.ə.s) Haqq dərgahında dəyəri o qədər yüksəkdir ki, uca Allah Həbibinə (Hz. Peyğəmbərə) itaəti özünə itaət saymış, Ona qarşı ən kiçik hörmətsizliyi əməllərin boşa çıxmasına səbəb hesab etmiş, Ona təzim və itaət etməyi ürəklərin təqva imtahanına çevirmişdir. Elçisinə layiq olmadığı şəkildə müraciət etməyi cəhalətin böyük bir əlaməti, nümunəsi saymışdır. Rəsulullaha (s.ə.s) çoxlu səlatu-salam gətirərək Onu heç vaxt ürəyimizdən, yaddaşımızdan çıxartmamağımızın zəruriliyini bəyan etmişdir. Hətta namaz qılarkən hər "ət-təhiyyatu"da Rəsulullaha (s.ə.s) "əs-səlamu əleykə əyyühən-nəbiyyu və rəhmətullahi və bərəkətuh" deyərək salam verməyimizi istəmişdir. Namaz qılarkən kiməsə salam vermək namazı pozan bir hərəkət olduğu halda uca Allah Rəsuluna salam verməyi namazın vacib rüknlərindən biri etmişdir.

İmam Qəzali həzrətləri belə deyir: "Namazın təşəhhüdündə Peyğəmbərimizin surətini və kərim (böyük) şəxsiyyətini qəlbində canlandır! *"Əs-səlamu əleykə əyyühən-nəbiyyu və rəhmətullahi və bərəkətuh" de! Əmin ol ki, sənin salamın Allah Rəsuluna çatacaq və O, sənə daha gözəl cavabla hay verəcək"* ("Ehyayi Ulumiddin", I).

Xalid Bağdadi həzrətləri də "Məktubat"ının dördüncü məktubunda Allamə Şihab İbni Həcər əl-Məkkidən bunları nəql edir: "Namazda oxunan **"ət-təhiyyatu"**nun **"əs-səlamu əleykə"** cümləsində Peyğəmbərimizə müraciət edilir. Sanki bu, uca Allahın namaz qılan ümmətindən Peyğəmbərimizi xəbərdar etməsinə işarədir ki, bu şəkildə Peyğəmbərimiz (s.ə.s) namaz qılanların yanında hazır olub qiyamət günündə onların xeyrinə ən fəzilətli əməlləri ilə şahidlik edəcəkdir. Həmçinin Onun mənən hazır olmasının xatırlanması (insanın) ürəyində Allaha qorxu və sevgi ilə boyun əymək hissinin, təvazökarlıq duyğusunun artmasına səbəb olur.

Bu dərəcədə dəyəri uca, yüksək olan Aləmlərin Sərvərini (s.ə.s) haqqı ilə dərk edib anlada bilməyin çətin olduğu açıq-aydın bir həqiqətdir. Biz

İPƏKYOLU NƏŞRİYYATI

də əsl həqiqəti sükutun sonsuzluğu ilə açıla bilən bu mövzudakı sözlərimizi yalnız Onun mübarək adının çəkilməsi, xatırlanması ilə qiymətləndirmək niyyətinin və səyinin şərəfini umuruq. Buna görə də dəyərli oxucularımızdan sözlərimizi bu aciz etirafımız çərçivəsində qiymətləndirmələrini xahiş edirik.

Əlbəttə, Onun layiqli şəkildə dərk edilməsində olduğu kimi, haqqı ilə təsvir və ifadə edilməsində də dillər mütləq mənada acizdir. Peyğəmbərimiz (s.ə.s) Ona bəslənilən sevgi və hörmət hissinin gücü və səmimiyyəti nisbətində nufuz edilə bilən sonsuz bir nur və sirlər aləmidir. Onun mübarək hal və davranışlarını dərk etmək məqsədi və səyi ilə söyləyəcəyimiz fikirlər, sözlər üçün kərəm sahibi olan Allahın lütf və yardımını niyaz edirik. Sələfi-salihin "Rəbbim! Sən ancaq itaətkar qullarını əfv edəcəksən, günahkarlar kimə gedib sığınacaq? Rəbbim! Sən yalnız təqva sahibi qullarına rəhmət və mərhəmət edəcəksən, mücrimlər kimdən kömək istəsinlər?" - deyə dua və niyaz edirmişlər. Biz də kainatın əbədi fəxri Hz.Məhəmməd Mustafanın (s.ə.s) mübarək həyatını sözlərin məhdud imkanları daxilində ifadə etməyə cürət edərkən acizliyimizdən qaynaqlanan ədəb və nəzakət məsələsində səhvən ortaya çıxan qüsurlarımıza görə Rəbbimizin bağışlama və əfv dəryasına, Onun böyüklüyünə sığınırıq.

Ya Rəbb! Kainatın fəxri olan Hz. Məhəmməd Mustafanın (s.ə.s) üzünün suyu xatirinə, hörmətinə bizi əfv et, bağışla!

Amin!

*Heyət*

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

# GİRİŞ

**İslamın başa düşülməsində və yaşanmasında**

**siyəri-nəbinin (peyğəmbərin həyatının) əhəmiyyəti.**

Biz bir insan kimi həyatda hər cür ifratçılıq, müsibət və sürprizlər qarşısında özümüzü fitnə-fəsadlardan qorumaq üçün şükür, təvazökarlıq, təvəkkül, qəzavü-qədərə inanmaq, bəlalara səbr etmək, şücaət, fədakarlıq, qənaət, ürək təmizliyi, səxavət, başqalarını düşünmək kimi yüksək əxlaqi keyfiyyətlərə malik olmaqla yanaşı, həm də baş verən hadisələrin və fırtınların önündə müvazinətimizi itirməmək məcburiyyətindəyik. Uca Allahın bütün bu sahələrdə mükəmməl bir nümunə kimi bəşəriyyətə ərmağan etdiyi, zərif, incə, təmiz və örnək həyatı olan ən böyük, kamil rəhbər Hz.Peyğəmbərdir. Uca Allah Hz. Peyğəmbəri (s.ə.s) cəmiyyətdə acizlik və imkansızlıq baxımından ən aşağı mərtəbə sayılan "yetimlik"dən başlayaraq həyatın bütün mərhələlərindən keçirib, qüdrət və səlahiyyət cəhətdən ən üst nöqtəyə, yəni peyğəmbərlik və dövlət rəhbərliyinə qədər yüksəltmişdir. Peyğəmbərimizin (s.ə.s) həyatının hər bir dövrü insan həyatının müxtəlif mərhələləri üçün ideal davranış örnəkləri ilə zəngindir. Buna görə də Onun ömrü - həyatının hansı mərhələsi olursa-olsun - bütün insanlar üçün öz gücləri və istedaları səviyyəsində təqlid etmələri baxımından konkret və mükəmməl örnək təşkil edir. Yəni hansı səviyyədə olmasından asalı olmayaraq bütün insanların İslamı başa düşməsi üçün bu din praktiki şəkildə Allah Rəsulunun (s.ə.s) həyatında öz əksini tapmışdır. Uca Allahın bu sonsuz kəraminə, lütfünə uyğun olaraq bizim üzərimizə düşən vəzifə dindar və sevgi dolu bir ürəklə aləmlərin əbədi fəxrinin mübarək və incə həyatını, yəni siyəri-nəbini ən gözəl şəkildə öyrənməyə, yaşamağa və öyrətməyə səy göstərməkdir. Bunu da qeyd etməliyik ki, Hz. Peyğəmbərin (s.ə.s) bizə yeganə rəhbər və örnək olduğunu bildiyimiz qədər Onu necə və hansı səviyyədə örnək götürəcəyimizi bilməyimiz də son dərəcə önəmli və zəruridir. Çünki Onun hal və hərəkətləri iki kateqoriyaya bölünür:

1. Yalnız özü ilə bağlı olan davranışlar.

Məsələn, nadir hallarda deyil, daimi şəkildə ayaqları şişənə qədər gecələri namazla keçirməsi, iftar etmədən oruc (savmi-visal) tutması, Uhud dağı qədər qızılı olsa - borcu üçün ayırdığı istisna olmaqla - hamısını ehtiyacı olanlara paylaması, miras qoymaması, özü və ailəsi üçün zəkat və sə-

İPƏKYOLU NƏŞRİYYATI

dəqə almağı qiyamətə qədər qadağan etməsi kimi hərəkətləri bu qrupa daxildir. Hz. Peyğəmbər bu məsələ ilə bağlı *"Mən də sizin kimi bir bəşərəm (insanam)..."* (Buxari, "Səlat, 31", "Əhkam", 20) buyurmasına baxmayaraq, yeri gələndə *"Mən hər hansı biriniz kimi deyiləm, Allah Məni yedizdirir, içizdirir..."* buyurmuşdur (Buxari, "Savm", 49; "İtisam, 5"; Müslüm, "Siyam," 57-61).

Möminlərin bu sahədə Hz. Peyğəmbəri təqlid etməyə gücləri çatmaz, Onun maddi və mənəvi baxımdan hərəkətlərini təkrarlaya bilməzlər. Peyğəmbərlərin davranışları onların ümmətləri üçün örnək təşkil edir, ancaq bu qrupa daxil olan hərəkətlər və xüsusiyyətlər yalnız Hz. Peyğəmbərə aid olduğu üçün ümmətinə şamil edilmir.

2. Hər kəsə şamil edilən davranışları.

Birinci qrupa daxil olan məsələlərdə, yəni yalnız Hz.Peyğəmbərin özünə aid edilən ülvi fəzilətlərlə dolu hərəkətlərdə Onu örnək götürməyə mükəlləf deyilik. Onsuz da belə yüksək, qeyri-adi davranışları təkrarlamaq necə deyərlər, insanların imkanı xaricindədir, onlara əməl etməyə heç kimin gücü çatmaz. Ancaq Hz. Peyğəmbərin ikinci qrupa daxil olan davranış və sözlərini istedadımız və gücümüz nisbətində ömrümüz boyu təqlid etməyə və təkrarlamağa, Onun nurlu yolu ilə addımlamağa mükəlləfik və buna görə məsuliyyət daşıyırıq. Deməli, Hz. Peyğəmbər ictimai təbəqələşmənin hansı mərhələsində olmasından asılı olmayaraq, bütün insanlar üçün - insanın lazım gəldikdə və öz iradəsi ilə etdiyi hərəkətlər və əməllər baxımından - ideal bir örnəkdir. Bu məsələdə də bəzi davranışların sünnət, bəzi davranışların isə icazəli olduğuna diqqət göstərmək lazımdır. Bu məqamı kamil mənası ilə qəbul etməkdə çox böyük həssaslıq göstərən millətimiz hər bir fərdinə "Mehmetçik" adı verərək hər kəsin öz gücü və istedadı nisbətində Hz. Peyğəmbərin kiçik bir "modeli" olmasını arzulamışdır. Digər tərəfdən, Hz. Peyğəmbərin həyatı Qurani-Kərimi anlayıb məqsəd və məramını qavramaq və onun ruhuna bələd olmaq baxımından da böyük əhəmiyyət kəsb edir. Çünki Qurani-Kərimdə:

**"Onu (Quranı) Cəbrail (Ruhul-əmin) endirdi. (Günahkarları Allahın əzabı ilə) qorxudan (xəbərdar edən) olasan deyə, Sənin qəlbinə (nazil etdi). Özü də açıq-aydın ərəb dilində"** (əş-Şuara, 193-195) buyurmuş və Qurani-Kərim Hz. Peyğəmbərin 23 illik peyğəmbərlik həyatı ilə praktiki baxımdan mükəmməl bir şəkildə təfsir edilmişdir. Buna görə də, hər bir müsəlmanın Hz.Peyğəmbərin hədisi-şəriflərini və həyatını gözəl bir şəkildə öyrənmədən Qurani-Kərimi layiq olduğu səviyyədə anlaya

bilməsi mümkün deyil. (5) Həmçinin bir müsəlmanın İslam mədəniyyətini düzgün şəkildə bilməsi kainatın fəxri olan Peyğəmbərimizin (s.ə.s) 23 illik peyğəmbərlik həyatından ilham alaraq yaşayıb bunun nəticəsində duyğu aləminə qərq olmasından və qəlbinin kamala çatmasından asılıdır. Könül aləmi Allah Rəsulundan gələn feyzlə, yəni müsbət enerji ilə dolaraq kamala çata bilər. Çünki İslamın prinsip və hökmlərinin ən incə təfərrüatlarına qədər nümayiş etdirildiyi yeganə canlı tablo varlıq nuru Peyğəmbərimizin (s.ə.s) incə həyatıdır. İnsanları İslamın xoşbəxtlik və səadət dolu həyat nizamına dəvət edən təbliğatçı və müəllimlərin də ağılla qəlbin vəhdət təşkil etdiyi şəkildə tədris olunan siyər elmindən uzaq qalmaları əsla düşünülə bilməz. Çünki Rəsulullah (s.ə.s) təlim-tərbiyə, təhsil və təbliğ baxımından da ən real və mükəmməl örnəkdir. Mətin, doğru, düzgün və etibarlı olmaq istəyən bir gəncə, Allaha dəvəti özünə yol seçib, hikmət və gözəl öyüdlə təbliğat aparan təbliğatçıya, ölkəsini ədalət və fəzilətlə idarə etmək istəyən dövlət rəhbərinə, gözəl davranışları olan nümunəvi ailə başçısına, övladlarına və xanımına qarşı şəfqət və mərhəmət hissini unutmayan ataya, hərbi və idarəçiliyi yaxşı bilən qabiliyyətli bir komandana, qısacası, yaşından, sosial mənsubiyyətindən və səviyyəsindən asılı olmayaraq hər bir müsəlman üçün ən gözəl və heyratamiz meyarlara siyəri-nəbidə rast gəlmək mümkündür. Bu baxımdan İslamın bütün cəhətlərini anlayıb həyatımıza tətbiq etmək üçün Hz. Peyğəmbərin həyatını gözəl bir şəkildə öyrənmək zəruridir.

Şübhəsiz, Allah Elçisinin (s.ə.s) şəxsiyyətini layiqli şəkildə öyrənmək, öyrətmək və yaşamaq insanlığa mükəmməl və ideal bir həyat nümunəsi bəxş edəcək.

### İslamın meydana çıxmasında Ərəbistanın beşik (məskən) seçilməsinin hikməti

İslamın meydana çıxmasında Ərəbistan yarmadasının beşik, yəni doğuluş məkanı seçilməsinin hikmətini anlamaq üçün hər şeydən əvvəl ərəblərin İslamdan öncəki vəziyyətini, xüsusiyyətini, yaşadıqları bölgənin siyasi və ictimai cəhətlərini bilmək lazımdır. O dövrün iki nəhəng dövləti olan Bizans və İran ərəblərin qonşusu idi. Bizans hakim olduğu müstəmləkələrində meydana çıxan dini qarşıdurmalara görə problemlərlə üzləşmişdi. Dövlət rəhbərləri xristianlığı öz məqsədlərinə alət edərək oyuncaq

vəziyyətə salmışdılar. Konsullar istədikləri kitabı müqəddəs elan edir, istəmədiklərini qüvvədən salır, dinin prinsiplərini öz arzularına görə müəyyənləşdirirdilər. Taxta çıxan hökmdar özündən öncəkini rədd edir, istədiyi şəkildə dinin əsaslarını dəyişdirirdi. Hökmdarın əhalidən aldığı vergilərin həddindən artıq çox olması və bütün dövlət strukturlarında dərin kök salmış rüşvətxorluq nəticəsində zəifləmə və əxlaqi tənəzzül Bizansı daxildən didib parçalayır və onu məhvə sürükləyirdi.

İranda həm siyasi, həm də əxlaqi baxımdan böyük xaos hökm sürürdü. Bu ölkədə kişinin öz anası, hətta, bacısı ilə evlənməsinə icazə verən, insanlıq xüsusiyyətini itirmiş bir həyat anlayışı hakim idi. Xeyli sayda batil və azğın fikri özündə ehtva edən Məzdəkilik hava, od və sudan müştərək istifadə edildiyini, bu cür ortaqlığın hər şeyə şamil olmasının zəruriliyini söyləyərək bütün qadınları halal və bütün var-dövləti ortaq elan etmişdi. Yunan mədəniyyəti yanlış çərçivədə aparılan fəlsəfi mübahisələr və cahillik girdabında boğulurdu, hind mədəniyyəti də əxlaqi və ictimai baxımdan ən ibtidai dövrünü yaşayırdı.

Ərəblər isə bütün bu fitnə-fəsadlardan uzaq, ətrafı səhralarla əhatələnmiş, hərbi müdaxilələrdən, mədəni və mənvi istilalardan kənarda qalan ərazidə sakit və təhlükəsiz yaşayırdılar. Onlar heç vaxt əsarət zillətini dadmamışdılar. Ərəblərin təbiəti və xarakterləri o vaxtacan heç bir dəyişikliyə məruz qalmamış xam maddə kimi idi. Fitrətlərindəki təmizliyi tamamilə itirməmişdilər. Həmçinin namus, sözünün üstündə durmaq, səxavət, vəfa, sədaqət, səbir və mərdlik kimi mədh edilməyə laiq keyfiyyətlərə malik idilər. Ancaq bu keyfiyyətlər fitrətdən gəlmə ilkin xüsusiyyətlərini itirmişdi. Ona görə də ərəblər onlara həqiqəti göstərəcək rəhbərdən məhrum bir halda, cəhalət qaranlığı içərisində yaşayırdılar. Bax, bu cəhalət və nəfsə ram olmaq xüsusiyyəti son nəticədə ərəblərin fitrətində olan bütün gözəl kefiyyətləri öz məcrasından yayındırırdı. Namus və şərəflərini qorumaq adı altında kiçik qız uşaqlarını analarının ürəklərinə dağ çəkərək diri-diri torpağa basdırmaq zillətinə düşür, səxavətli olduqlarına kölgə salmamaq üçün zəruri mallarını tələf edərək səfalətə sürəklənir, igidlik və mərdlik hissinin təhriki ilə öz aralarında uzun illər davam edən qanlı müharibələr aparırdılar. İslamın meydana çıxması ilə cəhalətin əxlaqi xüsusiyyətləri böyük dəyişikliyə uğrayaraq layiq olduğu mahiyyəti qazanmış və əxlaqi keyfiyyətlər ən yüksək səviyyəyə çatmışdır. Yəni Hz. Məhəmmədə (s.ə.s) peyğəmbərlik verilməsi ilə köhnə əxlaq anlayışı bütün zərərli xüsusiyyətlərdən təmizlənmiş və mədəni, mükəmməl bir vəziyyətə düşmüşdür.

İslamın meydana çıxması üçün Ərəbistanın seçilməsinin digər bir hikməti də Peyğəmbərimizin (s.ə.s) risaləti və peyğəmbərliyi barədə heç kimin qəlbinə şübhə düşməməsini təmin etməklə bağlıdır. Ərəblər oxumağı, yazmağı bilməyən, savadsız bir xalq idi. Buna görə də, qonşu xalqların tükənmiş və fəsadlarla üzləşmiş mədəniyyət və fəlsəfələrinin təsirinə məruz qalmamışdılar. Allah Elçisi (s.ə.s) savadsız olmasaydı, qonşu dövlət və mədəniyyətlərin tarixinə, maddi və mənəvi dəyərlərinə, qədim səmavi kitablara bələd olan bir şəxs kimi risalət vəzifəsi ilə insanların hüzuruna çıxsaydı, əlbəttə, insanların Onun gətirdiklərini ilahi vəhy olaraq qəbul etməsi bu qədər asan olmazdı. İslam eyni şəkildə Yunan, Bizans, ya da İran kimi mədəniyyətdə və fəlsəfədə müəyyən qədər yol qət etmiş bir ölkədə ortaya çıxsaydı, insanların bu dinin ümdə prinsiplərini və əsaslarını qəbul etməkdə çətinlik çəkəcəkləri şübhəsiz idi. Çünki belə olan halda İslamın prinsiplərinin ilahi əsaslı olması çox güman ki, qəbul edilməyərək adı çəkilən ölkələrin və xalqların mədəniyyətlərindən törəməsi iddiası ortaya atılacaqdı. Bu baxımdan İslamın ilahi qaynaqlı olmaması fikrinin ortaya çıxmaması üçün Peyğəmbərimiz (s.ə.s) savadsız bir cəmiyyətə savadsız bir Peyğəmbər kimi göndərilmişdir.

Ərəbistan yarmadası Asiya, Afrika və Avropa qitələrinin birləşdiyi bir yerdə və müxtəlif ölkələri birləşdirən qovşaq bir ərazidə yerləşdiyi üçün bura İslamın yayılması baxımdan coğrafi bir üstünlüyə malikdir. Bu baxımdan adı çəkilən amil də nəzərdən qaçırılmamalıdır.

İslamın meydana çıxmasında beşik rolunu oynayan Məkkə Qurani-Kərimdə "əkinçiliyin olmadığı bir vadi" kimi tanıdılır. Buna görə də, həmin şəhərin sakinləri yalnız ticarətlə məşğul olmuşlar. Adətən, əkinçiliklə, ümumiyyətlə, kənd təsərrüfatı ilə məşğul olan insanlar əsasən torpağa bağlı, o qədər də uzaq yerlərə getməyə adət etməmiş şəxslər olurlar. Eyni qaydada sənətkarlar da öz peşələrinə uyğun olaraq uzaq yerlərə getmirlər. Ancaq ticarətlə məşğul olan insanların uzun səyahətlərin əziyyətinə qatlanmaq, məmləkətlərindən uzaq yerlərə getmək və müxtəlif insanlarla münasibət qurmaq imkanları olur. İslamın təbliği naminə fəthlər həyata keçirmək üçün daim hərəkətdə, yəni səyahət və səfərlərdə olan insanlara ehtiyac var idi. İslamın yayılması baxımından bu keyfiyyətələrə malik olan Məkkə əhalisinin seçilməsi təsadüf sayıla bilməz.

İlahi iradə İslam dəvətinin dili, Allah kəlamının izahı və təbliğ vasitəsi olma şərəfini ərəb dilinə bəxş etmişdir. Bütün xalqların dilləri arasında

bir müqayisə aparsaq, ərəb dilinin ahəng, sözün quruluşu və yaranması, fellərin formalaşması və tələffüz kimi bir çox xüsusiyyətlər baxımından digər dillərdən üstün olduğunu görəcəyik. Ərəb dili ən incə məqamı belə sərrast sözlərlə ifadə etməyə imkan verən bir dildir. Lüğət tərkibi baxımından zəngin olduğu üçün bu dil hər cür fikri təqdirəlayiq şəkildə və incəliklə ifadə etmək xüsusiyyətinə malikdir. On beş əsrdir ki, qaydalarında heç bir dəyişiklik olmaması ərəb dilinin hələ o dövrdən sabit dil olduğunu və təkamülünün başa çatdığını göstərir. Bu xüsusiyyətlərinə görə o dövrdə yer kürəsində mövcud dillər arasında yalnız ərəb dili ilahi iradəni ifadə edəcək genişliyə və möhkəmliyə malik idi.

Ərəbistan yarmadası təkcə İslamın yox, bir neçə haqq dinin meydana çıxdığı bərəkətli bir məkandır. Peyğəmbərimizin (s.ə.s) atası Hz. İbrahim əleyhissalam burada yaşamış və Kəbəni tikmişdir. Məkkəlilər də bunu bildikləri üçün özlərini Hz. İbrahimin və Hz. İsmayılın mənəvi varisləri kimi qəbul edirdilər. Bir sözlə, İslamın belə bir məkanda meydana çıxması onun qəbul edilməsini və başa düşülməsini asanlaşdırmışdır. Yaşı bəşəriyyətin tarixi ilə ölçülən və dini mərkəz olan Kəbənin burada yerləşməsi də ən mühüm səbəblərdəndir. Bütün bunlardan əlavə bilmədiyimiz başqa hikmətlərin də olması həqiqətdir. İlahi iradənin səbəbini bir qrup hikmətlə izah etmək və bununla məhdudlaşdırmaq doğru deyil. Ona görə də bu məsələ ilə bağlı sözlərimizi "Allah nə istədiyini ən yaxşı biləndir", deyərək bitiririk.

### Ümmül-Kura: Məkkə

Qurani-Kərimdə Məkkə əvəzinə "Ümmül-Kura", "Bəkkə" və "əl-Bələdül-əmin" (təhlükəsiz şəhər) adlarından da istifadə olunmuşdur. Bunlar Məkkəyə verilən adlardır. Məkkə və Bəkkə Babil dilində "beyt - ev" mənasında olub amalikalılar tərəfindən bu yerə verilən addır.

Məkkə cənubda Yəmən, Şimalda Aralıq dənizi, şərqdə Bəsrə körfəzi və qərbdə Qırmızı dənizlə (Ciddə limanı buradadır) qonşu olub Afrika istiqamətində gedən yolların kəsişmə nöqtəsində, iqtisadi cəhətdən çox əlverişli bir ərazidə yerləşir.

Məkkə ərazisi əkinçilik üçün əlverişli olmadığı üçün orada yaşayan əhali dolanışığını ticarətlə təmin edirdi. Buna görə də, Məkkənin Ərəbis-

tan yarmadasında həm dini, həm də ticarət baxımından çox önəmli yeri var idi və mərkəz funksiyasını yerinə yetirirdi. Məkkədə ticarət işləri qış-yay fasiləsiz davam edirdi. Ticarət məqsədilə yayda Suriyaya, qışda isə Yəmənə səfərlər təşkil olunurdu. Karvanlarda mallar dəvələrlə daşınır, bəzən dəvələrin sayı iki minə çatırdı. Bu ticarət karvanları məkkəlilər üçün o qədər əhəmiyyətli idi ki, uca Allah qureyşliləri imana və ibadətə dəvət edərkən onlara lütf etdiyi bu müstəsna neməti xatırlatmışdır:

"(Ya Peyğəmbər! Qureyşlilərə de ki,) **Qureyşin ülfəti** (dostluğu və ya Allahın onlar üçün səfəri asanlaşdırması) **xatirinə, Onlara qış və yay səfərinin müyəssər edilməsi** (qışda Yəməndə, yayda Şamda istirahət və ticarət edə bilmələri) **xatirinə, bu evin Rəbbinə** (Kəbənin sahibi Allaha) **ibadət etsinlər! O Allah ki, onları aclıqdan qurtarıb yemək verdi və onlara qorxudan** (fil sahiblərinin təhlükəsindən) **sonra əmin-amanlıq bəxş etdi"**. (Qureyş, 1-4).

Siyasi hakimiyyətdən məhrum olan və qarışıqlığın hökm sürdüyü Ərəbistan yarmadasında bu cür iqtisadi fəaliyyətlə təhlükəsiz şəkildə məşğul olmağın xeyli çətin olmasına baxmayaraq, müqəddəs (toxunulmaz, haram; zilqadə, zilhiccə, məhərrəm, rəcəb) aylarda təhlükəsizlik tam təmin edilirdi.

Məkkə ətrafında Ukaz, Məcənnə və Zül-Məcaz adlı bazar-yarmarkalar qurulurdu. Cəhalət dövründə də ibadət sayılan həcc zamanı qurulan bu yarmarkalarda həddindən artıq çox adam olurdu. Nəticədə bütün bunlar vasitəsi ilə ticarət işlərinin bərəkəti atrır və məkkəli tacirlər bol qazanc əldə edirdilər.

Məkkənin coğrafi mövqeyi lap qədim dövrlərdən bəri qonşu dövlətlərin diqqətini çəkirdi. Beytullah Məkkədə yerləşdiyi üçün də buranın böyük əhəmiyyəti var idi. Məkkə bir çox təşəbbüslərə baxmayaraq, qonşu dövlətlər tərəfindən işğal olunmamış və tarix boyunca müstəqilliyini qorumuşdur. Bizanslılar da bu şəhəri nüfuz dairələrinə salmağa çalışmışlar, amma istəklərinə nail ola bilməmişlər.

İPƏKYOLU NƏŞRİYYATI

### Kəbənin tarixi və müqəddəs olması

Lüğətdə "küp şəkilində olan şey" mənasına gələn Kəbənin Qurani-Kərimdə iki yerdə adı çəkilir. Ayələrdə "Beyt, Beytullah, əl-Beytül-atik, əl-Beytül-həram, əl-Beytül-muharram, əl-Məscidül-həram" kimi müxtəlif

adlarla xatırlanan Kəbəyə xalq arasında əksər vaxtlarda "Kəbeyi-Muazzama" deyilir.

Hz. Adəm yer üzünə göndərildikdə ona Məkkədə, Beytullahın olduğu yerdə bir məbəd tikmək vəzifəsi tapşırıldı.

Uca Allah belə buyurur:

**"Həqiqətən, insanlar üçün ilk bina olunan ev** (məbəd) **Bəkkədəki evdir** (Kəbədir)..." (Ali-İmran, 96).

Hz. Məhəmməd də Əbu Zərrin (r.a) bir sualına cavabında yer üzündə tikilən ilk məscidin "Məscidi-həram", ikinci məscidin "Məscidi-Əksa" olduğunu bildirmişdir. Göründüyü kimi, Məkkə vadisi ilk insanla birliklə seçilib müqəddəs bölgəyə çevrilmişdir.

Kəbə Nuh tufanından sonra uzun müddət qum altında qaldı. Hz.İbrahim neçə illər sonra xanımını və oğlunu qoyub getdiyi Məkkəyə gəldikdə Hz. İsmayıla:

"- Rəbbimin əmri var. Bir (beyt) ev tikəcəyik. Sən də mənə kömək edəcəksən", - dedi. Hz. İsmayıl daş daşıdı, Hz. İbrahim də beytin divarlarını hördü. "Məqamı-İbrahim" kimi tanınan və üstündə İbrahimin - əleyhissalam - ayaq izi olan mərmər də Kəbə divarları tikilərkən bir növ lift (pilləkən) funksiyasını yerinə yetirdi.

Ayədə buyrulur:

**"Onu da yadına sal ki, İbrahim və İsmayıl evin** (Kəbənin) **bünövrəsini ucaltdıqları zaman "Ey Rəbbimiz!** (Bu xeyirli işi) **bizdən qəbul et, Sən, doğrudan da** (hər şeyi) **eşidənsən, bilənsən!"** (əl-Bəqərə, 127).

Kəbənin inşası başa çatdıqda Hz. İbrahim və Hz. İsmayıl Allaha belə dua etdilər:

**"Ey Rəbbimiz! Bizim hər ikimizi Sənə itaətkar** (müsəlman), **nəslimizdən yetişənləri Sənə təslim olan ümmət** (müsəlman) **et, bizə** (həcc) **əməllərimizi** (ibadət qaydalarımızı) **göstər, tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən! Ey Rəbbimiz! Onların** (nəslimizin) **içərisindən özlərinə elə bir peyğəmbər göndər ki, Sənin ayələrini** (hökmlərini) **onlara oxusun,** (Sən göndərən) **Kitabı** (Quranı) **və** (oradakı) **hikməti onlara öyrətsin, onları** (günahlardan) **təmizləsin. Həqiqətən, Sən yenilməz qüvvət, hikmət sahibisən"** (əl-Bəqərə, 128-129).

Kəbənin tikintisi başa çatdıqdan sonra uca Allah Hz. İbrahimə bütün insanları həccə dəvət etməsini əmr etdi:

**"İnsanları həccə çağır ki, onlar sənin yanına** (istər) **piyada,** (istərsə də) **hər uzaq yoldan yollanan hər cür arıq** (yorğun-arğın) **dəvələr üstündə** (süvari olaraq) **gəlsinlər"** (əl-Həcc, 27).

Bu ilahi təlimata uyğun olaraq Hz. İbrahim Əbu Kubeys dağına qalxaraq və ya Məqami-İbrahimin üstünə çıxaraq dörd bir yana səsləndi və Allahın insanların Kəbəyə həccə gəlməsini fərz qıldığını bildirdi.

Hz. İbrahim bu elanı insanlara çatdırdıqdan sonra Cəbrail - əleyhissalam - gələrək ona Səfa ilə Mərvəni və Harəmi-Şərifin sərhədlərini göstərdi, sərhəddin nişanəsi kimi hər tərəfə bir daş qoymasını söylədi. Daha sonra həccin bütün fərzlərini öyrətdi.

Bundan sonra yaxın və uzaq bölgələrdən gələn zəvvarlar Hicaza gələrək Beytullahı ziyarət etməyə başladılar. Kəbə mühüm dini mərkəzə çevrilərək bütün insanların sevgi-məhəbbətini qazandı.

Digər tərəfdən, böyük dəyərə və müqqədəs xüsusiyyətə malik olan Kəbə onun xainliyini çəkən bir çox müşrik qövmün hücumlarına məruz qaldı. Yəmən hökmdarı Əbrəhənin mənfur təcavüzündən əvvəlki əsrlərdə bütpərəst Yəmən hökmdarlarından üçü Kəbəni dağıtmaq istəmişdi. Bu təcavüzlərdən birində hüzeyloğullarından bəzi şəxslər Yəmən hökmdarını Kəbəni uçurub oradakı xəzinəni götürməsi üçün qızışdırdılar. Onlar hökmdarını belə bir mənfur hərəkətə sövq etməklə ondan canlarını qurtarmaq istəyirdilər. Çünki hüzeyloğulları Kəbənin müqəddəs olduğuna inanırdılar və tarixi təcrübələrinə istinadən ona qarşı mənfur addım atan hər bir şəxsin mütləq məhvə düçar olacağını çox yaxşı bilirdilər.

Kəbəni dağıtmaq üçün yola çıxan Yəmən hökmdarı və camaatı yolda quma batıb qaldıqda hökmdar tabeçiliyində olan alimlərin xəbərdarlığı və irşadı ilə Kəbəyə qarşı bəslədiyi pis niyyətindən əl çəkdi. Beytullaha təzim edib Məkkə xalqına bəxşiş verəcəyinə söz verdi və beləcə həlak olmaqdan qurtuldu.

Kəbənin, Məkkənin və qüreyşlilərin ilahi mühafizə altında olması inancını Ərəbistan əhalisi qəbul etdi.

Hz. İbrahimdən sonra Beytullahda ibadət bütpərəstliyin başlandığı zamana qədər tövhid əsaslarına uyğun bir şəkildə davam etmişdir. Ancaq

İPƏKYOLU NƏŞRİYYATI

Məkkədə bütpərəstliyin yayılmasına paralel olaraq müşriklər Kəbənin içinə və ətrafına bir çox büt yerləşdirdilər. Buna baxmayaraq, Kəbə heç bir zaman bütlərə görə tanınmamış, həmişə "Beytullah" adı ilə xatırlanmışdır.

Məkkə fəth edildikdə Kəbənin içindəki bütlər tamamilə sökülüb atılmış və Beytullahın içi Peyğəmbərimizin (s.ə.s) nəzarəti altında Zəmzəm suyu ilə yuyulmuşdur. O dövrdən indiyədək Kəbə Qurban bayramı ərəfəsində Zəmzəm və gül suyu ilə yuyulub təmizlənir, müşki-ənbər ətri səpilir və ötrüyü təzələnir.

Tikilən gündən etibarən Kəbə ilə bağlı bir sıra xüsusi vəzifələr var idi ki, bunları ilk vaxtlar Hz. İsmayıl yerinə yetirmişdir. Ondan sonra bu şərəfli vəzifələr Hz. İsmailin oğluna keçmiş, sonra cürhümilərə və onlardan da müxtəlif qəbilələrə keçərək nəhayət, Qureyşə gəlib çatmışdı. Daha sonra qurulan Məkkə şəhər-dövlətində də diqqətlə yerinə yetirilən həmin vəzifələr bunlardır:

1. Sidanə, ya da hicabə: Kəbənin örtüyünü dəyişdirmək və açarlarını qorumaq vəzifəsi.

2. Sikayə: zəvvarlara şirin su paylamaq və Zəmzəm quyusu ilə əlaqədar vəzifə.

3. Ridanə: kasıb zəvvarlara yemək vermək, onların ehtiyaclarını təmin etmək.

Bu vəzifələri icra etmək ən böyük şərəf sayılırdı. Bu vəzifələr səadət əsrində Məkkənin nüfuzlu ailələri arasında bölüşdürülmüşdü. Hz. Ömərin xəlifəliyi dövründə bu xidmət-vəzifələrin yerinə yetirilməsi üçün ayrıca vəsait ayrılmış, Osmanlı dövləti hakimiyyəti dövründə isə Kəbə ilə bağlı xidmət-vəzifələrin yerinə yetirilməsi üçün hər il "Hərameyn" (iki müqəddəs şəhər: Məkkə və Mədinə) təsisatından pay ayrılmışdır.

### Kəbənin ilahi nəzarət altında olduğunu göstərən ibratamiz hadisə: Fil əhvalatı

Uca Allahın əmri ilə tikilən Kəbə həmişə ilahi mühafizə altındadır. Tarixdə "Fil əhvalatı" kimi tanınan hadisə bunu sübut edən ibratamiz nümunələrdən biridir.

İPƏKYOLU NƏŞRİYYATI

Yəmən valisi Əbrəhə Roma imperatorunun köməyi ilə Sənada tikdirdiyi kilsəyə arzu etdiyi səviyyədə rəğbət bəslənilmədiyini gördükdə bərk əsəbiləşdi. Sonra ərəblərin qədimdən bəri müqəddəsliyini qəbul edərək ziyarət etdikləri Kəbəni dağıtmaq qərarına gəldi. Fillərdən də istifadə olunan böyük bir ordu hazırlayaraq Məkkəyə doğru yürüşə çıxdı. O, bu yolla guya insanların üzünü Kəbədən özünün tikdirdiyi kilsəyə çevirəcəkdi.

Əbrəhənin gözü o qədər dönmüşdü ki, onun əsgərləri tərəfindən qəsb edilmiş dəvələrini geri almağa gələn Əbdülmüttəlibə heyrətlənərək:

"- Mən Kəbəni dağıtmağa gəldim. Sən isə dəvələrini düşünürsən! - demişdir. Əbdülmüttəlib:

- Onun sahibi var! O, Kəbəni qoruyar! - cavabını vermiş. Əbrəhə bu sözdən sonra:

- Onu məndən qoruyacaq heç kim yoxdur! - söyləyərək qürurlanmışdı". Ancaq Əbrəhə Məkkəyə yaxınlaşan ordusuna Kəbəyə doğru hərəkət etmək əmri verdikdə fillər yerində donub qaldılar. Səmada saysız-hesabsız əbabil quşları peyda oldu. Onlar ayaqlarında gətirdikləri bişmiş palçıqdan olan daşları Əbrəhənin ordusunun üstünə dolu kimi yağdırmağa başladılar. Bu daşlar kimə dəyirdisə, onu öldürürdü. Məkkənin yaxınlığı bir anın içində insan və fil qəbiristanlığına çevrildi. Zəif, kiçik quşlar tonlarla ağırlığı olan filləri əzib yerə sərdilər. Bu dəhşət dolu ilahi möcüzənin baş verdiyi ilə "Fil ili" deyildi. Uca Allah bu hadisəni Qurani-Kərimdə belə nəql edir:

**"**(Ya Peyğəmbər!) **Məgər Rəbbinin fil sahiblərinə nələr etdiyini görmədinmi? Məgər** (Rəbbin) **onların hiyləsini boşa çıxartmadımı? Onların üstünə qatar-qatar quşlar** (əbabil) **göndərdi.** (O quşlar) **onlara bişmiş gildən düzəlmiş daşlar atırdı.** (Rəbbin) **onları** (həşərat tərəfindən yeyilmiş) **əkin yarpağına** (saman çöpünə) **döndərdi"** (əl-Fil, 1-5).

Çünki Kəbə uca Allahın ilahi əmr ilə tikdirdiyi yeganə evi idi. Ora Allaha ibadət məkanı kimi müqəddəs və mübarək yerə çevrilmişdir. Buna görə də ilahi mühafizə altına alınmışdı. Əbrəhənin Allahın evinə qarşı bu hörmətsizliyinə görə verilən cəza qiyamətə qədər bu qəbildən olacaq digər hərəkətlər üçün də bir təhdid mahiyyəti daşıyır. Başqa bir ayədə belə buyurulur:

**"Allahın məscidlərində Onun** (Allahın) **adının çəkilməsinə maneçilik törədənlərdən və onların xarab edilməsinə** (dağıdılmasına) **çalışanlardan daha zalım kim ola bilər? Halbuki, onlar oraya** (məscidlərə) **ancaq qorxa-qorxa girməli idilər. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük əzab gözləyir"** (əl-Bəqərə, 114).

Zaman keçdikcə zülmünü daha da artıran Əbrəhə özündə sonsuz güc, qüdrət və əzəmət olması ilə bağlı eyforiyaya qapıldı. Buna görə də uca Allah onu səhrada yaşayan aslan, pələng, ya da zəhərli ilan kimi vahiməli heyvanlar vasitəsi ilə yox, çox gücsüz və zəif varlıqlar orlan əbabil quşlarının atdığı noxutdan kiçik daşlarla həlak etdi. Belə ki, uca Allah Firon, Nəmrut və Calut kimi təkəbbürlü olan insanları həmişə onlardan kiçik və gücsüz görünən varlıqlarla həlak edərək onların reallıqda nə qədər aciz məxluqlar olduqlarını və boş yerə təkəbbürləndiklərini sübut etmişdir.

Əbrəhə də böyük bir əzəmət və təkəbbürlə çıxdığı Yəmənə taqətdən düşmüş bir bədənlə, çox zəlil və pərişan bir vəziyyətdə, sürünərək qayıda bildi. Onun bu halı təkəbbürlü insanların hətta, bu dünyada belə rəzil olduqlarına dair açıq-aydın ibrətamiz bir tablodur.

İbrahim - əleyhissəlam - və həniflik

Məkkədə ümumilikdə bütpərəstliyin hökm sürməsinə baxmayaraq, tövhidin izləri tamamilə silinməmişdi. Hz. İbrahimin təbliğ etdiyi tövhid dini az da olsa, bir qism insanlar tərəfindən yaşadılırdı.

İbrahimin əleyhissəlam - dininə "həniflik" adı verilmişdir. "Hənif" sözü lüğətdə əyrilikdən əl çəkib doğruya tərəf gedən, başqa dinlərdən, batil inancalardan uzaqlaşıb yalnız bir olan Allaha iman edən "müvahhid" (tək Allaha inanan) deməkdir. Uca Allah Qurani-Kərimdə belə buyurur:

"(Yəhudilər, xaçpərəstlər müsəlmanlara:) **"Doğru yolu tapmaq üçün yəhudi, yaxud da xaçpərəst olun!" - deyirlər.** (Ya Rəsulum!) **Sən de: "Biz batildən haqqa tapınan** (haqq yolda olan) **İbrahimin dinindəyik"** (əl-Bəqərə, 135).

**"İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O ancaq hənif** (batildən haqqa tapınan, haqqa yönəlmiş olan) **müsəlman** (Allaha təslim olan) **idi və** (Allaha) **şərik qoşanlardan da deyildi"** (Ali-İmran, 67).

Cəhalət dövründə hər cür azğınlıqdan və bütpərəstlikdən üz çevirib Haqqa yönələn, Hz. İbrahimin dininə bağlı qalaraq yalnız bir olan Allaha

inanan insanlara da hənif deyilirdi. Varaqa bin Novfəl, Abdullah bir Cahş, Osman bin Hüveyris, Zeyd bin Amr, Quss bin Saidə kimi şəxslər həniflərdən bəziləridir. Hənifləғ cansız, dilsiz, heç bir şeyə gücü çatmayan bütlərin önündə əyilməyi, onlara yalvarmağı çirkin iş sayırdılar.

İslam alimlərinin çoxunun qənaətinə görə, Peyğəmbərimizin (s.ə.s) anası və atası da Məkkədəki həniflərdən idilər.

Həniflik İslamın tövhid inancından başqa bir şey deyildir. Buna görə də, uca Allah Peyğəmbərimizə (s.ə.s) hənif olan İbrahimin - əleyhissəlam - dininə tabe olmağı Qurani-Kərimdə belə əmr etmişdir:

**"Sonra** (Ya Rəsulum!) **Sənə "Batildən haqqa dönərək müşriklərdən olmayan İbrahimin dininə tabe ol!" - deyə vəhy etdik"** (ən-Nəhl, 123).

Buna görə də, həniflik sözündən İslam dini üçün də istifadə olunmuş və səmimi, ixlaslı hər müsəlmana "hənif" xüsusiyyəti aid edilmişdir. Belə ki, Peyğəmbərimiz (s.ə.s):

*"Mən xoş rəftarlıq olan hənif dini ilə göndərildim",* buyurmuşdur. (Əhməd, V, 266).

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

# BİRİNCİ HİSSƏ

# PEYĞƏMBƏRLİKDƏN ÖNCƏ HZ. MƏHƏMMƏD

## Hz. Peyğəmbərin anadan olması ve uşaqlığı

Nəhayət, gözlənilən Nur miladi təqvimlə 571-ci ilin 20 aprelinə təsadüf edən Rəbüləvvəl ayının 12-si, bazar ertəsi, səhər dan yeri ağararkən zühur aləminə çıxaraq Abdullah və Əminənin evlilik qucağında dünyamızı şərəfləndirdi.

Bu təşriflə sanki bütün varlıqlar dilə gəlib "Xoş gəldin ya Rəsulullah!" - deyərək rahatlığa qovuşdular.

Süleyman Çələbi cahanda bütün zərrələrin bu ülvi təşrif qarşısındakı sevinc ifadələrini misralarında belə dilə gətirir:

Mərhaba, ey ali sultan mərhaba!

Mərhaba, ey kani irfan mərhaba!

Mərhaba, ey sırrı Furkan mərhaba!

Mərhaba, ey dərdə dərman mərhəba!

Mərhəba, ey Rəhmətən lilaləmin!

Mərahab, Sənsən Şəfiul-müznibin!...

Onun zuhuru ilə Allahın rəhməti bu aləmdə coşub daşdı. Sözlər, söhbətlər, ləzzətlər çoxaldı, genişləndi; hər şey ayrı məna, ayrı bir lətafət qazandı. Bütlər sarsılaraq yerə yıxıldı. Kisralar bölgəsi, Mədain saraylarında sütunlar və qüllələr yıxıldı. O dövrdə insanların müqəddəs saydıqları Savə gölü zülm bataqlığı halında qurudu.

Kainatdakı zaman və məkanda gerçəkləşən bu təcəlli o əsl varlığın zühurunun ilk bərəkəti idi. Bu bərəkət bütün kainatı əhatə etmişdi. O ilə bolluq ili deyildi. Belə ki, əhli-dil (qəlb əhli) nəzərində Qədr gecəsindən sonra ən qiymətli gecə Rəsulullahın doğulduğu gecə qəbul olunmuşdur.

İPƏKYOLU NƏŞRİYYATI

O gecə bir gül kimi açılan aləmlərin rəhbərinin feyzi-bərəkəti ilə dolmuş könüllərdən daşan ifadələr, şairlərin misaralarına ayrı bir lətafət qazandırdı:

Suya virsün bağban gülzarı zəhmət çəkməsün,

Bir gül açılmaz yüzün tək virsə min gülüzara su

"Bağban gül bağçasını sulamaq üçün (boş yerə) zəhmət çəkməsin! (Çünki) min gül bağçası sulasa, (Ya Rəsulullah, yenə də) Sənin üzün kimi bir gül (heç bir zaman) açılmaz!..."

O güllər şahının ülvi təşrifi ilə hər şeyin axını dəyişmişdi. Rəhmət əlamətləri inci dənələri kimi kainata səpilmiş və nura həsrət qalan ürəklər sevincə, xoşbəxtliyə  qərq olmuşdu.

İbni Abbasdan (r.a) belə rəvayət edilmişdir: "Hz. Peyğəmbər (s.ə.s) bazar ertəsi səhər dünyaya gəldi, bazar ertəsi peyğəmbər oldu, bazar ertəsi Məkkədən Mədinəyə hicrət etdi, bazar ertəsi Mədinəyə çatdı, bazar ertəsi də vəfat etdi. Bazar ertəsi (Kəbədə hakimlik edərək) həcəri-əsvədi yerinə qoydu. Bazar ertəsi Bədir zəfərini qazandı. Bazar ertəsi

اَلْيَوْمَ اَكْمَلْتُ لَكُمْ دِينَكُمْ

"**...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım...**" (əl-Maidə, 3) ayəsi nazil oldu". (Əhməd, I, 277; Heysəmi, I, 196).

## Hz. Peyğəmbərin  uşaqlığı və gəncliyi

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-in atası Həzrət Abdullah, ticarət məqsədilə Şama getmiş və qayıdarkən Mədinədə xəstələnərək müqəddəs doğuşdan iki ay əvvəl vəfat etmişdi. Varlıq Nuru, dünyaya yetim olaraq gözlərini açmışdı. Bunu ifadə edən Qurani-Kərim ayəsində Allah təala belə buyurur:

**"Məgər O səni yetim ikən tapıb sığınacaq vermədimi?!"** (əd-Duha, 6)

Mübarək körpə, iqlim şəraitinə görə, ərəb adətinə uyğun olaraq dörd yaşına qədər süd anası xoşbəxt qadın Həlimə anamızın yanında qaldı. İlahi əsrarı qəbul edə biləcək hala gəlməsi üçün Onun köksünün ilk dəfə yarılması bu əsnada baş verdi.

Bir gün Varlıq Nuru, süd qardaşı Şeyma ilə günortanın qızmarında quzuların yanına getmişdilər. Qayıtdıqlarında Həlimə, qızına:

-"Belə şiddətli istidə nəyə görə bayıra çıxmışdınız?"-dedi.

Qızı da başlarına gələn ilahi  lütfü belə ifadə etdi:

-"Anacan! Biz Günəşin qızmar istisini heç hiss etmədik. Qardaşımın başı üzərində bir bulud gəzir və bizi kölgələndirirdi..."

Altı yaşında ikən anası Həzrət Əminə, atasının cariyəsi olan Ümmü Eyməni də yanına götürərək "Varlıq Nuru"nu atası Abdullahın qəbrini ziyarət etmək üçün Mədinəyə apardı. Səfərdə ikən Həzrət Əminə xəstələndi və Əbva deyilən yerdə vəfat etdi və orada dəfn edildi. Ölmədən əvvəl yetim qalan körpəsinə məhəbbət və şəfqət dolu gözlərlə dərindən baxmış, Onu bağrına basaraq mübarək oğluna bunları dedi:

*"Hər yaşayan öləcək və hər yeni köhnələcək. Hər böyüyən pisləşəcək, yox olacaq və mən də öləcəyəm. Nə xoşbəxtəm ki, belə bir xatirə qoyaraq gedirəm!.."* (Təcrid tərcüməsi IV, 549)

Bu həqiqəti idrak edən şair, Həzrət Əminəyə belə xitab edir:

"Ey Əbvada yatan ölü, Bağçanda açdı dünyanın ən gözəl gülü..."

Varlıq Nuru bu şəkildə anadan da yetim qalaraq Ümmü Eymən ilə Məkkəyə qayıtdı.

Səkkiz yaşında ikən babası Əbdülmüttəlib, daha sonra da onu fədakarcasına müdafiə edən əmisi Əbu Talib vəfat etdi.

Bu şəkildə bütün fani və zahiri dəstəklər sona çatdı. Bundan sonra Onun sahibi, qoruyucusu və tərbiyəçisi yalnız Rəbbi oldu. Eyni zamanda həyatının ən zəif zamanında görülən bu fani və zahiri dəstəklər, sırf Onun hər cür davranışda  insanlığa az çox ideal və örnək olma hikmətinə əsaslanırdı.

Varlıq Nuru, əmisi həyatda ikən və ticarətə başlamazdan əvvəl bir müddət  "çobanlıq" etmişdir. Bu peşə, ərəblər arasında adi bir peşə deyil, imkanlı adamların uşaqlarının da məşğul olduğu bir peşə idi. Həmçinin çobanlıq, demək olar ki, bütün peyğəmbərlərin peşəsi olmuşdur. Bununla Allah təala, onlara təbliğ vəzifəsini vermədən əvvəl idarəçilikdə bir sıra xüsusiyyətlər qazandırmışdır.

İPƏKYOLU NƏŞRİYYATI

Varlıq Nuru, on iki yaşında ikən ilk dəfə Əbu Talib ilə birlikdə Suriyaya səyahət etmişdir. İkinci ticarət səyahəti, on yeddi yaşında ikən Yəmənə olmuşdur. Üçüncüsü isə iyirmi beş yaşında ikən təkrar Suriyaya olmuşdur.

Birinci Suriya səyahətində Bahira adlı bir keşişin, Allah Rəsulu -səllallahu əleyhi və səlləm-i gördüyü rəvayət edilir. Bahira, həmin vaxt on iki yaşında olan Həzrət Peyğəmbəri bir buludun kölgələndirdiyinin fərqinə vararaq Ondakı xariqüladəliyi sezir və İncildə oxuduğu vəsfləri düşünərək Varlıq Nurunun belinə baxır. Oradakı nübüvvət möhürünü görüncə də, mübarək möhürü ədəblə öpür və Əbu Talibə:

"Ey Əbu Talib! Bu mübarək uşaq peyğəmbərlərin sonuncusudur. Onu diqqətlə mühafizə edin!"-deyir.

Lakin bu hadisəyə görə xristian şərqşünaslar, İslama ləkə yaxmaq üçün Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-in Bahiradan təlqin etdiyini iddia edirlər. Bu isə tamamilə həqiqətdən uzaqdır. Quran və tövhid əqidəsinə ziddir. Çünki Bahira təslis əqidəsinə inanan bir keşiş idi. Digər yandan onun dilində Allahın varlığı antropomorfik, yəni bəşəri sifətlərlə təchiz edilmiş, konkret bir xarakterə malik idi. Halbuki Allah Rəsulu -səllallahu əleyhi və səlləm-in təbliğ etdiyi islam dini, tövhid prinsiplərinə əsaslanan Haqq tərəfindən göndərilimiş aşkar bir dindir. Allahın varlığı idrak edilməyəcək bütün nöqsan sifətlərdən uzaq və mücərrəd bir mahiyyət kəsb edir.

Bu həqiqətə görədir ki, İslam, əhli-kitabın bisətdən əvvəl də olsa yalnız ilahi istiqamətdə olanlarının qurtuluşa çata biləcəyini Qurani-Kərimdə bu şəkildə bildirir:

**"İman gətirənlərdən** (müsəlmanlardan)**, musavi** (yəhudi), isəvi (xristian) **və sabiilərdən Allaha, axirət gününə** (sədaqətlə) **inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır.** (Qiyamət günü) **onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər."** (əl-Bəqərə, 62)

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-, bütün zaman və məkana son peyğəmbər olaraq göndərilmiş olduğundan ondan əvvəlki bütün dinlərin hökmü ləğv edilmişdir. Bir sözlə Allaha iman edib Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-ə iman etməmək küfrdür. Ona görə də bu günkü əhli-kitabın dindarları, yuxarıdakı ayeyi-kəriməni əhatə edən mahiyyətin xaricindədir.

İPƏKYOLU NƏŞRİYYATI

Onun yetim uşaqlığı və gəncliyi, pak və parlaq istiqbala layiq olduğunu ifadə edən bir ülvilik içində keçmişdir. Ən fərqli xüsusiyyəti, əl-Əmin və əs-Sadiq olması idi.

Ona bu sifətləri qazandıran bir çox misallar mövcuddur. Bunlardan biri də belədir:

Gənc bir adam başqa bir yerə gedərkən yolda Allah Rəsulu ilə rastlaşır və Ona bir əmanət verərək orada gözləməyini xahiş edib dərhal geri qayıdacağını deyir. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- də onun təklifini qəbul edir. Amma gənc, dediyi kimi dərhal geri qayıtmamış, aradan xeyli müddət keçdikdən sonra verdiyi sözü unutmuş halda təsadüfən həmin yerdən keçərkən Varlıq Nurunu həmin yerdə görüncə heyrətlənmiş və:

"-Sən hələ buradasanmı?"-deyir.

Əmanət və sədaqətin simvolu olan Allah Rəsulu -səllallahu əleyhi və səlləm-, bu gözəl əxlaq nümunəsi ilə yanaşı olaraq gəncin etdiyi bu hərəkətin müqabilində onu danlamadan yalnız irşad məqsədilə:

"-Məni çox gözlətdin ay dəliqanlı!.."-buyurmuşdur.

Onun peyğəmbərlikdən də əvvəl göstərdiyi bu və buna bənzər ülvi xislətlər, bir-birindən gözəl və hikmətlidir. Əlbəttə ki, bu cür xüsusiyyətlər yalnız peyğəmbərliyə namizəd bir adamda təcəlli edə bilərdi.

O, həmişə Haqqın, haqlının və məzlumun tərəfində olmuşdur. İyirmi yaşında ikən Qüreyşlilərlə Havazin qəbiləsi arasında baş verən Fisar müharibəsində əmiləri ilə birlikdə iştirak etmiş, lakin heç kimin qanını tökməmişdi. Yalnız atılan oxları toplayıb əmilərinə verirdi.

Onun cahiliyə dövründə bəyənib toplantılarına qatıldığı yeganə səmiyyət "xilfu-l-fudul"-dur. Bu bir ədalət səmiyyəti idi. Zülm və haqsızlığın qarşısını almaq üçün qurulmuşdu. Bu səmiyyət haqqında peyğəmbərlikdən sonra belə buyurmuşdur:

*"Abdullah bin Sudanın evində əmilərimlə birlikdə, "xilfu-l-fudul"-da iştirak etdim. Həmin məclisdən o qədər məmnun oldum ki, onun əvəzində qızıl dəvələr* (yəni dünya malı) *verilsəydi, bir o qədər sevinməzdim. Mən belə bir məclisə indi də çağırılsam, yenə gedərəm."*(Z. Konpara, Peyğəmbərimiz, 57)

**Hz. Xədicə ilə evlənməsi**

Nəhayət 25 yaşlarına çatanda ticarət vəsiləsi ilə tanıdığı Qüreyş kübarlarından Həzrət Xədicə -radiyallahu anhə- ilə evləndi.

Bəxtəvər və nəcabətli qadın olan Hz. Xədicə isə Varlıq Nurundan 15 yaş böyük, uşaqlı dul bir xanım idi. Hz. Xədicə anamız malı və canı ilə Peyğəmbərimizə yeni bir güc qaynağı oldu. Şərəfli bir ailəyə mənsub olan Hz. Xədicəyə gözəl əxlaqına görə, İslamdan öncə "Afifə" və "Tahirə", İslamdan sonra isə "Xədicətül-Kubra" deyilmişdir.

Allah Rəsulu (s.ə.s) "(Axirətin) *ən xeyirli qadını Məryəm binti İmrandır.* (Dünyanın) *ən xeyirli qadını isə Xədicə binti Hüveyliddir"*, - buyurmuşdur. (Buxari, "Mənaqibul-Ənsar", 20; Müslim, "Fədailus-Səhabə", 69).

Allah Rəsulunun (s.ə.s) bu evliliyi Onun nəfsani arzularına meyl edən şəxs olmadığını, hətta, bunlara heç bir dəyər vermədiyini açıq şəkildə ortaya qoyur. Əgər belə olmasaydı, Allah Rəsulu özündən yaşca böyük dul və uşaqlı bir qadınla yox, daha gənc bir xanımla evlənərdi. Ancaq Allah Rəsulu (s.ə.s) evlənəcəyi qadında gənclik, gözəllik kimi fani xüsusiyyətlər əvəzinə, şərəf, fəzilət və gözəl əxlaq kimi ülvi keyfiyyətlər aramışdır.

Kainatın fəxrinin (s.ə.s) Hz. Xədicə ilə evliliyindən Qasım, Abdullah, Zeynəb, Ruqiyyə, Ümmü Gülsüm və Fatimə dünyaya gəldi. İlk oğlunun adı Qasım olduğu üçün Peyğəmbərimizə (s.ə.s) "Əbul Qasım" künyəsi verildi.

**Kəbədə hakimlik**

Məkkədə bir sel basqını olmuş, Kəbəyə xeyli zərər dəymişdi. Buna görə də, məkkəlilər Kəbəni təmir etmək üçün əl-ələ verdilər. Kəbəni bünövrəsinə qədər söküb yenidən tikmək qərarına gəldilər. Növbə həcəri-əsvədin yerinə qoyulmasına gəldikdə hər bir qəbilə bu şərəfli vəzifəni özü yerinə yetirmək istədiyi üçün böyük və ciddi mübahisə düşdü. Az qala qan töküləcəkdi. Əbduddar oğulları içi qanla dolu çanaq gətirdilər, ölənə qədər çarpışmaq haqqında Adiy bin Kab oğulları ilə razılıq əldə etdilər və savaşmağa hazırlaşdılar. İçdikləri andı möhkəmləndirmək üçün əllərini qanla dolu çanağa saldılar. Qureyşlilərin bu cür vəziyyəti dörd, ya da beş gecə davam etdi. Nəhayət, Qureyşin ən yaşlısı olan Əbu Ümeyyə yüksək səslə:

- Ey qövmüm! Biz ancaq xeyir istəyirik, pislik istəmirik. Siz bu məsələdə qısqanclıq yarışına girməyin. Mübarizə aparmaqdan əl çəkin! Madam ki, bu məsələni aramızda həll edə bilmədik, Həram qapısından gələn

ilk şəxsi aramızda hakim təyin edək. Hansı hökmü çıxarsa, ona əməl edək! - deyərək, əli ilə Məscidi-Həramın Bəni Şeybə qapısını göstərdi. Elə bu əsnada aləmlərin rəhbəri Həram qapısında göründü. Hamının üzünə şirin bir təbəssüm qondu. Çünki gələn Məhəmmədül-Əmin idi. Qureyşin Peyğəmbərimizə qarşı sevgisi, hörməti və ehtiramı hər keçən gün daha da artırdı. Hətta, bir dəvə kəsdikdə aləmlərin sərvəri olan Peyğəmbərimizi axtarardılar. O da gələr, işlərinin bərəkətli olması üçün onlara dua edərdi. Ona görə də, qureyşlilər onu görər-görməz:

- Budur, əl-Əmin! Aramızda Onun hakim olmasına hamımız razıyıq! - dedilər. Məsələni Ona nəql etdilər. O da hər qəbilədən bir nəfər seçdi və ridasını (çiyinə atılan geyim) yerə sərdi. Sonra həcəri-əsvədi ridasının üstünə qoydurub, seçdiyi şəxslərin hər birinin onun bir ucundan tutmasına göstəriş verdi. Mübarək daşı birgə götürdülər, Varlıq Nuru da onu öz əlləri ilə yerinə qoydu. Bu şəkildə qəbilələr arasında yarana biləcək savaşa mane oldu.

Onun bu cür fərasətli davranışı, mükəmməl bir əxlaq nümayiş etdirməsi və buna bənzər ülvi xüsusiyyətləri onu "Sultanul-ənbiya" məqamına yüksəldəcək peyğəmbərliyin o an üçün bilinməyən nişanələri idi. Bəlkə də, Məkkədə böyüyüb boya-başa çatan Məhəmməd Mustafanın (s.ə.s) nəbi olacağı hələ bilinmirdi, amma tövhid inancından uzaqlaşmamış bəzi təmiz bəndələr axır zaman peyğəmbərinin gələcəyini bilirdilər və vaxtının yaxınlaşdığını da hiss edirdilər. Kuss bin Səidə belə şəxslərdən biri idi. İyad qəbiləsinin rəisi olan Kuss bin Səidə İsanın - əleyhissalam - dinindən olan və uca Allahın birliyinə inanan şair bir insan idi. Onun Ukaz bazarında aralarında Hz. Peyğəmbərin (s.ə.s) də olduğu bir camaata ünvanlanmış və peyğəmbərin gələcəyindən bəhs edən bu məşhur xütbəsi çox ibrətamiz və hikmətlidir: "Ey insanlar! Gəlin dinləyin, öyrənin və ibrət alın!"

Yaşayan ölür, ölən çətin vəziyyətə düşür, olan olur. Yağış yağır, ot bitir, uşaqlar doğulur, anaların, ataların yerini tuturlar. Sonra hamısı məhv olub gedir. Hadisələrin ardı-arası kəsilmir, bir-birini əvəz edir.

Diqqətli olun, söylədiklərimə qulaq asın. Göydən xəbər var, yerdə ibrət olacaq şeylər mövcuddur! Yer üzü sərilmiş bir döşək, göy üzü yüksək bir tavandır. Ulduzlar hərəkət edir, dənizlər yerində durur. Gələn qalmaz, gedən gəlməz. Bəlkə, getdikləri yerdən məmnun qaldıqları üçün orada qalırlar, yoxsa yubadılıb yuxuya gedirlərmi..? And içirəm ki, Allah dərgahında bir din var. O, indiki dindən daha sevimlidir. Allahın gələcək bir peyğəmbəri var ki, onun gələcəyi çox yaxında baş verəcək. Onun kölgəsi başımızın üstünə düşdü. O kəslər xoşbəxtdir ki, həmin peyğəmbərə iman gətirə, o da ona hidayət edə!

Vay o bədbəxtlərin halına ki, Ona qarşı çıxa və üsyankar ola! Vay ömürlərini qəflət içində keçirən ümmətlərin halına!

Ey insanlar! Qəflətdən uzaq durun! Hər şey fanidir, yalnız uca Allah əbədidir. Təkdir, şəriki və oxşarı yoxdur. İbadət edilməyə layiq yalnız Odur. O, doğmamış və doğulmamışdır. Əvvəl gəlib-keçən qövmlərdə bizim üçün ibrət çoxdur. Ey İyad qəbiləsi! Hanı babalarımız və dədələrimiz? Hanı cah-cəlallı, bəzədilib-düzəldilmiş saraylar və daşdan evlər tikən Ad və Səmud (qövmləri)? Hanı dünya malına görə qürurlanıb qövmünə üz tutaraq "Mən sizin böyük Rəbbinizəm", deyən Firon və Nəmrud?

Bu yer onları dəyirmanında üyütdü, toz etdi. Sümükləri belə çürüyüb yox oldu. Evləri də uçub dağıldı, izi-tozu qalmadı. Onların yurd-yuvalarını indi köpəklər şənləndirirlər. Əsla, onlar kimi qəflətə düşməyin. Onaların yolu ilə getməyin. Hər şey fani, yalnız uca Allah əbədidir.

Ölüm çayının axacaq yeri var, amma çıxacaq yeri yoxdur!.. Kiçik-böyük hər kəs köçüb gedir. Hər kəsə olan mənə də olacaqdır." (Beyhaki, "Kitabüz-zühd", II, 264; Ibni-Kəsir, "əl-Bidayə", II, 234-241; Heysəmi, IX, 418)

Kuss bin Səidə bu gözəl sözləri söyləyərkən bəhs etdiyi peyğəmbər Hz. Məhəmməd Mustafanın (s.ə.s) orada olduğundan xəbərsiz idi. Bir müddət sonra Kuss bin Səidə vəfat etdi. Ancaq qəbiləsi peyğəmbərlik veriləndə gəlib Allahın Rəsuluna iman etdi. Allah Rəsulu (s.ə.s) onlara:

"Kuss bin Səidənin Ukaz bazarında dəvənin üstündə "Yaşayan ölür, ölən çətin vəziyyətə düşür, olan olur", deyərək xütbə oxuduğu heç yadımdan çıxmaz. Bu xütbəni oxuya biləcək bir nəfər varmı?" buyurdu. İyad qəbiləsindən olan heyətin üzvləri həmin xütbəni qəbilələrindən hər kəsin oxuya biləcəyini söylədilər. Aləmlərin rəhbəri (s.ə.s) buna çox sevindi. Orada olan Əbu Bəkir (r.a) də:

"Ya Rəsulullah! O gün mən də orada idim. Kuss bin Səidənin söylədiklərinin hamısı yadımdadır - dedi və xütbəni əvvəlindən axırına qədər oxudu. Sonra İyad qəbiləsindən bir nəfər ayağa qalxıb Kuss bin Səidənin şeirlərindən əzbərdən söylədi. Bu şeirlərdə peyğəmbərimizin mənsub olduğu Haşim oğullarından böyük bir peyğəmbərin çıxacağı açıq şəkildə bildirilirdi. (Ibni-Kəsir, "əl-Bidayə", II, 234-241)

Peyğəmbərimiz (s.ə.s) Kuss bin Səidə haqqında belə demişdir: *"Uca Allah Kuss bin Səidəyə rəhmət etsin! O, qiyamət günü ayrı bir ümmət olaraq dirildiləcəkdir!"* (İbni-Kəsir, "əl-Bidayə", II, 239)

# İKİNCİ HİSSƏ

## PEYĞƏMBƏRLİYİN MƏKKƏ DÖVRÜ

### Vəhyin gəlməyə başlaması: Çin çıxan yuxular

Aləmlərin xəlq edilməsinin səbəbi olan Peyğəmbərimiz təmiz, əxlaqlı gənclik və ülvi bir ailə həyatı yaşayaraq nümayiş etdirdiyi mükəmməl və müstəsna bir örnəkdən sonra qırx yaşında peyğəmbərlik mərtəbəsinə yüksəldi. Qırx yaşına altı ay qalmış ilahi qüdrət Məkkədəki Hira mağarasını Ona müqəddəs bir məktəb olaraq açdı.

İlahi tədrisin kitab, dəftər və qələm olmadan aparıldığı bu təlim və feyz məktəbində Peyğəmbərimiz Rəbbi ilə özü arasında əbədi bir sirr mahiyyətində qalacaq dərslər oxudu. İlahi vəhyə hazırlandı.

Bu hazırlığın ilk altı ayı "ağıl çərçivəmiz"ə yerləşə bilən bir formada, "çin çıxan yuxular" (rüyayi-siddiqələr) şəklində həyata keçirilmişdir. Yəni Allah Rəsulu (s.ə.s) yuxusunda nə görürdüsə, hamısı olduğu kimi həqiqətə çevrilirdi. Hz. Aişə belə buyurur: "Peyğəmbərimizə vəhy çin çıxan yuxular (rüyayi-saliha) formasında gəlməyə başlamışdır. Gördüyü hər yuxu səhər aydınlığı kimi açıq-aydın gerçəkləşirdi, çin olurdu". (Buxari, "Bədül-vəhy", 3). Peyğəmbərlik çox böyük və ağır bir vəzifə olduğundan Peyğəmbərimizin bu mühüm vəzifəyə alışması və ona hazırlaşması üçün Cəbrail - əleyhissəlam - Hz. Məhəmmədə öncə yuxuda gəlməyə başlamışdır.

Bununla yanaşı peyğəmbərlərin gözləri yumular, ürəkləri isə yatmaz.

Başqa sözlə, onların yuxuda da vəhy almalarına heç bir maneə yoxdur. Hz. Peyğəmbər sonralar çin çıxan yuxular haqqında *"Peyğəmbərliyin qırx altıda biridir..."* (Buxari, "Təbir", 26; Müslüm, 6) buyurmuşdur.

Həqiqətən, bu altı aylıq müddət iyirmi üç il davam edən peyğəmbərliyin zaman etibarı ilə qırx altıda birinə bərabərdir.

İPƏKYOLU NƏŞRİYYATI

## PEYĞƏMBƏRLİYİN İLK ÜÇ İLİ: GİZLİ DƏVƏT DÖVRÜ

**İlk vəhy və vəhyin gəlməsində fasilə yaranması**

Allah Rəsulu (s.ə.s) qırx yaşında idi. Vəhyi qəbul etməyə hazır olmaq üçün altı aylıq hazırlıq zamanı sona çatmışdı. Mübarək Ramazan ayının on yeddinci günü idi. Allah Rəsulu (s.ə.s) adəti üzrə Hira mağarasında idi. Cəbrail - əleyhissəlam - gəldi və Hz. Peyğəmbərə:

- Oxu! - dedi.

Peyğəmbərimiz:

- Mən oxumağı bilmirəm! - cavabını verdi.

Bundan sonra mələk Hz. Peyğəmbəri (s.ə.s) taqəti kəsilənə qədər sıxdı. Sonra yenə:

- Oxu! - dedi.

Kainatın fəxri olan Peyğəmbərimiz:

- Mən oxumağı bacarmıram! - deyə cavab verdi.

Cəbrail - əleyhissəlam - ikinci dəfə Onu taqəti kəsilənə qədər sıxdı. Sonra təkrar:

- Oxu! - dedi.

Hz. Peyğəmbər (s.ə.s) yenə:

- Mən oxuya bilmirəm! (Nə oxuyum?) - deyə cavab verdi. Cəbrail-əleyhissəlam - Varlıq Nurunu üçüncü dəfə sıxıb buraxdı. Bundan sonra ilahi vəhyi Ona belə bildirdi

"(Ya Peyğəmbər! Qurani-Kərimi, bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi" (əl-Ələq, 1-5).

Bu ilahi əmr ilə Allah Rəsulunun timsalında bütün bəşəriyyətə Rəbbin ən böyük lütfü olan Qurani-Kərim nazil olmağa başlandı. Hz. Pey-

İpəkyolu Nəşriyyatı

ğəmbər (s.ə.s) səma kitablarından yer üzünə rəhmət və şəfa olaraq nazil olmağa başlayan Qurani-Kərimdən ilk öncə bu ayələri qəbul etdi. Cəbrail - əleyhissalam - Ondan ayrılıb getdikdə vəhyin qorxusundan ürəyi titrəyərək Hz. Xədicə anamızın yanına qayıtdı: "Üstümü örtün, üstümü örtün!" - buyurdu. Bir müddət istirahət etdikdən sonra başına gələnləri bəşəriyyətə nümunə ola biləcək birgə həyat yaşadığı Hz. Xədicə anamıza danışdı. Narahat bir şəkildə:

- Ey Xədicə! İndi mənə kim inanar? - dedi.

O mübarək həyat yoldaşı Varlıq Nuruna:

- Allaha and içirəm ki, Allah (cəllə-cəlaluhu) Səni heç bir zaman utandırmaz. Çünki Sən qohum-əqrabanı himayə edirsən, öz işini görməkdə aciz olanlara kömək göstərirsən, kasıblara əl tutursan, heç kimin etmədiyi qədər yaxşılıq edirsən, qonağa xoş baxıb qulluq edirsən, Allah yolunda görülən işlərdə xalqa yardım edirsən...

Ey Allah Elçisi! Səni (əvvəla) mən qəbul və təsdiq edirəm. Allah yoluna öncə məni dəvət et! - deyərək Onu ilk təsdiqləyən və ilk dəstəkləyən oldu. Yəni Hz. Xədicə anamız bir növ Ona sözlə bunu deyirdi: "Yaxşılıq ancaq yaxşılıq gətirir. Ehsanın (yaxşı işin, gözəl əməlin) qarşılığı ehsandan başqa nə ola bilər ki?!"

Beləliklə, Hz. Xədicə Allah Rəsulunun (s.ə.s) tər-təmiz və əxlaqlı keçmişini aydın bir gələcəyin müjdəçisi və zəmanəti kimi dəyərləndirirdi. Belə ki, uca Allah buyurur:

**"Yaxşılığın əvəzi ancaq yaxşılıqdır!"** (ər-Rəhman, 60).

*****

Bundan sonra Hz. Xədicə Peyğəmbərimizi (s.ə.s) əmisi oğlu Varaqa bin Novfəlin yanına apardı. Varaqa bin Novfəl cəhalət dövründə bütə sitayiş etməyən nadir şəxslərdən idi. Xristian olmuşdu. İbrani dilini bilir, İncildən yazılar yazırdı. Xeyli yaşlandığı üçün gözləri görmürdü. Hz. Xədicə anamız ona:

- Ey əmi oğlu! Qulaq as, qardaşın oğlu nələr söyləyir? - dedi.

Bunu eşidən Varaqa maraqla:

- Nə oldu qardaş oğlu? - deyə soruşdu.

İPƏKYOLU NƏŞRİYYATI

Allah Rəsulu (s.ə.s) gördüyü şeyləri ona nəql etdi. Peyğəmbərimizin danışdıqlarından axır zamanın ən ali həqiqətini anlayan Varaqanın üzü öncə təbəssümlə parladı, sonra dərin düşüncələrə dalaraq fikirə getdi və:

- Bu gördüyün uca Allahın Musaya göndərdiyi Namusu-Əkbər (Cəbraildir). Kaş, Sənin dəvət günlərində gənc olaydım! Kaş, Qövmün səni öz el-obandan çıxardığı zaman sağ olaydım! - dedi.

Allah Rəsulu (s.ə.s) heyrətlə:

- Onlar məni yurdumdan çıxaracaqlarmı? - deyə sual verdi.

O da:

- Bəli. Çünki sənin gətirdiyin kimi bir din gətirmiş hər bir peyğəmbər düşmənçiliyə və ədavətə məruz qalıb yurdundan didərgin salınmışdır. Əgər Sənin dəvətə başladığın vaxta qədər sağ qalsam, Sənə çox köməyim olacaq! - cavabını verdi. Bu söhbətdən çox keçmədən Varaqa vəfat etdi. Vəhyin isə fasilə dövrü başladı, yəni bir müddət vəhyin gəlməsinə ara verildi. (Buxari, "Bədül-Vəhy", 1; "Ənbiya", 21; "Təfsir", 96; Müslüm, "İman" 252)

*****

Uca Allah daha sonra nazil olan ayələrdə Rəsuluna belə buyurmuşdur:

"(Ya Rəsulum! Əvvəlki peyğəmbərlərə vəhy nazil etdiyimiz kimi) **Sənə də beləcə əmrimizdən olan bir vəhy** (möminlərə mənəviyyat verən Quran) **göndərdik. Sən** (bundan əvvəl) **kitab nədir, iman nədir bilməzdin. Lakin Biz onu bəndələrimizdən dilədiyimizi haqq yola qovuşdurmağımız üçün bir nur etdik. Sən** (onunla insanları) **düz yola yönəldirsən** (İslam dininə dəvət edib haqqa qovuşdurursan), (əş-Şura, 52).

"(Ya Rəsulum!) **Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik... "**(ən-Nisa, 163).

Rəsulullaha (s.ə.s) gələn ilk vəhyin ilk kəlməsinin "Oxu!" olmasını qəlb əhli belə təfsir etmişdir: **"Oxu! Hər şeyi oxu! Allahın kitabını oxu! Allahın ayələrini oxu! Kainat kitabını oxu! Daima oxu! Hidayət olmaq, dələlətdən** (səhv yoldan) **uzaqlaşmaq üçün oxu! İmanını kamilləşdirmək üçün oxu! Allahın adı ilə oxu! Yaradan Rəbbinin adı ilə oxu! İnsanı bir qan laxtasından yaradan, ancaq ona hər şeyi oxumaq, aydınlatmaq, anlamaq və anladığını yaşamaq imkanı verən**

**uca Rəbbinin adı ilə oxu! İnsana oxumaq nemətini ehsan edərək böyük lütf göstərən Allahın adı ilə oxu! Öyrənmək üçün oxu! Qüdrət qələminin bu aləmə yazdığı hər sətri oxu! İnsana bilmədiyini öyrədən Allahın adı ilə oxu!"**

Belə ki, Mövlana həzrətləri zahiri kitabları oxumaq dövrü üçün "bişdim", ilahi sirləri oxuyub onun atəşi ilə bir növ qovrulduğu üçün isə "yandım" ifadələrindən istifadə edərək keçirdiyi mənəvi mərhələləri dilə gətirmişdir. Ayədəki "Oxu" əmri çox mühümdür. Ancaq bu oxumanın Allahın adı ilə olması da eyni dərəcədə əhəmiyyətlidir. Çünki bununla "Oxu" əmrinə hansı şəkildə əməl etməyin zəruriliyi bildirilir. "Oxu" əmri yalnız zahiri, hərfi mənada işlədilmiş əmr deyil, qəlbin mənəvi paklıq, təmizlik nəticəsində kitab və hikmət qəbul edə biləcək səviyyəyə çatmasıdır.

*****

İlk vəhydən sonra uzun müddət vəhy gəlmədi. Bu bir növ Allah Elçisinin ardıcıl gələn sonrakı vəhylərə hazırlanması üçün idi. Çünki vəhyin qəbul edilməsi o qədər böyük bir vəzifə idi ki, onu asanlıqla icra etmək mümkün deyildi.

Artıq O, vəhyin yenidən gəlməsini çox arzulayır, onu səbirsizliklə gözləyirdi. Müxtəlif vaxtlarda ilk vəhyin gəldiyi Hira dağına çıxır və ilahi vəhyi gözləyirdi.

Bu fasilə günlərində Ona ən çox dəstək olan Hz. Xədicə anamız idi. Ona görə də, Hz. Peyğəmbər (s.ə.s) onun mənəvi təmizliyini, incəlik və anlayışını heç bir zaman unutmadı. Hz. Xədicənin vəfatından sonra qurban kəsdikdə həmişə qurbanın bir qismini onun qohumlarına göndərirdi. O, Allah Rəsulunun hər cəhətdən əziz və unudulmaz bir xatirəsi idi.

*****

Allah Rəsulunun (s.ə.s) həyatı keçmiş peyğəmbərlərə nəsib olmayan, müstəsna şərəfli məqamlarla doludur. Allah (cəllə-cəlaluhu) "Həbibim" deyə yalnız Ona müraciət etmişdir. Merac peyğəmbərlər arasında yalnız Ona qismət olmuşdur. Onun üstünlüyü Məscidi-Əqsada bütün peyğəmbərlərə imamlıq etməsi ilə təsdiqləndi. Musadakı - əleyhissalam: لَنْ تَرَانِى sirri Onda: قَابَ قَوْسَيْنِ أَوْ أَدْنٰى surətində təcəlli etdi.

Haqqla qovuşmaq anı olan namaz Onun ümmətinə qəlb səviyyəsində yaşanacaq bir merac kimi bəxş olundu. Həmçinin namaz başlanğıcda əlli vaxt əmr edildiyi halda, Allah Rəsulunun (s.ə.s) niyazı nəticəsində Mə-

İPƏKYOLU NƏŞRİYYATI

həmməd ümmətinə beş vaxt fərz qılındı. Yetim olan və yazıb-oxumağı bacarmayan Hz. Peyğəmbər ilahi təlim və tərbiyə ilə bütün bəşəriyyətə rəhbər, qeyb aləminin gerçəkliklərinə tərcüman və həqiqət məktəbinin mürşidi olaraq gəldi.

Ziya Paşanın dediyi kimi:

Bir məktəbə oldu ki, müdavim,

Allah idi zatına müəllim

Hz. Musa - əleyhissəlam - bir qrup ehkam gətirmişdi. Hz. Davud - əleyhissəlam - Allaha dua etmək və yalvarmaq sahəsində seçilmişdi. Hz. İsa - əleyhissəlam - insanlara gözəl əxlaqı, dünyada gözü tox olmağı və zühd həyatını öyrətmək üçün göndərilmişdi. İslam peyğəmbəri Hz. Məhəmməd Mustafa (s.ə.s) isə bunların hamısını gətirdi. Ehkam gətirdi. Nəfsi hər cür pisliklərdən təmizləyib saf və incə bir qəlb ilə Allaha dua etməyi öyrətdi. Ən gözəl əxlaqı təlim etdi və həyatı ilə bu əxlaqa gözəl nümunə oldu. Dünyanın aldadıcı nemətlərinə uymamağı tövsiyə etdi. Qısacası, bütün peyğəmbərlərin səlahiyyət və vəzifələrinin hamısını öz şəxsiyyətində və davranışlarında cəmləşdirdi. Nəsil və ədəb qaydaları, camal və kamal səadəti hamısı Onda bir araya gətirilmişdi.

Şübhəsiz, Onun qırx yaşına qədəm qoyması bəşər tarixinin dönüş nöqtələrindən biri oldu. Qırx il cəhalət bataqlığına basdırılmış bir cəmiyyətdə yaşadı. Sonradan ortaya qoyduğu gözəlliklərdən o dövrdə xalqı bixəbər idi. Bir dövlət adamı, bir natiq, ya da bir xətib kimi tanınmırdı. Nəinki böyük bir komandan kimi, hətta, adi bir əsgər kimi də məşhur deyildi.

Keçmiş millətlərin və peyğəmbərlərin tarixindən, qiyamət günündən, cənnət və cəhənnəmdən danışdıqları o dövrədək eşidilməmişdi. Yalnız özü üçün yüksək bir əxlaqla təmiz bir həyat yaşayırdı. Lakin Hira mağarasından ilahi təlimatla qayıtdıqda tamamilə dəyişmişdi.

**Peyğəmbərlərin sifətləri**

Bütün peyğəmbərlərdə bəzi müştərək xüsusiyyətlər mövcuddur. Bunlar sidq, əmanət, fətanət, ismət və təbliğdir. Peyğəmbərlərə iman bu xüsusiyyətlər çərçivəsində tamamlanır.

**Sidq:** Peyğəmbərlərin ilahi hökmləri, əmr və qadağaları insanlara təbliğdə və verdikləri hər cür xəbərdə doğru sözlü və sadiq olmalarıdır.

İPƏKYOLU NƏŞRİYYATI

Onların sözləri və hərəkətləri həmişə doğrudur. Söz və hərəkətləri bir-birinin aynasıdır. Onların yalan danışması mümkün deyil.

Uca Allah peyğəmbərlərinin doğru sözdən bir an belə ayrılmalarının mümkün olmadığını bu şəkildə bildirir:

**"Əgər o** (peyğəmbər) **özündən bəzi sözlər uydurub Bizə isnad etsəydi, Biz onu möhkəm yaxalayardıq. Sonra onun şah damarını qoparardıq"** (əl-Həqqə, 44-46).

Peyğəmbərlərin doğru sözlü olduqları onlara iman gətirməyənlər tərəfindən də təsdiq edilmişdir. Bunu təsdiqləyən saysız-hesabsız misallardan biri belədir:

Allah Rəsulu (s.ə.s) dəvətini açıqladığı ilk günlərdə Səfa təpəsində hündür bir qayanın üstündə qureyşlilərə belə səsləndi:

*" - Ey Qureyş camaatı! Mən sizə bu dağın ətəyində, ya da bu vadidə düşmən atlıları var, sizə hücum edəcəklər, mallarınızı qəsb edəcəklər desəm, mənə inanarsınızmı?*

*Qureyşlilər heç fikirləşmədən:*

*- Bəli, inanarıq! Çünki indiyədək sənin doğru danışdığını görmüşük. Sənin yalan danışdığını heç görməmişik!",* - dedilər. (Buxari, Təfsir, 26).

**Əmanət:** Bütün peyğəmbərlər son dərəcə etibarlı, dürüst və seçilmiş şəxsiyyətlərdir. İman əhli olmayanlar da onlara sonsuz etimad göstərirlər. Peyğəmbərlərin əmanət sifəti onların hər sahədə inanılan və etibar edilən şəxs olmaları ilə yanaşı, daha çox vəhy məsələsində inanılmış olmalarını, Allahın əmr və qadağalarını insanlara dəyişdirmədən, artırıb-azaltmadan təbliğ etdiklərini ifadə edir. Uca Allah peyğəmbərlik şərəf və vəzifəsini xainlərə deyil, ancaq hər baxımdan inanılan sadiq bəndələrinə verir. Ayədə peyğəmbərlərin ümmətlərinə:

**"Şübhəsiz, mən sizin üçün etibar olunası bir peyğəmbərəm"** (əş-Şuara, 107), buyurduğu bildirilir.

Belə ki Hz. Peyğəmbər (s.ə.s) haqqında söylənilən "Məhəmmədüləmin" (inanılan, etibar edilən Məhəmməd) ifadəsi müşriklərin də dilindən düşməzdi. Onlar öz yoldaşlarına deyil, Rəsuli-Əkrəmə inanıb əmanətlərini ona etibar edərdilər. Hətta, hicrət etdiyi ərəfədə Hz. Peyğəmbərdə müşriklərin bəzi əmanətləri vardı. Peyğəmbərimiz ölüm təhlükəsinə bax-

İPƏKYOLU NƏŞRİYYATI

mayaraq, Hz. Əlini Məkkədə qoyub həmin əmanətlərini sahiblərinə qaytartmışdı.

"Əl-Əmin" vəsfi Hz. Peyğəmbərin (s.ə.s) bir növ ikinci adı olmuşdu. Belə ki kainatın fəxri 25 yaşında Məkkədə bu adla çağrılırdı.

Kəbə hakimliyi əsnasında Onun gəldiyini görənlər "əl-Əmin gəlir", deyərək sevinmiş və hər məsələdə Ona etimad göstərərək Onunla məsləhətləşmişlər. Uğurunda canını, malını və hər şeyini fəda edən əshabikiram kimi, canına qəsd etmək istəyən düşmənləri də Peyğəmbərimizin etibarına xələl gətirən heç bir söz söyləməmişlər.

**Fətanət (fərasət, qabiliyyət və bacarıq)**: Peyğəmbərlər insanlar arasında fərasət, ağıl və zəka baxımından ən üstün dərəcədədirlər. Onlar möhkəm hafizəyə, yüksək idraka, güclü məntiq və insanları yola gətirmək qabiliyyətinə malikdirlər. Fətanət sırf ağıl və məntiq deyil, dühanın da fövqündə duran, ondan üstün olan idrak səviyyəsidir. Qəlbə bağlı ağlın, fərasət və bəsirətin ifadəsidir. Hər bir peyğəmbər vəzifəsini qüsursuz, mükəmməl səviyyədə yerinə yetirə bilməsi üçün belə üstün bir zəkaya sahib olması labüddür. Əks təqdirdə, onlar göndərildikləri insanlara qarşı qüvvətli dəlillər gətirməz, onları razı salıb hidayətə çatdıra bilməzlər. Peyğəmbərlər ən çətin və müşkül məsələləri belə uğurla həll edirlər. Mövzuları izah edərkən çətin məqamları da sadə formada açıqladıqları üçün idrak səviyyələri bir-birilərindən fərqli olan dinləyiciləri onları anlamaqda çətinlik çəkmirlər.

Bu sifət bütün peyğəmbərlərdə müxtəlif formalarda təzahür etmişdir. Hz. Peyğəmbərin (s.ə.s) bütün həyatı bu təzahürlərlə müşahidə olunmuşdur. Daha öncə də bəhs etdiyimiz kimi, Kəbə təmir edilərkən həcəri-əsvədi yerinə qoymaqla bağlı ortaya çıxan böyük ixtilafı həmin ərəfədə həram qapısında görünən aləmlərin rəhbəri bənzərsiz bir bəsirət və fərasət nümunəsi göstərərək asanlıqla həll etmiş, qəbilələr arasında ortaya çıxa biləcək savaşın qarşısını almışdır.

**Təbliğ:** Peyğəmbərlər ilahi əmrləri doğru-düzgün, əmr edildikləri şəkildə insanlara bildirirlər. Onların təbliğatında nə bir əlavə, nə də bir ixtisar vardır. Təbliğ peyğəmbərlərin müştərək sifətlərindən və mühim vəzifələrindən biridir. Ayədə belə buyurulur:

**"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni** (Quranı) **təbliğ et! Əgər** (bunu) **etməsən,** (Allahın) **risalətini** (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) **yerinə yetirmiş olmazsan..."** (əl-Maidə, 67).

İPƏKYOLU NƏŞRİYYATI

Peyğəmbərlər təbliğ vəzifəsini yerinə yetirərkən müxtəlif çətinliklərlə qarşılaşmışlar. Ancaq heç vaxt amallarından, tutduqları yoldan geri çəkilməmişlər. Onların həyatı bu məsələdə ibrətamiz hadisələrlə doludur.

Peyğəmbərimiz insanları İslama dəvət edərkən ən yaxınlarından başlamış, zaman və məkana görə hərəkət etmiş, ünsiyyət qurduğu şəxsin əhval-ruhiyyəsini və idrak səviyyəsini nəzərə almış, tədricilik (yavaş-yavaş) prinsipinə əməl etmiş, ələ düşən bütün fürsətləri dəyərləndirmiş, heç bir zaman heç nəyi çətinləşdirməmiş, həmişə asanlaşdırmış, daim müjdələmiş, əsla nifrət etdirməmişdir. Bütün ömrünü İslamın təbliğinə həsr edən Rəsuli-Əkrəm (s.ə.s) Vida xütbəsində əshabına müraciətlə:

"Təbliğ vəzifəmi yerinə yetirdimmi?", - deyərək ümmətinə sual vermiş, onlardan müsbət cavab aldıqda isə "Allahım, şahid ol!..." buyuraraq vəzifəsini layiqincə yerinə yetirməyinin ləzzətini yaşamışdır.

Bütün möminlər Allah Rəsulunun (s.ə.s) bu təbliğ metodlarından qabiliyyətləri ölçüsündə bəhrələnməlidirlər. Çünki İslamı təbliğ etmək müsəlmanlar üçün fərz hökmündədir.

**İsmət:** Peyğəmbərlər gizli, ya da aşkar hər cür pislikdən və günah işləməkdən uzaqdırlar. Buna görə də, onlar peyğəmbərliklərindən həm öncə, həm də sonra şirk bataqlığına düşməkdən qorunmuşlar. Həmçinin, Allahdan aldıqları vəhyi insanlara təbliğ edərkən onu unutmaları, ya da xəta etmələri mümkün deyildir. Peyğəmbərlər ismət sifətinə malik olmasaydılar, onların verdikləri xəbərin doğruluğuna etibar edilməzdi. Bu vəziyyət isə onların Allahın yer üzündəki hüccəti (bir şeyi isbat edən dəlil, alimlərə verilən ad) və şahidi olmaq xüsusiyyətlərinə kölgə salardı.

Əhli-sünnətə görə, peyğəmbərlər əsla böyük günah işləməyiblər. Onların səhvən, ya da bir sıra hikmətə səbəb olan kiçik xətalara yol vermələri mümkündür. Ancaq Allah bu xətaları başlı-başına buraxmaz, dərhal ayə ilə düzəldər, onlara xəbərdarlıq edərdi. "Zəllə" deyilən bu qeyri-iradi insani xətalar peyğəmbərlərin də acizliyi dadması və insan olduqları xatırladılaraq onlara müqəddəslik xüsusiyyəti şamil etməyin qarşısının alınması hikmətinə bağlıdır.

*****

Peyğəmbərlərin bu beş sifətindən (sidq, əmanət, fətanət, təbliğ, ismət) başqa yalnız Hz. Peyğəmbərə (s.ə.s) aid olan üç böyük sifət də vardır ki, onlar aşağıdakılardır:

İPƏKYOLU NƏŞRİYYATI

1. Rəsuli-Müctəba (seçilmiş, üstün) olan Peyğəmbərimiz Həbibullahdır, bütün peyğəmbərlərdən üstündür və O, bəşəriyyətin ən şərəflisidir. Şair Nəcib Fazıl bunu qısaca belə ifadə edir:

İtrini süzmüş əzəl,

Bal Sənsən, varlıq pətək...

2. Rəsuli-Əkrəm (s.ə.s) peyğəmbər olaraq bütün insanlara və cinlərə göndərilmişdir. Yəni Rəsulus-səkaleyndir. Gətirdiyi din qiyamətə qədər qalacaq. Digər peyğəmbərlər isə müəyyən bir zaman üçün və bəziləri məhdud bir qövmə göndərilmişlər. Bu baxımdan hər peyğəmbərin möcüzəsi öz dövrünə aiddir. Ancaq Hz. Peyğəmbərin (s.ə.s) möcüzələri bütün dövrlərə şamil edilir. Xüsusilə, Qurani-Kərim Ona verilən ən böyük möcüzə olaraq qiyamətə qədər təhrif olunmadan əbədi qalacaq.

3. Hz. Peyğəmbər xatəmul-ənbiyadır, yəni peyğəmbərlərin sonuncusudur.

Bundan əlavə Hz. Peyğəmbərə (s.ə.s) qiyamət günü üçün məqami-Mahmud və şəfaəti-uzma səlahiyyəti verilmişdir. Buna görə də, mərhəmət peyğəmbəri məhşər günü ümmətinin günahkarlarına şəfaət edəcək (bağışlanmalarını istəyəcək) və bu şəfaəti də qəbul olunacaq.

**Vəhyin yenidən gəlməyə başlaması**

Fitrəti-vəhy (vəhyin kəsilməsi) altı ay davam etdi.

Allah Rəsulu (s.ə.s) vəhyin təkrar gəlməyə başlamasını belə nəql edir: "Mən (bir gün yolla) gedərkən birdən-birə səmadan bir səs eşitdim. Başımı qaldırdım. Bir də gördüm ki, Hirada mənə gələn mələk (Cəbrail) səma ilə torpaq arasında bir kürsüdə oturub. Yamanca qorxdum. (Evimə) qayıdıb:

"- Məni örtün, məni örtün! - dedim. (Mən üstü örtülü halda olanda Cəbrail - əleyhissəlam - gəldi) Uca Allah (onun vasitəsilə mənə:

**"Ey** (libasına) **bürünüb sarınan! Qalx** (qövmünü Allah əzabı ilə) **qorxut! Öz Rəbbini uca tut! Libasını təmizlə!** (Əzaba səbəb olacaq) **pis şeylərdən uzaqlaş!"** (əl-Müddəsir, 1-5).

**Artıq bundan sonra vəhyin gəlməsi heç vaxt kəsilmədi".** (Buxari, "Təfsir", 74/4,5; Müslüm, "İman", 255-258).

Uca Allah buyurur:

**"Həqiqətən, Biz sözü** (Quranı keçmişlərə aid xəbərləri) **onlar üçün bir-birinin ardınca** (müfəssəl) **izah etdik ki, öyüd-nəsihət qəbul etsinlər".** (əl-Qəsəs, 51).

Vəhyin fasiləsiz gəlməsi də Qurani-Kərimin qısa, yığcam olmasından və məramından irəli gəlir. Çünki bütün insanlar bir araya gəlsələr və istədikləri hər kəsi köməyə çağırsalar, bir ayəsini belə yazmağa qadir olmadıqları bir kitabın ülvi ayələrinin Allah Rəsuluna (s.ə.s) ardıcıl şəkildə nazil olması, Qurani-Kərimin vəhy məhsulu olduğunu qəti şəkildə təsdiqləyir. Bu, ona əsla bəşəri bir müdaxilənin olmamasının da bariz bir dəlilidir.

Digər tərəfdən, kiçik bir şeir kitabının belə min bir əzab-əziyyətlə ərsəyə gəldiyi hamıya məlumdur. Üstəlik, nə qədər diqqət göstərilsə də, bu insan əsərinin yenə də qüsursuz olacağını iddia etmək mümkün deyildir. Ancaq ilahi vəhydə belə bir məqam müzakirə mövzusu ola bilməz, o, ilk gəldiyi şəkildə əbədiyyətə qədər qalan, saysız-hesabsız möcüzələri özündə ehtiva edən və bütün bəşəri nöqsanlardan uzaq olan ilahi bir kəlam kimi lütf edilmişdir.

**İlk müsəlmanlar**

İlk iman edən Peyğəmbərimizin (s.ə.s) özü olmuşdur. Bu məqam ayədə belə bildirilir:

**"Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə** (Qurana) **inanmış və möminlər də iman gətirmişlər..."** (əl-Bəqərə, 285).

**"De: "Mənə dini** (itaəti) **məHz.Allaha məxsus edərək yalnız Ona ibadət etmək əmr olunmuşdur! Mənə ilk müsəlman olaraq buyurulmuşdur!"** (əz-Zümər, 11-12).

Kainatın fəxrindən sonra ilk müsəlman möhtərəm xanımı Hz. Xədicə olub. Aləmlərin rəhbəri qövmünün təhqir, lağ və əziyyət kimi pis davranışlarına məruz qalaraq qəmli və yorğun halda evinə qayıtdıqda uca Allah Onun kədərini Hz. Xədicə anamızın təsəllisi və təşviqedici sözləri ilə yüngüllətmiş, ilahi köməklə vəzifəsini asanlaşdırmışdır.

Hz. Xədicə iman etdikdən sonra Peyğəmbərimizin qızları Hz. Ruqiyyə, Ümmü Gülsüm və Fatimə də müsəlman olmuşdur.

Hz. Əli (r.a) də Allah Rəsulu ilə Hz. Xədicə anamızın namaz qıldıqlarını görmüş və:

*"- Bu nədir?"* - deyə soruşmuşdur.

Allah Rəsulu (s.ə.s):

- *"Bu, Allahın özü üçün seçdiyi dindir. Mən səni tək olan Allaha iman və ibadət etməyə , heç bir faydası və zərəri olmayan Lat ilə Uzzanı inkar etməyə dəvət edirəm!"* - buyurmuşdur.

Hz. Əli (r.a):

- Mən bu din haqqında indiyə qədər heç eşitməmişəm! Atam Əbu Talibdən soruşmadan bu işi görə bilmərəm! - dedi.

Kainatın fəxri olan Peyğəmbərimiz o ərəfədə təbliğ fəaliyyətini gizli həyata keçirdiyi üçün:

- Ey Əli! Əgər müsəlman olmayacaqsansa, Sənə söylədiyim sözləri gizli saxla! - buyurdu.

Hz. Əli o gecə gözlədi. Uca Allah onun qəlbinə İslam sevgisini bəxş etdi. Səhər erkəndən Peyğəmbərimizin yanına getdi və İslam dini haqqında Ona suallar verdi. Aldığı cavablardan sonra Allah Rəsulunun buyuruğuna əməl edib müsəlman oldu. Atasından çəkinərək müsəlman olduğunu bir müddət gizli saxladı. Hz. Əlinin həmin ərəfələrdə on yaşı vardı"

Hz. Peyğəmbər (s.ə.s) namaz qılmaq istədikdə Hz. Əli (r.a) ilə birgə Məkkə vadilərinə tərəf gedər və insanlardan gizli namazlarını orada qılarlar və axşam tərəfi də qayıdardılar. Allahın istədiyi vaxta qədər bu belə davam etdi.

Əbu Talib oğlunun və sevgili qardaşı oğlunun gizli namaz qıldıqlarından xəbər tutduqda Peyğəmbərimiz çox sevdiyi əmisini də İslama dəvət etdi. Əbu Talib isə bu dəvətə belə cavab verdi:

"- Ey qardaşım oğlu! Mənim atalarımın dinindən ayrılmağa gücüm çatmayacaq. Lakin Sən əmr olunduğun işi davam etdir! Vallah, mən sağ olduğum müddətdə Sənə heç kim zərər verməyəcəkdir".

Hz. Əliyə isə:

- Övladım! O, səni yalnız xeyir və yaxşılığa dəvət edər. Sən Onun yoluna möhkəm sarıl. Ondan heç vaxt ayrılma!" - dedi.

İPƏKYOLU NƏŞRİYYATI

Peyğəmbərimizin (s.ə.s) azad etdiyi köləsi Zeyd bin Harisə (r.a) Hz. Əlidən sonra müsəlman olmuş, namaz qılmış, Onun xidmətində durmuş və yanından ayrılmamışdır. Taifli zalımların Peyğəmbərimizə atdıqları daşlara bədənini sipər edib qanına-qəltan olacaq qədər fədakarlıqla özünü Peyğəmbərimizə həsr etmiş, bunun qarşılığında aləmlərin rəhbərinin xüsusi sevgisinə və iltifatına layiq görülmüşdür.

Hz. Əbu Bəkir (r.a) peyğəmbərlikdən öncə də Allah Rəsulunun (s.ə.s) dostu idi. Uşaqlığından bəri Onun gözəl əxlaqının, sədaqətinin və etibarının şahidi olmuşdu. Gözəl əxlaqına görə heç vaxt yalan söyləməyən bir şəxsin uca Allah haqqında yalan danışmağının qeyri-mümkün olduğu qənaətində idi. Buna görə də, Allah Rəsulu (s.ə.s) onu İslama dəvət edəndə tərəddüdsüz bu dəvətə müsbət cavab verdi.

Kainatın fəxri olan Peyğəmbərimiz bununla bağlı hədisi-şərifində:

"Allah məni sizə peyğəmbər göndərdikdə öncə mənə "Sən yalançısan", dediniz. Lakin Əbu Bəkir "O, doğru söyləyir" dedi və həm canı, həm də malı ilə mənə son dərəcə yardımçı oldu", buyurmuşdur. (Buxari, Əshabul-Nəbi, 5).

Allah Rəsulunu (s.ə.s) Hz. Əbu Bəkirin müsəlman olması qədər heç bir şey sevindirməmişdi. Hz. Əbu Bəkir (r.a) müsəlman olduğu zaman heç çəkinmədən İslamı qəbul etdiyini açıqlamış və digər insanları da Allaha və Elçisinə iman gətirməyə dəvət etmişdir.

Əbu Ubeydə bin Cərrah, Əbu Sələmə, Ərkam bin Əbil Ərkam, Osman bin Mazun, Əsma binti Əbu Bəkr, Həbbab bin Ərət, Abdullah bin Məsud, Abdullah bin Cahş, Cəfər bin Əbi Talib və xanımı Əsma binti Umeys, Əbu Huzeyfə, Amir bin Fuheyrə -radiyallahu anhum əcməin- ilk müslüman olmaq şərəfinə nail olan bəxtiyarlardan bəziləridir.

İPƏKYOLU NƏŞRİYYATI

## PEYĞƏMBƏRLİYİN DÖRDÜNCÜ İLİ

### Artıq dincəlmək vaxtı keçdi

Müddəsir surəsinin nazil olması ilə birgə Allah Rəsulu (s.ə.s) istirahət etdiyi yerdən dərhal qalxdı. Hz. Xədicə anamız məsələdən xəbərsiz olduğu üçün heyrətləndi:

" - Niyə qalxdın, istirahət etmədin? - deyə soruşdu.

Allah Rəsulu (s.ə.s) isə:

- Artıq istirahət vaxtı keçdi!" - buyurdu və yeni gələn vəhyi ona bildirdi.

Allah Rəsulu (s.ə.s) insanları açıq şəkildə İslama dəvət etməyə başlayacaqdı.

Lakin buna haradan və necə başlayacağını düşünürdü ki, bu vaxt başqa bir vəhy gəldi:

**"Və ən yaxın qohumlarını qorxut! Sənə tabe olan möminləri qanadının altına al! Əgər** (yaxın qohumların) **sənə qarşı çıxsalar, onlara belə de: "Şübhəsiz, mən sizin əməllərdən uzağam! Və yenilməz qüvvət sahibinə, mərhəmət sahibinə təvəkkül et! O Allah ki, səni namaza duranda görür".** (əş-Şuara, 214-218).

Hz. Peyğəmbər (s.ə.s) açıq dəvətə başladıqda ilahi əmrə uyğun olaraq ilk öncə yaxın qohumlarını İslama dəvət etdi. Onları evinə qonaq çağırdı və süfrə açdı. Sonra qohumlarına belə müraciət etdi: *"Ey Əbdülmüttəlib oğulları! Mən xüsusi olaraq sizə, ümumi olaraq da bütün bəşəriyyətə peyğəmbər göndərildim. Siz mənim bəzi möcüzələrimi də gördünüz. Hansınız mənim qardaşım və yoldaşım olmaq üçün beyət edər?"*

Bu sözlərə heç kim əhəmiyyət vermədi. Hamı susdu. Həmin ərəfədə uşaq olan, ancaq iman karvanına ilk qoşulmaq şərəfinə nail olmuş Hz. Əli ayağa qalxdı və: "Ey Allah Rəsulu! Sənə mən kömək edərəm!" - dedi.

Orada olanların istehzalı baxışları arasında Allah Rəsulunun cahanı işıqlandıran təbəssümlü nəzəri Hz. Əliyə yönəldi və aşiqlərinin bir dəfə də olsa, öpməyə həsrət qaldığı mübarək əlləri ilə onun başını sığalladı.

İPƏKYOLU NƏŞRİYYATI

Qohum-əqrəbası ilk dəfə İslamı qəbul etməyə meyil göstərməsə də, Allah Rəsulunun əzmi və ümidi qırılmadı. Çünki ona uca Allah buyururdu:

**"Ya-sin!** (Ya Rəsulum!) **Hikmətlə dolu Qurana and olsun ki, sən həqiqətən, peyğəmbərlərdənsən! Düz yoldasan!"** (Yasin, 1-4).

**"...Biz səni insanlara peyğəmbər göndərdik! Allahın buna şahid olması** (sənə) **kifayət edər".** (ən-Nisa, 79).

"(Ya Rəsulum!) **Biz səni bütün insanlara** (möminlərə cənnətlə) **müjdə verən,** (kafirləri isə cəhənnəm əzabı ilə) **qorxudan bir peyğəmbər olaraq göndərdik. Lakin insanların əksəriyyəti** (bunu) **bilməz".** (Səbə, 28).

"(Ya Rəsulum!) **De: "Ey insanlar! Mən Allahın sizin hamınıza göndərdiyi peyğəmbəriyəm.** (O Allah ki) **göylərin və yerin hökmü Onundur..."** (əl-Əraf, 158).

Ayələrdə də bəyan edildiyi kimi, Allah Rəsulu (s.ə.s) digər peyğəmbərlərdən fərqli olaraq bütün bəşəriyyətə göndərilib. Hz. Peyğəmbər bunu hədisi-şəriflərindən birində belə ifadə edir: "Mənə məndən öncəki peyğəmbərə verilməyən beş xüsusiyyət verilib:

1. Bir aya gediləcək məsafədən düşmənin qəlbinə qorxu salmaqla mənə yardım göstərildi.

2. Mənə yer üzü məscid və təmiz qılındı. Buna görə də, ümmətimdən hər hansı bir mömin namaz vaxtı gəldikdə dərhal olduğu yerdə namazını qılsın!

3. Məndən öncə heç bir peyğəmbərə halal edilməyən qənimət mənə halal edildi.

4. Şəfaət icazəsi verildi.

5. **"Məndən öncəki peyğəmbərlər yalnız öz millətlərinə göndəriliblər. Mən isə bütün bəşəriyyətə peyğəmbər olaraq göndərilmişəm"**. (Buxari, "Təyəmmüm", 1).

Allah Rəsulunun (r.a) açıq şəkildə həyata keçirdiyi ilk dəvəti zamanı o dövrdə hələ uşaq olan Hz. Əlidən başqa heç bir qohumu İslamı qəbul etmədi.

Sənə əmr olunanı açıqla

İPƏKYOLU NƏŞRİYYATI

Üç il çəkən gizlilik dövründən sonra, yəni peyğəmbərliyin dördüncü ilində uca Allah belə buyurdu:

"(Ya Rəsulum!) **Sənə əmr olunanı açıq-aşkar təbliğ et və müşriklərdən üz döndər! Şübhəsiz, istehza edənlərə qarşı Biz sənə kifayət edərik!"** (əl-Hicr, 94-95).

Bu ayələrlə təbliğin artıq açıq həyata keçirilməsi əmr edilirdi.

Başqa bir ayədə isə bu məqam daha açıq, hətta, xəbərdarlıq mahiyyətində belə ifadə edilmişdir:

**"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil edilənі** (Quranı) **təbliğ et! Əgər** (bunu) **etməsən,** (Allahın) **risalətini** (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) **yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz".** (əl-Maidə, 67).

Artıq Allah Rəsulu (s.ə.s) uca Allahın buyurduğu kimi:

**"...Ey insanlar! Mən Allahın sizin hamınıza göndərdiyi peyğəmbəriyəm.** (O Allah ki) **göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir tanrı yoxdur. O dirildir və öldürür. Buna görə də, Allaha, eləcə də Allahın sözlərinə** (ayələrinə, nazil etdiyi kitablara) **inanan və ümmi peyğəmbər olan Rəsuluna iman gətirin və ona tabe olun ki, doğru yolu tapa biləsiniz",** (əl-Əraf, 158) deyərək insanları açıq şəkildə İslama dəvət etməyə başlayacaqdı.

Dəvətə ən yaxınlarından başlaması əmr edilən Varlıq Nuru bir gün Səfa təpəsinə çıxaraq Qureyş qəbiləsinə səsləndi. Onlar da bu çağırışı qəbul edərək Səfa təpəsinə gəldilər. Allah Rəsulu (s.ə.s) hündür bir qayanın üstünə çıxaraq onlara belə müraciət etdi:

"- Ey Qureyş camaatı! Mən sizə bu dağın ətəyində, ya da bu vadidə düşmən atlıları var, bu dəqiqə sizə hücüm edəcəklər, var-dövlətinizi talayacaqlar, desəm, mənə inanarsınızmı?"

Qureyşlilər də heç düşünmədən belə cavab verdilər:

- Bəli, inanarıq! Çünki indiyədək Səni həmişə doğru danışan gördük, yalan söylədiyini heç eşitmədik!" - dedilər.

Oraya gələn hər kəsdən istisnasız bu cür cavab alan Allah Rəsulu (s.ə.s) onlara bu ilahi həqiqəti bildirdi:

İPƏKYOLU NƏŞRİYYATI

- O halda sizə qarşınızda şiddətli əzab günü olduğunu, Allaha inanmayanların o çətin əzaba düçar olacaqlarını xəbər verirəm. Mən sizi həmin çətin əzabdan uzaqlaşdırmaq üçün göndərildim.

Ey qureyşlilər! Sizə münasibətdə mənim vəziyyətim düşməni görən və ailəsinə zərər verəcəyindən qorxaraq dərhal xəbər verməyə qaçan bir adamın vəziyyətinə bənzəyir.

*"Ey Qureyş camaatı! Siz yuxuya gedərcəsinə öləcəksiniz. Yuxudan oyanacaqsınız kimi də diriləcəksiniz. Qəbirdən qalxıb Allahın hüzuruna çıxacaqsınız, dünyada etdiyiniz hər bir hərəkətə görə haqq-hesab verəcəyiniz şübhəsizdir. Nəticədə, xeyir və ibadətlərinizin mükafatını, pis işlərinizin isə cəza və şiddətli əzabını görəcəksiniz. Mükafat əbədi cənnət, cəza isə daimi cəhənnəmdir".* (Buxari, "Təfsir", 26; Müslüm, "İman", 348-355; Əhməd, I, 281-307; İbni-Sad, I, 74, 200; Bələzuri, I, 119; Səmira əz-Ziyad, I, 357-359).

Allah Rəsulunun (s.ə.s) bu müraciətinə orada iştirak edənlər ümumi şəkildə etiraz etmədilər. Yalnız əmisi Əbu Ləhəb: "Ay əli quruyası adam! Bizi bura bunun üçün çağırmışdın?" - deyərək yersiz və ləyaqətsiz sözlər işlətdi. Hərəkəti ilə Peyğəmbərimizin (s.ə.s) qəlbini qırdı.

Əbu Ləhəbin bu cür münasibətinə cavab olaraq Təbbət surəsi nazil oldu:

**"Əbu Ləhəbin əlləri qurusun, qurudu da!** (Qiyamət günü) **Ona nə var-dövləti fayda verəcək, nə də qazandığı. O, alovlu atəşə girəcəkdir. Onun odun daşıyan övrəti də həmçinin! Onun boğazında xurma lifindən hörülmüş ip olacaqdır".** (Əbu Ləhəb, 1-5). (Buxari, "Təfsir", 26/2, 34/2, 11/1-2; Müslüm, "İman", 355).

Ayədə Əbu Ləhəbin arvadının da adı qeyd edilib. Çünki o da əri kimi Allah Rəsuluna (s.ə.s) çox əziyyətlər verir, keçəcəyi yollara tikanlı ağac budaqları qoyurdu.

Eyni zamanda bu surə irq və qan qohumluğunun mütləq mənada dəyərinin olmadığını təsdiqləyir. Mühüm olan ruhi yaxınlıqdır, təqvadır. Ruhun irqi yoxdur. İrq cəsədə aid bir keyfiyyətdir. Cəsəd isə torpaqda yox olacaq. İnsanın qiyməti ruhunun mükəmməlliyi nisbətindədir. Onun üstün keyfiyyəti də budur. İnsanın maddi tərəfi olan bədən ruhun girdiyi bir qəlibə, ya da libasa bənzəyir. İnsan isə müxtəlif qumaşdan libas geyinməklə qiymət qazana bilməz!

*****

İPƏKYOLU NƏŞRİYYATI

Peyğəmbərliyin bu dövründə nazil olan ayələr ümumiyyətlə qiyamətin dəhşətindən xəbər verir:

**"Rəbbinin əzabı mütləq vaqe olacaqdır! Onu heç kəs dəf edə bilməz! O gün göy hərəkətə gəlib fırlanacaq! Dağlar yerindən qopub oynayacaq! O gün vay yalançı hesab edilənlərin halına! O kəslər ki, yalana qurşanıb qəflət içində oynayarlar, o gün onlar zorla cəhənnəm oduna sürüklənəcəklər! "** (Onlara belə deyiləcək): **"Bu sizin yalan hesab etdiyiniz cəhənnəm odudur!"** (ət-Tur, 7-14).

Hz. Məhəmmədin (s.ə.s) peyğəmbərliyini elan etməsi və açıq-şəkildə dəvətə başlamasından sonra müşriklərin və onların bütlərinin əleyhinə ayələr də nazil oldu:

"(Ey Məkkə əhli!) **Siz və Allahdan başqa ibadət etdiyiniz bütlər cəhənnəm yanacağısınız** (odunusunuz)! **Siz ora varid olacaqsınız!"** (əl-Ənbiya, 98).

"(Ya Rəsulum!) **De: "Mən də ancaq sizin kimi bir insanam! Mənə vəhy olunur ki, sizin tanrınız bir olan Allahdır! Ona tərəf yönəlin və Ondan bağışlanmağınızı diləyin! Vay müşriklərin halına!"** (Fussilət, 6).

Allah Rəsulunun (s.ə.s) heç bir şeyə aldanmadan İslamın təbliğinə davam etməsi müşrikləri özündən çıxarırdı. Müsəlmanlara od püskürməyə başladılar. Çünki yeni gələn din onların mənafeyinə toxunurdu.

Müşriklər Əbu Talibin yanına getdilər. Vəziyyəti ona danışıb qardaşı oğluna mane olmasını istədilər. Əbu Talib onları nəzakətlə yola saldı. Hz. Peyğəmbərə də heç bir söz söyləmədi. Beləcə, heç bir şeyin dəyişmədiyini görən müşriklər yenidən Əbu Talibin yanına getdilər və:

- Ey Əbu Talib! Artıq səbrimiz qalmayıb. Bilirsən ki, qardaşın oğlu dinimizi və ilahlarımızı pisləyir, bizi də axmaqlıqda günahlandırır! Əgər qardaşın oğlunu bu işlərdən uzaqlaşdırmasan, həm ona, həm də sənə qarşı çıxacağıq. Ya onu bu işdən uzaqlaşdır, ya da onu himayə etmə! Biz onun öhdəsindən gələrik!.. - dedilər.

Əbu Talib bu hadisədən sonra Allah Rəsuluna (s.ə.s) müşriklərin münasibətini nəzakətlə söylədi. Onu nə himayəsiz, nə də müşriklərlə üz-üzə qoymaq istəmədiyini hiss etdirərək:

- Məni də, özünü də qoru, - dedi.

İPƏKYOLU NƏŞRİYYATI

Allah Rəsulu (s.ə.s) çox kədərləndi. Çünki əmisinin sözləri lazım gəldikdə onu qorumaqdan imtina edəcəyi mənasını da verirdi. Mübarək gözləri yaşardı. Çünki o vaxt müsəlmanlar hələ zəif idilər. Sərvət və gücə ram olmuş Qureyş müşriklərinə qarşı çıxacaq gücləri yox idi. Bu ərəfədə Rəsulunu düşdüyü çətin vəziyyətdən çıxarmaq üçün uca Allah belə buyurdu:

**"Rəbbinin adını zikr et və** (hər şeyi buraxıb) **Ona tərəf yönəl! O, məşriqin və məğribin Rəbbidir. Ondan başqa heç bir tanrı yoxdur.** (Özünə) **ancaq onu vəkil et!"** (əl-Müzəmmil, 8-9).

Bundan sonra Allah Rəsulunun (s.ə.s) qəm-qüssəsi dağıldı. Sarsılmaz iman və şücaətlə əmisi Əbu Talibə bu məhşur sözlərini söylədi:

- Ey əmi! Allaha and içirəm ki, bu adamlar bir əlimə günəşi, o biri əlimə ayı qoysalar, mən yenə də bu dəvətdən imtina etmərəm!"

Bu sözlərdən sonra gözüyaşlı oradan uzaqlaşdı. Belə cavab gözləməyən Əbu Talib bir növ sarsıldı. İman gətirməmişdi, amma Hz. Peyğəmbəri övladı kimi sevirdi. Həmçinin vəfat etməzdən əvvəl oğullarını toplayıb hansının Hz. Peyğəmbəri himayəsinə götürəcəyini soruşan atası Əbdülmüttəlibə:

- Ata! Bilirsən ki, varlı deyiləm, amma yumşaq qəlbli və şəfqətliyəm. Qardaşım oğluna baxmağı özümə borc sayıram. Bu məsələdə sənə söz verirəm. Onu mənə əmanət et!.." - deyə zəmanət vermişdi. Buna görə, aləmlərin rəhbərinin belə məzlum bir şəkildə yanından getməsinə Əbu Talibin mərhəmətli ürəyi dözmədi, arxasınca səsləndi:

- Ey qardaş oğlu! Gəl, istədiyini söylə! And içirəm ki, heç nəyin müqabilində səni onlara təslim etməyəcəyəm! (Ibni-Hişam, I, 276-278; Ibni-Kəsir, "əl-Bidayə", III, 96-97).

Müşriklər arzularına çatmadıqda Vəlid bin Muğirənin oğlu Umarəni Əbu Talibin yanına apardılar və:

- Bu Umarə Qureyş gənclərinin ən güclüsü və ən yaraşıqlısıdır. Sən onu götür, ağlından və qüvvəsindən istifadə et! Sənin övladın olsun! Ata və babalarının dininə qarşı çıxan, qövmünü bölən, fikirlərinə əhəmiyyət verməyən qardaşın oğlunu isə bizə təslim et, onu öldürək! - deyərək axmaq və rəzil bir təklif etdilər.

Əbu Talib:

- Vallah, siz mənə pis bir şeyi təklif edirsiniz! Siz mənə oğlunuzu verəcəksiniz, mən onu sizin üçün bəsləyəcəyəm. Mən də oğlumu sizə verəcəyəm,

İPƏKYOLU NƏŞRİYYATI

siz isə onu öldürəcəksiniz, eləmi? Belə bir şey əsla olmaz! - cavabını verdi". (İbni-Hişam, I, 279; Ibni-Sad, I, 202).

Müşriklər Əbu Talibə:

- Məhəmmədə xəbər göndər, gəlsin, ona yaxşı təkliflər edək, - dedilər.

Əmisi xəbər göndərdikdə Allah Rəsulu (s.ə.s) dərhal gəldi. Əhnəs bin Şərik:

- Sən bizim ilahlarımızı qınamaqdan əl çək, biz də sənin ilahını rahat buraxaq! - dedi.

Allah Rəsulu (s.ə.s) başını qaldırıb səmaya baxdı və:

- O günəşi görürsünüz? - deyə soruşdu.

- Bəli, görürük, - dedikdə Allah Rəsulu (s.ə.s) İslam dininin gələcəyini və ucalığını ən gözəl bir şəkildə ortaya qoyan bu dərin cavabı verdi:

- Yaxşı, mən sizin bu günəşin işıqlarından istifadə etməyinizə mane ola bilərəmmi?

Əbu Talib:

- Allaha and içirəm ki, qardaşım oğlu heç bir zaman bizə yalan söyləməyib! - dedi.

Bədbəxt müşriklər hirslə ayağa qalxaraq Allah Rəsulunun (s.ə.s) hüzurundan ayrıldılar. (İbni-İsaq, s.136; İbni-Kəsir, "əl-Bidayə", III, 92; İbni-Sad, I, 202-203).

İbni-Abbasın (r.a) rəvayətinə görə, bundan sonra Qureyşin öndə gələn şəxsləri Kəbənin Hicr hissəsində toplaşaraq, Peyğəmbərimizi görər-görməz hamı birdən hücum edib öldürəcəklərinə dair Lat, Uzza, Mənat, Nailə və İsaf adlı bütlərə and içdilər. Hər kəs öz payına düşəcək qan pulunu ödəməyə də razılıq verdi. Bunu xəbər alan qızı Fatimə (radiyallahu anha) ağlayaraq Allah Rəsulunun (s.ə.s) yanına gəldi. Qövmünün mənfur razılaşması barədə atasına xəbər verdi. Allah Rəsulu (s.ə.s) su istəyərək dəstəmaz aldı. Sonra birbaşa Məscidül-Hərama getdi. Müşriklər Peyğəmbərimizi gördükdə həyacanlandılar: "Bax, bu odur! - dedilər. Ancaq aləmlərin rəhbərini qarşılarında olduqca heybətli gördükdə qəbul etdikləri qərara baxmayaraq, bir anda baxışlarını yerə zilləyib başlarını aşağı əydilər. Heç biri yerindən qalxmağa cəsarət etmədi. Gözlərini qaldırıb Allah Rəsulunun (s.ə.s) üzünə belə baxmadılar. Peyğəmbərimiz onların yanına gəlib qarşılarında dayandı. Sonra yerdən bir ovuc torpaq götürüb:

İPƏKYOLU NƏŞRİYYATI

"Üzünüz qara olsun!" - buyuraraq onlara tərəf atdı. Həmin gün üstünə torpaq dənəsi düşən müşriklərin hər biri Bədir döyüşündə kafir kimi öldürülüb cəhənnəmə oxşayan bir quyuya dolduruldular. (Əhməd, I, 303).

Bu hadisədən sonra Əbu Talib Haşim oğulları ilə Müttəlib oğullarını yanına çağırdı. Onlardan ailə şərəfi naminə Hz. Peyğəmbəri (s.ə.s) qureyşlilərdən qorumağı istədi. Əbu Ləhəbdən başqa hamı bu təklifi qəbul etdi.

Əbu Talibə etdikləri müraciətlərin heç bir fayda vermədiyini gördükdə müşriklər birbaşa Allah Rəsulunun (s.ə.s) yanına gedərək:

- Sən nəsil-nəcabət baxımından təmiz, mövqecə ucasan! İndiyədək ərəblərin arasında heç kimin etmədiklərini edir, söyləmədiklərini söyləyirsən! Aramıza nifaq saldın. Bizi bir-birimizə düşmən etdin. Belə hərəkət etməkdə məqsədin nədir? Varlı olmaq üçün belə edirsənsə, sənə istədiyin qədər mal-mülk verək. Qəbilələr arasında səndən varlı heç kim olmasın! Başçılıq arzusundasansa, dərhal səni özümüzə rəhbər edək, Məkkənin hakimi ol!

Əgər nəcabətli bir qadınla evlənmək istəyirsənsə, sənə Qureyşin ən gözəl qadınlarından hansını istəyirsənsə, verək. Əgər cinlərin, şeytanların şərrinə məruz qalmısansa, səni həkimə aparaq, səni xilas etmək üçün hər cür fədakarlığa qatılaq. Nə istəyirsənsə, etməyə hazırıq! Yetər ki, gəl, bu mübarizədən əl çək! - dedilər.

Zavallı müşriklər insanın ən zəif cəhəti olan mal-mülk, vəzifə və qadınla Hz. Peyğəmbəri mübarizədən döndərəcəklərini zənn edirdilər. Onlar hər zaman adam ovlamaq vasitəsi kimi istifadə etdikləri bu üç təklifə Hz. Peyğəmbərin də yox deməyəcəyini düşünürdülər. Sərvət, şöhrət, ehtiras insan oğlunun əksəriyyətini əridən üç böyük nəfsani tələdir. Ancaq müşriklər Allah Rəsulunun (s.ə.s) nurlu həyatında bu və buna bənzər şeylərə heç bir zaman yer olmadığını anlaya bilmirdilər...

Belə ki Allah Rəsulunun (s.ə.s) çox açıq-aydın olan cavabı da bu həqiqəti hayqırırdı: "Mən sizdən heç nə istəmirəm. Nə mal, nə mülk, nə səltənət, nə də başçılıq və vəzifə! Mənim yeganə istəyim budur: bütlərə ibadət etməkdən əl çəkin, yalnız bir olan Allaha ibadət edin!" (İbni-Kəsir, "əl-Bidayə", III, 99-100).

Müşriklər isə nəfislərinə ram olduqları üçün Onun ülvi mübarizəsini

İPƏKYOLU NƏŞRİYYATI

heç cür dərk edə bilmir, onun da bütlərə sitayiş etməsini istəyəcək qədər irəli gedirdilər. Bundan sonra Peyğəmbərimiz (s.ə.s) ayədə buyurulduğu kimi onlara özünü bu şəkildə təqdim etdi:

**"De: "Rəbbimdən mənə açıq-aşkar dəlillər gəldiyi zaman sizin Allahdan başqa tapındıqlarınıza (bütlərə) ibadət etmək mənə qadağan olunmuş, ancaq aləmlərin Rəbbinə təslim olmaq buyurulmuşdur".** (əl-Mumin, 66).

**"De: "Mənə Allaha ibadət etmək, Ona şərik qoşmamaq əmr olunmuşdur! Mən** (insanları) **yalnız Ona** (ibadət etməyə) **dəvət edirəm və mənim axır dönüşüm də yalnız Onadır!"** (ər-Rəd, 36).

**"Və mənə Quran oxumaq** (buyurulmuşdur!) **Hər kəs doğru yolda olsa, yalnız özü** (öz xeyri) **üçün doğru yolda olmuş olar. Hər kəs doğru yoldan çıxsa, de: "Mən yalnız** (insanları Allahdan) **qorxudan peyğəmbərəm!"** (ən-Nəhl, 91-92).

"(Ya Rəsulum!) **De: "Şübhəsiz, Rəbbim məni doğru yola, həqiqi** (düzgün) **dinə, batildən haqqa tapınan və müşriklərdən olmayan İbrahim dininə yönəltdi." De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur! Mənə belə buyurulmuşdur və mən ilk müsəlmanam!" De: "Allah hər şeyin Rəbbi olduğu halda heç mən ondan başqa Rəbb istəyərəmmi?.."** (əl-Ənam, 161-164).

"(Ya Rəsulum!) **De: "Bu, mənim yolumdur! Mən və mənə tabe olanlar açıq-aşkar bir dəlillə Allaha sığınırıq..."** (Yusuf, 108).

"(Ya Peyğəmbər!) **De: "Mən buna** (risaləti, Allahın hökmlərini təbliğ etməyə) **sizdən heç bir əcr** (mükafat) **istəmirəm. Və mən özündən bir şey uydurub deyənlərdən də deyiləm".** (Sad, 86).

*****

Allah Rəsulunun (s.ə.s) bu sərt münasibəti qarşısında müşriklər heç olmasa, bütlərinin pislənməsi məsələsinin həll olunmasını istədilər. Hz. Peyğəmbərdən bütlərini qınamaqdan əl çəkməsini tələb etdilər. Bundan sonra uca Allah belə buyurdu:

**"Elə isə** (ya Peyğəmbər! Allahın ayələrini) **yalan sayanlara itaət etmə!** (Müşriklər) **istərdilər ki, sən onlara yumşaqlıq göstərəsən, onlar da sənə yumşaqlıq göstərsinlər!"** (əl-Qələm, 8-9).

İPƏKYOLU NƏŞRİYYATI

Yəni İslam həqiqətini qəbul etməyən müşriklər mənfəətlərinə zidd ayələrdən imtina etmək şərti ilə Peyğəmbərimizlə (s.ə.s) anlaşa biləcəklərini və belə olan halda ona çox mehriban münasibət bəsləyəcəklərini ifadə edirdilər. Ancaq ayələrdə hökm çox aydın idi:

"(Belə olacağı təqdirdə) **sənə həyatın və ölümün iki qat əzabını daddırardıq. Sonra bizə qarşı özünə yardım edən də tapa bilməzdin!"** (əl-İsra, 75).

Yəni tövhidlə bağlı məsələdə güzəştə getmək həmin çətin zamanlarda da qadağan edilmişdir. Çünki bu, dinin tam təşəkkül tapmadan təhrif olunması deməkdir ki, müşriklərin çirkin əməllərinin məqsədi də elə bu idi. Ancaq istədiklərinə nail olmadıqda tələblərini cahilcəsinə sərtləşdirib böyüdürdülər, bütlərini qurtarmağa çalışırdılar. Bunun üçün aşağıdakı gülünc təklifi irəli sürəcək qədər qabağa getdilər:

- Sən bizim bütlərimizə sitayiş et, biz də sənin Allahına sitayiş edək! Beləcə, aramızdakı ixtilaf aradan qalxsın! - dedilər. İslamın ruh və məntiqinə tamamilə zidd olan bu təklifə də uca Allah Quran-Kərimdə belə cavab verdi:

"(Ya Rəsulum!) **De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə** (bütlərə) **ibadət etmərəm! Siz də mənim ibadət etdiyimə** (Allaha) **ibadət etməzsiniz! Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm! Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz! Sizin öz dininiz var, mənim də öz dinim!** (Sizin dininiz sizə, mənim dinim də mənə)" (əl-Kafirun, 1-6).

Peyğəmbərimizin uca dəvətinə başlanğıcda kasıb, kölə və zəif insanlar iman gətirdilər. Hz. Əbu Bəkir (r.a) kimi varlılardan iman gətirənlər olsa da, onların sayı çox az idi.

Rəsulullahın (s.ə.s) müşriklər tərəfindən irəli sürülmüş mal, mülk və vəzifə kimi təklifləri rədd etməsi Onun - bəzilərinin iddialarının əksinə olaraq - var-dövlət və ya liderlik əldə etmək niyyətində olmadığını açıq şəkildə ortaya qoyur. Çünki aləmlərin rəhbərinin gündəlik həyatı əlində hər cür imkanları olduğu zamanlarda belə kasıbların vəziyyətindən fərqlənmirdi. Şübhəsiz, bu vəziyyət Onun zühd, təvazökarlıq və qənaət kimi peyğəmbərlik əxlaqının bir təzahürüdür.

Allah Rəsulu (s.ə.s) istəsəydi, qureyşlilərin rəhbərlik, ya da hökmdarlıq təklifini qəbul edərək bu imkan və qüvvəti gələcəkdə İslamın təbliği üçün vasitə olaraq istifadə edə bilərdi. Lakin Varlıq Nuru belə bir siyasətə

İPƏKYOLU NƏŞRİYYATI

əl atmağa və bunu mübarizəsində alətə çevirməyə əsla razı olmadı. Çünki İslam hər cür məqsəd və vasitədən istifadə etmək məsələsində dinin qürur və şərəfinə sədaqət qaydasını daim mühafizə etmişdir. Buna görə, müsəlmanlar bir çox vəziyyətdə fədakarlıq və cihada məcbur qalırlar. Çünki tutduqları yol heç bir nöqsanı olmayan doğru yoldur.

İPƏKYOLU NƏŞRİYYATI

**İşgəncə dövrü**

Əbu Talibə etdikləri təkliflərdən bir nəticə əldə edə bilməyən və Allah Rəsulundan (s.ə.s) da heç bir güzəşt almayan müşriklər çarəni təhdid və qorxuducu hərəkətlərə əl atmaqda gördülər. İlk vaxtlar qəbiləsi və ailəsi böyük olanlara toxunmadılar. Çünki müsəlmanlara qarşı bu cür zülmkar münasibət hələ ümumi xarakter almamışdı.

Bu dövrdə müşriklərin zülmünə məruz qalanlar daha çox kimsəsiz yoxsullar, kölə və cariyələr idi. Onlara verilməyən işgəncə qalmamışdı...

Hz. Həbbab  yanan ocağın üstünə uzandırılmış, sinəsinə köz basılmış və bədənindən əriyən piylə köz sönənə qədər belə saxlanılmışdı. Hz. Həbbab (r.a) dəmirçi idi.  Müşriklərdən bəzilərinin ona borcu vardı. Borclarını istədiyi vaxt ona:

İPƏKYOLU NƏŞRİYYATI

- Öncə Məhəmmədi inkar et, sonra borcunu qaytaraq, - deyirdilər. O isə fani dünya mənfəətini bir kənara qoyaraq:

- Mən əsla Onu inkar etmərəm! Mən Onunla bərabərəm!.. - deyir, əbədi səadəti hər şeydən üstün tuturdu. Üzləşdiyi zülm və işgəncələrdən birini özü belə nəql edir: "Bir gün borcumu almaq üçün As bin Vailin yanına getdim:

- Məhəmmədi inkar etməyənə qədər borcumu qaytarmayacağam, - dedi.

Mən də:

- Sən ölənə, hətta, yenidən dirilənə qədər Məhəmmədi əsla inkar etməyəcəm!, - cavabını verdim.

İPƏKYOLU NƏŞRİYYATI

- Yəni mən öləcəyəm, sonra yenidən diriləcəyəm, eləmi?, - söylədi.

Mən:

- Bəli, - cavabını verdim.

As bin Vail:

- Elə isə yenidən diriləndə var-dövlətim olar, o vaxt da borcumu qaytararam!, - dedi.

Bundan sonra aşağıdakı ayələr nazil oldu:

"(Ya Peyğəmbər!) **Ayələrimizi inkar edib: "Əgər** (qiyamət qopsa, axirətdə) **mənə mütləq var-dövlət veriləcəkdir!" - deyən adamı gördünmü? Görəsən, o, qeybə vaqif olmuş, yoxsa Rəhmandan** (bu barədə) **söz** (əhd) **almışdır?! Xeyr, onun dediklərini** (əməl dəftərinə) **yazacaq, əzabını artırdıqca artıracağıq. Onun dediyi şeylər** (mal-dövləti, övladı) **Bizə qalacaq və hüzurumuza tək-tənha gələcəkdir".** (Məryəm, 77-80), (Buxari, "Təfsir", 19/3; Müslüm, "Münafiqin", 35-36; Tirmizi "Təfsir", 19/3162).

Hz. Bilal (r.a) da (181) ən qəddar işgəncələrə məruz qalanlardan biri idi. Sahibi Ümeyyə bin Xələf Bilala ağıla gəlməyən işgəncələr verirdi. Onu qızmar qumun üzərində uzandırır, sinəsinin üstünə böyük daşlar qoyur, bəzən də Məkkə küçələrində sürükləyirdi. Bilal Həbəşini (r.a) bir gün bir gecə susuz qoyduqdan sonra ona dəmirdən bir köynək geyindirər, şiddətli istinin altında qızmar qum üstündə saxlayar, bədəninin piyi əriyənə qədər gözləyərdilər.

Müşriklər Bilal Həbəşiyə (r.a) hər cür işgəncə vermələrinə baxmayaraq, o, istədikləri sözü söyləməz, həmişə "Əhəd! Əhəd! Əhəd!" (Allah təkdir! Allah Təkdir! Allah təkdir!) deyərdi.

Müsəlmanlara rəva görülənlər təkcə əzab-əziyyətdən ibarət deyildi. Əmmarın (r.a) atası Hz. Yasir müşriklərin dedirtdirmək istədikləri sözləri söyləmədi və onların ağır işgəncələri altında şəhid oldu. Anası Hz. Sümeyyə vəhşicəsinə verilən işgəncələrdən sonra bir ayağı bir dəvəyə, o biri ayağı da başqa bir dəvəyə bağlanaraq canavarcasına parçalandı, faciəvi şəkildə şəhid edildi. Beləcə, Yasir ailəsinin üzvləri (radiyallahu anhum) İslamın ilk şəhidləri oldular.

Allah Rəsulu (s.ə.s) bir gün işgəncə verilən vaxt bu mübarək ailə ilə qarşılaşdı. **"Səbir edin, ey Yasir ailəsi! Sevinin, ey Yasir ailəsi! Şübhəsiz, sizin məqamınız cənnətdir!"** - buyurdu. (Hakim, III, 432, 438).

Hz. Əmmar (r.a) dəhşətli əzab və işgəncələrə məruz qalmışdı. Qureyş müşrikləri bir gün Hz. Əmmarı tutdular, başını quyunun içinə salaraq:

- Məhəmmədi tənqid edib, Lat və Uzzanı tərifləyənə qədər səni burax-

mayacağıq! - dedilər və bunu zorla söylətdilər. Allah Rəsuluna (s.ə.s):

- Ya Rəsulullah! Əmmar kafir oldu! - deyə xəbər verdilər.

Kainatın fəxri olan Peyğəmbərimiz (s.ə.s):

- Xeyr! Əmmar təpədən dırnağa qədər imanlı bir adamdır! İman onun ətinə və canına işləyib, - buyurdu. Elə bu vaxt Əmmar (r.a) Peyğəmbərimizin (s.ə.s) yanına gəldi. Mübarək səhabə ağlayırdı... Aləmlərin rəhbəri onun göz yaşlarını əli ilə silərək:

- Sənə nə oldu? - deyə soruşdu.

Əmmar (r.a):

- Ya Rəsulullah! Məni Səni təhqir etməyənə və bütlərin də Sənin dinindən yaxşı olduğunu söyləməyənə qədər buraxmadılar! - dedi.

Allah Rəsulu (s.ə.s):

- Sən bunları söyləyəndə qəlbin necə idi? - deyə soruşdu.

Əmmar (ra):

- Qəlbim Allah və Rəsuluna imanın rahatlığı içində idi, dinimə bağlılığım isə dəmirdən daha möhkəm idi, - dedi.

Bundan sonra Allah Rəsulu (s.ə.s) bir tərəfdən onun gözlərinin yaşını sildi, o biri tərəfdən isə:

- Ey Əmmar! Əgər onlar səni bir daha bu söylədiklərini təkrarlamağa məcbur etsələr, yenə də söylə! - buyurdu. Bu hadisə ilə bağlı aşağıdakı ayə nazil oldu:

**"Qəlbi imanla sabit olduğu halda** (küfr sözünü deməyə) **məcbur edilən** (dil ilə deyib ürəyində onu təsdiq etməyən) **kimsə istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə,** (onu bəla gözləyir). **Lakin qəlbən küfrə razı olanlara** (qəlbində könüllü şəkildə küfrə yer verənlərə) **Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olarlar!"** (ən-Nəhl, 106), (İbni-Sad, III, 249; İbni-Əsir, "əl-Kamil", II, 67; Heysəmi, IX, 295; Vahidi, s. 288-289).

Bu hadisə imana zidd bir ifadənin yalnız ölüm təhlükəsi olduğu zaman söylənə biləcəyinə, bundan başqa heç vaxt icazə verilmədiyinə dair dini bir dəlildir.

*****

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

İslam düşməni olan müşriklər Hz. Suheybi (r.a) də özündən gedənədək döyərdilər. Zinnirə xatun isə müşriklərin min bir əzab-əziyyətinə məruz qalmış xanım bir kölə idi. Əbu Cəhlin verdiyi işgəncələrə görə kor olmuşdu. Əbu Səhl:

- Gördünmü? Lat və Uzza sənin gözünü kor etdi! - dedi.

Zinnirə xatun:

- Xeyr! Vallah, mənim gözlərimi kor edən onlar deyil! Lat və Uzza insanlara nə zərər, nə də fayda verə bilər. Amma mənim Rəbbim yenidən gözlərimə işıq verməyə qadirdir" - cavabını verdi. Səhəri gün uca Allahın Zinnirə xatunun gözlərinə işıq verdiyini gördülər. (Ibni-Hişam, I, 340-341; İbni-Əsir, "əl-Kamil", II, 69; "Üsdül-Qabə", VII, 123).

Müsəlmanların bunlardan başqa, bir çoxu da sıxıntı və iztirab içərisində idi. Amr bin Füxeyrə, Əbu Fükeyhə, Miqdad bin Amr, Ümmü Ubeys, Lübeynə xatun, Nəhdiyə xatun və qızı kimi Peyğəmbərimizin şərəfli əshabı ağlagəlməz işgəncələrə məruz qalmışdır. Müşriklər onları çılpaq şəkildə ayaqlarından zəncirlə bağlayıb sürütləyir, istinin ən şiddətli vaxtlarında çölə çıxarır, sinələrinin üstünə böyük qaya parçaları qoyur, huşlarını itirib nə söylədiklərini bilmədikləri hala gələnə qədər olmazın əzab-əziyyətini verirdilər. Boğazlarını sıxır və öldüklərini zənn edincəyə qədər buraxmırdılar.

Bu cür vəziyyət başda Hz. Peyğəmbər olmaqla bütün möminləri ciddi narahat edirdi. Ancaq o dövrdə əllərindən heç nə gəlmirdi. Yalnız maddi vəziyyəti yaxşı olan iman abidəsi Hz. Əbu Bəkir aralarında Hz.Bilalın da olduğu yeddi müsəlman köləni sahiblərindən satın alaraq azad etdi, beləcə, onları amansız işgəncələrdən qurtara bildi. Ancaq müşriklərin işgəncələri günü-gündən artır, zəif və kimsəsiz möminlərdən sonra Allah Rəsulu (s.ə.s) və yanında olan Hz. Əbu Bəkir, Hz. Osman, Zübeyr bin Avvam, Musab bin Umeyr kimi varlı insanlar da əziyyət və işgəncələrə məruz qalırdılar. Müşriklər Məkkənin ən dəyərsiz, səfeh insanlarını qabağa verərək Hz. Peyğəmbərin (s.ə.s) üstünə salırdılar. Ona sehrbazlıq, kahinlik, divanəlik və şairlik kimi özlərinin belə inanmadıqları yalan və iftiralarla əziyyət edirdilər.

Allah Rəsulu (s.ə.s) bu cür zülmlərə məruz qalmasına baxmayaraq, tövhid məsələsində müşriklərlə heç bir anlaşmaya getmədi, dinində əsla güzəşt etmədi. Üstəlik, səhabələrindən soruşdu:

- İçinizdən kim gedib Kəbədə müşriklərə Quran oxuya bilər?

Bu təklifə cani-könüldən "Mən, ya Rəsulullah!" - deyən Abdullah bin Məsud Kəbədə müşriklərə Quran oxumuş və buna görə də, azğın zalimlər tərəfindən qəddarcasına döyülmüşdür. Yoldaşları:

- Onsuz da, biz səni belə bir aqibət gözləməsindən qorxurduq! - dedilər.

Abdullah bin Məsud isə:

- Bu an mənim nəzərimdə onlardan daha zəif və aciz vəziyyətdə olan heç kim yoxdur! İstəsəniz, sabah da gedər, onlara yenə Quran oxuyuram! - cavabını verdi.

Yoldaşları:

- Xeyr! Onları xoşlamadıqları şeyə qulaq asdırdın. Sənin üçün bu qədər kifayətdir! - dedilər. (İbni-Hişam, I, 336-337).

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

## PEYĞƏMBƏRLİYİN BEŞİNCİ İLİ

### Həbəşistana hicrət ve qaranik məsələsi

Peyğəmbərimiz (s.ə.s) qureyşlilərin amansız əzab-əziyyətləri qarşısında müsəlmanlara hicrət əmri verdi. Çünki onlar dini vəzifələrini azad və sərbəst şəkildə yerinə yetirə bilmirdilər. Həmçinin, dini yaymaq da vəzifələri idi.

Səhabələr haraya hicrət edəcəklərini soruşduqda Rəsuli-Əkrəm: "Həbəşistana! Çünki orada xalqına zülm etməyən bir hökmdar var. Həm də ora düzgünlük ölkəsidir. Uca Allah üzləşdiyimiz çətinliklərdən bir qurtuluş yolu lütf etməyənə qədər orada qalın" - buyurdu. (İbni-Hişam, I, 343; İbni-Sad, I, 203-204).

İlk hicrət peyğəmbərliyin Məkkə dövrünün beşinci ilinin Rəcəb ayında baş verdi. İlk hicrət karvanı on iki kişi, beş qadın olmaqla ümumilikdə on yeddi nəfərdən ibarət idi. Onların arasında Hz. Osman bin Affan, xanımı Hz. Ruqiyyə, Zübeyr bin Avvam, Musab bin Umeyr, Əbdürrəhman bin Əfv, Əbu Sələmə, Ümmü Sələmə, Oman bin Mazun, İbni-Məsud (radiyallahu anhum) kimi səhabələrin ən tanınmışları var idi. Məkkədən gizli çıxan mühacirlər Şuaybə limanına çatdıqda uca Allahın lütfü olaraq iki ticarət gəmisi gəldi. Mühacirlər onları Həbəşistana keçirmək üçün gəmidəkilərlə yarım qızıla razılaşdılar. Qureyşlilər mühacirləri tutmaq üçün arxalarınca düşsələr də, istəklərinə çata bilmədilər. Onlar sahilə çatanda gəmilər çoxdan yola düşmüşdü. (İbni-Sad, I, 204).

İlk mühacirlər Həbəşistanda üç ay qaldılar. Çünki məkkəli müşriklərin artıq iman gətirdiklərinə dair şayiə yayılmışdı. Buna görə də, hicrət karvanı geri qayıtdı. Otuz üç kişi, altı xanımdan ibarət otuz doqquz nəfərlik karvan peyğəmbərliyin beşinci ilinin Şəvval ayında Həbəşistandan yola çıxdı. Məkkəyə yaxınlaşdıqda müşriklərin müsəlman olduğuna dair xəbərin yalan olduğunu öyrəndilər. Yenidən Həbşistana qayıtmaq onlara çox ağır gəldi. Amma Məkkəyə himayəsiz daxil olmaqdan da qorxdular. Yalnız müşrik olan qohumlarının və dostlarının himayəsi altında, ya da gizli şəkildə Məkkəyə daxil ola bilərdilər. (İbni-Hişam, II, 3-8; İbni-Sad, I, 206; Heysəmi, VI, 33).

İPƏKYOLU NƏŞRİYYATI

Allah Rəsulu (s.ə.s) yeni nazil olan Nəcm surəsini Hərami-Şərifdə oradakılara yüksək səslə oxuyurdu. Surənin sonunda səcdə ayəsi gəldikdə Hz. Peyğəmbər uca Allaha səcdə etdi. Onunla birlikdə bütün möminlər, müşriklər, insanlar, cinlər, bir sözlə, hər kəs səcdəyə qapandı. (Buxari, "Təfsir", 53/4). Ancaq müşriklər Allaha deyil, surədə adları çəkilən bütlərinə səcdə etdilər. Bundan sonra uydurulan və "Qaranik məsələsi" deyə ortaya atılan rəzil iddiaya əsas kimi göstərilən dəlil, bax, bundan ibarətdir.

Məkkəli müşriklərin İslam dinini qəbul etmələrinə dair yayılan şayiənin səbəbi müsəlmanlarla müşriklərin ayrı-ayrı mahiyyətdə olan iki səcdəni eyni vaxtda etmələridir. İşin əslinin yalnız bundan ibarət olmasına baxmayaraq, sonralar "Qaranik məsələsi" deyilən bir iftira ortaya atıldı. Guya şeytan ayələrin arasına "bütlərin də şəfaətinin olacağı" mənasında bir fısıltı əlavə etmiş, müşriklər də bundan məmnun olub səcdəyə getmişlər, ancaq yanlışlıq sonradan aydınlaşıb!..

Bu hadisə ilə bağlı sadəsə bəzi şərqşünaslar kimi İslamla düşmənçilik edən bir qrup şəxs həqiqəti saxtalaşdırmışdır. Halbuki, təfsir, hədis, siyər və İslam tarixi üzrə ən böyük alimlər həm rəvayət, həm də iddianın İslam əqidəsi ilə uyğunlaşması baxımından bu uydurulmuş hadisəni incələmiş və qəti şəkildə təkzib etmişlər.

Əvvəla, Allah Rəsulu (s.ə.s) ilahi vəhyi insanlara təbliğ etmək vəzifəsində qəflət və yanılmadan mühafizə edilib. Şeytanın peyğəmbərlərin risalət vəzifəsinə müdaxilə etməsi əsla mümkün deyildir. Uca Allah şeytanın mömin bəndələrə belə heç vaxt təzyiqinin olmadığını bəyan etdiyi halda onun Allah Rəsulunun (s.ə.s) təbliğinə müdaxilə etdiyini düşünmək qeyri-mümkündür.

Qaranik hadisəsinin olduğuna dair rəvayət sənəd baxımından da əsassızdır. Bununla bağlı İbni-Hüzeymə: "Qaranik hadisəsi zındıqların uydurmasıdır!" - demişdir.

Səhih hədislərin rəvayət edildiyi heç bir kitabın bunu nəql etməməsi, heç bir rəvayətçinin bunu səhih və bir-birini təsdiq edən bir sənədlə rəvayət etməməsi, onun çürük bir iddia oluduğunu demək üçün kifayətdir.

Qaranik iddiası məntiqi baxımdan da əsassızdır. Çünki Qaranik məsələsində şirk iddiası var. Halbuki, İslam dini ilk andan etibarən tövhid kəlməsini təbliğ edib. İslamın təməl prinsipi olan tövhid inancının qarşısında bu cür iddiaların heç bir məqbul tərəfi yoxdur. Sözügedən Nəcm surəsində isə əvvəldən axıra qədər şirk təhqir edilir, bütlərin quru addan ibarət olduğu,

İPƏKYOLU NƏŞRİYYATI

müşriklərin sırf zənnə və həvəsə uyduqları bildirilir. Belə bir surənin içinə müşriklərin müsbət qarşılayıb səcdə edəcəkləri bir sözün qarışdırılması, lap qarışdırılsa da, bunun müşrikləri razı salması mümkün deyildir. Məkkə müşriklərinin onları təhqir edən bu qədər ayə arasında - haşa - şeytanın qoyduğu iki cümlə ilə yumşalıb səcdəyə qapanmaları mümkün deyildir. Bu iftiraya ən gözəl savab elə həmin surənin əvvəlində verilir:

**"Sizin yoldaşınız** (Məhəmməd - əleyhissəlam) **nə haqq yoldan sapmış, nə də azmışdır. O, həva-həvəslə danışmır** (nəfsinə uyub kefi istədiyini) **demir. Bu, ancaq** (Allah dərgahından) **nazil olan bir vəhydir!"** (ən-Nəcm, 2-4).

Bu iddianın İslama qarşı qərəzli şəkildə düşmənçilik məqsədilə ortaya atıldığı İslam alimləri tərəfindən müxtəlif cəhətlərdən sübut edilib. On üç illik Məkkə dövrü şirki aradan qaldırmaq və qəlblərdəki tövhid inancını gücləndirmək mübarizəsi ilə keçib. Çünki tövhid inancı Allaha hər hansı bir varlığı şərik qoşmağı qəbul etmir.

### Həbəşistana ikinci hicrət

Müsəlmanlar ikinci Həbəşistan hicrətinə Məkkə dövrünün yeddinci ilində məcbur qaldılar. Bu dəfəki sayları doxsan idi. Yetmiş yeddisi kişi, on üçü qadın idi. Başlarında Həzrət Əlinin böyük qardaşı Səfər -radiyallahu anh- var idi.

Birinci Həbəşistan hicrətinə o qədər də fikir verməyən Qureyş müşrikləri orada mühacirlərə gözəl münasibət göstərildiyini öyrəndikdə ciddi narahatçılıq hissi keçirdilər. Onlar İslamın ətrafa yayılacağı halda bu prosesin qarşısını ala bilməyəcəklərini düşünürdülər. Həbəşistan hökmdarından müsəlmanları geri qaytarmasını istəmələri ilə bağlı qərara gəlib dərhal Abdullah bir Rabia ilə Amr bin Ası Nəsaşiyə və sərkərdələrinə vermək üçün müxtəlif hədiyyələrlə yola saldılar.

Əbu Talib qureyşlilərin Nəcaşiyə elçi və hədiyyələr göndərməsindən xəbər tutduqda mühasirləri müşriklərin hiyləsindən qorumağa təşviq etmək üçün Nəcaşiyə xitabən onu mədh edən bir qəsidə yazıb göndərdi. (İbni-Hişam,I, 356).

Amr və yoldaşları Nəcaşi ilə görüşməzdən əvvəl sərkərdələrinə müxtəlif hədiyyələr verərək onları öz tərəflərinə çəkməyə nail oldular. Müşriklərdən ibarət heyət sonra Nəcaşiyə hədiyyələr təqdim edib belə dedi: "Ey

hökmdar! Bizdən bir qrup ağlı kəsməyən gənc sənin ölkənə gəlib sığınıb. Onlar babalarının dinindən çıxıblar, sənin dinini də qəbul etməyiblər. Onlar yeni din icad ediblər. Qohumları onları geri qaytarmağımız üçün bizi sənin yanına göndərdi. Çünki qövmü bunları hamıdan yaxşı tanıyır, qəbahətlərini başqalarından daha yaxşı anlayır".

Onlar Nəcaşinin Hz. Cəfər və yoldaşlarına qulaq asıb təsir altına düşəcəyindən qorxurdular. Buna görə də, Nəcaşinin mühasirləri mühakimə etmədən onlara təslim etməsini istəyirdilər. Nəcaşinin sərkərdələri də:

- Hökmdar! Bu adamlar doğru söyləyirlər. Qövmləri onları daha yaxşı tanıyır. Sən onları bu adamlara təslim et, öz məmləkətlərinə aparsınlar! - dedilər.

Nəcaşi hirsləndi və:

- Əsla! Mən onları dinləmədən heç kimə təslim edə bilmərəm! Məni başqalarından üstün tutub ölkəmə sığınmış camaata pislik etmərəm! - dedi. Sonra xəbər göndərib mühacirləri yanına çağırtdırdı. Nəcaşi özünün din xadimlərini də məclisə dəvət etdi. Onlar Nəcaşinin ətrafında kitablarını açıb oturdular. Mühacirlər gəldikdə Nəcaşi hər iki tərəfi hüzurunda üzləşdirdi. Tarixi bir həyəcan yaşandı. Müsəlmanların rəhbəri Hz. Cəfər (r.a) idi. Nəcaşi müsəlmanların rəhbərinə tərəf dönüb:

- Qureyşlilər elçi göndərib sizin Məkkəyə qayıtmağınızı istəyirlər, - dedi.

Cəfər (r.a) hökmdara:

- Ey hökmdar! Bunlardan soruşun, məgər köləyik ki, bizi geri qaytarmaq istəyirlər? - dedi.

Nəcaşi Amr bin Asa baxdı. O da savab verdi:

- Xeyr! Heç biri kölə deyil.

Mükalimə belə davam etdi:

- Bunlardan soruşun, məgər borcumuz var ki, bizi geri qaytarmaq istəyirlər?

- Xeyr! Heç birinin heç kimə borcu yoxdur.

- Bunlardan soruşun, məgər qatilik ki, qisas almaq üçün bizi geri çağırırlar?

- Xeyr! Belə bir istəyimiz yoxdur!

- Elə isə niyə bizi geri qaytarmaq istəyirlər?

Bu zaman Amr belə dedi: "Bunlar babalarımızın dinindən çıxdılar. İlahlarımızı təhqir etdilər. Gənclərimizin etiqadını pozdular. Xalqımızın arasına nifaq saldılar. Bütün Məkkə əhalisi iki hissəyə bölündü".

Bundan sonra Nəcaşi:

- Siz nə mənim, nə də qövmünüzün dinini qəbul edirsiniz? Sizin qəbul etdiyiniz bu din necə bir dindir? - deyə soruşdu.

Cəfər Təyyar (r.a) sözə başladı:

- Ey hökmdar! Biz cahil qövm idik. Daşdan, ağacdan düzəltdiyimiz bütlərə ilah deyərək sitayiş edirdik. Ölü heyvanların ətini yeyirdik, qız uşaqlarını diri-diri torpağa basdırırdıq. Qumar oynayar, sələmçiliklə məşğul olardıq. Zinanı və bir qadının bir neçə kişi ilə münasibət qurması kimi namussuzluğu pis iş saymırdıq. Qohum-əqrəbalarımıza qarşı vəzifələrimizi də bilmirdik. Qonşularımızın haqqına hörmət etmirdik. Güclülər zəifləri əzir, kasıbların hesabına varlanırdılar. Aramızda haqq bilinmirdi. Allah bizə mərhəmət etdi və bizim islah olunmağımızı istədi, öz aramızdan bir peyğəmbər göndərdi. O peyğəmbər əsil-nəcabətli bir ailədən və təmiz bir qəbilədəndir. Ona "əl-Əmin" adı vermişdik. O, bizi Allahın birliyinə çağırdı. Ona itaət etməyi öyrətdi. Babalarımızın bütlərindən bizi xilas etdi. Bütün əxlaqsızlıqlardan bizi uzaqlaşdırdı. Qan tökməyi, qumar oynamağı, içkini, faizi, yalançılığı, yetimlərin mallarına toxunmağı qadağan etdi. Bizə ancaq yaxşılıq öyrətdi. Düzgünlüyü, sözünün üstündə durmağı, qonşuya və qohumlara yaxşı münasibət göstərməyi, qadınların şərəfini, qız uşaqlarının canlarını qorumağı əmr etdi. Bizi vəhşətdən qurtardı. Mədəniyyətə qovuşdurdu. Yaxşı bir insan olmağımıza nail oldu. Biz də Ona inandıq. Onun yolu ilə getdik. Buna görə də, Qureyşə düşmən olduq. Müxtəlif işgəncələrə məruz qaldıq. Ancaq işgəncələr dözülməz hala gəlincə, dinimizdən dönməmək üçün Peyğəmbərimizdən icazə alaraq hökmdarlar arasında sizi üstün bilərək ölkənizə gəldik. Ölkənizdə zülmə məruz qalmayacağımıza ümid edərək himayənizə sığındıq!..

Cəfərin (r.a) sözlərini sakit tərzdə dinləyən Nəcaşi:

- Allahın Peyğəmbərinizə göndərdiyi vəhydən heç əzbər bilirsənmi? - deyə soruşdu.

Cəfər (r.a):

- Bəli, - dedi və Məryəm surəsinin ilk ayələrindən, Yəhya və İsanın - əleyhissəlam - dünyaya gəlmələri ilə bağlı ayələri oxuduqda Nəcaşi və adamları təsirlənib ağladılar.

Nəcaşi:

- Allaha and içirəm ki, bu sözlər Hz. Musaya və Hz. İsaya nazil olan vəhylə yeni qaynaqdandır! - dedi. Sonra Qureyş elçilərinə tərəf dönüb:

- Mən bu mühacirləri sizə təslim edə bilmərəm! - deyərək təkliflərini rədd etdi.

Elçilər Nəcaşinin yanından ayrılan zaman Amr: "Allaha and içirəm ki, Nəcaşiyə bunların İsa bin Məryəmin bir bəndə olduğuna inandıqlarını söyləyəcəyəm və onların kökünü qazacağam!" -dedi.

Səhəri gün Nəcaşinin hüzuruna çıxıb "Ey Hökmdar! Onlar İsa bin Məryəm haqqında çox azğın sözlər söyləyirlər! İstəyirsən, yanına çağır, onun haqqında nələr söylədiklərini soruş", - dedi. Nəcaşi müsəlmanları yenidən yanına çağırdı və onlara:

- Məryəm oğlu İsa haqqında nə düşünürsünüz, söyləyin, görüm? dedi. Cəfər Təyyar həzrətləri:

- Biz onu Peyğəmbərimizin öyrətdiyi kimi tanıyırıq. Allah Rəsulu onun haqqında belə buyurur: "İsa Allahın qulu, Rəsulu, Ruhu və hər şeyi buraxaraq özünü Allaha həsr etmiş Məryəmə təqdim etdiyi kəliməsidir", dedikdə Nəcaşi yerdən bir çöp götürərək:

- Allaha and içirəm ki, İsa bin Məryəm sənin söylədiklərin kimidir. Sizin söylədiklərinizlə Hz. İsanın həqiqəti arasında bu çöp qədər fərq yoxdur! - dedi. Nəcaşi bu sözləri söylədikdə ətrafındakı sərkərdələr donquldanmağa başladılar. Nəcaşi onlara: "Vallah, siz donquldasanız da, həqiqət belədir!, - dedi. Mühacirlərə isə: "Gedin! Siz mənim ölkəmdə tam təhlükəsizsiniz! Sizə kim dil uzatsa, cəzalandırılacaq! Dağ qədər qızıl versələr belə, mən yenə də sizdən birinizə əziyyət vermək istəmərəm! Gətirdikləri hədiyyələri də bu iki adamla geri qaytarın! Mənim onların hədiyyələrinə ehtiyacım yoxdur! Əgər Peyğəmbərin yanında olsaydım, ayaqlarına su tökmək üçün Ona xidmət edərdim!.." (İbni-Hişam, I, 356-361; Əhməd, I, 202-203, V, 290-291; Heysəmi, VI, 25-27).

İPƏKYOLU NƏŞRİYYATI

Başqa bir rəvayətdə bildirildiyinə görə, Nəcaşi bunları da söyləyib: "Şəhadət edirəm ki, Məhəmməd Allahın Rəsuludur. O, Hz.İsanın müjdələdiyi şəxsdir. Əgər mən bu səltənətin başında olmasaydım, Onun ayaqqabılarını daşımaq üçün yanına gedərdim". (Əbu Davud, "Cənaiz", 55-57/3205).

*****

Hz. Cəfərin Nəcaşiyə verdiyi cavab İslam təbliğatçıları üçün harada, necə danışmaları baxımından gözəl bir nümunədir ki, bu üsluba hər zaman riayət etmək lazımdır. Ondan Quran oxuması istənildikdə hər hansı bir yeri deyil, mövcud vəziyyətə uyğun münasib ayələri, yəni Məryəm surəsinin Hz. İsa ilə bağlı qismini oxuyaraq cavab verməsi təqdirəlayiqdir. Eyni şəkildə müşriklərin mühacirləri geri qaytarmaq üçün irəli sürdüyü bəhanələrə ağıllı və məntiqli cavablar verərək onlara gələn dinin haqq, hüquq və gözəl əxlaqı əmr etdiyini söyləməsi də diqqəti çəkir. Peyğəmbərimizin (s.ə.s) mühacirlər karvanına Cəfəri (r.a) rəhbər təyin etməsinin də müəyyən hikmətləri vardır. Allah Rəsulu (s.ə.s) bu davranışı ilə rəhbər təyin edilən şəxslərin gedəcəkləri yerə və qabiliyyətlərinə görə vəzifələndirilməsinin zəruriliyinə diqqət yönəltmişdir.

Ikinci Həbəşistan hicrətinə qatılanların bir qismi Peyğəmbərimizin (s.ə.s) Mədinəyə hicrətindən sonra, bir qismi də Hüdeybiyə razılaşması dövründə geri qayıtmışdır. Hz. Cəfərin (r.a) rəhbərlik etdiyi son karvan isə Xeybər fəthində Mədinəyə gəlmiş və Allah Rəsulunu (s.ə.s) sevindirmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

## PEYĞƏMBƏRLİYİN ALTINCI İLİ

### Hz. Həmzənin müsəlman olması

Allah Rəsulu (s.ə.s) müşriklərə Kəbədə Quran oxumaq üçün təkcə əshabını göndərmirdi. Müxtəlif vaxtlarda özü də gedib Kəbədə Allahın ayələrini oxuyurdı. Bu gedişlərin birində Əbu Cəhl Hz. Peyğəmbərə həqarətdə həddini aşdı. Ətrafındakı digər müşriklərə də güc nümayiş etdirmək istəyərək daha da qabağa gedirdi ki, bir qadın qaçaraq vəziyyəti o əsnada ovdan qayıdan Hz. Həmzəyə bildirdi. "Ey igidlər igidi! Kəbədə qardaşın oğluna həqarət edirlər, qorxuram ki, Ona əziyyət verələr, pislik edələr!.." - dedi.

Hz. Həmzə tez Kəbəyə tərəf qaçdı və məlun Əbu Cəhlə mane oldu. Əlindəki yayı ilə o xəbisin başına elə vurdu ki, Əbu Cəhlin başından qan axdı. Onun bu azğınlığına belə bir müdaxilə olacağını gözləməyən İslam düşməni çaşqın halda və canından qorxaraq qaçarcasına oradan uzaqlaşdı. Bunu görən digər müşriklər də bir-bir, iki-iki oradan çıxıb getdilər. Çünki hamısı Hz. Həmzənin gücünə çox yaxşı bələd idi. Ondan Qureyşin bütün pəhləvanları çəkinir və qarşısına çıxmağa cürət etmirdilər.

Bundan sonra Hz. Həmzə aləmlərin rəhbəri olan qardaşı oğlu Hz. Məhəmmədin yanına gedərək:

- İntiqamını aldım, ey Məhəmməd, artıq rahat ol! - dedi.

Peyğəmbərimiz (s.ə.s) əmisinin bu hərəkətinə savab olaraq:

- Ey əmi! Mən daha çox sən müsəlman olanda sevinəcəyəm! - söylədi.

Hz. Həmzənin qəlbindəki qəflət pərdəsi aralandı. O igidlər igidi həqiqəti dərk edərək təbəssümlə mübarək qardaşı oğluna baxdı və uca nurunu seyr edə-edə:

اَشْهَدُ اَنْ لاٰ اِلَهَ اِلاَّ اللّٰهُ وَاَشْهَدُ اَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ

deyərək kəlmeyi-şəhadət gətirdi.

Hz. Həmzə (r.a) Peyğəmbərimizdən (s.ə.s) iki yaş böyük idi və Onun həm əmisi, həm də süd qardaşı sayılırdı.

İPƏKYOLU NƏŞRİYYATI

Allah Rəsulu (s.ə.s): *"Ey əmi! Mən daha çox sən müsəlman olanda sevinəcəyəm!"* - buyurmaqla şəxsi intiqamının alınmasına yox, onun hidayətə qovuşmasına görə sevinəcəyini bildirərək fani dünya həyatının deyil, əbədi axirət həyatının mühüm olduğunu ifadə etmişdir.

Bu hadisə İslamı ucaldan xidmətləri şəxsi mənfəətlərimizdən həmişə üstün tutmağımızın və fərdi məsələlərdə deyil, dini xidmət və səylərdə uğur qazanmağımızla rahatlıq tapmağımızın zəruriliyini təlqin edir.

İPƏKYOLU NƏŞRİYYATI

### Hz. Ömərin müsəlman olması

Hz. Ömər (r.a) Allah Rəsulundan (s.ə.s) on üç yaş kiçikdir. Nəsli doqquzuncu babada Peyğəmbərimizlə birləşir.

Müşriklər məsləhət məclisləri olan Darun-Nədvədə toplaşdılar və Peyğəmbərimizi (s.ə.s) öldürmək qərarına gəldilər. Bunun üçün də aralarından sərt təbiətli, cəsur və bahadır birini, Ömər bin Xəttabı seçib Hz. Peyğəmbərin üstünə göndərdilər. Ömər aləmlərin sultanını öldürmək məqsədilə qafilcəsinə yola çıxdı. Yolda Nuaym bin Abdullaha (r.a) rast gəldi. Nuaym Ömərin halından şübhələnərək:

- Ey Ömər! Haraya gedirsən? - deyə soruşdu.

Ömər:

- Atalarının dinini tərk edib yeni din gətirən Məhəmmədi öldürməyə gedirəm! - dedi.

Bəsirətli səhabə Nuaym (r.a) zaman qazanmaq niyyəti ilə:

- Ey Ömər! Vallah, nəfsin səni aldadıb! Onu öldürdükdən sonra Əbdi Manaf oğullarının səni sağ buraxacağını düşünürsən?! Sən öncə öz ailənə baxsan, daha yaxşı olar! - dedi. Ömər hiddətlənərək:

- Sən kimi nəzərdə tutursan? - deyə soruşdu.

Nuaym:

- Kim olacaq, kürəkənin Səid bin Zeyd ilə bacın Fatiməni nəzərdə tuturam! Vallah, ikisi də müsəlman olub! - dedi. Nuaym (r.a) Ömərin bu çirkin əməlini öyrəndikdə onu bacısının və kürəkəninin evinə yönəldərək vəziyyəti Allah Rəsuluna (s.ə.s) bildirmək üçün zaman qazandı.

Nuaymdan bu sözləri eşidən Ömər daha da hirsləndi və bu vəziyyətdə bir başa bacısının evinə tərəf yönəldi. O əsnada Həbbab (r.a) bacısının və kürəkəninin yanında idi və Qurani-Kərim öyrənirdilər. Ömərin əsəbi halda onlara tərəf gəldiyini gördükdə Həbbabı (r.a) evin otaqlarından birində gizlətdilər. Fatimə xatun dərhal Qurani-Kərimin səhifəsini də gizlətdi. Ömər evə daxil olduqda:

- Oxuduğunuz nə idi? - deyə soruşdu.

Kürəkəni və bacısı:

- Sən yəqin, səhv eşidibsən, heç nə oxumurduq! - dedilər.

Ömər:

- Xeyr! Vallah, ikinizin də Məhəmmədə tabe olduğunuzu öyrəndim! - söylədi və hirslə kürəkəninin üstünə yeridi. Onu döyməyə başladı. Araya girən bacısı Fatiməni sillələdi. Bundan sonra Fatimə:

- Ey Ömər! Nə edirsən, et! İstəyirsən, bizi öldür! Biz İslamdan əsla dönməyəcəyik!.. - dedi.

Fatimə (radiyallahu anha) iman cəsarəti ilə bu sözləri hayqırarkən mübarək üzündən inci damlası kimi qan sızırdı. Bacısından belə bir cavab gözləməyən Öməri heyrət bürüdü. Bacısının üzündən axan qanı gördükdə isə ürəyi sızıldadı. Buna görə peşman olaraq:

- O oxuduğunuzu gətirin, görüm! - dedi.

Bacısı:

- Biz sənin səhifəyə zərər verəcəyindən qorxuruq! - cavabını verdi.

Ömər:

-Qorxma! - söylədi və onu oxuduqdan sonra geri qaytaracağına dair ilahlarına and içdi. Bundan sonra Fatimə xatun onun müsəlman olacağına ümid edərək:

- Ey qardaşım, sən bütə sitayiş etdiyin müddətdə təmiz deyilsən! Halbuki, Quran yazılmış səhifəyə pak olmayan adam toxuna bilməz! - dedi. Ömər gedib qüsl aldıqdan sonra Fatimə xatun səhifəni ona verdi. Sonra Ömər ona verilən ayələri oxumağa başladı:

**"Ta, Ha! Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik.** (Biz onu Allahın əzabından) **qorxan bir kimsəyə yalnız öyüd-nəsihət**

İPƏKYOLU NƏŞRİYYATI

**olaraq** (göndərdik). **O, yeri və uca göyləri yaradandan** (Allahdan) **nazil olmuşdur. Rəhman ərşi yaradıb hökmü altına almışdır. Göylərdə və yerdə, onların arasında və torpağın altında** (yeddi qat yerdə) **nə varsa,** (hamısı) **Onundur**. (Ey insan!) **Sən** (dua edərkən) **səsini ucaltsan da, ucaltmasan da, heç bir fərqi yoxdur. Çünki Allah sirri də, sirdən daha gizli olanı da** (məxfini də) **bilir. Allahdan başqa heç bir tanrı yoxdur. Ən gözəl adlar** (əsmayi-hüsna) **yalnız Ona məxsusdur. Musanın hekayəti sənə gəlib çatdımı? O zaman** (Musa qarşıda) **bir od görüb ailəsinə belə demişdi: "Siz** (yerinizdə) **durun. Mənim gözümə bir od sataşdı. Bəlkə, ondan sizə bir köz gətirdim, yaxud odun yanında bir bələdçi tapdım!** (Musa) **odun yanına yetişdikdə belə bir nida gəldi: "Ya Musa! Mən, həqiqətən, sənin Rəbbinəm! Nəleynini çıxart, çünki sən müqəddəs vadidə -Tuvadasan! Mən səni** (peyğəmbər) **seçdim.** (Sənə) **vəhy olunanı dinlə! Mən həqiqətən, Allaham! Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl! O saat** (qiyamət günü) **mütləq gələcəkdir. Mənim onu az qala açmağım gəlir ki, hər kəs etdiyi əməlin əvəzini alsın. Ehtiyatlı ol ki,** (qiyaməti danıb) **nəfsinin istəklərinə uyan bir kəs səni ona inanmaqdan yayındırmasın, yoxsa məhv olarsan!"** (Taha, 1-16).

Bu ayələri oxuyan Ömər necə deyərlər, yerində donub qaldı.

- Bu sözlər necə də gözəldir! Nə qədər dəyərlidir! - deməkdən özünü saxlaya bilmədi.

Quranın fəsahəti və bəlağəti onu son dərəcə özünə cəlb etdi. Bu sözlər bir bəşərin söyləyə bilməyəcəyi həqiqət və hikmətlərlə dolu idi. Bir anlıq dərin düşüncələrə daldı.

Hz. Ömərin sözlərini eşidən Həbbab (r.a) gizləndiyi yerdən çıxdı.

- Ey Ömər! Vallah, Rəsulullahın (s.ə.s) duası sənə qismət olacaq! Allah Rəsulu dünən "Ya Rəbb! İslamı Əbül-Hakəm bin Hişam, ya da Ömər bin Xəttab ilə gücləndir!" - deyə dua etmişdi. Ey Ömər! Artıq Allahdan qorx! - dedi. Hz. Ömər Həbbaba:

- Ey Həbbab! Sən məni Məhəmmədin olduğu yerə apar, müsəlman olum! - söylədi. Tez yola çıxdılar. Bu dəfə onların ürəkləri imanın sevgi və həyəcanı içində Rəsulullah həqiqətini dərk edə bilməyin məhəbbət və həsrəti ilə dolu idi.

Hz. Ömər Ərkamın evinə çatanda onu Hz. Həmzə qarşıladı. Belində qılınc hazır vəziyyətdə idi. Çünki Nuaym (r.a) onlara daha öncədən Ömərin Allah Rəsulunu öldürməyə gələcəyini xəbər vermişdi. Amma sonrakı proseslərdən heç kimin xəbəri yox idi. Allah Rəsulu (s.ə.s) ayağa qalxıb Ömərə tərəf getdi. Onu səkidə qarşıladı və niyə gəldiyini soruşdu. Hz. Ömər məramını bu məsud cümlə ilə ifadə etdi: "Müsəlman olmağa gəldim, ya Rəsulullah!" Bundan sonra Allah Rəsulu (s.ə.s) uca Allahın nələrə qadir olduğunu ifadə və şükür edərək:

اَللّٰهُ اَكْبَرُ

deyib təkbir gətirdi. Bunu eşidən bütün əshab yüksək səslə təkbir gətirməyə başladı. Beləcə, Allah Rəsulunun (s.ə.s) bir duası da qəbul olundu. Hz. Ömər danışmağa başlayanda qəlbi rahat şəkildə söylədiyi ilk söz kəlmeyi-şəhadət oldu:

اَشْهَدُ اَنْ لاَ اِلٰهَ اِلاَّ اللّٰهُ وَاَشْهَدُ اَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ

Peyğəmbərimizin duası Ömər bin Xəttaba qismət oldu. Əbül-Hakəm bin Hişam, yəni məşhur adı ilə desək, Əbu Cəhl isə bədbəxtlik çuxurunda həlak oldu.

Hz. Ömər Allah Rəsulunun hüzurunda kəlmeyi-şəhadət gətirib müsəlman olduqdan sonra onun təklifi ilə bütün müsəlmanlar birgə Ərkamın evindən çıxdılar. Bu vəziyyət müşrikləri qəhr etdi. O vaxt Allah Rəsulu (s.ə.s) Hz.Ömərə haqqı ilə batili ayırdığı üçün "Fərrux" adını verdi.

Hz. Ömər həmin günləri sonralar belə nəql edib: "Müsəlman olub cəza və səfa çəkməyən, mübarizə aparmayan olmayıb. Amma mənə heç kim toxunmurdu. Öz-özümə dedim ki, müsəlmanlar müxtəlif əzab-əziyyətə məruz qaldığı halda, mən sağ-salamat yaşamaq istəmirəm! İslamı qəbul etdiyim gecə fikirləşdim ki, Məkkə müşriklərindən Rəsulullaha (s.ə.s) qarşı düşmənçilikdə həddi aşan kimlərdirsə, gedib onlara müsəlman olduğumu söyləyim. Səhəri gün gedib Əbu Cəhlin qapısını döydüm. Qapıya çıxdı:

- Xoş gəldin, ey Ömər! Nə xəbər gətirdin? - deyə soruşdu.

Mən:

- Allah və Rəsuluna iman edib Onun gətirdiyi bütün şeyləri təsdiq etdiyimi sənə xəbər verməyə gəldim! - dedikdə lənət yağdıraraq qapını üzümə çırparaq örtdü". (İbni-Hişam, I, 371).

İPƏKYOLU NƏŞRİYYATI

Daha sonra Ömər (r.a) Qureyşin qəddar müşriklərindən dayısı Vəlid bin Müğirənin və həqiqət düşməni daha iki müşrikin yanına gedərək bu gözəl xəbəri vermiş, ancaq onların heç biri Hz. Ömərə bir şey etməyə cəsarət göstərməmiş, qapını üzünə çırpmış, məyus bir şəkildə evlərinə getmişlər. Abdullah bin Məsud (r.a) belə deyir: "Hz. Ömərin müsəlman olması bir fəth, hicrəti kömək, xəlifəliyi isə rəhmət idi. Ömər (r.a) müsəlman olana qədər Kəbənin yanında açıq şəkildə namaz qılmırdıq. O, müsəlman olduqdan sonra Qureyş müşrikləri ilə mübarizə apardı, onlar da bizi sərbəst buraxdılar". (Heysəmi, IX, 62-63).

Hz. Ömər hicrət edənə qədər Məkkədə İslam uğrunda var gücü ilə mübarizə apardı və möminlərlə birgə xeyli əzab-əziyyətə qatlaşdı.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

## PEYĞƏMBƏRLİYİN YEDDİNCİ-DOQQUZUNCU İLLƏRİ:

### ÜÇ İL DAVAM EDƏN BOYKOT

İslam bütün maneələrə baxmayaraq, günü-gündən inkişaf edir və bu vəziyyət müşriklərin kin və həsədinin daha da artmasına səbəb olurdu. Bu hala dözməyən müşriklər Varlıq Nurunun mübarək vücuduna qəsd edərək kainatı qaranlığa qərq etmək qərarına gəldilər. "Onu gizli, ya da aşkar mütləq öldürəcəyik!" - deyə and içdilər. Əbu Talib Qureyş müşriklərinin bu cinayəti törətməkdə israrlı olduqlarını gördükdə Allah Rəsuluna (s.ə.s) görə ciddi narahatlıq keçirdi. Haşim və Müttəlib oğullarını toplayaraq kainatın fəxrinin yanında olmalarını və Onu hər cür təhlükədən qorumalarını əmr etdi.

Məhərrəm ayının doğduğu gecə Əbu Talib başda olmaqla Allah Rəsulu, bütün Haşim və Müttəlib oğulları Əbu Talibin məhəlləsinə toplaşdılar. Yalnız Əbu Ləhəb onlara qatılmadı, bu dəfə də müşriklərin cərgəsinə qoşuldu.

Bundan sonra müşriklər daha artıq qüvvətlənib yayılmasına imkan vermədən İslamı yox etmək üçün xaincəsinə bir plan hazırladılar. İqtisadi, ictimai boykot və embarqo ilə bu dinin yeni mənsublarını sarsıdıb yönəldikləri nurlu yoldan guya geri qaytaracaqdılar!..

Bu məqsədlə Əbu Səhlin başçılığı altında toplanan qaranlıq qəlblilər müsəlmanlar və onları qoruyan Haşim oğulları ilə hər cür alış-verişdən tutmuş qız alıb vermək kimi mədəni münasibətlərə qədər bütün əlaqələri kəsdilər. Bunun bir razılaşma sənədi kimi hazırlayıb Kəbənin divarından asdılar. Bu razılaşma sənədini Mansur bin İkrimə yazmışdı. Sənədi yazdığı gün Allah Rəsulunun (s.ə.s) duası nəticəsində əlləri qurudu. Bundan sonra müşriklər aralarında: **"Haşim oğullarına zülm etdiyimiz üçün Mənsurun başına bu müsibət gəldi!"** - dedilər. (İbni-Hişam, I, 372-373; İbni-Sad, I, 208-209; Buxari, "Həcc", 45).

Bu boykota görə əvvəllər Məkkənin müxtəlif yerlərində dağınıq yaşayan bütün müsəlmanlar bir-birilərinə daha yaxından kömək etmək üçün Şibi Əbi Talib deyilən Hz. Peyğəmbərin əmisinin məhəlləsinə köçdülər. Allah Rəsulu (s.ə.s) Ərkamın evindən çıxaraq bu məhəllədə məskunlaşdı.

İPƏKYOLU NƏŞRİYYATI

Əbu Talib hər hansı bir pisliyə, ya da sui-qəsdə qarşı əlindən gələn hər cür tədbiri görürdü. Peyğəmbərimiz (s.ə.s) axşam müvəqqəti yatağına yatır, gecə insanlar yuxuya getdikdən sonra Əbu Talib oğullarından, qardaşlarından, ya da əmisi oğullarından birini Allah Rəsulunun (s.ə.s) yatağına yatızdırır, Hz. Məhəmmədi isə onun yerinə göndərirdi.

Müsəlmanlar üçün böyük məhrumiyyətlər dövrü başladı. Əbu Cəhl və onun azğın adamları gecə-gündüz müsəlmanların məhəlləsini gəzir və oraya qaçaq ərzaq gətirilməsinə belə mane olmağa çalışırdılar. Bazar və dükanların müsəlmanlar tərəfə gedən bütün yollarını kəsdilər. Satılmaq üçün gələn ərzağı müsəlmanlara verməyib özləri satın alırdılar. Müsəlmanlar yalnız həcc mövsümündə Əbu Talibin məhəlləsindən kənara çıxa bilirdilər. Möminlərdən biri uşaqlarına bir az ərzaq almaq üçün hansısa satıcının yanına getsə, Əbu Ləhəb tez ərzaq yüklərinin başında durar: "Ey tacirlər! Məhəmmədin əshabına qiymətləri elə yüksək deyin ki, onlar sizdən bir şey ala bilməsinlər! Siz mənim varlı və sözümə əməl edən adam olduğumu bilirsiniz. Belə edəcəyiniz təqdirdə sizə zərər dəyməyəcəyinə söz verirəm!" - dedi. Müsəlmanlar acından ağlaşan uşaqlarına yeməyə heç nə almadan geri qayıdırdılar. Tacirlər də səhəri gün Əbu Ləhəbin yanına gedər, o da qalan ərzağı və digər malları yüksək qiymətə alardı.

Bu çətin vəziyyətdə Rəsulullah (s.ə.s) və Hz. Xədicə anamız bütün sərvətlərini müsəlmanlara sərf etdilər. Müşriklərin məhəllə yollarını bağlamaq məsələsində göstərdikləri bütün səylərə baxmayaraq, bəzi məkkəlilər gizli şəkildə qohumlarına kömək edirdilər. Hakim bin Nizam karvanla Şamdan buğda gətirmişdi. Buğdanı bir dəvənin belinə yükləyərək gizli şəkildə müsəlmanlar yaşayan məhəllənin yoluna girdi və dəvənin arxasından vuraraq onu müsəlmanlara tərəf qovdu. Müsəlmanlar da dəvənin belindəki buğdanı götürdülər. O, başqa bir gecə dəvəni unla yükləyib müsəlmanların məhəlləsinə yolladı.

Hişam bin Amr da eyni şəkildə müsəlmanlara kömək edən şəxslərdən idi. Hişamın müsəlmanlara bir neçə dəvə yükü ərzaq göndərdiyini öyrənən insanlığın üz qarası müşriklər onu sərt şəkildə təhdid etdilər. Xəbərdarlığa baxmayaraq, Hişam qohumlarına kömək göstərməyə davam etdikdə müşriklər ağır sözlər söyləyərək onu əzişdirməyə cəhd göstərdilər. Əbu Süfyan araya girərək onun öldürülməsinə mane oldu və: "Buraxın, adamı! Qohumlarına yaxşılıq edib! Biz də onun kimi etsəydik, nə gözəl olardı!.." - deyərək Hişamı müdafiə etdi. Bu dövrdə müsəlmanlar böyük zəhmət və

məhrumiyyətlərə qatlandılar. Bəziləri ağac yarpaqları ilə qarnını doydurmaq məcburiyyətində qaldı. Uşaqlar acından ölürdülər. Onların fəryadı məhəllənin kənarından belə eşidilirdi.

Müşriklərin bu boykotda məqsədi Hz. Peyğəmbər (s.ə.s) onlara təslim olana qədər müsəlmanları ac qoymaq və bu yolla Allah Rəsulunu öldürmək üçün fürsət tapmaq idi. Min bir əzab-əziyyətlə keçən üç ilin sonunda uca Allah bir ağac qurdu ilə müşriklərin Kəbəyə asdıqları razılaşma sənədini məhv etdi.

Əbu Cəhl etiraz etsə də, digər dörd yoldaşı öncədən razılaşdıqları kimi Züheyri dəstəklədikdə bir anda müsbət əhval-ruhiyyə yarandı. Beləcə, müsəlmanlar üç illik çətin bir mühasirədən Allahın lütfü ilə xilas oldular. Əbu Talib boykotu aradan qaldıranları bir şeirlə mədh etdi. Müşriklər isə Rəsulullahın (s.ə.s) İslamı təbliğ etməsinə mane ola bilməyəcəklərini anladılar və ümidlərini kəsdilər.

Bu şəkildə sıxıntı çəkmək və məşəqqətlərlə qarşılaşmaq müsəlmanların imanını gücləndirməyə və cərgələrini daha da möhkəmləndirməyə vasitə oldu. Kafirlər isə hər zaman olduğu kimi bu dəfə də bədbəxtlikdən başqa heç nə əldə etmədilər.

### Şəqqi-qəmər: Ayın iki yerə bölünməsi möcüzəsi

Uca Allah doğru yola dəvət üçün vəzifə verdiyi peyğəmbərlərinə kütlələrə təsir edib onları imana yönəldəcək qeyri-adi səlahiyyət də verib. Bu, qarşılaşacaqları küfr inadını qırmaq üçündür. Həmçinin kütlələrin peyğəmbərlərə tabe olmasını təmin etmək üçün bəzi qeyri-adi lütflər də verilmişdir ki, bunlara möcüzə deyilir. Möcüzələr hər bir peyğəmbərə dövrünün insanlarında heyranlıq doğuran qüdrət və qabiliyyətə əsasən nümayiş etdirilən fərqli xüsusiyyətə uyğun olaraq verilib. Məsələn, Hz. Musanın - əleyhissəlam - dövründə sehrbazlıq yüksəliş dövrünü yaşayırdı. Buna görə də, Ona bu sahədə möcüzə verildi: əsa və yədi-bəyza kimi.

Hz. İsanın - əleyhissəlam - dövründə isə tibb elmi tərəqqiyə nail olmuş, təbiblər xalqın gözündə çox üstün bir məqama yüksəlmişdilər. Buna görə, ona da ən mahir təbibləri belə aciz qoyub itaət etməyə sövq edən bir möcüzə bəxş edilmişdi: ölüləri diriltmək. Hz. Məhəmmədin peyğəmbərliyi isə qiyamətə qədər bütün zaman və məkanlara şamil olunduğundan O, öncəki

peyğəmbərlərin hamısının səlahiyyət, iqtidar və möcüzələrinə malik olub onların fövqündə dayanır. Bu baxımdan Onun möcüzələri dövrünün ən üstün məsləyi olan bəlağət, fəsahət və natiqliklə məhdudlaşmayıb müxtəlif sahələrdə gerçəkləşib. Bunlardan biri də yuxarıda qeyd edilən zalım müşriklərin boykotuna görə yorğun və çətin vəziyyətə düşən möminlərin könlünə rahatlıq, taqət və ümid iksiri vermək, kafirlərə isə əleyhinə çıxdıqları yeni sistemin qüdrəti haqqında xəbərdarlıq etmək məqsədilə gerçəkləşmiş "Şaqqi-qəmər", yəni ayın ikiyə bölünməsi möcüzəsidir.

Rəsulullahın (s.ə.s) bu möcüzəsi boykot illərində, Məkkə dövrünün doqquzuncu ilində baş verib. Mehtablı bir gecədə Allah Rəsulu (s.ə.s) Rəbbinə dua etmiş və ayı ikiyə bölmüş, bu möcüzə isə hər tərəfdən görülmüşdür. Ay iki hissəyə bölünəndə bir hissəsi Əbu Qubeys, digər hissəsi isə Kuaykian dağı tərəfdən müşahidə edildi. Müşriklər öz gözləri ilə gördükləri bu aydın möcüzəyə baxmayaraq, yenə də iman gətirməkdən imtina etdilər. Hətta, Əbu Cəhl "Bu, bir sehrdir!" - deyərək bu möcüzəni də inkar etdi. Bu möcüzəni görən müşriklər Hz. Peyğəmbərə (s.ə.s) "Bizə cadu etdi, amma hamıya cadu edə bilməz!" - dedilər. Bundan sonra Məkkənin kənarından, uzaq yerlərdən gələn karvanlardakı insanlardan belə bir hadisəni müşahidə edib-etmədiklərini soruşdular. Onlar da ayın böləndüyünü gördüklərini dedilər. Bu hadisədən sonra aşağıdakı ayə nazil oldu:

**"O saat** (qiyamət) **yaxınlaşdı və ay parçalandı. Əgər müşriklər bir möcüzə görsələr,** (imandan) **üz döndərib: "Bu, uzun müddət davam edən bir sehrdir!" - deyərlər".** (əl-Qəmər, 1-2), (Vahidi, s. 418; Tirmizi, "Təfsir", 54/3286).

Bütün Məkkə əhalisi ayın iki yerə bölünməsini təsdiqlədi. Qəlbində hidayət işığı olanlar Peyğəmbərimizi (s.ə.s) təsdiq etdi, qəlbləri möhürlü olanlar isə "Necə də böyük sehrbazdır!" - dedilər. Halbuki, fransız astronomu Lefronçois de Lalande ayın keçmiş hərəkətləri ilə bağlı tədqiqat apararkən "Şaqqi-qəmər" möcüzəsinin həqiqiliyini qəbul etmək məcburiyyətində qalıb.

*****

Böyük Yaradanın peyğəmbərlərinə lütf etdiyi möcüzələrin bir neçə bəndlə icmalını vermək istəsək, qısaca bunları söyləyə bilərik:

1. Kütlələrə təsir etmək və insanları imana sövq etmək.

İPƏKYOLU NƏŞRİYYATI

2. Möminlərin imanını gücləndirmək, könüllərinə təcəlli vermək.

3. Peyğəmbərlərin nübüvvət və risalətini sübut etmək.

4. İlahi qüdrət qarşısında müşrikləri aciz qoymaq, möminləri heyrətləndirmək.

Qurani-Kərimin hər bir ayəsi möminlərin imanını, kafirlərin inkarını gücləndirdiyi kimi, möcüzə də barələrində "yə yəhdi" buyurulan, yəni Rəbbin hidayət etməyəcəyi şəxslərin inkarını artırır.

"Şaqqi-qəmər" hadisəsi Peyğəmbərimizin (s.ə.s) böyük bir möcüzəsidir. Hz. Məhəmməd Mustafa (s.ə.s) "axır zaman peyğəmbəri" olduğu üçün Onun dünyada zühuru eyni zamanda qiyamətin əlamətlərindən biridir. Belə ki ayədə:

**"O saat** (qiyamət) **yaxınlaşdı və ay parçalandı!"** (əl-Qəmər, 1) buyurularaq bu həqiqətə toxunulub.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

# PEYĞƏMBƏRLİYİN ONUNCU İLİ

## Kədər ili: Hz. Xədicənin və Əbu Talibin vəfatı

Müşriklərin mühasirəsindən uğurla çıxan Allah Rəsulu və müsəlmanların sevinci uzun sürmədi. Çünki boykotun aradan götürülməsindən sonra özünün və möminlərin hamisi olan, onları fədakarcasına qoruyan Əbu Talib vəfat etdi.

Hz. Peyğəmbər onun iman gətirməsi üçün müxtəlif vaxtlarda çox israr etdi. Əbu Talib isə bu israrın qarşısında qardaşı oğluna:

- Mən Sənin həqiqətini bilirəm. Lakin Sənə iman gətirsəm, Qureyş qadınları məni qınayar! - dedi. Hz. Peyğəmbərin nübüvvətini vicdanən qəbul edir, nəfsani hissləri isə rədd edirdi. Allah Rəsulu (s.ə.s) onun imanlı olaraq ruhunu Rəbbinə təslim etməsi üçün ölüm döşəyində olan zaman da:

- Ey əmi! Bir kəlmə söylə ki, Allah sənə sonsuz səadət bəxş etsin! - deyə israr etdi. Həmin vaxt oraya gələn Əbu Cəhl buna mane oldu. Çünki Əbu Talibə mütəmadi kəlmeyi-şəhadət təlqin edən Hz. Peyğəmbərin əksinə olaraq Əbu Cəhl: "Sən babalarının dinindənsən!" deyirdi. Nəhayət, Əbu Talib Rəsulullaha (s.ə.s) son sözünü söylədi:

- Mən köhnə dində (Əbdülmüttəlibin) qalaraq ölürəm. Qureyş mənim barəmdə ölümdən qorxduğu üçün dinini dəyişdi deməsəydi, Sənin sözlərini qəbul edərdim!.." (Buxari, "Cənaiz", 81; "Mənaqibul-Ənsar", 40; İbni-Sad, I, 122-123).

Bu sözlərdən sonra Hz. Peyğəmbər:

- Mən də sənin bağışlanmağın üçün daima dua edəcəyəm! - buyurdu, ancaq əmisinin evindən kədərli ayrıldı. Allah Rəsulu (s.ə.s) əmisinə çox kədərlənib "Sənə bağışlanmağın üçün daim dua edəcəyəm!" deməsinə görə ayədə belə buyuruldu:

"(Ya Rəsulum!) **Şübhəsiz, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar...**" (əl-Qəsəs, 56), (Müslüm, "İman", 41-42).

İPƏKYOLU NƏŞRİYYATI

Hidayət bəndəni doğru yola yönəldən ilahi nurdur. Kimin könlü ona təşnə və Haqqa meyllidirsə, hidayət yalnız ona qismət olar. Ayədə buyurulur:

**"Allah Ona yönələn kəsi hidayət edər!"** (ər-Rəd, 27). Bu məsələdə başqalarının səyi yalnız vasitəçi olmaqdır. Əks halda, kiminsə - lap peyğəmbər olsun - səyi ilə hidayətin kiməsə qismət olması hər zaman mümkün deyil. Belə ki Hz. Peyğəmbərin (s.ə.s) səyinə baxmayaraq, Əbu Talib həqiqəti bildiyi halda, nəfsinə məğlub olaraq Haqqa meyl etməməsinə görə hidayətə qovuşmadı.

*****

Peyğəmbərimizi (s.ə.s) dərin bir kədərə qərq edən Əbu Talibin vəfatından heç üç gün keçməmişdi ki, Allah Rəsulunun (s.ə.s) dərd ortağı, böyük dəstəyi, can yoldaşı, Seyyidətün-Nisa (qadınlar sultanı), Xədicətül-Kübra (böyük Xədicə) anamız da vəfat etdi. Allah Rəsulunun və möminlərinin dərdinin üstünə böyük bir dərd də gəldi. Rəsulullah (s.ə.s) çox sevdiyi xanımını şərəfli qəbrinə öz əlləri ilə endirdi. Aləmlərin sultanının könlü qəm-kədərlə, gözləri yaşla doldu. Hz. Xədicə anamız Varlıq Nuru üçün İslam mübarizəsində sadiq köməkçi, dərd ortağı, təcəlli və sükunət qaynağı idi. Onun vəfatı Allah Rəsuluna (s.ə.s) **"Bu ümmətin başına gələn iki böyük hadisədən hansına daha çox kədərlənəcəyimi bilmirəm!"** (Yaqubi, II,35; Təbəri, "Tarix", II, 229) dedirtdirəcək qədər ağır gəlmişdi.

Bu iki kədərli hadisəyə görə, Məkkə dövrünün onuncu ilinə "kədərli il" deyildi. Əmisinin və xanımının vəfatından sonra Hz. Peyğəmbərin (s.ə.s) heç bir zahiri və fani dəstəyi, sığınacağı və mühafizə ediləcək yeri qalmadı. Onun könül dünyası beləcə, böyük Yaradana həsr edildi. Çünki təvəkkül ediləcək və təslim olunacaq yeganə və mütləq məqam yalnız uca Allah idi. Əslində, uşaqlıqda da ata, ana və baba himayəsindən məhrum olaraq Allahın tərbiyəsi və nəzarəti altında yetişdirilmişdi.

### Taif səfəri

Əmisinin və xanımının vəfatından sonra Hz. Peyğəmbərə edilən zülm və işgəncə xeyli artdı. Peyğəmbərlər sultanına qarşı aparılan düşmənçilik dəhşətli dərəcəyə çatdı. Elə səviyyəyə ki, Allah Rəsulunun (s.ə.s) dözümü, taqəti azaldı. Buna görə, Allah Rəsulu (s.ə.s) Zeydi də yanına alaraq

İPƏKYOLU NƏŞRİYYATI

Məkkədən 160 km uzaqlıqda yerləşən Taif şəhərinə getdi. Orada on gün qaldı. Taiflilərə İslamı başa saldı. Onları tövhid inancına dəvət etdi. Tanınmış şəxsləri ilə görüşərək onlara bütə sitayiş etməkdən əl çəkib bir olan Allaha ibadət etmələrini təlqin etdi. Taifin varlı insanlarından yanına gedib danışmadığı kimsə qalmadı. Ancaq bu dəvət qureyşlilər kimi bütpərəst qövm olan taiflilər arasında da qorxunc bir fırtına qopmasına səbəb oldu. Nəfsani həyatın girdabında yaşadıqları üçün heç biri hidayətə qovuşmadı. Üstəlik, Hz. Peyğəmbərə vermədikləri əzab-əziyyət qalmadı. Əvvəlcə lağ etdilər, sonra təhqirə keçdilər. Ardınca da kölələrini Allah Rəsulunun (s.ə.s) keçdiyi yolların hər iki kənarında sıra ilə düzdürüb Onu həqarətlə daşladılar. Beləcə, şəhərdən çıxana qədər Rəsulullaha (s.ə.s) əziyyət verdilər. Hətta, kölələrini arxasınca göndərərək Onu daş yağışına tutdular. Şanına aləmlərin yaradıldığı o peyğəmbərlər sultanının mübarək ayaqları qan içində qaldı, ayaqqabıları qanla doldu. Onu atılan daşlardan qorumağa çalışan fədakar səhabə Zeyd (r.a) də yaralandı. O, öz vücudunu Allah Rəsuluna atılan daşlara sipər edərək: "Ey Taif camaatı! Daşladığınız adamın peyğəmbər olduğunu bilmirsinizmi?!.." - dedi.

Özlərini bir təhər məkkəlilərə məxsus bir bağçada xurma ağacının altına sala bildilər. Yer, göy, mələklər kədərli idi. Cəbrail kədərli idi. Mikayıl, İsrafil, Əzrail kədərli idi. Başda Cəbrail olmaqla mələklər uca Allahdan icazə alıb Rəsulullahın (s.ə.s) yanına gəldilər:

- Ya Rəsulullah! Əmr et, bu qövmü məhv edək! - dedilər. O rəhmət mənbəyi və mərhəmət peyğəmbəri məruz qaldığı bu dəhşətli zülmə baxmayaraq, bəd dua etməyib əllərini ilahi dərgaha açaraq: **"Allahım! Qüvvəmin zəifliyini, çarəsizliyimi, xalqın nəzərində xor və aşağı görüldüyümü Sənə bildirirəm. Mərhəmətlilərin ən mərhəmətlisi! Əgər mənə qarşı qəzəbli deyilsənsə, çəkdiyim möhnət və bəlalara fikir verməzəm! İlahi! Sən qövmümü hidayətə qovuşdur! Onların ağlı kəsmir. İlahi! Sən razı olana qədər onların bağışlanmalarını istəyirəm..."** - deyə dua etdi. (İbni-Hişam, II, 29-30; Heysəmi, VI, 35).

Rəsulullahın (s.ə.s) dincəldiyi bağın sahibi Rabiə oğulları aləmlərin sultanına yazıqları gələrək Ona köləsi Addasla bir qab üzüm göndərdilər. Addas qabı Varlıq Nuruna sarı uzatdı:

-Buyurun, yeyin! - dedi.

İPƏKYOLU NƏŞRİYYATI

Hz. Peyğəmbər: بسم الله deyərək yeməyə başladı. Bu söz Addasın diqqətini çəkdi. İndiyədək heç kimdən belə bir söz eşitməmişdi. Maraq və heyrət içərisində:

- Buralılar bu sözü nə bilirlər, nə də işlədirlər, - deyə pıçıldadı. Sonra yenə heyrətlə:

- Siz fərqli bir insansınız! Buranın adamlarına bənzəmirsiniz. Siz kimsiniz? - dedi.

Allah Rəsulu (s.ə.s):

- Sən haralısan, hansı dindənsən? - deyə soruşdu. Addas:

- Ninevalıyam, xristianam! - dedi.

Peyğəmbərimiz (s.ə.s):

- Deməli, sən saleh bəndə Yunus bin Məttanın ölkəsindənsən? - dedi.

Addasın heyərti daha da artdı:

- Sən Yunusu haradan tanıyırsan? - deyə soruşdu.

Varlıq Nuru:

- Yunus mənim qardaşımdır. O, peyğəmbərdir. Mən də peyğəmbərəm! - buyurdu. Bu sözlərdən sonra Addasın könül aləmindən iman bulaqları fışqırmağa başladı və şövqlə yerindən qalxaraq Hz. Peyğəmbərin (s.ə.s) əlinə və ayaqlarına qapanıb kəlmeyi-şəhadət gətirdi. (İbni-Hişam, II, 30; Yaqubi, II, 36).

Ağaları Addası bu hərəkətinə görə qınadıqda o, belə dedi: "Mən özümü tanıdım-tanımadım yer üzündə Ondan daha xeyirli insan görmədim! O, mənə elə söz söylədi ki, onu ancaq bir peyğəmbər söyləyə bilərdi!" (İbni-Hişam, II, 31).

Nə böyük səadətdir ki, Addas (r.a) Allah Rəsulunun (s.ə.s) həyatının ən çətin vəziyyətində iman gətirərək Ona təsəlli verən mömin olmaq şərəfinə nail olmuşdur. Aləmlərin rəhbəri onun müsəlman olmasına o qədər sevinmişdi ki, o an çəkdiyi əzab-əziyyəti, demək olar ki, unutmuşdu. Bu gün Addasın (r.a) İslamı qəbul etdiyi yerdə onun adını daşıyan bir məscid var.

İPƏKYOLU NƏŞRİYYATI

Hz. Aişə anamız buyurur: "Uhud savaşından daha artıq kədərləndiyin bir gün oldumu, ya Rəsulullah?" - deyə Hz. Peyğəmbərdən soruşdum. Belə buyurdu: "Bəli, sənin qövmündən çox pislik görmüşəm. Bu pisliklərin ən dəhşətlisi onların mənə Əqabə günü etdiyi pislikdir. Həmçinin, Taifli Ədükülalın oğlu Əbdiyalilə sığınmaq istəyirdim, amma məni qəbul etmədi. (Əksinə, məni əlaltılarına daşladaraq hər tərəfimi qana boyadı, vermədiyi əziyyət qalmadı). Mən də geri qayıdıb dərin kədər içərisində gedirdim. Qarnüs-Səalib adlı yerə çatana qədər özümə gəlmədim. Orada başımı qaldırıb göyə baxdıqda gördüm ki, bir bulud məni kölgələyir. Diqqətlə baxdıqda buludun içərisində Cəbraili -əleyhissəlam - gördüm. Mənə:

- Uca Allah qövmünün Sənə nə söylədiyini, Səni himayə etməkdən necə imtina etdiyini eşidib. Onlara istədiyini etməsi üçün Sənə dağlar mələyini göndərdi, - deyə səsləndi. Bundan sonra dağlar mələyi səslənərək mənə salam verdi. Sonra:

- Ey Məhəmməd! Qövmünün Sənə nə dediyini uca Allah eşitdi. Mən dağlar mələyiyəm. Nə əmr etsən, onu yerinə yetirməyim üçün Allah məni Sənə göndərdi. Nə etməyimi istəyirsən? Əgər istəyirsənsə, bu iki dağı onların başına uçurum? - dedi. O zaman:

- Xeyr! Mən böyük Yaradandan onların soylarından yalnız Allaha ibadət edəcək və Ona heç bir şeyi şərik hesab etməyəcək insanlar çıxarmasını istəyirəm! - dedim!" (Buxari, "Bədül-Xalq", 7; Müslüm, "Cihad", 111).

Şair böyuk Yaradanın Peyğəmbərə (s.ə.s) olan bənzərsiz məhəbbətini çox gözəl ifadə edir:

Sən ol məhbubsun ki, Haqq Təala rüzgarında,

Edər dünya və mafihayı qurban, Ya Rəsulullah!

"Ya Rəsulullah! Sən elə bir sevgilisən ki, uca Allah dünyanı və içindəki hər şeyi Sənin yolunda qurban edər".

*****

Taif səfərinin xeyli ibrətamiz nəticələri vardır.

1. Əvvəla təbliğin çox mühüm olduğunu göstərir. Peyğəmbərimiz (s.ə.s) çox kədərli olmasına baxmayaraq, təbliğinə ara verməmiş, təbliğini səbir və səbatla davam etdirmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

2. Taiflilərin Onu daşlamasına baxmayaraq, Rəsulullah (s.ə.s) onlara bəd dua etməmişdir. Bu, həm Allah Rəsulunun (s.ə.s) mərhəmətini göstərir, həm də bir təbliğatçının mərhəmətli olmasının zəruriliyinə işarədir.

3. Təbliğatçı xətanı özündə görməli, insanların hidayəti üçün dua etməli və ümidsizliyə düşməməlidir. Rəsulullah bir xəta ilə qarşılaşdıqda bunun səbəbkarı kimi özünü görür, "Mənə nə olub ki, sizi belə görürəm?!"- buyururdu. Belə ki Hz. Süleymanın - əleyhissəlam - Hüd-hüd quşunun toplantıda iştirak etmədiyini gördükdə:

"...Mənə nə olur ki, (aranızda) Hüd-hüdü (şanapipiyi) görmürəm?..." (ən-Nəml, 20) deməsi də bu cür təbliğin üslub və üsulundandır.

4. Taif səfərində Addasın iman gətirməsi çox mühüm məqamdır. Çünki Rəsulullah (s.ə.s) ən çətin anlarında bununla təsəlli tapmışdır. Bu hadisə göstərir ki, ən çətin sıxıntılar içərisində olsaq da, bir nəfərin iman gətirməsi belə bizə təsəlli olmalıdır.

5. Təbliğatçı öz yaşayışı və vəziyyəti ilə örnək olmalıdır.

6. İslamı təbliğ edən şəxs insanlara müraciət etməyin yolunu bilməli, mədəni olmalı, Hz. Peyğəmbərin Addasa münasibətində olduğu kimi, harada və kimə nə söyləyəcəyini yaxşı bilməlidir.

Addasdan başqa heç kimin iman gətirmədiyi Taif səfərindən qayıdanda Allah Rəsulu (s.ə.s) gecəni keçirdiyi bir yerdə Quran oxuyarkən bir qrup cin Ona qulaq asdı. Hamısı da həqiqəti anlayıb Rəsulullaha (s.ə.s) iman gətirdi. Sonra təbliğ vəzifəsi ilə qövmlərinin yanına qayıtdılar. (İbni-Sad, I, 212).

*****

Rəsulullah (s.ə.s) Taifdən qayıdan zaman Nəhlədən Məkkəyə tərəf gələrkən Hira dağına çatanda məkkəlilərdən bir nəfərlə rastlaşdı. Onu əvvəlcə Ahnəs bin Şərikin, sonra da Süheyl bin Amr və Mutim bin Adiyyin yanına göndərdi. Onlara: "Məhəmməd "Rəbbimin mənə verdiyi risalət vəzifəsini təbliğ edib yerinə yetirənə qədər məni himayənə götürürsənmi?" - deyə soruşur", - deməsini istədi. Bu istəyi onlardan ikisi qəbul etmədi, amma Mutim Peyğəmbərimizə (s.ə.s) müsbət cavab verdi. Varlıq Nuru o gecə Mutimin evində qaldı. Səhər açılanda Mutim oğullarını və qohumlarını yanına çağırıb "Silahlanın və Beytullahın ətrafında olun!" - dedi. Kəbəyə çatanda qövmünə tərəf çevrilib "Ey Qureyş camaatı! Məhəmmədi himayəmə götürdüm! Ona heç kim toxunmasın!" - deyərək səsləndi.

Rəsulullah (s.ə.s) Kəbəni təvaf edib iki rükət namaz qılaraq evinə qayıdana qədər Muti və oğulları Onu qorudular. (İbni-Sad, I, 212; İbni-Kəsir, "əl-Bidayə", III, 182).

Aradan illər keçdi. İman şərəfinə nail olmayan Mutim Bədir döyüşündə müsəlmanlara qarşı savaşdı və öldürüldü. Əsir düşənlərə nə ediləcəyi ilə bağlı mübahisə edilərkən Rəsulullah (s.ə.s) Mutimin oğlu Cübeyrə: *"Əgər Mutim yaşasaydı və məndən əsirlərin bağışlanmasını istəsəydi, fidyə almadan hamısını sərbəst buraxardım!"* - buyuraraq ona olan hörmətini bildirdi. (Buxari, "Xümüs", 16; İbni-Hişam, I, 404-406).

İslamı təbliğ edərkən Ona yaxşılıq edən bir müşrikə qədər uzanan bu sədaqət və vəfadarlıq hissi çox böyük bir əxlaqın təzahürüdür!..

### Allah Rəsuluna və Qurana qarşı ittihamlar

Rəsulullaha (s.ə.s) hər nə etsələr, yenə də aciz qalan müşriklər bu dəfə onun ümmi olduğunu bilmələrinə baxmayaraq, Quranı xristian bir kölədən öyrəndiyini iddia edəcək qədər axmaqlıq etdilər. Fikirləşmədilər ki, belə uca bir dinin təməlini qura biləcək bir kölə heç bu şərəfi başqasına verərmi? Həmçinin, xristian kimi hələ də qalarmı?

Bu yersiz ittihamın cavabını Qurani-Kərim belə verdi:

**"Biz** (müşriklərin)**: "**(Quranı) **ona** (Peyğəmbərə) **bir insan** (ara-sıra görüb danışdığı Səfər Rumi adlı xristian bir gənc) **öyrədir!" - dediklərini də bilirik. Onların nəzərdə tutduqları adamın dili başqa dildir. Bu** (Quranın dili) **isə açıq-aşkar** (fəsahətli, bəlağətli) **ərəb dilidir!"** (ən-Nəhl, 103).

**"**(Ya Rəsulum!) **Sən bundan** (bu Qurandan) **əvvəl nə bir kitab oxumusan, nə də onu əlinlə yazmısan. Əgər belə olmasaydı, onda batilə uyanlar** (onun barəsində) **şəkki-şübhəyə düşərdilər".** (ən-Ənkəbut, 48).

Həmçinin uca Allah müşriklərin ittiham və iftiralarından mütəəssir olmaması üçün Rəsuluna belə buyurdu:

**"Ayələrimiz onlara açıq-aydın oxunduqda** (ya da açıq-aydın ayələrimiz onlara söylənildikdə) **kafirlər özlərinə gələn** (Quran) **barəsində: "Bu, aşkar bir sehrdir!" - deyərlər. Yoxsa, onlar: "**(Məhəmməd) **onu** (özündən) **uydurmuşdur!" -deyərlər.** (Ya Peyğəmbər!) **De: "Əgər mən onu** (özümdən) **uydurmuşamsa, siz məni Allahdan** (Allahın əzabından)

**qurtara bilməzsiniz. O, sizin** (Quran) **barəsindəki dedi-qodularınızı daha yaxşı bilir. Mənimlə sizin aranızda onun şahid olması kifayətdir. O, bağışlayandır, rəhm edəndir!"** (əl-Əhqaf, 7-8).

Müşriklər doğru yolla getmək arzusunda olmadıqları üçün Allah Rəsuluna (s.ə.s) və Qurana qarşı müxtəlif ittihamlar irəli sürməkdən çəkinmirdilər. Ancaq həqiqəti bilirdilər. Belə ki, Qureyşin məşhur şəxsləri İslamın Məkkədən kənara çıxıb yayılmasından qorxaraq Vəlid bin Müğirənin ətrafında toplaşmışdılar. Öz aralarında "Məkkəyə gələn qəbilələrə Məhəmməd haqqında nə söyləyək?" - deyirdilər.

Vəlid Hz. Peyğəmbərlə (s.ə.s) görüşdü, Onun özündən Qurani-Kərimi dinlədi. Belə dedi: "Mən şeirin bütün növlərini bilirəm. Mənə oxuduğu şeir deyil. Şeirdən daha üstün bir sözdür. O sözlər nəsr də deyil. Çünki elə bənzərsiz fəsahət və bəlağət dolu lətif bir ahəngi əvvələr heç bir sözdə eşitməmişdim. Kahin sözlərinə isə heç bənzəmir. Divanə sözləri də deyil. Mən Onda dəliliyin heç bir əlamətini görmədim. Biz Ona sehrbaz da deyə bilmərik. Çünki nəyəsə oxuyub üfürmür, düyün vurmur, bir sözlə, sehrbazlara xas heç bir xüsusiyyəti yoxdur!"

Bu sözlərdən sonra Vəlid müşriklərin məkirli niyyətləri üçün nəyin bahasına olursa-olsun çıxış yolu tapmaq məqsədilə özünü bu sözləri söyləməyə məcbur etdi: **"Ancaq O, qardaşı qardaşdan ayırır. Qohumlar arasında nifaq toxumu səpir. Buna görə də, Onun sözü sehrdən və cadudan başqa bir şey deyildir!"** (İbnül-Cəvzi, VIII, 403-404; Hakim, II, 550; Vahidi, s. 468).

*****

Qurani-Kərimlə bağlı irəli sürdükləri ittihamların heç bir əhəmiyyətinin olmadığını görən müşriklər bu dəfə Hz. Peyğəmbərin (s.ə.s) mübarək şəxsiyyətini hədəfə aldılar.

Allah Rəsulunun (s.ə.s) oğlu Qasımın iki yaşında vəfat etməsini fürsət bilərək As bin Vailin ağzından Ona "əbtər-sonsuz" dedilər. Yəni oğlu olmayan, nəsli kəsilmiş, soyu tükənmiş deyə lağa qoydular. Beləcə, Allah Rəsulunu (s.ə.s) insanların gözündən salıb Onun ürəklərə təsirinin qarşısını almaq istəyirdilər. Ancaq buna nail ola bilmədilər. Kövsər surəsi müşriklərin üzünü Qahhar silləsi kimi qızartdı:

**"**(Ya Peyğəmbər!) **Həqiqətən, Biz sənə Kövsəri bəxş etdik. Ona görə də Rəbbin üçün namaz qıl və qurban kəs!** (Ya Peyğəmbər! Sənə sonsuz deyən) **sənin düşməninin özü sonsuzdur!"** (əl-Kövsər, 1-3).

Bu surədən anlaşılır ki, zaman və məkandan asılı olmayaraq Allah Rəsuluna kin və intiqam hissi bəsləyənlərin ortaq sifəti "sonsuzluqdur". Aləmlərin rəhbərinə bədəvi demək istəyən mədəniyyətsizlər, kainatın fəxrinə öz cılızlıqlarını aid etməyə cürət edən axmaqlar, gətirdiyi haqq dinə - haşa - səhra-çöl qanunu deyən yazıq bədbəxtlər maddi və mənəvi cəhətdən sonsuz, övladsız şəxslərdir.

*****

Barəsində Təbbət surəsi nazil olan Əbu Ləhəb: "Məni başqaları ilə bərabər tutan din yox olsun!".. söyləyirdi. Hz.Peyğəmbərin və İslamın ən azğın düşmənlərinin önündə gələn Əbu Cəhl isə belə deyirdi: "Məhəmmədin söylədiklərinin doğru olduğunu bilirik. Ancaq (məsələ burasındadır ki) indiyə qədər onun qəbiləsi nə edibsə, biz də etmişik, onlardan geri qalmamışıq. İndi isə onlar "İçimizdə bir Peyğəmbər var!" - deyə fəxr edirlər. Biz aramızdan necə Onun kimi bir peyğəmbər çıxara bilərik?. Bu, mümkün deyil! Ona görə də, mən Məhəmmədin peyğəmbərliyini əsla qəbul etmərəm!.." (İbni-Kəsir, "əl-Bidayə", III, 113).

Əbu Cəhl kin, həsəd və düşmənçiliyinə görə bir dəfə də belə dedi: "Əgər Onu namaz qılanda görsəm, ayağımla başından basacağam!"

Bu sözlərdən sonra bir gün Allah Rəsuluna (s.ə.s) Həramı-Şərifdə namaz qılarkən rast gəldi. Sözünə əməl etmək üçün dərhal hərəkət etsə də, bir anda rəngi saraldı, dəhşətli qorxuya düşdü və əlinə götürdüyü daşı saxlaya bilmədi. Geri dönüb qaçmağa başladı. Ətrafdakılar heyrət içində Əbu Cəhldən nə baş verdiyini soruşdular. Əbu Səhl isə təlaş və qorxu içində "Ona yaxınlaşanda qəfildən qabağıma azğın bir dəvə çıxdı. Xeyir! Vallah, onun kimi qorxunc dəvə indiyədək görməmişəm! O, məni az qala udacaqdı!" - dedi. (İbni-Hişam, I, 318; İbni-Kəsir, "əl-Bidayə", III, 92-93).

Çünki Allah bəndəsi və Rəsulu olan Hz.Məhəmmədi (s.ə.s) və onunla göndərdiyi dini qoruyurdu, onları həmişə hər şeydən üstün tuturdu. Belə olduğu halda müşriklər hələ də Allah Rəsulunu (s.ə.s) qəbul edə bilmir, inadla Quran həqiqətindən uzaq dururdular. Necə deyərlər, ilahi həqiqətdən qaçırdılar. Uca Allah buyurur:

**"Onlara nə olub ki, öyüd-nəsihətdən üz çevirirlər** (qaçırlar)**. Onlar sanki, vəhşi eşşəkdirlər.** (O eşşəklər ki) **aslandan hürküb qaçırlar!"** (əl-Müddəsir, 49-51).

Şair kafirlərin həqiqəti bilmələrinə baxmayaraq, imana yaxınlaşmadıqlarını və hidayətin bir qismət məsələsi olduğunu çox gözəl ifadə edib:

Hidayət Səndən olmazsa, dirayət neyləsin, ya Rəbb?!

Ərəbcə bilsə də, Bu Cəhlə ayə neyləsin, ya Rəbb?!

Kafirlərin bu cür üz çevirmələri və inadları müəyyən vaxtlarda ilahi imtahana uyğun olaraq Allah Rəsuluna (s.ə.s) və möminlərə qarşı dözülməz əziyyət və işgəncə şəklində təzahür edirdi.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

## PEYĞƏMBƏRLİYİN ON BİRİNCİ İLİ

### Məhbubun həbibinə bənzərsiz lütfü: Merac

İsra hadisəsi hicrətdən 18 ay əvvəl baş verib. İsra və merac kimi ifadə edilən bu ilahi lütf bütün bəşəri pərdələr qaldırılaraq idrakın fövqündə duran və tamamilə ilahi ölçülərlə gerçəkləşən bir bəxşişdir. Məsələn, bəşəri mənada məkan və zaman məfhumu aradan götürülmüş, milyonlarla insanın ömrünə sığmayacaq qədər uzun səfər və saysız-hesabsız müşahidələr bir saniyədən də tez bir zaman daxilində baş vermişdir. Böyük Yaradan buyurur:

**"Bəzi ayələrimizi** (qüdrətimizə dəlalət edən qəribəlikləri və əsaiblikləri) **göstərmək üçün bəndəsini** (Peyğəmbəri - əleyhissəlam) **bir gecə** (Məkkədəki) **Məssidül-Həramdan ətrafını mübarək etdiyimiz** (bərəkət verdiyimiz) **Məscidül-Əqsaya** (Beytül-Müqəddəsə) **aparan Allah pakdır, müqəddəsdir. O, doğrudan da, (hər şeyi) eşidəndir, görəndir!"** (əl-İsra, 1).

Ayə ifadə etdiyi mühüm və heyranlıq doğuran işlərin əhəmiyyətinə diqqət çəkmək məqsədilə uca Allahın nöqsanlı sifətlərdən uzaq olduğunu bildirməklə başlamışdır. Müfəssirlərin (təfsirçi alimlər) bildirdiyinə görə سُبْحان uca Allahın nöqsanlı sifətlərdən tam uzaq və pak olduğunu ifadə edir. Həmçinin ondan böyük Yaradanın qeyri-adi sənəti qarşısında heyrət ifadəsi kimi də istifadə olunur. Eyni zamanda mühüm zikirlərdən biridir. Qısacası, bu kəlmə:

1. İnsan ağlını heyrətləndirən İsra hadisəsini ucaldır və təsdiqləyir, qəlblərin təmizlənməsinə zəmin hazırlayır. İnsanları təşbeh və təcsim (uca Allahı məxluqata bənzəmə və cism şəklində düşünmək) məfhumlarından da qoruyur.

2. Meracı mümkün hesab etməyənlərin əksinə olaraq Allahın acizlik və buna bənzər hər cür nöqsanlı sifətlərdən uzaq olması həqiqətini ifadə edir. Ayənin sonrakı hissəsində gecəyə diqqət çəkilir. Çünki İsra bir gecə səfəridir. Vəhyin böyük əksəriyyəti gecə gəlmişdir. Ümumiyyətlə, müsbət-mənfi böyük dəyişikliklər və ciddi hadisələr gecə baş vermişdir. Elə nafilə ibadətlər arasında səhərə yaxın yerinə yetirilən təhəccüd də ibadətlərin zirvəsidir.

İPƏKYOLU NƏŞRİYYATI

Məscidi-Əqsa və ətrafının mübarək olması belə izah edilir:

1. Din və dünya nemətləri ilə bərəkətləndirilib. Ətrafında yaşıllıq və bulaqlar vardır.

2. Xeyli sayda peyğəmbər orada yaşamış və buna görə də, vəhyin nazil olma məkanı olmuşdur.

3. İsra hadisəsinə görə isə xüsusi olaraq bərəkətləndirilib. Bu səfərdə böyük Yaradan bəndəsi və elçisi Məhəmməd Mustafaya (s.ə.s) qeyri-adi və xariqüladə hadisələr göstərib.

*****

Allah Rəsulu (s.ə.s) o gecə Məscidi-Əqsada bütün peyğəmbərlərə imam olub namaz qıldırdı.

Əbu Hüreyrədən (r.a) nəql edilən bir rəvayətə görə, İsra gecəsi Peyğəmbərimizə (s.ə.s) birində şərab, o birində süd olan iki kasa gətirildi. Hz. Peyğəmbər onlara ötəri baxdıqdan sonra süd kasasını götürdü. Bundan sonra Cəbrail: **"Səni insanın yaradılış qayəsinə uyğun olana yönləndirən Allaha həmd olsun. Əgər içki olan qabı götürsəydin, ümmətin yolundan azacaqdı!"** - dedi. (Müslüm, "İman", 272, "Əşribə", 92).

Rəsulullah, beləcə, bütün ümməti təmsil edir və onların feyz mənbəyinə çevrilirdi. Burada süd fitrəti, şərab isə dünyaya rəğbəti təmsil edir. Uca Allah ayədə:

**"O, hava-həvəslə danışmır** (nəfsinə uyub kefi istəyəni) **demir"** (ən-Nəcm, 3), buyuraraq Varlıq Nurunun öz istədiyi kimi danışmadığını və özbaşına heç bir iş görmədiyini bildirmişdir. Mütləq varlıq uca Allahdır və Allah Rəsulu (s.ə.s) tam şəkildə Ona təslim olmuşdur. Burada uca Allah südü seçərək Həbibini ən fəzilətli olana yönəltmişdir. Eyni zamanda bu mübarək hədis bizə Məhəmməd ümmətinin üstünlüyünü göstərir.

İsra hadisəsi ilə Məssidül-Həramdan Məscidül-Əqsaya aparılan Peyğəmbərə (s.ə.s) buradan göylərə yüksəlmək, yəni merac şərəfi bəxş olundu. Həqiqətən də, Məscidül-Əqsaya gələn Hz. Peyğəmbər buradan Hz. Cəbrailin rəhbərliyi altında "Sidreyi-Müntəha"ya qədər yüksəldi. Kainatın fəxri, peyğəmbərlər sultanı bu hadisəni belə nəql edir: "Mən Kəbənin Xatim hissəsində yarı yuxulu vəziyyətdə idim... Yanıma eşşəkdən böyük, qatırdan kiçik bir heyvan gətirildi. Bu, Buraq idi. Qabaq ayağını gözünün

gördüyü son nöqtəyə qoyaraq gedirdi. Mən onun belinə mindirilmişdim. Beləcə Cəbrail - əleyhissəlam - məni apardı. Dünya səmasına qədər getdik. Qapının açılmasını istədi.

- Gələn kimdir? - dedilər.

- Cəbrail! - dedi.

- Yanındakı kimdir? - deyə soruşdular.

- Məhəmmədir! - cavabını verdi.

- Ona merac dəvəti göndərildimi? - söylədilər.

- Bəli, - dedi.

- Xoş gəlib! Bu gəliş nə gözəl gəlişdir! - dedilər və qapı açıldı.

Qapıdan keçdikdə orada Hz. Adəmi - əlehissəlam - gördüm.

- Bu, atanız Adəmdir, salam ver! - dedilər.

Mən də salam verdim. Salamımı aldı. Sonra mənə:

- Saleh övlad xoş gəldin, saleh Peyğəmbər xoş gəldin! - dedi.

Sonra Cəbrail məni daha yüksəyə qaldırdı və ikinci səmaya gəldik. Burada Hz. Yəhya və Hz. İsa - əleyhissəlam - ilə qarşılaşdım. Onlar xala uşaqları idi. Sonra Cəbrail məni üçüncü səmaya çıxartdı və orada Hz. Yusif - əleyhissəlam - ilə qarşılaşdıq. Dördüncü qat səmada Hz. İdris - əlehissəlam, beşinci qat səmada Hz. Harun - əleyhissəlam, altıncı qat səmada Hz. Musa - əleyhissəlam - ilə rastlaşdıq. Saleh (əməlli) qardaş xoş gəldin, saleh peyğəmbər xoş gəldin! - dedi. Mən onun yanından keçdikdən sonra ağladı. Ona:

- Niyə ağlayırsan? - dedim.

- Çünki məndən sonra dəliqanlı peyğəmbər oldu. Onun ümmətindən cənnətə girənlərin sayı mənim ümmətimdən cənnətə girənlərin sayından daha çoxdur! - dedi.

Sonra Cəbrail məni yeddinci səmaya çıxartdı və İbrahim -əleyhissəlam - ilə qarşılaşdıq.

Cəbrail - əleyhissəlam:

- Bu, atan İbrahimdir, ona salam ver! - dedi.

İPƏKYOLU NƏŞRİYYATI

Mən də salam verdim. O isə salamımı aldı. Sonra:

- Saleh oğlum xoş gəldin, saleh Peyğəmbər xoş gəldin! - dedi. Daha sonra mənə:

- Ey Məhəmməd! Ümmətinə məndən salam söylə və onlara cənnətin torpağının çox gözəl, suyunun çox şirin, ərazisinin son dərəcə geniş və dümdüz olduğunu bildir. Söylə ki, cənnətdə çoxlu ağaclar əksinlər. Cənnətin ağacları "Sübhanallahi vəl-həmdü lillahi və la ilahə ilallahu vallahu əkbər!" deməkdən ibarətdir, - dedi. Sonra Sidreyi-Müntəhaya çıxarıldım. Onun meyvələri (Yəmənin) Həcər su qabı kimi iri, yarpaqları isə fil qulaqları kimi idi. Cəbrail - əleyhissəlam - mənə:

- Bax, bu Sidreyi-Müntəhadır! - dedi. Orada dörd çay vardı: ikisi daxili (batini), ikisi isə zahiri çay idi.

- Bunlar nədir, ey Cəbrail? -deyə soruşdum.

Cəbrail - əleyhissəlam:

- Bu iki daxili (batini) çay cənnətin çaylarıdır. Zahiri olanların biri Nil, o biri də Fəratdır! - dedi. (Buxari, "Bədül-Xalq", 6; "Ənbiya", 22, 43; "Mənaqibul-Ənsar", 42; Müslüm, "İman", 264; Tirmizi, "Təfsir", 94, "Dəavat", 58; Nəsai, "Səlat" 1, Əhməd, V, 418)

Sidreyi-Müntəhada Cəbrail - əleyhissəlam:

- Ey Allahın Rəsulu! Bundan sonra təkcə gedəcəksən! - dedi. Rəsulullah:

- Niyə, ey Cəbrail? - deyə soruşdu. O da belə cavab verdi:

Uca Allah mənə bura qədər çıxmağa icazə verib. Əgər buradan qabağa bir addım atsam, yanıb kül olaram!.." - dedi. (Razi, XXVIII, 251).

Bundan sonra Allah Rəsulu (s.ə.s) səfərini təkbaşına davam etdirdi. Ona qeyri-adi təcəllilər lütf edildi. Uca Allahın camalı ilə şərəfləndi. Bu səfərdəki qeyri-adi hadisələrin layiqli şəkildə ifadə edilməsi xəyaldan da üstün həqiqəti insan idrakının çərçivəsinə sığışdırmağa cəhd göstərmək kimi çətin bir işdir. Həqiqəti və əsl mahiyyəti Allah ilə Onun Həbibi arasında əbədi bir sirr kimi qalan möhtəşəm təcəllilər bütövlükdə qeyb aləminin şərtləri daxilində baş vermişdir. Bununla yanaşı Allah ilə Onun uca Peyğəmbəri arasındakı bu möhtəşəm sirlər təcəllisi vəhy alanlara Rəbbin sonsuz qüdrət, əzəmət və səltənətini nümayiş etdirir. Həmçinin, merac

hadisəsi uca Allahın Hz. Peyğəmbərin sonuncu dəfə Taifdə məruz qaldığı zülm nəticəsində qəlbinə dolan kədəri sevincə çevirmək məqsədindən irəli gəlir. Əslində, zaman və məkan anlayışından kənarda gerçəkləşən bu ilahi təcəllinin insan təfəkkürünün imkanları daxilində tam şəkildə qavranılması qeyri-mümkündür. Bəşər idrakının fövqündə dayanan belə həssas və müstəsna mövzularda xəyal gücünü nəyəsə məcbur etmək qadağan edilib. Xülasə, Peyğəmbərimiz meracda ulu Yaradana məxsus zamansız və məkansız bir aləmdə bütün peyğəmbərlərə bəxş edilən ilahi lütflərdən artıq, müstəsna ilahi bir lütflə:

"(Məhəmməd Mustafa ilə Rəbbinin arasındakı məsafə) **iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu"** (ən-Nəcm, 9) - deyə tanınan bir təcəlli ilə qarşılaşdı. Bu təcəllinin bir zərrəsini müşahidə etməklə ən yüksək dərəcəli peyğəmbərlərdən olmasına baxmayaraq, Hz. Musanın - əleyhissəlam - yıxılıb özündən getdiyini xatırlasaq, Peyğəmbərimizin (s.ə.s) Allah dərgahındakı ülvi mövqeyi və Ona lütf edilmiş xüsusi səlahiyyət və iqtidarın dərəcəsi az-çox dərk edilər.

Digər tərəfdən, Hz. Musaya - əleyhissəlam - müqəddəs məkanda ayaqqabılarını çıxartması əmr edilmiş və ayaqlarının oranın bərəkətindən istifadə edib, şərəfi ilə şərəflənməsi istənilmişdir. Ancaq Rəsulullaha (s.ə.s) merac gecəsi: **"Ey Həbibim! Sən ərşin örtüyü üstündə ayaqqabılarınla get ki, ərş sənin ayaqqabılarının tozu ilə şərəflənsin və ərşin nuru sənə qovuşma nemətinə nail olsun!.."** - deyilmişdir. (Bursəvi, V, 370).

İki cahan sərvərinin meraca çıxması ilə göylərin yaşadığı zövq və həyəcanı şair Kamal Ədib Kürkçüoğlu çox gözəl ifadə edib:

Şəbi-meracda simasını seyr etdi deyə,

Qapanır yerlərə göy, səcdeyi-şükran olaraq!

*****

Uca Allah Qurani-Kərimdə meracdan belə bəhs edir:

وَالنَّجْمِ إِذَا هَوٰى

"Enən ulduza and olsun!" (ən-Nəcm, 1). Surənin bu şəkildə and içməklə başlanması onun ehtiva etdiyi həqiqətə kafirlərin etiraz edəcəklərini nəzərə alıb meracın həqiqiliyini vurğulamaq üçündür. Belə ki bu məqam and içmənin arxasınca gələn ayələrlə bu şəkildə önə çəkilir:

İPƏKYOLU Nəşriyyatı

**"Sizin yoldaşınız** (Məhəmməd - əleyhissəlam) **nə haqq yoldan sapmış, nə də azmışdır. O, həva-həvəslə danışmır** (nəfsinə uyub kefi istəyəni) **demir. Bu, ancaq** (Allah dərgahından) **nazil olan bir vəhydir. Onu** (Məhəmmədə - əleyhissəlam) **çox qüvvətli olan** (Cəbrail) **öyrətdi. O qüvvət sahibi** (səmada öz həqiqi surətində) **bərqərar oldu.** (Peyğəmbərə olduğu kimi göründü)**. O** (Cəbrail) **ən uca üfüqdə** (günəşin çıxdığı yerdə) **idi".** (ən-Nəcm, 2-7).

Ayədəki "istiva" kəlməsi ehtiva etmək, bürümək, əhatə etmək və çönmək mənalarını verir. Müfəssirlərin əksəriyyəti "istiva" kəlməsinin failinin (mübtədasının) Cəbrail - əlehissəlam - olduğunu bildirməklə yanaşı, seçimlə onu Peyğəmbərə (s.ə.s) aid edirlər. Bu vəziyyətdə isə "istiva" Allah Rəsulunun qiymətini, rütbə və vəzifəsinin aliliyini ifadə edir. Yəni Allah Rəsulu öncə ən yüksək üfüqdə görüldü:

**"Sonra yaxınlaşdı və aşağı endi".** (ən-Nəcm, 8).

Yəni Varlıq Nuru ilahi cazibənin əsəri olaraq yuxarıya çıxarıldı. Beləliklə, Rəsulullah (s.ə.s) yalnız ən yüksək üfüqə qalxmadı, həm də Allaha tərəf yaxınlaşdı, sonra ilahi cazibənin təsiri artdı, artdı, artdı və Hz. Peyğəmbər bir anda ən yüksək üfüqün o biri tərəfinə keçdi:

**"**(Məhəmməd Mustafa ilə Rəbbinin arasındakı məsafə) **iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu".** (ən-Nəcm, 9).

Ayədəki:

قَابَ قَوْسَيْنِ أَوْ أَدْنَى

"İki yay uzunluğu, bəlkə, ondan da yaxın" ifadəsi insan idrakının fövqündə olan həqiqəti insan idrakına sığdıra bilmək üçün istifadə edilmiş bir bənzətmədir. Belə ki İslamdan öncə ərəblər ittifaq yaratmaq məqsədilə and içdikləri zaman iki ox çıxarır, birini o birisinin üstünə qoyaraq ikisinin "qab"ını (yayın qəbzə ilə kiriş hissəsi olan iki tərəfin arasını) birləşdirir, sonra da ikisini bərabər çəkib bir ox atırdılar. Bu, onlardan birinin razı olduğu şeyə digərinin də razı olacağını, birini qəzəbləndirən şeyin digərini də qəzəbləndirəcəyini ifadə edən bərabərlik və bütövlük razılaşması idi. Buna görə "iki yay arası" həm maddi, həm də mənəvi yaxınlığı ehtiva edən və bəşəri idrakın fövqündə duran ülvi həqiqətdir. Yəni Hz. Məhəmməd Mustafa bu nöqtədə Rəbbinə o qədər yaxınlaşdı ki, bütün vasitələr götürüldü və birbaşa:

İPƏKYOLU NƏŞRİYYATI

**"...Öz bəndəsinə vəhyini bildirdi"**. (ən-Nəcm, 10).

Bu vəhyin mahiyyəti aşağıdakı kimi açıqlanmışdır:

1. Namaz. Meracdakı ən mühüm məqamlardan biri gündə beş vaxt namazın fərz buyurulmasıdır.

Hz. Peyğəmbər (s.ə.s) Musanın - əleyhissəlam - tövsiyəsi ilə uca Allaha müraciət edib və başlanğıcda əlli vaxt fərz qılınan namaz beş vaxta endirilib. Bununla yanaşı uca Allah birə on savab verərək gündə beş vaxt namaz qılana əlli vaxt namazın savabını ehsan edəcəyini bildirib. Daha sonra böyük Yaradan belə buyurub: **"Hər kim bir xeyir iş görmək istəsə, amma onu görməsə, həmin şəxsə** (bu yaxşı niyyətinə görə) **bir savab yazılır, gördüyü təqdirdə isə on savab yazılır. Hər kim bir pislik etmək istəsə, amma onu etməsə, həmin şəxsə günah yazılmaz. Ancaq həmin pisliyi etsə, bir günah yazılar"**. (Müslüm, "İman", 259).

Bununla bağlı uzun bir hədisi-şərifdə bəyan edildiyi kimi, uca Allah başlanğıcda əlli vaxt əmr edilən namazı Peyğəmbərimizin (s.ə.s) müraciətinə görə beş vaxta endirmişdir. Bunun mənası odur ki, insanlarla bağlı ilahi hüquqa uyğun olaraq namazın əlli vaxt qılınması əmri doğrudur, amma uca Allah böyük lütfü ilə bu mükəlləfiyyəti birə on nisbətində azaldıb. Uca Allahın:

**"Mən cinləri və insanları yalnız mənə ibadət etsinlər deyə yaratdım!"** (Zariyyat, 56) bəyanı həm insan üçün əsl məqsədin ibadət olduğu, ancaq ilahi mərhəmətə uyğun ən zəif insanların da nəzərə alınaraq bu məsələdə güzəşt edildiyi mənasına gəlir, həm də məcburi olmamaq şərti ilə beş vaxtdan artıq namaz qılınmasına icazə verildiyini və bunun zəruriliyini ifadə edir.

Kamil möminlər fərz olan beş vaxt namazdan əlavə quşluq, işraq, əvvabin kimi nafilə namazlar qılırlar və xüsusilə, gecə təhəccüd namazına qalxırlar. Bütün bunlar bu reallığın təbii bir nəticəsidir. Ancaq bu ibadətlərin insanların gücü və zövqü olan qisminə aid olması üçün öncə əlli vaxt namaz qılmaq əmri verildi. Sonra Hz. Peyğəmbərin müraciəti ilə beş vaxta endirildi.

2. Allah Rəsuluna (s.ə.s) xitabən: **"Peyğəmbərlərdən heç biri Səndən əvvəl, ümmətlərdən heç biri də Sənin ümmətindən əvvəl cənnətə girməyəcəkdir!"** - deyə buyurulmuşdur. (Razi, XXVIII, 248).

3. Bəqərə surəsinin son iki ayəsi vəhy edilib.

İPƏKYOLU NƏŞRİYYATI

Müslümün rəvayət ediyi mübarək hədislərin birində belə buyurulur: **"Rəsulullaha meracda üç şey verildi: beş vaxt namaz, Bəqərə surəsinin sonu və ümmətindən şirkə düşməyənlərin böyük günahlarının bağışlanasağı xəbəri..."** (Müslüm, "İman", 279).

Bununla yanaşı qeyd etmək lazımdır ki, meracdakı vəhyin təfsilatını və xüsusiyyətlərini yalnız Allah və Peyğəmbəri bilir. Burada açıq-aşkar olan həqiqət Allah Rəsulunun (s.ə.s) meracdakı təcəllilləri xəyal kimi yox, qəlb və vicdanın da təsdiq etdiyi reallıq kimi müşahidə etməsidir. Yəni:

**"Qəlb** (Peyğəmbərin qəlbi) **gördüyünü yalan saymadı.** (Ey inkar edənlər!) **Siz onunla gördüyü barədə mübahisə edirsinizmi?"** (ən-Nəcm, 11-12).

Allah Rəsulu (s.ə.s) meracda Rəbbi ilə görüşüb saysız-hesabsız təcəllilər və ibrətamiz hadisələr müşahidə etdikdən sonra heç bir bəndənin yüksəlməyəcəyi o xüsusi məqamdan geri qayıdarkən Cəbraili - əleyhissəlam - qoyub getdiyi (Sidreyi-Müntəhada) yenə də öz cildində gördü. Ayədə buyurulur:

**"And olsun ki,** (Məhəmməd - əleyhissəlam Cəbraili öz həqiqi cildində) **Sidreyri-Müntəhanın yanında bir daha gördü".** (ən-Nəcm, 13-14).

Ayədə Allah Rəsulunun (s.ə.s) məqam baxımından Cəbraildən - əleyhissəlam - daha irəlidə olduğuna işarə edilib. Belə ki, Cəbrail - əleyhissəlam - merac gecəsində "Bir barmaq ucu qədər də yaxınlaşsaydım, yanardım!" dediyi yerdə qalmış və Peyğəmbərimiz (s.ə.s) daha qabağa getmişdir. Bu həqiqət Allah Rəsulu qayıdan zaman Cəbrail - əleyhissəlam - ilə rastlaşması ilə daha bariz şəkildə bildirilmişdir:

**"Məva cənnəti onun yanındadır. O zaman sidrəni nələr bürümüşdü, nələr!"** (ən-Nəcm, 15-16).

Kainatın fəxri olan Peyğəmbərimizdən soruşuldu:

*"- Ya Rəsulullah! Sidrəni nə bürümüşdü?*

*Peyğəmbərimiz buyurdu:*

*- Qızıldan pərvanələrin onu bürüdüyünü və hər yarpaqda bir mələyin oturub Allaha həmdü-səna etdiyini gördüm".* (Təbəri, XXVIII, 75; Müslüm, "İman", 279).

İPƏKYOLU NƏŞRİYYATI

İbni-Abbasın (r.a) rəvayət etdiyinə görə, uca Allah Hz. Musanı kəlam, Hz. İbrahimi dostluq, Hz. Məhəmməd Mustafanı isə ruyətullah (uca Allahı bizim bilmədiyimiz şəkildə görmək) şərəfi ilə təltif etmişdir. (Təbəri, XXVII, 64). Gözün sevdiyinin hüzurunda Ondan başqa heç bir yerə baxmaması ədəbin ən yüksək nöqtəsidir. Həqiqətən:

**"Gözü nə** (sağa-sola) **yayındı, nə də uzağa getdi** (hər şeyi olduğu kimi görürdü)**. And olsun ki,** (Peyğəmbər) **öz Rəbbinin ən böyük qüdrət nişanələrindən** (möcüzələrindən) **bir qismini gördü".** (ən-Nəcm, 17-18).

Bu ayədən də göründüyü kimi, Hz. Peyğəmbər (s.ə.s) Cəbrail - əleyhissəlam - də daxil olmaqla heç bir məxluqun hüdudunu aşmadığı sidrətül-müntəhanın o biri tərəfinə keçdi. Ayədə insan idrakına uyğun "iki yay uzunluğunda, bəlkə, ondan da yaxın" məsafə kimi bildirilən, amma bəndələrin qavraması qeyri-mümkün və məhrəm bir görüş gerçəkləşdi. Bu görüşdə peyğəmbərlər sultanı sözün ifadə imkanları xaricində olan ülvi və böyük həqiqətlər, yəni Rəbbin ilahi qüdrətindən mülk və səltənətinin ehtişamından yalnız müşahidə ilə seziləcək böyük nişanələr gördü. Burada müfəssirlərin qənaəti belədir: "Hz. Peyğəmbər qəlb gözü ilə Allahı gördü". (Təbəri, XXVII, 63).

İbni Abbasdan (r.a) nəql edilən rəvayətə görə, Rəsulullah (s.ə.s) *"Mən uca Rəbbimi gördüm!"* - buyurmuşdur. (Əhməd, I, 285; Heysəmi, I, 78).

Başqa bir rəvayətdə Peyğəmbərimiz (s.ə.s) *"Rəbbini gördünmü?"* - sualına cavabında *"Bir nur görürdüm!"* - buyurub. (Müslüm, "İman", 292).

Ən doğrusunu Allah bilir...

*****

Hz. Peyğəmbərdən İsra və meracla bağlı bir çox hədis rəvayət edilmişdir. Onlardan bir neçəsi bunlardır: Allah Rəsulu (s.ə.s) meracda bir icmaya baş çəkdi və gördü ki, onların dodaqları dəvə dodağı kimidir. Bir qrup vəzifəli şəxs də onların dodaqlarını kəsib ağızlarına daş qoyur.

- Ey Cəbrail! Bunlar kimdir? - deyə soruşdum.

Cəbrail - əleyhissəlam:

- Bunlar yetimlərin mallarını haqsız yerə yeyənlərdir! - dedi. (Təbəri, XV, 18-19).

İPƏKYOLU NƏŞRİYYATI

Sonra Rəsulullah (s.ə.s) başqa bir qrupla rastlaşdı. Onlar isə misdən dırnaqlarla üzlərini və sinələrini cırırdılar.

- Ey Cəbrail! Bunlar kimdir? - deyə soruşdu.

Cəbrail - əleyhissəlam:

- Bunlar (qeybət etməklə) insanların ətini yeyənlər, onların şərəf və namusları ilə oynayanlardır! - cavabını verdi. (Əbu Davud, "Ədəb", 35/4878).

Daha sonra Hz. Peyğəmbər orada zinakarları leş yeyən bədbəxtlər kimi, faiz yeyənləri qarınları həddindən artıq şişmiş və şeytan vurmuş rəzil vəziyyətdə, zina edib uşaqlarını öldürən qadınları isə bir qismini köksündən, bir qismini də başı aşağı asılaraq faciəyə düçar olmuş halda gördü.

Buna görə Varlıq Nuru olan Peyğəmbərimiz: "Əgər mənim bildiyimi siz də bilsəydiniz, şübhəsiz, çox az gülər, çox ağlayardınız!", buyurmuşdur. (Buxari, "Təfsir", 5/12).

Rəsulullah (s.ə.s) yenə meracda müşahidələri ilə bağlı bir mübarək hədisində belə buyurub: *"Merac gecəsi cənnətin qapısının üstündə bu sözlərin yazıldığını gördüm: "Sədəqə on misli ilə, borc vermək isə on səkkiz misli ilə mükafatlandırılacaq!"*

Mən:

- Ey Cəbrail! Borc vermək niyə sədəqədən üstün tutulur? -deyə soruşdum.

- Çünki dilənçi (çox vaxt) üstündə pulu olduğu halda sədəqə istəyir, borc istəyən isə ehtiyacı olduğuna görə, - cavabını verdi. (İbni-Macə, "Sədaqat", 19).

*****

Merac vasitəsi ilə bu həqiqətə də toxunmaq lazımdır ki, insanlar zaman baxımından yalnız keçmişdən xəbərdar olduqları halda peyğəmbərlər - uca Allahın istədiyi səviyyədə - həm keçmiş, həm indi, həm də gələcəklə bağlı məlumatlara malikdirlər. Rəsulullahın (s.ə.s) məhşər alovundan xəbər verməsi və bu xəbəri "gördüm, eşitdim" kimi olmuş bir şəkildə ifadə etməsi, bax, bu həqiqətin təzahürüdür. Belə ki Allah Rəsulu (s.ə.s) keçmiş, indi və gələcək hadisələrdən xəbərdar olduğu merac gecəsində gələcəyə aid bəzi ibrətli hadisələri seyr etmiş və bunları keçmiş formada, yəni olmuş şəkildə nəql etmişdir. Bununla bağlı misallardan biri də cənnətlə müjdələnmiş on nəfərdən biri olan Hz. Əbdürrəhman bin Avf haqqındadır. Hədisi-şərifdə

buyurulur: "O gecə (merac gecəsində) Əbdürrəhman bin Avfı gördüm. Cənnətə oturulu şəkildə iməkləyərək girirdi. Ondan soruşdum:

- Niyə belə ağır-ağır gedirsən?

Dedi:

- Ya Rəsulullah! Malımın hesabını verdiyimə görə! Uşaqları belə qocaldacaq ağır sıxıntılar keçirdim. Hətta, o səviyyədə ki, bir daha Sizi görməyəcəyimi zənn etdim..." (Məhəmməd Parsa, "Faslul-Xitab", s. 403).

Əbdürrəhman bin Avf bu hədisi meracdan sonra eşitdikdə dərhal Hz. Aişənin yanına gəlib Hz. Peyğəmbərin belə bir mübarək hədisinin olub-olmadığını soruşdu. Hz. Aişə belə bir hədisin olduğunu söylədikdə sevincindən ürəyi quş kimi qanadlanan Əbdürrəhman bin Afv (r.a) o ərəfədə Şamdan gəlmiş karvanını bütövlükdə Allah yolunda payladı.

Həqiqətən də, o gecə Allah Rəsulu (s.ə.s) saymaqla qurtarmayan ilahi ayələr (nişanələr) görmüşdür. Peyğəmbərimiz (s.ə.s) mübarək hədislərindən birində belə buyurur: *"(O gecə) göylərə yüksəldildim. Elə bir məqama çatdım ki, orada kəlmələrin pıçıltısını eşidirdim"***.** (Buxari, "Səlat", 1).

Yəni Allah Rəsulu (s.ə.s) elə bir məqama yüksəldildi ki, orada kainatın müqəddaratını yazan qələmlərin səsini eşidir, idrakın qavraya bilməyəcəyi həqiqətlərdən agah olurdu. Yuxarıdakı mübarək hədisdən açıq şəkildə belə başa düşülür ki, Allah Rəsulu meracda keçmişi, gələcəyi və indini eyni anda yaşayırdı.

### Meracdan bir neçə məqam

1. Rəsulullah (s.ə.s) bu səfərə çıxmazdan öncə "şaqqi-sadr" hadisəsi baş vermişdir. Bu da onu göstərir ki, mənəvi yüksəliş təmiz, pak qəlblə mümkündür. Elə bir qəlblə ki, daxilində ilahi nurdan başqa heç nəyə yer yoxdur. Qəlb çirkin şeylərdən təmizləndikdən sonra ilahi sirlərin təcəlliləri onu bürüməyə başlayır.

2. İsra hadisəsi bəndəsini müstəsna bir şəkildə göylərə yüksəldən Allahın sonsuz qüdrətini və səltənətini gözlər önünə gətirir.

3. Digər bir məqam isə meracın əzab-əziyyət və iztirab dolu Taif səfərindən sonra lütf edilməsi və məşəqqətlərin arxasınca sevincin müjdə dolu xəbərçisi olmasıdır.

İPƏKYOLU NƏŞRİYYATI

4. Qurani-Kərimdə bizə bildirilən fərzlər Cəbrail - əleyhissəlam - vasitəsi ilə çatdırılıb. Namaz isə meracda birbaşa uca Allah tərəfindən əmr olunub. Bu isə namazda ayrı bir sirr olduğuna və ibadətlər arasında müstəsna əhəmiyyət daşıdığına dəlalət edir. Həqiqətən, namaz dinin dirəyidir. Onunla qazanılan kamil keyfiyyətləri başqa heç bir ibadətlə qazanmaq mümkün deyil. İslami ibadətlər arasında namazın yeri axirət nemətləri içərisində ən gözəl olanı ruyətullah, uca Allahı görmək kimidir. Çünki namaz möminlərin meracıdır. Dünyada bəndələrin Haqqa ən yaxın olduqları vaxt səmimiyyət və təqva ilə qıldıqları namaz vaxtlarıdır. Namaz hələ bu dünyada ikən bəndənin Rəbbi ilə qarşılaşmasıdır. Buna görə də, Rəsulullah (s.ə.s) "Namaz gözümün nurudur!" - buyurub və son nəfəsində ümmətinə "namaza diqqət etməsini" tövsiyə edib.

Meracda Varlıq Nuru olan Peyğəmbərimizin (s.ə.s) üzünə səmanın qapılarının açılması Onun nübüvvətinin yalnız Məkkə, Qureyş və Sakiflə məhdudlaşmadığını, Onun bütün cahanın peyğəmbəri və aləmlərin rəhbəri olduğunu göstərir.

6. Meracla insani təkamülün son nöqtəsi göstərilib, yəni insanın mənəvi yüksəliş hüdudunun hansı səviyyə olduğu bildirilib.

7. Rəsulullahın (s.ə.s) Məscidül-Həramdan Məscidül-Əqsaya aparılması tarix boyu xeyli peyğəmbərin göndərildiyi bu iki dini mərkəz arasındakı əlaqələri daha qüvvətli şəkildə göstərməkdir. Həmçinin, bu hadisə İslamın bütün səmavi dinləri əhatə edən Haqq dərgahındakı yeganə din olduğunu ifadə edir. Belə ki, Rəsulullahın (s.ə.s) Məscidül-Əqsada bütün peyğəmbərlərə imamlıq etməsi bunun başqa bir təzahürüdür.

**Meracın əks-sədası**

Varlıq Nuru, kainatın sevinci olan Peyğəmbərimiz (s.ə.s) merac hadisəsini Qureyş müşriklərinə xəbər verən zaman:

- Ey Cəbrail! Qövmüm məni (söylədiklərimi) təsdiq etməyəcək! - dedi.

Cəbrail - əleyhissəlam:

- Əbu Bəkir Sənin söylədiklərini təsdiqləyəcək! O, siddiqdir! - cavabını verdi. (İbni-Sad, I, 215).

İPƏKYOLU NƏŞRİYYATI

Müşriklər merac hadisəsini eşitdikdə dərhal inkar etməyə başladılar. Ortalığa dedi-qodu ab-havası hakim kəsildi. Müşriklər bunu ələ düşmüş fürsət zənn edərək möminləri də bu yolda vəsvəsələrlə imanlarından uzaqlaşdırmaq istədilər. Hətta, Hz. Əbu Bəkrin də yanına getdilər. Ancaq o, Hz. Peyğəmbərə (s.ə.s) olan hədsiz iman sədaqətinin şövqi içində:

- O, nə söyləyirsə, doğrudur! Çünki Onun yalan söyləməsinə imkan və ehtimal yoxdur! Mən Onun gətirdiklərinin hamısına inanıram!.." - dedi.

Müşriklər:

- Sən Onun dediklərini təsdiq edir və bir gecədə Beytül-Məqdisə gedib-gəldiyinə inanırsanmı? - dedilər.

Hz. Əbu Bəkir (r.a):

- Bəli! Burada heyrət ediləcək nə var? Vallah, O, mənə gecə, ya da gündüzün hansısa vaxtında Ona Allahdan xəbər gəldiyini söyləyir, mən yenə də Ona inanıram, - söylədi.

Daha sonra Hz. Əbu Bəkir həmin vaxt Kəbədə olan Hz. Peyğəmbərin yanına getdi. Baş verən hadisəni Onun mübarək ağzından eşitdi və:

- Doğru söylədin, ya Rəsulullah!.. - dedi.

Allah Rəsulu (s.ə.s) da onun bu təsdiqindən razı qalaraq cahanı işıqlandıran təbəssümü ilə Hz. Əbu Bəkrə:

- Ey Əbu Bəkir! Sən Siddiqsən!" - buyurdu. (İbni-Hişam, II, 5).

O gündən sonra Əbu Bəkir (r.a) "Siddiq" ləqəbi ilə məşhurlaşdı. Səhabələr də Hz. Əbu Bəkir kimi Allah Rəsulunun (s.ə.s) söylədiklərini təsdiqlədilər.

Möminləri gözü götürməyən müşriklər bu dəfə Hz. Peyğəmbərin hüzuruna çıxaraq Onu imtahan etməyə başladılar. Ondan Beytül-Məqdis haqqında soruşdular. Böyük Yaradan Beytül-Məqdisi Rəsulunun gözləri qarşısında canlandırdı. Allah Rəsulu (s.ə.s) suallara Beytül-Məqdisi seyr edərək cavab verdi. (Buxari, "Mənaqibul-Ənsar", 41; "Təfsir", 17/3; Müslüm, "İman", 276).

Müşriklər bu dəfə yoldakı bir karvan və o karvandakı bəzi xüsusiyyətlər haqqında sual verdilər. Karvan da o an Məscidül-Məqdis kimi Hz. Peyğəmbərin gözləri önünə gətirildi. Allah Rəsulu (s.ə.s) lazımi məlu-

matları onların istədiklərindən artıq dərəcədə verdi. Hətta, karvanın günəş doğarkən Məkkəyə daxil olacağını da bildirdi. Aldıqları cavabdan heyrətlənən müşriklər "Bəlkə, sonuncu söylədiyi doğru çıxmaz", düşüncəsi ilə yatmayıb şəfəq vaxtı birlikdə karvanı gözlədilər. Sonda karvan göründü, lakin qəbləri kilidli olanlar inad etməkdən əl çəkməyib: "Bu, açıq-aydın sehrdir!" - dedilər. (İbni-Hişam, II, 10).

Hər şeyi yoxdan yaradan Allaha bəndəsini meraca çıxarmaqdan daha asan nə ola bilər?! Bunu qəbul etməmək ağılsızlığın göstəricisidir. Yazıq, axmaq və bədbəxt müşriklər merac hadisəsinə inanmadılar, yenə Allah Rəsuluna lağ etdilər. Artıq aləmlərin rəhbərinin onların arasında olmaq nemətini etdikləri qeyri-insani hərəkətləri ilə bütövlükdə əllərindən çıxarmışdılar. Artıq bu böyük nemətin qədrini bilməyən məkkəlilərdən onun geri alınmasının vaxtı gəlib çatmışdı. Çünki onlar şərəfinə yaradıldıqları bir peyğəmbərə qarşı ağlagəlməz haqsızlıq və nankorluq etmişdilər, həddi aşmışdılar. Həqiqətən də, atılacaq yeganə addım qalmışdı: "Allahın Varlıq Nurunu onların arasından çıxarıb aparması və Onun qədir-qiymətini biləcək bir cəmiyyətə ehsan edilməsi!.."

Onsuz da uca Allah Taif səfərindən uzun zaman keçmədən Qurana və Rəsuluna beyət edəcək seçilmiş bir icmanın ilk müjdəçilərini bir qrup halında sevgili Peyğəmbərinə göndərmişdi.

### Əqabə görüşü

Gecə vaxtı idi...

Kəbəni ziyarət etməyə gələn altı nəfərlik mədinəli qrup Əqabə deyilən yerdə aləmlərin rəhbəri, peyğəmbərlər sultanı Rəsulullah (s.ə.s) ilə qarşılaşdı. Onun hər iki cahanı aydınlandıran nuruna baxaraq: "Bu, nə gözəl insandır!" - deyə aralarında pıçıldaşdılar. Könüllərinə o an ifadə edə bilməyəcəkləri ləzzət verən və daxili dünyalarında məhəbbət toxumu cücərdən rəhmət damlaları axmağa başladı. Bu vaxt onlara yaxınlaşan Varlıq Nuru peyğəmbərlik vəzifəsinə uyğun olaraq hər kəs kimi onları da İslama dəvət üçün hərəkətə keçdi:

- Bir az oturun, söhbət edək, - dedi. Mədinəli altı nəfərlik xoşbəxt qrup heyran qaldıqları bu şəxslə danışmağı özlərinə fəxr bildilər. Dərhal Peyğəmbərimizin ətrafında işığın başına fırlanan pərvanələr kimi top-

İPƏKYOLU NƏŞRİYYATI

laşdılar. Allah Rəsulu (s.ə.s) onlara Quran ayələri oxuyaraq İslamı təbliğ etdi. Əgər iki cahanda səadət, xoşbəxtlik istəyirlərsə, bu iman dəvətini qəbul etmələrinin zəruri olduğunu söylədi. Mədinəlilər yaxınlarda bir peyğəmbər gələcəyini atalarından eşitmişdilər, həmçinin qonşuları yəhudilərdən də tez-tez bununla bağlı sözlər eşidirdilər. Peyğəmbərimizin dəvətini eşitdikdə bir-birilərinə: "Yoldaşlar! Vallah, bu, yəhudilərin gələcəyi ilə bağlı mərc edərək bizi təhdid etdikləri peyğəmbərdir! Əsla, imkan verməyək ki, yəhudilər Ona iman gətirməkdə bizi qabaqlasınlar!" - dedilər. Peyğəmbərimizin (s.ə.s) ilk gördükləri an heyran olduqları nurani çöhrəsinə bir daha baxdılar və söylədiklərinin həqiqət olduğunu dərk edərək ilahi dəvətə şövqlə "bəli" dedilər. Hamısı birgə kəlmeyi-şəhadət gətirdi:

اَشْهَدُ اَنْ لاٰ اِلَهَ اِلاَّ للّٰهُ وَ اَشْهَدُ اَنَّ مُحَمَّدًا عَبْدُهُ وَ رَسُولُهُ

Peyğəmbərimiz onlardan müsəlmanlarla Mədinəyə gedəcəyi təqdirdə Ona kömək edib-etməyəcəklərini soruşdu. Mədinənin bu ilk müsəlmanları isə Evs və Həzrəc qəbilələri arasında çox dəhşətli savaşlar olduğunu, aralarındakı düşmənçiliyin son həddə çatdığını, bu il gəlsələr, onlara tam mənası ilə kömək edə bilməyəcəklərini söyləyərək bir il möhlət istədilər. Onlar mədinəliləri İslama dəvət edəcəklərinə söz verərək gələn il həcc mövsümündə yenidən gələcəklərini vəd etdilər.

Bu kiçik iman karvanındakı insanlar öz vətənlərinə bambaşqa sevinc və rahatlıqla qayıtdılar. Cəhalət kirindən təmizlənmiş, daxili sıxıntıları aradan qaldırılmış və quş kimi yüngülləşmişdilər. Mədinəyə çatdıqları zaman kainatın rəhbəri olan iki cahan günəşindən danışmağa başladılar. Mədinədə içində Hz. Peyğəmbərdən danışılmayan bir ev belə qalmadı.

İPƏKYOLU NƏŞRİYYATI

## PEYĞƏMBƏRLİYİN ON İKİNCI VƏ ON ÜÇÜNCÜ İLLƏRİ

### Birinci əqabə beyəti

Altı nəfərlə Məkkəyə gəlib iman nuru ilə şərəflənən mədinəlilər sonrakı il on iki nəfərlik heyətlə gəldilər. Görüş yerləri yenə Əqabə oldu. Allah Rəsulu (s.ə.s) yeni gələnləri də tövhid inancına dəvət etdi. Yoldaşlarından İslamın ucalığını və gözəlliyini eşidib Peyğəmbərimizin (s.ə.s) mədhini dinləyən digər altı nəfər də iman gətirdi. Öncəki Əqabə görüşündən fərqli olaraq bu dəfəki görüşdə Varlıq Nuruna beyət edildi. Mədinəlilər Allah Rəsulunun (s.ə.s) əlindən tutaraq ilk beyətlərini edib söz verdilər. Bu beyətə görə ikinci Əqabə görüşünə birinci Əqabə beyəti deyilmişdir. Bu beyətdə mədinəlilər Allah Rəsuluna (s.ə.s) aşağıdakı şərtlərə əməl edəcəklərinə söz vermişlər.

1. Allaha heç bir şəkildə şərik qoşmamaq.
2. Oğurluq etməmək.
3. Zinaya yaxınlaşmamaq.
4. Qız uşaqlarını diri-diri torpağa basdırmamaq.
5. Heç kimə iftira atmamaq.
6. Allah və Peyğəmbərinə həmişə itaət etmək. (Buxari, "Mənaqibul-Ənsar", 43).

Mədinəlilərin bu ilk beyəti İslam tarixində dönüş nöqtəsi oldu. Bununla Hicaz və bütün Ərəbistanda hökm sürən şirk, zülm və pis adətlərin aradan qaldırılması ilə bağlı söz verilmiş oldu.

Mədinəli yeni müsəlmanlar bir məktub yazaraq İslamı öyrənmək üçün Rəsulullahdan (s.ə.s) onlara Quran oxuyacaq, İslamı başa salacaq və namaz qıldıracaq bir müəllim göndərməsini istədilər. Peyğəmbərimiz (s.ə.s) də Musabı (r.a) göndərdi.

Allah Rəsulu (s.ə.s) Musab (r.a) ilə birlikdə ilk iman gətirənlərdən olan Abdullah bin Ümmi Məktumu da Mədinəyə insanlara Quran öyrətməsi üçün göndərmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

Musab bin Umeyr (r.a) çox gənc yaşda hidayət olunmuş, ailəsinin ona azğın işgəncələr verməsinə, hətta, mirasdan məhrum qoymasına baxmayaraq, dinindən dönməmişdir. Çünki o, zahirən kasıb və qərib olsa da, daxilən iman eşqi və alovu ilə dolu bir ürək sahibi idi. İslamın yayılmasında necə deyərlər, həyəcan və coşqu abidəsi idi. Belə ki, Musabın (r.a) Mədinəyə gəlməsi ilə İslam orada sürətlə yayıldı. Peyğəmbərimizin (s.ə.s) təbliğlə vəzifələndirdiyi bu gənc səhabə insanlara Allahın dinini başa salmaq üçün gecəsini gündüzünə qatıb çalışdı. Musabın (r.a) səyləri nəticəsində hidayətə qovuşan ilk bəxtəvərlərdən Əsad bin Zürarə (r.a) onu evində saxlayır və bütün işlərində ona kömək edirdi.

İslamın bu şəkildə, yəni gözəl qəbul edildiyini xəbər alan Allah Rəsulu (s.ə.s) və məkkəli müsəlmanlar həddindən artıq sevindilər. O qədər sevindilər ki, həmin ili "sevinc ili" adlandırdılar. Çünki Mədinə İslamın beşiyi olmaq üçün hazır vəziyyətə gəlirdi. Hz. Peyğəmbərimiz (s.ə.s) belə buyurub: "Ölkələr qılıncla fəth edilir, amma Mədinə Quranla fəth edilib!"

**İkinci əqabə beyəti (peyğəmbərliyin on üçüncü ili)**

İkinci Əqabə görüşündən bir il sonra mədinəlilər yeni həcc mövsümündə Rəsulullah (s.ə.s) ilə görüşdülər. Bu dəfə onlar iki qadın, yetmiş beş kişi ilə gəlmişdilər. Yenə Allah Rəsuluna (s.ə.s) beyət etdilər. Buna da ikinci Əqabə beyəti deyildi.

Karvanın başında gələn Musab (r.a) öz evinə getməzdən əvvəl Rəsulullahın (s.ə.s) yanına getdi. Ənsarın İslamı sürətlə qəbul etdiyini xəbər verdi. Aləmlərin rəhbəri Musabın (r.a) gətirdiyi xəbərdən çox sevindi.

Hz. Musabın öncə Allah Rəsulunun (s.ə.s) yanına getməsi xəbəri onun müşrik anasının qulağına çatanda möhkəm hirsləndi. O isə: "Mən Rəsulullahdan (s.ə.s) öncə heç kimin yanına getmərəm, mənə görə o, hamıdan öncədir!" - dedi. Musab (r.a) Hz. Peyğəmbərdən icazə aldıqdan sonra anasının yanına getdi və onu İslama dəvət etdi. (İbni-Sad, III, 119). Səhabələrin Rəsulullaha (s.ə.s) sevgisi belə idi. Cabir (r.a) belə deyir: "Hz. Peyğəmbərin onu və müsəlmanları himayə edəcək bir qəbilə axtardığı, amma heç kimin Ona qucaq açmadığı günlərdə uca Allah bizi Yəsribdən (Mədinə) Onun yanına göndərdi, iman etdik və Onu himayəyə götürdük. Adətən bizdən bir nəfər gedib Allah Rəsuluna (s.ə.s) iman gətirərdi, Peyğəmbərimiz də Ona Quran oxuyardı. Elə bir Ənsar evi qalmadı ki, içində İslam izah edilməsin. Sonra

bir araya gələrək danışdıq və: "Rəsulullahı nə vaxta qədər Məkkə dağlarında əzab-əziyyət və zülm məngənəsində qoyacağıq?", - dedik. Bundan sonra həcc mövsümündə beyət etmək üçün Onun yanına getdik". (Əhməd, III, 322; Hakim, II, 681-682).

Bu bəxtəvər insanlar Peyğəmbərimizlə Əqabə adlı yerdə görüşmək məqsədilə sözləşdilər. Allah Rəsulu (s.ə.s) mədinəlilərə: "Yatanı oyatmayın, vaxtında görüş yerinə gəlməyəni də gözləməyin", - buyurdu. Gecənin üçdə biri keçdikdən sonra kainatın fəxri olan Peyğəmbərimizlə (s.ə.s) razılaşdıqları kimi Əqabəyə gedərək Onu gözləməyə başladılar. Nəhayət, Allah Rəsulu (s.ə.s) əmisi Abbasla (r.a) birgə gəldi. Abbas hələ müsəlman olmamışdı, amma Əbu Talibdən sonra qardaşı oğlunun himayəsini öz üzərinə götürmüşdü. Mədinəlilər Allah Rəsulunu (s.ə.s) öz şəhərlərinə dəvət etdikdə Peyğəmbərimizin əmisi Abbas belə dedi:

- Ey mədinəlilər! Biz Onu düşməndən qoruduq. Yenə də qoruyacağıq. Onun bizim aramızda yeri və dəyəri çox böyükdür. Ancaq siz Ona sevgi və hörmət bəslədiyinizə görə daha təhlükəsiz yaşaması üçün Mədinəyə dəvət edirsiniz. O da bu arzudadır. Ancaq onu düşmənlərindən qoruya biləcəksinizsə, məmləkətinizə aparın. Mən sizdən Onuköməksiz qoymayacağınıza, aldatmayacağınıza dair qəti söz almaq istəyirəm. Çünki qonşularınız yəhudilər qardaşım oğluna düşməndirlər. Onların tələ qurmayacaqlarından əmin deyiləm. Əgər ərəb qəbilələrinin də düşmənçiliyinə sinə gərməyə və onlarla savaşmağa qadirsinizsə, bu işə təşəbbüs göstərin. Yaxşı fikirləşin ki, sonra bu məsələdə ixtilafa düşməyəsiniz. Əgər yanınıza getdikdən sonra qorxub Ona kömək etməyəcəksinizsə, onu düşmənləri ilə üz-üzə qoyacaqsınızsa, özünüzə etibarınız yoxdursa, indidən bu dəvətdən əl çəkin! Aranızda danışmaq istəyən varsa, buyurub danışsın, ancaq sözünü lüzumsuz yerə uzatmasın. Çünki hər tərəfdə müşriklərin gözətçiləri və casusları var. Buradan gedəndən sonra da bu məsələni gizli saxlayın!

Əsad bin Zürarə (r.a) ayağa qalxaraq Peyğəmbərimizin (s.ə.s) əmisi Abbasın narahatçılığı ilə bağlı məqamlara cavab mahiyyətində bir çıxış etdi:

- Ya Rəsulullah! Sən bizi nə vaxtdan bəri inandığımız dinimizi tərk etməyə və Sənin dininə tabe olmağa dəvət etdin. Bu, çox çətin və ağır iş olduğu halda biz Sənin bu təklifini qəbul etdik. Sən bizi yaxın-uzaq bütün müşrik qohum və qonşularınızla əlaqəmizi kəsməyə çağırdın. Bu

da çox çətin və ağır bir iş olduğu halda, biz Sənin bu təklifini də qəbul etdik! Biz yalnız qövmünün deyil, əmilərinin belə öldürmək istədiyi bir şəxsi himayəyə götürdüyümüzü və buna görə məsuliyyət daşıdığımızı başa düşürük. Buna baxmayaraq, biz Sənin bununla bağlı təklifini qəbul edirik. Ey Allahın Rəsulu! Biz özümüzü, qadınlarımızı və oğullarımızı müdafiə etdiyimiz kimi, Səni də qoruyacağıq. Əgər bu əhdimizi pozsaq, Allahın əhdini pozmuş bədbəxt insanlar olaq! Ya Rəsulullah! Bu, Sənə bizim sədaqət andımızdır! Köməyinə, dəstəyinə sığınılacaq yalnız uca Allahdır!

Hz. Əsaddan sonra Abdullah bin Rəvaha (r.a) ayağa qalxaraq Rəsulullaha:

- Ey Allahın Rəsulu! Rəbbin və özün üçün bizə istədiyin şərti irəli sürə bilərsən! - dedi.

Peyğəmbərimiz (s.ə.s) belə buyurdu:

- Rəbbim üçün şərtim Ona ibadət etməyiniz və heç bir şeyi Ona şərik qoşmamağınızdır. Özümlə bağlı şərtim isə canınızı və malınızı necə qoruyursunuzsa, məni də elə qorumağınızdır".

Mədinədən gələn mübarək səhabələr soruşdular:

- Belə etsək, əvəzində bizim üçün nə vardır?

Hz. Peyğəmbər (s.ə.s) cavab olaraq:

- Cənnət vardır! - dedi.

Oradakılar:

- Bu nə qazanclı alış-verişdir! Bundan nə imtina edirik, nə də imtina edilməsini istəyirik! - dedilər. (İbni-Kəsir, "Təfsir", II, 406).

Abdullah bin Rəvaha (r.a) Mutə savaşında bu qazanclı alış-verişi bitirmiş, Varlıq Nurundan şəhid olacağı müjdəsini alaraq döyüşdə can verəcəyini bilə-bilə böyük bir həvəslə savaşa qatılmış, var-dövlətini beytülmala (dövlət xəzinəsinə), canını da uca Allaha təqdim edərək ruhuyla "cənnəti-əla"ya (ən uca cənnətə) uçmuşdur. Digər səhabələr də müxtəlif yerlərdə Allah yolunda cihad və səylərini davam etdirərək bu əhdlərinə sadiq qalmışlar, mənəvi ticarətlərini bərəkətləndirmişlər.

Mədinəli müsəlmanların beyəti ilə bağlı bu ayə nazil oldu:

İPƏKYOLU NƏŞRİYYATI

**"Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır. Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz sövdəyə görə sevinin. Bu böyük qurtuluşdur!"** (ət-Tövbə, 111).

Bundan sonra daha bir neçə nəfər söz alaraq danışdı. Onlardan sonra Peyğəmbərimiz (s.ə.s) mədinəlilərə müraciət etdi və onlara Qurani-Kərim oxuyaraq İslamı başa saldı. Sonra da hansı şərtlə beyət edəcəklərini onlara bildirdi. Əvvəlki şərtlərə əlavə olaraq aşağıdakı şərtləri də beyətə daxil etdi:

1. Əmr vermək və rəhbərlik etmək səlahiyyəti kimdədirsə, ona qarşı çıxmamaq.

2. Allah yolunda olduğuna görə müşriklər və digər inkar edənlər tərəfindən qınanmaqdan qorxmamaq.

3. Yaxşı və çətin, kədərli və sevincli gündə Allah Rəsuluna itaət etmək və Onu özündən üstün tutmaq, heç bir halda Ona qarşı çıxmamaq.

Peyğəmbərimiz (s.ə.s): "Aranızda mənə on iki nəfər naib seçin ki, onlar qəbilələrinin təmsilçiləri olsunlar!" - buyurdu. Mədinəli müsəlmanlar doqquzu Həzrəc, üçü isə Evs qəbiləsindən olmaqla on iki naib müəyyənləşdirdilər. Varlıq Nuru bu təmsilçilərə:

- Həvariləri İsa bin Məryəm üçün kəfil olduqları kimi siz də qövmünüzün kəfilisiniz. Mən də müsəlman olan qövmümün kəfiliyəm! - buyurdu.

Naiblər:

- Bəli, dedilər.

Varlıq Nurunun əmisi Abbas bir ağacın altında Peyğəmbərimizin (s.ə.s) əlindən tutub mədinəli müsəlmanlara bir-bir beyət etdirdi. Bu beyətdə Allah Rəsulunun (s.ə.s) dəvətə uyğun olaraq Mədinəyə hicrət etməsi qərara alındı. Çünki həmin ərəfədə adı Yəsrib olan Mədinə hər cəhətdən İslama qucaq açmağa hazır vəziyyətə gəlmişdi.

Beyət gecə edildiyi üçün bundan məkkəli müşriklərin xəbəri olmadı. Beyət başa çatan ərəfədə Əqabənin üstündən şeytan: "Ey Mina əhli! Ey Qureyş camaatı! Məhəmməd ilə yanında olanın və dinlərini dəyişənlərin sizinlə savaşmaq üçün toplaşıb anlaşdıqlarından xəbəriniz yoxdurmu?" -

İPƏKYOLU NƏŞRİYYATI

deyərək möhkəm və uzun bir şivən qopardı. Peyğəmbərimiz (s.ə.s): "Bu səs sizi qorxutmasın! O, Allahın düşməni İblisin səsidir. Qulaq as, ey Allahın düşməni! Sənin də öhdəndən gələcəyəm!" - buyurdu. Sonra müsəlmanlara: "Tez qaldığınız yerlərə qayıdın!" - dedi.

Abbas bin Ubadə (r.a):

- Səni haqq din və kitabla göndərən Allaha and içirəm ki, istəsən, Mina əhlini də qılıncdan keçirərik! - dedi.

Peyğəmbərimiz (s.ə.s):

- Biz buna əmr olunmadıq! Siz indi yerinizə qayıdın! - buyurdu.

Müsəlmanlar yerlərinə qayıdıb səhərə qədər yatdılar. Səhər tezdən Qureyş müşriklərindən bəziləri içində müsəlmanların da olduğu karvanın yanına gələrək Varlıq Nuru ilə razılaşma əldə edib-etmədiklərini soruşdular. Heç bir şeydən xəbəri olmayan karvandakı müşriklər and içərək belə bir şeyin baş vermədiyini söylədilər. Ancaq Qureyş müşrikləri Əqabə beyəti ilə bağlı araşdırmalarını davam etdirdilər. Beyət xəbərinin doğru olduğu məlum olduqda Mədinəyə gedən yolları kəsdilər, müsəlmanları tapmaq üçün hər tərəfə qruplar göndərdilər. Müşriklərin göndərdiyi qrup Sad bin Ubadəni (r.a) tutdu.

- Sən Məhəmmədin dinini qəbul etdinmi? - deyə soruşdular.

- Bəli, - dedikdə iki əlini boynuna möhkəmcə bağladılar. Döyə-döyə, uzun saçından sürükləyə-sürükləyə Məkkəyə apardılar. Ona əziyyət və işgəncə verməyə başladılar. Əvvəllər kömək etdiyi və haqsız hərəkətlərdən qoruduğu Subeyr bin Mutim ilə Haris bin Hərb tez gedib Sadı (r.a) müşriklərin əlindən aldılar.

Mədinəli möminlər toplaşıb onu xilas etmək haqqında danışdıqları vaxt Sad (r.a) onların yanına gəldi. (İbni-Hişam, II, 47-57; İbni-Sad, I, 221-223; III, 602-603; Əhməd, III, 322; 461, 462; Heysəmi, VI, 42-44).

İbni-Abbas (r.a) belə deyib: "Rəsulullah (s.ə.s), Hz. Əbu Bəkir və Hz. Ömər mühacirdirlər. Çünki onlar müşriklərdən qaçaraq Mədinəyə hicrət etmişdilər. Eyni qaydada Ənsardan da mühacirlər vardır. Onlar isə Əqabə gecəsi şirk yurdu olan Mədinədən Rəsulullahın (s.ə.s) yanına gəlmişdilər". (Nəsai, "Beyət", 13).

*****

İPƏKYOLU NƏŞRİYYATI

Əqabə beyətləri yalnız on iki, ya da yetmiş beş nəfərin deyil, bütün müsəlmanların Allah ilə bağladıqları bir sazişdir. Bu dünya axirətin satın alınacağı bazardır. Rəsulullaha (s.ə.s) edilən bu beyətdə bizim də bütün qəlbimizlə iştirakımız və səhabələr kimi "Nə qazanclı alış-verişdir!" deməyimiz lazımdır.

Musab (r.a) Mədinədə İslamın təməli oldu. Biz də ürəklərdə İslamın təməlini formalaşdırmalıyıq. Təbliğatçı lazım gələrsə, ev-ev gəzməli və öz həyatı ilə örnək olmalıdır. Təbliğatçının qəlbi Allah və Rəsulunun məhəbbəti ilə dolsa, Musab (r.a) kimi dünyəvi zövqlərini İslam üçün fəda edər.

**Məkkə dövrünün təhlili**

On üç il davam edən Məkkə dövründə məkkəli müşriklərin müsəlmanlara qarşı etdikləri zülm və işgəncəni aşağıdakı beş bənddə ümumiləşdirmək mümkündür.

1. İstehza

2. Təhqir

3. İşgəncə

4. Hər növ mədəni və ticarət əlaqələrini kəsmək (təcrid)

5. Müsəlmanları hicrətə məcbur edəcək səviyyədə güc tətbiqi, hətta, cinayət.

Onların bu vəziyyətini böyük Yaradan ayələrdə belə bildirir:

"Həqiqətən, günahkarlar iman gətirmiş kimsələrə (dünyada) gülürdülər. (Möminlərin) yanlarından keçərkən (onları dolamaq məqsədilə) bir-birinə göz-qaş edirdilər. Ailələrinin (yaxın adamlarının) yanına qayıtdıqda isə (onları doladıqları üçün) kefləri kök qayıdırdılar. Onları (möminləri) gördükdə: "Doğrusu, bunlar (haqq yolundan) azanlardır!" - deyirdilər!" (əl-Mutəffifin, 29-32).

Buna qarşılıq Allah Rəsuluna (s.ə.s) vəhylə mütəmadi güc, qüvvət verilirdi, necə hərəkət edəcəyi bildirilirdi. Onun tətbiq etdiyi metod isə belə olub:

1. Möminlərin ürəklərində ruhaniliyin güclənməsinə çalışmaq.

İPƏKYOLU NƏŞRİYYATI

2. Əzab-əziyyətlərə səbir etmək.

3. Gözəl sözlərlə nəsihət etmək.

4. Mübarizəni güzəştsiz davam etdirmək.

5. Uca Allaha təvəkkül etmək və təslim olmaq.

Bu üsullar və metodlar nəticəsində Allah Rəsulu (s.ə.s) bütün olanlara baxmayaraq, mübarizəsində uğur qazanmış və qarşılaşdığı maneələri uğurla keçmişdir. Bu uzun və əzab-əziyyətli işin nəticəsi olaraq da Mədinə kimi hər cəhətdən strateji əhəmiyyət daşıyan bir bölgə əhalisinin qrup-qrup iman gətirməsi lütfünə nail və layiq olmuşdur. Belə ki böyük ümidlərlə getdiyi Taifdən daşlanaraq qovulan Allah Rəsulu (s.ə.s) dəvət üçün Mədinəyə getmədiyi halda, orada İslam ilahi güclə yayılmış, qısa bir müddətdən sonra isə başda Hz. Peyğəmbər olmaqla bütün möminlərə qucaq açmışdır.

*****

Mütəfəkkirlərdən biri Rəsulullahın (s.ə.s) apardığı mübarizədə uğur qazanmasından çıxış edərək Onun necə böyük bir dühaya malik olduğunu belə təsbit edir: "Məqsədin böyüklüyü, vasitələrin kiçikliyi və nəticənin möhtəşəmliyi insan dühasının üç böyük ölçüsüdürsə, müasir tarixin ən böyük şəxsiyyətlərini (həzrət) Məhəmməd ilə müqayisə etməyə kim cəsarət edə bilər?" (A de Lamartine, "L'histore de la Turquie").

Uca Allah möminlərin hicrət etmələrinə ancaq iztirab və əzab-əziyyətlə keçən on üç illik bir dövrdən sonra icazə verib. On üç illik zülmdən sonra möminlərin imanı yüksək səviyyəyə çatmış, ürəklər feyz və ruhani duyğularla dolmuşdu. Yəni möminlər imanlarının haqqını ödəmişdilər.

Bu dövrdə Mədinədə qurulacaq və bütün bəşəriyyətə nümunə olacaq İslam dövləti və mədəniyyətinin bünövrəsi qoyulmuş, imanın feyz və həyacanı içində qarşılaşacaqları çətinliklərdən qorxmayan möhkəm xarakterli və şəxsiyyətli insanlar yetişmişdi. Bu insanlar bütün ümmətə rəhbərlik edəcək ulduz, mayak şəxsiyyətlərə çevrilmişdilər.

İPƏKYOLU NƏŞRİYYATI

# PEYĞƏMBƏRLƏRİN SON ÇARƏSİ: HİCRƏT

## (peyğəmbərliyin on üçüncü ili)

### Hicrətə icazə verilməsi və Mədinəyə hicrət

İkinsi Əqabə beyətindən sonra müşriklər müsəlmanların sığınıb özlərini qoruyacaq bir yerə hicrət edəcəklərini öyrəndikdə zülm və işgəncələrini daha da artırdılar. Müsəlmanlar bu dözülməz işgəncələrə görə Məkkədə yaşamaları qeyri-mümkün olduğu üçün vəziyyətlərini Peyğəmbərimizə bildirdilər və hicrət etməyə icazə istədilər. Allah Rəsulu (s.ə.s) Allahın izni ilə müsəlmanlara Mədinənin yollarını göstərdi və belə buyurdu: **"Bundan sonra sizin hicrət edəcəyiniz şəhərin iki qara daşlıq arasında xurmalıq bir yer olduğu mənə göstərildi"**. (Buxari, "Kəfalət", 4). Peyğəmbərimiz (s.ə.s) onlara Ənsar ilə, yəni mədinəli müsəlman qardaşları ilə qucaqlaşmalarını əmr etdi və: "Uca Allahınız sizə qardaşlar və xoşbəxtlik tapacağınız bir diyar lütf etdi!" - buyurdu. Bundan sonra müsəlmanlar müşriklərə hiss etdirmədən hicrətə hazırlaşdılar, bir-birilərinə kömək edərək hicrət etməyə başladılar.

Müsəlmanların daha əvvəl hicrət edib gözəl qarşılandıqları Həbəşistan ümumbəşəri bir din üçün mərkəz olmaq şərtinə cavab vermirdi. Mədinə isə həm siyasi, həm ticarət baxımından, həm də başqa cəhətlərinə görə İslama mərkəz olacaq xüsusiyyətə malik bir şəhər idi. Bu baxımdan ümumi hicrət bu şəhərə qismət oldu. Mədinə müsəlmanlar üçün sığınacaq və istehkama çevrildi. Beləcə, məkkəli müşriklərin qorxduqları şey başlarına gəldi. Artıq İslam Məkkədən kənara çıxmış və Mədinədə böyük nüfuz və etibar qazanmışdı. Bu, müşriklərin Hz. Peyğəmbəri öz yurdundan çıxartmaq üçün Onu narahat etmələrinin özlərinə nə qədər böyük bir zərər və itki olduğunu heç cür başa düşməmələrindən qaynaqlanırdı. Həqiqətən, bu, onlar üçün böyük bir itki idi. Ancaq onlar bunu görmür, hiss etmir, başa düşmürdülər. Böyük Allah Rəsuluna buyurdu:

**"... Onlar səndən sonra (Məkkədə) yalnız az bir müddət qala bilərdilər".** (əl-İsra, 76)

Yazıq müşriklər o dövrdəki güclərinin və nəfslərinin təhrikinə aldanaraq müsəlmanları təhqir, istehza, təhdid, təcrid, zor və işgəncə ilə əzdiklərini sanır, beləcə, Məkkədəki nüfuzlarını qoruduqlarını zənn edirdilər.

İPƏKYOLU NƏŞRİYYATI

Halbuki, yaxın vaxtlarda nələrə şahid olacaqlarını bilmirdilər! Onları mütləq acı bir məğlubiyyət və bədbəxtlik gözləyirdi... Çünki axın-axın Mədinəyə gedən müsəlmanlar onlardan qorxduqları üçün deyil, İslamın təməlini ən mükəmməl şəkildə formalaşdırmaq üçün hicrət etdiklərini anlayırdılar.

*****

Hicrət heç vaxt zillət və məhrumiyyətlər içərisində çarəsizlikdən irəli gələn bir qaçış kimi başa düşülməməlidir. Mədinə mühacirlər üçün bir hicrət yurdu, başqa mömin qardaşları ilə birləşib güclənmək, çıxdıqları torpaqlarda Allahın dinini hakim etmək üçün məskunlaşdıqları bir qərargahdır.

Mühacirlər bunun üçün mal-mülkünü, qohum-əqrəbalarını, nələri varsa, hamısını Məkkədə qoyurdular. Kimi gizli, kimi aşkar Mədinə yollarına çıxdı.

Hz. Əli belə deyir: "Mühacirlərdən elə bir adam tanımıram ki, gizli hicrət etməsin. Yalnız Ömər bin Xəttab istisnadır. O, hicrət etdiyi vaxt qılıncını belinə bağladı, yayını çiynindən asdı, oxlarını və nizəsini əlinə götürdü və Kəbəyə getdi. Qureyş müşriklərinin tanınmış şəxsləri həmin vaxt Kəbənin yanında idilər. Ömər (r.a) Kəbəni yeddi dəfə təvaf etdikdən sonra onların yanına getdi və indidən gələcək zəfərlərin həmləsini göstərircəsinə müşriklərə hayqırdı: "Baxın, mən də Mədinəyə gedirəm! Anasını ağlatmaq, xanımını dul, uşaqlarını yetim qoymaq istəyənlər arxamca gəlsin, o vadinin arxasında qarşıma çıxsın!" Ancaq heç kim onun arxasınca düşüb təqib etmədi". (İbni-Əsir, "Üsdül-Qabə", IV, 152-153).

Mədinəlilər Məkkədən gələn qardaşlarını qucaqlayaraq qarşılayır, onlara cani-könüldən kömək edirdilər. Buna görə də, məkkəli müsəlmanlara "mühacirlər", mədinəli müsəlmanlara isə kömək edənlər mənasında "ənsar" deyildi.

Uca Allah buyurur:

**"**(İslamı) **ilk əvvəl qəbul edib** (bu işdə başqalarından) **irəli düşən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların arxasınca gələn kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar.** (Allah) **onlar üçün əbədi qalacaqları,** (ağacları) **altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, böyük bir qurtuluşdur!"** (ət-Tövbə, 100).

*****

İslam alimləri müsəlmanların hicrət etmələrinə icazə verilməsindən aşağıdakı hökmləri çıxartmışlar:

İPƏKYOLU NƏŞRİYYATI

Hicrət Hz. Peyğəmbərin dövründə fərz idi. Onun fərz olması qiyamət gününə qədər qalacaq. Məkkənin fəthi ilə sona çatan hicrət isə yalnız Rəsulullahın (s.ə.s) dövrünə aiddir.

Bir müsəlmanın azan, camaat, oruc, namaz və digər İslami ibadətləri yerinə yetirə bilmədiyi bir yerdə qalması doğru deyildir. Uca Allahın aşağıdakı ayəsi buna dəlildir:

**"Mələklər öz nəfslərinə zülm edənlərin** (Məkkədə kafirlər içərisində qalıb hicrət etməyənlərin) **canlarını alarkən** (onlara) **deyəcəklər: "Siz** (hicrət zamanı) **nə iş görürdünüz?** (Vəziyyətiniz necə idi?) **Onlar söyləyəcəklər: "Biz yer üzündə zəif** (aciz) **kəslər idik"**. (Mələklər də onlara): **"Allahın torpağı geniş deyildimi ki, siz də hicrət edəydiniz!" - deyəcəklər. Onların sığınacaqları yer cəhənnəmdir. O necə də pis yerdir. Yalnız hicrət etməyə yol və çarə tapmağa qadir olmayan aciz kişi, qadın və uşaqlar müstəsnadır".** (ən-Nisa, 97-98).

Bu ayədə Mədinəyə hicrət etməyərək müşrik bir cəmiyyətdə qalanların özlərinə zülm etdikləri bildirilir. Onlar özlərinin rahatlığını, vərdişlərini, ailələrini, mal-mülk və mənfəətlərini dinlərindən üstün tutanlardır. Buna görə də, "Biz yer üzündə zəif şəxslər idik" formasında gətirdikləri bəhanələr qəbul edilməmişdir. Amma bununla yanaşı, həqiqətən, hicrət etməyə gücü çatmayan yaşlı, zəif kişi, qadın və uşaqların gətirdikləri üzürlü səbəblər qəbul olunmuşdur. Hicrət hadisəsindən çıxarılan başqa bir hökm isə müsəlmanların ölkələri və dövlətləri nə qədər bir-birilərindən uzaq olsa da, mümkün olduğu müddətdə bir-birilərinə kömək göstərmələrinin fərz olmasıdır. İslam alimləri müsəlmanların yer kürəsinin hər hansı bir yerində zülmə məruz qalan, əsir olan, ya da əzilən mömin qardaşlarına kömək etmək gücündə olduqları, amma yardım etmədikləri təqdirdə böyük bir günah qazanacaqları ilə bağlı məsələdə həmfikirdirlər.

Varlıq Nuru hicrətə böyük önəm vermiş, Məkkənin fəthinə qədər bütün müsəlmanların Mədinəyə hicrət etməsini istəmişdir. Çünki Mədinədən kənarda qalan bölgələr küfr diyarı idi və müsəlmanların həmin bölgələrdə inanclarını öyrənib yaşamaları çox çətin idi.

*****

Məkkənin günü-gündən boşaldığını görən müşriklər bu işin onlar üçün dəhşətli nəticələr doğuracağını yavaş-yavaş dərk etməyə başladılar. Tez fitnə-fəsad ocağı olan Darun-Nədvədə toplaşdılar. Toplantıya Nəcdli olduğunu söyləyən bir qoca da qatılmışdı. Bu qoca insan cildinə girmiş

İPƏKYOLU NƏŞRİYYATI

şeytan idi. Nə edəcəklərini uzun-uzadı müzakirə etdilər. Peyğəmbərimizi (s.ə.s) həbs etmək, ya da Məkkədən sürgün etmək kimi bir çox təkliflər irəli sürüldü. Şeytan təkliflərin hamısına etiraz etdi. Sonda ən rəzil bir qərara gəlib həmfikir oldular: Allah Rəsulunu (s.ə.s) öldürmək!.. Bu təklifi dövrünün Fironu olan Əbu Cəhl belə dilə gətirmişdir: "Hər qəbilədən bir silahlı gənc tapaq. Gənclərin hamısı Ona eyni vaxtda hücum etsin və birlikdə öldürsünlər. Beləcə, Ondan qurtulub rahatlığa qovuşaq! Gənclər belə etsələr, Onun ölümünə görə məsuliyyət bütün qəbilələrin üzərinə düşər. Əbdi Manaf oğullarının isə bütün qəbilələrlə savaşmağa gücləri çatmaz, qan pulu almağa razılaşarlar. Biz də Əbdi Manaf oğullarına Onun qan pulunu ödəyərik!"

Nəcdli qoca cildinə girmiş şeytan (lənətullahi əleyh - Allahın lənəti onun üzərinə olsun): "Bax, ən yaxşı təklif bu adamın təklifidir!" - dedi. (Ibni-Hişam, II, 93-95).

Bu qərar qəbul edildiyi vaxt Allah Rəsulu (s.ə.s) Məkkədə demək olar ki, tək qalmışdı. O, ümmətinə bağlı bir peyğəmbər kimi öncə müsəlmanları göndərmiş, özü isə mühacirlərin arxasınca getməyi üstün tutmuşdu. Həm də ilahi istək belə idi. Hətta, müqəddəs səfərdə yeganə yoldaşı olacaq Hz. Əbu Bəkir hicrət üçün Ondan icazə istədikdə: *"Səbir et!"* - buyurmuş və əlavə etmişdi ki, bəlkə, *"Allah sənə xeyirli bir yoldaş verdi!"*. (Ibni-Hişam, II, 92).

Buna çox sevinən Hz. Əbu Bəkir (r.a) hicrətə hazırlıq məqsədilə səkkiz yüz dirhəmə aldığı iki dəvəni evində dörd ay bəslədi. (Buxari, "Mənaqibul-Ənsar", 45).

Müşriklər qəbul etdikləri qərarı isra etmək üçün hərəkətə keçdilər. Allah Rəsulu (s.ə.s) isə hicrət üçün ilahi əmr aldı:

**"De: "Ey Rəbbim! Məni daxil olacağım yerə** (Mədinəyə) **xoşluqla daxil et, məni çıxacağım yerdən** (Məkkədən) **də xoşluqla çıxart. Öz dərgahından mənə kömək edə bilən bir dəlil ver!"** (əl-İsra, 80).

Bu ayədən başqa Cəbrail - əleyhissəlam - müşriklərin hazırladığı hiyləni Hz. Peyğəmbərə bildirdi və "Bu gecə yatağında yatmayacaqsan!" - dedi. (İbni-Hişam, II, 95). Bundan sonra Hz. Peyğəmbər günortanın hər kəsin istirahət etdiyi şiddətli istisində Əbu Bəkrin (r.a) yanına gedib hicrət əmrinin gəldiyini bildirdi. Hz. Əbu Bəkir soruşdu:

- Birgə hicrət edəcəyik, ey Allahın Rəsulu?

İPƏKYOLU NƏŞRİYYATI

Allah Rəsulu (s.ə.s):

- Bəli, birgə hicrət edəcəyik! - buyurdu.

Hz. Əbu Bəkir elə məmnun oldu və sevindi ki, gözlərində parıldayan sevinc damlaları onun könül aləmini ən gözəl bir şəkildə əks etdirdi. Daha sonra Peyğəmbərimiz (s.ə.s) Hz. Əlini yanına çağıraraq ona da hicrət xəbərini verdi və Onda olan əmanətləri sahiblərinə qaytarmaq üçün Hz. Əlini vəkil təyin etdi. Çünki Məkkədə qiymətli bir əşyası olub, doğru və etibarlı insan olduğu üçün onu Rəsulullaha etibar etməyən bir insan yox idi. Hz. Peyğəmbər müşriklərin planına qarşı tədbir görmək üçün belə buyurdu: "Ey Əli! Bu gecə mənim yatağımda sən yat! Bu xirqəni (paltar növü) də üstünə ört! Qorxma, başına xoşlamadığın bir iş gəlməyəcək!" (İbni-Hişam, II, 95-98).

Allah Rəsulunun (s.ə.s) xirqəsini Hz. Əlinin üstünə örtməsi həm də əşyanın uğurlu, mübarək sayılmasına bir nümunədir. Buna bənzər misallar çoxdur. Belə ki Hz. Peyğəmbər Veysəl Qaraniyə də xirqəsini göndərmiş və "Bunu belinə örtsün və ümmətinə dua etsin!" - buyurmuşdur. (Fəridəddin-Əttar, "Təzkirətül-Övliya", səh. 21). Burada diqqəti çəkən digər bir məqam da Hz. Əlinin (r.a Rəsulullaha (s.ə.s) qeyd-şərtsiz tabe olmasıdır. Ümumiyyətlə, səhabələr Hz. Peyğəmbərin əmrlərinə tabe olmaqda heç vaxt tərəddüd etmirdilər, Onun söz və əmrlərinə əməl olunmasına heç vaxt ötəri yanaşmırdılar. Heç vaxt "nə üçün", "nəyə görə" deyib sual vermir, əmr nədirsə, dərhal onu yerinə yetirirdilər. Sünnələrdən heç birini tərk etməməyə, hamısına istinasız əməl etməyə səy göstərir, Onun yolundan çıxdıqları təqdirdə səhv yola düşəcəklərini çox gözəl başa düşür və bundan qorxurdular. Əshabın Qurani-Kərimə və Peyğəmbərimizin (s.ə.s) sünnələrinə bağlılığı kölgənin sahibinə bağlılığı kimi idi.

*****

Hicrət gecəsi Rəsulullah (s.ə.s) hələ mübarək evindən çıxmamış müşriklər oranı mühasirəyə almışdılar. Ancaq Allaha təvəkkül və təslimçilik hissi sonsuz olan Hz. Peyğəmbər heç bir narahatçılıq, təlaş və tərəddüd hissi keçirmirdi. Peyğəmbərimiz (s.ə.s) mübarək əllərinə bir ovuc torpaq götürüb müşriklərin üstünə səpdi və Yasin surəsinin aşağıdakı ayələrini oxuyaraq onların arasından çıxıb getdi:

**"Biz onların boyunlarına dəmir həlqələr (zəncir) keçirtmişdik.** (O həlqələr) **onların lap çənələrinə dirənmişdir. Buna görə də, başları yuxarı qalxmış, gözləri aşağı dikilmişdir. Biz onların önlərinə və**

**arxalarına sədd çəkib** (gözlərini) **bağlamışıq. Buna görə də, görmür-lər".** (Yasin, 8-9).

Əlbəttə, müşriklər Onu görə bilməzdilər. Çünki onların ürəklərinin pisliyi gözlərini kor etmişdi. Aralarından keçən adi insan yox, kainatın fəxri, aləmlərin rəhbəri, Varlıq Nuru Peyğəmbərimiz (s.ə.s) idi. Təbii ki, kor qəlblərin və gözlərin nuru görməsi qeyri-mümkündür! Necə ki, görmədilər də!..

Bir nəfər müşriklərin yanına gəlib onlardan:

- Burada kimi gözləyirsiniz? - deyə soruşdu.

Onlar:

- Məhəmmədi gözləyirik! - dedilər.

Bundan sonra həmin adam:

- Allah sizi istəyinizə qovuşdurmasın! Vallah, Məhəmməd evindən çıxıb və başınıza torpaq səpib gedib! - dedi. Müşriklər əllərini başlarına çəkdikdə torpaq içində olduqlarını gördülər. Tez evin içinə baxdılar. Peyğəmbərimizin (s.ə.s) döşəyində bir nəfərin yatdığını gördülər.

- Budur, Məhəmməd! Yorğanına bürünüb yatır! - dedilər.

Tez yatağa sarı qaçdılar. Yataqdakı adam qalxıb onlara baxdıqda müşriklər heyrətlərindən donub qaldılar, gözlərinə inanmadılar. Çünki qarşılarındakı Allah Rəsulu (s.ə.s) yox, Hz. Əli idi. Öz-özlərinə:

- Vallah, o adamın bizə söylədikləri doğru imiş! - dedilər.

Qureyş müşrikləri Hz.Əliyə əsəbiləşdilər.

- Əmin oğlu haradadır, ey Əli? - deyə soruşdular.

Hz. Əli (r.a):

- Bilmirəm, heç nədən xəbərim yoxdur! Həm də Onun gözətçisi deyiləm ki?! Siz Ona Məkkədən çıxıb getməsini söylədiniz. "Bizdən ayrıl, get!" - dediniz, O da çıxıb getdi, - dedi. Bundan sonra müşriklər Hz. Əlini tənbeh etdilər və sıxma-boğmaya saldılar. Hətta, Məscidül-Hərama gətirib bir müddət həbs etdikdən sonra buraxdılar. (İbni-Hişam, II, 96; Əhməd, I, 348; Yaqubi, II, 39).

Qəlbləri qıfıllı, həqiqətə gözləri kor olan bədxahlar Peyğəmbərimizin evinin ətrafında çirkin bir niyyətlə gözlədikləri halda, Allah Rəsulu (s.ə.s)

İPƏKYOLU NƏŞRİYYATI

ilahi nəzarət altında çoxdan Hz. Əbu Bəkrin evinə çatmışdı. Çünki müşriklərin bir planı vardı, amma Allahın da başqa bir planı var idi ki, Allahın istədiyindən başqa hansısa bir planın həyata keçəcəyi ehtimalı yox idi. Bu məqamı uca Allah belə bildirir:

"(Ya Rəsulum!) **Yadına sal ki, bir zamanlar kafirlər səni həbs etmək, ya da öldürmək, yaxud da** (Məkkədən) **çıxarıb qovmaq üçün** (Darun-Nədvədə) **sənə qarşı hiylə qurdular. Allah da** (onların bu hiyləsinə qarşı) **tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır!"** (əl-Ənfal, 30).

**Çətin səfər**

Evindən çıxandan sonra Hz. Əbu Bəkrin evinə gələn Allah Rəsulu (s.ə.s) o, qəbul etmək istəməsə də, özü üçün hazırlanmış dəvənin pulunu verdi. Bir az əvvəl müşriklərin arasından onlara görünmədən keçən Allah Rəsulu (s.ə.s) ümmətinə nümunə olacağı üçün bu dəfə sünnətullaha uyğun olaraq tədbirli hərəkət etdi. Hz. Əbu Bəkirlə birgə evin arxa tərəfindən çıxdı. Dəvələri hələ bir neçə gün burada qalacaq idi. Yenə incə bir tədbirlə Mədinəyə əks istiqamətdə yola çıxdılar. Hz. Əbu Bəkir kainatın fəxri olan peyğəmbərimizin (s.ə.s) gah qabağı, gah da arxasınca gedirdi. Allah Rəsulu (s.ə.s) onun bu hərəkətini sezdikdə:

- Ey Əbu Bəkir, nə üçün belə edirsən? - deyə soruşdu.

Hz. Əbu Bəkir:

- Ya Rəsulullah! Sizə görə narahat olduğum üçün belə yeriyirəm! - dedi.

Nəhayət, Sevr mağarasına çatdılar. Hz. Əbu Bəkir: "Ey Allahın Rəsulu, mən mağaranı təmizləyənə qədər Siz burada gözləyin", - dedi və mağaraya girdi. Mağaranı təmizləyib həşərat dəliklərini örtdükdən sonra:

- Artıq gələ bilərsən, ey Allah Rəsulu! - dedi. (İbni-Kəsir, "əl-Bidayə", III, 223-223).

Bu əsnada müşriklər Əbu Cəhlin rəhbərliyi altında Hz. Əbu Bəkrin evinə gəldilər, qızı Əsmadan atasını soruşdular və ondan "Bilmirəm!" cavabını aldıqda hirs və hikkələrini yazıq qızı silləyləməklə çıxdılar.

Varlıq Nuru və Onun Yari-qari mağarada bir müddət qaldılar. Beləcə,

onları Mədinə yollarında axtaran müşriklərdən daha asan qoruna bildilər. Onsuz da Allahın lütfü və nəzəri onların üzərində idi və bəndənin tədbiri tükəndiyi yerdə ilahi kömək onların imdadına çatırdı. Belə ki bir qrup müşrik onların izləri ilə Sevr mağarasının ağzına qədər gəlib çıxmışdı. Ancaq gördülər ki, mağaranın ağzı heç əl dəyməmiş hörümçək toru ilə örtülüb və orada bir göyərçin yuvası var. Uca Allahın əmri ilə mağaranın qarşısında Peyğəmbərimizin üzünü örtüb göstərməyən bir ağac bitdi!

Müşriklər aləmlərin rəhbərinin burada olmadığını fikirləşərək geri qayıtdılar. Bu iki əziz yolçunun müştərək yardımcısı, dayağı, sığınacağı və qoruyucusu uca Haqq idi. Buna görə də, mağaranın ağzına qədər gəlib çıxan bədxahlar göyərçin yuvasından və hörümçək torundan başqa heç bir şey görməmişdilər. Şair Arif Nihat Asyanın dediyi kimi:

Hörümçək nə havada,

Nə suda, nə yerdə idi...

Haqqı görməyən,

Gözlərdə idi!

Ancaq bütün bunlar baş verərkən mağaranın içində Hz. Əbu Bəkir (r.a) həyəcanlı anlar yaşadı. Qorxmuşdu, özünə görə yox, Allah Rəsuluna görə... Çünki müşriklər azacıq əyilib baxsaydılar, onları o dəqiqə görəcəkdilər. Onlar mağaranın sağına-soluna baxır və "Əgər mağaraya girsəydilər, göyərçinlərin yumurtası qırılar, hörümçək toru da dağılardı", - deyirdilər. Bəziləri:

- Mağaranın içinə girib baxaq, - dedi.

Amma Umeyyə bin Xələf onlara etiraz etdi:

- Sizin heç ağlınız yoxdur! Mağarada nə işiniz var?! Qapısının ağzında üst-üstə, qat-qat hörümçək toru olan bu mağaraya girəcəksinizmi?! Vallah, mənim fikrimcə, bu hörümçək toru Məhəmmədin anadan olduğu dövrdən əvvələ aiddir!

Əbu Cəhl isə:

- Vallah, elə zənn edirəm ki, O, yaxınlığımızdadır! Ancaq sehri ilə gözlərimizi bağlayıb, özünü görünməz edib! - dedi.

Bu vaxt həyəcanlanan Hz. Əbu Bəkir Siddiq Allah Rəsuluna (s.ə.s) xitabən:

İpəkyolu Nəşriyyatı

- Mən öldürülsəm, bir nəfərəm, ölüb gedərəm. Amma Sənə bir şey olsa, o zaman bütün ümmət məhv olar! - dedi. Peyğəmbərimiz (s.ə.s) ayaq üstdə namaz qılır, Hz. Əbu Bəkir isə gözətçilik edirdi. Peyğəmbərimizə (s.ə.s):

- Qövmün Səni arayıb-axtarır. Vallah, mən özüm üçün narahat deyiləm, ancaq Sənə zərər veriləcəyindən qorxuram! - dedi. Allah Rəsulu (s.ə.s) Hz. Əbu Bəkirə:

- Ey Əbu Bəkir, qorxma! Şübhəsiz, Allah bizimlədir! - buyurdu. (İbni-Kəsir, "əl-Bidayə", III, 223-224; Diyarbəkri, I, 228-329).

Əbu Bəkir (r.a) belə deyir: "Biz mağarada olanda müşriklərin ayaqlarını görürdüm:

- Ey Allahın Rəsulu! Onlar ayaqlarının altına baxsalar, bizi mütləq görərlər, - dedim.

Bundan sonra:

- Ey Əbu Bəkir! Üçüncüləri Allah olan iki nəfərə görə niyə qorxursan? - buyurdu. (Buxari, "Fədailül-Əshab", 2, "Mənaqib", 45; Müslüm, "Fədailüs-Səhabə", 1).

*****

Məkkədə on üç illik təbliğat və təşviqat mübarizəsindən sonra Allah Rəsuluna (s.ə.s) ikinci mağara olaraq göstərilən Sevr Hiradan fərqli bir mənəvi tədris məkanı idi. Ora ilahi sirr və qüdrət axınlarını müşahidə etmək, insan və kainat kitabındakı hikmətləri oxumaq üçün idi. İlahi sirlərə qərq olmaq və qəlbi mənəvi cəhətdən inkişaf etdirmək məktəbi idi. Buradakı qonaqlıq üç gün üç gecə çəkdi. Tək deyildi. Yoldaşı peyğəmbərlərdən sonra insanların ən üstünü və ən qiymətlisi olan Hz. Əbu Bəkir idi. Hz. Əbu Bəkir Onunla mağarada üç gün yoldaşlıq etmək şərəfinə, izzətinə və fəzilətinə layiq görülmüş, "iki nəfərin ikincisi" olmuşdur. Varlıq Nuru əziz yoldaşına:

لَا تَحْزَنْ إِنَّ اللّٰهَ مَعَنَا

**"... Qəm yemə, Allah bizimlədir!.."** (ət-Tövbə, 40) buyurmaqla eyni zamanda Allah ilə birgə olmaq sirrini təlqin edirdi. Bu, gizli zikrin təliminin ilk başlanğıcı və könüllərin Allaha açılaraq rahatlığa qovuşması idi. Yəni Sevr mağarası bəndəni sonsuz sirlər fəzasından ilahi görüşə qovuşduracaq

İpəkyolu Nəşriyyatı

əsas qəlb tərbiyəsinin başlanğıc məkanı və bu ilahi səfərin ilk mərhələsi olmuşdur.

Hz. Peyğəmbərin nur mənbəyi olan qəlb aləmindəki sirləri ümmətinə faş etməsi ilk dəfə Əbu Bəkir (ra) ilə bir mağarada başlamış, qiyamətə qədər davam edəcək qızıl silsilənin ilk həlqəsi olmuşdur. İman gücünü Hz. Peyğəmbərə məhəbbətdən almışdır. Bütün ülvi səfərlərin əsas təşviqedici səbəbi Ona olan məhəbbətdir və Haqla görüşməyin yeganə yolu Ona məhəbbətlə nöqtələnmişdir. Çünki sevginin şərti, eşqin qanunu sevdiyin insana qarşı məhəbbət və həmin məhəbbətə görə o insanın sevdiyi şeyləri də sevməkdir. Məhəbbətin olduğu kimi saxlanması isə mənəvi rabitə ilə mümkündür. İlahi məhəbbəti xam və dayaz bir idrakla qorumaq mümkün deyildir.

Hz. Peyğəmbərin Hz.Əbu Bəkirlə qəlb rabitəsini ifadə edən bu hadisənin hər bir ürəyə öz üfüqi və istedadı səviyyəsində təsir edəcəyi qənaətindəyik. Hz. Əbu Bəkir Rəsulullah (s.ə.s) ilə hər söhbətindən ayrı bir zövq, ləzzət alır, peyğəmbərlik sirlərinin ən səmimi məhrəmi olduğu üçün müstəsna təcəllilərə nail olaraq yanında olduğu halda belə, Allah Rəsuluna (s.ə.s) həsrət qalırdı. Belə ki, Peyğəmbərin (s.ə.s) "Əbu Bəkrin mal-mülkündən istifadə etdiyim qədər heç kimin mal-mülkündən faydalanmadım..." sözləri qarşısında Hz. Əbu Bəkrin göz yaşları içində: "Mən və mal-mülküm Sənin üçün deyildirmi, ya Rəsulullah?" - deməsi onun hər şeyi ilə bərabər özünü Hz.Peyğəməbərə həsr etdiyini və Onda yox olduğunu göstərir. (Bu mənəvi məqam təsəvvüfdə "Fəna fir-rəsul" kimi ifadə edilir).

*****

Məkkə ilə Mədinənin arası 400 kilometrlik bir yoldur. O vaxtlar bu yolu dəvə ilə on üç günə getmək olurdu. Yol uzun, hava isti, qum qızmar. Mübarək karvan ilk iyirmi dörd saat heç dayanmadan yol getdi. Hz. Əbu Bəkir ticarət məqsədilə müxtəlif vaxtlarda tez-tez Şama gedib-gəldiyi üçün xeyli adam onu tanıyırdı. Bu səfərdə tanımadığı biri ilə qarşılaşdıqda:

- Ey Əbu Bəkir! Bu önündəki şəxs kimdir? - deyə kainatın fəxrinə işarə edirdilər.

Hz. Əbu Bəkir isə:

İPƏKYOLU NƏŞRİYYATI

- Bələdçimdir! Mənə yol göstərir! - deyərək təmkinli və tədbirli davranırdı. Əslində, o, bu sözləri ilə "O, mənə ən xeyirli yol göstərir!" - demək istəyirdi. (İbni-Sad, I, 233-235; Əhməd, III, 211).

Mübarək karvanı heç cür tapa bilməyən müşriklər tapanlara böyük mükafat vəd etmişdilər. Bu vədlərin böyüklüyündən gözləri qamaşanlar yollara düşmüşdülər. Süraka bin Malik də bunlardan biri idi. Süraka uzun bir axtarışdan sonra Allah Rəsuluna (s.ə.s) rast gəldi. Rəsulullahı görər-görməz atını Ona tərəf çapdı. Ancaq birdən-birə atının ayaqları quma batdı. Özü isə yerə yıxıldı. Nə qədər çalışsa da, qumdan çıxmağa və Peyğəmbərimizə (s.ə.s) tərəf irəliləməyə gücü çatmadı. Bir xeyli əlləşdikdən sonra ağlı başına gəldi, peşiman oldu. Allah Rəsulundan (s.ə.s) bağışlanmasını xahiş etdi. Hz. Peyğəmbər də onun üçün dua etdi. Bu duanın bərəkəti ilə Sürakanın atı qumdan çıxdı. Bu möcüzəni görən Sürakanın o an qəlb aləmi dəyişdi və Hz. Peyğəmbərə səmimi dost oldu. Karvanın yerini gizli saxlamaq məqsədilə geri qayıtdı. O tərəfə gedənləri ya geri qaytardı, ya da başqa tərəfə yönəltdi. (Müslüm, "Zühd", 75).

Allah Rəsulunun bu müjdəsi bir növ Sürakanın qulağında cingildəyirdi: "Ey Süraka! Kisranın bilərziklərini taxacağın, kəmərini vuracağın və tacını qoyacağın vaxt özünü necə hiss edəcəksən?"

Həqiqən də, İranın fəthi zamanı Kisranın bilərzikləri, kəməri və tacı Mədinəyə gətirildikdə Hz. Ömər Sürakanı çağırıb bunları ona geyindirdi və: "Ey Süraka! Əllərini qaldırıb "Allahu Əkbər! Həmd olsun o Allaha ki, bunları "Mən insanların Rəbbiyəm!" - deyən Kisra bin Hürmüzdən çıxarıb Müdlis oğullarından Süraka bin Malikə geyindirdi", - de!" - buyurdu. (İbni-Əsir, "Üsdül-Qabə", II, 332; İbni-Həsər, "əl-İsabə", II, 19).

Peyğəmbərimiz (s.ə.s) Qamim adlı yerə çatanda Büreydə bin Husayb və qövmü ilə qarşılaşdı. Onları İslama dəvət etdi. Bundan sonra onlar da Allah Rəsuluna (s.ə.s) tabe olub İslamla şərəfləndilər. Varlıq Nuru Büreydəyə o gecə Məryəm surəsinin əvvəlini öyrətdi.

Büreydə başındakı sarğısını açaraq: "Ya Rəsulullah! İcazə ver, bayraqdarın olum!" - dedi. Beləcə, Quba kəndinə qədər Allah Rəsuluna (s.ə.s) bayraqdarlıq etdi. Büreydədən sonra mübarək karvan Şamdan qayıdan ticarət karvanı ilə rastlaşdı. Karvanda Zübeyr bin Avvam da var idi. Zübeyr Rəsulullaha (s.ə.s) və Hz. Əbu Bəkrə ağ paltar geyindirdi.

İPƏKYOLU NƏŞRİYYATI

**Gözlənilən əziz yolçu**

Rəsulullahın (s.ə.s) yola çıxdığını xəbər alan mədinəlilərin həyəcanı son həddə çatdı. O mübarək yolçunun yolunu həsrətlə gözləyirdilər. O nurlu karvanı qarşılamaq, o əbədi səadət karvanının böyüklüyündən balaca bir qırıntı qopara bilmək üçün şəhərin kənarına qədər gedib həvəslə Hz. Peyğəmbəri gözləyirdilər. Nəhayət, peyğəmbərliyin on dördüncü ilinin Rəbiüləvvəl ayının 12-də bazar ertəsi bir səs bütün müsəlmanların qəlbində sevinclə əks-səda doğurdu: "Gözlənilən mübarək yolçu gəlir!.." Bu müjdəli xəbərlə birgə təkbir səsləri Mədinəni lərzəyə gətirdi. Müsəlmanlar silahlandılar. Kimi atlı, kimi piyada müqəddəs qonağı qarşılamağa getdi. Gözlənilən mübarək karvan ilahi himayə və nəzarət altında Mədinə yaxınlığındakı Quba kədinə çatanda ortalıq qarışdı. Cahan bir şənlik meydanına çevrildi. Təpələrdən "Taləal-bədru aleynə"nin gur nəğmələri dalğa-dalğa ətrafa yayılır, ürəkləri coşdururdu. Tarix o andan etibarən qiyamətə qədər baş verəcək hadisələrin taleyini müəyyən edəcək bir "hicrət təqvimi" başladırdı.

Qarşılamaya gələnlərin çoxu kainatın varlıq səbəbi, aləmlərin rəhbəri, Hz. Məhəmməd Mustafanı öncə görmədiyi üçün tanımırdı. Bir müddət Hz. Əbu Bəkri Peyğəmbərimiz zənn etdilər. Allah Rəsulu (s.ə.s) sakit dayanmışdı. Üstünə günəş şüaları düşdükdə Hz. Əbu Bəkir tez qalxıb ridası ilə Onu kölgələməyə başladı. Müsəlmanlar yalnız bu vaxt Varlıq Nurunu tanıya bildilər. Mədinə həmin gündən sonra İslamın inkişaf və tərəqqi məkanı, həmçinin aynası oldu. Küfrün qaranlıq üzü hicrətlə soldu. Məscidül-Səadət və Məscidül-Quba ülvi bir məna qazanıb qiyamətə qədər bu mübarək hicrətin müqəddəs məkanı və xatirəsi olaraq qaldı.

Ənsar mühacirlərə mal-mülklərini təqdim edərək: "Budur malım! Al, yarısı sənin olsun!.." - dedi. Fədakarlıq və sakitliklə misilsiz İslam qardaşlığının əsası beləcə qoyuldu. Mədinə İslam tarixində yüksək mövqeyə və sarsılmaz etibara layiq oldu. Mədinədə azanlar, ramazanlar, bayramlar, zəkatlar, müharibələr ayrı bir təcəlli və ayrı bir ülviyyətlə ümmətə nümunə oldu.

Peyğəmbərimiz (s.ə.s) Qubada olarkən Hz. Əli Ona verilən əmanətləri sahiblərinə qaytararaq onlara çatdı.

İPƏKYOLU NƏŞRİYYATI

### Təməli təqva ilə qoyulan məscid: Quba məscidi

Hicrət səfərinin ilk dayanacağı olan Qubada Allah Rəsulu (s.ə.s) Amr bin Afv oğullarına on dörd gecə qonaq oldu. Məşhur Məscidül-Quba bu ərəfədə tikildi. Hz. Peyğəmbərin özü də məscidin inşasında işlədi. Quba məscidi İslamda tikilən ilk məsciddir. Hicrət kimi mühüm bir hadisə ərəfəsində tikildiyi üçün tarixdə və müsəlmanların həyatında önəmli bir yerə malikdir. Bu məscid Qurani-Kərimdə:

**"...** (Mədinəyə hicrətin) **ilk günündən təqva üzərində tikilən məscid..."** (ət-Tövbə, 108) kimi qeyd edilmişdir. Əbu Hüreyrə (r.a):

"... Orada təmizlənməyi sevən insanlar var. Allah da çox təmizlənənləri sevər!" (ət-Tövbə, 108) ayəsinin də Quba əhalisi haqqında nazil olduğunu bildirib. (Tirmizi, "Təfsir", 9/3099; Əbu Davud, "Təharət", 23/44; İbni-Masə, "Təharət", 357).

Kainatın varlıq səbəbi, iki cahanın səadət rəhbəri Peyğəmbərimiz (s.ə.s) şənbə günləri Qubaya bəzən piyada, bəzən də miniklə gedir, orada iki rükət namaz qılırdı.

Mübarək hədislərindən birində isə bunu müsəlmanlara da tövsiyə edərək belə buyurub: "Kim evində gözəl dəstəmaz alar, sonra Quba məscidinə gələr və orada namaz qılarsa, onun üçün ümrə savabı vardır". (İbni-Masə, "İqamə", 197; Nəsai, "Məsasid", 9).

### Ranunə vadisində ilk cümə namazı

Nəhayət, Qubada on dörd gün qonaq qaldıqdan sonra Allah Rəsulu (s.ə.s) və Onun yanındakılar Mədinəyə doğru hərəkət etdilər. Cümə günü idi. Günortaya yaxın Ranunə vadisinə çatdılar, namaz vaxtı girmişdi. Allah Rəsulu (s.ə.s) dəvəsindən düşdü. O vaxt İslam iqtidarının bir əlaməti olaraq fərz buyurulan cümə namazını qıldırdı. Orada bu xütbələri oxudu: birinci xütbə: "Ey insanlar! Ölməzdən əvvəl tövbə edin, fürsət var ikən saleh əməllər işləyin! Gizli-aşkar bol-bol sədəqə vermək və Allahı çoxlu-çoxlu zikr etməklə Rəbbinizlə aranızı düzəldin! Belə etsəniz, sizə ruzi verilər, kömək edilər və əldən buraxdığınız şeyləri qazanarsınız! Bilin ki, Allah bu ilinizin bu ayında, bu yerdə sizə cümə namazını qiyamətə qədər fərz buyurdu. Ədalətli olsun-olmasın, başında bir imam varsa, mənim sağlığımda, ya da məndən sonra kim ciddi yanaşmayaraq, ya da inkar edərək bu namazı tərk edərsə, onun iki yaxası bir araya gəlməsin!

Və Allah onun işlərini uğurlu etməsin! Həmin adamın başqa namazı da yoxdur, tövbə edənlər müstəsna.... Çünki kim tövbə etsə, Allah onun tövbəsini qəbul edər". (İbni-Macə, "İqamə", 78)

"Ey insanlar! Sağlığınızda axirətinizə hazırlıq görün! Mütləq hər biriniz öləcək və sürüsünü çobansız qoyacaqdır! Sonra Allah ona tərcüməçisiz və vasitəçisiz deyəcək: "Mənim Rəsulum gəlib əmrlərimi bildirmədimi? Mən sənə mal-mülk verdim, xeyli yaxşılıq ehsan etdim, sən özün üçün nə gətirdin?" Bu sualla qarşılaşan hər kəs sağa-sola baxacaq, bir şey görməyəcək, özünə baxdığı zaman cəhənnəmi görəcək... Elə isə oyanın! Kim yarım xurma ilə də olsa, alovdan qorunmağa qadirdirsə, bunu etsin! Kim o yarım xurmanı da tapa bilməsə, barı şirin söz söyləsin! Çünki bir yaxşılığa on mislindən yeddi yüz mislinə qədər savab verilir. Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun!" (İbni-Hişam, I, 118-119; Beyhaki,, "Dəlail", II, 524).

İkinci xütbə: "Allaha həmd edirəm və Ondan kömək istəyirəm! Nəfslərimizin şərrindən və əməllərimizin pisliklərindən Allaha sığınırıq. Allahın hidayət etdiyi bir kəsi heç kim yolundan azdırmaz, yolundan azdırdığını da heç kim doğru yola yönəldə bilməz. Şəhadət gətirirəm ki, Allahdan başqa ilah yoxdur. O, təkdir, şəriki yoxdur. Sözlərin ən gözəli Allahın kitabıdır. Allah kimin qəlbini Quranla bəzər və onu küfrdən sonra İslamla hidayət edər, o da Quranı başqa sözlərdən üstün tutarsa, bax, o adam qurtulmuşdur! Doğrudan da, Allahın kitabı sözlərin ən gözəli və ən bəlağətlisidir! Allahın sevdiyini sevin! Allahın kəlamından və Onu zikr etməkdən usanmayın! Allahın kəlamından qəlbinizə darlıq gəlməsin! Çünki Allahın kəlamı hər şeyin üstününü axtarıb seçər. Əməllərin xeyirlisini, bəndələrin seçilmişləri olan peyğəmbərləri, hekayələrin ən gözəlini və ibrətamizlərini nəql edir. Halal və haramı açıqlayır.

Siz ancaq Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ondan lazımi qədər qorxub çəkinin! Gördüyünüz yaxşı işləri diliniz gücləndirsin! Allahın kəlamı ilə bir-birinizi sevin! Mütləq bilin ki, əhdini pozanlar uca Allahın qəzəbinə tuş gələr. Allahın salamı üzərinizə olsun!" (Beyhaki, "Dəlail", II, 524-525).

Bu xütbələr İslamın etiqad, ibadət, əxlaq, insanlar arasındakı qarşılıqlı münasibətlər kimi mövzuları ilə dinin ümumi bir xülasəsi hökmündədir.

Cümə namazının hicrət əsnasında fərz buyurulması müsəlmanların

İPƏKYOLU NƏŞRİYYATI

camaat (dini birlik) halına gəlməsinin əhəmiyyətinə və zururiliyinə bir işarədir.

Mədinəli bütün müsəlmanlar Allah Rəsulunu (s.ə.s) qonaq saxlamaq arzusunda idi. Hər kəs Onu evinə aparıb qulluğunda durmağa can atır və buna görə bir-biriləri ilə mübahisə edirdilər. Buna görə, Allah Rəsulu (s.ə.s) Qasvanı nəzərdə tutaraq "Heyvanı sərbəst buraxın, yolundan çəkilin, o, məmurdur (yəni harada çökəcəyi ona bildirilib)" - buyurdu. (İbni-Hişam, II, 112-113).

Çünki yalnız bu şəkildə heç kimin ürəyini qırmadan Rəsulullahı (s.ə.s) kimin qonaq edəcəyi məsələsi həll edilə bilərdi. Belə ki mübarək dəvə bir-iki yerdə çöküb-qalxdıqdan sonra Xalid bin Zeydin (r.a), yəni Hz. Əbu Əyyub əl-Ənsarinin evinin qabağındakı əraziyə çökdü. Bəxtəvər səhabə Əbu Əyyub əl-Ənsari hədsiz dərəcədə sevindi. Rəsulullaha (s.ə.s) "Buyurun, ey Allahın Rəsulu! Evimizi şərəfləndirdiniz!" - deyərək evinə dəvət etdi. Rəsulullah (s.ə.s) Əbu Əyyubun evinə tərəf gedərkən Nəccar oğullarının kiçik qızları dəfələrlə Onun qarşısına çıxıb:

*****

Hz. Ənəs bin Malik də: "Mən Rəsulullahın Mədinəni şərəfləndirdiyi gündən daha gözəl, daha rövnəqli, daha nurlu bir gün görmədim. O, gələndə bütün Mədinə aydınlığa qovuşdu!" - demişdir. (Əhməd, III, 122; Tirmizi, "Mənaqib", 1/3618).

Mədinəli müsəlmanlar Allah Rəsulunun (s.ə.s) bu şəhərə təşrifindən duyduqları səadət və sevincin şükrü olaraq bir dəvə qurban kəsdilər.

*****

Hicrət ilə peyğəmbərliyin Məkkə dövrü başa çatdı, Mədinə dövrü başladı.

İPƏKYOLU NƏŞRİYYATI

# PEYĞƏMBƏRLİYİN MƏDİNƏ DÖVRÜ

## HİCRƏTİN BİRİNCİ İLİ

Allah Rəsulunun-səllallahu əleyhi və səlləm-Mədinəyə hicrət etməsi ilə İslam və müsəlmanlar üçün yeni bir səhifə, tarixi bir mərhələ başlanmış oldu.

Peyğəmbərimiz-səllallahu əleyhi və səlləm-Mədinəyə sığınmış yad bir insan deyildi. Əksinə, O gələcək bir dünyanın baş memarı, lideri, rəhbəri, yeni qurulan İslam dövlətinin başçısı, bir sözlə, hər şeyi idi. Onun Mədinəyə gəlməsi ilə İslamın təbliği, müsəlmanların davranışı böyük bir güc qazandı.

Doğma qardaşlıqdan da güclü bir qardaşlıq meydana gəldi. İslamdan öncə Evs və Həzrəc qəbilələri arasında mövcud qan davaları aradan qalxdı.

Peyğəmbər-səllallahu əleyhi və səlləm- mühacirlərlə ənsarı qardaş elan etdiyi zaman ənsar mühacir qardaşlarını Mədinədəki evlərinə, işlərinə, bağ və bağçalarına ortaq edərək, doğma qardaşlıqdan da artıq olan, bənzərsiz bir birlik və bərabərlik örnəyi göstərdilər. Ənsarın bu səmimi münasibətini Qurani-Kərim belə öyür:

**"Onlardan** (mühacirlərdən) **əvvəl** (Mədinədə) **yurd salmış və** (Məhəmməd əleyhissəlama qəlbən) **iman gətirmiş kimsələr** (ənsar) **öz yanlarına** (şəhərlərinə) **hicrət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd** (qəzəb) **duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar…".** (əl-Həşr, 9)

Rəsulullah -səllallahu əleyhi və səlləm-təbliğə başladığı andan etibarən İslama girənləri irq, qəbilə və millətindən asılı olmayaraq bərabər qəbul etmiş və onların arasında İslam qardaşlığı yaratmışdır. Biri hicrətdən öncə, o birisi də sonra olmaqla iki dəfə onların arasında "Muahat", yəni "Qardaşlıq əqdi" bağlamışdı. Məkkədəki qardaşlıq əqdi Qureyş qəbiləsinə mənsub bəzi müsəlmanların azad edilmiş kölələrlə qardaş elan edilməsidir. Məsələn, Zeyd bin Harisə ilə həzrət Həmzə, Əbu Huzeyfənin azad etdiyi qul olan Salim ilə Əbu Ubeydə bin Cərrah, Bilal Həbəşi ilə Ubeydə bin Haris qardaş olmuşdular.

İPƏKYOLU NƏŞRİYYATI

İslamın ilk illərindən başlayaraq bu şəkildə bir-birinə bağlanan müsəlmanlar hicrətdən sonra ikinci bir qardaşlıq örnəyi də göstərdilər.

Mühacirlər Mədinəyə gəldikləri ilk gün Ənsar onları evlərində qonaq saxlamaq üçün bir-biri ilə yarışa girmişdi. Hətta, bu qonaqları bölüşə bilməyərək aralarında püşk atmaq məcburiyyətində qalmışlar.

Peyğəmbər-səllallahu əleyhi və səlləm-Mədinəyə gələndən beş ay sonra Mühacirlərlə Ənsarı iki-iki qardaş etdi. Rəsulullah -səllallahu əleyhi və səlləm-bu qardaşlıq anlaşmasını Ənəs bin Malikin evində elan etmişdi.

Məsələn, Həzrət Əbu Bəkir Harisə bin Zeyd ilə, Həzrət Ömər Utban bin Malik ilə, Əbu Ubeydə Sad bin Muaz ilə, Hz. Osman Evs bin Sabit ilə, həzrət Bilal Abdullah bin Abdurrahman ilə, Hz. Salman Əbud-Dərda ilə, Salim Muaz bin Maiz ilə, Ammar da Huzeyfə ilə-radiyallahu anhüm-qardaş olmuşdular. Bu qardaşlıq anlaşmasında tərəflərin xasiyyətcə bir-birinə uyğunluğu da nəzərə alınmışdı.

Hər bir mühacir ailəni mədinəli bir ailə himayəyə götürdü. Beləliklə, aralarında qardaşlıq əhdi gerçəkləşdirilən səhabələr birlikdə çalışacaq, əldə etdikləri qazancları böləcəkdilər.

"Qardaşlıq əqdi" adlanan ənsar-mühacir qardaşlığı ilə müsəlmanlar arasındakı cəmiyyət nizamını təsis edən Allah Rəsulu -səllallahu əleyhi və səlləm-vaxt keçirmədən Mədinədə yaşayan yəhudiləri də yazılı bir mətnlə vətəndaşlığa qəbul etdi. Mədinə şəhər-dövlətinin bir növ konstitusiyası olacaq bəzi əsaslar hazırladı. "Mədinə Vəsiqəsi" adı verilən və İslam dövlətinin quruluşunun rəsmi bir sənədi olan bu vəsiqənin bir sıra prinsipləri bunlardır:

"Bismillahir-rəhmanir-rəhim

1. Qureyşli və yəsribli (mədinəli) möminlər ilə onlara tabe və daxil olanlar, onlarla birlikdə cihad edənlər başqa insanlardan ayrı olan bir ümmətdir.

2. Fitnəkarlıq və təcavüz edilməyəcək.

3. Cinayət törədilməyəcək, törədildiyi təqdirdə mühacirlər və Mədinədəki hər bir ailə qan bahasını aralarında ortaq olan adətə görə ödəyəcəklər.

4. Mədinənin içində və çölündə təhlükəsizlik təmin ediləcək.

5. Yəhudilər din azadlığına sahib olacaqlar.

6. Hər iki tərəf müşrikləri himayə etməyəcək.

7. Mədinə içində hərb qadağandır. Yəsrib vadisinin içərisi, bu sənədi imzalayanlar üçün toxunulmaz bir bölgədir. Kənardan bir təcavüz olarsa, tərəflər bölgələrini qoruyacaq. Bir tərəfin əldə etdiyi sülhü başqa tərəf də qəbul edəcək.

8. Anlaşılmazlıq yaranarsa, məsələ Allah və Rəsuluna ərz ediləcək. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm-verdiyi hökmə əməl ediləcək.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-bu qərarların ardınca Mədinənin toxunulmazlıq hüdudlarını da belə müəyyən etdi:

"İbrahim- əleyhissəlam- Məkkəni toxunulmaz elan etmişdi. Mən də Mədinənin iki təpəsinin arasını toxunulmaz elan edirəm". (Əhməd, IV, 141)

Bu əmrə uyğun olaraq göstərilən yerlərə daş qoyuldu. Mədinənin toxunulmazlığının sərhədləri təsbit edildi. Beləliklə, hüdudları müəyyən edilən Mədinəyə "Hərami-Rəsul" deyildi.

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əllərini qaldırıb, bu bölgə üçün dua etdi. Bu duanın bərəkəti ilə Mədinə o zamandan bu zamanadək bütün möminlərin dinclik, şadlıq, rəhmət məkanı və İslam dünyasının nəbzinin döyündüyü bir səadət məkanı oldu.

**Mədinənin vəziyyəti**

İslamın və müsəlmanların hökmran olduğu Mədinə dönəmi bütün dünyanı işıqlandıran parlaq dinin cahanşümül prinsiplərinin yerləşdiyi və savaşlardakı şəhid və qazilərin qanı ilə möhkəmləndiyi çox uğurlu, vəcdli, hərəkətli bir dövrdür.

Allah Rəsuluna və mühacirlərə bütün imkanları ilə qucaq açmış olan Mədinənin şərtləri ilk öncə tam mənası ilə əlverişli deyildi. Hələ bir sıra təhlükələr var idi. Çünki Mədinədə ənsar və mühacirlərdən başqa bir də "münafiqlər və yəhudilər" yaşayırdı. Bunlar hər fürsətdən istifadə edərək İslamın qələbəsinə mane olmağa çalışırdılar.

Münafiqlər üzdə müsəlmanlığı qəbul etmiş kimi görünsələr də, daxildə əski bütpərəstliklərini davam etdirirdilər. Nurunu mütləq tamamlayacaq olan uca Allah onları ağır bir şəkildə təhdid etdi:

İPƏKYOLU NƏŞRİYYATI

**"Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi içərisində ikiüzlülüyü özlərinə adət etmiş** (bu işdə mahir) **münafiqlər var idi. Sən onları tanımazsan, Biz isə onları tanıyırıq. Onlara iki dəfə** (dünyada və qəbir evində) **əzab verəcəyik. Sonra** (axirətdə) **isə ən böyük əzaba uğrayacaqlar".** (ət-Tövbə, 101)

Doğrudan da, münafiqlər fitnə-fəsad çıxartmaqda elə mahir idilər ki, onların bu halını bəzən Allah Rəsulu -səllallahu əleyhi və səlləm-belə sezə bilmir, ancaq Cənab Haqq bildirəndə xəbəri olurdu. Çünki münafiqlər onlara yönələcək ən kiçik tənqidi belə hiss edir və ona görə də çox hiyləgər hərəkət edirdilər.

Bu zaman Peyğəmbəri və möminləri hicrətə məcbur edən məkkəli müşriklər də boş dayanmır, Mədinədəki münafiqlərin qızışdırdığı fitnə ocağını körükləyirdilər. İslamın orada yerləşib inkişaf etməsini qəbul edə bilmirdilər. İslamı və müsəlmanları yox etmək üçün ardıcıl olaraq münafiqlərə xəbər göndərirdilər. Bunu edə bilmədikləri təqdirdə isə bütün ərəbləri toplayıb onların üzərinə hücum edərək mömin, münafiq, müşrik demədən bütün mədinəliləri qılıncdan keçirtməklə hədələyirdilər. Hətta, onların gözlərini qorxudub möminlərə qarşı təhrik etmək üçün bir quldur dəstəsi göndərərək Mədinədəki sürülərini belə əllərindən almışdılar.

Vəziyyət çox gərginləşmiş və təhlükəli bir hala çevrilmişdi. Müsəlmanlar gecələr Mədinənin küçələrində keşik çəkirdilər. Onlar bir basqın ehtimalına qarşı hər cür tədbir görürdülər. Hətta, Allah Rəsulu -səllallahu əleyhi və səlləm-belə gecələr yuxusuz qalırdı. Mədinənin kənarına hərbi birliklər göndərilərək hər tərəf nəzarətdə saxlanılırdı.

Başqa yöndən müsəlmanların ən qəddar düşməni olan və hər an fürsət gözləyən yəhudi qəbilələri var idi. Daha öncədən dini məlumatları olduğu üçün möminlərlə mübarizəni ən çox onlar edir və çoxsaylı çətinliklər yaradırdılar. Buna görə də, Mədinədə enən (nazil olan) ilk surə olan Bəqərə surəsində yəhudilərin İslama dəvət edilməsinə böyük önəm verilmişdir. Ümumi olaraq bütün insanları dəvət etdikdən sonra, 40 və 162-ci ayələrin bəzi hissəsində, 123-cü ayədə isə ayrıca olaraq İsrail oğullarından bəhs edilmiş, demək olar ki, surənin yarısından çoxu onlara həsr edilmişdir. Burada gah onlara xitab edilir, gah onlardan dolayısı ilə danışılır, gah iddiaları rədd edilir, gah onlara bəxş edilən nemətlər xatırladılaraq könüllərində iman arzusu oyandırmağa cəhd göstərilir.

**Peyğəmbər məscidinin və səadət evinin tikilməsi və ilk azan**

İlk zamanlar Mədinədə məscid yox idi. Allah Rəsulu-səllallahu əleyhi və səlləm-harada olurdusa, namazını orada qılırdı. Çox keçmədən Hz. Peyğəmbər- səllallahu əleyhi və səlləm-Qubadan sonra ikinci məscidi də tikdirdi. Bu məscid indiki Peyğəmbər məscididir.

Peyğəmbər məscidinin bir tərəfində, ətrafı açıq və üstü xurma budaqları ilə örtülü olan bir suffə (kölgəlik, çardaq) tikildi. Evi və ailəsi olmayan kasıb müsəlmanlar burada qalır və onlara "Suffə Əshabı", ya da "Suffə Əhli" deyilirdi. Evlənən, səfərə çıxan, bir başqa yerə köçən, ya da vəfat edənlər olanda onların sayı dəyişir, bəzən artır, bəzən də azalırdı. Bir zaman onların sayı yetmişə çatmışdı.

Namazın vaxtını camaata bildirmək üçün əvvəllər ancaq "Namaza, namaza!" sözləri deyilirdi. Sonra isə Məhəmmədin azanı lütf edildi.

Beləliklə, azan vacib dərəcəsində güclü bir sünnə oldu. Çünki, o həm doğru yuxu, həm Nəbinin sünnəsi, həm də ilahi vəhylə təsdiq olunmuşdur. Mübarək ayədə belə buyurulur:

**"Onları namaza çağırdığınız zaman…".** (əl-Maidə, 58)

Azanın qəbul edilməsində Abdullah bin Zeyd-radiyallahu anh-vasitəçi olsa da, qeybi feyzə hər zaman nail olan Varlıq Nuru Rəsulullah -səllallahu əleyhi və səlləm-idi. Azan Onun təsdiqi ilə qəbul edildi və insanlar məscidə, camaatla namaz qılmağa çağrılmağa başlanıldı. Bilal Həbəşi ilk azanı oxuduğu zaman uca dəvət Mədinənin bir ucundan o biri ucuna çatdı. Göylər azan sədası ilə əks-səda verdi. Möminlər böyük bir sevinclə məscidə axışdılar.

Azan ayə və hədislərlə sabit olaraq min dörd yüz ildən çoxdur ki, möminlər üçün ülvi bir dəvət olaraq davam edir. Bu, cahanşümül və beynəlmiləl bir namaz çağrışıdır. Ona görə də, əsl və orjinal şəklindən kənar bir biçimdə oxunmaz. O sanki səmaların üluhiyyətə aid bir nəğməsidir. Şair Yəhya Kamal azanı misralarında çox gözəl təsvir edir:

Emri-bülendsin, ey ezani-Muhammedi,

Kafi degil sadana cihani-Muhammedi.

İPƏKYOLU NƏŞRİYYATI

Sultan Selimi-Evveli ram etmeyip ecel,

Fethetmeliydi alemi şani-Muhammedi.

Gök nura gark olur nice yüz bin minareden,

Şehbal açınca ruhi-revani-Muhammedi,

Ervah cümleten görür Allahu Ekberi,

Aks eyleyince Arşa lisani-Muhammedi…

İPƏKYOLU NƏŞRİYYATI

**Savaşa icazə verilməsi**

"Sizinlə Savaşanlarla Siz də Savaşın!"

Rəsulullaha -səllallahu əleyhi və səlləm- əvvəlcə müşriklərlə savaşmaq üçün icazə verilməmişdi. Müşrikləri uca Allahın birliyini qəbul etməyə çağırmaq, üzləşəcəyi işgəncələrə dözmək, cahillərin qeyri-münasib davranışlarına səbir edib onlara fikir verməmək və bunlara göz yummaq Onun vəzifəsi idi. Qureyş müşrikləri isə Allah Rəsuluna tabe olanları dinlərindən döndərmək üçün onlara saysız-hesabsız işgəncə verirdilər. Müsəlmanların kimisi dözülməz işgəncələrlə dinindən döndərilmiş, kimisi dinini qorumaq üçün Həbəşistana, kimisi də Mədinəyə hicrət etmiş, doğulub-böyüdükləri yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmışdılar.

Hadisələr elə inkişaf edirdi ki, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm-o günə qədər yürütdüyü "səbir və dözüm" siyasəti ilə sülhü qorumaq artıq mümkün deyildi. Belə ki Peyğəmbərimiz səbir və dözümdən sonra arxalandığı müdafiə silahının da yetərsiz olduğunu görərək Rəbbinə sığındı. Onun vəhyini gözlədi.

Nəhayət, müşriklərin çox azğınlaşdıqları, Allahın onlara ehsan etdiyi nemətlərə nankorluq edib, Onun Rəsulunu təkzib etdikləri, müsəlmanlara şiddətli işgəncələr verib yurdlarından didərgin saldıqları bir zamanda dini, vətəni və möminləri qorumaq üçün zərurətə çevrilmiş olan cihada icazə verən mübarək ayələr nazil oldu.

**"Zülmə məruz qaldıqlarına görə vuruşanlara** (kafirlərə qarşı Allah yolunda döyüşməyə) **icazə verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir!"** (əl-Həcc, 39)

**"**(Ey möminlər!) **Sizinlə vuruşanlarla siz də Allah yolunda vu-**

**ruşun, ancaq həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz!"** (əl-Bəqərə, 190)

Cənab Haqq savaşın hansı səbəb və məqsəd üçün ediləcəyi ilə bağlı hökmünü də belə bildirdi:

**"**(Yer üzündə) **fitnə** (şirk) **qalmayıb, bütün din** (ibadət) **yalnız Allaha məxsus olanadək onlarla vuruşun!...".** (əl-Ənfal, 39)

Müharibəyə icazə verilməsi İslama və müsəlmana qarşı həyata keçirilən düşmənçiliyin bir nəticəsidir. Toplumun öz varlığını qoruması ilə bağlı zəruri olan və "zərurəti-xəmsə" ("beş zərurət") deyilən beş dəyərin, yəni "mal, can, nəsil, ağıl və din"in qorunması və düşmənlərin təcavüzünə qarşı müdafiə olunmaq üçün cihad fərz olmuşdur. Bu ilahi əmrlə dindən yayındıranların cəzasını alması və ilahi həqiqətlərin təbliğinin qarşısındakı maneələrin aradan qaldırılması hədəf seçilmişdir.

Aləmlərə rəhmət olaraq göndərilmiş olan Peyğəmbərlər Sultanının bütün insanlığı əhatə edən sonsuz mərhəmətinə baxmayaraq, böyük və çətin müharibələr etməsi, ictimai sülhün, əmin-amanlığın təmin olunmasının və Allahın birliyi uğrunda aparılan mübarizənin zəruri şərti kimi ortaya çıxmışdı. Elə buna görə də, sevimli Peyğəmbərimiz bir hədisi-şərifində belə buyurmuşdur:

"Mən rəhmət və savaş peyğəmbəriyəm!". (Əhməd, IV, 396)

Cənab Haqq cihada icazə verən, cihadı əmr edən ayələrlə birgə, Rəsulunu və möminləri bu ilahi əmrə təşviq edən mübarək ayələr də endirdi (nazil etdi):

**"Ey Peyğəmbər! Sənə və sənin ardınca gedən möminlərə təkcə Allah bəs edər. Ey Peyğəmbər! Möminləri döyüşə həvəsləndir** (təşviq et)**!...".** (əl-Ənfal, 64-65)

**"**(Ey möminlər!) **Məgər siz andlarını** (əhdlərini) **pozan, Peyğəmbəri** (öz yurdundan) **çıxarıb qovmaq niyyətində olan, üstəlik sizinlə döyüşə də birinci başlayan bir tayfa ilə vuruşmayacaqsınız? Məgər onlardan qorxursunuz? Əgər (həqiqi) möminlərsinizsə, bilin ki, əslində qorxmalı olduğunuz məhz Allahdır. Onlarla vuruşun ki, Allah sizin əlinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırıb möminlərin ürəklərini fərəhləndirsin. Və onların** (müşriklərin əlindən əziyyət çəkən müsəlmanların) **qəlblərindən qəzəbi silib aparsın…".** (ət-Tövbə, 13-15)

İPƏKYOLU NƏŞRİYYATI

Bu ayələrlə birlikdə cihadda iştirak etməməklə bağlı xəbərdarlıqlar da gəldi:

**"**(Allahın düşmənlərinə qarşı) **döyüş** (cihad) **xoşunuza gəlmədiyi halda sizə vacib edildi. Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər.** (Onu) **Allah bilir, siz bilməzsiniz".** (əl-Bəqərə, 216)

**"Mədinəlilərə və onların ətrafında olan bədəvilərə** (döyüşdə) **Allahın Peyğəmbərindən geri qalmaq, Ondan** (Ona üz verən məşəqqətlərdən) **özlərini kənara çəkmək** (belə çətinliklərin özlərinə üz verməsini istəməmək) **yaraşmaz!..."** (ət-Tövbə, 120)

**"**(Ey Rəsulum!) **De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, arvadlarınız, qəbiləniz** (qohumlarınız)**, qazandığınız mallar, kasad olmasından qorxduğunuz ticarət, xoşunuza gələn məskənlər sizə Allahdan, Onun Peyğəmbərindən və Allah yolunda cihaddan daha əzizdirsə, Allahın əmri** (əzabı) **gələnədək gözləyin. Allah fasiqləri doğru yola yönəltməz".** (ət-Tövbə, 24)

Bu ilahi bəyanlardan sonra Peyğəmbərimiz-səllallahu əleyhi və səlləm-və Ona tabe olan möminlər müşriklərə qarşı savaşmaq üçün hərtərəfli ciddi bir hazırlığa başladılar.

İPƏKYOLU NƏŞRİYYATI

# HİCRƏTİN İKİNCİ İLİ

**Batni-Nəhlə səfəri**

Bu arada vəziyyətə nəzarət etmək üçün göndərilən və Hz. Peyğəmbərin -səllallahu əleyhi və səlləm- xalası oğlu Abdullah bin Cahş -radiyallahu anh- tərəfindən idarə edilən birlik "Batni-Nəhlə" ərazisində məkkəlilərin bir karvanını vurdu. Bu fürsətdən istifadə edən və hər zaman Mədinəyə hücum etmək üçün bəhanə axtaran məkkəli müşriklər qızışdılar.

Həzrət Peyğəmbərə və müsəlmanlara qarşı hay-küy qaldıran müşriklər Batni-Nəhlə hadisəsinin müqəddəs aylardan Rəcəb ayına düşməsi münasibəti ilə də:

"- Məhəmməd müqəddəs aya toxunaraq qan tökdü. Əsir aldı və mal qəsb etdi",-dedilər.

Əslində, bu döyüşü Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əmr etməmişdi. Hadisəni sonradan eşitdi və Abdullaha:

" Mən sizə müqəddəs olan ayda döyüşməyi əmr etmədim!",-buyurdu. O, qənimət almaqdan da çəkindi. Buna görə də, mücahidlər çox üzülmüş, həlak olacaqlarını güman etmişdilər. Ancaq müşriklərin bu işi çox şişirdib müsəlmanlara qarşı təbliğat aparmalarına cavab olaraq bu mübarək ayə endi (nazil oldu):

"(Ey Rəsulum!) **haram olan ayda döyüş haqqında səndən soruşanlara söylə: "O ayda döyüşmək böyük günahdır, ancaq Allah yolunu** (insanların üzünə) **qapamaq, onu inkar etmək, Məscidülhərama girməyə mane olmaq və oradakıları kənara çıxarmaq Allah yanında daha böyük günahdır.** (Din naminə) **fitnə salmaq isə** (həmin ayda) **vuruşmaqdan daha betərdir!"** (Ey möminlər!) **onlar** (Məkkə müşrikləri) **əgər bacarsalar, sizi dininizdən döndərincəyədək sizinlə vuruşmaqda davam edəcəklər…".** (əl-Bəqərə, 217)

Ayənin enməsindən rahat olan Abdullah bin Cahş və dostları:

**"- Ey Rəsulullah! Mücahidlərə verilən əcir kimi bizlərə də əcir verilirmi?",-deyə soruşdular. Buna cavab olaraq aşağıdakı ayə endi** (nazil oldu):

İPƏKYOLU NƏŞRİYYATI

**"Həqiqətən, Allaha iman gətirənlər** (Məkkədən Mədinəyə) **köçüb gələn və Allah yolunda cihad edən kimsələr Allahın mərhəmətinə ümidvardırlar. Allah bağışlayandır, rəhm edəndir!".** (əl-Bəqərə, 218)

Bu ilahi bəyanlar möminləri mənəvi baxımdan gücləndirdiyi kimi, müşrikləri də müsəlmanlara qarşı qızışdırırdı. Onsuz da bu ayələr nazil olmasa da, onlar möminlərə qarşı çox qəzəbli idilər. Çünki müsəlmanlar hər gün çoxalır, İslam dövləti güclənirdi. Hətta, o zaman Allah Rəsulunun Mədinədə həyata keçirdiyi bir siyahıya almaya görə iman edən kişilərin sayının min beş yüzdən çox olduğu təsbit edilmişdi. Bu sayın getdikcə artıdığını düşünsək, heç də az bir rəqəm olmadığı ortaya çıxar. Təbii olaraq bu da müşriklər üçün yavaş-yavaş bir təhlükəyə çevrilirdi. Həm də Mədinə məkkəli müşriklərin həyat damarı olan ticarət yolunun üzərində idi. Buna görə də, müşriklər təhlükə böyümədən onu zərərsizləşdirməyin yollarını düşündülər. Nəticədə, qərara aldılar ki, Məkkəyə hücum etsinlər.

### Qiblənin dəyişməsi

Hicrətdən sonra müsəlmanlar Məscidi-Əqsaya doğru namaz qılırdılar. Bu hal hicrətin on altı, ya da on yeddinci ayınadək belə davam etdi. Ancaq yəhudilər bu vəziyyətdən istifadə edərək özlərinin üstün olduqlarını iddia edirdilər. Bu da Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- mübarək könlünü kədərləndirirdi. Çünki onun könlündəki qiblə Kəbə idi. Bu gerçəkləşsə, Məkkənin fəthi üçün ilk addım atılmış olacaqdı. Bunun üçün ilahi icazənin gəlməsini həsrətlə gözləyirdi. Hələ bu icazə gəlmədiyi üçün Allah Rəsulunun -səllallahu əleyhi və səlləm-arzusu da düşüncə olaraq qalır, O, səbirlə gözləyirdi. Nəhayət, Rəcəb ayının ortalarında, bir bazar ertəsi günü Rəsulullah -səllallahu əleyhi və səlləm- Səlimə oğullarının məscidində günorta namazı qıldırarkən Cənab Haqq vəhy göndərdi:

"(Ey Rəsulum!) **Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də, səni razı olduğun qibləyə tərəf döndərəcəyik. İndi üzünü Məscidül-hərama tərəf çevir!** (Ey müsəlmanlar!) **Harada olsanız** (namaz vaxtı) **üzünüzü oraya döndərin! Kitab verilmişlər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu yaxşı bilirlər. Allah onların əməllərindən xəbərsiz deyil".** (əl-Bəqərə, 144)

Bu vaxt ikinci rükətin sonuna çatmış olan Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-dərhal üzünü Kəbəyə doğru çevirdi. Camaat da sıra ilə birgə döndü. Onlar hamısı bir yerdə qibləyə yönəldilər. Beləliklə, namazın

yerdə qalan iki rükəti Kəbəyə doğru qılındı. Buna görə də, o məscidə iki-qibləli məscid anlamına gələn "Məscidül-Qibləteyn" deyildi.

Bu namazı aləmlərin Peyğəmbəri ilə qılanlardan biri oradan ayrıldıqdan sonra bir başqa məscidə getdi. Camaat namaz qılırdı, tam rukü halında idilər. Onlara:

" - Şəhadət edirəm ki, Həzrət Peyğəmbərlə Kəbəyə doğru namaz qıldıq!",-deyə səsləndi. Bundan sonra camaat durduğu yerdən Kəbəyə yönəldi.

Qiblənin dəyişməsi möminlər arasında çox gözəl qarşılandı. Ancaq müşrik, münafiq və yəhudilər arasında çeşidli dedi-qodulara yol açdı. İslamın düşmənləri artıq-əksik danışmağa başladılar. Buna cavab olaraq mübarək ayələr endi (nazil oldu):

**"**(Mədinədəki yəhudi və münafiqlərdən) **ağılsız adamlar deyəcəklər: "**(Müsəlmanları əvvəlcə) **üz tutduqları qiblədən** (Beytül-müqəddəsdən) **döndərən nədir?"** (Ey Rəsulum! Onların cavabında) **de: "Şərq də, Qərb də Allahındır. O, istədiyi kimsəni doğru yola yönəldər".** (əl-Bəqərə)

**"**(Ey müsəlmanlar!) **Beləliklə də, sizi** (ədalətli və seçilmiş) **bir ümmət etdik ki, insanların əməllərinə** (qiyamətdə) **şahid olasınız, Peyğəmbər də** (Məhəmməd də-əleyhissələm-) **sizə şahid olsun.** (Ey Rəsulum!) **İndi yönəldiyin qibləni** (Kəbəni) **yalnız Peyğəmbərə tabe olanlarla ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün təyin etdik. Bu,** (qibləni Beytül-müqəddəsdən Kəbəyə çevirmək) **ağır görünsə də, ancaq Allahın doğru yola yönəltdiyi şəxslər üçün ağır deyil. Allah sizin imanınızı** (bundan əvvəl Beytül-müqəddəsə üz tutaraq qıldığınız namazlarınızı) **əvəzsiz qoymaz. Allah insanlara qarşı, əlbəttə, mehribandır, mərhəmətlidir".** (əl-Bəqərə)

Bu ilahi bəyandan aşağıdakı hikmətləri öyrənirik:

Mübarək ayəyə görə, qiblənin dəyişməsinin birinci hikməti budur ki, bu hadisə kitab əhlinə və müşriklərə müsəlmanlara qarşı heç bir dəlil vermir. Çünki keçmiş kitablara görə, vəd edilən son peyğəmbərin özəllikləri arasında qibləni Kəbəyə çevirmək də var idi.

Belə ki, "Əhdi-Ətiq"in Kitabül-İşaya bölməsində Məkkənin gələcəyi ilə bağlı bəyanlar buna açıqca işarə edir. Buna görə də, kitab əhli: "Son Peyğəmbərin qibləsi Məkkəyə doğru olacaqdı. Məhəmməd və əshabı

İPƏKYOLU NƏŞRİYYATI

isə hələ də namazda Beyti-Məqdisə (Məscidi Əqsaya) üz tuturlar",-deyə şübhə edə bilərdilər.

Sonra həzrət İbrahimin qibləsinə doğru yönəlməmək Allah Rəsulunun "İbrahim milləti"ndən olmaq bəyanına zidd olardı. Müşriklər bunu bir dəlil olaraq irəli sürə bilərdilər. Ancaq qiblənin dəyişməsindən sonra zülmü adətə çevirmiş olan inadkar insanlardan başqa, heç kim buna etiraz edə bilməzdi.

2. Qiblənin dəyişməsinin başqa bir hikməti də Allahın möminlərə verdiyi nemətini tamamlamasıdır. Bununla da onlar doğru yola qovuşar və bu yolla gedərək arzu edilən hədəfə çata bilərlər. Çünki əsl nemət doğru yola qovuşmaqdır. Qiblə də doğru yolun bir parçasıdır.

3. Peyğəmbərimizin ilk aylarda Beytül-Məqdisə doğru namaz qılmasının bir hikməti də səmavi dinlərin mənbəyinin eyni olduğunu göstərərək yəhudi və xristianların könüllərini İslama isindirməkdir. Bu davranış həm də İslam toplumu və dövlətinin quruluş mərhələsində yəhudi və xristianların onlara qarşı fəaliyyətlərini ən azı yumşalda bilərdi.

4. Bu məsələ eyni zamanda Qurani-Kərimə həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- əsla müdaxilə etmədiyini sübut edən dəlillərdən biridir. Çünki həzrət Peyğəmbər -əleyhissəlatü vəssəlam- qiblənin Kəbəyə doğru olmasını əvvəldən çox arzulayırdı. Ancaq bu məsələ ilə bağlı ilahi əmrin endiyi (nazil olduğu) hicrətin on altıncı ayınadək gözləmək məcburiyyətində qaldı.

**Oruc, fitrə sədəqəsi və zəkat**

İslam dini aparılan müharibələrlə bir yandan siyasi bünövrəsini möhkəmləndirirdi, başqa yöndən də özünə xas olan ruhani həyatını tədricən inkişaf etdirirdi. Elə buna görə də, "Ramazan orucu" möminlərə fərz oldu. Oruc, sevimli Peyğəmbərimizin Mədinəyə hicrətinin on səkkizinci ayında, qiblənin Kəbəyə çevrilməsindən sonra, Şaban ayında əmr edildi.

Cənab Haqq Ramazan orucunu fərz etdiyini bu mübarək ayə ilə bildirdi:

**"Ey iman gətirənlər! Oruc tutmaq sizdən öncəki ümmətlərə vacib buyurulduğu kimi, sizə də vacib buyuruldu ki,** (bunun vasitəsi ilə pis əməllərdən) **çəkinəsiniz!"** (əl-Bəqərə, 183)

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

Rəsulullah da-səllallahu əleyhi və səlləm-belə buyurmuşdur:

*"İslam beş əsas üzərində qurulmuşdur: Allahdan başqa Tanrı olmadığına və Məhəmmədin Allahın Rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, həccə getmək və Ramazan orucunu tutmaq".* (Buxari, "İman", 1, 2; "Təfsir", 2/30; Müslüm, "İman", 19-22)

Orucdan sonra "Bayram namazı" və "Fitrə sədəqəsi" əmr edildi. Rəsulullah -səllallahu əleyhi və səlləm- fitrə sədəqəsinin müsəlmanlardan böyük-kiçik, qadın-kişi, hər bir hürr və köləyə bir sa xurma, ya da 1 sa arpa olaraq fərz edildiyini bildirdi.

Ehtiyacı olanlar haqqında da:

"Onları bu (bayram) günündə ac qalmaqdan xilas edin!",-buyurdu. (İbni-Sad, I, 248)

Fitrə sədəqəsinin Bayram namazından öncə verilməsi məqbul hesab olunur. Namazdan sonra verilsə, fitrədən kənar bir sədəqə sayılır.

Fitrə sədəqəsindən bir müddət sonra da "zəkat" əmri gəldi. Mübarək ayədə buyurulur:

**"Mallarında da dilənçinin və** (abrına qısılıb dilənməyən) **yoxsulun haqqı** (payı) **var idi".** (əz-Zariyat, 19)

**"Zəkatı verənlər** (də təmizlənib xilas oldular)**".** (əl-Möminin, 4)

Zəkatın Qurani-Kərimdə iyirmi altı yerdə namazla birlikdə adı çəkilir. Dörd yerdə isə müstəqil olaraq zəkatdan danışılır. Bunlardan Möminin surəsindəki zəkat sözü namazdan ayrı olaraq deyilsə də, orada da namaz qılanların zəkatlarını verdikləri xüsusi ifadə edilir. Bunun səbəbi "bədəni" və "maddi" olmaqla iki qrupa ayrılan ibadətlərdə bu ikisinin birinci sırada yer tutması və dəyərlərinin bərabər olmasıdır. Belə ki bir hədisi-şərifdə buyurulur:

*"Namaz qıldığı halda zəkat verməyən kimsənin namazında xeyir yoxdur!".* (Heysəmi, III, 62)

Qurani-Kərimdə zəkatın hansı şəxslərə verilə biləcəyi bu şəkildə bölünmüşdür:

**"Sədəqələr** (zəkatlar) **Allah tərəfindən müəyyən edilmiş bir vacib əməl** (fərz) **olaraq ancaq yoxsullara,** (ehtiyacı olan, ancaq utandığından

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

əl açıb dilənməyən) **miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri** (müsəlmanlığa) **isinişib bağlanmaqda olanlara** (iman gətirib hələ kamil mömin olmayanlara)**, azad ediləcək kölələrə** (ya da boynuna kəffarə düşüb verə bilməyənlərə)**, həmçinin** (borcu ödəməyə imkanı olmayan) **borclulara, Allah yolunda cihad edənlərə və yolçulara (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə) məxsusdur. Allah** (hər şeyi) **biləndir, hikmət sahibidir!".** (ət-Tövbə, 60)

Çünki bir toplumda yardım edən, ya da yardım edilən bütün fərdlər maddi və mənəvi baxımdan bir-birilərinə möhtacdırlar.

## Böyük Bədir müharibəsi

(17 Ramazan, 2/ 13 Mart 624)

Hicrətin ikinci ilində Qureyşdən qadın-kişi hər kəsin iştirak etdiyi təxminən 50. 000 dinar pulu olan, min dəvədən ibarət böyük bir ticarət karvanı Şamın Qəzzə bazarına göndərilmişdi. Karvanda Məkkənin liderlərindən Əbu Süfyan, Məhəmməd bin Novfəl və Amr bin As kimi otuz, ya da qırx müşrik var idi.

Müşriklərin sayı doqquz yüz əlli, ya da min nəfər idi. Onlardan yüzü, ya da iki yüzü atlı idi, yeddi yüz müşrik isə dəvəsi ilə döyüşə gedirdi. Onların çoxu zirehli idi. Qureyşin bütün liderləri bu döyüşdə iştirak edirdi. Onların yanında müğənni cariyələri də var idi. Onlar dəf çaldıraraq, müsəlmanları tənqid və təhqir edən şeirlər oxudaraq yola çıxdılar.

Hicrətin ikinci ili, Ramazan ayının on ikisi idi. Allah Rəsulu -əleyhissəlatü vəssəlam- Abdullah bin Ümmi –Məqtumu camaata namaz qıldırmaq üçün Mədinədə vəkil təyin edərək 313 nəfərlik ordusu ilə şəhərdən çıxdı. Bunlardan 64-ü mühacir, yerdə qalanları isə ənsardan idi. Onlardan üçü atlı, yetmişi dəvəli, yerdə qalanları da piyada idilər.

Rəsulullah -səllallahu əleyhi və səlləm- əshabı ilə birlikdə yola çıxanda dəvə az olduğuna görə bir dəvəyə növbə ilə üç adam minirdi. Kainatın Fəxri də dəvəsinə həzrət Əli və Əbu Lübabə -radiyallahu anhüma- ilə növbələşərək minirdi. Səfərə çıxmaq vaxtı gələndə dostları Peyğəmbərimizə:

" - Ey Rəsulullah! Xahiş edirik, Siz minəsiniz! Biz Sizin əvəzinizə də piyada gedərik,-dedilər.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- isə:

- Siz piyada getmək üçün məndən daha dözümlü deyilsiniz. Bundan başqa mənim də savab qazanmaq ehtiyacım var",-buyurdu. (İbni-Sad, II, 21; Əhməd, I, 422)

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- bu davranışı ilə Allaha olan sonsuz sevgisini, ibadət və xidmətlə Cənab Allaha yaxınlaşmaq istəyinin çox olduğunu göstərmişdir. Bununla birlikdə, kim olursa-olsun, hər kəsin ədalətə, haqq və hüquqa əməl etməyə borclu olduğunu buyurmuşdur.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir müddət sonra Əbu Lübabəni -radiyallahu anh-ona vəkillik etmək üçün Mədinəyə geri qaytardı.

Allahdan başqa sığınılacaq bir yer tanımayan və hər ehtiyacını yalnız ona bildirən Kainatın Fəxri Bədirə gedən ümmətinin zəif və ehtiyac içində olduğunu görəndə dözə bilmədi, belə dua etdi:

"Allahım! Bunların miniyi yoxdur, Sən onlara minik heyvanları ver! Allahım! Bunlar çılpaqdırlar, Sən onları geyindir! Allahım! Bunlar acdırlar, Sən onları doyuzdur!"

Gerçəkdən də, Uca Allah Bədirdə fəth və zəfər qismət edəndə onların hər biri bir, ya da iki dəvə ilə geri döndülər. Paltar geyindilər, qarınlarını doyuzdurdular. (Əbu Davud, "Cihad", 145/2747)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Ramazan ayında olan bu çətin günlərdə əsgərlərin oruclarını pozmalarını əmr etdi. Çünki müsəlmanların döyüşdə fiziki baxımdan da güclü olmaları zəruri idi. Ancaq səfərdə iştirak edən bütün möminlər sonradan qəza etməklə oruc tutmadılar.

İslamın bu ilk ordusu Bədirə doğru irəlilədi. Ordu Əqiq vadisinə çatmışdı. Bu vaxt Hubeyb bin Yəsaf və Qays bin Muharris adlı iki şəxs döyüşdə iştirak edib qənimətdən pay ala bilmək məqsədilə orduya qoşulmuşdu. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu iki nəfərdən Hubeybə:

" - Siz bizimlə yola çıxmısınız?,-deyə soruşdu.

Hubeyb:

- Xeyr, Sən bizim bacımızın oğlusan və qonşumuzsan. Biz qövmümüzlə qənimət əldə etmək üçün səfərə çıxdıq!,-dedi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu dəfə:

- Sən Allaha və Rəsuluna iman etdinmi?,-deyə soruşdu.

Hubeyb:

- Xeyr!,-cavabını verdi.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

- Elədirsə, geri dön! Biz bir müşrikin yardımını istəmirik!..,-buyurdu.

Hubeyb israr etdi:

- Qövmüm mənim hərbdə çox şücaətli və düşmənin bağrında yaralar açan bir qəhrəman olduğumu yaxşı bilir. Müsəlman olmasam da, qənimət qarşılığında Sənin yanında döyüşsəm, olmazmı?,-dedi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

- Xeyr, sən öncə müsəlman ol, sonra döyüş!,-buyurub yoluna davam etdi.

Bir müddət sonra Hubeyb yenə gəldi. Yenə də eyni təklifi irəli sürdü. Ancaq cavab da eyni idi. Hubeyb vəziyyəti görüb, çox təəccüb etdi. Çünki o, ərəblər arasında çox cəsur bir döyüşçü kimi tanınırdı. Ancaq Allah Rəsulu -səllallahu əleyhi və səlləm- o, müşrik olduğuna görə orduya qoşulmasına razı olmadı. Müşriklərin çoxsaylı ordusuna qarşı az əsgəri olan Rəsulullahın bu hərəkəti Hubeybi dərindən sarsıtdı. Könül aləminin dərinliklərinə dalaraq əvvəllər heç fikir vermədiyi bir aləmin həqiqət nurlarını seyr etdi. Həyəcan içində yenidən Allah Rəsulunun arxasınca qaçdı. Bu dəfəki təklifi əvvəlkilərdən fərqli idi. Belə ki Allah Rəsulundan -səllallahu əleyhi və səlləm- təkrar eşitdiyi:

- Allaha və Rəsuluna iman etdinmi, ey Hubeyb?, -suala böyük bir coşqunluq içində cavab verdi:

- Bəli, ey Rəsulullah!

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- çox sevindi və:

- *İndi istədiyini et!*,-buyurdu". (Müslüm, "Cihad", 150; Tirmizi, "Siyər", 10/1558; Vaqidi, I, 47; İbni-Sad, III, 535)

Bu hadisə doğru bir hədəfə çatmaq üçün şərtlər nə qədər ağır olursa-olsun, qeyri-qanuni bir metod və vasitədən istifadə edilməyəcəyi ilə bağlı

bir iman ölçüsünü ortaya qoyur. Qulun vəzifəsi zəruri olan tədbirləri həyata keçirtdikdən sonra Cənab Haqqa təvəkkül etməkdir. Peyğəmbərimizin -əleyhissəlatü vəssəlam- də Hubeybin iman etməmişdən əvvəl orduya qoşulmasını qəbul etməməsi bu iman həssaslığını göstərmiş, ümmətə bu yöndə də gözəl bir nümunə olmuşdur. Çünki O uca Peyğəmbər hər işində yalnız Allaha sığınır, yalnız Haqqa yönəlir, hər cür qələbənin, inayətin yalnız Cənab Mövladan olduğunu bilir və bildirirdi. Varlıq Nuru -əleyhissəlatü vəssəlam- bu davranışı ilə:

حَسْبُنَا اللهُ وَنِعْمَ الْوَكِيلُ

**"… Allah bizə yetər, O, nə gözəl vəkildir!"** (Ali-İmran, 173)

Ayədə ifadə edilən təvəkkülün çox gözəl və canlı bir misalını göstərmişdir.

*****

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- siyasi hadisələrin inkişafını addım-addım izlədiyindən artıq qaçılmaz olan bir ölüm-dirim savaşı ilə qarşı-qarşıya olduqlarını anladı və seçilmiş əshabı toplayıb soruşdu:

"Sizcə, karvanı təqib etmək, yoxsa Qureyş ordusunu qarşılamaq münasibdir?

Mühacirlər adından Hz. Əbu Bəkir və Hz. Ömər -radiyallahu anhüma- ayağa qalxdılar. Qureyş ordusunu qarşılamağa hazır olduqlarını bildirdilər.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-ənsarın da fikrini öyrənmək istədi. O zaman ənsardan Miqdad bin Əsvəd -radiyallahu anh-ayağa qalxdı və bu nitqi söylədi:

- Ey Allahın Rəsulu! Bizlər, yəhudilər Hz. Musaya dediyi kimi: **"Sən və Rəbbin gedib döyüşsün!"** (əl-Maidə, 24) deyə bilmərik. Bizlər, Sənə Əqəbədə verdiyimiz sözə sadiq qalaraq Sənin sağında, solunda, önündə və arxanda düşmənlə sonunadək döyüşməyə hər an hazırıq!..". (Buxari, "Məğazi", 4; Təfsir, 5/4)

Həzrət Miqdaddan sonra Sad bin Muaz -radiyallahu anh- ayağa qalxdı:

" - Ey Allahın Rəsulu! Bizlər Sənə inandıq. Gətirdiyin Quranın haqq olduğuna şəhadət etdik. Necə istəyirsən, elə et! Əgər dənizə girsən, bizlər də Səninlə bərabər girərik. Ənsardan bir tək insan belə geri dönməz!

Bu sədaqət və təslimiyyət dolu sözlərdən sonra Hz. Peyğəmbərin -səllallahu əleyhi və səlləm- mübarək üzü təbəssümlə doldu, xeyir dua edərək belə buyurdu:

- Elədirsə, Allahın bərəkəti ilə irəli hücum edin! Sizə müjdələr olsun ki, Allah iki tayfadan qeyri-müəyyən olan birini vəd etdi. Vallah, mən sanki qureyşlilərin döyüş meydanında yıxılacaqları yerləri görürəm…". (Müslüm, "Cihad", 83; Vaqidi, I, 48-49; İbni-Hişam, II, 253-254)

Müşriklərin sayı doqquz yüz əlli, ya da min nəfər idi. Onlardan yüzü, ya da iki yüzü atlı idi, yeddi yüz müşrik isə dəvəsi ilə döyüşə gedirdi. Onların çoxu zirehli idi. Qureyşin bütün liderləri bu döyüşdə iştirak edirdi. Onların yanında müğənni cariyələri də var idi. Onlar dəf çaldıraraq, müsəlmanları tənqid və təhqir edən şeirlər oxudaraq yola çıxdılar.

Hicrətin ikinci ili, Ramazan ayının on ikisi idi. Allah Rəsulu -əleyhissəlatü vəssəlam- Abdullah bin Ümmi –Məqtumu camaata namaz qıldırmaq üçün Mədinədə vəkil təyin edərək 313 nəfərlik ordusu ilə şəhərdən çıxdı. Bunlardan 64-ü mühacir, yerdə qalanları isə ənsardan idi.

*****

İslam ordusu qərargaha yerləşdikdən sonra Sad bin Muaz həzrətləri:

" - Ey Allahın Rəsulu! Biz Sənə bir kölgəlik düzəldək. Miniklərini də yanında saxlayaq. Sonra biz düşmənlə döyüşək. Əgər Allah güc verib zəfər qismət edərsə, çox gözəl! Belə olmasa, Sən atına minər və arxada qoyub gəldiyimiz qardaşlarımızın yanına gedərsən! Ey Allahın Peyğəmbəri! Onlar da Səni bizim qədər çox sevərlər. Əgər Sənin döyüşəcəyini bilsəydilər, əsla arxada qalmazdılar. Allah Səni onlarla birgə qoruyar. Onlar Sənə candan bağlıdırlar və Sənin yanında cihad edərlər,-dedi.

Bunlardan üçü atlı, yetmişi dəvəli, yerdə qalanları da piyada idilər.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- Həzrət Sadı öydü və ona xeyir dua etdi. Sad -radiyallahu anh- qılıncını sıyırıb düzəldilən kölgəliyin qapısında növbə çəkdi". (İbni-Hişam, II, 260; Vaqidi, I, 49)

Rəsulullah-səllallahu əleyhi və səlləm-Həzrət Öməri-radiyallahu anh-son dəfə qureyşlilərin yanına göndərərək:

" - Geri dönün! Sizdən başqası ilə döyüşmək mənə sizinlə vuruşmaqdan daha sevimlidir!,-buyurdu.

İPƏKYOLU NƏŞRİYYATI

Hakim bin Hizam:

- Bu insaflı bir davranışdır! Onun təklifini tez qəbul edin! Vallah, bundan sonra sizə qarşı insaflı davranılmaz!,-dedi.

Əbu Cəhl isə:

- And olsun ki, Allah bizə fürsət verdikdən sonra qisasımızı almayınca geri dönməyəcəyik! Onlara hədlərini göstərəcəyik ki, bundan sonra nə gözətçi qoya bilsinlər, nə də karvanımızın qarşısını kəssinlər!,-dedi və müşrikləri döyüşə təşviq etdi". (Vaqidi, I, 61-65)

Qureyş Umeyr bin Vəhb və süvarilərindən Əbu Üsaməni İslam ordusunu yoxlamaq məqsədi ilə göndərdi. İslam ordusunun ətrafında dolaşan bu iki kəşfiyyatçı belə məlumat verdi:

"Vallah, biz nə qısır, nə iri dəvələr, nə atlar, nə sayca çox əsgər, nə də böyük bir hazırlıq gördük! Ancaq elə bir camaat gördük ki, onlar ailələrinə qayıtmağı deyil, ölməyi arzu edirlər! Qılınclarından başqa nə özlərini müdafiə edəcək bir şeyləri, nə də bir sığınacaqları var!". (Vaqidi, I, 62)

Həzrət Ömər -radiyallahu anh- deyir:

"Rəsulullah -səllallahu əleyhi və səlləm-: "Bədirdə gecələyin. Bura, inşallah, sabah filankəsin öldürüləcəyi yerdir!",- deyə müşriklərin liderlərinin öldürüləcəkləri məkanları bir-bir göstərdi. Onu haqq Peyğəmbər olaraq göndərən Allaha and içirəm ki, onlardan heç biri Allah Rəsulunun göstərdiyi yerlərdən kənarda ölmədi. Sonra da üst-üstə bir quyuya atıldılar". (Müslüm, "Cənnət", 76, "Cihad", 83)

Müsəlmanların Bədirdəki qərargahları qumlu bir yerdə idi. Ona görə də, ora getmək çətin idi. Bundan başqa az olduğuna görə su tapmaq problemi də ortaya çıxmışdı. Dəstəmaz və qüsl almaq üçün kifayət qədər su tapmaq çətin idi. Şeytan da istər bu sıxıntılarla, istərsə də müşriklərin çox və güclü olması ilə möminlərin ürəyinə qorxu salmağa çalışırdı.

O gecə Uca Allah yağış yağdırdı. Vadidən sellər axdı. Müsəlmanlar qablarını doldurdular, dəstəmaz aldılar, qüsl etdilər və heyvanlarına su verdilər. Yağan yağış eyni zamanda tozu da yatırtdı və torpağı nəmləndirərək möhkəmləndirdi. Qureyş müşrikləri isə yağış yağdığına görə yerlərindən ayrıla bilmədilər, hərəkətsiz qaldılar. Bundan başqa Uca Allah müsəlmanlara dinclik verən, rahat bir yuxu bəxş etdi.

İPƏKYOLU NƏŞRİYYATI

Cənab Haqq bu məsələ ilə bağlı belə buyurur:

**"O vaxt** (Bədir döyüşündə) **Öz tərəfindən (köməyindən) arxayınlıq əlaməti olaraq Allah sizi xəfif bir yuxuya daldırmış, sizi** (çirkdən-pasdan) **təmizləyərək** (ya da dəstəmaz almaq)**, şeytanın vəsvəsəsini sizdən çıxartmaq, ürəklərinizi** (qələbəyə inamla) **doldurmaq və** (quma batmasın deyə) **ayaqlarınızın altını möhkəm etmək üçün göydən üstünüzə yağış yağdırmışdı".** (əl-Ənfal, 11)

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- isə bütün gecə namaz qıldı, Allaha dua etdi. Həzrət Əli –kərəmallahu vəchəh-belə söyləyir:

"Yaxşı bilirəm, Bədir günü Allah Rəsulundan başqa hamımız yatmışdıq. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- isə səhərədək bir ağac altında namaz qılıb ağlamışdı". (İbni-Huzeymə, II, 52)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- şəfəq söküləndə də:

"Ey Allahın qulları! Namaza!",-deyərək səsləndi və sübh namazını qıldırıb müsəlmanları cihada təşviq etdi. (Əhməd, I, 117)

İki ordu Ramazan ayının 17-də bir Cümə günü Bədir səhrasında qarşı-qarşıya düzüldü. Çox isti bir gün idi. O zamanadək ərəblər hər zaman soy, irq və qohumluq kimi qan bağlılığına görə döyüşərdilər. İndi isə qövmə mənsubluğun yerini din tutmuşdu. Dini qoruma duyğusu ərəblərdə çox güclü olan qohumluq əlaqəsini üstələmişdi. Belə ki ata, əmi, dayı, övlad, qardaş, əmioğlu kimi yaxın qohumlar belə ayrı-ayrı tərəflərdə üzbəüz durmuşdular. O gün Həzrət Əbu Bəkir oğlu ilə, Əbu Ubeydə bin Cərrah atası ilə, Həzrət Həmzə qardaşı ilə qılınc-qılınca gəldi. Böyük bir ibrət tablosu var idi.

Uca Allah buyurur:

**"**(Ey Məkkə müşrikləri və yəhudilər!) **İki dəstənin** (Bədir müharibəsi zamanı) **qarşı-qarşıya durması sizin üçün** (Peyğəmbərin doğruluğuna) **dəlildir. Bunlardan biri Allah yolunda vuruşanlar, başqası isə kafirlər idi.** (Möminlər üç yüz on üç nəfər, kafirlər isə təqribən min nəfər idilər). (Möminlər kafirlərin) **onlardan iki qat artıq olduqlarını öz gözləri ilə gördülər.** (Yaxud kafirlər möminləri iki özləri qədər, yəni təxminən iki min nəfər, ya da onların olduqlarından iki dəfə artıq, yəni altı yüzdən bir qədər çox görürdülər)**. Əlbəttə, Allah istədiyinə Öz köməyi ilə qüvvət verər. Şübhəsiz, bu Bədir əhvalatı bəsirət sahiblərindən** (gözüaçıq, ayıq adamlardan) **ötrü bir ibrət dərsidir".** (Ali-İmran, 13)

İPƏKYOLU NƏŞRİYYATI

Döyüş meydanına məğrur bir əda ilə gələn müşriklər təkəbbürlənir, özlərini məğlubedilməz bir topluluq olaraq görürdülər. Uca Allah müşriklərin bu halını mübarək ayələrdə belə bildirir:

"(Ey möminlər!) **Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxanlar və** (insanları) **Allah yolundan döndərənlər** (Məkkə müşrikləri) **kimi olmayın. Allah onların nə etdiklərindən xəbərdardır! O zaman** (Bədir günü) **şeytan onlara öz əməllərini gözəl göstərib demişdi: "Bu gün insanlar içərisində sizə qalib gələ biləcək bir kimsə yoxdur. Mən də sizin yardımçınızam!" Ancaq iki dəstə üz-üzə gəldiyi zaman dönüb qaçaraq: "Mənim sizinlə heç bir əlaqəm yoxdur** (sizdən uzağam)**. Mən sizin görmədiklərinizi** (möminlərin köməyinə gələn mələkləri) **görürəm. Mən Allahdan qorxuram. Allah** (Ona asi olanlara) **şiddətli əzab verəndir!",-demişdi".** (əl-Ənfal, 47-48)

İlahi izzət bir meydan oxuyaraq onların təkəbbürlərini alt-üst etdi:

**"Küfr edənlər öz mallarını** (insanları) **Allah yolundan döndərmək** (İslamı qəbul etməyə mane olmaq) **üçün sərf edərlər. Onlar mallarını sərf edəcək, ancaq sonra** (məqsədlərinə çata bilmədiklərinə görə) **peşman olacaq, axırda da məğlub ediləcəklər. Kafirlər cəhənnəm tərəfə sürüklənəcəklər".** (əl-Ənfal, 36)

**Mələklərin yardımı**

Rəsulullah -səllallahu əleyhi və səlləm- müşriklərə baxdı. Müşriklər təxminən min nəfər idilər. Əshab isə üç yüz on nəfər idi. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- qibləyə yönəldi, əllərini qaldırdı. Rəbbinə uca səslə belə yalvarmağa başladı:

"Ey Allahım! Mənə olan vədini yerinə yetir! Mənə zəfər ehsan eylə! Ey Allahım! Əgər İslam əhlinin bu topluluğunu həlak etsən, artıq yer üzündə Sənə ibadət edəcək kimsə qalmayacaq!"

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- mübarək əllərini səmaya açmış olaraq yalvarmağa elə davam etdi ki, əbası çiynindən düşdü. Bunu görən Əbu Bəkir -radiyallahu anh- onun yanına gələrək əbasını götürdü, çiyninə qoydu və:

"Ey Allahın Rəsulu! Rəbbinə olan yalvarış bəsdir. Uca Allah sənə olan vədini mütləq yerinə yetirəcək",-dedi.

İPƏKYOLU NƏŞRİYYATI

Bütün möminlərin könülləri dua edirdi. İlahi kəlamla Rəhmanın lütfü belə müjdələndi:

**"O zaman siz (dua edərək) Rəbbinizdən kömək diləyirdiniz.** (Allah:) **"Mən sizin imdadınıza bir-birinin ardınca gələn min mələklə çataram!",-deyə duanızı qəbul buyurmuşdu. Allah bu köməyi sizə yalnız sizin üçün bir müjdə və ürəkləriniz sakit olsun deyə etmişdi. Qələbə yalnız Allahdandır. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!".** (əl-Ənfal, 9-10)

"(Ey Rəsulum!) Həqiqətən, siz Bədirdə (düşmənə nisbətən az və) zəif olduğunuz halda, Allah sizə yardım etdi. (Allaha) şükr edən olmaq üçün Allahdan qorxun! O zaman sən möminlərə deyirdin: "Rəbbinizin üç min mələk endirərək imdadınıza yetişməsi sizə kifayət etməzmi?". Bəli, əgər səbir edib (Allahdan) qorxsanız, onlar (Məkkə müşrikləri) qəzəblə üstünüzə gəldikləri zaman Rəbbiniz beş min nişan qoyulmuş mələklə sizə yardım edər". (Ali-İmran, 123-125)

Allah-cəllə cəlalühü-o gün möminlərə mələklərlə yardım etdi. Möminlərin ixlasına görə mələklərin sayını min, üç min, nəhayət, beş minədək artırdı.

Peyğəmbərimiz-səllallahu əleyhi və səlləm-daha öncədən müşriklərin liderlərindən kimin harada öldürüləcəyini bildirdiyi halda və Allahın onlara zəfər qismət edəcəyini ilahi lütf ilə öyrənmiş olmasına baxmayaraq, gecə sübhədək Allaha yalvarmış, özünü həlak edərcəsinə dua etmişdi. Bu hal qulluq düşüncəsinin önəmli göstəricilərindən biridir. Uca Allah da bizdən qulluqdan başqa bir şey istəmir. Allaha yaxınlaşmaq üçün özünü bir heç sayaraq təvazökarlıqla Ona yalvarmaq kimi sağlam bir yol yoxdur.

Rəsulullah-səllallahu əleyhi və səlləm-Bədir günü:

**"Budur Cəbrail! Atının başından tutmuş, üzərində də savaş təchizatı** (yardımınıza gəlmiş vəziyyətdə)**!",-buyurdu.** (Buxari, "Məğazi", 11)

Əbu Davud əl-Mazini söyləyir:

"Bədir günündə müşriklərdən bir adamı vurub öldürmək məqsədilə təqib etdim. Qılıncım hələ ona toxunmadan başının yerə düşdüyünü gördüm! Anladım ki, onu məndən başqa birisi (yəni bir mələk) öldürdü!". (Əhməd, V, 450)

*****

Bədir müharibəsi mübarizə ilə, yəni təkbətək vuruşma ilə başladı. Müsəlmanlardan irəli çıxan qəhrəmanlar Həzrət Həmzə, Həzrət Əli və Həzrət Ubeydə rəqiblərini öldürdülər. Ancaq Ubeydə -radiyallahu anh- ayağı qopmuş halda geri döndü. Bir müddət sonra Allah Rəsulunun: "Sən o uca məqama çatdın!",-müjdəsini alaraq şəhid oldu. (Vaqidi, I, 69-70)

Bundan sonra iki ordu yavaş-yavaş bir-birinə yaxınlaşmağa başladı. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əshabın birdən-birə hücuma başlamasına icazə vermədi. Çünki qureyşli müşriklər arasında karvanın təhlükəni sovuşdurduğu düşüncəsi ilə savaşmaq istəməyənlər də var idi. Müsəlmanların tez hücum etməməsi ilə onların bu döyüşdə iştirak etmək həvəsləri daha da azalır, müşriklərin sırasında döyüş əzminin getdikcə sarsılmasına səbəb olurdu. Onsuz da təkbətək mübarizəyə çıxan döyüşçülərin məğlubiyyəti onları bir xeyli narahat etmişdi. Ancaq məlun Əbu Cəhl bütün kini ilə bağırırdı: "Siz bir-iki nəfərin ölməsinə baxmayın! İrəli yüyürün!". (Vaqidi, I, 71)

Bundan sonra müşriklər ümumi hücuma keçdilər. Müsəlmanların sırasından Haqqa yüksələn səmimi dualar küfr sırasına doğru yönəlir və bir nərə təsiri bağışlayan "Təkbir və Lafzayi Cəlal" (La ilahə illəllah) səsləri ara vermədən ucalır, imanlı ürəkləri coşdururdu.

Nəhayət, Rəsulullah da-səllallahu əleyhi və səlləm-hücum əmri verdi. Iki ordu bir-birinə girdi. Döyüş şiddətli başladı. Getdikcə daha da şiddətləndi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Cənabı Haqqa yalvarışla birlikdə əshabının qeyrət və coşğunluğunu artırmaq üçün onların arasında gəzir və tez-tez:

"(Bədir döyüşündə) **bu dəstə mütləq məğlub olacaq və arxa çevirib qaçacaq!".** (əl-Qəmər, 45) mübarək ayəsini oxuyurdu. Bunun ardınca da müjdələyirdi:

"Hər kim bu gün düşməndən üz çevirməyib möhkəm dayanarsa, şəhid olarsa, Cənabı Haqq, əlbəttə, onu cənnətə qoyacaq. Bu gün şəhid olanlara Cənnətül-Firdövs hazırdır. Hücum və həmlə edin!". (İbni-Hişam, II, 267-268)

Bu sözlərdən sonra yanında dayanmış Əbu Bəkirə -radiyallahu anh- tərəf çevrilərək: "Müjdə! Cəbrail və mələklər imdada gəldi", -buyurdu.

İPƏKYOLU NƏŞRİYYATI

Peyğəmbər yerdən kiçik daşlar götürdü: "Üzləri qara olsun", deyərək düşmənin üzərinə atdı. Bu vaxt düşmən tərəfə doğru şiddətli bir külək əsdi. Müdhiş bir qasırğa oldu, göz-gözü görmədi.

**Bədrin Aslanları**

Həzrət Əli -radiyallahu anh- belə demişdi: "Biz Bədirdə Allah Rəsuluna sığınırdıq. O gün o düşmənə ən yaxın yerdə dayananımız, insanların ən cəsur və mətanətli olanı idi". (Əhməd, I, 86)

Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- cəsarəti ilə bağlı Bəra -radiyallahu anh- da deyir: *"Vallah, Biz savaş qızışanda Rəsulullaha -səllallahu əleyhi və səlləm- sığınırdıq. Bizim ən cəsurumuz Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə eyni sırada dayana bilən idi".* (Müslüm, "Cihad", 79)

Seçilmiş əshab bu müharibədə çox böyük fədakarlıq və qəhrəmanlıqlar göstərdi. Ayrıca olaraq Allahın aslanı həzrət Həmzə -radiyallahu anh- böyük bir şücaət və cəngavərlik nümunəsi ortaya qoydu.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-:

"- Görəsən, Əbu Cəhl nə edir? Kim gedib ona baxar?,-buyurdu.

Abdullah bin Məsud -radiyallahu anh- onu axtarmağa getdi və yerdə tapdı. Hadisənin sonunu özü belə danışır:

"Mən onu son dəqiqələrini yaşayarkən tapdım və tanıdım. Ayağımı boynuna basdım:

- Ey Allahın düşməni! Allah səni zəlil etdi və alçaltdı, elə deyilmi?,-dedim.

- Allah məni nə zəlil etdi, nə də alçaltdı. Sənin qövmünün öldürdüyü adamlar içərisində məndən daha üstün kim var? Ey qoyun çobanı! Sən çətin və əlçatmaz bir yerə çıxmısan! Sən ondan əl çək və mənə xəbər ver, bu gün dövran kimindir?,-dedi.

- Bu gün dövran Allah və Rəsulunundur!,-dedim.

Onu öz qılıncı ilə öldürdükdən sonra Rəsulullahın -əleyhissəlatü vəs-səlam- yanına getdim:

İPƏKYOLU NƏŞRİYYATI

- Əbu Cəhli öldürdüm!,-dedim.

Allaha həmd və səna etdi və:

- O, bu ümmətin Fironu idi",-buyurdu". (Buxari, "Məğazi", 12; Əhməd, I, 444; İbni-Hişam, II, 277; Vaqidi, I, 89-90)

Bədir müharibəsi eyni zamanda İslamın və imanın varlıq mübarizəsi olduğuna görə, bu ilk böyük cihadda iştirak edən seçilmiş əshab müsəlmanların ən fəzilətliləri olmaq şərəfinə nail oldular. Uca Allah bu döyüşdə mələklər ordusunu da səfərbər etdi. Bədirdəki ülvi həyəcan dalğasında iştirak edən mələklər də başqa mələklərlə müqayisədə daha böyük bir şərəf qazandılar. Belə ki, Cəbrail -əleyhissəlam-, Allah Rəsulundan -səllallahu əleyhi və səlləm- soruşdu:

*"- Ey Rəsulullah! Bədir müharibəsində iştirak edənlərlə bağlı nə düşünürsən?*

*Varlıq Nuru:*

*- Onları müsəlmanların ən fəzilətliləri sayırıq,- cavabını verdi.*

*Cəbrail -əleyhissəlam-da bu cavabı söylədi:*

*- Biz də mələklərdən Bədir müharibəsində iştirak edənləri mələklərin ən xeyirliləri sayırıq".* (Buxari, "Məğazi", 11)

*****

O gün günortaya doğru döyüş möminlərin qələbəsi ilə başa çatdı. On dörd müsəlman şəhid oldu. Müşriklərdən isə Əbu Cəhil də daxil olmaqla yetmişi öldürülmüş, təxminən yetmişi də əsir alınmışdı. Beləliklə, bədbəxt müşriklər Bədirə gəlməklə igidlik göstərsələr də, arzu etdikləri qələbə şərabının yerinə əcəl qədəhlərindən ölüm içdilər. Onların cariyələri mahnı oxumaq əvəzinə ağlaşaraq yas tutdular. Öz sıralarında olan ərəblərin qarnını doyurmaq yerinə, onları acmış cəhənnəm çuxurlarına doldurdular. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- zirehi üzərində olduğu halda:

**"**(Bədir vuruşunda) **bu dəstə mütləq məğlub olacaq və arxa çevirib qaçacaq".** (əl-Qəmər, 45) ayəsini oxuyaraq çadırından çıxdı. (Buxari, "Cihad", 89)

Həzrət Ömər -radiyallahu anh- belə söyləyir:

"Bu ayə Məkkədə nazil olduğu zaman öz-özümə: "Görəsən, hansı camaat məğlub olacaq? Kimə qələbə çalınacaq?",-demişdim. Bədir günü gəlib çatanda Rəsulullahın -səllallahu əleyhi və səlləm- bu ayəni oxuduğunu eşitdim. Məğlubiyyətə uğrayacaq topluluğun Qureyş müşrikləri olduğunu anladım. Ayənin təfsirini o gün öyrəndim". (İbni-Sad, II, 25; İbni-Kəsir, "əl-Bidayə", III, 312)

İslamın və imanın zəfəri ilə nəticələnən Bədir müharibəsi Allahın səmimi, ixlaslı və inanan qullarına yardımını göstərən böyük möcüzələr və onlardan alınacaq bir çox ibrətlərlə doludur.

Bu böyük qələbədən sonra Cənab Haqq müsəlmanlarda təkəbbür yaranmaması üçün bu mübarək ayəni endirdi (nazil etdi):

**"(Ey möminlər! Bədirdə) onları (kafirləri) siz öldürmədiniz, Allah öldürdü. (Ey Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri (qənimət əldə etmək və zəfər çalmaq üçün) yaxşı bir imtahandan keçirtdi. Allah (hər şeyi) eşidəndir, biləndir".** (əl-Ənfal, 17)

İnsanın sahib olduğu güc və qüdrət ilahi təqdir çərçivəsinin içərisindədir. Buna görə də:

"Böyük və uca Allahdan başqa (kimsədə) güc və qüdrət yoxdur",-buyurulmuşdur. Çünki əzəldə yox olduğu halda, ancaq Allahın lütf və kərəmi sayəsində var olan bütün yaradılmışların sahib olduğu hər şey uca Allahdandır. Buna görə də, külli iradə bütün baş verənləri, hadisələri, yaradılmışları əhatə və ehtiva edir. Bu, o deməkdir ki, iradə və gücün əsli Yaradana aiddir. Ancaq insan bu dünyaya imtahan üçün göndərildiyindən ona cüzi bir iradə verilmiş, onun bu iradəni xeyirə, ya da şərə sərf etmək imkanı da tanınmışdır. Bu gücdən istifadə isə onun iradəsinə bağlıdır.

### Bədirdən dönüş

Rəsulullah -səllallahu əleyhi və səlləm- düşmənə qalib gələndə o bölgənin açıq bir sahəsində üç gün qalmaq adəti idi. Bədir döyüşünün üçüncü günü olanda Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- dəvəsinin gətirilməsini əmr etdi. Yol yükü dəvəyə yükləndi. Allah Rəsulu piyada yeriməyə başladı. Əshabı da onun arxasınca getdi. Onlar bir-birinə:

"Hər halda Rəsulullah -səllallahu əleyhi və səlləm- bir iş üçün gedir,-

İPƏKYOLU NƏŞRİYYATI

dedilər. Nəhayət, Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- müşriklərin atıldığı quyunun kənarında durdu və onlara adları ilə müraciət edərək dedi:

"Ey Əbu Cəhl! Ey Ümmeyyə bin Xələf! Ey Utbə bin Rəbiyə! Ey Şeybə bin Rəbiyə! Siz Allaha və Rəsuluna itaət etmiş olsaydınız, daha yaxşı olmazdımı? Biz, Rəbbimizin bizə vəd etdiyi şeyin haqq və doğru olduğunu gördük! Siz də Rəbbinizin sizə vəd etdiyinin haqq olduğunu gördünüzmü?,-buyurdu.

Ömər -radiyallahu anh-:

- Ey Rəsulullah! Ruhsuz cəsədlərlə danışırsanmı?! Onlar leşə çevrildikdən sonra sizə necə cavab verə bilərlər?,-dedi.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-:

- *Məhəmmədin nəfsi qüdrət əlində olan Allaha and içirəm ki, onlar mənim söylədiklərimi sizdən daha yaxşı eşidirlər! Ancaq cavab verməyə qadir deyillər!"*,-buyurdu". (Buxari, "Məğazi", 8; Müslüm, "Cənnət", 77)

Bu böyük zəfərlə Mədineyi-Münəvvərə sevincə qərq oldu. Ancaq Məkkə matəmə büründü. Hətta, Əbu Ləhəb kədərindən öldü. Beləliklə, ilahi vəd təcəlli etmiş oldu.

Ancaq bu zaman Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- hörmətli qızı Həzrət Ruqiyyə vəfat etdiyinə görə müsəlmanların Bədir zəfərinin sevinci uzun sürmədi.

**Əsirlərə münasibət**

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Bədirdə üç gün qaldıqdan sonra Mədinəyə döndü. Alınan əsirlərin vəziyyətini Həzrət Əbu Bəkir, həzrət Əli və həzrət Ömər -radiyallahu anhüm əcməin-ilə müzakirə etdi. Əbu Bəkir -radiyallahu anh-:

" - Ey Allahın Rəsulu! Bunlar qohum və qardaşlarımızdır. Mən onlardan fidyə (xilas olmaq üçün az miqdarda pul) almağı doğru sayıram. Onlardan aldıqlarımız kafirlərə qarşı mübarizədə bizi gücləndirər. Bəlkə, Allah onları doğru yola qovuşdurar, onlar da bizə dəstək olarlar,-dedi.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- həzrət Ömərə:

- Ey Xəttab oğlu! Sənin fikrin necədir?,-deyə soruşdu.

İPƏKYOLU NƏŞRİYYATI

O isə:

- Xeyr! Vallah, ey Rəsulullah! Mən Əbu Bəkir kimi düşünmürəm! Onların boyunlarını vurmağa izacə ver! Mənə icazə ver, qohumlarımdan olan filankəsin boynunu özüm vurum. Əliyə icazə ver qardaşı Aqilin boynunu o vursun. Həmzəyə icazə ver qardaşı filankəsin (Həzrət Abbasın) boynunu o vursun. Bu yolla da uca Allah bizim qəlbimizdə müşriklərə qarşı bir yumşaqlıq və zəiflik olmadığını ortaya çıxartsın! Bu əsirlər müşriklərin liderləridir, küfrün başçılarıdır!,-dedi.

Kainatın Fəxri Həzrət Əbu Bəkirin fikrinə üstünlük verdi. (Müslüm, "Cihad", 58; Tirmizi, "Siyər", 18/1567; Əhməd, I, 30-31; 383-384; Vaqidi, I, 107; İbni-Sad, II, 22)

Çünki onların doğru yola qovuşacağına, onlardan Allaha ibadət edən bir nəslin ortaya çıxacağına ümid edirdi.

Alınan əsirlər məsləhətlər nəticəsində fidyə qarşılığında sərbəst buraxıldılar. Fidyə ödəmək imkanı olmayanlar da heç bir qarşılıq alınmadan sərbəst buraxıldı. Ancaq bunlardan oxumaq-yazmaq bilənlərin hər biri on mədinəli uşağa oxumaq-yazmaq öyrətməyə borclu idi. Onlar da fidyələrini bu yolla ödəyəcəkdilər. Vəhy katibi olan və sonda Quranı bir araya toplamış Zeyd bin Sabit -radiyallahu anh- da yazı yazmağı onlardan öyrənmişdi. (Əhməd, I, 247; Vaqidi, I, 129; İbni-Sad, II, 22)

Uca Allah əsirlər və onlardan alınan fidyə ilə bağlı belə buyurdu:

**"Heç bir peyğəmbərə yer üzündə** (küfrün belini qırmayınca, bacardığı qədər çox kafir) **öldürməyincə əsirləri özünə mal etmək (onları öldürməyib fidyə müqabilində azad etmək) yaraşmaz.** (Ey möminlər!) **Siz** (fidyə almaqla) **puç dünya malını istəyirsiniz, Allah isə** (sizin) **axirəti qazanmağınızı istəyir. Allah yenilməz güc sahibi, hikmət sahibidir! Əgər əvvəlcə** (bu barədə) **Allahdan bir hökm olsaydı** (lövhi-məhfuzda qənimətlərin və əsirlərin halal olması haqqında yazılmasaydı) **aldığınız** (fidyə) **müqabilində sizə şiddətli bir əzab üz verərdi** (toxunardı)**. Əldə etdiyiniz qənimətləri halal və təmiz olaraq** (halallıq və nuşcanlıqla) **yeyin. Allahdan qorxun. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!"** (əl-Ənfal, 67-69)

Həzrət Ömər deyir:

"Sübh tezdən Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına gəldim. O, Əbu Bəkir ilə oturmuşdu. Onlar ağlayırdılar.

- Ey Rəsulullah! Səni və dostunu ağladan nədir? Mənə xəbər verin! Sizin deyəcəyiniz ağlamalı olsa, mən də ağlayaram. Ağlamalı bir hal olmasa, sizin ağlaşmanıza qoşularam, -dedim.

Rəsulullah -səllallahu əleyhi və səlləm-:

- Bu dostlarının əsirlərdən aldıqları fidyələrə görə vay mənim başıma gələnlərə! Onların üzləşəcəyi əzabın bu yanımdakı ağacdan daha yaxın olduğu mənə göstərildi,-buyurdu". (Əhməd, I, 31; Müslüm, "Cihad", 58)

Uca Allah düşmənlər tam məğlub edilərək dinin şərəfi yüksəlmədikcə, fitnə tamamilə ortadan qalxmadıqca əsir almaqdan və onları fidyə qarşılığında azad etməkdən razı olmamış, buna görə də, müsəlmanlara xəbərdarlıq etmişdir. Fidyə almaqda dünyəvi bir mənfəət də var. Ancaq Allahın istəyi axirət qurtuluşunun əldə edilməsidir. Din düşmənlərinin tam olaraq məhv edilmədən əsir alınması möminlərin axirət qurtuluşunu təhlükəyə ata bilər.

İctihaddakı bir xətaya görə tənqid etməmək (irad tutmamaq), Bədir döyüşündə iştirak edənlərə əzab verməmək, ya da açıqca qadağan edilməmiş bir işi edəni cəzalandırmamaq kimi ilahi hökm Lövhi-Məhfuzda yazılmış olduğundan uca Allah möminləri bağışlamış, aldıqları qənimətləri halal saymış və onları cəzalandırmamışdır.

### Qənimətlərlə bağlı hökm

Qənimətlərlə bağlı İslamın qaydası hələ bildirilmədiyi üçün Bədirdə ələ keçirilən qənimətlərin paylaşdırılması məsələsində fikir ayrılığı yarandı. Bədirdə qardaşı şəhid olan Sad bin Əbi Vaqqas da qətl etdiyi Səid bin Asın qılıncını alaraq Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına gəldi və bunun ona verilməsini istədi. Bu cür hadisə və tələblərdən sonra, Bədirdən ayrılmadan və qənimətlər paylaşılmadan Ənfal surəsinin ilk ayəsi endi (nazil oldu).

**"**(Ey Peyğəmbərim!) **Səndən** (müharibədə əldə edilmiş) **qənimətlər** (onların kimə çatması) **haqqında soruşurlar. De: "Qənimətlər Allahın və Peyğəmbərinindir** (onun bölünməsi Allaha və Peyğəmbərinə aiddir). **Buna görə də, əgər** (həqiqi) **möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin, Allaha və Onun Peyğəmbərinə itaət edin!".** (əl-Ənfal, 1)

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- bu qənimətləri Mədinəyə yaxın olan bir yerdə döyüşdə iştirak edən mücahidlər arasında bərabər və yerli-yerində böldü.

Daha sonra döyüş qənimətləri ilə bağlı təfsilatlı hökmləri ehtiva edən eyni surənin 41-ci ayəsi endi (nazil oldu):

"(Ey möminlər!) **Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün-iki dəstənin bir-biri ilə qarşılaşdığı gün** (Bədir günü) **bəndəmizə (Məhəmmədə) nazil etdiyimizə** (ayələrə) **iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrabasının, yetimlərin, yoxsulların və müsafirindir** (pulu qurtarıb yolda qalan yolçularındır). **Allah hər şeyə qadirdir!".** (əl-Ənfal, 41)

Bu ayəyə görə qənimətlərin beşdə biri Allaha, Rəsuluna, Onun qohumlarına, yetimlərə, yoxsullara və yolda qalmışlara aiddir.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- öz payı ilə ailə üzvlərinin ehtiyacını ödədikdən sonra yerdə qalan hissəni Beytül-mala qoymuş və bunu müsəlmanların və ordunun ehtiyaclarına xərcləmişdir.

*****

Qurani-Kərimdəki Ənfal surəsi Mədinədə hicrətin ikinci ilində nazil olmuşdu. Bu surənin böyük bir hissəsi Bədir müharibəsi ilə bağlı olduğu və Bədir günlərində endiyi üçün bu surəyə "Bədir surəsi" də deyilmişdir.

*****

Hicrətin ikinci ilində Allah Rəsulunun -səllallahu əleyhi və səlləm-qızı Fatimə -radiyallahu anha-ilə Həzrət Əli -radiyallahu anh- evləndi.

**Səvik müharibəsi (Zilhiccə 2/ May 624)**

Əbu Cəhlin ölümündən sonra Əbu Süfyan Qureyşin lideri oldu. Bədir məğlubiyyətinin intiqamını almaq üçün and içərək dərhal iki yüz atlı ilə Məkkədən qorxa-qorxa yola çıxdı. Elə bir yerə gəlib çatdı ki, oradan Mədinəyə bir saatlıq yol idi. Gecə qaranlığından istifadə edərək Bəni Nadir yəhudilərinin yurdlarına qədər irəlilədi. Onların lideri və xəzinə başçısı Səllam bin Mişkəmin evinə çatdı. Səllam Əbu Süfyanı yedirdib-içirtdi və ona gözəl qulluq etdi. Müsəlmanların bir sıra gizli məsələləri ilə bağlı məlumatlar verdi.

İPƏKYOLU NƏŞRİYYATI

Əbu Süfyan oradan ayrılıb dostlarının yanına çatdı. Ənsardan Sad bin Amrı öldürüb, bir neçə xurmalığı yandırdı. Əbu Süfyan bununla da öz vədini yerinə yetirmiş olduğunu qəbul edərək və təqib edilməkdən də qorxaraq tez geri döndü.

Vəziyyətdən xəbərdar olan Allah Rəsulu -səllallahu əleyhi və səlləm- onu təqib etdi. Müşriklər rahat qaça bilmək üçün qovrulmuş dolu un çuvallarını qoyub getmişdilər. Buna görə də, bu döyüşə "Səvik döyüşü" deyildi. (Səvik-  qovurulmuş un deməkdir- tərcüməçi).

### Yəhudilər və Bəni Qaynuqa müharibəsi

### (Şəvval 2 / Aprel 624)

Mədinənin ətrafında çoxlu əhali yaşayırdı. Onlar bir vaxtlar ərəblərə bir Peyğəmbər göndəriləcəyini söyləyirdilər. Yəhudilər Peyğəmbərin onların içindən çıxacağını güman etdikləri üçün bu xəbəri böyük sevinclə hamıya yayırdılar. Ancaq son Peyğəmbər həzrət Məhəmməd Mustafanın -səllallahu əleyhi və səlləm- onların arasından deyil, ərəblərin içindən çıxdığını görəndə onlarda şiddətli bir qısqanclıq yarandı. Onlar öncəki sözlərini dəyişdirərək Onun peyğəmbərliyini inkar etdilər. Uca Allah onlara belə buyurur:

**"Yadınıza gətirin ki, Biz bir zaman İsrail oğullarından: "Allahdan qeyrisinə ibadət etməyin, valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara ehsan** (yaxşılıq, kömək) **edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!",-deyə əhd-peyman aldıq. Sonra az bir qisminiz müstəsna olmaqla əhdinizdən döndünüz, çünki siz** (İsrail övladları haqdan) **üz döndərənsiniz".** (əl-Bəqərə, 83)

**"Allahın Öz qullarından istədiyi şəxsə lütf etməsinə** (peyğəmbərlik verməsinə) **həsəd aparmaq, Onun göndərdiyini** (Quranı) **inkar etməklə** (yəhudilərin) **vicdanlarını satmaları nə qədər də pisdir! Bununla onlar** (özlərinə qarşı) **Allahın qəzəbi üstünə bir qəzəb də artırdılar. Kafirləri zəliledici əzab gözləyir!".** (əl-Bəqərə, 90)

Yəhudilərin belə münasibət göstərmələrinin səbəbi onların dünya həyatına çox bağlı olmaları idi. Onların bu yönü də mübarək ayədə belə göstərilir:

İPƏKYOLU NƏŞRİYYATI

**"Sən onları** (yəhudiləri) **bütün insanlardan, hətta, müşriklərdən də daha artıq yaşamağa həris görərsən. Onlar hər biri istər ki, min il yaşasın, halbuki** (uzun ömür etmək) **onların heç birini axirət əzabından uzaqlaşdırmaz. Allah onların nə etdiklərini görəndir".** (əl-Bəqərə, 96)

Yəhudilər ticarət bazarını əllərində saxladıqlarından maddi gücləri də çox idi. Bu isə onları özündən çıxarırdı, onlar özlərini üstün bir millət hesab edərək belə deyirdilər:

**"… Biz Allahın oğulları və sevimliləriyik"**. (əl-Maidə, 18)

Onların etdikləri pisliklərə görə ilahi əzabın olacağı xatırladıldıqda isə belə cavab verirdilər:

**"…Cəhənnəm odu bizə bir neçə gündən artıq əzab verməz…!"** (əl-Bəqərə, 80)

Ancaq Cənab Haqq bunun belə olmayacağını bu mübarək ayədə bildirdi:

"Bəli, günah qazanan və qazandığı günahlarla əhatə olunduğu şəxslər cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar". (əl-Bəqərə, 81)

Mədinə yəhudiləri Rəsulullahla -səllallahu əleyhi və səlləm- müqavilə bağlasalar da, bilə-bilə Ona düşmənçilik edirdilər. Qəbilələr arasındakı ziddiyətləri körükləyərək fitnə-fəsad çıxarırdılar. Onların bu halını Cənab Haqq Rəsuluna və möminlərə belə bildirdi:

**"Ey iman gətirənlər! Özünüzdən başqasını özünüzə sirdaş** (dost) **tutmayın. Onlar sizin barənizdə fitnə-fəsad törətməkdən əl çəkməzlər, sizin** (zərərə və) **əziyyətə düşməyinizi istəyirlər. Həqiqətən, onların sizə qarşı olan ədavəti ağızlarından çıxan sözlərdən aşkar olur. Amma ürəklərində gizlətdikləri** (düşmənçilik) **isə daha böyükdür. Əgər düşünüb dərk edirsinizsə,** (onların sizə bəslədikləri ədavət barəsindəki) **ayələri artıq sizə izah etdik. Bəli, siz o kimsələrsiniz ki, onları sevirsiniz, onlar isə sizləri sevməzlər. Siz kitabın hamısına** (bütün ilahi kitablara) **inanırsınız. Onlar sizinlə görüşdükləri zaman: "Biz də inandıq",-deyir, xəlvətdə olduqda isə sizə qarşı qəzəblərindən barmaqlarını gəmirirlər.** (Ey Rəsulum!) **De: "Acığınızdan ölün!" Əlbəttə, Allah ürəklərdə olanları biləndir. Sizə bir mənfəət yetişəndə onlar qəmgin olur, bir zərər toxunanda isə ona sevinirlər. Əgər səbir edib özünüzü qorusanız** (Allahdan qorxsanız) **onların hiyləsi sizə heç**

**bir zərər yetirməz. Şübhəsiz, Allah onların nə etdiklərini biləndir".** (Ali-İmran, 118-120)

Mübarək ayələrdə bildirildiyinə görə, müsəlmanlara qarşı gizli bir kin, həsəd və nifrətlə dolu olan yəhudilər müsəlmanlar Bədir müharibəsində qələbə qazanarkən, həqiqətən, çox narahat oldular. Hətta, Bəni Qaynuka yəhudiləri bu məsələ ilə bağlı narahatlıqlarını açıq göstərərək müsəlmanlarla müharibə etmək qərarına gəldilər. Bağladıqları vətəndaşlıq müqaviləsinə əməl etmədilər.

Ən yaxın dostları münafiqlərin rəisi olan Abdullah bin Übey ilə birlikdə yəhudi bazarı müsəlmanlara qarşı hazırlanan hiylələrin fəsad qazanına çevrilmişdir. Onlar müsəlmanlar üçün yaxşı şeylər düşünmürdülər. Hətta, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- həyatına qəsd etməyi də planlaşdırırdılar.

Şər işlər törətməkdə mahir olan yəhudilər bir gün onların bazarında zinət əşyaları satan bir satıcı ilə alış-veriş edən müsəlman bir qadına sataşdılar. Əxlaqsız davranaraq ona həqarət etdilər. Qadın fəryad etdi. Oradan keçən və bu hadisənin şahidi olan bir müsəlman da qadını müdafiə etmək üçün satıcı yəhudinin üzərinə hücum etdi. Dava başladı. Müsəlman qalib gələrək, yəhudini öldürdü. Orada toplaşan yəhudilər də müsəlmanı şəhid etdilər. Ortalıq qarışdı. Bağlanılan vətəndaşlıq müqaviləsi tamamilə pozulmuşdu. Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- yəhudiləri topladı:

"Ey yəhudi topluluğu! Allahdan qorxun! Onun qureyşlilərə olduğu kimi sizin də başınıza bir fəlakət və müsibət endirməsindən çəkinin və müsəlman olun! Çünki siz mənim göndərilən bir Peyğəmbər olduğumu bilirsiniz. Bunu kitabınızda və Allahın sizə verdiyi əhdində görürsünüz",- buyurdu.

Beləliklə, Peyğəmbər -səllallahu əleyhi və səlləm- həm onlara etdikləri yanlış hərəkətin əvəzini ödəyəcəyini bildirdi, həm də sülhü pozmaq istəmədiklərini ifadə etdi. Daha sonra Peyğəmbər -səllallahu əleyhi və səlləm- müqavilənin yeniləşdirilməsini təklif etdi. Ancaq yəhudilərin cavabı şərəfsiz oldu:

"Ey Məhəmməd! Sən bizi savaşın nə olduğundan xəbəri olmayan qureyşlilər zənn etdinmi? Biz onlardan daha güclü döyüşçülərik. Bizimlə müharibə etməyə başlasan, müharibənin nə olduğunu anlayarsan!",-dedilər.

İPƏKYOLU NƏŞRİYYATI

Yəhudi qövmü bir vaxtlar Həzrət Musaya -əleyhissəlam-:

**"…Sən və Rəbbin gedib döyüşsün! Biz burada oturacağıq!"** (əl-Maidə, 24), deyərək ilahi qazanca yol açacaq bir cihadı rədd etmişdilər. İndi isə əksinə, onlara qarşı olan bir hərbi döyüşü həvəslə, cahilanə bir cəsarətlə istəyirdilər.

Beləliklə, müqaviləni pozduqları andan müsəlmanlara qarşı hərb elan etmiş sayılan yəhudilər bu hərəkətləri ilə də qərəzli niyyətlərini açıq göstərdilər. Belə bir vəziyyət qarşısında Allah Rəsulu -səllallahu əleyhi və səlləm- həzrət Əlini bayraqdar edərək Qaynuka yəhudilərinin üzərinə göndərdi. Yəhudilər qalalarına çəkildilər. Münafiqlərlə birlikdə müsəlmanlara qarşı bir çox hiylə planlaşdırdıqlarına baxmayaraq, nə qaladan çıxa bildilər, nə də bir ox ata bildilər. Çünki Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir yandan onları sıx muhasirəyə aldı, başqa yöndən də münafiqlərin ehtimal olunan üsyanlarına qarşı zəruri olan tədbirləri həyata keçirdi.

Yəhudilərin öz qalalarına çəkilmələrini baş münafiq Abdullah bin Übey söyləmiş və özünün də onlarla birlikdə olacağını bildirmişdi. Ancaq münafiqlərin başçısı bu sözünü yerinə yetirmədi və onları tək qoydu.

Mühasirə on beş gün davam etdi. Nəhayət, heç bir müqavimət göstərə bilməyən yəhudilərin qəlbinə müdhiş bir qorxu düşdü. Gözlədikləri yardım da gəlmədi. Artıq aman diləməkdən başqa çıxış yolları qalmadı. Rəsulullahın -səllallahu əleyhi və səlləm- verəcəyi cəzaya boyun əydilər.

Qaynukalılar öncədən Həzrəc qəbiləsi ilə razılaşdıqlarından münafiqlərin başçısı həzrəcli Abdullah bin Übey onların bağışlanmasını tələb etdi. Çünki adətə görə onlar öldürülməli idi.

Ancaq israrlı əfv tələbindən sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- onları öldürmədi. Cəza olaraq Suriya tərəflərinə sürgün etdi. Vadil-Kuraya çatanda orada bir ay oturdular. Vadil-Kura yəhudiləri onların piyada olanlarına minik, özlərinə də yemək verdilər. Sonra yollarına davam edən qaynukalılar çatdıqları yerdə çox az yaşadılar.

İPƏKYOLU NƏŞRİYYATI

# HİCRƏTİN ÜÇÜNCÜ İLİ

## İbrət təcəllilləri ilə dolu bir hərb: Uhud müharibəsi

## (7 Şəvval 3/ 23 Mart 625 )

Uhud müharibəsi də Bədir savaşı kimi məkkəli müşriklərlə edilən dəhşətli bir döyüşdür. Hicrətin üçüncü ilinin Şəvval ayında baş vermişdir.

Məkkəli müşriklər Bədir məğlubiyyətindən sonra matəmə bürünmüşdülər. Hər kəs bir yaxın adamını itirmişdi, onun intiqamını almağın qəzəbi ilə dolu idi. Qureyşin yeni başçısı Əbu Süfyanın xanımı Hind də bunların öndə gələnlərindən biri idi. Nəticədə, aradan çox vaxt keçmədən ürəkləri intiqam atəşləri ilə alovlanmış üç min nəfərlik bir müşrik ordusu hazırlandı. Ordunu təchiz etmək üçün Əbu Süfyanın Bədir müharibəsində xilas etdiyi karvanın mallarından istifadə olundu. Ətrafdakı ərəblərdən də yardım istənildi.

Bu vaxt Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- əmisi Abbas baş verənləri Mədinəyə xəbər verdi. Allah Rəsulu da-səllallahu əleyhi və səlləm- tez bir hərb məclisi topladı. Mədinə içində qalıb müdafiə taktikası seçmək, yoxsa şəhərin kənarına çıxaraq hücum taktikasına üstünlük vermək məsələsi ilə bağlı məsləhətləşmələr aparıldı. Peyğəmbər -səllallahu əleyhi və səlləm- müdafiə döyüşünün tərəfdarı idi.

Ancaq Bədir müharibəsində iştirak etməmiş olan gənclərin və həzrət Həmzə kimi igidlərin çoxu şəhərin kənarına çıxaraq hücum taktikasına üstünlük verilməsini istəyirdilər. Nəticədə, hücum taktikası seçildi. Hətta, onların bir qismi: "Biz belə bir günü səbirsizliklə gözləyirdik!", -dedilər.

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- mübarək hücrəsinə girərək zirehini geyindi. Ancaq bu zaman müdafiə taktikasının tərəfdarı olanlar başqalarını yola gətirmişdilər. Sad bin Muaz ilə Üseyd bin Hudayr: "Mədinədən çıxmaq istəmədiyi halda siz Allah Rəsuluna qarşı israr edirsiniz. Halbuki, Ona əmr səmadan enər. Siz bu işi Onun öhdəsinə buraxın. Onun əmr etdiyi şeyi edin!",-dedilər. (Vaqidi, I, 213-214)

Onlar da tez Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına qaçdılar:

İPƏKYOLU NƏŞRİYYATI

"- Ey Rəsulullah! Biz sizin rəyinizə qarşı çıxa bilmərik. Biz səhv etdik. Siz necə arzu edirsinizsə, o cür hərəkət edin!,-dedilər.

Allah Rəsulunun cavabı kəskin oldu:

- Bir Peyğəmbər zirehini geyindikdən sonra döyüşmədən onu çıxarmaz! Mən sizə nə deyirəmsə, onu edin! Tez olun, Allahın adı ilə gedin! Əgər səbir etsəniz və vəzifələrinizi yerinə yetirsəniz, uca Allah zəfəri yenə sizə ehsan buyuracaq!". (Vaqidi, I, 214; İbni-Sad, II, 38)

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- cümə namazını qıldırdı, Mədinədə Abdullah bin Ümmi-Məktumu vəkil təyin etdi və min nəfərlik ordu ilə yola çıxdı. Ancaq yolda münafiqlərin başçısı Abdullah bin Übeyin üç yüz nəfərlik tərəfdarı geri qayıtdı. Nəticədə, İslam ordusundakı əsgərlərin sayı yeddi yüzə düşdü. Cənab Haqq bu hadisə ilə bağlı aşağıdakı mübarək ayəni nazil etdi:

**"**(Uhud müharibəsində) **iki ordunun qarşılaşdığı gündə başınıza gələn fəlakət də Allahın izni ilə oldu ki, möminləri ayırd etsin. Və münafiqləri onlardan fərqləndirsin. Onlara: "Gəlin, Allah yolunda vuruşun, ya da müdafiədə olun!"** (Düşmənin hücumunu dəf edin!)**, deyildi. Onlar: "Əgər biz vuruşa bilsəydik, sizin ardınızca gələrdik",-deyə cavab verdilər. Onlar o gün imandan çox küfrə yaxınlaşmışdılar. Ürəklərində olmayan şeyi dilləri ilə deyirdilər. Halbuki, Allah onların** (bütün) **gizlətdiklərini çox yaxşı bilir!".** (Ali-İmran, 166-167)

**"**(Ey Rəsulum!) **Sən müharibədən ötrü möminlərə** (əlverişli) **mövqelər hazırlamaq üçün sübh vaxtı öz ailəndən ayrılıb** (Mədinədən Uhuda) **getdiyin vaxtı** (yadına sal)**! Şübhəsiz, Allah** (hər şeyi) **eşidəndir, biləndir!** (O müharibədə) **sizin içərinizdən** (Sələmə və Harisə oğullarından ibarət) **iki dəstə məğlubiyyətdən** (uğursuzluqdan) **qorxaraq geri çəkilmək fikrinə düşmüşdü. Halbuki, Allah onların yardımçısı idi. Gərək möminlər** (hər işdə) **Allaha təvəkkül etsinlər!".** (Ali-İmran, 121-122)

Münafiqlərin ordudan ayrılması bir növ ilahi lütf oldu. Çünki onların bu davranışı ilə ordu zəifləməmiş, əksinə, ordu ikiüzlü və qorxaqlardan təmizlənmiş, bu yolla da mənəvi baxımdan daha da güclənmiş və canlanmışdı. Çünki onların savaş zamanı xəyanətləri daha təhlükəli ola bilər, möminlərin mənəviyyatını sarsıdardı.

*****

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ordusunun arxasını Uhud dağına çevirdi. Ayneyn təpəsinə də düşmənin burada olan vadidən hücum etmək ehtimalına qarşı əlli oxatan yerləşdirdi. Abdullah bin Cübeyri onların başçısı təyin edərək bu təlimatı verdi: "Siz bizi arxadan qoruyacaqsınız. Düşmən qalib gəlsin, ya da məğlub olsun, məndən xəbər gəlməyincə yerinizdən ayrılmayacaqsınız!" (İbni-Hişam, III, 10; Əhməd, I, 288)

Döyüş adəti üzrə yenə mübarizə ilə başladı. Allahın aslanı həzrət Əli müşriklərin bayraqdarı Talhanı bir zərbə ilə yerə sərdi. Qureyş bayrağını götürən Talhanın qardaşı Osmanı da həzrət Həmzə, üçüncü bayraqdarı isə Sad bin Əbi Vaqqas öldürdü.

Nəhayət, bütün şiddəti ilə döyüş başladı. Döyüş qızışanda Allah Rəsulu -səllallahu əleyhi və səlləm- üzərində: "Qorxaqlıqda ar və zillət, irəli atılmaqda şərəf və izzət var!",-sözləri yazılmış qılıncı göstərərək:

"-Bunu məndən kim alar?,-deyə soruşdu.

Səhabələr:

- Mən, mən!,-deyərək qılıncı almaq üçün əllərini uzatdılar.

Peyğəmbərimiz -əleyhissəlatü vəssəlam-:

- Bu qılıncı onun haqqını verməklə kim alar?,-deyə soruşdu.

Bu sözdən sonra qılıncı almaqdan çəkindilər. Ənsardan Əbu Dücanə -radiyallahu anh- ayağa qalxıb:

- Onun haqqı nədir, ey Allahın Rəsulu?,-deyə soruşdu.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-:

- Onun haqqı əyilib bükülüncəyədək düşmənlə vuruşmaqdır…,- buyurdu.

Əbu Dücanə:

- Mən onun haqqını verməklə alaram, ey Rəsulullah!,-dedi.

Əbu Dücanə qılıncı aldı, qırmızı sarığını çıxarıb başına sarıdı və İslam ordusunun sırası ilə müşriklərin sırası arasında qürurla, əzəmətlə yeriməyə başladı. Peyğəmbərimiz onun qürurlu və təkəbbürlü bir şəkildə yeridiyini görəndə:

İPƏKYOLU NƏŞRİYYATI

- Bu elə bir yerişdir ki, Allah ona belə hallar istisna olmaqla hər zaman nifrət edər!",-buyurdu. (İbni-Hişam, III, 11-12; Vaqidi, I, 259; Müslüm, "Fədailüs-Səhabə", 128)

Uhudda bir-birindən ibrətli səhnələr oldu.

Kuzman adlı bir mədinəli döyüşdə yeddi nəfəri öldürmüş, özü də ağır bir yara alaraq dünyasını dəyişmişdi. Buna baxmayaraq, Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

"- Kuzman cəhənnəmlikdir!,-buyurdu.

Çünki o, son nəfəsində özünə:

- Şəhidliyin mübarək olsun, ey Kuzman!,-deyən Katadə bin Numana:

- Mən qəbiləm üçün döyüşdüm, şəhidlik üçün deyil!",-demiş və qılıncı ilə intihar etmişdi. (Vaqidi, I, 263)

Bunun əksinə qəbiləsinin İslama girməsinə öncə etiraz edən, sonra da peşman olan Usayram təpədən dırnağadək silahlanaraq Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yanına gəldi və:

"- Ey Rəsulullah! Sizinlə birlikdə öncə döyüşə qatılım, yoxsa müsəlman olum?,-dedi.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-:

- Öncə müsəlman ol, sonra döyüş!,-buyurdu.

Bundan sonra Usayram müsəlman oldu, döyüşdü və şəhid oldu.

Rəsulullah -səllallahu əleyhi və səlləm-:

- *Az çalışdı, ancaq çox qazandı!*",-buyurdu. (Buxari, "Cihad", 13; Müslüm, "İmarə", 144)

Yaralıların arasında yatarkən ona maraqla baxanlara son nəfəsində: "Mən müsəlman olmaq üçün gəldim. Allah və Rəsulu uğrunda çarpışdım və yaralandım!",-deyirdi.

Müsəlmanların görünməmiş bir şövqlə düşmənin üzərinə atılması qısa zamanda zəfərlə nəticələndi. Sayı və təchizatı baxımından üstün olan düşmən qaçmağa başladı. Ancaq müsəlmanlar bir müddət düşməni təqib etdikdən sonra zəfərlərindən tam əmin olub, qənimət toplamağa başladılar. Hətta, Allah Rəsulunun təlimatını xatırladan komandirlərin israr etməsinə baxmayaraq, oxatanlar da yerlərini tərk edərək qənimət

İPƏKYOLU NƏŞRİYYATI

toplamağa başladılar. Təpədə yalnız oxatanların başçısı Abdullah ilə yeddi dostu qalmışdı.

Nə oldusa, məhz bundan sonra oldu. Düşmənin ayıq komandirlərindən Xalid bin Vəlid atlı birliyi ilə gözlədiyi fürsəti ələ keçirmişdi. Əmrindəki atlılarla tez oxatanların olduğu təpənin arxasından dolanaraq Abdullahı və başqa oxatanları qısa zamanda şəhid etdilər. Qənimət toplayan müsəlmanların arxasından hücuma keçdilər. Çaşqın halda qaçmaqda olan düşmən əsgərləri bu vəziyyəti gördülər, tez geri dönərək müsəlmanların üzərinə yenidən hücuma keçdilər. İslam ordusu iki od arasında qaldı. Aralarında qarışıqlıq yarandı.

**Şəhidlərin başçısı Həzrət Həmzə**

Bu zaman sıralar arasında o tərəfə, bu tərəfə hərəkət edərək döyüşən İslamın igid cəngavəri həzrət Həmzə -radiyallahu anh-Vəhşinin atdığı bir oxla şəhid oldu. Hələ bir kölə olan Vəhşi bunu Hindin ona vəd etdiyi azadlığa qovuşmaq istəyi ilə etmişdi. Dəhşətli bir ehtirasla uzun zaman bu fürsəti gözləyən Hind Həmzənin -radiyallahu anh- qaraciyərini çıxarıb çeynədi. Buna görə də, ona "Akilətül-Əkbad", yəni "Ciyər yeyən" ləqəbi verildi.

Həzrət Həmzənin şəhid olması müsəlmanların arasında dalğa-dalğa bir matəm küləyi əsdirdi. Onsuz da bir-birinə qarışan sıralar tamamilə dağıldı. Uca Allah bu halı belə bəyan edir

**"**(Uhud müharibəsində) **siz onları Allahın izni ilə əzib-qırdığınız zaman Allah sizə verdiyi vədinə sadiq oldu. Ancaq O** (Allah) **sevdiyiniz şeyi** (zəfər və qəniməti) **sizə göstərəndən sonra isə zəiflik göstərdiniz və** (sizə verilmiş) **əmr barəsində bir-birinizlə mübahisə edərək** (Peyğəmbərə) **qarşı çıxdınız. İçərinizdən bəziləri dünyanı, bəziləri isə axirəti istəyirdi. Sonra Allah sizi sınamaq üçün geri döndərdi. Əlbəttə, O, sizi əfv etdi. Çünki Allah möminlərə qarşı lütfkardır!".** (Ali-İmran, 152)

Cənab Haqq bu mübarək ayədə oxatanlardan yerlərini tərk edənləri: "Bəziniz dünyanı arzu edirdi",-deyə xəbərdar edir, oranı tərk etməyib, şəhid olanları isə: "Bəziniz də axirəti arzulayırdı", buyuraraq öyür.

*****

İPƏKYOLU NƏŞRİYYATI

Katadə bin Numan -radiyallahu anh- da Allah Rəsulunu qorumaq üçün onun önündə dayanaraq yayının başı əyilənədək müşriklərə ox atdı. Sonda özü də bir oxla gözündən vuruldu. Göz bəbəyi yanaqlarının üzərinə töküldü. Katadəni belə görəndə Allah Rəsulunun gözləri yaşardı. Peyğəmbərimiz-səllallahu əleyhi və səlləm- Katadənin göz bəbəyini əlinə aldı və yerinə qoydu. Bundan sonra o göz o biri gözdən daha gözəl oldu və daha iti görməyə başladı.

Xanım səhabələrdən Ümmü Umarə -radiyallahu anha- da Uhud döyüşündə iştirak edərək oxu və yayı ilə düşmənlə çarpışanlardan biridir. Döyüşdən sonra Mədinəyə qayıdan Allah Rəsulu:

"Döyüş zamanı sağıma və soluma döndükcə Ümmü Umarənin yanımda döyüşdüyünü görürdüm",-demişdir. (İbni-Hacər, "əl-İsabə", IV, 479)

Döyüşün qızışdığı anda Allah Rəsuluna qarşı edilən hücumların birində Sad bin Əbi Vaqqasın müşrik qardaşı Utbə Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm- bir daş atdı. Atılan daşla yerləri və göyləri titrədən bir hadisə baş verdi. Rəsulullahın -səllallahu əleyhi və səlləm- zirehindən iki halqa mübarək üzünə batdı və yanağını yararaq bir dişini qırdı.

Bu vəziyyət əshaba çox pis təsir etdi və Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm-:

"- Qureyş müşriklərinə niyə bəd dua etmirsiniz?!,-dedilər.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- isə:

- *Mən lənət edən bir Peyğəmbər olaraq göndərilmədim. Əksinə, doğru yola dəvət edən və rəhmət Peyğəmbəri olaraq göndərildim. Allahım! Qövmümü doğru yola qovuşdur. Çünki onlar bilmirlər*",-deyərək dua etdi. (Buxari, "Məğazi", 24; Heysəmi, VI, 117; Vaqidi, I, 244-247; Kadı İyaz, I, 95)

Sad bin Əbu Vaqqas -radiyallahu anh-, Kainatın Fəxrinin -səllallahu əleyhi və səlləm- yanında müşriklərə durmadan ox yağdırır, Varlıq Nuru da:

"At, ey Sad! Atam və anam sənə fəda olsun!", -buyururdu.

Buna şahid olan Həzrət Əli -radiyallahu anh-demişdir:

" - Mən, Peyğəmbərin -səllallahu əleyhi və səlləm- Saddan başqa bir kimsə üçün: "Atam və anam sənə fəda olsun!", -dediyini eşitmədim. (Tirmizi, "Ədəb", 61, "Mənaqib", 26; Əhməd, I, 92)

Uhud müharibəsi belə hüzünlü səhnələrin olduğu bir döyüş idi. Döyüşün gedişi başlanğıcda möminlərin lehinə idi, ancaq sonra onlar əmrə itaətsizlik etdilər və döyüşün gedişi müşriklərin lehinə dəyişdi. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- ətrafında sadəcə on dörd nəfər qalmışdı. Peyğəmbər -səllallahu əleyhi və səlləm- özünü itirən bir sıra möminlərə:

*" Ey Allahın qulları! Mənim yanıma gəlin, mən Allahın Rəsuluyam!",*-deyə onları çağırmağa başladı. (Vaqidi, I, 237)

Bu hal Qurani-Kərimdə belə ifadə edilir:

**"Siz** (düşməndən qaçaraq dağa) **qalxdınız və Peyğəmbər arxa tərəfdən sizi çağırarkən heç kəsə baxmadığınız zaman Allah sizi qəminizin üstünə qəm gətirməklə** (məğlubiyyət, Peyğəmbərin qətl edilməsi barəsindəki yanlış xəbərdən doğan əndişə, onun əmrinə tabe olmamaq nəticəsində üz verən peşmançılıqla) **cəzalandırdı ki, əlinizdən çıxan şeylərə və uğradığınız fəlakətlərə təəssüf etməyəsiniz. Şübhəsiz, Allah gördüyünüz işlərdən xəbərdardır".** (Ali-İmran, 153)

Müsəlmanların bir qismi də Həzrət Peyğəmbərin şəhid edildiyini eşitmiş və onları sanki ildırım vurmuşdu. Belə ki: "Allah Rəsulu öldükdən sonra biz niyə burada durmalıyıq!",-deyib savaş meydanını tərk edirdilər. Bunlar, əslində, Mədinəni qorumaq üçün geri dönmüşdülər. Ancaq müsəlman qadınlar onları yenidən geri qaytarmışdılar.

Müsəlmanların bir qismi isə: "Allahın Rəsulu ölsə də, Allah əbədidir!",-deyərək döyüşməyə davam edirdilər. Bunlardan Enes bin Nadr -radiyallahu anh- (məşhur Enes bin Malikin əmisi) yas içində nə edəcəklərini bilməyən bir sıra möminlərdən Peyğəmbərin şəhid olduğu xəbərini eşidəndə böyük bir təslimiyyət və mətanətlə:

"Rəsulullah şəhid olduqdan sonra siz yaşayıb nə edəcəksiniz? Tez olun, siz də Onun kimi savaşaraq şəhid olun!",-deyərək hayqırdı və müşriklərin üzərinə hücum etdi. Bir müddət sonra da səksəndən çox yara alaraq şəhidlik şərbətini içdi. (Əhməd, III, 253; İbni-Hişam, III, 31)

Enes -radiyallahu anh- belə söyləyir:

"Əmim Enes bin Nadr -radiyallahu anh- Bədir döyüşündə iştirak etməmişdi. Bu ona çox ağır gəldi:

İPƏKYOLU NƏŞRİYYATI

"Ey Allahın Rəsulu! Müşriklərlə etdiyin ilk müharibədədə olmadım. Əgər uca Allah müşriklərlə ediləcək bir müharibədədə iştirak etməyi mənə qismət edərsə, nələr edəcəyimi, əlbəttə, görəcəkdir",-dedi.

O, Uhud müharibəsində iştirak etdi. Müsəlman ordusunun nizamı dağılanda dostlarını nəzərdə tutaraq: "Rəbbim! Bunların etdikləri hərəkətə görə Səndən üzr istəyirəm!", müşrikləri nəzərdə tutaraq isə: "Bunların etdikləri işlərdən də çox uzağam, ey Rəbb!",-deyib irəlilədi .

Döyüş möminlərə qarşı çevriləndə müharibə meydanından qaçanlar ilahi hikmətlə, ümumiyyətlə, şəhərin kənarına çıxaraq savaşmaq istəyənlər idi. Uca Allah onlara üz tutaraq buyurdu:

**"Siz** (Bədir vuruşunda) **ölümlə qarşılaşmadan əvvəl ölüm** (şəhid olmaq) **arzulayırdınız.** (Uhud vuruşunda isə) **artıq onu gördünüz və durub baxdınız".** (Ali-İmran, 143)

Ölümə hazır olduqlarını söyləyən, ancaq sonra Varlıq Nurunun ölməsi ilə bağlı dedi-qoduya inanaraq arxasına baxmadan qaçanlara yönələn ilahi xəbərdarlıq çox şiddətli oldu:

**"Məhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər O, ölsə, ya da öldürülsə, siz geri dönəcəksinizmi?** (Dinizdən dönəcək, ya da döyüşdən qaçacaqsınız?) **Halbuki, geri dönən kəs Allaha heç bir zərər yetirməz. Ancaq Allah şükür edənlərə mükafat verər".** (Ali-Imran, 144)

O dəhşətli gün bütün baş verənlərə baxmayaraq, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir qütb ulduzu kimi yerindən heç ayrılmayaraq peyğəmbərə layiq bir şücaətlə müqavimət göstərdi. O, cəsarəti, şücaəti, igidliyi ilə əshabına cəngavərlikdə də ülvi bir nümunə oldu. Çünki Cənab Haqq belə buyurmuşdur:

"(Uhud müharibəsində baş vermiş bəzi hadisələrə görə) **ruhdan düşməyin və qəmgin olmayın. Əgər möminsinizsə, siz (**Allah yanında inanmayanlardan) **çox yüksəkdə durursunuz! Əgər siz** (Uhud müharibəsində) **yara aldınızsa, o biri** (kafir) **dəstə də** (Bədir müharibəsində) **o cür yara aldı. Biz bu günləri** (bu hadisələri) **insanlar arasında növbə ilə dəyişdiririk…"** (Ali-İmran, 139-140)

Cənabı Haqqın Peyğəmbərinə və möminlərə olan mərhəməti, lütfü ilə Uhud günü bütün qarışıqlıqlara baxmayaraq, müşriklər hədəflərinə çatmadılar. Bu zaman seçilmiş əshab Rəsulullahı görərək yavaş-yavaş

İPƏKYOLU NƏŞRİYYATI

özünə gəldi. Müşriklərin hücumuna müqavimət göstərdi. Möminlər böyük bir səbatla Allah Rəsulunu qorudular. Məkkəli müşriklər yenidən itki verməyə başladılar. Buna görə də, itkilərinin sayının artmaması üçün bir az geri çəkildilər. Bu fürsəti dəyərləndirən Allah Rəsulu da -səllallahu əleyhi və səlləm-Uhud dağına çəkildi. Bu dəfə Əbu Süfyan dağın təpəsindən möminlərin üzərinə hücum etmək istəsə də, uğur qazanmadı.

Bu qorxulu anda uca Allah möminlərə bir yuxu lütf etdi. Onlar olduqları yerdə şirin və rahat bir yuxuya daldılar. Hətta, bəziləri əllərindəki qılınclarını bir neçə dəfə yerə saldı. Bu yuxu ancaq möminləri tutmuşdu. Müsəlmanların arasındakı münafiqlərin və şübhə edənlərin isə gözlərinə yuxu getmirdi. Onlar bu zaman əndişə içində düşünür, müşriklərin gəlib onları öldürməsindən qorxurdular.

Bu zaman Əbu Süfyan ilə Həzrət Ömər arasında qısa bir mübahisə oldu. Bundan sonra geri dönən Əbu Süfyan arzu etdiyi nəticəni əldə edə bilmədiyinə görə əsəbiliklə dedi:

"Gələn il Bədirdə görüşərik!"

Həzrət Ömər -radiyallahu anh- Peyğəmbərimizdən -səllallahu əleyhi və səlləm- bu sözə veriləcək cavabı eşitmək istədi. Varlıq Nuru:

" Olar! Ora, inşallah, görüş yerimiz olsun, de!",-buyurdu. (İbni-Hişam, III, 45; İbni-Sad, II, 59)

Əslində, müşriklərin içinə qorxu düşmüşdü. Ona görə də, geri qayıdırdılar. Belə ki, Rəsulullaha -səllallahu əleyhi və səlləm- verilən möcüzələrdən biri də düşmənin qəlbinə uzaq məsafələrdən belə qorxu salması idi. Cənab Haqq buyurur:

**"Haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə kafirlərin ürəklərinə qorxu salarıq. Onların yeri cəhənnəmdir. Zülm edənlərin sığınacağı yer nə pisdir!"** (Ali-İmran, 151)

Müşriklər ürəklərinə düşən bu qorxunun təsiri ilə əldə etdikləri müvəqqəti qələbəyə baxmayaraq, tamamilə müdafiəsiz qalan Mədinəni istila etməyə cəhd göstərmədilər. Bundan başqa onlar bir müsəlmanı belə əsir olaraq özləri ilə apara bilmədilər. Şübhəsiz, bu, Allahın Peyğəmbərinə və möminlərə olan lütfü idi.

**Uhud şəhidləri**

Müşriklər Uhudu tamamilə tərk etdikdən sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm-döyüş meydanına enərək şəhidləri dəfn etdi. Düz yetmiş şəhid verilmişdi. Bunların arasında həzrət Həmzə -radiyallahu anh- kimi cəngavərlər və Musab bin Umeyr -radiyallahu anh-kimi igidlər də var idi.

Müsəlmanların bayraqdarı olan Musab bin Umeyr -radiyallahu anh- Rəsulullahı -səllallahu əleyhi və səlləm- müdafiə edərkən şəhid olmuşdu. Bundan sonra bir mələk Musabın surətinə bürünərək bayrağı almış, Peyğəmbərimiz də hələ onun şəhid olmasından xəbərdar olmadığı üçün bayrağı aparana üz tutaraq: "İrəli get, ey Musab!",-buyurmuşdu.

Bundan sonra mələk dönüb Allah Rəsuluna baxmış, onun bir mələk olduğunu görən Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- Musabın şəhid olduğunu anlamışdır. Daha sonra Musabın mübarək cəsədi tapıldı, ancaq onu bükməyə bir kəfən yox idi. (İbni-Sad, III, 121-122)

Mübarək şəhidin üzərindəki paltarla baş tərəfi örtülsə, ayaqları, ayaqları örtülsə, baş tərəfi açıq qalırdı. Əshab nə etmək lazım olduğunu soruşmaq məqsədilə Allah Rəsuluna müraciət etdi. Rəsulullah -səllallahu əleyhi və səlləm- şəhidin baş hissəsinin paltarla örtülməsini, ayaqlarının da gözəl ətirli otlarla örtülməsini əmr etdi.

Halbuki, Musab -radiyallahu anh- Məkkənin ən seçilmiş və varlı ailələrindən birinin övladı idi. Bütün Məkkə gəncləri onun həyatına qibtə edirdi. Hətta, gənc qızlar onun keçdiyi yollara gül səpərdilər. O isə müşrik ailəsinin bütün təzyiqlərinə baxmayaraq, onların dünyəvi imkan və nemətlərini, hətta, mirasını bir tərəfə qoyaraq Allah Rəsulunun yanında olmağı üstün tutdu. Rəsulullaha -səllallahu əleyhi və səlləm- o qədər böyük bir sevgi ilə heyran oldu və bağlandı ki, şəhid olarakən bu fədakarlığına görə bir mələk onun surətinə girdi. Beləliklə, Musabın misilsiz fədakarlıqlarına gözəl bir ilahi lütflə qarşılıq verildi.

Bu qəmli mənzərə könüllərdə o qədər dərin izlər buraxmışdı ki, bir neçə il sonra müsəlmanların güclənib izzət qazandığı bir dönəmdə Allaha şükür edən və sərvətini Allahın rizasına görə xərcləyən zəngin Əbdürrəhman bin Avfın -radiyallahu anh-qarşısına oruclu olduğu bir gün oğlu tərəfindən bir neçə çeşid yemək qoyulmuşdu. O isə bundan təsirlənmiş və:

İPƏKYOLU NƏŞRİYYATI

**"Musab Uhud savaşında şəhid edildi. O, məndən daha fəzilətli idi. Ancaq kəfən üçün bir xirqədən başqa bir şey yox idi. Onunla da başı örtülsə, ayaqları, ayaqları örtülsə, başı açıq qalırdı. Sonra dünya nemətindən bizə hər şey lütf edildi. Doğrusu, xeyir işlərimizin qarşılığının dünyada verilməsindən qorxuram"**,-demişdi. Sonra Əbdürrəhman -radiyallahu anh- ağlamağa başladı və bir şey yeməyib süfrədən qalxdı. (Buxari, "Cənaiz", 27)

Uhud şəhidləri içərisində Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- və bütün möminlərin könlünü ən çox kədərə qərq edən isə İslam ordusunun misilsiz qəhrəmanı, Allahın aslanı Həzrət Həmzə -radiyallahu anh- oldu.

*****

Ali-İmran surəsinin altmış ayəsi Uhud müharibəsi ilə bağlıdır. Misvər bin Məhrəmdən Uhud müharibəsi ilə bağlı soruşulanda Əbdürrəhman bin Avf: "Ali-İmran surəsinin 120-ci ayəsindən sonrakı ayələri oxu. Bizimlə birgə Uhudda olmuş kimi olarsan!",-demişdir. (İbni-Hişam, III, 58; Vaqidi, I, 319)

Rəsulullahın -səllallahu əleyhi və səlləm- könlündə Uhudun ayrıca bir yeri var idi. Kainatın Fəxri -əleyhissəlatü vəssəlam- ömrü boyu Uhudu və Uhud şəhidlərini tez-tez ziyarət etmişdir. O, tez-tez: *"Biz Uhudu sevərik, Uhud da bizi sevər!"*,-buyururdu. (Buxari, "Cihad", 71; Müslüm, "Həcc", 504)

### Hamraul-Əsəd (8 Şəvval 3/ 24 Mart 625)

Müşriklər qəlblərinə qorxu düşərək Uhuddan ayrıldılar, onlar Məkkənin yolunu bağladılar. Allah-cəllə cəlalühü-onlara böyük bir qəflət vermişdi. Onların ağılları başlarına ancaq bu yolla gəldi. Yenidən geri qayıdıb, möminlərin üzərinə hücum etməyi düşündülər.

Bu vaxt Mədinəyə qayıtmış olan Allah Rəsulu da-səllallahu əleyhi və səlləm- düşmənə bir göz dağı verməyin zəruri olduğunu düşünürdü. Uca Allah bu məsələyə laqeyd yanaşmamağın zəruriliyini bildirən ayəni nazil etdi:

Kainatın Fəxri -səllallahu əleyhi və səlləm- əshabına: "Düşmənləri kim təqib etmək istəyər?",-deyə soruşdu.

İPƏKYOLU NƏŞRİYYATI

Tez həzrət Əbu Bəkir və Zübeyrin -radiyallahu anhüma- də iştirak etdiyi bir birlik hazırlandı. Düşməni təqib etmək üçün səfərə çıxanların demək olar ki, hamısı yaralı idi. Bu yaralı mücahidlər hazırlıqlarını tamamlayaraq Əbu İnəbə quyusunun yanında Rəsulullahın -səllallahu əleyhi və səlləm- sırasına qoşuldular.

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- də iştirak etdiyi bu birlik tez düşmənin arxasınca düşdü.

Bu fədakarlıqları göstərən möminlər ilahi iltifata nail oldular:

**"Yaralandıqdan sonra Allahın və Peyğəmbərin dəvətini qəbul etmiş kimsələrdən yaxşı işlər görüb, pis işlərdən çəkinənləri böyük bir mükafat gözləyir!".** (Ali-İmran, 172)

Birlik Mədinədən səkkiz kilometr uzaqlıqda olan və "Hamraul-Əsəd" adlı yerədək getdi. Elə bu səfərə də bu yerin adı verilmişdir. Bayraq Həzrət Əlidə -radiyallahu anh-idi. Gecə Allah Rəsulu-səllallahu əleyhi və səlləm-beş yüz fərqli yerdə ocaq yandırılmasını əmr etdi. Möhtəşəm bir mənzərə yarandı. Ətrafdan baxanlar orada son dərəcə böyük və əzəmətli bir ordu olduğunu düşünürdülər. Belə ki o zaman Məkkəyə gedən və hələ müsəlman olmamış Mabəd adlı bir şəxs müşrik ordusuna çatıb müsəlmanların onları təqib etdiklərini xəbər verdi. Onların çox olduğunu bildirmək üçün də: "Mən ömrümdə belə çoxsaylı bir ordu görməmişəm",-dedi.

Vəziyyəti öyrənən müşriklərin ürəyinə dəhşətli bir qorxu düşdü. Onlar: "Müsəlmanların qımıldayacaq halı qalmamışdı. Bu necə ola bilər?",-deyərək bir-birilərinə baxdılar. Sonra da səbəbini anlaya bilmədikləri bir duyğu ilə: "Tez olun, bir bəlaya düçar olmadan buradan çəkilib gedək!",-dedilər.

Onlar geri qayıdıb döyüşməyi ağıllarına belə gətirmədilər. Nəhayət, tez Məkkəyə doğru yollarını davam etdilər. Onların bu şəkildə çıxıb getməsindən sonra Allah Rəsulu da-səllallahu əleyhi və səlləm-əshabı ilə birlikdə yenidən Mədinəyə qayıtdı.

### Miras məsələsi

Bu zaman mirasın bölünməsi ilə bağlı mübarək ayələr endi (nazil oldu). Çünki Uhuddan sonra bu məsələ ilə bağlı bir sıra qarışıqlıqlar ortaya çıxmışdı. Uhudda şəhid olan Sad bin Rəbinin -radiyallahu anh- qardaşı

onun iki qızına heç bir şey vermədən bütün mirası özünə götürmüşdü. Bu isə bir cahiliyə dövrünün adəti idi. Cahiliyə dövründə qadın və qızlara dəyər verilmədiyinə görə, onların miras haqqı da yox idi. İslam bu haqsız praktikaya son qoydu:

**"Allah övladlarınız haqqında sizə tövsiyə buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür. Əgər** (ölən şəxsin) **qızlarının sayı ikidən çoxdursa, mirasın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir nəfər qızdırsa, mirasın yarısı onundur. Övladı olduğu təqdirdə vəfat edənin ata və anasının hər birinə altıda bir hissəsi verilir. Əgər onun övladı olmayıb, varisi yalnız ata və anadan ibarətdirsə,** (malın) **üçdə bir hissəsi anaya aiddir.** (Qalan hissə tamamilə ataya çatır)**. Əgər ölmüş şəxsin qardaşları və bacıları varsa, ananın hissəsi altıda birdir.** (Yerdə qalan hissə yenə atanın payına düşür)**. Bu bölgü ölən şəxsin vəsiyyəti yerinə yetirildikdən, ya da borcu ödəndikdən sonra aparılır. Valideynlərinizdən və övladlarınızdan hansı birinin** (xeyir və) **mənfəət cəhətdən sizə daha yaxın olduğunu bilmədiyiniz üçün** (bu bölgü) **Allah tərəfindən müəyyən edilmişdir. Həqiqətən, Allah** (hər şeyi) **biləndir, hikmət sahibidir!"**. (ən-Nisa, 11)

Beləliklə, İslamda ilk miras bölgüsü Sad bin Rəbinin -radiyallahu anh-vərəsəsi arasında aparılmış oldu.

İslam miras hüququnda paylar ilə mükəlləfiyyətlər arasında ədalətli bir tarazlıq var. Xərci çox olan kişiyə qadına münasibətdə daha çox pay verilmişdir. Çünki evlənərkən mehr verib toy xərclərini öz üzərinə götürməklə birgə ailəni saxlamaqla bağlı bütün maddi xərclərin hamısı ailənin başçısı olan kişiyə aiddir.

Yəni İslam miras hüququndakı qadın-kişi fərqi məsuliyyət və cavabdehlik fərqinə bağlıdır. Bu ikisi arasında bir tarazlıq qurulmuşdur. Qadın nəsli qorumaq, bunun üçün övlad yetişdirmək və ailə nizamını təmin etmək kimi ağır vəzifələri üzərinə götürdüyünə görə ailənin yaşayışının təmin edilməsinə cavabdeh deyil. Buna görə də, onun miras payı yarıya endirilmişdir. Bu hissə də bir sıra qadınların evlənməməsi, boşanma məcburiyyətində qalması, ya da bir sıra şəxsi ehtiyacları düşünülərək verilmişdir.

Xanımlara bununla birgə duyğu dərinliyi, incəlik, şəfqət, mərhəmət, həya, fədakarlıq, uşağa baxmaq və nəslin qorunması kimi xüsusiyyətlər ehsan edilmişdir. Onların varlığı incə, hissləri çox güclü, mərhəmət duyğuları

İPƏKYOLU NƏŞRİYYATI

yüksək olduğundan həyatın ayrı-ayrı səhifələrində bir sıra gözlənilməz hadisələrlə qarşılaşdıqlarında bəzən bədəni və ruhi zəifliklərə məruz qalırlar. Buna görə də, İslamda qadının şahidliyi yarımdır. Bunu bəhanə edərək İslama hücum edənlər İslamın fitri və dəyişməz olan xüsusiyyətləri nəzərə almasından doğan bu qaydasındakı mükəmməlliyi ya qərəzli olduqlarından, ya da cahilliklərindən danırlar.

Gerçək budur ki, Cənab Haqq hər varlığı və o varlığın hər bir hissəsini bir məqsəd üçün yaratmış, onlara yaradılış qayələrini gerçəkləşdirməyə imkan verən bir sıra fiziki və ruhi özəlliklər lütf etmişdir. Uca Allahın bölgüsünə görə, kişi həyat mübarizəsi aparmalı və ailəsinin yaşayışını təmin etməlidir. Cənab Haqq kişinin bu vəzifəni ləyaqətlə yerinə yetirə bilməsi üçün onu fiziki baxımdan daha güclü, ruhən də daha mətin etmişdir. Qadın isə nəsli qorumağa, övlad yetişdirməyə və ona ən zəif, aciz zamanında qayğı göstərməyə, himayə etməyə borcludur. Buna görə də, onun vəzifəsi bədəninin deyil, ruhunun daha dərin duyğu və həssaslıqla təmin edilməsini zəruri etmişdir. Uşağın ilk acizlik dövründə onu dərin bir mərhəmət və məhəbbətlə qucaqlayıb böyütmək üçün qadına ilahi bir nemət olaraq həddən artıq duyğu və həssaslıq verilmişdir.

Bu duyğulu varlığı ilə bir mərhəmət qaynağı olan anaya yaradılış məqsədindən və gücündən kənar bir vəzifə yüklənərsə, mənfi bir nəticə ortaya çıxar. Başqa sözlə, bir qadının günahkara acıyıb, mərhəmət edərək ədaləti pozmaq ehtimalı yüksəkdir. Bu da onun şahidliyinin yarım olması ilə bağlı müəyyən edilən ilahi hökmün hikmətlərindən biridir.

Qadınlar Allahın verdiyi gözəl qabiliyyətlərini qoruyaraq kamilləşə bilərlər. Əgər qadın xüsusiyyətlərini ilahi təyinata zidd olan bir istiqamətə yönəldər, öz varlığının həqiqəti ilə vidalaşarsa, qiymətini məhv edər, narahat və bədbəxt olar. O, ailə ocağını söndürər. Beləliklə, cəmiyyətin həyatı pozular.

Müasir dövrümüzdə qadınlarla kişilər arasında süni və haqsız bir bərabərlik yarışı var. Qadının yaradılış xüsusiyyətlərinə zidd olan bu yarış xanımlıq və analıq məziyyətlərini zəiflədir və ailəni yaralayır. Buna görə də, yaşadığımız dövrdə tez-tez baş verən uşaq saldırma hadisəsi (abort) cahiliyə dövründəki qız uşaqlarını diri-diri basdırmağın müasirləşmiş bir şəkli olub əsrin cinayətidir. Bu əsrin yorğun və tükənmiş qadını ilə cahiliyə dövrünün qadını arasında ancaq bir paltar fərqi qalmışdır. Bu isə ruhsuz materialist təlimin ortaya çıxartdığı bir toplum fəlakətidir.

İPƏKYOLU NƏŞRİYYATI

## HİCRƏTİN DÖRDÜNCÜ İLİ

**Rəci hadisəsi (Səfər 4/ İyul 625)**

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- İslamı təbliğ etmək və öyrətmək məqsədilə ətrafındakı qəbilələrə müəllimlər göndərirdi. Ancaq göndərdiyi bəzi müəllimlər xəyanətlə üzləşmişdi. Bu xəyanətlərin ən böyüklərindən biri "Rəci hadisəsi"dir.

Mədinə yaxınlığındakı Adal və Karə Allah Rəsulundan -səllallahu əleyhi və səlləm- onlara İslamı öyrədəcək müəllimlər istədi. Rəsulullah da-səllallahu əleyhi və səlləm-Asim bin Sabitin başçılığı ilə on nəfərlik bir heyət göndərdi.

Karvan Usfan ilə Məkkə arasında olan və Hüdat deyilən yerə çatdı. Hüzeyl qəbiləsi bölgəsindəki Rəci deyilən suyun ətrafında yerləşdilər.

Bu on səhabədən sadəcə iki nəfər sağ qaldı: Hubeyb və Zeyd -radiyallahu anhüma-. Müşriklər onları aparıb Məkkədə satdılar. Hubeybi Bədir müharibəsində öldürdüyü Haris bin Amirin oğulları satın aldı. Hubeyb onu öldürməyə qərar verdikləri günədək onların əlində əsir oldu.

Hubeyb onlara:

"- İcazə verin, iki rükət namaz qılım,-dedi.

İcazə verdilər, Hubeyb iki rükət namaz qıldı və sonra:

- Allaha and içirəm ki, ölümdən qorxduğumu güman etməyəcəyinizi bilsəm, bu namazı daha çox qılardım",-dedi.

Beləliklə, Hubeyb edam ediləcək hər müsəlmanın iki rükət namaz qılması adətinin əsasını qoyan şəxs oldu. Sonra o: "Allahım! Bunların hər birini tək-tək məhv et, bir-bir canlarını al, heç birini sağ qoyma!",-deyə dua edib bu beytləri oxudu: "Müsəlman olaraq öldükdən sonra necə öldüyümü əsla dərd etmərəm. Bunların hamısı, əlbəttə, Allah uğrundadır. O istəsə, parçalanmış bədənimlə haqqın rizasına qovuşmağım çox asandır!".

Hubeyb -radiyallahu anh- daha sonra uca Allaha belə dua etdi:

"İlahi! Burada düşmən üzündən başqa bir üz görə bilmirəm! Rəsuluna elçi olaraq göndəriləcək bir kimsə də yoxdur! Ona salamımı Sən çatdır!".

İPƏKYOLU NƏŞRİYYATI

Bu zaman əshabı ilə Mədinədə oturan Allah Rəsulunun -səllallahu əleyhi və səlləm-: "Onun üzərinə də salam olsun!" buyurduğunu ətrafındakılar eşitdilər. Seçilmiş əshab heyrətlə:

"- Ey Rəsulullah! Kimin salamına cavab verdiniz?,-deyə soruşdu.

- Qardaşınız Hubeybin salamına. Cəbrail Hubeybin salamını gətirdi!",-buyurdu.

Beləliklə, Peyğəmbər -səllallahu əleyhi və səlləm- bu səhabələrin şəhid edildiklərini əshabına həmin vaxt bildirdi. (Buxari, "Cihad", 170; "Məğazi", 10, 28; Vaqidi, I, 354-363)

Öldürməmişdən öncə dar ağacına bağlanmış Hubeybdən soruşdular:

"-Həyatının xilas edilməsinin əvəzi olaraq sənin yerində Peyğəmbərinin olmasını istərdinmi?

Hubeyb bu suala heç düşünmədən, böyük bir cəsarətlə və vüqarla belə cavab verdi:

- Əsla! Nəinki Onun burada mənim yerimdə olmasını istəməyə, bu an Onun olduğu Mədineyi-Münəvvərədə mübarək ayaqlarına bir tikanın batmasına belə könlüm razı olmaz!

Bu cavaba heyrət edən Əbu Süfyan:

- Mən dünyada Məhəmməd qədər dostları tərəfindən sevilən başqa heç bir kimsə görmədim!",-deməkdən özünü saxlaya bilmədi. (Vaqidi, I, 363; İbni-Sad, II, 56)

*****

Hubeybdən -radiyallahu anh- sonra şəhid edilən Zeyd də -radiyallahu anh-eyni iman mətanəti göstərdi. O, gecələr təhəccüd namazı qılar, gündüzlər oruc tutardı. Heyvanlar bütlərin adına kəsildiyi üçün ət yeməklərini yeməzdi. Bunun əvəzinə süd içərdi. Südlə oruc tutar, südlə iftar edərdi. Şəhid etmək üçün Tənimə aparılanda Hubeyblə qarşılaşdı. Başlarına gələn müsibətlə bağlı bir-birinə səbir tövsiyə etdilər. Zeyd də-radiyallahu anh-iki rükət namaz qıldı. "Sənin yerində Məhəmmədin olmasını istərdinmi?",-sualına Hubeyb -radiyallahu anh- kimi cavab verdi. (Vaqidi, I, 361-362)

Ona müsəlmanlıqdan əl çəkəcəyi təqdirdə azad ediləcəyini söyləyən axmaq müşriklərə də: "Müsəlman olaraq ölmək, dinimdən dönərək yaşa-

maqdan min dəfə üstündür!",-cavabını verərək bir mömin vüqarı içərisində şəhidlik şərbətini zövqlə içdi.

Bu iman ləzzətini idrak edən Peyğəmbər aşiqlərindən Yunus Əmrə Həzrətləri Allah və Rəsulu uğrunda can verə bilmək şövqü ilə axirətdə şəfaətə haqq qazanmaq arzusunu misralarında belə dilə gətirmişdir:

Canım kurban olsun Senin yoluna,

Adı güzel, kendi güzel Muhammed!

Gel şefaat eylə kemter kuluna,

Adı güzel, kendi güzel Muhammed!..

**Biri-Maunə hadisəsi (Səfər 4/ İyul 625)**

Rəci hadisəsi ilə eyni günlərdə Nəcid bölgəsinin liderlərindən Əbu Bəra qəbiləsini maarifləndirmək məqsədi ilə Rəsulullaha -səllallahu əleyhi və səlləm- müraciət etdi. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- onun bu tələbini qəbul etmək istəmədi. Hətta, ona gətirilən hədiyyələri belə almadı: "Mən dostlarımla bağlı Nəcid əhlindən (onların xəyanətindən) qorxuram!...",-buyurdu.

Bundan sonra Əbu Bəra qəbiləsinin adından müsəlmanların təhlükəsizliyi ilə bağlı təminat verdi. Həzrət Peyğəmbər də-səllallahu əleyhi və səlləm- Əbu Bəranın adından Nəciddəki qəbilələri idarə edən bacısı oğlu Amirə ayrıca bir məktub yazdırdı. Sonra Suffə əshabından "Kurra" deyilən yetmiş nəfərlik bir müəllim hazırlayaraq Əbu Bəra ilə birlikdə göndərdi.

Müəllimlər karvanı Mədinədən dörd dayanacaq uzaqlıqda yerləşən Biri-Maunəyə çatanda qorxunc bir xəyanətlə qarşılaşdılar. Əbu Bəranın əmisi oğlu Amir böyük bir ordu ilə basqın etmiş, Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- məktubunu belə oxumamışdı. Əbu Bəranın qəbiləsi o, özü müsəlmanları himayə etdiyinə görə onlarla döyüşmək istəmədi.

Cəbrail –əleyhissəlam- Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- yanına gələrək İslam irşad birliyinin şəhid olaraq Rəbblərinə qovuşduqlarını, Rəbblərinin onlardan razı olduğunu və özlərini də razı saldığını xəbər verdi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu hadisələrdən çox kədərləndi və ağır iztirab duydu. Mübarək əllərini Allaha açaraq: *"Ey Allahım! Allaha və Rəsuluna üsyan etmiş olan Ril, Zəkvan və Usayyə* (qəbilələrinə) *lənət et!"*,- deyə bir ay ərzində sabah namazından sonra dua etdi. (Buxari, "Cihad", 9, 19, "Məğazi", 28; Müslüm, "Məsacid", 297)

Möminlər kədərli göz yaşı axıtdılar. Münafiqlər və yəhudilər isə böyük bir sevinc içində idilər. Uhuddan sonra baş verənlərdən çox məmnun qalmışdılar. Onlar Uhudda müsəlmanlara qarşı özlərini tam göstərə bilmədiklərinə görə içlərindəki kinləri üzə çıxmış və xain təbliğata başlamışdılar. Döyüşə gedərkən etdikləri xəyanət və saxtakarlığı böyük bir mərifət kimi göstərib, xeyli şəhid vermiş olan müsəlmanlara: "O ölənlər bizim sözümüzü dinləsəydilər, indi sağ olardılar",-deməyə başladılar.

Onların bu halına Qurani-Kərimin cavabı çox sərt və təhdid xarakterində oldu:

**"**(Mədinədə evlərində) **oturub** (müharibəyə getmiş) **qardaşları haqqında: "Əgər onlar sözümüzə qulaq assaydılar, öldürülməzdilər",-deyənlərə** (ey Rəsulum!) **söylə: "Əgər doğru deyirsinizsə, onda** (bacarıb) **ölümü özünüzdən uzaqlaşdırın!".** (Ali-İmran, 168)

**"Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. O** (lövhi-məhfuzda) **vaxtı müəyyən edilmiş bir yazıdır…"** (Ali-İmran, 145)

*****

Çünki Biri-Maunə şəhidlərinin demək olar ki, hamısı Suffə əshabından olub, Allah Rəsulunun mənəvi tərbiyəsi altında yetişmiş Quran və Sünnə müəllimləri idilər.

Rəci və Biri-Maunə hadisələri təbliğ və maarifləndirmə vəzifəsinin möminlər üçün nə qədər önəmli və həyati bir məsələ olduğunu göstərməkdədir. Rəsulullah -səllallahu əleyhi və səlləm- əshabının ən seçilmişlərini, bütün mümkün təhlükələri nəzərə alaraq İslam təbliğatçısı və müəllimi olaraq göndərmişdir. Bu önəmli vəzifə uğrunda şəhid olan mücahidləri Cənab Haqq öymüş, onlardan razı olduğunu və onların da Rəbblərindən razı olduqlarını bəyan etmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

**Bəni Nadirin xain planı**

Biri-Maunə hadisəsindən xilas olan Amr bin Ümeyyə Mədinəyə qayıdanda onlara basqın edən qəbiləyə mənsub iki şəxsi yatdığı yerdə hücum edib öldürdü. Halbuki, onlar Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- himayəsi altında idilər. Mədinə ziyarətindən dönürdülər. Bunun üçün qan bahası vermək lazım idi. Daha öncə bağlanmış olan müqaviləyə görə qan bahasının bir qisminin Bəni Nadir tərəfindən ödənilməsi zəruri olduğu üçün Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir qrup səhabə ilə onların yurduna getdi.

Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- belə az bir insanla onların yanına gəldiyini görən Bəni Nadir yəhudiləri bu vəziyyəti özləri üçün ələdüşməz bir fürsət sayaraq Allah Rəsuluna sui-qəsd etməyi planlaşdırdılar. Təzminatın onlara düşən hissəsini məmnuniyyətlə verəcəklərini ifadə edib, pulu hazırlayanadək Allah Rəsulunu -səllallahu əleyhi və səlləm- bir evin kölgəsində oturmaq üçün dəvət etdilər. Bu zaman Onu qonaq edəcəklərini də bildirərək, planlaşdırdıqlarını həyata keçirtmək üçün tez işə başladılar. Peyğəmbərin -səllallahu əleyhi və səlləm- üzərinə onun kölgəsində oturduğu evin damından bir-bir qaya parçası atıb, güya Onun mübarək canına qəsd edəcəkdilər. O qövm belə cinayətləri daha öncəki peyğəmbərlərdən bəzilərinə qarşı da törətdiklərindən bu məsələ ilə bağlı təcrübələri çox idi.

Bu zaman Rəsulullah -səllallahu əleyhi və səlləm- birdən oturduğu yerdən qalxaraq sürətlə oradan uzaqlaşdı. Çünki uca Allah vəziyyəti Rəsuluna bildirmişdi. Cənab Haqq Rəsulunu qorumaqla möminlərə lütf etdiyini belə xatırladır:

**"Ey iman gətirənlər! Allahın sizə olan lütfünü xatırlayın ki,** (bir dəfə) **bir tayfa** (Məkkə müşrikləri, ya da Bəni Sələb qəbiləsi) **sizə əl qaldırmaq** (hücum etmək) **niyyətində olduğu zaman Allah onlara maneçilik törətmişdi. Allahdan qorxun. Möminlər yalnız Allaha təvəkkül etsinlər!".** (əl-Maidə, 11)

Sui-qəsdin Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- qarşı yönəlməsinə baxmayaraq, mübarək ayədəki ifadənin: "sizə əl qaldırmaq" şəklində nazil olması Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- möminlərin canı, həyatı, hətta, onlardan da qiymətli olduğunu göstərir.

Bu sui-qəsd təşəbbüsü ilə bağlı Cənab Haqq belə buyurdu:

İPƏKYOLU NƏŞRİYYATI

"Əgər (əhd bağladığın) bir qövmün sənə xəyanət edə biləcəyindən qorxsan, (döyüşə başlamazdan əvvəl) onlarla olan əhdini pozduğunu açıq-aydın (mərdi-mərdanə) özlərinə elan et. Çünki Allah xainləri sevməz". (əl-Ənfal, 58)

**"Əgər onlar sülhə** (barışığa) **meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən, O** (Allah hamınızın sözlərini) **eşidəndir,** (niyyətinizi) **biləndir! Əgər onlar səni aldatmaq istəsələr,** (qorxma və bil ki, onların şərindən və məkrindən qorumağa) **sənə təkcə Allah kifayətdir.** (O Allah ki,) **səni Öz köməyi ilə və möminlərlə müdafiə edib möhkəmlətdi".** (əl-Ənfal, 61-62)

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Bəni Nadirə elçi göndərərək razılaşmanı yeniləşdirməyi təklif etdi, əks halda on gün ərzində Mədinədən çıxıb getmələri ilə bağlı onlara xəbər göndərdi. Ancaq münafiqlər bu zaman dinc durmayıb Mədinəni tərk etməyə hazırlaşan Bəni Nadirə əl altından bir başqa xəbər yolladılar. Böyük bir dəstə ilə yardım edəcəklərini, Mədinəni tərk etməmələrini söyləyərək onları qızışdırdılar. Bu gizli məktublaşmanı da Cənab Haqq Qurani-Kərimdə belə üzə çıxartdı:

"(Ey Peyğəmbər!) **Məgər kitab əhlindən kafir olan qardaşlarına: "Əgər** (siz öz yurdunuzdan) **çıxarılsanız, biz də sizinlə birlikdə mütləq** (yurdumuzdan) **çıxacaq, sizin əleyhinizə heç vaxt heç kəsə qoşulub tabe olmayacağıq. Əgər** (möminlər) **sizinlə vuruşsalar, şübhəsiz, sizə yardım edəcəyik!", deyən münafiqləri görmədinmi? Allah onların xalis yalançı olduqlarına şahiddir!"** (əl-Həşr, 11)

Münafiqlərin bu təhriklərinə arxayın olan yəhudilər özlərini təhlükəsiz hiss edərək Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- qarşı çıxdılar. Halbuki, münafiqlər vəd etdikləri yardımı göstərməyəcəkdilər. Bunu Cənab Haqq belə buyurdu:

**"And olsun ki, əgər onlar** (Bəni Nadir qəbiləsi) **yurdlarından çıxarılsalar,** (münafiqlər) **onlarla birlikdə** (öz yurdlarından) **çıxmazlar. Əgər** (möminlər) **onlarla vuruşsalar,** (münafiqlər) **onlara** (yəhudilərə) **kömək etməzlər. Yox, əgər** (münafiqlər) **onlara yardım etmiş olsalar,** (özləri məğlubiyyətə uğrayaraq) **arxa çevirib, qaçar, sonra da onlara** (Bəni Nadir qəbiləsinə) **heç bir kömək olunmaz!".** (əl-Həşr, 12)

Çünki münafiqlər fitnə və fəsadlarla arxalarından quyu qazsalar da, möminlərdən çox qorxurdular. Bu həqiqəti də Qurani-Kərim belə bildirir:

İPƏKYOLU NƏŞRİYYATI

**"**(Ey möminlər!) **Onların** (münafiqlərlə yəhudilərin) **ürəklərinə qorxu salan Allahdan çox sizsiniz. Bu isə onların** (Allahın əzəmət və heybətini) **anlamaz bir qövm olduqlarına görədir".** (əl-Həşr, 13)

Bəni Nadir yəhudilərinin həddi aşdıqlarını görən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- artıq edəcək başqa bir şey qalmadığından onların yurdunu mühasirəyə aldı. Başqa yəhudi qəbiləsi Bəni Kurayza da anlaşmanı pozaraq Bəni Nadir qəbiləsinin tərəfinə keçdi.

Təxminən iyirmi gün sonra Bəni Nadir qəbiləsi Rəsulullahın -səllallahu əleyhi və səlləm- mükəmməl döyüş taktikası və münafiqlər tərəfindən yardımların gəlməməsi nəticəsində təslim oldu. Allah Rəsulu Bəni Nadiri Mədinədən sürgün etdi. Bəni Kurayzanı isə yeni bir anlaşmanı qəbul etdikləri üçün yerlərində saxladı, onlara ehsan etdi.

Bəni Nadir yurdundan çıxmamışdan öncə yandırılmamış evlərini müsəlmanlara qoyub getməmək üçün öz əlləri ilə yandırdılar. Onların bir qismi Xeybərə, bir qismi də Şam tərəflərinə köçdü.

Uca Allah bu döyüşdə möminlərə olan yardımını bu mübarək ayə ilə bəyan edir:

**"Kitab əhlindən kafir olanları** (Mədinə ətrafında yaşayıb Məhəmmədin-əleyhissəlam-peyğəmbərliyini inkar edən Bəni Nadir qəbiləsini) **ilk dəfə** (bir yerə) **toplayıb öz yurdundan çıxardan** (Şama sürgün edən) **Odur.** (Ey möminlər!) **Siz onların** (öz yurdundan) **çıxacaqlarını güman etmirdiniz. Onlar isə qalalarının onları Allahdan** (Allahın əzabından) **qoruyacağını zənn edirdilər. Amma Allah** (Allahın əzabı) **onlara gözləmədikləri yerdən gəlib ürəklərinə qorxu saldı. Belə ki onlar evlərini həm öz əlləri, həm də möminlərin əlləri ilə uçurub dağıdırdılar. Ey bəsirət sahibləri! Bəni Nadir qəbiləsinin başına gələnlərdən) ibrət alın!".** (əl-Həşr, 2)

Bəni Nadirdən qalmış mallar silahdan istifadə edilmədən əldə olunduğu üçün ona "fey" adı verildi və bu mallarla bağlı silahdan istifadə edilərək qazanılan qənimətlərdən fərqli bir hökm verildi:

**"Allahın Öz peyğəmbərinə** (fəth olunmuş) **məmləkətlərin əhalisindən** (dinc yolla) **verdiyi qənimət Allaha, peyğəmbərə** (Məhəmmədə-əleyhissəlam-yaxın olan) **qohum-əqrəbaya, yetimlərə, yoxsullara və** (pulu qurtarıb yolda qalan) **müsafirə (yolçulara) məxsusdur… ".** (əl-Həşr, 7)

İpəkyolu Nəşriyyatı

Mübarək ayədə Allahın haqqı olaraq ayrılan "fey" Kəbə və başqa məscidlərin təmir edilməsi üçündür. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- isə özünə düşən "fey"i əshabın yoxsulları arasında paylamışdır. "Fey"in bu şəkildə bölünməsinin hikməti yuxarıdakı mübarək ayədə də açıqlandığı kimi sərvətin sadəcə müəyyən qrup adamların əlində toplanıb ancaq onların arasında dövr etməsinə mane olmaqdır. Çünki İslamın maliyyə işlərindəki prinsipi insanların bir-biri ilə yardımlaşmaları, əllərindəki nemətlərdən yoxsul və zəiflərin də istifadə etmələrinə imkan yaratmalarıdır. Beləliklə, fərqli qrupları bir-birinə yaxınlaşdıran ədalətli bir cəmiyyət qurulmuş olur və bu cəmiyyətdə başqasını istismar edən bir zümrə olmaz.

**İçki və qumarın qadağan edilməsi**

Bilindiyi kimi, içki və qumarla bağlı hökmlər İslamın ilk illərində verilməyib, ayrıca bir ilahi təqdir ilə sonraya saxlanılmışdı. İçkinin haram elan edilməsi bu mərhələlərdən sonra gerçəkləşdi:

1. Məkkədə:

**"Siz xurma ağaclarının meyvəsindən və üzümlərdən şərab** (ya da sirkə) **və gözəl ruzi** (kişmiş, mövüc, bəhməz, quru xurma və s.) **düzəldirsiniz. Şübhəsiz, bunda da ağılla düşünənlər üçün bir ibrət vardır"** (ən-Nəhl, 67), ayəsi nazil oldu. Bu ayədə xurma və üzümdən gözəl qidadan fərqli olaraq sərxoşluq verən bir maddə də əldə edildiyi bildirilmişdir. Beləliklə, sərxoşluq verən şeylərin gözəl və məqbul bir içki sayılmadığı hiss etdirilərək onun gələcəkdə yasaqlanacağına işarə edilmişdir. Məkkə dönəmində içki ilə bağlı başqa bir ayə nazil olmamışdır.

2. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- Mədinəyə hicrət etdikdən sonra insanların suallarına cavab olaraq uca Allah belə buyurdu:

**"**(Ey Rəsulum!) **Səndən içki və qumar** (meysir) **haqqında sual edənlərə söylə: "Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət** (dünya mənfəəti) **var. Ancaq günahları mənfəətlərindən daha böyükdür…!".** (əl-Bəqərə, 219)

Bu ayənin enməsindən sonra müsəlmanların çoxu içkini tərgitdi. Bir qismi isə içməyə davam etdi.

3. Seçilmiş əshabdan biri axşam namazını qıldırarkən bir ayəni mənası pozulacaq dərəcədə yanlış oxudu. Buna cavab olaraq aşağıdakı ayə nazil oldu:

**"Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər və cunub** (murdar) **olduğunuz zaman – yoldan keçən müsafirlər müstəsnadır-qüsl edənədək namaza** (namaz qılınan yerə) **yaxınlaşmayın…!"** (ən-Nisa, 43)

Bundan sonra müsəlmanlardan içki içənlərin sayı çox azaldı. Namaz qılınan zaman Allah Rəsulunun carçısı: "Sərxoş olanlar əsla namaza yaxınlaşmasın!",-deyərək səslənirdi. Müsəlmanlar artıq içkinin qəti bir şəkildə yasaqlanacağını anlamışdılar və onlar buna hazır idilər.

4. Artıq müsəlmanların böyük bir qismi içkini tərgitmişdi. Bəziləri isə içdiklərinə görə bir sıra xoş olmayan hallarla qarşılaşırdılar və bu hal onlara əzab verirdi. Həzrət Ömər -radiyallahu anh-: "Allahım! İçki ilə bağlı bizə qəti bir hökm ver!",-deyə dua edirdi.

Nəhayət, bir içki qonaqlığının sonunda dava düşdü. İçkinin pis olması açıqca ortaya çıxdı. Qadağanın içki ilə bağlı asanlıqla tətbiq edilməsi üçün əlverişli şərait yarandı. Bu vəziyyət ilahi qadağanın nazil olmasına yol açdı. Uca Allah:

**"Ey iman gətirənlər! Şərab da** (içki də)**, qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız! Şübhəsiz, şeytan içki və qumarla aranıza ədavət, kin salmaq və sizi Allahı zikr etməkdən, namaz qılmaqdan ayırmaq** (yayındırmaq) **istər. Artıq bu işə son qoyacaqsınızmı?"** (əl-Maidə, 90-91) ayələrini nazil etdi.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- Həzrət Öməri çağırıb ona bu ayələri oxudu: "Artıq bu işə son qoyacaqsınızmı?",-hissəsinə çatanda O:

" Əl çəkdik! Əl çəkdik, ey Rəbb!",-deyirdi.

Təkcə Həzrət Ömər -radiyallahu anh- deyil, bütün müsəlmanlar da: "Artıq içkidən, qumardan əl çəkdik, ey Rəbbimiz!",-deyirdilər.

Bu ayələr nazil olanda Rəsulullahın -səllallahu əleyhi və səlləm- əmri ilə carçı:

İpəkyolu Nəşriyyatı

"Xəbəriniz olsun ki, içki haram edilmişdir!",-deyərək səsləndi.

İçki tuluqları deşilib boşaldıldı, içki küpləri qırılıb töküldü. İçki Mədinə küçələrində sel kimi axdı!..

Bu qadağan ayəsindən sonra içki içən müsəlmanlar əllərindəki şərabların hamısından imtina etdilər. Bir daha içmədilər. Daha sonra Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurdu:

"Şübhəsiz, Allah içkiyə, onu hazırlayana, onun hazırlandığı yerə, içənə, içirdənə, daşıyana, satana, satın alana, əvəzini və qazancını yeyənə lənət etmişdir!". (Əhməd, I, 53; II, 351; Nəsai, "Əşribə", I-II; Hakim, II, 305/3101)

Bu hadisə seçilmiş əshabın uca Allahın əmrini canla-başla yerinə yetirdiyinin gözəl bir misalıdır. Onlar heç bir etiraz və bəhanə irəli sürmədən, gözləmədən tez əllərindəki içki küplərini, qablarını boşaltmışdılar. Bu ilahi əmrə böyük bir təslimiyyət göstərərək, könüldən itaət edərək uca Allahın rizasına can atmışlar.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- mübarək hədisində belə buyurur:

"Sərxoşluq verən hər şey haramdır. Çoxu sərxoşluq verən şeyin azı da haramdır". (İbni-Macə, "Əşribə", 10; Nəsai, "Əşribə", 24, 48)

"İçki hər pisliyin başıdır". (Əhməd, V, 238)

İçki və qumarın qadağan edilməsində məsləhətə uyğun olaraq tədricilik prinsipinə əməl edilmişdir. Bu metod İslamda maarifləndirmədə, pisliklərə qarşı mübarizədə əsaslı bir qaynaqdır. Uca Allah əzəli və külli bir elm sahibi olmasına baxmayaraq, İslam hökmlərini təlim və təsbit edərkən üz tutduğu insanların imkanlarını və bu ehkama uyğunlaşmaq meylini nəzərə almışdır. Bunun ən önəmli təzahürü etiqada aid ayələrin Qurani-Kərimin bugünkü tərtibinə zidd olaraq Məkkə dövründə və öncə nazil olmasıdır. Qurani-Kərim nazil olmağa başlamazdan öncə də "Lövhi-Məhfuz"da mövcud olduğuna görə, onun nazil edilməsindəki təqdim və sıra düzülüşünün məsləhətlə olduğu asanca bilinir.

Bu məsləhət bəşərin Qurana tabe olmaq məsələsindəki istedad və iqtidarını, bu yöndəki inkişafını təmin etməklə bağlıdır. Uşağa yüklənəcək vəzifələrin uşaq böyüdükcə artırıldığı kimi…

Ən mükəmməl surətdə səadət əsrində tətbiq edilmiş olan tədricilik

İPƏKYOLU NƏŞRİYYATI

prinsipi ilahi bir mərhəmət təzahürü olaraq Cənab Haqqın qoymuş olduğu son dərəcə hikmətli bir metoddur. Bu yol İslamı təbliğ etmək üçün hər zaman uğurlu bir metod olmaqla birgə, insan varlığının xüsusiyyətlərinə də ən uyğun olan bir üsuldur. Çünki İslama girmək üçün öncə inancları düzəltmək zəruridir. Bundan sonra əməllər gəlir. Əməlləri yerinə yetirmək məsələsində isə insanın gücü çatan bir tədriciliyə riayət olunur. Bu vəziyyət sadəcə İslamın təbliği üçün deyil, hər cür bəşəri təlqin və yönləndirmə üçün də məqbuldur. Buna görə də, Allahın Adəm –əleyhissəlam- ilə başlayan ilahi təbliğatında da inanc hökmləri dəyişməz qalmaqla birgə, sosial qaydalarda insan oğlunun inkişaf yolu təkamül prinsipi ilə baş vermiş və bu təkamül İslam dinində kamala çatmışdır. Bu keyfiyyət insanın xarakterini, gücünü nəzərə almağın nə qədər önəmli bir metod olduğunu göstərir.

### Zatü-r –Riqa (Məhərrəm 5/ İyun 626)

Qatafan qəbilələrindən Muxarib oğulları və Sələb oğullarının birləşərək müsəlmanlara qarşı müharibə etməyə hazırlaşmalarına cavab olaraq Allah Rəsulu -səllallahu əleyhi və səlləm- dörd yüz nəfərlik bir ordu ilə onların üzərinə hücum etdi.

Möminləri qarşılarında görən müşriklər qorxaraq geri çəkildilər. Bir müddət sonra möminlər vaxtı keçmiş olan günorta namazını qıldılar. Uzaqdan onları izləyən düşmən bu vəziyyətə heyflənərək namaz vaxtı hücum etmədiyinə görə peşman oldu. Onlardan biri: "Üzülməyin! Onların elə bir namazı var ki, onlar üçün bu namaz atalarından və övladlarından daha qiymətlidir. Bu, ikindi namazıdır!", -dedi. Gözləməyə başladılar.

Cənab Haqq bu vaxt Cəbraili –əleyhissəlam-göndərdi. Düşmənin planını boşa çıxaran bu ilahi əmr nazil oldu:

**"(Ey Rəsulum!) Sən (əsgərlərin) içərisində olub onlara namaz qıldırdığın zaman onlardan bir dəstə silahlarını (özləri ilə) götürsün. (Namazlarını qılıb) səcdə edən kimi sizin arxanıza (düşmənin önünə) keçsinlər. (Ya da onlar namaz qılanda başqa dəstə arxalarında olsun) sonra (namaz qılmamış) o biri dəstə öz ehtiyat vasitələrini və silahlarını götürərək gəlib səninlə birlikdə namaz qılsın! Kafirlər istərdilər ki, sizin silahlarınızdan və mallarınızdan heç bir xəbəriniz olmayaydı və onlar da sizin üzərinizə birdəfəlik (qəfil bir hücumla) basqın edəydilər…"** (ən-Nisa, 102), (Tirmizi, "Təfsir", 4/3035)

Bu şəkildə qılınan namaza "səlati-xovf" (qorxu namazı) deyildi. Bu namazın necə qılınacağını Cəbrail –əleyhissəlam- öyrətdi. O gün ikindi namazı belə qılındı. Onlara hücum etmək üçün fürsət gözləyən düşmənin planları boşa çıxdı. Səfər on beş gün davam etdi. Düşmən qorxub geri çəkildi və səfər başa çatdı.

Bu səfər zamanı Allah Rəsulu -səllallahu əleyhi və səlləm- dəstəmaz üçün su istəmişdi. Ancaq heç kimdə su yox idi. Bundan sonra Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- mübarək əllərini dibində çox az su olan bir qaba salması ilə barmaqlarından möcüzəli bulaqlar axdı. Bu su ilə bütün ordu susuzluğunu söndürdü. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əllərini sudan çıxaranda qab hələ də su ilə dolu idi.

**Bədri-Suğra (Kiçik Bədir) (Zilqədə 4/ Aprel 626)**

Uhud günü bağlanan anlaşmaya uyğun olaraq məkkəli müşriklərlə müsəlmanlar bir il sonra yenidən savaşacaqlardı. Bu razılaşmaya uyğun olaraq Əbu Süfyan ordusunun önündə Mərruz-Zahran adlanan yerədək gəldi, ancaq ürəyinə yenə bir qorxu düşdü. Geri dönmək məcburiyyətində qaldı. Ancaq qürurunu sındırmamaq üçün Mədinəyə bir adam yolladı. Onların böyük bir ordu ilə yola çıxdıqlarını mədinəlilərə çatdırıb, onun düşüncəsinə görə möminləri qorxudaraq döyüşə çıxmamalarını təmin etmək istəyirdi.

Xəbər Mədinəyə çatanda Allah Rəsulu -səllallahu əleyhi və səlləm- döyüş hazırlıqlarını çoxdan tamamlamış, yola çıxmaq üçün əmr vermişdi. Çapar Əbu Süfyanın qorxub geri döndüyünü bildiyindən müsəlmanları dərindən narahat edib savaşla qorxudaraq onların yola çıxmalarının qarşısını almaq üçün əlindən gələni edirdi. Ona deyilmiş yalanlara yeni yalanlar artırır, əgər müsəlmanlar məkkəlilərlə şəhərin kənarında döyüşərlərsə, aqibətlərinin çox pis olacağını söyləyirdi. Onun və münafiqlərin səyləri nəticəsində bəzi müsəlmanların qəlbinə qorxu düşdü və onlar səfərə çıxmaq istəmədilər. Bundan sonra Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurdu: "Varlığım qüdrət əlində olan Allaha and içirəm ki, yanımda heç kimsə olmasa belə, mən təkbaşıma Bədirə gedəcəyəm!". Bundan sonra uca Allah müsəlmanlara yardım etdi və onların qəlbləri rahat oldu. (İbni-Sad, II, 59; Vaqidi, I, 386-387)

İPƏKYOLU NƏŞRİYYATI

Nəhayət, İslam ordusu Bədirə çatdı. Ancaq düşməndən heç bir iz yox idi. Orada sadəcə bir bazar açılmışdı. Belə bir vəziyyətdə möminlərin ticarət etməkdən başqa görəcəkləri bir iş qalmadı. Rəsulullah -səllallahu əleyhi və səlləm- Bədirdə səkkiz gün Əbu Süfyan və ordusunun gəlməsini gözlədikdən sonra heç bir pis vəziyyətlə qarşılaşmadan əldə edilən ticarət qazancı ilə Mədinəyə qayıtdı.

Möminlərin bu cəsarət və şücaəti Qurani-Kərimdə belə öyülmüşdür:

**"O kəslər ki, xalq onlara: "Camaat** (Əbu Süfyan və tərəfdarları) **sizə qarşı** (qüvvə) **toplamışdır, onlardan qorxun!",-dedikdə** (bu söz) **onların imanını daha da artırdı və onlar: "Allah bizə bəs edər. O nə gözəl vəkildir!",-deyə cavab verdilər. Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və Allahın rizasını qazanmış oldular. Həqiqətən, Allah böyük mərhəmət sahibidir".** (Ali-İmran, 173-174)

Abdullah bin Abbasın -radiyallahu anh- rəvayət etdiyinə görə: "Allah bizə yetər, O nə gözəl vəkildir!",-sözünü İbrahim –əleyhissəlam-oda atılarkən demişdir. Peyğəmbərimiz də bu sözü: "Müşriklər sizə qarşı toplandılar. Başınıza çarə qılın!",-deyiləndə söyləmişdir. Bundan sonra müsəlmanların imanları artmış və hamısı bir yerdə: "Allah bizə yetər, O nə gözəl vəkildir!",-deyərək Allaha böyük bir təslimiyyət örnəyi göstərmişdilər.

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

# HİCRƏTİN BEŞİNCİ İLİ

## Övladlığa götürməyin ləğv edilməsi

Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- Peyğəmbərlik gəlməmişdən öncə mübarək xanımı Həzrət Xədicə tərəfindən hədiyyə edilən Zeyd Həzrət Peyğəmbərin onu azad etməsi ilə hürr oldu. Zeyd -radiyallahu anh- atasının yanına getməyərək yenə Rəsulullahın yanında qalmağa üstünlük verdi. Həzrət Peyğəmbər də onu övladlığa götürdü.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Zeydi çox sevdiyinə görə onu öncə azad cariyəsi Ümmü Eymən ilə, sonra da xalasının qızı Zeynəb binti Cahş ilə evləndirdi. Ancaq onların arasında uyğunluq tam olmadığına görə Həzrət Zeynəb, Zeyd -radiyallahu anh- ilə öncə evlənmək istəmədi. Ancaq Həzrət Peyğəmbərin arzusu və bu ayələrin hökmü ilə onunla evlənməyə razı oldu:

إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللّٰهِ أَتْقَاكُمْ

**"… Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır…"** (əl-Hücurat, 13)

Ancaq Zeynəbin könlü Zeydə isinməmiş, onların evliliyi bir müddət sonra pozulmaq təhlükəsi ilə üzləşmişdi. Zeyd də ondan şikayət edirdi. Hətta, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yanına gələrək vəziyyətini danışanda:

"Arvadının yanına get və Allahdan qorx!", -cavabını almışdı.

Həm də Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu zaman gələn ilahi vəhylə Allah tərəfindən Zeynəbin ona arvad olaraq veriləcəyini bilir, ancaq xalq içindəki münafiqlərin: "Məhəmməd övladlığının boşadığı qadınla evləndi!,-deyərək hay-küy qoparmalarından çəkindiyi üçün gözləyirdi. Çünki o dövrün adətinə görə bir şəxs başqasını övladlığa götürərdisə, insanlar övladlığa götürülmüş şəxsi onun adı ilə çağırır, ona öz oğlu kimi münasibət göstərilir və mirasdan pay verilirdi.

Nəhayət, Həzrət Zeyd ilə Zeynəb -radiyallahu anha- boşandılar. Bundan sonra yeni bir vəhy gəldi. İlahi fərman həm Allah Rəsulunun Həzrət Zeynəbi almasını əmr edir, həm də bu məsələ ilə bağlı ilk addımı

İPƏKYOLU NƏŞRİYYATI

şəxsən Həzrət Peyğəmbərin atmasını istəyərək bir cahiliyə adəti olan övladlığa götürmə məsələsini aradan qaldırırdı.

**"**(Ey Peyğəmbər!) **Xatırla ki, bir zaman Allahın** (İslam dininə yönəltməklə) **nemət verdiyi və sənin özünün** (köləlikdən azad etməklə) **nemət verdiyin şəxsə** (Zeyd ibn Harisəyə)**: "Zövcəni** (Zeynəb bint Cahşı) **saxla** (boşama), **Allahdan qorx!",-deyir. Allahın aşkar etdiyi şeyi** (Zeynəbin boşanacağı təqdirdə onu almağın haqqında sənə nazil olan vəhyi) **ürəyində gizli saxlayır və adamlardan** (onların Peyğəmbər oğulluğunun boşadığı arvadla evlənir,-deyəcəklərindən) **qorxdun. Halbuki, əslində, sənin qorxmağına daha çox layiq olan kimsə Allahdır. Zeyd zövcəsi ilə əlaqəsini kəsdikdə** (Zeynəbi boşadıqda) **səni onunla evləndirdik ki, oğulluqları arvadlarını boşadıqları zaman onlarla evlənməkdə möminlərə heç bir çətinlik** (günah) **olmasın!** (Bu işdən möminlərə heç bir günah gəlmədiyini bildirmək üçün belə bir arvadla birinci səni evləndirib bütün müsəlmanlara nümunə etdik)**. Allahın hökmü mütləq yerinə yetər!"** (əl-Əhzab, 37)

Bu ilahi əmrə görə, Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ilə evlənən həzrət Zeynəb anamız:

"Mənim nigahımı Allahım bağladı!...",-deyərək Cənab Allaha şükr edərdi. (Tirmizi, "Təfsir", 33/3213)

Ancaq bu hadisə münafiqlərin şiddətli dedi-qodusuna səbəb oldu. Cəhalət və nifaq dolu ağızları ilə Həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm-: "Oğlunun boşadığı qadını aldı!",-deyə qınayaraq bu işə qarşı çıxdılar. Bunun cavabını da Qurani-Kərim belə verdi:

**"Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyil.** (Oğul odur ki, kişinin öz belindən əmələ gələ!) **Ancaq o, Allahın Rəsulu** (elçisi) **və Peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir!".** (əl-Əhzab, 40)

Bir sözlə, bu hadisə ilə cahiliyə dövründən bəri tətbiq olunan övladlığa götürmək adəti ləğv edilmiş oldu.

Bugünkü münkir və münafiqlərin də: "Həzrət Peyğəmbər Zeynəbin gözəlliyinə vurulduğuna görə onunla evlənmişdir",-şəklindəki iddiaları tamamilə bir cəhalətdir. Çünki Zeynəb -radiyallahu anha- Allah Rəsulunun xalası qızı idi və Peyğəmbərimiz -əleyhissəlatü vəssəlam- onu öncədən də görürdü. Əgər Peyğəmbərin -səllallahu əleyhi və səlləm-belə bir arzusu olsaydı, Həzrət Zeynəbi Zeyddən əvvəl özü alardı. Həzrət Zeynəb də bunu məmnuniyyətlə qəbul edərdi.

Evlənməyi yalnız şəhvətlə bağlamağa alışmış düşüncəsizlər Peyğəmbərimizin evlənmələrinin həqiqətini qavraya bilmirlər. Zehinlərini və qəlblərini nəfsani təmayüllərlə dolduranların verəcəkləri haqsız və axmaq hökmlər öz qaranlıq dünyalarının əksindən ibarətdir. Çünki Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- evlilik həyatının gənclik mərhələsinə düşən ilk iyirmi dörd ili yalnız Həzrət Xədicə -radiyallahu anha- anamız ilə birgə keçmişdi. Ondan sonrakı evlilikləri isə tamamilə bir sıra islami, siyasi və ictimai məqsədlərlə bağlı idi. Bunların çoxu ondan yaşlı və dul qadınlar idi. Onlardan bakirə və gənc olaraq evləndiyi yalnız həzrət Aişə -radiyallahu anha-idi. Bunun səbəbi də xanımlarla bağlı hüquqi məsələlərin ortaya çıxmasını təmin etməklə bağlı idi. Gerçəkdən də, o, zəkası və fərasəti ilə qadınlara aid hüquqi məsələləri mükəmməl bir şəkildə qavramış və Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- vəfatından sonra uzun illər ardıcıl olaraq müsəlman qadınları bu məlumatlarla maarifləndirmiş, hüquqi ehkamın bir qisminin sağlam təməllərindən birini təşkil etmişdir. Səhabə arasından ortaya çıxmış yeddi hüquqşünasdan biri olduğu üçün qadınlar arasında fiqh elmi daha çox onun vasitəsi ilə yayılmışdır.

Qərəz əhlinin iddia etdiyi kimi bu evliliklərin ortaya çıxmasının səbəbi şəhvət olsa idi, Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- ömrünün ən gənc və coşqun zamanını ondan on beş yaş böyük, dul və uşaqlı bir qadınla keçirtməzdi. Bu evliliklərin hansı ülvi məqsədlər və incə hikmətlərlə meydana gəldiyini ancaq iman məntiqinə sahib olan irfan və vicdan əhli təqdir edə bilər.

## Hicabın fərz buyurulması

İslamdan öncə ərəblərdə baş örtüyü deyilən bir adət yox idi. İslamın ilk illərində də təbii olaraq belə davam etdi. Ancaq yuxarıda içki və qumar mövzusunda ərz edilən tədricilik üsuluna uyğun olaraq bu keyfiyyətin belə davam etməyəcəyi aydın idi. Nəhayət, baş örtüyü ilə bağlı ayə endi və bu ayə ilə qadının mövqeyi gücləndirildi. Onun şərəf və heysiyyatı qorunaraq etibarı artırıldı. Qadın bir həya abidəsinə çevrildi, o, şərəf və izzət sahibi bir insan oldu.

Başqa yöndən baş örtüyü ilə bağlı hökm təkcə qadına aid olmayıb, kişiləri də əhatə edir. Yəni bu məsələ ilə bağlı əmr qadın-kişi bütün möminlərə aiddir. Uca Allah buyurur:

"(Ey Rəsulum!) Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çəksinlər, (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (ya da örtülü saxlasınlar). Bu onlar üçün (ədəb-ərkan, təmizlik baxımından) daha yaxşıdır. Şübhəsiz, Allah onların nə etdiklərindən xəbərdardır! Mömin qadınlara de ki, gözlərini haram buyrulmuş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (ya da örtülü saxlasınlar). Öz-özlüyündə görünən (əl-üz) istisna olmaqla, zinətlərini (zinət yerləri olan baş, boyun, boğaz, qol, ayaq və s. naməhrəmə) göstərməsinlər. Baş örtüklərini yaxalarının üstünə çəksinlər (boyunları və sinələri görünməsin)…" (ən-Nur, 30-31)

Qadının örtünməsi ilə qadınlıq şəxsiyyəti qorunur. Qadın örtüyü ilə qarşısındakılarda bir incəlik və nəzakət duyğusu yaradır. Əks halda, qadın nəfsani arzuları təhrik edən bir şəhvət vasitəsinə çevrilir. Bu da onun şəxsiyyət və ləyaqətini alçaldır, analıq vüqarına zərbə vurur.

Burada xüsusi ilə işarə edilməsi zəruri olan bir nöqtə də budur ki, yaradılış baxımından qadın və kişi nəfsləri arasında fərq var. Bu da qadın və kişiyə aid ilahi təyinatla olan vəzifə və bu vəzifəyə bağlı xüsusiyyət fərqindən doğmuşdur. Buna görə də, baş örtüyünün qadına aid şəkli ilə kişiyə aid şəkli fərqlidir. Çünki qadın kişi ilə müqayisədə yaradılış baxımından daha cazibəlidir. Baş örtüyündən uzaqlaşaraq özünü topluma bir növ təqdim edəndə nəzakət və incəlik zədələnir. Analıq vəsfi və nəsli qorumaq xüsusiyyəti pozulur. Bu baxımdan onun cazibəsi, gözəlliyi baş örtüyü əmri ilə yalnız onun ərinə aid edilmişdir. Çünki qadın və kişi arasında nəslin davam etməsi üçün bir-birilərinə qarşı dəyişməz bir fitri təmayül var. Baş örtüyü əmrinə riayət edilmədiyi təqdirdə bu meyl ilahi hüdudları pozmaq kimi fəlakətlərə düçar edəcək qədər təhlükəli bir əxlaqi pozğunluğa səbəb olur. Belə ki Cənab Haqqın:

لاَ تَقْرَبُوا الزِّنٰى

**"Zinaya da yaxın düşməyin!..."** (əl-İsra, 32) ilahi əmrindəki önəmli nöqtələrdən biri də: "Baş örtüyünə əməl etməməklə zinanın yolunu açmayın, ona imkan hazırlamayın!",-deməkdir. Bu, artıq mütləq bir hökmdür. Diqqət edilsə, aydın görünər ki, İslam zahirən gözəlliyi, cazibəsi olmayan bir qadına da baş örtüyünü əmr etmişdir. Yəni: "Bu qadın başını, qolunu və ayaqlarını açsa da, açmasa da fərqi yoxdur, onsuz da diqqətçəkici deyil", -demək olmaz. Baş örtüyündə əsas məsələ qadının vüqarının, şərəfinin qorunmasıdır.

İPƏKYOLU NƏŞRİYYATI

İnsanın fitrətini nəzərə alıb ona görə hökmlər verən İslam qadınlıq və kişiliyin xüsusiyyətlərinə də diqqətlə yanaşır. Bunun üçün Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- qadına bənzəməyə çalışan kişilərə, kişilərə bənzəməyə çalışan qadınlara lənət etmişdir.

Bu təhlükədən qorunmaq üçün xanımlar imanlı qadınların məclislərində iştirak etməyə çalışmalıdırlar. Çünki insan kiminlə oturub-durarsa onun duyğu və düşüncələrinin təsirini duyar. Bu bir psixoloji qanundur. Qadın kişilərlə qarışıq bir küçə həyatına girdiyi zaman qadınlıq duyğularını və o gözəl qadınlıq xüsusiyyətlərini itirər.

Qadınlarla kişilərin geyim məsələsində də bir-birilərinə bənzəmələri qadağan edilmişdir. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- qadın kimi geyinən kişilərin və kişi kimi geyinən qadınların Allahın rəhmətindən uzaq qalacaqlarını bildirmişdir. Çünki hər iki tərəfin qadınlıq və kişilik ləyaqətini qoruması zəruridir.

Bundan başqa qarşı cinsin geyimini yamsılamaq şəxsiyyət və xarakter dəyişikliklərinə də səbəb olur. Məsələn, öz cinsinin tələb etdiyi paltarlar yerinə hər hansı bir səbəblə qarşı cinsə aid geyim tərzini qəbul edən insanların davranışlarında da bu yöndə bir dəyişiklik görünür. Bu da fitrətin pozulması deməkdir.

**Müreysi müharibəsi**

**(Şaban-Ramazan 5/ Yanvar-Fevral 627)**

Bu müharibəyə Bəni Müstəliq döyüşü də deyilir. Müstəliq oğulları Məkkə müşriklərinin təhriklərinə uyaraq Mədinəyə hücum etmək üçün çoxsaylı bir ordu toplamağa başlamışdılar. Bunu eşidən Rəsulullah -səllallahu əleyhi və səlləm- yeddi yüz nəfərlik bir ordu ilə onların üzərinə hücum etdi. Allah Rəsulu həzrət Ömərə Müstəliq oğullarına: "La ilahə illəllah", deyin və canınızı, mallarınızı qoruyun,-deyərək müraciət etməsini tapşırdı. Ancaq Müstəliq oğulları bu təklifi qəbul etmədilər. İlk oxu atan da onlardan biri oldu.

Müsəlmanlar Müreysi suyu ətrafında düşmənə qarşı güclü hücuma keçdilər və onları məğlub etdilər. Düşmənlərdən on nəfər öldü, müsəlmanlardan da bir nəfər şəhid oldu.

Müharibənin sonunda həddən çox qənimət əldə edildi, çoxlu əsir alındı. Əsirlər arasında qəbilə rəisinin qızı Cüveyriyə də var idi.

İPƏKYOLU NƏŞRİYYATI

Əsirlər fidyə əvəzində sərbəst buraxıldılar. Cüveyriyyə isə Sabit bin Qaysın payına düşmüşdü. Qurtuluş fidyəsi üçün Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- müraciət etdi. Bu zaman atası da gəldi, öz əsil-nəcabətindən danışıb qızının cariyə olmayacağını irəli sürdü, şərəfinin qorunmasını istədi. Özü ilə gətirdiyi bir neçə dəvəni göstərərək:

"-Bu dəvələr qızımın əvəzidir. Onu sərbəst buraxın!,-dedi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- də onun heç gözləmədiyi şəkildə:

- Saxladığın iki dəvə haradadır? Onları niyə gətirmədin?,-deyə soruşdu.

Vadidə gizlədiyi iki dəvənin yerini özündən başqa bir kimsənin bilmədiyini güman edən Haris heyrət və dəhşət içində:

- Vallah, bunu məndən başqa bilən bir kimsə yoxdur!...,-dedi.

Bu açıq möcüzə ilə doğru yola qovuşaraq özü ilə gələnlərlə birlikdə iman etdi".

Bundan sonra həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- Cüveyriyyənin fikrini soruşdu. Onun öz yanında qalmaq istədiyini anlayanda fidyəsini şəxsən verib, sərbəst buraxdı. (İbni-Sad, VIII, 118)

Azad olan Cüveyriyyə də öz arzusu ilə müsəlman oldu. Sonra Cənab Haqqın lütfünü qazanaraq Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ilə evlənmək şərəfinə nail oldu. Beləliklə, onun daha öncə görmüş olduğu bir yuxu gerçəkləşdi. Atası tərəfindən fidyəsi verilib əsarətdən qurtulmaq imkanı olmasına baxmayaraq, Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanında qalmaq istəməsi də buna görə idi.

Cüveyriyyənin Həzrət Peyğəmbərlə nigah bağladığını eşidən seçilmiş əshab da "Peyğəmbər əqrəbasının əsir olması doğru deyil!",-deyərək əllərindəki bütün əsirləri fidyəsiz olaraq sərbəst buraxdılar. Bu məsələ ilə bağlı həzrət Aişə -radiyallahu anha-belə buyurmuşdur: "Qövmü üçün Cüveyriyyədən daha xeyirli bir qadın görmədik. Onun xatirinə Bəni Müstəliq qəbiləsindən yüz evin ailəsi azad olundu". (Əbu Davud, "İtk", 2/3931)

Bu ifadədən də aydın olduğu kimi, Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- Cüveyriyyə anamızla evlənməsi tamamilə siyasi bir məqsədlə bağlı olmuşdur:

İPƏKYOLU NƏŞRİYYATI

**"O, həva-həvəslə danışmır,** (nəfsinə uyub kefi istəyəni) **demir. Bu, ancaq** (Allah dərgahından) **nazil olan bir vəhydir".** (əl-Nəcm, 3-4)

Ayənin bəyanı ilə nigah nəfsani bir səbəblə deyil, Allah Rəsulunun qəlbinə yerləşmiş ilahi istəyə bağlı olaraq gerçəkləşmişdir. Belə ki bu evlilikdən sonra Bəni Müstəliq əsirləri azadlığa qovuşmuş, daha önəmlisi isə bütöv bir qövm müsəlman olmuşdur.

İPƏKYOLU NƏŞRİYYATI

**Təyəmmüm**

Aişə -radiyallahu anha- anamız belə söyləyir:

"Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə (Müreysi) səfərində birlikdə idik. Beyda adı ilə tanınan yerə, ya da Zatul-Ceyş adlandırılan əraziyə çatmışdıq ki, mənim bir boyunbağım qırılıb yerə düşdü. Rəsulullah onu axtarmaq üçün bir müddət orada qaldı. Onunla birlikdə başqa insanlar da qaldılar. Yaxınlıqda su olmadığı kimi, yanlarında da su yox idi. Bir sıra insanlar Əbu Bəkrin yanına gedib: "Aişənin etdiyini gördünmü! Həm Rəsulullahın, həm də başqa insanların başını burada qatdı. Onlar bir su başında deyillər, yanlarında su da yoxdur!",-dedilər. Rəsulullah -səllallahu əleyhi və səlləm- başını dizimin üzərinə qoyub yatarkən atam Əbu Bəkir gəldi: "Sən Rəsulullahı da-səllallahu əleyhi və səlləm-, insanları da burada saxladın. Ətrafda su olmadığı kimi, yanlarındakı su da qurtardı!",-deyərək məni qınadı və çox söz söylədi. Hətta, qəzəbini boğa bilməyib əli ilə məni vurdu. Rəsulullahın başı dizimin üstündə olduğu üçün tərpənməməyə çalışdım.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- səhər oyananda su yox idi. Bir müddət sonra uca Allah təyəmmüm ayəsini endirdi:

"… Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaq yolundan gəldiyiniz, ya da qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün (paklığı niyyət edib əllərinizi bir dəfə torpağa sürtərək üzünüzü, bir dəfə də torpağa sürtərək əllərinizi məsh edin). Allah sizi çətinliyə salmaq istəməz, ancaq O, sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər ki, şükr edəsiniz!" (əl-Maidə, 6)

Üseyid bin Xudayr -radiyallahu anh- deyir:

"Ey Əbu Bəkir ailəsi! Bu, ümmət üçün sizin saysız-hesabsız bərəkətlərinizdən sadəcə biridir".

Mindiyim dəvə qalxanda boyunbağı altından çıxdı". (Buxari, Təyəmmüm, 1; "Əshabun-Nəbi", 5, 30)

Üseyid -radiyallahu anh- Aişə anamıza:

"Allah səni xeyirlə mükafatlandırsın! Vallah, nə zaman sənin başına xoşuna gəlməyən bir iş gəlsə, Allah onu sənin üçün də, müsəlmanlar üçün də xeyirli edir",-demişdir. (Buxari, "Təyəmmüm", 1)

İPƏKYOLU NƏŞRİYYATI

**İftira hadisəsi**

Bu hadisə Müreysi müharibəsindən dönən zaman baş verdi. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- pak xanımı Həzrət Aişə -radiyallahu anha-ordunun dayandığı yerdən ehtiyacı olduğuna görə bir az uzaqlaşmışdı. O, geri qayıdanda isə ordu çoxdan yola düşmüşdü. Çünki artıq baş örtüyü ilə bağlı ayə enmişdi və möminlərin anaları bir yerə gedərkən dəvənin hörgücü üzərinə qoyulan və "həvdəc" adı verilən hücrənin içində gedirdilər. Buna görə də, ordu yola düşəndə elə düşünmüşdülər ki, möminlərin anası Həzrət Aişə də-radiyallahu anha-dəvənin üzərindəki hücrədədir.

Həzrət Aişə anamız ordunun arxasınca düşüb, yolda azmaqdansa, olduğu yerdə gözləməyə üstünlük verdi. Yüngülcə yuxuya getdi. Bu zaman karvandan geri qalanları toplamağa məsul olan Saffan bin Muattal -radiyallahu anh-həzrət Aişəni gördü:

**"… Biz Allaha məxsusuq və** (vaxtı gələndə) **Onun yanına** (Onun hüzuruna) **qayıdacağıq!"** (əl-Bəqərə, 156) ayəsini oxuyaraq özünün orada olduğunu bildirdi.

Bu səsi eşidən həzrət Aişə anamız oyandı. Saffan -radiyallahu anh- bir kəlmə belə danışmadan dəvəsini çökdürdü. Həzrət Aişə anamız da dəvəyə mindi. Günorta vaxtı orduya çatdılar. Bu vəziyyəti görən münafiqlər əllərinə inanılmaz bir fürsət keçdiyini düşünərək bu dəfə də çirkin bir iftira söyləməyə başladılar: "Vallah, nə Aişə ondan, nə də o, Aişədən qurtulmuşdur",-dedilər. Hətta, Abdullah bin Übey daha da irəli gedərək möminlərə: "Budur, Peyğəmbərinizin xanımı da bu adamla səhəri açdı",-deyərək onları ələ saldı.

Fitnə bir anda bütün ordunu sarsıtdı. Həzrət Əbu Bəkir -radiyallahu anh- dəhşətli bir iztirabla inlədi:

"Vallah, biz belə bir iftira ilə cahiliyə dövründə belə üzləşmədik!...",-dedi.

Həzrət Saffan -radiyallahu anh- isə dərin bir üzüntü içində idi. O, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm-: "Haqqında xeyirdən başqa bir şey bilmirəm!...",-dediyi gözəl bir səhabə idi.

Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- vəziyyətinə gəlincə isə ən böyük kədər, şübhəsiz, Onun mübarək könlünə çökmüşdü. O, çox zaman evinə çəkilir, insanlarla az görüşürdü. O, bu məsələ ilə bağlı kiçik bir araşdırma apardı. Həzrət Aişənin günahkar olması ilə bağlı ən kiçik əlamət belə yox idi. Ancaq münafiq ağızlar susmurdu.

Aişə anamız hadisədən çox gec xəbər tutdu. Bu ağır iftiranı eşidən kimi müdhiş bir kədər onu sarsıtdı. Ağır bir kədərlə Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- icazə alaraq atasının evinə getdi. O, məsələ ilə bağlı məlumat toplamaq istəyirdi. Eşitdiyi dedi-qoduları onlardan da dinlədi, sanki əridi, bir payız yarpağı kimi saralıb soldu.

Bu zaman Peyğəmbərimiz -əleyhissəlatü vəssəlam- hadisəni Aişə anamıza danışmaq istədi. Əbu Bəkrin -radiyallahu anh- evinə gedib mübarək xanımına:

"Ey Aişə! Sənin haqqında bir neçə söz eşitdim. Əgər günahsızsansa, Allah səni təmizə çıxaracaq",-buyurdu.

Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- iftiralar qarşısında kiçik bir tərəddüd keçirdiyini hiss edən həssas və incə ruhlu həzrət Aişə anamız ana və atasına baxdı. Onların susduğunu görəndə yaşlı gözləri ilə Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- bunları söylədi: "Vallah, yaxşı başa düşdüm ki, siz söylənilənləri eşitmiş və deyəsən inanmısınız. İndi mən günahsızam desəm (Allah bunu bilir), inanmaya bilərsiniz. Əksini söyləsəm, tez inana bilərsiniz. Ancaq Allah günahsız olduğumu bilir. O halda mən o söylənilənlərə qarşı Allahdan yardım istəyirəm".

Artıq işin anlaşılması sadəcə ilahi vəhylə mümkün idi. Belə ki çox keçmədən Cənab Haqq hadisə ilə bağlı mübarək ayələri nazil etdi. Söylənən sözlərin münafiqlərin iftiralarından ibarət olduğu aşkar oldu. İlahi bəyanlar həm Aişə anamızı təmizə çıxartdı, həm də münafiqlərin haqsız ittihamlarını üzlərinə vurub onlara əzabı xəbər verdi. Bununla birgə, uca Allah bu iftiranı atan qafilləri də xəbərdar etdi.

İPƏKYOLU NƏŞRİYYATI

Cənab Haqq bu məsələ ilə bağlı mübarək ayələrdə belə buyurdu:

**"Həqiqətən,** (Aişə barəsində) **yalan xəbər gətirənlər öz içərinizdə olan bir zümrədir** (münafiqlərdir)**. Onu** (o xəbəri) **pis bir şey zənn etməyin. O, bəlkə də sizin üçün xeyirlidir. O zümrədən olan hər bir şəxsin qazandığı günahın cəzası var. Onlardan günahın böyüyünü öz üstünə götürəni** (Abdullah ibn Ubeyyi) **isə** (qiyamət günü) **çox böyük** (şiddətli) **bir əzab gözləyir!".** (ən-Nur, 11)

**"Məgər o yalan sözü eşitdiyiniz zaman mömin kişilər və qadınlar öz ürəklərində** (özləri haqqında yaxşı fikirdə olduqları kimi, dostlarının da əhli-əyalı barəsində) **yaxşı fikirdə olub: "Bu, açıq-aydın bir böhtandır!",-deməli deyildilərmi?** (Aişəyə iftira atanlar) **nə üçün özlərinin doğru olduqlarını təsdiq edəcək dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli, onlar Allah yanında əsl yalançıdırlar! Əgər Allahın dünyada və axirətdə sizə neməti və mərhəməti olmasaydı, o yalan sözünüzə görə sizə şiddətli bir əzab toxunardı. Çünki o zaman siz** (münafiqlərin yaydığı) **yalanı dilinizə gətirir, bilmədiyiniz sözü ağzınıza alır və onu yüngül** (asan, insana günah gətirməyən) **bir şey sanırdınız. Halbuki, bu (Peyğəmbərin əhli-əyalı haqqında nalayiq söz danışmaq) Allah yanında çox böyük günahdır!"** (ən-Nur, 12-15)

**"Məgər siz onu eşitdiyiniz zaman: "Bizə bunu** (bu yalanı) **danışmaq yaraşmaz. Aman** (Allah)**! Bu, çox böyük bir böhtandır!",-deməli deyildinizmi?".** (ən-Nur, 16)

**"Allah sizə öyüd-nəsihət verir ki, əgər möminsinizsə, bir daha belə şeylər etməyəsiniz. Və Allah sizin üçün ayələrini** (belə ətraflı, açıq-aydın) **izah edir. Allah** (hər şeyi) **biləndir, hikmət sahibidir!"** (ən-Nur, 17-18)

**"Möminlər arasında** (onları nüfuzdan, hörmətdən salmaq məqsədi ilə) **pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir.** (Hamının əməlini, yayılan şayiələrin, atılan böhtanların doğru olub-olmadığını) **ancaq Allah bilir, siz bilməzsiniz! Əgər Allahın sizə neməti və mərhəməti olmasaydı, Allah şəfqətli, rəhmli olmasaydı** (halınız necə olardı)! (Dediyiniz yalanlara, yaxdığınız iftiralara görə sizi dərhal məhv edərdi)". (ən-Nur, 19-20)

**"Ey iman gətirənlər! Şeytanın yolunu tutub getməyin! Kim şeytanın yolu ilə getsə, o,** (insanlara) **çirkin, pis işlər görməyi** (zina etməyi, yalan danışmağı, özgələrə böhtan atmağı) **əmr edər. Əgər Allahın sizə neməti və**

İPƏKYOLU NƏŞRİYYATI

**mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt** (günahdan) **pak olmazdı. Ancaq Allah dilədiyini** (günahdan) **pak edər. Allah** (hər şeyi) **eşidəndir, biləndir!".** (ən-Nur, 21)

Bu uca həqiqətlərdən sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- gülümsəyərək həzrət Aişə anamıza: "Müjdə, ey Aişə! Allah səni təmizə çıxartdı!",-buyurdu.

Aişə anamız mübarək ayələrdəki kəlmələrlə təmizə çıxarıldıqdan və bütün nöqsanlardan uzaq olduğu bildirildikdən sonra: "Mənim kimi aciz bir qulla bağlı ayənin enəcəyini heç düşünməzdim. Güman edərdim ki, Allah Rəsulunun qəlbinə bir ilham gələcək və günahsız olduğum bu yolla ortaya çıxacaq!",-deyərək Cənab Haqqa həmd etdi.

Əbu Bəkir də-radiyallahu anh-onun başından öpdü, Rəsulullahın yanına getməyin zəruri olduğunu bildirdi. O, atasına: "Mən Allahdan başqa bir kimsəyə həmd və təşəkkür etmərəm. Mənim haqlı olduğumu bildirən Allahdır!",-deyərək bir az da naz etdi və incikliyini bildirdi.

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- gülümsədi. Bir ay davam edən sıxıntı Allahın lütf və mərhəməti ilə başa çatdı. (Buxari, "Şəhadət", 15, 30, "Cihad", 64, "Məğazi", 11, 34; Müslüm, "Tövbə", 56; Əhməd, VI, 60, 195)

İftira atılan Rəsulullahın xanımı, ümmətin anası, Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- ən yaxın dostunun qızı, eyni zamanda ümmətin ən namuslu xanımlarından biri idi. Təkcə bu hadisə belə, peyğəmbərlərin çətinlik və müsibətlər qarşısındakı dözümünü göstərməyə yetər. Bu, qiyamətədək iftira ilə üzləşən məzlumlara bir təsəllidir.

Bütün bu elmi və tarixi gerçəklərə və Qurani-Kərimin bu hadisəni "ifkün mübin: açıq bir iftira" və "bühtanun əzim: böyük bir iftira" şəklində ifadə edərək Həzrət Aişə anamızı qəti bir bəyan ilə təmizə çıxarmasını, onun bütün nöqsanlardan uzaq olmasını bildirməsinə baxmayaraq, daha sonra o, Cəməl hadisəsində iştirak etdiyinə görə, ittihamlarını davam etdirən bir qisim qəflət əhlinə nə demək lazımdır?!

İftira hadisəsinə səbəb olan günahkarlar namuslu bir xanıma zina böhtanı atmış olduqlarına görə cəzalandırıldılar. Beləliklə, iftiraçıların hər birinə səksən dəyənək vuruldu.

İbn Abbasa -radiyallahu anh- görə, uca Allah dörd insanın nöqsansız olduğunu bildirmişdir:

İPƏKYOLU NƏŞRİYYATI

1. Yusifi -radiyallahu anh- ona iftira atan qadının yaxınlardan bir şahidin dili ilə

2. Musanı –əleyhissəlam- yəhudilərin dedi-qodularından.

3. Həzrət Məryəmi- qucağındakı yeni doğmuş oğlunu danışdırmaqla.

4. Həzrət Aişəni də qiyamətədək oxunacaq Qurani-Kərimdəki bu əzəmətli ayələrlə təmizə çıxarmışdır. Bəraətin bu dərəcədə bəlağətli bir dillə ifadə ediləni olmamışdır. Bunu da uca Allah Rəsulunun nə qədər yüksək bir mərtəbəyə sahib olduğunu göstərmək üçün etmişdir. (Zəməxşəri, IV, 121)

Bu sıxıntılı mərhələdə vəhyin uzun müddət gecikməsi Peyğəmbərimizin rəsul və nəbi olmaqla birgə bəşər vəsfini göstərmək, vəhyin Onun düşüncə və nəfsindən doğan bir hal olmadığını bildirmək və müsəlmanların səmimiyyətini imtahan etmək üçündür.

*****

Həzrət Əbu Bəkir -radiyallahu anh- Mistah adlı bir yoxsula ardıcıl olaraq yardım edirdi. Bu iftira hadisəsində onun da iftiraçılar arasında olduğunu gördü. Bir daha ona və ailəsinə yaxşılıq etməyəcəyinə dair and içdi. Həzrət Əbu Bəkrin yardımı kəsiləndə Mistah və ailəsi çətin bir vəziyyətə düşdü. Cənab Allah bu yardımın kəsilməsindən sonra bu ayələri nazil etdi:

**"Aranızda olan fəzilət və sərvət sahibləri qohum-əqrəbaya, miskinlərə və Allah yolunda hicrət edənlərə** (heç bir şey) **verməyəcəklərinə and içməsinlər.** (Onları) **bağışlayıb,** (cəzalandırmaqdan) **əl çəksinlər! Məgər siz** (bu yaxşılıq müqabilində) **Allahın sizi** (günahlarınızı) **bağışlamağını istəmirsiniz? Allah (bəndələrini) bağışlayandır, rəhm edəndir!".** (ən-Nur, 22)

**"Yaxşılıq etmək, pis əməllərdən çəkinmək və insanlar arasında sülh yaratmaq barəsindəki andlarınıza Allahı** (Allahın adını) **hədəf** (dəstəvuz) **etməyin! Allah eşidəndir, biləndir!"** .(əl-Bəqərə, 224)

Bu mübarək ayələr Cənab Haqqın qullarına olan mərhəmətinin ən gözəl bir örnəyidir. Başqa yöndən də bu ayələr fəzilət əhlini ucaldacaq bir hədəf göstərir.

Ayələrin enməsindən sonra Əbu Bəkir -radiyallahu anh-: "Mən, əlbəttə, Allahın məni bağışlamasını sevirəm!",-dedi. Bundan sonra da and içməyin əvəzini verərək yardımını davam etdirdi. (Buxari, "Məğazi", 34; Müslüm, "Tövbə", 56; Təbəri, "Təfsir", II, 546)

Həzrət Əbu Bəkir -radiyallahu anh- onun qızına iftira atan adama belə yardımını əsirgəmədi. Bu da o mübarək səhabənin misilsiz fəzilətini göstərən açıq bir misaldır.

Düşmən onlardır, onlardan çəkin!

Münafiqlərin Müreysi müharibəsində törətdikləri fitnələr yalnız iftira hadisəsi deyildi. Mühacirlər və ənsardan iki nəfər arasında ortaya çıxan bir münaqişəyə görə, münafiqlərin başçısı Abdullah bin Übey mühacirləri nəzərdə tutaraq ətrafındakılara:

"-Bunların etdiklərini gördünüzmü? Bizim yurdumuzda bizdən üstün oldular, sonra da bizi tanımadılar. Əgər Mədinəyə dönsək, əziz olan zəlil olanı oradan çıxaracaq",-dedi.

Bu zaman onu dinləyənlərin arasında olan saleh mömin Zeyd bin Ərkam həqiqəti bağırdı:

"-Qövmü içində zəlil olan sənsən! Uca Allah Rəsulu Məhəmmədi -əleyhissəlatü vəssəlam- əziz etmişdir!" .

Hadisə Rəsulullaha -səllallahu əleyhi və səlləm- çatanda münafiqlər sözlərini dəyişdirib, söylədiklərini and içərək inkar etdilər. Belə ki az qala Həzrət Zeydi yalançı çıxaracaqdılar. Bundan sonra Həzrət Zeyd son dərəcə kədərləndi. Həzrət Ömər isə Allah Rəsulundan -səllallahu əleyhi və səlləm- başda Abdullah bin Übey olmaqla münafiqləri öldürmək üçün icazə istədi. Ancaq Rəsulullah -səllallahu əleyhi və səlləm- böyük bir ağılla: "Ey Ömər! İşin iç üzünü bilməyənlər: "Məhəmməd əshabını öldürür!",-deyə danışar. Xeyr! Belə bir şey etməyəcəyəm! Sən tez müsəlmanları çağır, səfərə hazırlaşsınlar!",-buyurdu.

Bundan sonra müsəlmanlar yola çıxdılar. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- o gün axşamadək və bütün gecə yol getdi. Səhər açılıb, günəşin hərarəti artmağa başlayanda dayandılar. Müsəlmanlar yorğunluq və yuxusuzluqdan özlərini yerə atıb tez yatdılar. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- belə etməsi müsəlmanları Abdullah bin Übeyin söylədiyi sözlərlə məşğul olmaqdan çəkindirmək üçün idi. Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- bu məsələ ilə bağlı incə siyasəti Onun insan xarakterini çox yaxşı tanıdığının bir göstəricisidir.

Bir müddət sonra münafiqlərin halı mübarək ayələrlə belə bildirildi:

"(Ey Peyğəmbər!) **Münafiqlər** (riyakarlar) **sənin yanına gəldikləri zaman: "Biz sənin, doğrudan da Allahın Peyğəmbəri olduğuna şəha-**

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

**dət veririk!",-deyirlər. Allah sənin Onun həqiqi Peyğəmbəri olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir. Onlar** (yalan) **andlarını özlərinə sipər edib** (xalqı) **Allahın yolundan döndərirlər. Həqiqətən, onların törətdikləri əməllər necə də pisdir! Bunun səbəbi odur ki, onlar** (dildə) **iman gətirdilər, sonra isə** (ürəklərində gizli) **kafir oldular. Buna görə də, onların ürəklərinə möhür vurulmuş, özləri isə anlamaz kimsələr olmuşlar".** (əl-Munafiqun, 1-3)

"(Ey Peyğəmbər!) Sən onları gördükdə cüssələri (boy-buxunları, gözəllikləri) xoşuna gəlir, danışanda sözlərinə qulaq asırsan. Onlar sanki (divara) söykədilmiş dirəklərdir (ruhsuz bədən, müqəvva kimidirlər). Onlar (ikiüzlülüklərinin Peyğəmbərə və möminlərə əyan olacağından qorxub) hər bir qışqırığın (səs-küyün) öz əleyhlərinə olduğunu zənn edirlər. Onlar düşməndirlər, sən onlardan həzər et! Allah onları öldürsün, necə də Haqdan döndərilirlər!" (əl-Munafiqun, 4) "Onlara: "Gəlin Allahın Peyğəmbəri (Rəbbinizdən) sizin bağışlanmağınızı diləsin!",-deyildiyi zaman (istehza ilə) başlarını bulayar və sən (ey Rəsulum!) onların təkəbbürlə üz çevirdiklərini görərsən. Sən onların bağışlanmasını diləsən də, diləməsən də fərqi yoxdur. Onsuz da Allah onları bağışlamayacaq. Şübhəsiz, Allah fasiq qövmü doğru yola yönəltməz!". (əl-Munafiqun, 5-6)

"Onlar: "Allahın Peyğəmbəri yanında olanlar üçün (heç bir şey) xərcləməyin ki, dağılıb getsinlər!",-deyən kimsələrdir. Halbuki, göylərin və yerin xəzinələri Allaha məxsusdur, ancaq münafiqlər (bunu) anlamazlar. Onlar: "Əgər biz (Bəni Müstəliq vuruşunda) Mədinəyə qayıtsaq, ən güclülər (ən şərəflilər- münafiqlər) ən zəifləri (ən həqirləri- Peyğəmbəri və ona iman gətirənləri), əlbəttə, oradan çıxardacaqlar!",-deyirlər. Halbuki, şərəf-şan (qüvvət və qələbə) yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur, ancaq münafiqlər (bunu) bilməzlər!". (əl-Munafiqun, 8-9)

Munafiqun surəsi nazil olanda Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Zeyd bin Ərkamı çağıraraq bu ayələri oxudu və: "Ey Zeyd! Uca Allah səni təsdiq etdi!",-buyurdu. (Buxari, "Təfsir", 63/1-2; Müslüm, "Sifatul-Munafiqun", 1)

Sonra da Zeydin qulağından tutaraq: "Bax, bu, Allah yanında qulağı ilə vəzifəsini yerinə yetirmiş olan gəncdir",-buyurdu. (İbni-Hişam, III, 336)

*****

İlahi hikmətlə münafiqlərin başçısı olan Abdullah bin Übeyin Abdullah adlı bir oğlu var idi. O, səmimi bir mömin idi. Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- son dərəcə bağlı idi. O, atasının etdiklərindən

İPƏKYOLU NƏŞRİYYATI

çox narahat olur, səbir edə bilmirdi. Son hadisələr də onun könlündəki bu kədəri daha da artırdı. O, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yanına gəldi:

- Allahın Rəsulu! Əgər arzulayırsansa, atamı öldürüm!, -dedi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- buna izacə vermədi və:

- Xeyr! Əksinə, onunla yumşaq davran. Aramızda olduğu müddətdə ona xoş münasibət göstərin!",-buyurdu.

Bundan sonra Abdullah İslam ordusunun içində olan atasının yanına qaçdı və onun dəvəsinin cilovunu tutaraq bağırdı:

"- İzzət və qüvvətin Allaha və Rəsuluna aid olduğunu söyləyənədək səni yerindən tərpənməyə qoymayacağam!...

Münafiqlərin başçısı çaşdı. Bu qədər insanın arasında oğlunun ona qarşı etdiyi hərəkəti özünə sığışdırmadı:

- İndi sən məni bu qədər insanın arasında Mədinəyə buraxmayacaqsan?,-dedi.

Oğlu böyük bir iman gücü ilə:

- Bəli, bu gün insanlar arasında ən rəzil və ən əziz şəxsin kim olduğunu öyrədənədək səni Mədinəyə qoymayacağam. Həqiqəti etiraf etməsən, başını bədənindən ayıracağam…,-dedi.

Xain münafiqin sanki əl-qolu bağlanmışdı. Oğlunun dediyini edəcəyini anladı, çox qorxdu. Öncə söylədiklərini geri götürərək könülsüz də olsa, həqiqəti dilə gətirib:

- Şəhadət edirəm ki, izzət və qüvvət Allaha, Rəsuluna və möminlərə aiddir,- demək məcburiyyətində qaldı.

Peyğəmbər -əleyhissəlatü vəssəlam- Abdullaha:

- Allah səni Rəsuluna və möminlərə görə xeyirlə mükafatlandırsın!",- deyərək dua etdi və atasının yolunu açmağı buyurdu. (İbni-Hişam, III, 334-337; İbni-Sad, II, 65; Heysəmi, IX, 317-318; Zəməxşəri, VI, 117)

Seçilmiş əshab Həzrət Məhəmmədi -səllallahu əleyhi və səlləm- o qədər çox sevirdi ki, onun nəinki şəxsiyyətinə, bir tükünə belə hər hansı bir zərər toxunmasına razı olmurdu. Bir kimsənin ona əyri baxması, ya da hörmətsizlik etməsi onları özündən çıxarır, bunu edən ataları olsa belə, onu göz qırpmadan öldürmək istəyirdilər.

**Dözülməz bir məşəqqət və dərd üstünə dərd:**

**Xəndək müharibəsi (Şəvval-Zülqədə 5/ Mart 627)**

Xəndək müharibəsi müşriklərin müsəlmanlara qarşı apardıqları ən qorxunc və çətin bir döyüşdür. Bu müharibə müsəlmanları və Mədinə İslam Dövlətini tarixdən silmək üçün həyata keçirilmişdir.

Sürgün edilən Bəni Nadir yəhudilərinin bir sıra liderləri Xeybərə sığınmışdılar. Müsəlmanlara qarşı intiqam odu ilə alışıb-yanırdılar. Onlar qureyşlilərə iş birliyi təklif etdilər. Hətta, onların bütə tapmalarının müsəlmanlıqdan daha üstün olduğunu söyləyib, bütlərə sitayiş etdilər. Bundan sonra uca Allah belə buyurdu:

"(Ey Rəsulum!) **Kitabdan** (Tövratdan, ya da yazıb-oxumaqdan) **bir pay** (az bir şey) **verilənləri** (yəhudiləri) **görmürsənmi? Onlar Cibt və Tağuta** (bu adda iki bütə, yaxud Cibt adlı bütə və Tağut deyilən şeytana) **inanır və kafirlər üçün də: "Bunlar möminlərdən daha doğru yoldadırlar",-deyirlər. Onlar Allahın lənət etdiyi kimsələrdir. Allahın lənət etdiyi kimsəyə isə heç bir kömək edən tapa bilməzsən!".** (ən-Nisa, 51-52)

Müşriklər onsuz da belə bir fürsət gözlədiklərindən tez işə başladılar. Müsəlmanların Uhud müharibəsində ciddi bir qələbə qazana bilməmələrinin başqa ərəb qəbilələrini ruhlandırmasından da istifadə edərək bir çox müttəfiq tapan qureyşlilər on mindən çox böyük bir ordu yaratmağa müvəffəq oldular.

Baş verənləri xəbər alan Rəsulullah -səllallahu əleyhi və səlləm- əshabı ilə məsləhətləşdi. Onlara Allahın əmrlərinə üsyan etməyəcəkləri, Allah yolunda məşəqqətlərə dözəcəkləri təqdirdə ilahi yardıma nail olacaqlarını vəd etdi. Allaha və Rəsuluna itaəti buyurdu.

Uca Allah Peyğəmbərə -səllallahu əleyhi və səlləm- xəndək qazılmasını ilham etdi. Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əshabına Mədinədən kənarda döyüşməyin, yoxsa müdafiə üçün şəhərin ətrafında xəndəklər qazmağın zəruri olduğunu soruşdu. Salman Farsi -radiyallahu anh-:

"Ey Rəsulullah! Biz də fars diyarında düşmən atlılarının basqınlarından qorxduğumuz zaman ətrafımızda xəndəklər qazırdıq!",-dedi.

Salmanın -radiyallahu anh- bu sözü Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- tövsiyəsini dəstəkləyən müsəlmanların xoşuna gəldi.

İPƏKYOLU NƏŞRİYYATI

Seçilmiş əshab eyni zamanda Allah Rəsulunun Uhud müharibəsində şəhərin kənarına çıxmayıb Mədinədə müdafiə mövqeyində qalmağı arzuladığını da xatırladı. Beləliklə, Mədinənin ətrafında xəndək qazılmasına qərar verildi.

Mədinə yalnız bir tərəfdən açıq və təhlükədə idi. Başqa tərəfləri isə bir-birinə bitişik binalarla sanki bir qala kimi əhatə olunmuşdu. Bundan başqa sıx xurma ağacları ilə keçilməz bir sədd yaranmışdı. Rəsulullah -əleyhissəlatü vəssəlam- xəndəyin düşmənə açıq olan tərəfdə qazılmasını qərara aldı. Şeyxayn Hisarlarından Məzad adlanan yerədək uzanan bir xətt çəkib hər on kişiyə: "Buradan burayadək",-deyə yer göstərərək xəndək qazmaq üçün bəlli bir sahə ayırdı.

Xəndəyin qazılmasında Allah Rəsulu da-səllallahu əleyhi və səlləm-şəxsən iştirak etdi. Hətta, qida sıxıntısı yarananda mübarək qarnına daş bağlamaq məcburiyyətində qaldı.

Ancaq Peyğəmbərlər Sultanı -əleyhissəlatü vəssəlam- bu vəziyyətdə belə Allaha şükr edirdi.

Seçilmiş əshab o qədər sıxıntıya düşmüşdü ki, yeməyə belə bir şey tapa bilmirdi. Ənəs -radiyallahu anh- bu halı belə ifadə edir: **"Səhabələrin yeməsi üçün bir ovuc arpa gətirdilər. Bu, dadı, qoxusu dəyişmiş bir yağ ilə bişirilir və onlara verilirdi. Hər kəs ac olmasına baxmayaraq, bu yağın sərtliyini və xarab olmuş dadını ağzında hiss edirdi. Yeməyin ağır və xoşa gəlməyən bir qoxusu var idi".** (Buxari, "Məğazi", 29)

### Xəndəkdə verilən müjdə

Bu zaman seçilmiş əshab Rəsulullaha -səllallahu əleyhi və səlləm-çox böyük və sərt bir daşı qıra bilmədiklərini bildirdilər. Peyğəmbər -səllallahu əleyhi və səlləm- bir sivri iri çəkici əlinə alaraq bəsmələ oxudu və üç dəfə o daşa vurdu və daşı incə qum kimi dağıtdı.

O hər vuruşda möminlərə böyük müjdələr verdi. Birinci vuruşda Şamın (Bizans), ikincisində İranın, üçüncü vuruşda da Yəmənin açarlarının ona verildiyini, bu ölkələrin saraylarını hal-hazırda olduğu yerdən gördüyünü bildirdi. O, bu yerlərin Allahın kəlamı ilə şərəflənəcəyini müjdələdi, gələcək zəfərlərin həyəcanı ilə mömin könüllərə ümid verdi.

Haqqın yaxın bir gələcəkdə mütləq batili yox edəcəyini müjdələdi. Baş verməsi qeyri-mümkün sayılan bir çox işin mütləq baş verəcəyini bildirdi və bütün dünyanı əhatə edəcək bir hidayət xəritəsi çəkdi.

Varlıq Nuru Kisranın Mədaindəki ağ sarayını təsvir edəndə Salman Farsi -radiyallahu anh-: "Doğru buyurdun! Səni haqq din və kitab ilə göndərən Allaha and içirəm ki, o saray eyni ilə sənin təsvir etdiyin kimidir. Sənin Rəsulullah olduğuna bir daha şəhadət edirəm!",-dedi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-: "Ey Salman! Bu fəthləri Allah məndən sonra sizə nəsib edəcək! Şam mütləq fəth olunacaq! Herakliyus ölkəsinin ən uzaq yerinə qaçacaq! Siz bütün Şama hakim olacaqsınız! Heç kim sizə qarşı dayana bilməyəcək. Yəmən mütləq fəth olunacaq! Ondan sonra Kisra öldürüləcək!",-buyurdu.

Salman Farsi -radiyallahu anh-: "Mən bütün bunların baş verdiyini gördüm!",-demişdir. (Vaqidi, II, 450)

Allah Rəsulunun bu müjdələri müsəlmanların sıxıntılara daha asan dözmələri üçün çox böyük bir mənəvi dəstək oldu. Nəticənin möminlərin lehinə, İslam düşmənlərinin əleyhinə olacağının həqiqətinin öncədən bildirilməsi imanlı könüllərin səbir və müqavimətini artırdı. Çünki Xəndək iztirab, yorğunluq, aclıq, soyuq və qaranlığa qarşı aparılan bir mübarizə idi. Ona görə də, bu döyüş məşəqqətli və dözülməsi çox çətin olan əzablı savaş idi. Bundan başqa Allah Rəsulu -səllallahu əleyhi və səlləm-: *"Allahım! Həyat ancaq axirət həyatıdır. Ənsar və mühacirlərə qələbə ver!..."* (Buxari, "Məğazi", 29) duası ilə dünyadakı bütün iztirab və yorğunluqların əbədi səadət dolu bir həyat qarşısındakı dəyərsizliyini ifadə edərək əshabına axirəti hədəf göstərirdi.

**Xəndəkdə çəkilən məşəqqətlər**

Qış mövsümü idi. Müşriklər Mədinəni əhatə etmişdilər. Ancaq onlar qarşılarına çıxan keçilməz xəndəkləri görəndə çaşdılar. Mədinəyə girə bilmədilər.

Başqa yöndən müşriklər Xəndək ətrafına tez-tez hücumlar edirdi. Gecə yarısınadək şiddətli çarpışmalar olur, Allah Rəsulunun çadırı belə tez-tez oxa tutulurdu.

Müşriklər bir gün Allah Rəsulunun olduğu yerə var gücləri ilə hücum etdilər. O gün Peyğəmbərimiz də-səllallahu əleyhi və səlləm-, seçilmiş

İPƏKYOLU NƏŞRİYYATI

əshab da namazlarını qılmağa fürsət tapmadılar. Axşam olub, ordular yerinə qayıdanda Rəsulullah -səllallahu əleyhi və səlləm- həzrət Bilala azan oxumasını əmr etdi. Hər namaz üçün qamət gətirərək günorta, ikindi və axşam namazlarını qəza etdirdi.

Bundan çox narahat olan Rəsulullah -səllallahu əleyhi və səlləm- *"gözümün nuru" dediyi namaz ibadətinə mane olan müşriklər üçün: "Onlar günəş batanadək bizi məşğul edib namaza mane olduqları kimi, Allah da onların evlərinə, qarınlarına, qəbirlərinə atəş doldursun!"*,-deyərək bəd dua etdi. (Buxari, "Məğazi", 29; İbni-Sad, II, 68-69; İbni-Kəsir, "əl-Bidayə", IV, 112)

*****

Dərin xəndəkləri ancaq bir neçə müşrik keçə bilmişdi. Onlardan biri olan Amr bin Abd bütün Ərəbistanın ən məhşur pəhləvanlarından idi. Onun qarşısına Həzrət Əli -radiyallahu anh- çıxdı və Allahın izni ilə onu öldürdü. O birilərinin aqibəti də eyni oldu.

Döyüş davam edirdi. Möminlər elə çətin bir vəziyyətdə qaldılar ki, ilahi yardım nə zaman gələcək deyə, gözləməyə başladılar. Bu halı uca Allah mübarək ayələrdə belə təsvir edir:

"O zaman onlar üstünüzə həm yuxarı, həm də aşağı tərəfdən (vadinin üst və alt tərəfindən) hücum etmiş və (qorxudan) gözünüz həlqəsindən çıxıb, ürəyiniz ağzınıza gəlmişdi. Allah barəsində də müxtəlif fikirlərə düşmüşdünüz. (Möminlər Allahın Öz vədinə doğru olduğuna inanır, münafiqlər və etiqadı zəif olanlar isə Məhəmmədin-əleyhissəlam-bu bəladan xilas ola bilməyəcəyini güman edirdilər). Məhz onda (Xəndək vuruşunda) möminlər imtahana çəkilmiş (kimin həqiqi mömin, kimin münafiq olduğu bəlli olmuş) və möhkəm sarsılmışdılar". (əl-Əhzab, 10-11)

"O zaman münafiqlər və qəlblərində mərəz (şəkk) olanlar: "Allah və Onun Peyğəmbəri bizə yalan vəd etmişdir. (Biz zəfər çala bilməyəcəyik)",-deyirdilər. O zaman onlardan bir tayfa: "Ey Yəsrib (Mədinə) əhli. (Burada) sizin üçün duracaq bir yer yoxdur, (evinizə) qayıdın!",-demişdi. Başqa bir dəstə isə: "Evlərimiz açıqdır (kimsəsizdir, oğru girməsindən qorxuruq)",-deyə (geri qayıtmaq üçün) Peyğəmbərdən icazə istəyirdi. Həqiqətdə evləri açıq (kimsəsiz) deyildi. Onlar ancaq (döyüşdən) qaçmaq istəyirdilər. Əgər (Mədinənin) hər tərəfindən üstünə yüyürülüb (cumulub) onlardan fitnə törətmək (imandan dönmək, yenidən müşrikliyə qayıtmaq) istənilsəydi, sözsüz, dərhal onu edər və bunda (bu işdə) azacıq da olsa, yubanmazdılar. Halbuki, bundan əvvəl (Uhud vuruşundan sonra) bir daha (düşməndən) üz çevirib qaçmayacaqları barədə Allaha söz vermişdilər. Allaha verilən əhd

barəsində (qiyamət günü) mütləq sorğu-sual olunacaqdır! (Ey Peyğəmbər! Bu münafiqlərə) de: "Əgər ölməkdən, yaxud öldürülməkdən (qorxub) qaçarsınızsa, qaçmaq sizə heç bir fayda verməz…!". (əl-Əhzab, 12-16)

"Möminlər (müttəfiqlərin) ordu hissələrini gördükdə dedilər: "Bu, Allahın və Peyğəmbərinin bizə olan (zəfər) vədidir. (Biz bununla imtahana çəkilirik. Əgər bu imtahandan yaxşı çıxsaq, zəfər çalacağıq, çünki Allah və Peyğəmbəri həqiqi möminlərə kafirlər üzərində qalib olmağı vəd etmişdir). Allah və Peyğəmbəri düz buyurmuşlar!". Bu (vəziyyət) onların yalnız (Allaha) imanını və itaətini artırdı". (əl-Əhzab, 22)

**Hərb hiylədir**

Beləliklə, möminlər bütün gücləri ilə döyüşdülər. Qatafan qəbiləsinin liderlərindən müsəlmanlığı qəbul etmiş, ancaq özünü Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- "Hərb hiylədir" (Buxari, "Cihad", 157; Müslüm, "Cihad", 17) təlimatı ilə gizləyən Nuaym -radiyallahu anh- müşriklərlə Bəni Kurayzanın arasını vurmağı bacardı. Mədinəni əhatə edən qəbilələr arasında fikir ayrılığı yarandı. Hər kəs bir-birindən çəkinirdi. Nəhayət, yəhudilər Nuaymın hiylələrinə aldanaraq qalalarına çəkildilər. Meydanda düşmən olaraq sadəcə müşriklər qaldı.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əllərini uca dərgaha qaldıraraq belə dua etdi: *"Ey Rəbbim! Ey şanı uca olan Quranı göndərən Allahım! Ey düşmənlərlə haqq-hesabı tez çürüdən Rəbbim! Sən Mədinə önündə toplanan bu ərəb qəbilələrini dağıt! Allahım! Onların birliklərini poz, iradələrini sarsıt ki, bir yerdə dayana bilməsinlər!"* (Buxari, "Məğazi", 29)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu duasını hələ bitirməmişdi ki, mübarək simasını təbəssüm bürüdü, sevincə qərq oldu, ilahi yardım yetişdi. Sərt və kəskin bir fırtına düşmənin səflərinə doğru əsməyə başladı. Fırtına önünə nə çıxdısa, sovurdu. Bu müdhiş bir qasırğa idi. Mədinə vadisinin toz-torpağını müşriklərin üzlərinə, gözlərinə doldurdu. Çadırlarını söküb uçurtdu. Yemək qazanlarını çevirdi, ocaqlarını söndürdü. Yük dəvələrini və süvari atlarını bir-birinə qarışdırdı.

Bu səmavi afət və ilahi əzabın üzərilərinə gələrək tüğyan etdiyini görən müşriklər pərişan oldular. Döyüşməyə hamıdan çox can atan Əbu Süfyan belə, bir çarəsizlik içində əsgərlərinə:

İPƏKYOLU NƏŞRİYYATI

"Mən geri qayıdıram, siz də yola çıxın!",-deyərək dəvəsinə mindi və Məkkəyə yola düşdü.

Cənab Haqq iman edənlərə yardımını göndərmişdi. Mübarək ayələrdə buyurulur:

**"Ey iman gətirənlər!** (Xəndək, yaxud Əhzab vuruşunda Qureyş, Qətəfan və yəhudilərin Bəni-Nəzir qəbilələrindən təşkil olunmuş) **ordular sizin üstünüzə gəldiyi zaman Allahın sizə olan nemətini yada salın. O vaxt biz onların üstünə külək və sizin görmədiyiniz** (mələklərdən ibarət) **qoşun göndərmişdik. Allah o zaman sizin nə etdiyinizi görürdü"**. (əl-Əhzab, 9)

"Allah kafirləri öz qəzəbləri ilə (qeyzləri içində boğula-boğula) dəf etdi. onlar heç bir xeyir (qənimət) əldə edə bilmədilər. Döyüşdə (zəfər çalmağa) Allah möminlərə kifayət etdi. Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir!". (əl-Əhzab, 25)

Pərişan bir şəkildə qaçan müşriklər arxalarında bir çox minik, döyüş alətləri, ərzaq və əşya qoyub getmişdilər. Bunların hesabına Mədinədəki qıtlıq da ortadan qalxdı. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu ilahi lütf və zəfərdən sonra əshabına:

*"Artıq növbə sizindir! Bundan sonra Qureyş sizin üzərinizə gələ bilməz!"*,- buyurdu. (Buxari, "Məğazi", 29)

Beləliklə, Peyğəmbər artıq müdafiə olunmaqla bərabər, hücuma da keçə biləcəklərini ifadə etmişdir. Çünki müşriklərin həm qürurları, həm də hücum gücləri tamamilə qırılmışdı. Artıq bütün mömin könüllərdə Allah Rəsulunun həqiqəti ifadə edən bu sözləri yerləşmişdi: "Bundan sonra biz onların üstünə yeriyəcəyik!".

### Bəni Qureyzə müharibəsi (23 Zülqədə 5/ 15 Aprel 627)

Xəndək müharibəsində zəfər qazanılmış, düşmən pərişan halda Məkkəyə dönmüşdü. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- mübarək evinə dönərək adəti üzrə zirehi çıxarmış və yuyunmuşdu. Bu zaman Cəbrail –əleyhissəlam- gəldi. Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm-:

"- Silahını yerə qoydunmu? Biz hələ yerə qoymadıq!,-dedi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

- Elədirsə, deməli səfər var. Səfər haradır?,-deyə soruşdu.

Cəbrail də -əleyhissəlam- müharibə zamanı xəyanət edən Bəni Kurayza yurdunu göstərərək:

- Səfər orayadır!,-dedi". (Buxari, "Məğazi", 30)

Çünki daha öncəki yəhudilər kimi Bəni Kurayza da Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ilə bağladığı anlaşmaya əməl etmədi. Onlar ən çətin zamanlarda xəyanət etdilər. Ancaq əldə olan razılaşmaya görə, Mədinəyə hücum edən müşriklərə qarşı onlar da müdafiədə olmalı idilər. Ancaq əksinə, hər fürsətdə xəyanət etdilər, bu yolla da öz əlləri ilə özlərini həlaka sürüklədilər.

İlahi əmri alan Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- tez möminləri toplayaraq Bəni Kurayza üzərinə hücum etdi. Hətta:

*"Eşidən və itaət edən hər kəs ikindi namazını Bəni Kurayza yurduna çatmadan qılmasın!"*,-buyuraraq yəhudilər özlərinə gəlməmiş hərəkət etdi. (Buxari, "Məğazi", 30)

Yəhudilər həzrət Əlinin komandanlığı altında olan qüvvələri görəndə etdiklərindən peşman olmaq əvəzinə, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- haqqında nalayiq sözlər danışdılar. Ancaq az sonra şəxsən Rəsulullahın -səllallahu əleyhi və səlləm- komandanlığı altında olan üç min nəfərlik İslam ordusunu görəndə sanki dilləri tutuldu. Allah Rəsulunun əzəmətindən qorxdular və söylədiklərini inkar etdilər.

Rəsulullah -səllallahu əleyhi və səlləm- yəhudilərlə döyüşmədən öncə onların qalalarının dibinədək yaxınlaşdı, onları İslama dəvət etdi. Ancaq qəbul etmədilər.

Yəhudilər o gün qeydsiz-şərtsiz təslim olmaq məcburiyyətində qaldılar. Bəni-Kurayza yəhudiləri Evs qəbiləsinin himayəsində olduğundan Allah Rəsulu -səllallahu əleyhi və səlləm- o qəbilənin böyüyü olan Həzrət Sadı hakim olmaq üçün çağırtdı. Həzrət Sad döyüşdə yaralanmış olmasına baxmayaraq, həvəslə Peyğəmbərin əmrinə itaət edərək ora gəldi. Çünki döyüşdə yaralandığı zaman Cənab Haqqa belə yalvarmışdı: "Ey Rəbb! Kurayzadan intiqam almadıqca mənim canımı alma!". Həzrət Sad -radiyallahu anh- yəhudilərin istəyinə uyğun olaraq onlar haqqında Musa-

İPƏKYOLU NƏŞRİYYATI

nın –əleyhissəlam- şəriətinə görə hökm verdi. Onun verdiyi hökmü Rəsulullah -səllallahu əleyhi və səlləm- də təsdiq etdi və:

*"Ey Sad! And içirəm ki, sən Allahın yeddi qat səması üzərindəki hökmünə uyğun olaraq hökm etdin!"*,-buyurdu. (Buxari, "Məğazi", 30; Ibni-Sad, III, 426)

Həzrət Sadın ürəkdən etmiş olduğu duası qəbul oldu və döyüşdə möminləri arxadan vuran xain yəhudilər haqqında hökmünü verəndən sonra yarası açıldı. Bir müddət sonra Peyğəmbər aşiqi səhabə ruhunu bir şəhid olaraq təslim etdi, ilahi rəhmətə qovuşdu.

Rəsulullah -səllallahu əleyhi və səlləm-: *"Sad bin Muazın vəfatına görə Rəhmanın ərşi titrədi"*,-buyurdu. (Buxari, "Mənaqibül-Ənsar", 12; Müslüm, "Fədailüs-Səhabə", 125)

Xəndək müharibəsində ilahi lütf ilə əldə edilən uğuru Qurani-Kərim belə bəyan edir:

**"Allah kitab əhlindən onlara** (kafirlərə) **kömək edənlərin ürəklərinə qorxu salıb onları öz qalalarından endirdi. Siz onların bir qismini öldürür, bir qismini də əsir alırdınız.** (Allah) **sizi onların yerlərinə, yurdlarına və mallarına, üstəlik də ayağınız dəyməyən bir yerə** (Xeybərə) **varis etdi. Allah hər şeyə qadirdir!"**. (əl-Əhzab, 26-27)

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

# HİCRƏTİN ALTINCI İLİ

## Fəthlərin Açarı: Xudeybiyə sazişi

### Kəbə həsrəti ilə yolçuluq

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- gördüyü bir yuxudan sonra müsəlmanları Kəbəni ziyarət və təvafa dəvət etdi. Bu dəvəti qəbul edən min dörd yüz səhabə ilə birlikdə hicrətin altıncı ilində Zilqədə ayının birinci bazar ertəsi günü Məkkəyə doğru yola çıxdı. Müharibəyə getmədikləri üçün özləri ilə ancaq yüngül silah götürdülər. Onlar yetmişədək qurbanlıq dəvə də aparırdılar.

Həzrət Ömər -radiyallahu anh-:

"-Ey Rəsulullah! Əbu Süfyan və adamlarının bizə hücum etməsindən narahat deyilsinizmi? Əgər zərurət yaranarsa, onlarla döyüşmək üçün özümüzlə silah götürməyəkmi?,-deyə soruşdu.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

- Bilmirəm! Mən Ümrəyə niyət etmişəm, ona görə də silah götürmək istəmirəm!,-buyurdu". (Vaqidi, II, 573)

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ehrama girmək yeri olan "Zülxuleyfə"yə çatanda ehrama girib ümrəyə niyyət etdi. Seçilmiş əshab da onun kimi davrandı. Onlar yüksək səslə Allahın adını zikr etməyə başladılar. Könülləri Kəbeyi-Müəzzəməyə qovuşmaq həsrəti ilə yanırdı. Mənəvi bir həyəcan və vəcd möminləri addım-addım oraya yaxınlaşdırırdı.

Ancaq müsəlmanların Məkkəyə doğru yola çıxdıqlarını eşidən qureyşlilərdə müdhiş bir narahatlıq yarandı. Onlar möminləri Məkkəyə buraxmamaqla bağlı qərar qəbul etdilər. Xalid bin Vəlid və İkrimənin komandanlığı altında iki yüz nəfərlik bir ordu tez yola çıxdı.

Rəsulullah -səllallahu əleyhi və səlləm- Səniyyə adlı yerə gəldi. Oradan qureyşlilərin olduğu yerə enmək mümkün idi. Ancaq Peyğəmbərin dəvəsi Qasva orada çökdü. İnsanlar:

"-Qalx, qalx, yüyür, yüyür!,-desələr də, dəvə qalxmadı.

İPƏKYOLU NƏŞRİYYATI

Bu dəfə:

- Qasva çöküb qaldı. Qasva çöküb qaldı!,-dedilər.

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

- Xeyr! Qasva çöküb qalmadı. Onun belə bir xasiyyəti də yoxdur. Ancaq onu Məkkəyə girməyə qoymayan Cənab Haqq çökdürmüşdür!,-buyurdu.

Sonra Peyğəmbər -səllallahu əleyhi və səlləm- sözlərinə davam etdi:

- Nəfsim qüdrət əlində olan o Zata and içirəm ki, Qureyş müşrikləri Allahın Həramında (döyüşmək, qan tökmək və qohumluq haqlarını pozmaq kimi) edilməsinə qadağa qoyduğu şeylərə itaət etmək məqsədilə məndən nə qədər ağır şeylər tələb etsələr də, sülh üçün, şübhəsiz, onu qəbul edəcəyəm!".

Bundan sonra dəvəni qaldırmaq istədi. Dəvə tez yerindən qalxdı. Rəsulullah -səllallahu əleyhi və səlləm- yönünü Qureyşin olduğu tərəfə çevirdi və suyu az olan bir quyunun yanına endi. Bura Xudeybiyədən ən uzaq nöqtə idi. Quyunun suyu az idi. Bir azdan sonra bu su da qurudu. Allah Rəsuluna susuzluqdan şikayət etdilər. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- ox torbasından bir ox çıxartdı, onu quyunun dibinə sancmalarını söylədi. Çox keçmədən Allahın izni ilə su fışqırmağa başladı. Əshab oradan ayrılanadək su axdı.

Onlar belə bir vəziyyətdə ikən Huza qəbiləsinin rəisi Budeyl qəbiləsindən bir qrup adamla gəldi. Məkkəlilərin narahatlıqlarından və savaşa hazırlaşdıqlarından danışdı. Onların bu narahatlıqlarına cavab olaraq Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Budeylə gəlişlərinin məqsədlərini anladaraq belə buyurdu:

"Biz kimsə ilə döyüşmək üçün gəlmədik. Məqsədimiz Beytullahı ziyarət etməkdir, ümrədir. Müharibə Qureyşi əldən salmış və onlara çox zərər vermişdir. Əgər istəyirlərsə, aramızdakı mübarizəni dayandırmaq üçün onlarla bəlli bir müddət anlaşma imzalayaq. Bu vəziyyətdə onlar mənimlə insanların arasından çəkilərlər. Əgər mən başqa insanlara qalib gəlsəm, istəsələr insanların girdikləri Islama qureyşlilər də daxil olarlar. Əgər mən qalib gəlməsəm, qureyşlilər mənimlə savaşmaq əziyyətindən qurtulub rahat olarlar. Əgər Qureyş bu təklifimi qəbul etməsə, vallah, mən bu din uğrunda başım gövdəmdən ayrılanadək döyüşəcəyəm. Şübhəsiz, Allah vədini yerinə yetirəcək".

Budeyl Məkkəyə döndü və Rəsulullahın -səllallahu əleyhi və səl-ləm- bu sözlərini Qureyşə çatdırdı. Bundan sonra Urvə bin Məsud ayağa durub:

"-Bu adam sizə yaxşılıq və xeyir yolu göstərir. Onu qəbul edin və an-laşma imzalamaq üçün məni Onun yanına göndərin!,-dedi.

Qureyşlilər:

- Çox yaxşı, get!,-dedilər.

Urvə Allah Rəsulunun yanına gəldi. Peyğəmbər -əleyhissəlatü vəssə-lam- ona da Budeylə söylədiklərinə bənzər şeylər dedi… Urvə bu zaman göz altından Rəsulullahın əshabını araşdırırdı. O geri qayıdanda gördük-lərini qureyşlilərə belə danışdı:

- Ey qövmüm, yaxşı dinləyin! Vallah, mən çox kralın hüzuruna elçi olaraq getdim. Kisranın, Qeysərin, Nəcaşinin yanına getdim. Ancaq müsəlmanların Məhəmmədə olan bağlılığını, heç bir millətdə görmədim… Bir şey əmr etsə, hamısı birdən yüyürür. Dəstəmaz alsa, dəstəmaz suyundan əldə etmək üçün bir-biri ilə mübarizə aparırlar. Bir şey danışsa, tez susurlar. Ona təzim etdiklərinə görə üzünə diqqətlə baxmırlar, başlarını önlərinə əyirlər. Saçından bir tük düşsə, tez onu alıb saxlayırlar. Bu Zat sizə məqbul bir təklif edir, onu qəbul edin!".

Ancaq müşriklər bu elçilərə qulaq asmayıb, basqın etmək üçün bir hərbi birlik göndərdilər. Bu birlik müsəlmanlar tərəfindən əsir edilsə də, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- döyüşməyə gəlmədiyini, ancaq ümrə ibadətini yerinə yetirib geri dönəcəklərini onlara çatdırmaq üçün ələ keçirilən müşrikləri azad etdi.

Peyğəmbərin çadırı Xudeybiyədə Məkkə Həramı kənarında olan bir yerdə qurulmuşdu. Ancaq Allah Rəsulu -səllallahu əleyhi və səlləm- orada olduğu müddət bütün namazlarını Məkkə Həramının sərhədlərinə daxil olan yerdə qılardı.

Çünki Məscidi-Həramda qılınan bir namaz başqa yerdə qılınan yüz min namazdan daha fəzilətlidir.

İPƏKYOLU NƏŞRİYYATI

**Beyətür-Ridvan: Allahın razı olduğu beyət**

Bu müddət ərzində müşriklərdən bir neçə elçi də gəlib getdi. Ancaq onların heç biri ilə anlaşma və sülh üçün qəti bir nəticə əldə etmək mümkün olmadı. Bu dəfə Peyğəmbər -səllallahu əleyhi və səlləm- Həzrət Osmanı -radiyallahu anh- Məkkəyə – müşriklərin yanına göndərdi. Ona:

"Qureyşlilərin yanına get! Onlara xəbər ver ki, biz buraya heç kimsə ilə döyüşmək üçün gəlmədik! Biz ancaq bu Beytullahı ziyarət etmək üçün, onun toxunulmazlığına təzim etmək üçün gəldik. Yanımızdakı qurbanlıq dəvələri kəsəcək və geri qayıdacağıq! Sonra onları da İslama dəvət et!",- buyurdu. Eyni zamanda oradakı kişi-qadın bütün möminlərlə görüşməsini, Məkkənin tezliklə fəth ediləcəyini müjdələməsini, uca Allahın dininə yardımçı olduğunu, Məkkədə imanın üzə çıxacağı günün yaxınlaşdığını da xəbər verməsini əmr etdi. (İbni-Sad, II, 97; İbni-Qəyyum, III, 290)

Həzrət Osman -radiyallahu anh- Rəsulullahın əmrinə uyğun olaraq tez Məkkəyə getdi. Müşriklərə bildirdi ki, onların niyyəti ümrə ziyarətini həyata keçirəndən sonra geri dönməkdir. Buna baxmayaraq, müşriklər yenə də icazə vermədilər. Onlar həzrət Osmanı həbs edərək ona:

"-İstəyirsənsə, sən təvaf edə bilərsən!...,-dedilər.

Ancaq özünü Allaha və Onun Rəsuluna həsr etmiş olan mübarək səhabə həzrət Osman -radiyallahu anh-:

- Həzrət Peyğəmbər Kəbəni təvaf etmədikcə mən də etmərəm! Mən Beytullahı ancaq Onun arxasında ziyarət edə bilərəm…", -deyərək Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- olan sədaqətini bildirdi. (Əhməd, IV, 324)

Həzrət Osmanın -radiyallahu anh- geri qayıtması gecikdi. Onun öldürülməsi ilə bağlı şayiə yayıldı. Bundan sonra müsəlmanlarla müşriklərin arasında gərginlik artdı. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- onu təmsil edən həzrət Osmanın ölüm ehtimalı ilə bağlı olaraq tez əshabını topladı:

"Bəlli olan budur ki, müşriklərlə vuruşmadıqca buradan ayrılmayacağıq!,-buyurdu". (İbni-Hişam, III, 364)

Bundan sonra Allah yolunda canlarını fəda etmək üçün bütün əshabdan beyət istədi. Qadın-kişi bütün möminlər: "Allah Rəsulunun könlündə nə arzusu varsa, ona uyğun olaraq beyət edirəm", -deyərək Rəsulullahın bu arzusunu sevə-sevə yerinə yetirdilər. (Vaqidi, II, 603)

İPƏKYOLU NƏŞRİYYATI

Möminlər Allah yolunda ölənədək döyüşməyə söz verdilər. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- mübarək əllərini tutaraq beyət etdilər. Beyətin sonunda Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir əli ilə o biri əlini tutaraq: "Bu da Osmanın beyətidir!",-buyurmaqla Osmana -radiyallahu anh- olan etimad və sevgisini əməli olaraq göstərdi. (Buxari, "Əshabun-Nəbi", 7)

Bir ağacın altında baş verən bu beyətə "Beyətür-Ridvan", ya da "Xudeybiyə Beyəti" deyildi. O gün bir münafiqdən başqa, bütün əshab beyət etmişdi. Bu beyət seçilmiş əshabın uca Haqqın rizasını qazanmasına yol açdı:

**"**(Ey Peyğəmbər!) **And olsun ki,** (Xudeybiyədə) **ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı oldu.** (Allah) **onların ürəklərində olanları** (sənə sadiq qalacaqlarını, əhdə vəfa edəcəklərini) **bildi. Onlara** (öz dərgahından) **arxayınlıq** (rahatlıq, səbir, səbat, mənəvi qüvvə) **göndərdi…"** (əl-Fəth, 18)

**Xudeybiyə sazişi: Dəvətin yeni mərhələsi**

Can fədakarlığı ilə edilən Beyətür-Ridvan hadisəsini eşidən müşriklər müdhiş bir təlaşa düşdülər. İşin çox ciddi olması ürəklərinə qorxu salmışdı. Tez sülh bağlamağa razılaşıb Süheyl bin Amrı həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yanına göndərdilər. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- Süheyli görəndə onun adının "asanlıq" mənasında olmasından yararlanaraq: "İşiniz artıq asanlaşdırıldı, sizin yanınıza Süheyl gəldi",-buyurdu. Bundan sonra həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- də uca Allahın:

**"Əgər onlar sülhə meyl etsələr, sən də sülhə meyl et!…"** (əl-Ənfal, 61) ayəsinə uyğun hərəkət etdi.

Müşriklərin ilk məqsədi o il müsəlmanların ümrə ibadətini yerinə yetirmələrinə icazə verməmək idi. Bununla birlikdə, zahirən ağır görünən bir sıra şərtləri də var idi. Uzun və qızğın mübahisələrdən sonra sülh şərtləri qəbul edildi.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- sazişin şərtlərini yazmaq vəzifəsini Həzrət Əliyə verdi. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- əmri ilə həzrət Əli -radiyallahu anh- öncə "Bəsməleyi-Şəri-

İPƏKYOLU NƏŞRİYYATI

fə"ni yazmaq istəyirdi ki, Süheyl buna etiraz etdi. Bəsmələ əvəzinə "bismikellahümme" yazıldı.

Bu ifadədən sonra Süheyl Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- Allahın Rəsulu olduğunun yazılmasına da razı olmadı:

"Allahın Rəsulu olduğunu qəbul etsəydik, səninlə savaşardıqmı? Bu gün sənin Kəbəni ziyarət etməyinə mane olardıqmı?",-dedi.

Bundan sonra onsuz da sülh şərtlərinə görə çox narahat olan əshabın qəzəbi daha da artdı. Həzrət Əli -radiyallahu anh- əlindəki qələmi yerə qoydu:

"Allaha and içirəm ki, mən "Allahın Rəsulu" ifadəsini silmərəm, ya Rəsulallah!..",-dedi.

O zaman Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- Süheylə: "Siz inkar etsəniz də, mən Allahın Rəsuluyam",-deyərək yazılmış cümləni ona göstərmələrini istədi. O, həmin ifadənin üstündən öz mübarək əli ilə xətt çəkdi və onun yerinə Məhəmməd bin Abdullah yazdırdı.

O gün Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir çox hikmətlərə görə müqaviləni imzaladı. Sazişin maddələrindən bəziləri belədir:

1. Müqavilənin müddəti on ildir.

2. Müsəlmanlar Kəbəni bu il ziyarət etməyəcəklər. Bu ziyarət bir il sonra olacaq. Gələn il ziyarətə gələnlər Məkkədə üç gün qalacaq. Bu müddət ərzində müşriklər Məkkədən kənara çıxacaqlar, müsəlmanlarla təmasları olmayacaq.

3. Qureyşlilərdən biri müsəlman olsa belə, Mədinəyə sığındığı təqdirdə geri qaytarılacaq, ancaq Mədinədən Məkkəyə sığınanlar geri qaytarılmayacaq.

4. Başqa ərəb qəbilələri istəsələr, müsəlmanların, istəsələr, qureyşlilərin tərəfinə keçəcəklər.

Müqavilənin maddələri yazılıb qurtaranda Qureyş təmsilçisi Süheyl bin Amrın oğlu Əbu Cəndəl ayaqlarındakı zəncirləri sürüyərək yavaş-yavaş Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- yanına gəldi. Əbu Cəndəl -radiyallahu anh- müsəlman olduğu üçün çox işgəncə görmüşdü. Bir fürsət əldə edərək onların yanından qaçmış və müsəlmanlara pənah gətirmişdi. Süheyl sazişin şərtlərinə uyğun olaraq, ilk geri veriləcək şəxsin oğlu olduğunu söylədi və əlindəki ağacla Əbu Cəndəlin üzünə vurdu. Hadisələrə kədərlə baxan rəhmət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- Əbu Cəndələ anlaşmanın şərtlərinin tətbiq edilməməsini və onu Peyğəmbərə bağışlamasını Süheyldən

İPƏKYOLU NƏŞRİYYATI

xahiş etdi. Ancaq daşürəkli müşrik buna razı olmadı. Əbu Cəndəl də-radiyallahu anh- müşriklərə təslim edilərkən fəryadlarla müsəlmanlara yalvarır, yardım istəyirdi. Son dərəcə kədərli bir şəkildə: "Məni yenidən eyni zülm atəşinin içinə atacaqsınızmı?",-deyə müsəlmanlara müraciət edəndə də onların ürəkləri parçalanmışdı. Müsəlmanlar onun vəziyyətinə dözə bilməyib ağlamağa başladılar. O zaman Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Əbu Cəndələ: *"Ey Əbu Cəndəl! Bir az daha səbr et, döz! Uca Allahdan bunun mükafatını gözlə! Şübhəsiz, uca Allah sən və sənin yanında olan zəif, kimsəsiz müsəlmanlar üçün bir genişlik və çıxış yolu yaradacaq. Biz bu qövmlə bir sülh anlaşması bağladıq. Bununla bağlı onlara Allahın əhdi ilə söz vermişik. Onlar da bizə Allahın əhdi ilə söz verdilər. Sözümüzə vəfasızlıq edə bilmərik. Çünki verdiyimiz sözü yerinə yetirməmək bizə yaraşmaz!"*,-buyuraraq ona təsəlli verdi. (Əhməd, IV, 325; İbni-Hişam, III, 367)

Sonra mərhəmət ümmanı Peyğəmbərimiz Süheylə: *"Sən bunu etmə, sən onu mənə bağışla!"*,-deyərək tələbini təkrar etdi. Ancaq Süheyl heç bir təklifi qəbul etmirdi. Peyğəmbərimiz: "Elədirsə, onu mənə görə himayənə götür!",-deyə xahiş etdi. Süheyl bunu da qəbul etmədi. Onun bu israrını görən Qureyş təmsilçilərindən Huveytib ilə Mikrəz: "Ey Məhəmməd! Sənin xatirin üçün onu biz himayəmizə götürürük, ona işgəncə verməyəcəyik",-dedilər. (Vaqidi, II, 608; Bəlazuri, I, 220)

Beləliklə, Rəsulullah -səllallahu əleyhi və səlləm- bir az da olsa, sakitləşdi, geri döndü.

Müşriklərin bu inadkar və təkəbbürlü davranışlarına artıq dözə bilməyən Həzrət Ömər -radiyallahu anh- o gün könlündəki iman coşqusu ilə özündən çıxdı, onu zorla sakitləşdirə bildilər. Həzrət Əbu Bəkirdən -radiyallahu anh- başqa bütün səhabələrin vəziyyəti də Həzrət Ömərin durumundan fərqli deyildi. Zahirən ağır məğlubiyyət kimi görünən bu anlaşmada Həzrət Ömərin Peyğəmbərin əmrinə baxmayaraq, öz fikrini bildirməsinə cavab olaraq Peyğəmbər-səllallahu əleyhi və səlləm-:

*"Mən Allahın elçisiyəm, Ona üsyan edə bilmərəm. Yardımçı Odur!"*,-buyuraraq gördüyü işin ilahinin buyruğu ilə olduğuna işarə etdi. (Buxari, "Məğazi", 35; Müslüm, "Cihad", 90-97)

*****

Anlaşmanın razılaşdırılmasından sonra Süheyl oğlunu alıb sevinc və məmnuniyyətlə Məkkəyə döndü. Allah Rəsulu da-səllallahu əleyhi və səlləm- seçilmiş əshabına belə buyurdu:

*"Tez olun, artıq qurbanlarınızı kəsin və başınızı qırxın!..".*

Ancaq seçilmiş əshabdan heç kim bu əmri yerinə yetirmək üçün ayağa qalxmadı. Onlar sirrini başa düşə bilmədikləri bir məsələnin dumanı içində kədərli və qəmli idilər. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- əmrini üç dəfə təkrar etdi. Yenə heç kim yerindən tərpənmədi. Ancaq bu bir üsyan deyildi, Kəbəni ziyarət sevgisinin ürəklərini yandırması nəticəsində onlar elə düşündülər ki, təzəcə bağlanmış anlaşma ləğv olunacaq. Axı, onların hər biri bir gün əvvəl:

"Allah Rəsulunun könlündə nə arzusu varsa, ona uyğun olaraq beyət edirəm",-deyərək Peyğəmbərə -səllallahu əleyhi və səlləm- bağlılıq və itaət andı içmişdilər.

Əshabının bu hərəkətsizliyi qarşısında Allah Rəsulu -səllallahu əleyhi və səlləm- son dərəcə kədərləndi. Kədərli bir şəkildə dəyərli xanımı Ümmü Sələmənin çadırına girdi. Vəziyyəti Ümmü Sələməyə danışdı. Mübarək anamız Allah Rəsuluna təsəlli verərək bu sözləri söylədi:

*"Ey Allahın Rəsulu! Siz əshabınıza heç bir söz söyləmədən öz qurbanınızı kəsin və təraş olun! Belə olanda onlara ağır gələn bu vəziyyətin gərginliyi altında olsalar da, Sizin etdiyinizə tabe olacaqlar, onları üzürlü hesab edin!".*

Bu məsləhətləşmədən sonra çadırından çıxan Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- danışıldığı kimi də etdi. Bu halı görən əshab anlaşmanın şərtlərinin dəyişməyəcəyini anladılar və hamısı Rəsulullahın -səllallahu əleyhi və səlləm- etdiklərinə tabe oldular. Qurbanlarını kəsdilər, saçlarını təraş etdilər. Bu hadisəni müşahidə edən Ümmü Sələmə -radiyallahu anh-:

*"Müsəlmanlar qurbanlıqlarına doğru elə sürətlə hərəkət etdilər ki, onların bir-birini əzəcəyindən qorxdum"*,-demişdir. (Buxari, "Şurut", 15; Əhməd, IV, 326, 331; Vaqidi, II, 613)

Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə əshabı qurbanlarını kəsib təraş olduqdan sonra uca Allah bir qasırğa göndərdi. Əshabın saçını havaya qaldırıb, Həramın içinə atdı. Səhabələr bunu ümrələrinin qəbul

olunduğuna işarə kimi başa düşdülər. Bundan sonra onlar Mədinəyə doğru hərəkət etdilər.

Müsəlmanlar bağlanılmış sülh anlaşmasının hikmətini ilk anda qavraya bilmədikləri üçün göstərdikləri məsuliyyətsizliyə və işə ciddi yanaşmadıqlarına görə qorxuya düşdülər. Düşündülər ki, onlarla bağlı vəhy enəcək və həlak olacaqlar. Bu zaman Fəth surəsi nazil oldu:

"(Ey Peyğəmbər!) **Həqiqətən, Biz sənə** (müsəlmanların fütuhatının başlanğıcını qoyan, Kəbənin yerləşdiyi Məkkə şəhərinin, habelə bir çox başqa məmləkətlərin fəthinə səbəb olacaq Xudeybiyə sülhü ilə) **açıq-aşkar bir zəfər bəxş etdik! Allah** *(bununla)* **sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam-kamal edəcək və səni düz yola müvəffəq edəcək. Allah sənə yenilməz qələbə verəcək!"**. (əl-Fəth, 1-3)

Fəth surəsi möminlərə Xudeybiyə anlaşması ilə açılmış olan zəfər qapılarının müjdələrini verirdi. Belə ki çox keçmədən müjdələr bir-bir gerçəkləşməyə başladı: Ətrafda olan qəbilələr Rəsulullahın Kəbəni ziyarət etmək üçün çıxdığı bu yolçuluğu "dönüşü olmayan bir yolçuluq" deyə adlandırmışdılar. Ancaq Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- heç bir zərər görmədən sağ-salamat geri döndüyünü görəndə təlaş içində gəlib, Ondan üzr istədilər. Uca Allah onların bu halını mübarək ayələrdə belə ifadə edir:

**"Yoxsa** (ey münafiqlər!) **siz elə güman edirdiniz ki, Peyğəmbər və möminlər** (döyüşdə həlak olub) **bir daha öz ailələrinə qayıtmayacaqlar? Bu sizin ürəyinizə xoş gəlmiş və siz** (Allah barəsində) **pis fikrə düşmüşdünüz. Və** (elə buna görə də) **siz məhvə düçar edilmiş** (ya da xeyirsiz) **bir qövm oldunuz! Hər kəs Allaha və Onun peyğəmbərinə iman gətirməsə,** (bilsin ki) **Biz kafirlər üçün cəhənnəm odu hazırlamışıq!".** (əl-Fəth, 12-13)

### Parlaq Fəth: Qat-qat artan hidayət bərəkəti

Xudeybiyə sülhünün ilk baxışda görünən tərəfinə baxaraq sevinən müşriklər, əslində, özləri də bilmədən möminlərin önünü kəsən maneələri ortadan qaldırmış, onları özlərindən daha üstün bir mövqeyə çatdırmışdılar. Rəsulullahdan -səllallahu əleyhi və səlləm- başqa demək

olar ki, bütün səhabələr bu anlaşmanın onlara qarşı olduğunu düşünmüş, onu qəbul etməmişdilər. Bu isə müşriklərin gözlərinə daha bir qara pərdə çəkmiş, böyük bir uğur qazanmış şəxs ədası ilə şərtləri çəkinmədən imzalamışdılar. Ancaq başlanğıcda sirri möminlərə belə, örtülü olan bu sülhün gerçək mahiyyəti anlaşmadakı şərtlər yerinə yetirildikcə yavaş-yavaş ortaya çıxmağa başladı.

Bu sülhün gətirəcəyi bərəkəti öncədən bilən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Xudeybiyə anlaşmasının şərtlərinə son dərəcə diqqətlə yanaşır, ona əməl edir, bu şərtlərin verdiyi imkanlardan da istifadə etməyə çalışırdı. Belə ki bir sıra məkkəli mömin qadınların Mədinəyə sığınmasından sonra müşriklərin onlarla bağlı istəklərini rədd etdilər. Çünki anlaşmadakı maddə ancaq kişilərə aid idi. Cənab Haqq da qadınların təslim edilməməsini əmr buyururdu:

**"Ey iman gətirənlər! Mömin qadınlar sizin yanınıza mühacir kimi gəldikləri zaman onları imtahana çəkin. Allah onların imanını çox gözəl bilir** (onları yoxlayıb bilmək sizə lazımdır)**. Əgər bunların** (bu qadınların həqiqi) **mömin olduqlarını bilsəniz, artıq onları kafirlərin yanına qaytarmayın. Nə bunlar** (bu qadınlar) **onlara** (kafirlərə)**, nə də onlar bunlara halaldır. Onların** (kafirlərin həmin qadınlara) **xərclədiklərini** (mehri) **özlərinə qaytarıb verin. Bunların** (bu qadınların) **mehrlərini özlərinə verdiyiniz təqdirdə onlarla evlənməyinizdən sizə heç bir günah gəlməz. Kafir qadınları öz kəbininiz altında saxlamayın.** ( Həmin qadınlara) **verdiyiniz mehri** (onların ərə getdiyi kafirlərdən) **istəyin.** (Kafirlər də İslamı qəbul edib möminlərlə evlənən qadınlara) **sərf etdikləri mehri** (sizdən) **istəsinlər. Allahın hökmü budur. O sizin aranızda** (belə) **hökm edər. Allah** (hər şeyi) **biləndir, hikmət sahibidir!".** (əl-Mümtəhinə, 10)

Bu zaman Əbu Basir adlı müsəlman olmuş bir məkkəli də Mədinəyə sığınmışdı. Ancaq həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- şərtlərə uyğun olaraq onu müşriklərə vermək məcburiyyətində qaldı. Əbu Basir də öncə Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bu hərəkətini anlamayaraq: "Məni bütə sitayiş etməyə göndərirsənmi?,-sözləri ilə öz heyrətini bildirdi. Rəsulullah -səllallahu əleyhi və səlləm- sakit bir şəkildə ona təsəlli verdi: "Ey Əbu Basir! Biz əhdimizi poza bilmərik. Ancaq sən bir az səbir et! Uca Allah sənə və sənin kimilərinə, əlbəttə, bir qurtuluş yolu göstərəcək".

İPƏKYOLU NƏŞRİYYATI

Bu sözlərdən sonra Əbu Basir səsini çıxartmadı. Peyğəmbərin hökmünə boyun əydi. Bütün müsəlmanların vəziyyətini düşünərək müşriklərə təslim oldu. Ancaq o, Məkkəyə deyil, ölümə aparılırdı. Bunu bildiyinə görə, bir fürsət taparaq yolda onu aparanlara hücum etdi. Onu aparan iki nəfərdən birini-Xuneysi öldürdü, o birisini isə əlindən çıxartdı. Əbu Basir Xuneysin paltarını, əşyasını və qılıncını götürdü, Allah Rəsulunun yanına gətirdi və:

"-Ey Rəsulullah, bunların beşdə birini ayır, özünə götür!,-dedi.

Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

- **Mən bunun beşdə birini alsam, onlarla bağladığım anlaşmaya riayət etməmiş olaram. Ancaq sənin hərəkətin də, öldürdüyün adamın əşyası da sənə aiddir**",-buyurdu. (Vaqidi, II, 626-627)

Əlindən qaçırdığı müşrik də geri qayıtdı və Rəsulullahdan -səllallahu əleyhi və səlləm- yenə də onu istədi. Bu dəfə Əbu Basir:

"Ey Allahın Rəsulu! Siz məni bunlara verməklə anlaşmaya əməl etdiniz. Ancaq mən nəfsimi xilas etdim",-dedi.

Bundan sonra Rəsulullahın -səllallahu əleyhi və səlləm- sözlərindəki hikməti anladı, Mədinədən çıxdı. Dəniz sahilində yerləşən, Məkkə ilə Şam arasında olan İs deyilən bir yerə çatdı, orada yaşadı. Qısa bir müddət sonra bu yer bitərəf bölgə olaraq sığınacağa çevrildi. Əbu Cəndəlin də xilas olub sığındığı bu yerdəki müsəlmanların sayı çox keçmədən üç yüzə çatdı. Məkkəlilərin Şam ticarət yolu təhlükəli oldu. Bundan sonra məkkəli müşriklər əlacsız qalaraq Allah Rəsulundan -səllallahu əleyhi və səlləm- bu məsələ ilə bağlı maddənin ləğv edilməsini tələb etdilər. Yəni Məkkədən müsəlman olub qaçanların Mədinəyə sığınmalarına icazə verdilər. Beləliklə, müsəlmanlar üçün uyğun olmayan bir maddə qısa zamandan sonra möminlərin xeyrinə oldu.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Əbu Basir camaatına məktub göndərdi. Ancaq Əbu Basir ölmək üzrə idi. Məktubu oxudu və o məktub əlində olduğu halda ruhunu təslim etdi. Əbu Cəndəl onu öldüyü yerdə dəfn etdi və qəbrinin yanında bir məscid tikdirdi. Əbu Cəndəl yanındakı müsəlmanlarla Mədinəyə gəldi və Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə birlikdə bir çox cihadda iştirak etdi.

*****

İPƏKYOLU NƏŞRİYYATI

Xudeybiyədə ortaya çıxan bu sülh şəraiti İslam dininin təbliğ edilməsinin sürətlənməsi üçün bir dönüş nöqtəsi oldu. Çünki uca Allah bunu "Fəthi-Mübin" olaraq dəyərləndirmişdir.

Xudeybiyənin ilk müsbət nəticəsi İslamın sürətlə yayılmasında özünü göstərdi. Bu sülh dönəmində İslamın təbliğinə yeni imkanlar və məkanlar açıldı. Bunun hesabına müsəlmanlar müşriklərlə bir araya gəlməyə, onlara Qurani-Kərim oxumağa və İslam ilə bağlı açıq danışmağa başladılar. Müsəlman olduqlarını gizləyənlər də artıq inanclarını qorxmadan elan etdilər.

Halbuki, bundan öncə hər iki tərəf bir-biri ilə belə rahat görüşə bilmirdi. Sülhdən sonra müşriklər Mədinəyə sərbəst gəlir, müsəlmanlar da Məkkəyə sərbəst gedə bilirdilər. Oradakı ailələri, dostları və başqa insanlarla görüşüb danışmaq imkanları əldə edirdilər. Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- hal və hərəkətləri, möcüzələri, əxlaqı və tutduğu yolun gözəlliyi ilə bağlı müsəlmanların verdiyi bilgilər, öyüdlər artıq dinlənilir, bu yolla da müşriklərin qəlbləri yumşalaraq İslama doğru yönəlməyə başlayırdı. Onsuz da çöllərdə yaşayan ərəblər də müsəlman olmaq üçün Qureyş müşriklərinin iman etmələrini gözləyirdilər. Bu müddət ərzində müşriklərin liderlərindən Amr bin As, Xalid bin Vəlid və Osman bin Talha kimi şəxslər belə müsəlman olmuşdular.

İslam təmsilçiləri təhlükəsiz olaraq müxtəlif bölgələrə gedirdilər. Onlar bütün vasitələrdən istifadə edərək insanlara İslamı izah etmək imkanı qazanırdılar. Bu mərhələdə müsəlman olanların sayı qat-qat artdı.

İbni-Hişam deyilənlərə bu sözləri də əlavə edir:

"Rəsulullah -səllallahu əleyhi və səlləm- Xudeybiyəyə gedərkən min dörd yüz nəfərlə yola çıxmışdı. Bundan iki il sonra Məkkənin fəthində isə yanında on min, başqa bir rəvayətə görə, yolda onlara qoşulan iki min nəfərlə birlikdə on iki min müsəlman var idi. Bu rəqəmlər Zührinin təsbitlərinin nə qədər doğru olduğunu göstərir". (Heysəmi, VI, 170; Ibni-Hişam, III, 372)

İPƏKYOLU NƏŞRİYYATI

## HİCRƏTİN YEDDİNCİ İLİ

### Hökmdarları İslama dəvət

Bütün insanlığa göndərilmiş bir "Rəsul" olan Peyğəmbər -səllallahu əleyhi və səlləm- Xudeybiyə anlaşmasından sonra uzaq-yaxın əli çatan bütün ölkələri İslama dəvət etməyə başladı. Çünki Allahın əmri belə idi:

"(Ey Rəsulum!) **De: "Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş Peyğəmbəriyəm.** (O Allah ki) **göylərin və yerin hökmü Onundur…"** (əl-Əraf, 158)

**"Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et. Əgər etməsən, risalətini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq…"** (əl-Maidə, 67)

"(Ey Rəsulum!) **Biz səni bütün insanlara müjdə verən, qorxudan bir Peyğəmbər olaraq göndərdik. Ancaq insanların çoxu bilməz!".** (Səbə, 28)

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- dünya dövlətlərini İslama dəvəti yazılı məktublar vasitəsi ilə oldu. Bu məktublardan ən məşhurları altı, ya da səkkiz ədəddir. Rəsulullah -səllallahu əleyhi və səlləm- hər bir məktubu seçilmiş səhabələrindən birinə verərək göndərmişdir. Kainatın Fəxri hökmdarlara məktub yazdırmaq istəyəndə seçilmiş əshab: "Ey Rəsulullah! Onlar bu məktubu möhürlü olmasa, oxumazlar",-dedilər. Bundan sonra Peyğəmbər -əleyhissəlatü vəssəlam- gümüşdən bir üzük düzəltdirdi. Üzərinə üç sətir olan "Allah-Rəsul-Məhəmməd" kəlmələrini nəqş etdirdi və bu üzükdən məktublarında möhür kimi istifadə etdi.

Üzüyün üzərinə "Məhəmmədin Rəsulullah" tərkibi nəqş edilmişdi, ancaq Allaha itaət mənasında "Allah" mübarək adı ən yuxarıda, "Rəsul" ortada və "Məhəmməd" adı da aşağıda yazılmışdı.

*****

Seçilmiş əshabdan Dihyətül-Kəlbi -radiyallahu anh- Bizans imperatoru Herakliyüsə Allah Rəsulunun məktubunu apardı. Farsları məğlub edən Bizans imperatoru Herakliyus qələbədən sonra Suriyada olduğu zaman həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- İslama dəvət məktubu

İPƏKYOLU NƏŞRİYYATI

ona çatdı. O, bu məktuba görə əsəbiləşmədi, məktubla maraqlandı, nəyin təbliğ edildiyini soruşdu. Bizans imperatoru bu məsələlərlə bağlı sual vermək üçün həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yerlilərindən bəzilərinin onun yanına gətirilməsini əmr etdi. Bu zaman Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- qatı düşmənlərindən biri olan Əbu Süfyan da məkkəli tacirlərin başçısı olaraq Şama gedən bir karvanda idi. O zaman Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ilə Qureyş müşrikləri atəşkəslə bağlı danışıq aparırdılar. Herakliyusin adamları onları gördülər və onu imperatorun yanına apardılar. Herakliyus və adamları İliyada, yəni Beytül-Maqdisdə idi. Yanında rumların liderlərinin olduğu bir vaxt Herakliyus onları qəbul etdi və bir tərcüməçi gətirilməsini istədi. Herakliyusun əmri ilə tərcüməçi:

"-Özünü Peyğəmbər adlandıran bu şəxsə nəsil baxımından ən yaxın olan hansınızdır?,-deyə soruşdu.

Əbu Süfyan:

- Ən yaxın olan mənəm!,-dedi.

Bundan sonra Herakliyus:

- Onu və dostlarını yanıma gətirin! Ancaq mən onunla danışanda dostları da yanında olsunlar!,-dedi. Sonra tərcüməçiyə baxıb dedi:

- Bunlara söylə ki, mən o şəxs haqqında bu adamdan bəzi şeylər soruşacağam. Mənə yalan söyləsə, "yalan söyləyir",-desinlər!

Belə ki "Vallah, dostlarımın yalan söylədiyimi orada-burada söyləyərlər deyə utanmasaydım, onun haqqında yalan danışardım!",-deyən Əbu Süfyan sonrakı söhbəti belə danışır:

"Herakliyusun məndən soruşduğu ilk sual belə oldu:

- Onun nəsli necədir?

Mən:

- Onun nəsli çox böyükdür!,-dedim.

- Sizdən ondan əvvəl Peyğəmbərlik iddiasında olan bir kimsə var idimi?,-dedi.

- Yox idi, -dedim.

İPƏKYOLU NƏŞRİYYATI

- Onun nəslinin nümayəndələri içində idarəçi olan var idimi?, -dedi.

- Xeyr,-dedim.

- Ona tabe olanlar xalqın seçilmiş adamlarıdır, yoxsa aşağı təbəqənin nümayəndələridir?,-dedi.

- Aşağı təbəqənin nümayəndələridir,-dedim.

- Ona tabe olanların sayı artır, yoxsa azalır?,-dedi.

- Sayları artır…,-dedim.

- Onların içində Onun dininə girdikdən sonra bu dini bəyənməyib dinindən dönən varmı?,-dedi.

- Yoxdur!,-dedim.

- Bu iddianı irəli sürməmişdən öncə Onu heç yalançılıqda ittiham etmişdinizmi?,-dedi.

- Xeyr!,-dedim.

- Onun verdiyi sözü yerinə yetirmədiyi hal olubmu?.-dedi.

- Xeyr! Verdiyi sözü yerinə yetirər, ancaq indi biz onunla bir müddət üçün anlaşma bağlamışıq. Bu müddət ərzində onun nə edəcəyini bilmirik!,-dedim. Onu pisləmək üçün bundan başqa bir söz tapa bilmədim!

- Onunla heç döyüşdünüzmü?,-dedi.

- Bəli,-dedim.

- Bu döyüşlərin sonu necə oldu?,-dedi.

- Bəzən O, bizi məğlub etdi, bəzən də biz Onu!,-dedim.

- Yaxşı, sizə nəyi əmr edir?,-dedi.

- Bizə: "Ancaq Allaha ibadət edin, heç bir şeyi Ona şərik qoşmayın, atalarınızın ibadət etdiyi bütlərdən imtina edin!",-deyir. Namazı, doğruluğu, həyalı və namuslu olmağı, qohum-əqrəbaya yaxşı münasibət göstərməyi əmr edir,- dedim.

Bundan sonra Herakliyus tərcüməçiyə dedi:

- Ona söylə, Onun nəslini soruşdum, Onun nəslinin çox ali olduğunu söylədin. Peyğəmbərlər də qövmlərinin ali soylarının içindən göndərilir.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

Ondan əvvəl Peyğəmbərlik iddiasında olmuş başqa bir kimsənin olub-olmadığını soruşdum, xeyr dedin. Ondan öncə bu iddiada olmuş bir başqa kimsə ortaya çıxmış olsaydı, onu örnək alardı,-dedim.

Nəsli və əcdadı içərisində idarəçi mülk sahibi olan bir şəxs olubmu,-deyə soruşdum. Xeyr, dedin. Əgər əcdadından malı-mülkü olan bir şəxs olsaydı, atasının mülkünü geri almağa çalışır, deyərdim.

Bu iddianı irəli sürməzdən öncə heç Onun yalan söylədiyini gördünüzmü,-deyə soruşdum. Xeyr dedin. Mən bilirəm ki, insanlara yalan söyləməyən bir kimsə Allah haqqında da yalan danışmaz!

Ona tabe olanlar xalqın seçilmiş adamlarıdır, yoxsa aşağı təbəqənin nümayəndələridir,-deyə soruşdum. Aşağı təbəqənin nümayəndələri olduğunu söylədin. Elə ilk əvvəl Peyğəmbərlərə tabe olanlar bu cür insanlardır.

Ona tabe olanların sayı artır, yoxsa azalır,-deyə soruşdum. Sayları artır dedin. Haqq dinlərin bir xüsusiyyəti də onu qəbul edənlərin sayının artmasıdır.

Onun dininə girdikdən sonra bu dini bəyənməyib dinindən dönən varmı,-deyə soruşdum. Xeyr dedin. İman nəticəsində meydana gələn genişlənmə qəlbə girib yerləşəndə belə olur.

Heç sözünü yerinə yetirmədiyi vaxt oldumu,-deyə soruşdum. Xeyr dedin. Peyğəmbərlər də belədir, sözlərindən dönməzlər.

Onunla döyüşdünüzmü,-deyə soruşdum. Döyüşdüyünüzü və bəzən Onun sizi məğlub etdiyini, bəzən də sizin onu məğlub etdiyinizi söylədin. Elə Peyğəmbərlər də belədir. Bəzən məğlub olurlar, ancaq sonda gözəl aqibət onların olur.

Sizə nə əmr edir,-deyə soruşdum. Yalnız Allaha ibadət edib, Ona heç bir şeyi şərik qoşmamağı əmr etdiyini, bütlərə tapınmağı qadağan etdiyini, namazı, doğruluğu, həya və namusu əmr etdiyini söylədin.

Əgər bu dediklərin doğrudursa, O şəxs çox yaxın bir zamanda bu ayaqlarımın durduğu yerlərə belə hakim olacaq. Onsuz da mən bu Peyğəmbərin ortaya çıxacağını bilirdim, ancaq sizdən olacağını düşünmürdüm. Onun yanına gedə biləcəyimi bilsəm, Onunla görüşə bilmək üçün hər cür əziyyətə dözərdim. Yanında olsaydım, ayaqlarını yuyardım".

İPƏKYOLU NƏŞRİYYATI

Bundan sonra Herakliyus, Dihyə -radiyallahu anh- vasitəsi ilə Busra əmirinə göndərilən və ona çatdırılan Həzrət Peyğəmbərin məktubunu istədi. Məktubu gətirən adam onu Herakliyusa verdi. O da oxudu. Məktubda bunlar yazılmışdı:

"Allahın qulu və rəsulu Məhəmməddən, romalıların böyüyü Herakliyusa!..

Doğru yola tabe olanlara salam olsun! Mən səni İslama dəvət edirəm. İslama gir ki, qurtulasan və Allah da sənə savabını ikiqat versin! Əgər qəbul etməsən, təbən olan əkinçilərin günahı sənin boynundadır.

"(Ey Rəsulum!) **De: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin – "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi Rəbb qəbul etməyək! Əgər onlar yenə də üz döndərərlərsə, o zaman deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq!".** (Ali-İmran, 64)

Əbu Süfyan deyir:

"Herakliyus deyəcəyini dedikdən və məktubun oxunması başa çatdıqdan sonra qışqıraraq yüyürdü. Səslər yüksəldi. Bundan sonra bizi çölə çıxartdılar. Dostlarıma dedim: "Əbu Kəbşənin oğlunun işi daha da böyüdü. Görürsünüzmü, Bəni Asfar Məliki (Herakliyus) belə Ondan qorxur!" Elə o zamandan bəri Onun bu yaxınlarda uğur qazanacağına olan inancımı heç bir zaman itirmədim. Sonda Allah mənə də İslamı qismət etdi…"

Herakliyus camaatının liderlərini yanına dəvət etdi. Ona aid olan sarayların birində toplandılar. Onlara:

"Ey Rum camaatı! Əbədi olaraq qurtuluşunuza və bu səltənətinizin əbədi olmasına, davam etməsinə necə baxırsınız?",-dedi. (İslama girmələrini təklif etdi)

Bundan sonra hamısı birdən vəhşi eşşəklər kimi hürküb qapılara tərəf yüyürdülər. Ancaq bütün qapıların bağlanmış olduğunu gördülər. Herakliyus ətrafında olan dövlət adamlarının İslam dinini qəbul etməyə müsbət baxmadıqlarını gördü, onları geri çağırdı və dediyi sözlərin həqiqətini dəyişdirərək: "Mən xristianlıqdakı səbat və qərarlığınızı yoxlamaq üçün sizi imtahan etdim. Sizdə gördüyüm bu hal xoşuma gəldi!",-dedi. Bundan sonra dövlət adamları ona səcdə etdilər və ondan razı qaldılar. (Buxari, "Bədül-Vəhy", 1, 5-6; "İman", 37, "Şəhadət", 28, "Cihad", 102; Müslüm, "Cihad", 74; Əhməd, I, 262)

İPƏKYOLU NƏŞRİYYATI

Bizans imperatoru Herakliyus onun yanına gələn İslam nemətini şəxsən müşahidə edib, həqiqəti tam olaraq qavramışdı, ancaq dünya mənfəətlərinə görə, bu böyük fürsəti əldən çıxartdı, əbədi bir dövlət və səadəti itirdi.

*****

İran Kisrasına göndərilən məktubu da Abdullah bin Huzafə -radiyallahu anh- apardı. Ancaq Kisra Herakliyus kimi davranmadı. Məktubda Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- adının onun adından öncə yazılmasına qəzəbləndi, o mübarək məktubu parça-parça etdi, elçini də söydü.

Kisranın məktubu cırdığını və İslam dəvətinə qarşı mənfi bir münasibət göstərdiyini öyrənən Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

*"Allahım! Sən də onun mülkünü o məktub kimi parça-parça et!"*, -buyurdu. (Buxari, "Elm", 7; İbni-Əsir, "Üsdül-Qabə", III, 212)

Belə ki Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bu möcüzəsi "Xuləfayi -Raşidin" dövründə gerçəkləşdi və Kisranın torpaqları tamamilə müsəlmanların əlinə keçdi.

*****

Allah Rəsulunun dəvət məktubunu və onu gətirən Peyğəmbər elçisini ən yaxşı qarşılayan Həbəş Nəcaşisi oldu. Amr bin Ümeyyə -radiyallahu anh- vasitəsi ilə Nəcaşiyə çatan məktubda İslama dəvətlə birlikdə həzrət Məryəm və həzrət İsa haqqında da qısa bir məlumat var idi. İslamı daha öncə Həbəşistana hicrət etmiş müsəlmanlardan az-çox öyrənərək və bu məsələ ilə bağlı əvvəldən müsbət bir münasibət göstərən Nəcaşi bu dəvət məktubu ilə iman üfüqlərinə qanad açdı. O zaman yanında olan Əbu Talibin böyük oğlu həzrət Cəfərin qarşısında kəlmeyi-şəhadət deyərək müsəlman oldu. Sonra Rəsulullahın -səllallahu əleyhi və səlləm- arzusu ilə oradakı mühacirləri də iki gəmiyə mindirərək göndərdi. Bundan başqa, Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- iman etdiyini bildirən bir məktub da yolladı. Məktub belədir: "Allahın Rəsulu Məhəmmədə -səllallahu əleyhi və səlləm- Nəcaşi tərəfindən.

Ey Rəsulullah! Sənə salam olsun, Allahın rəhmət və bərəkəti də üzərinə olsun! Özündən başqa tanrı olmayan Allah məni İslama qovuşdurdu.

İPƏKYOLU NƏŞRİYYATI

Ey Rəsulullah! Həzrət İsanın vəziyyətini danışdığınız məktubunuz mənə çatdı. Yerin və göyün Rəbbinə and içirəm ki, Həzrət İsa da özü ilə bağlı sizin dediyiniz şeylərdən artıq bir şey söyləməmişdir. Onun təbliğatı da sizin buyurduğunuz kimidir. Bizə təbliğ etdiyiniz İslamın əsaslarını öyrəndik. Əmin oğlu (Cəfər Təyyar) ilə bizim ölkəmizə hicrət edən əshabını qonaq etdik. Mən şəhadət edirəm ki, Sən Allahın Rəsulusan. Sözünə sadiqsən. Haqsan və təsdiq edilmişsən.

Ey Rəsulullah! Mən Sənə, Sənin təmsilçin olan əmin oğlunun vasitəsi ilə beyət etdim. Onun qarşısında aləmlərin Rəbbi olan Allaha təslim oldum. Sənin yanına oğlum Ərhanı göndərirəm. Ancaq özümə cavabdehəm, əgər sənin yanına gəlməyimi istəsən, ey Allahın Rəsulu, tez gələrəm. Mən şəhadət edirəm ki, söylədiklərim haqdır. Ey Allahın Rəsulu, Sənə salam olsun!..." (İbni-Sad, I, 259; İbni-Qəyyum, III, 689; Həmidullah, "əl-Vəsaiq", s. 100, 104-105)

*****

Rəsulullah -səllallahu əleyhi və səlləm- bir gün:

"-Ey insanlar! Əcir və savabını Allahdan gözləyərək bu məktubu İskəndəriyə Mukavkısına hansınız apara bilərsiniz?",-deyərək soruşdu.

Xətib bin Əbi Bəlta -radiyallahu anh- tez yerindən qalxdı və Peyğəmbərin qarşısına gəldi:

- Ya Rəsulallah! Mən apararam,-dedi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

- *Ey Xətib! Allah bu vəzifəni sənin haqqında mübarək etsin!*, -buyurdu.

Xətib -radiyallahu anh- Peyğəmbərin -səllallahu əleyhi və səlləm- məktubunu İskəndəriyə Mukavkısına apardı.

Mukavkıs Allah Rəsulunun dəvətini xoş qarşıladı. O, son bir Peyğəmbərin ortaya çıxacağını bilirdi, ancaq güman edirdi ki, bu Peyğəmbər Şamdan zühur edəcək. Onun bu gümanı həqiqəti qəbul etməsinə mane oldu və Mukavkıs iman edə bilmədi. Ancaq məktubu gətirən Xətib ilə müxtəlif hədiyyələr, bir minik, iki cariyə (Həzrət Mariya və bacısı Sirini) göndərdi.

İPƏKYOLU NƏŞRİYYATI

Xətib -radiyallahu anh- yolda bu iki bacıya İslamı izah etdi və onları müsəlman olmağa həvəsləndirdi. Onlar da iman ilə şərəfləndilər. Beləliklə, onlar Mədinəyə çatmadan əbədi həqiqəti başa düşdülər.

Xətib -radiyallahu anh- Mukavkısın sözlərini çatdıranda Rəsulullah -səllallahu əleyhi və səlləm-: *"Yaramaz adam, səltənətinə qıymadı! Onun qıymadığı səltənəti isə özünə qalmayacaq!"*,-buyurdu. (İbni-Sad, I, 260-261; Diyarbəkri, II, 38)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- cariyə Sirinin nigahını Həsən bin Sabitlə, Həzrət Mariyanın nigahını da özü ilə bağladı. Onun Həzrət Mariyadan İbrahim adlı oğlu oldu. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- Allahın istəyi ilə gerçəkləşdirdiyi bu evliliyin də bir çox siyasi faydaları olmuşdur. Belə ki, bu vəziyyət misirlilərə çox müsbət təsir etmiş, sonrakı illərdə baş verən İslam-Bizans müharibələrində misirlilər bizanslıları tək qoyaraq İslam ordusunun zəfər qazanmasına yardım etmişlər.

Rəsulullah -səllallahu əleyhi və səlləm- qohuma münasibətdə gözəl bir nümunə göstərərək əshabına belə buyurmuşdur: *"Siz kırat deyilən bir ölçü vahidinin istifadə edildiyi Misiri fəth edəcəksiniz. Oranın xalqına yaxşı münasibət göstərməyi tövsiyə edirəm. Mənim vəsiyyətimə əməl edin. Çünki onlarla bir qan, bir də evlilikdən yaranan qohumluq əlaqəmiz var".* (Müslüm, "Fədailüs-Səhabə", 226-227)

Məlum olduğu kimi, Allah Rəsulunun soyu həzrət İsmayıla bağlıdır. İsmayılın –əleyhissəlam-anası Həzrət Həcər misirli olduğu üçün Peyğəmbər -səllallahu əleyhi və səlləm- misirliləri qohum hesab edir. Evlilik yolu ilə yaranan qohumluq isə Mariya anamıza bağlıdır.

*****

Suriya Qassanı ərəblərin başçısı olan Haris isə Şuca bin Vəhbin -radiyallahu anh- gətirdiyi Peyğəmbərin məktubuna qarşı çox sərt bir münasibət göstərdi. Hətta, müsəlmanlara hücum etmək üçün Bizans imperatorundan icazə istədi. Ancaq imperator bu istəyi rədd etdi.

Səlit bin Umeyrin -radiyallahu anh- Peyğəmbərin məktubunu apardığı Yəmamə Məliki Həvzə də ilahi dəvəti qəbul etmədi. Qısa bir müddət sonra da qəflət içində öldü.

*****

İPƏKYOLU NƏŞRİYYATI

Bu dəvətlər İslamın Mədinədən bütün dünyanı qucaqlamağa doğru atılmış ilk addımları olmuşdu. Bununla birlikdə, Ərəb yarımadasında canlanan İslam hər gün yayılırdı. Çünki böyük zəfərlərin sağlam təməlləri şəxsən Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- mübarək əlləri ilə atılırdı.

İPƏKYOLU NƏŞRİYYATI

**Xain və fəsad çıxaran yəhudiyə son zərbə:**

**Xeybərin fəthi**

**(Səfər-Rəbiül-əvvəl 7/ İyun-İyul, 628)**

Müsəlmanlarla məkkəli müşriklər arasında bağlanılan Xudeybiyə anlaşmasını ilk baxışda müsəlmanların gücsüzlüyü kimi dəyərləndirən münafiqlərin bu mövqeyinə Xeybər yəhudiləri də şərik çıxırdılar. Bir müddət sonra da əvvəllər sürgün edilən yəhudi qəbilələrindən onlara sığınmış olanların qızışdırması nəticəsində Xeybərdə böyük bir fəsad ocağı alışdı. Yəhudilər Qətəfan qəbiləsinə birgə hərəkət etməyi təklif etdilər və bildirdilər ki, onlar belə etsələr, birillik məhsullarının yarısını onlara verəcəklər. Onlara Qətəfan qəbiləsi də qoşuldu. Onlar birlikdə mənfur niyyətlərini həyata keçirtmək üçün işə başladılar. Mədinəyə bir ordu göndərməyi planlaşdırdılar.

Yəhudilərin bu addımından sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əshabından Abdullah bin Rəvahanı sülh üçün Xeybərə göndərdi. Ancaq rədd cavabı gəldi. Peyğəmbər -səllallahu əleyhi və səlləm- əshabına Xeybər müharibəsinə gedəcəklərini elan edərək: "Bizimlə ancaq cihad istəyənlər gəlsin!..",-buyurdu. (İbni-Sad, II, 92, 106)

Çünki müharibə artıq labüd idi. Başqa yöndən Mədinə Xeybərlə Məkkə arasında yerləşirdi. Bir sözlə, nə zaman müşriklərlə müharibə edilsə, Xeybər müsəlmanların arxasında bir böyük təhlükə mənbəyi kimi qalırdı.

Peyğəmbərin əmrini eşidən seçilmiş əshab sevə-sevə döyüş dəvətini qəbul etdi. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir yandan əshabını cihada çağırdı, başqa yöndən isə Xudeybiyədə olmayanları orduya qəbul etmədi. Çünki əvvəlki müharibələrdə onların arasına qənimət toplamaq məqsədi ilə daxil olmuş münafiqlərin ən çətin anlarda etdikləri xəyanətlər iman ordusu üçün çox acınacaqlı nəticələr vermişdi. İndi də bu şəxslər varlı yəhudilərin göz qamaşdıran sərvətlərindən pay almaq düşüncəsi ilə

döyüşdə iştirak etmək istəyirdilər. Buna görə, Xudeybiyədə iştirak etməyənlərin də müharibəyə getməsi ilə bağlı istək qəbul edilmədi. Cənab Haqqın əmri də bu yöndə idi:

**"… (Ey Peyğəmbər! Onlara) de: "Siz əsla bizim arxamızca gəlməyəcəksiniz…"** (əl-Fəth, 15)

Müsəlmanların Xeybərə getmək üçün hazırlaşmaları Peyğəmbərlə anlaşması olan Mədinə yəhudilərini çox narahat etdi və onlar iş görməyə başladılar. Bunlar Peyğəmbərin -səllallahu əleyhi və səlləm- Qaynuka, Nadir və Kurayza yəhudilərini məğlub etdiyi kimi, Xeybər yəhudilərini də məğlub edəcəyini anladılar. Bu zaman müsəlmanlarda az, ya da çox bir alacağı olan və bunu almaq üçün möminlərin yaxasından yapışmayan heç bir yəhudi qalmadı. Aşağıdakı hadisə bu vəziyyəti açıqca göstərməklə birlikdə, Rəsulullahın -səllallahu əleyhi və səlləm- qul haqqı ilə bağlı məsələlərdə nə qədər həssas davrandığını da ortaya qoyur.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ordusu ilə hərəkət etdi. O, bütün müharibələrdə olduğu kimi, bu müharibədə də uca Allaha bu dua ilə yalvarırdı:

*"Ey yeddi qat göyün və altındakıların, yeddi qat yerin və içindəkilərin, şeytanların və onun azdırdıqlarının, küləklərin və sovurduqlarının Rəbbi olan Allahım! Biz Səndən bu yerin, onun əhalisinin və içində olan şeylərin xeyrini istəyirik! Bu yerin, onun əhalisinin və içində olan şeylərin şərindən də Sənə sığınırıq!"*

Yolda gedərkən müsəlmanlar uca səslə: "Allahu əkbər!, Allahu əkbər! La ilahə illəllahu vallahu əkbər!",-deyərək birlikdə təkbir söyləməyə başladılar. Bunu eşidən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurdu:

*"Nəfslərinizə qarşı mərhəmətli olun! Çünki sizlər kar bir adama müraciət etmirsiniz. Üz tutduğunuz adam gizli* (uzaq) *də deyil. Siz görən, eşidən* (harada olursunuzsa-olun) *sizinlə olan bir Zata, Allaha müraciət edirsiniz. Dua etdiyiniz Allah hər birinizə miniyin boynundan daha yaxındır".* (Buxari, "Deavat", 50, 67; Müslüm, "Zikr", 44)

Peyğəmbər -əleyhissəlatü vəssəlam- Xeybərə gecə vaxtı çatdı və orada gözlədi. Çünki Varlıq Nuru gecə vaxtı düşmənə hücum etməzdi, səhəri gözləyərdi. Səhər açılanda yəhudilər külüng, bel və zənbillərlə çölə

çıxdılar. Rəsulullahı -səllallahu əleyhi və səlləm- görəndə: "Məhəmməd, vallah, Məhəmməd və ordusu!",-deyə bağıraraq qalaya girdilər. Bundan sonra Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

*"Allahu əkbər, Allahu əkbər! Xarab olub getdi Xeybər! Biz elə ki, düşmən bir qövmün yurduna hücum edib girdik, xəbərdar edilmiş olan o kafirlərin halı yaman olar!"*,-buyurdu. (Buxari, "Məğazi", 38; İbni-Hişam, III, 380)

Rəsulullah -səllallahu əleyhi və səlləm- qərargahını Qətəfan ilə Xeybər arasında olan Rəci adlanan bir yerdə qurdu. Beləliklə, iki müttəfiqin bir-birinə kömək etmək üçün birləşməsinin qarşısı alınmış oldu. Xeybər yəhudilərinə kömək istəmək üçün hərəkət edən qətəfanlılar önlərinin kəsilmiş olduğunu gördülər və qorxaraq geri qayıtdılar. Beləliklə, müharibəyə təkbaşına başlamaq məcburiyyətində qalan Xeybər yəhudiləri də qalalarına çəkilərək döyüşməyə məhkum oldular.

Mühasirə günlərlə davam etdi. Müsəlmanların ərzaqları tükənmək üzrə idi. Müharibənin şərtləri getdikcə çətinləşirdi. Müsəlmanlardan şəhid olanlar, yaralananlar var idi. Onlar çox əziyyət çəkirdilər. Ancaq Allah Rəsulu hər fürsətdən istifadə edərək insanları İslama və Allaha dəvət edirdi.

*****

Müsəlmanların bir xeyli çətinlik çəkdiyi, onların hücumlarının qarşısının alındığı, yorğun olduqları və əldən düşdükləri bir zamanda Allah Rəsulu-səllallahu əleyhi və səlləm- belə buyurdu:

*"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, onun əlləri ilə Allah Xeybərin fəthini ehsan edəcək. O şəxs Allahı və Rəsulunu sevər, Allah və Rəsulu da onu sevər!"*.

Müharibədə iştirak edənlər bayrağın kimə veriləcəyini düşünüb-danışaraq gecəni keçirtdilər. Səhər açılanda Allah və Rəsulunun sevgisini əldə edə bilmək ümidi ilə bayrağın ona verilməsini arzulayan bütün səhabələr Rəsulullahın-səllallahu əleyhi və səlləm- yanına qaçdılar. Həzrət Ömər-radiyallahu anh-:

"Əmir olmağı ogünkü qədər heç bir zaman arzu etmədim. Çağırılacağımı ümid edərək özümü Rəsulullaha göstərməyə çalışdım",-demişdir.

Rəsulullah-səllallahu əleyhi və səlləm-bayrağı vermək üçün Həzrət Əlini yanına çağırdı. Həzrət Əlinin gözləri ağrıdığına görə, onun qoluna gi-

rərək gətirdilər. Onun narahatlığı elə bir səviyyədə idi ki, ayağını qoyduğu yeri belə görə bilmirdi. Həzrət Peyğəmbər-səllallahu əleyhi və səlləm-Əlinin-radiyallahu anh-bu vəziyyətini görəndə dua oxuyaraq mübarək nəfəsi ilə onun ağrıyan gözlərinə üfürdü. Allahın aslanı həzrət Əli, Allahın izni ilə şəfa tapdı. Bundan sonra Rəsulullah-səllallahu əleyhi və səlləm-ona zireh geyindirib bayrağı verərək belə buyurdu: *"Ey Əli! İndi irəli! Allah fəthi qismət edənədək sağa-sola baxma!"*.

Həzrət Əli-radiyallahu anh-tez hərəkət etdi, sonra dayandı və arxasına baxmadan səsləndi: "Ey Allahın Rəsulu! Onlarla nə üçün döyüşüm?"

Peyğəmbər-səllallahu əleyhi və səlləm-belə buyurdu: *"Onlarla Allahdan başqa ilah olmadığına və Məhəmmədin Allahın Rəsulu olduğuna şəhadət gətirincəyədək döyüş. Bunu etdikləri an dinin qadağalarını pozmadıqca qanlarını və mallarını səndən qorumuş olarlar. Onların əsl hesablarını isə Allah verəcək. Tələsmədən, çox sakit bir şəkildə onların yanına get. Öncə onları İslama dəvət et! Əgər bu dəvətinlə bir insan müsəlman olsa, bu, sənə qızıl dəvələrin verilməsindən daha xeyirlidir!.."* (Buxari, "Əshabun-Nəbi", 9; Müslüm, "Fədailüs-Səhabə", 32-34; Heysəmi, VI, 151)

O gün yəhudilərin ən məşhur döyüşçüləri öldürüldü. Xeybər fəth edildi. Xeybərin səkkiz qalası var idi. Bunlardan ikisi döyüşmədən qalalarını təslim etdilər. Beləliklə, Peyğəmbərin möcüzəsi baş verdi. Bu döyüşdə yəhudilərdən doxsan üç nəfər öldürüldü, möminlərdən isə on beş nəfər şəhid oldu.

*****

Xeybər qələbəsindən sonra yəhudilər öz ərazilərində bu yerlərə ortaq olaraq qalmaq istədilər. Buna görə də, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bütün yəhudiləri sürgün etmədi. İstədiyi anda çıxartmaq şərti ilə bu münbit torpaqlarda işləyib, illik qazanclarının yarısını vermək şərti ilə yəhudiləri şərik olaraq qəbul etdi. Bu yəhudilər Həzrət Ömərin xilafəti dönəminədək bu şərtlərlə yerlərində qaldılar.

Xeybərdə əldə edilən qənimət orada olan və olmayan Xudeybiyə səfərində iştirak edənlər arasında bölündü. Çünki uca Allah Xeybər qənimətini Xudeybiyə səfərində iştirak edən müsəlmanlara Fəth surəsinin iyirminci ayəsi ilə vəd etmişdi.

*****

İPƏKYOLU NƏŞRİYYATI

Xeybər fəthi başa çatan ərəfədə Həbəşistanın on altı nəfərlik hicrət karvanı həzrət Cəfərin başçılığı ilə Mədinəyə qayıtdı. Karvandakılar Rəsulullahın Xeybərə getdiyini öyrənəndə yollarına davam edib Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- qovuşdular. Allah Rəsulu-səllallahu əleyhi və səlləm-həzrət Cəfərə öncə:

"- Yaradılış və əxlaq baxımından mənə çox oxşayırsan!, -buyurdu.

Sonra həzrət Cəfərin alnından öpərək:

- Xeybərin fəthi ilə, yoxsa Cəfərin gəlişi ilə sevinim, bilmirəm!", -buyurdu. (İbni-Hişam, III, 414)

Cəfər-radiyallahu anh-Peyğəmbərin bu iltifatı qarşısında həyəcanlanaraq vəcdə gəldi. Sevincindən günahsız bir uşaq kimi bir ayağının üstündə Varlıq Nurunun ətrafında fırlanmağa başladı və özündən getdi.

Allah Rəsulu-səllallahu əleyhi və səlləm-Cəfərə-radiyallahu anh-toxunmadı. Bu vəcd halı bəzi təriqətlərdə təqriri sünnə (Peyğəmbərin susaraq razılığını bildirdiyi sünnə) olaraq qəbul edilmiş və vəcd halının zəruriliyinə bir əsas olaraq göstərilmişdir.

Xeybər fəthindən sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Mədinədən iki günlük uzaqlıqda olan Fədək ərazisinə bir təmsilçi göndərdi. Oranı müharibə etmədən İslam torpaqlarına daxil etdilər.

Sonra Xeybərdən dönərkən yolun üzərində olan kiçik bir yəhudi yaşayış mərkəzi Vadil-Kura da bir günlük mühasirədən sonra fəth edildi. Onlara da xeybərlilər kimi torpaqlarında şərik olaraq yaşamağa icazə verdilər.

**Muta məsələsi**

Xeybərin fəthi zamanı əvvəllər qadağan edilməsi ilə bağlı heç bir əmr olmayan "muta nigahı" adlandırılan müvəqqəti evlilik yasaqlandı.

Həzrət Əli -radiyallahu anh- belə buyurmuşdur:

"Rəsulullah-səllallahu əleyhi və səlləm-Xeybər müharibəsində qadınlarla muta etməyi və eşşək ətinin yeyilməsini haram buyurdu". (Buxari, "Məğazi", 38, "Nigah", 31, "Zəbaih", 28, "Hiyel", 3; Müslüm, "Nigah", 29-32; Muvatta, "Nigah", 41; Nəsai, "Nigah", 71)

İPƏKYOLU NƏŞRİYYATI

Muta bir qadınla pul əvəzində bəlli bir vaxt üçün nigah bağlamaqdır. Cahiliyə dövründən qalan bir nigah şəklidir. Muta nigahı öncədən müəyyən edilmiş vaxt qurtaranda sona çatır. Muta nigahında vərasət, ailənin yaşayışının təmin olunması, iddət kimi normal nigahlarda olan haqlar yoxdur. Bunun üçün Xeybərin fəthindən başlayaraq muta nigahı bir çox mübarək hədislərdə haram elan edilmişdir. Bu məsələ ilə bağlı bir rəvayət də belədir: "… İndi Allah -cəllə cəlalühü- onu qiyamət gününədək haram etmişdir. Kimin yanında muta nigahlı qadın varsa, artıq ondan əl çəksin! Onlara pul olaraq verdiklərinizdən də hər hansı bir şeyi geri almayın!". (Müslüm, "Nigah", 21; İbni-Macə, "Nigah", 44; Darimi, "Nigah", 16; Əhməd, III, 406)

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- Təbük səfərində olarkən Səniyyətül –Vəda adlı yerdə dayanmışdı. Orada ağlayan qadınları gördü. Onların niyə ağladıqlarını soruşdu. Ona deyildi: "Bunlar muta edilmiş qadınlardır!".

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

*"İslamın nigah, talaq, iddət və mirasla bağlı hökmləri muta nigahını haram etmişdir!"*,-buyurdu. (İbni-Bəlban, VI, 178; Darakutni, III, 259)

Bu baxımdan muta yolu ilə nigahı bağlanan qadın nə arvaddır, nə də cariyədir. Muta əhli-sünnə alimlərinin fikrinə görə, "zina" olaraq qəbul edilmişdir.

Mutanın cəmiyyətdəki faciəli nəticələri bunlardır:

a. Uşaqlar tələf edilir. Bu uşaqlar atasız böyüdükləri üçün zina məhsulu olaraq tərbiyədən məhrum olurlar. Qız uşaqlarının faciəsi daha qorxulu olur.

b. Atanın münasibət qurduğu qadının muta, ya da normal nigahla, bilmədən atanın oğlu ilə ailə qurmaq ehtimalı yaranır. Hətta, bir atanın qızı ilə, qızının qızı ilə, oğlunun qızı ilə, bacısının qızı ilə, yəni ona nigah bağlamağın əbədi olaraq haram edildiyi şəxslərlə bilmədən əlaqədə olmaq ehtimalı var. Bu hal maneələrin ən böyüklərindən biridir. Tarixdə bunun bir çox acı nümunəsi olmuşdur.

c. Çox zaman muta edən şəxsin mirasının bölünməməsi. Çünki bu şəxsin varislərinin nə sayı, nə adı, nə də yeri bilinməz.

Muta nigahının ortaya çıxartdığı bu maneələr gerçəkdən çox qorxuludur. Muta nigahı nəsli yox etməkdən başqa bir şey deyil. Muta edən

İPƏKYOLU NƏŞRİYYATI İPƏKYOLU NƏŞRİYYATI İPƏKYOLU NƏŞRİYYATI

qadının ruhi dünyasında böyük bir qarışıqlıq yaranır. Çünki icarəyə verilmək insanın şəxsiyyətini, ləyaqətini alçaldar. Buna görə də, muta bir namus fitnəsidir. Bir şəxs qızının, ya da anasının muta etməsini bütün iyrəncliklərinə baxmayaraq, istəyə bilərmi? Ancaq təkcə bu fakt belə, mutanın faciəli bir iş olduğunu göstərməyə yetər.

### Ümrətül-Qəza (Zülqədə 7/ Mart 629)

Bir il öncə ehrama girilməsinə baxmayaraq, məkkəli müşriklərin icazə vermədiyinə görə həyata keçirilməyən ümrənin əvəzinə yerinə yetirildiyindən bu ümrəyə "ümrətül-qəza" deyilmişdir.

Xudeybiyədə əldə edilən anlaşma çərçivəsində bir il sonra ediləcək ümrənin zamanı gəlmişdi. Hicri yeddinci ilin Zilqədə ayı başlayanda Rəsulullah -səllallahu əleyhi və səlləm- Xudeybiyə səfərində iştirak edənlərin hamısının ümrəyə hazırlaşmalarını əmr etdi. Xalqa da hazırlıq işlərinə başlamağı tapşırdı. Ətrafdan gəlib o ərəfədə Mədinədə olan ərəblər: "Vallah, ey Rəsulullah, bizim nə ərzağımız, nə də bizi doyuracaq bir himayəçimiz var!",-dedilər.

Xudeybiyə anlaşmasının şərtinə uyğun olaraq müşriklər Məkkəni boşaldaraq üç gün ərzində bütün şəhəri möminlərə verdilər. Özləri də dağlara çəkildilər ki, müsəlmanları maraqla seyr edə bilsinlər. Yeddi illik bir fasilədən sonra Kəbəni görən mömin könüllər həyəcanla bir ağızdan:

لَبَّيْكَ، أَللّٰهُمَّ لَبَّيْكَ، لَبَّيْكَ لاٰ شَرِيكَ لَكَ لَبَّيْكَ، إِنَّ الْحَمْدَ
وَالنِّعْمَةَ لَكَ وَالْمُلْكَ، لاٰ شَرِيكَ لَكَ

deyərək Allahın adını zikr etməyə başladılar.

Peyğəmbərimiz Mədinədə istilikdən yaranan xəstəliyin onları zəiflətməsi ilə bağlı dedi-qodu edən müşriklərə vəziyyətin belə olmadığını göstərmələri üçün müsəlmanlara sürətlə və vüqarla yerimələrini əmr etdi.

"Bu gün özünü qureyşlilərə güclü-qüvvətli göstərən şəxsə Allah rəhmət etsin!...",-buyurdu. (İbni-Hişam, III, 424-425)

O günün şərtlərinə görə, Mədinədən Məkkəyə qədər dörd yüz kilometrdən çox məsafə qət edərək Kəbəni ziyarət etməyə gələn müsəlmanlar yorğun olmalarına baxmayaraq, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- xəbərdarlığı ilə ümrələrini çox vüqarlı, heybətli bir şəkildə yerinə

İPƏKYOLU NƏŞRİYYATI

yetirdilər. Hətta, təvafın ilk üç dövrəsini həyata keçirərkən və səy edərkən (Səfa ilə Mərvə arasında gedib-gəlmək) bugünki iki yaşıl dirək arasında hamıya təsir edəcək şəkildə hərəkət etdilər.

Müşriklər təpələrdən müsəlmanlara baxırdılar. Əgər müsəlmanlarda hər hansı bir yorğunluq, əzginlik görsəydilər, başqa şeylər düşünərdilər. Ancaq onlar gördükləri canlılıq və vüqar qarşısında heyrət və dəhşətə düşdülər:

Bununla birgə, o gün Bilal Həbəşinin Kəbənin üstünə çıxıb oxuduğu əzanın gözəl səsi mömin ürəkləri coşdurdu, müşriklərin qəlbində isə narahatlıq yaratdı.

Üç gün sonra Mədineyi-Münəvvərəyə dönəndə hər kəsin simasında xüsusi bir gözəllik var idi. İlk Kəbə ziyarəti gerçəkləşmiş, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bir il öncə görüb müjdəsini verdiyi yuxu çin olmuşdu. Uca Allah gerçəkləşən Xeybər fəthinə işarə ilə birlikdə yaxın zamanda qismət edəcəyi Məkkə fəthini də müjdələyərək Qurani-Kərimdə bu həqiqəti belə bildirmişdir:

"And olsun ki, uca Allah Öz peyğəmbərinin (Məkkə fəthi) yuxusunun çin olduğunu təsdiq etdi. (Ey möminlər!) Siz, inşallah, əmin-amanlıqla (bəziniz) başınızı qırxdırmış, (bəziniz saçınızı) qısaltmış halda (müşriklərdən) qorxmadan Məscidül-Hərama daxil olacaqsınız. (Allah) sizin bilmədiklərinizi bilir. Onu (İslamı) bütün dinlərdən üstün etmək üçün Öz peyğəmbərini hidayət və haqq dinlə göndərən Odur! (Ey Rəsulum! Sənin peyğəmbərliyinin həqiqiliyinə) Allahın şahid olması kifayət edər!" (əl-Fəth, 27-28)

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- əshabı ilə birlikdə etdiyi qəza ümrəsi məkkəlilərə çox güclü təsir etdi. Çox keçmədən Qureyşin liderlərindən biri olan gələcək Suriya fatehi Xalid bin Vəlid, Osman bin Talha, gələcək Misir fatehi Amr bin As kimi şəxslər iman edənlərin karvanına qoşuldular.

İPƏKYOLU NƏŞRİYYATI

# HİCRƏTİN SƏKKİZİNCİ İLİ

**Bir Ovuc Səhabənin yazdığı dastan: Mutə müharibəsi**

**(Ceyşül-Üməra) (Cəmaziy əl-əvvəl 8/ Avqust-Sentyabr 629)**

Allah Rəsulunun İslama dəvət etmək üçün bir neçə məktubla hökmdarların və valilərin yanına göndərdiyi elçilər getdikləri yerlərdə krallar tərəfindən təhqir olunsalar da, nəticədə "Elçiyə zaval yoxdur" prinsipinə uyğun olaraq sağ-salamat Mədinəyə qayıdırdılar. Ancaq bu elçilərdən Busra əmrinin yanına gedən Haris bin Umeyrin vəziyyəti belə olmadı. Haris -radiyallahu anh- Mutəyə çatanda Qassani əmirlərindən Şurahbil bin Amr onun yolunu kəsərək hara getdiyini soruşdu. Haris -radiyallahu anh- Rəsulullahın -səllallahu əleyhi və səlləm- elçisi olduğunu söylədi. Zalım, bədbəxt Şurahbil elçinin toxunulmazlığı qaydasını pozaraq o mübarək səhabəni xaincəsinə şəhid etdi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Həzrət Harisin bu şəkildə şəhid edilməsindən çox kədərləndi. İslama qarşı açıq-aşkar bir təcavüz olan bu hərəkət, müsəlmanları saymamaq mənasına gəldiyindən tez üç min nəfərlik bir ordu hazırlandı. Belə olmasa idi, Mədinə İslam Dövləti nüfuzdan düşər, mənfi nəticələr yarana bilərdi.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- cahiliyə dönəmindəki sinif fərqlərini ləğv edən İslamın bütün dünyanı əhatə edən iradəsinə uyğun olaraq azad etdiyi köləsi Zeydi -radiyallahu anh- hazırlanmış orduya komandir təyin etdi. Sonra bu təlimatı verdi:

"Əgər müharibədə Zeyd şəhid olsa, komandirliyi Cəfər üzərinə götürsün! Cəfər də şəhid olsa, Abdullah bin Rəvaha orduya komandanlıq etsin! O da şəhid olsa, müsəlmanlar öz aralarından bir nəfəri komandir olaraq seçsinlər!..".

Bu sözləri eşidən yəhudi təlimatı bir ölüm elanı olaraq dəyərləndirdi. Sonra da həzrət Zeydin -radiyallahu anh- yanına gələrək:

"Vəsiyyətini et! Əgər Məhəmməd Peyğəmbərdirsə, sən onun yanına dönməyəcəksən! Çünki Bəni İsrail Peyğəmbərlərinin də adlarını söylədikləri şəxslər döyüşdə ölərdilər, sağ qayıtmazdılar…", -deyərək bu seçil-

İPƏKYOLU NƏŞRİYYATI

miş insanın ürəyinə qorxu salmaq istədi. Ancaq Həzrət Zeyd -radiyallahu anh- onun dediklərini vecinə almadı, hətta, sevindi. (İbni-Kəsir, "əl-Bidayə", IV, 238)

O fitnəkar yəhudi bilmirdi ki, Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- bütün əshabı kimi, Həzrət Zeyd də-radiyallahu anh-şəhid olmaq eşqi ilə alışıb-yanırdı.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ordunu Mədinənin kənarında olan "Səniyyətül-Vəda" adlı yerədək yola saldı, onları dualarla düşmənin üzərinə göndərdi. Harisin öldürüldüyü yerədək getmələrini, orada olanları İslama dəvət etmələrini, müsəlmanlığı qəbul etməyəcəkləri təqdirdə isə Allahdan yardım istəyərək onlarla döyüşməyi əmr etdi.

İslam ordusunun hərəkətini xəbər alan zalım Şurahbil də Bizansın dəstəyi ilə birlikdə yüz min nəfərlik bir ordu hazırladı. Xristian ərəblərdən yüz min nəfərlik bir ordu da gəlib onlara qoşuldu.

Düşmənin bu qədər çox olduğu xəbərini İslam ordusu ancaq Suriya torpaqlarına girəndən sonra öyrənə bildi. Belə bir vəziyyəti gözləmədiklərindən aralarında məsləhətləşdilər. Bir çoxu vəziyyəti Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- bildirib, ondan gələcək təlimata uyğun olaraq hərəkət etməyin tərəfdarı idi. Çünki qüvvələr müqayisə edilməyəcək dərəcədə fərqli idi. Tarixdə belə bir şey görünməmişdi. Buna görə də, onlar Allah Rəsuluna vəziyyəti bildirmək məsələsində razılaşmağa az qalmışdılar ki, Abdullah bin Rəvaha:

"İndi çəkindiyiniz şey, əldə etmək üçün yola çıxdığınız şey deyildirmi? Biz düşmənlə say çoxluğu, güc üstünlüyü ilə savaşırıq? Xeyr! Biz Allahın ehsan buyurduğu bu dinin gücü ilə vuruşuruq. Nə durmusunuz, bizi gözləyən iki gözəl nəticə var: ya şəhidlik, ya da qaziliklə birlikdə zəfər!".

Bundan sonra döyüşməyə qərar verildi və sürətlə yollarına davam etdilər.

Mutə kəndində bir ovuc İslam ordusu Həzrət Zeydin komandanlığı ilə gözünü qırpmadan düşmənə hücum etdi. Tövhidə könül verənlər indi də Allah yolunda canlarını verən şəxslər adını qazanırdılar. Savaşın qızışdığı bir ərəfədə Allah Rəsulunun göz bəbəyi və məkkəli ilk səkkiz müsəlmandan biri olan komandir Zeyd -radiyallahu anh- düşmən nizəsi ilə şəhid oldu.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- əmrinə uyğun olaraq bayrağı tez Cəfər -radiyallahu anh- götürdü. O da qəhrəmanlıqla düşmənə hücum etdi. Qılınc zərbələri ilə qolunun ikisini də itirdi. Rəsulullahın bayrağını yerə salmamaq üçün kəsilmiş qolları ilə bayrağı sinəsinə sıxdı. Bir müddət sonra o da şəhid oldu. Həzrət Cəfər -radiyallahu anh- Allah və Rəsulunun sevgisi ilə məst olmuşdu. O, bu yolda canını fəda etdi və Allahın rizasına qovuşdu.

Sıra Abdullah bin Rəvahaya çatmışdı. O da eyni şövqlə bayrağı alaraq düşmənə hücum etdi, bayrağı onların arasında dalğalandırdı. Nəfsini məşğul etməsin deyə yanındakılara vəsiyyət etdi: "Şahid olun ki, Mədinədəki bütün malımı beytül-mala verirəm!".

Sonra şəhid olanadək igidliklə döyüşdü. Abdullah bin Rəvaha şəhid olandan sonra yenicə müsəlman olmuş və ilk dəfə İslam ordusunun tərkibində müharibədə iştirak edən Həzrət Xalid bin Vəlid -radiyallahu anh- bayrağı alaraq mübarizəni davam etdirdi. Bir ovuc səhabə ilə çəyirtkə sürüsü kimi çox olan düşmənə qarşı ciddi müqavimət göstərdi.

Bu zaman Allah Rəsulu -səllallahu əleyhi və səlləm- məscidin minbərində hadisənin bütün gedişini anbaan seçilmiş əshaba danışırdı. Müharibə meydanı onun gözlərinin önündə idi. Müharibə meydanında şəhid olanlarla bağlı kədərli və hüznlü bir şəkildə belə deyirdi: Zeyd bayrağı əlinə aldı... əvvəlcə Zeyd vuruldu və şəhid oldu. Sonra Səfər aldı... o da şəhid oldu. Sonra bayrağı İbn Rəvaha aldı... o da şəhid oldu...

Sonra Peyğəmbər -səllallahu əleyhi və səlləm- yaşlı gözləri ilə Allahın dərgahına əl açdı: "Allahım! Xalid Sənin qılınclarından bir qılıncdır. Sən ona qələbə ehsan elə!",-deyə dua etdi. (Əhməd, V, 299)

**Xalid bin Vəlidin komandirlik bacarığı**

Həzrət Xalid bin Vəlid axşam düşüb ordular yerlərinə çəkilənədək döyüşü mükəmməl bir şəkildə idarə etdi. Gecə isə döyüş taktikasını tamamilə dəyişdirdi. Sağ tərəfdə olanları sola, sol tərəfdə olanları sağa, arxadakıları önə, öndəkiləri arxaya keçirtdi. Ertəsi gün düşmən bu döyüş taktikasının dəyişdirildiyini görüb çaşdı. Onlar qarşılarında yeni simalar görəndə müsəlmanlara təzə qüvvələrin köməyə gəldiyini güman edərək bir xeyli tərəddüd keçirtdilər. Allahın qılıncı Həzrət Xalid də-radiyallahu

anh- bu tərəddüdü çox gözəl dəyərləndirdi və güclü bir hücuma keçdi. Belə bir hücumu gözləməyən düşmən üzərinə gələn iman seli qarşısında dayana bilmədi, dağılmağa başladı. Sonda geri çəkilmək məcburiyyətində qaldı.

O gün əlində doqquz qılınc parçalanan həzrət Xalid -radiyallahu anh- bu fürsəti də dəyərləndirərək düşmənə hiss etdirmədən ordunu geri çəkdi. Bu siyasi manevr onun hərbi dühasını göstərən ikinci bir hərəkət oldu. Beləliklə, iki ordu məğlub olmadan döyüşdən əl çəkərək geri çəkildi. Həzrət Xalid -radiyallahu anh- çox itki vermədən ordunu Mədinəyə gətirdi. Yeddi gün davam edən döyüşdə on dörd nəfər şəhid olmuşdu. Düşməndən öldürülənlər isə çox idi. Müsəlman ordusu özü ilə az-çox qənimət də gətirmişdi. (Vaqidi, II, 764, 768; İbni-Sad, III, 407)

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- müsəlmanlara:

*"Bir yerə toplaşın və qardaşlarınızı qarşılayın!"*,-buyurdu. İsti bir gün olmasına baxmayaraq, müsəlmanlar toplaşdılar. Allah Rəsulu da heyvanını minib mücahidləri qarşılamağa getdi. Uşaqlar onun arxasınca gələndə Varlıq Nuru: "Uşaqları da tərkinizə alın! Cəfərin oğlunu mənə verin!,-buyurdu.

Peyğəmbər -səllallahu əleyhi və səlləm- Abdullanı qucağına aldı. (Əhməd, V, 299; İbni-Kəsir, "əl-Bidayə", IV, 244)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Həzrət Xalidin bu qələbəsini təqdir etdi. Mədinəyə dönən müharibə iştirakçılarını məsələni tam bilmədikləri üçün "qaçaqlar" deyə, adlandıranlara isə şəxsən Allah Rəsulu: "Onlar Allah yolunda döyüşdən qaçanlar deyillər. Onlar təkrar-təkrar hücum edib çarpışanlardır!",-deyə cavab verdi. (İbni-Hişam, III, 438; Vaqidi, II, 765)

Çünki bu döyüşdə sayca çox az bir ordu ilə böyük bir qüvvəyə göz dağı verilmişdi. Allahın bildirdiyi bu uca həqiqət ortaya çıxmışdı:

**"… Neçə dəfə olub ki, az bir dəstə Allahın izni** (iradəsi) **ilə çox bir dəstəyə qalib gəlib! Allah səbir edənlərlədir!".** (əl-Bəqərə, 249)

Mutə müharibəsi kitab əhli olan xristianlarla edilən ilk İslam savaşı oldu. Üç min nəfərlik bir iman ordusu yüz min, ya da iki yüz min nəfərlik bir batil gücü zərərsizləşdirməyi bacardı.

İPƏKYOLU NƏŞRİYYATI

**Haqq gəldi batil yıxıldı: Məkkənin fəthi**

**(20 Ramazan 8/ 10 Yanvar 630)**

Mədinəli müsəlmanlarla məkkəli müşriklər arasında bağlanan Xudeybiyə anlaşmasına görə, sülhün müddəti on il idi. Ancaq müşriklər hər gün İslamın bütün Ərəbistana yayılmasından narahat olurdular. Buna görə də, yavaş-yavaş sülh maddələrini pozmağa başladılar. Sonra sülh maddələrinə qarşı hörmətsizlik edərək bir az da irəli getdilər. Xudeybiyə anlaşmasının üzərindən 17-18 aylıq bir zaman keçmişdi. Müşriklər onlara bağlı olan Bəni Bəkir qəbiləsini qızışdıraraq müsəlman olan Xuzalıların üzərinə yönəltdilər. Onlardan bəziləri də bu adi cinayətdə iştirak etdilər.

Allah Rəsuluna bağlı olan Xuza qəbiləsi basqına məruz qaldığı zaman namaz qılırdı. Onlardan kimisi səcdədə, kimisi rükuda, kimisi qiyamda ikən xaincəsinə şəhid edildilər. Hətta, Hərama sığınsalar da, Qureyş və Bəni Bəkir müşrikləri oranın toxunulmazlığını pozaraq soyqırımı davam etdirdilər. Bu vəziyyət tez Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- bildirildi.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- ona bu acı xəbəri gətirən Amr bin Salimi -radiyallahu anh- dinləyərkən mübarək gözlərindən axan inci dənələri kimi göz yaşları gül yanaqlarını isladırdı. Peyğəmbərlər sultanı son dərəcə kədərlənmişdi. Könlü yaralı olan səhabəsi Amr bin Salimə təsəlli verərək:

"Sənə yardım olundu, ey Amr!",-buyurdu. (İbni-Hişam, IV, 12; Vaqidi, II, 784-785)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- hər şeyə baxmayaraq, müşriklərlə aralarında bağlanmış olan anlaşmanı nəzərə alaraq xuzalılara qarşı həyata keçirilmiş basqına görə məkkəlilərin yanına öncə bir elçi göndərdi. Çünki onlar Xudeybiyə anlaşmasını çox ağır bir şəkildə pozmuşdular. Buna görə də, ya öldürülən xuzalıların qan bahası verilməli, ya Bəni Bəkir qəbiləsini himayə etməkdən əl çəkməli, ya da bu iki təklifi qəbul etməsələr, Xudeybiyə anlaşmasını qüvvədən düşmüş saymalı idilər.

Gözlərini qan və kin tutmuş olan cani müşriklər Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- təklif etdiyi bu üç təklifdən ancaq sonuncu təklifi, yəni anlaşmanın rəsmi olaraq pozulmasını qəbul etdilər. Bu isə müsəlmanları Məkkə fəthinə dəvət etmək demək idi.

İPƏKYOLU NƏŞRİYYATI

Sonra müşriklərin ağılları başına gəldi. Ancaq iş-işdən keçmişdi. Anlaşma ikitərəfli olaraq ləğv edilmişdi. Vəziyyəti düzəltmək üçün Qureyşin başçısı Süfyan əlacsız qaldı və çox peşman olaraq Mədinə yollarına düşdü. Onun sülh müqaviləsini yeniləşdirmək məqsədi ilə Məkkədən çıxdığını Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ilahi vəhylə elə o an əshabına bildirdi. Onsuz da baş verən basqın cinayəti ilə matəm və hüznə bürünmüş Mədinədə heç kim Əbu Süfyana bir xoş üz göstərmədi. Belə ki həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- xanımlarından biri olan Ümmü Həbibə Əbu Süfyanın qızı olmasına baxmayaraq, onun evinədək gələn atasının oturmaq istədiyi kiçik oturacağı belə onun altından götürdü. Əbu Süfyan çaşdı. Heyrətlə:

"-Qızım, oturacağı mənə, yoxsa məni oturacağa layiq hesab etmədin?,-deyə soruşdu.

Həzrət Peyğəmbəri bütün varlığı ilə  sevən Ümmü Həbibə anamız belə cavab verdi:

- Bu oturacaq Rəsulullaha -səllallahu əleyhi və səlləm- aiddir. Ona görə də, sən nəcis bir müşrik olaraq bu oturacaqda oturmağa əsla layiq deyilsən!

Əbu Süfyan eşitdiyi bu cavabdan donub qaldı:

- Qızım, sən bizdən ayrılandan sonra qəribə olmusan!,-dedi.

Ancaq Ümmü Həbibə:

- Xeyr, Allah məni İslamla şərəfləndirdi,-deyərək imanın hər şeydən üstün olan ülvi bir dəyər olduğunu ona xatırlatdı". (İbni-Hişam, IV, 12-13)

Başda Rəsulullah -səllallahu əleyhi və səlləm- olmaqla bütün əshabın göstərdiyi bu münasibət qarşısında çarəsiz olaraq Məkkəyə dönmək məcburiyyətində qalan Əbu Süfyan onu əhatə edən məkkəlilərə sülhün mümkün olmadığını bildirərkən çaşqınlığını gizləyə bilmir: "Mən qəlbləri tək bir qəlb olan bir qövmün yanından gəlirəm. Vallah, onlardan faydalanmaq istədiyim kiçik-böyük, qadın-kişi hər bir kəslə danışdım, ancaq bir nəticə əldə edə bilmədim!",-deyirdi. (Əbdürrəzzaq, V, 375)

Bu vaxt Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- səfərə hazırlaşmaqla bağlı əmr verdi. Yaxın qəbilələri Mədinəyə çağırdı, uzaqda olan qəbilələrin isə öz yerlərində gözləyib yolda orduya qoşulmalarını bildirdi.

İPOKYOLU NƏŞRİYYATI

İşlər son dərəcə gizli bir şəkildə həyata keçirilirdi. Düşmənin Mədinədəki bu ciddi fəaliyyətdən şübhələnməməsi üçün də Suriya tərəfinə bir kiçik əsgər birlik göndərən Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- bütün tərəfləri sıx bir nəzarət altında saxlayırdı. Onlar Cənab Haqqın yardımı ilə böyük fəthi qan tökülmədən gerçəkləşdirmək arzusunda idilər. Bunun üçün bir sıra strateji tədbirlər həyata keçirmişdilər:

Hər şeydən öncə əshabına səfər üçün hazırlaşmalarını əmr etdiyi halda, hara gediləcəyini gizli saxlayaraq niyyətini açıqlamadı. Hətta, ən yaxın dostu və sirdaşı Əbu Bəkir -radiyallahu anh- belə Məkkəyə gediləcəyini bilməmiş, qızı və Rəsulullahın xanımı Həzrət Aişədən -radiyallahu anha- haraya səfər ediliсəyini soruşmuşdu. O da: "Bilmirəm. Bəlkə Bəni Süleymlərə, bəlkə Sakiflərə, bəlkə də Həvazinlərə gedə bilər!",-demişdi. (İbni-Hişam, IV, 14)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bundan başqa məkkəlilərin hər hansı bir döyüşə hazırlaşmamaları və sülh yolu ilə fəthin gerçəkləşməsi üçün yolları nəzarətə götürmüş, Məkkəyə heç bir xəbərin və casusun getməsinə imkan verməmiş və belə dua etmişdir:

Həzrət Peyğəmbər Mədinədən hərəkət etməyə başlayanda qureyşliləri çaşdırmaq üçün əks istiqamətdə olan müttəfiq qəbilələrə baş çəkmiş, dairəvi bir yolla getmək taktikasını seçərək hədəfinin nə olduğunu gizləmişdir. Məkkənin yaxınlığına çatanda hər əsgərin ayrı bir atəş yandıraraq psixoloji təsirlə ordusunun əsgərlərinin sayının çox olduğunu göstərmişdir.

Bu məqsədlə ehrama girmək yeri olan Zülxuleyfədə ehrama girməyərək səfərin istiqaməti ilə bağlı gizliliyi qoruyub saxlamışdır.

Rəsulullah -səllallahu əleyhi və səlləm- güc əldə etdikdən sonra, bu gücü insanları öldürüb, onların ölkələrini fəth etmək üçün deyil, onların könüllərini Allaha açmaq, gerçək səadətə, yəni doğru yola qovuşmalarını təmin etmək üçün istifadə etmişdir. Çünki O, aləmlərə rəhmət və hidayət olaraq göndərilən bir "Rəhmət Peyğəmbəri" idi.

Bütün seçilmiş əshab bu gizliliyə əməl etdi. Ancaq Bədir qazilərindən Xətib bin Əbi Bəlta Məkkəyə vəziyyəti bildirən bir məktub yazmış və bir qadınla da bu məktubu ora göndərmişdi. Bundan Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- vəhylə xəbəri oldu və qadının yerini söyləyərək Həzrət Əlini, Zübeyr və Mikdadı -radiyallahu anhüm əcməin- o qadını yaxalayıb gətirmək üçün göndərdi. Qadın, Rəsulullahın -səllallahu əleyhi və

İPƏKYOLU NƏŞRİYYATI

səlləm- göstərdiyi yerdə yaxalandı. Onun üzərindəki məktub Rəsulullaha gətirildi. Məktubda bunlar yazılmışdı:

"Ey Qureyş! Allahın Rəsulu sizin üzərinizə elə böyük bir ordu ilə gəlir ki, gecə qaranlığı kimi qorxunc olan bu ordu sel kimi axacaq. Allaha and içirəm ki, Rəsulullah üzərinizə təkbaşına gəlsə də, Allah Onu sizin üzərinizdə qalib edəcək, vədini yerinə yetirəcək. İndidən başınıza çarə qılın!". (İbni-Kəsir, "əl-Bidayə", IV, 278)

Əslində, bu ifadələr nə həqiqətə zidd idi, nə də xəyanət sayıla bilərdi. Ancaq gizli saxlanılması zəruri olan bir həqiqət düşmənə bildirilirdi. Buna görə də, Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- bu işi görən Xətibi dərhal yanına çağırıb soruşdu:

"- Ey Xətib! Bunu niyə etdin?

Bədir qazilərindən olan Xətib böyük bir peşmançılıqla:

- Ey Rəsulullah! Yanınızda olan mühacirlərin Məkkədə ailə və mallarını qoruyacaq kimsələr var. Mənim isə bir kimsəm yoxdur. Mən də bu məktubla onlar arasında rəğbət qazanaraq ailəmi, övladlarımı qorumaq istədim. Mən onların casusu deyiləm. Mən bu işi dinimdən dönmək kimi bir niyyətlə etmədim. Müsəlman olduqdan sonra mən əsla küfrə razı olmaram. Vallah, mənim Allah və Rəsuluna olan imanım sonsuzdur. Əsla, dinimi dəyişdirməmişəm…

Bundan sonra mərhəmət ümmanı olan Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

- Xətib özünü doğru müdafiə etdi,-buyurdu və onu əfv etdi.

Xətibin boynunu vurmaq istəyən həzrət Ömərə də Cənab Haqqın Bədir müharibəsində iştirak edənlərin xətalarını bağışladığını xatırladaraq belə buyurdu:

- Ancaq o Bədir səfərində iştirak etdi. Nə bilirsən, bəlkə də uca Allah Bədir əhlinin halından xəbərdar oldu və: **"İstədiyinizi edin, sizləri bağışladım!"**,-buyurdu". (Buxari, "Məğazi", 9; Müslüm, "Fədailüs-Səhabə", 161)

Bununla birlikdə Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu vaxt nazil olan bu mübarək ayələrin bildirdiyinə uyğun olaraq Allahın düşmənləri ilə dostluq edilməməsinin zəruri olduğu məsələsini başda Xətib olmaqla bütün seçilmiş əshaba çatdırdı:

İPƏKYOLU NƏŞRİYYATI

*"Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost* (vəli) *tutun! Onlar* (kafirlər) *sizə gələn haqqı* (Quranı, Məhəmməd -əleyhissəlamı) *inkar etdikləri halda, siz onlarla dostluq edirsiniz* (mehribanlıq göstərirsiniz). *Siz Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi* (Məkkədən) *çıxardırdılar. Əgər siz Mənim yolumda və Mənim rizamı qazanmaq uğrunda cihada çıxmısınızsa* (Mənim düşmənlərimi dost tutmayın). *Siz onlarla gizlində dostluq edirsiniz* (dostluq üzündən onlara sirr verirsiniz). *Mən sizin gizli saxladığınız və aşkar etdiyiniz hər şeyi* (bütün gizli və aşkar əməllərinizi) *bilirəm. Sizdən kim* (bir daha) *bunu etsə* (düşmənlərlə dostluq edib onlara sirr versə), *o, şübhəsiz, haqq yolundan azmışdır!".* (əl-Mümtəhinə, 1)

*"Əgər onlar* (müşriklər) *sizi ələ keçirtsələr* (sizə qələbə çalsalar), *sizə düşmən olar, sizə pisliklə əl və dil uzadar, sizin kafir olmağınızı istəyərlər. Nə* (xatirinə Allaha və Peyğəmbərinə xəyanət etdiyiniz Məkkədəki) *qohum-əqrəbanız, nə də oğul-uşağınız sizə bir fayda verəcəkdir. Allah qiyamət günü sizi bir-birinizdən ayıracaqdır. Allah nə etdiklərinizi görəndir!".* (əl-Mümtəhinə, 2-3)

Bu mübarək ayələrlə müsəlmanların övladlarını, mallarını qorumaq məqsədilə kafirlərlə dostluq etmələri qadağan edilmişdir. Belə ki Həzrət Nuhun –əleyhissəlam-oğlu Kənan iman etməyənlər arasında olduğu üçün həlak olmuşdur. Eyni şəkildə Lutun –əleyhissəlam-arvadı da fasiqlərlə əlaqədə olduğu üçün onlar kimi olmuş və ilahi qəhrlə üzləşmişdir. Başqa sözlə, onların bir Peyğəmbərlə olan cismani yaxınlıqlarının heç bir önəmi olmamışdır.

*****

Hicrətin səkkizinci ilində Ramazan ayının onuncu günü Allah Rəsulu -səllallahu əleyhi və səlləm- on min nəfərlik möhtəşəm iman ordusu ilə Mədinədən ayrıldı. Cihada getdiklərinə görə yolda iftar etdi. Həzrət Məhəmməd -səllallahu əleyhi və səlləm- əshabına da onun kimi etməsini əmr buyurdu.

Cuhfə deyilən yerə çatanda həzrət Abbasla qarşılaşdı. Daha öncə müsəlman olmuş Abbas -radiyallahu anh- bunu gizləyərək Məkkədə qalmış, oradan Qureyşin vəziyyətini hər zaman Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- xəbər vermişdi. Məkkeyi-Mükərrəmədə qalmasının bir səbəbi də öhdəsində olan hacılara su paylamaq vəzifəsini yerinə yetirməsi idi.

Nəhayət, vaxtın gəldiyini düşünərək o da hicrət etmək üçün ailəsi ilə birlikdə yola çıxmışdı. Buna çox sevinən Allah Rəsulu -səllallahu əleyhi və səlləm-: *"Mən Peyğəmbərlərin sonuncusu olduğum kimi, sən də mühacirlərin sonuncusu oldun!..."*,-buyurdu. (Əli əl-Müttəqi, XI, 699/33387)

Bu zaman məkkəlilər baş verənlərdən xəbərsiz idilər. İslam ordusunun onların şəhərlərinə çox yaxın bir məsafədəki Mərruz-Zahran Vadisinə çatdığını öyrənib, Rəsulullahın -səllallahu əleyhi və səlləm- əmri ilə hər birliyin ayrı-ayrı tonqal yandırması nəticəsində yaranan möhtəşəm mənzərəni görəndə dəhşətə gəldilər, ağıllarını itirdilər.

Əbu Süfyan, tərəfdarları olan Hakim bin Hizam və Büdeyli də götürüb ətrafı müşahidə etmək üçün Məkkədən çıxmışdı. İslam əsgərlərinin yandırmış olduğu minlərlə tonqalı görəndə çaşdılar. Onların hansı qövm və qəbiləyə aid olduğunu müəyyənləşdirməyə çalışdılar. Ancaq orada yerləşənlərin Peyğəmbər və əshabının ola biləcəyi ehtimalı ağıllarına gəlmədi. Məkkə tamamilə mühasirə edilmiş olduğundan Əbu Süfyan və onun yanındakılar tutulub Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yanına gətirildilər.

Həzrət Ömər -radiyallahu anh- Əbu Süfyanın öldürülməsi üçün Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yanına gəldi. Ancaq Peyğəmbərin əmisi Abbas -radiyallahu anh- isə onun bağışlanmasını istəyirdi. Misilsiz siyasi dühası ilə möhtəşəm bir müharibə taktikası tətbiq edən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əmisinə müraciət edərək: *"Əbu Süfyanı götür, ordunun keçid yerinə apar! İslam ordusunun ehtişamını ona göstər!"*,-buyurdu.

Bu, Qureyşin rəisi olan Əbu Süfyandan müşriklərin müsəlmanlara qarşı boş yerə müqavimət göstərməsinin qarşısını almaq üçün istifadə etmək demək idi. Beləliklə, müşriklər müqavimət göstərməsə, qan tökülməsinin də qarşısı alınardı.

Həzrət Abbas -radiyallahu anh- Əbu Süfyanı götürərək Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- göstərdiyi keçidə apardı. Bu zaman İslam ordusu birliklərə ayrılaraq hərəkət edirdi. Hər karvanın imanlı ürəklərindən yüksələn Allahu Əkbər sədaları ərşə yüksəlirdi.

Əbu Süfyan bu mənzərəni görəndə gözləri qamaşdı. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- birliyi keçərkən o dəhşət və heyrətini gizlətməyərək:

İPƏKYOLU NƏŞRİYYATI

"- Ey Abbas! Qardaşın oğlu, səltənətini çox böyütmüşdür!.., -dedi.

Abbas -radiyallahu anh- müdaxilə etdi:

- Xeyr, bu səltənət deyil, peyğəmbərlikdir.

Əbu Süfyan da:

- Bəli, bəli!,-deyərək təsdiq etdi. (Buxari, "Məğazi", 48; Heysəmi, VI, 164; İbni-Sad, II, 135; İbni-Əsir, "əl-Kamil", II, 242)

Sonra oradan ayrılaraq həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yanına gəldilər. Həzrət Peyğəmbər soruşdu:

"Ey Əbu Süfyan! Hələ La ilahə illəllah deyəcəyin vaxt gəlmədimi?".

Əbu Süfyan bir az düşündükdən sonra kəlimeyi-tövhidi söylədi. Ancaq Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- peyğəmbərliyini təsdiq edən cümləni demədi. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- təkrar soruşdu:

"Mənim Allahın Rəsulu olduğumu söyləyəcəyin vaxt gəlmədimi?"

Əbu Süfyan bu suala cavab vermək üçün bir az möhlət istəsə də, Həzrət Abbasın xəbərdarlığı ilə şəhadət kəlməsini olduğu kimi söylədi. Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- onun qəlbini İslama isindirmək və onu təltif etmək məqsədi ilə Məkkə xalqının toxunulmayacağı yerləri sayarkən Əbu Süfyanın evini də bu sıraya daxil etdi:

"Kim Məscidi-Hərama girsə, toxunulmazdır. Kim evindən kənara çıxmasa, toxunulmazdır. Kim Əbu Süfyanın evinə sığınsa, o da toxunulmazdır!". (Əbu Davud, "Xərac", 24-25/3021-3022; Heysəmi, VI, 164-166; İbni-Hişam, IV, 22)

Sərbəst buraxılan Əbu Süfyan Məkkəyə dönərkən Allah Rəsulu dasəllallahu əleyhi və səlləm- əshabına üz tutaraq son dəfə müraciət edirdi:

*"Sizə qarşı hər hansı bir hücum olmasa, heç kimə qılınc çəkməyin!".* (İbni-Hişam, IV, 28)

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm-dörd hissəyə ayırdığı İslam ordusuna hərəkət etmək əmri verdi. Beləliklə, Məkkə dörd bir yandan göylərə yüksələn təkbir səsləri ilə doldu.

Səkkiz il əvvəl iki dəvə və üç nəfər insanla Məkkədən kədərli bir şəkildə ayrılan Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- bu gün Allahın lüt-

İPƏKYOLU NƏŞRİYYATI

fü ilə on min nəfərlik böyük və möhtəşəm bir ordu ilə mübarək şəhərə girirdi. O gün yurdundan çıxarılmış məzlum bir fərd, bu gün yurdunu fəth edən qalib bir fateh idi. Ancaq O, bununla əsla qürurlanmırdı, dəvəsinin boynu üzərində səcdə edən bir insan vəziyyətində, yəni bu neməti lütf edən Allaha şükür edərək Məkkəyə girirdi. Başını uca Allaha itaət edərək elə əymişdi ki, saqqalının ucu az qalırdı dəvənin palanına dəysin. O bu zaman ardıcıl olaraq:

" Ey Allahım! Həyat, ancaq axirət həyatıdır!",-deyirdi. (Vaqidi, II, 824; Buxari, "Riqaq", 1)

Peyğəmbər əxlaqı ilə tərbiyə olunmuş seçilmiş əshabın halı da Allah Rəsulunun vəziyyətindən çox da fərqlənmirdi.

İslam ordusu demək olar ki, heç bir müqavimətlə qarşılaşmadı. Bu məsələ ilə bağlı Əbu Süfyana qarşı tətbiq edilən taktikanın bərəkəti ilə onun məkkəlilərin müsəlmanlara qarşı müqavimət göstərməməsi üçün çalışması xeyli müsbət nəticə vermiş, heç kim əzəmətli İslam ordusuna qarşı çıxmağa cəsarət göstərməmişdi. Yalnız Xalid bin Vəlidin Məkkəyə girdiyi yerdə kiçik bir toqquşma olmuş, bu toqquşma da tez aradan qaldırılmışdı.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Fəth surəsini oxuyaraq seçilmiş əshabla birlikdə Kəbeyi-Müəzzəmə yönəldi. Dəvəsindən enmədən Kəbəni təvaf etdi. Sonra:

"De: "Haqq (İslam) gəldi, batil (şirk və küfr) yox oldu!..." (əl-İsra, 81) mübarək ayəsini oxuyaraq əlindəki dəyənəklə Kəbədəki bütləri şəxsən özü devirməyə başladı. (Buxari, "Məğazi", 48; Müslüm, "Cihad", 87; Vaqidi, II, 831-832)

Fəthdən sonra məkkəlilər uşaqlarını Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına aparır, O da uşaqların başını sığallayır və onlara dua edirdi. (Əhməd, IV, 32)

**Əfv bayramı**

Bu zaman qureyşlilər Məscidi-Hərama toplaşmışdılar. Onlarla bağlı veriləcək hökmü gözləyirdilər. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- yalnız oradakılara deyil, bütün insanlığa aid olan bu misilsiz xütbəsini söylədi:

İPƏKYOLU NƏŞRİYYATI

*"Allahdan başqa ilah yoxdur. Yalnız O, vardır. Onun heç bir bənzəri və şəriki yoxdur. Allah vədini yerinə yetirmiş, quluna yardım etmiş və bütün düşmənlərimizi dağıtmışdır. Kəbə xidməti və hacılara su paylamaq vəzifəsindən başqa, bütün əski adət və ənənələr, mal və qan davaları bu gün bu iki ayağımın altındadır.*

Ey qureyşlilər!

Allah sizə cahiliyə özündənrazılığını, atalarla, soylarla (öyünüb) təkəbbürlənməyi qadağan etdi. Bütün insanlar Adəmdən, Adəm də torpaqdan yaradılmışdır.

(Peyğəmbərimiz -əleyhissəlatü vəssəlam- bu sözlərdən sonra aşağıdakı mübarək ayəni oxudu):

**"Ey insanlar! Biz sizi bir kişi və bir qadından** (Adəm və Həvvadan) **yaratdıq. Sonra bir-birinizi tanıyasınız** (kimliyinizi biləsiniz) **deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır** (pis əməllərdən ən çox çəkinəninizdir). **Həqiqətən, Allah (hər şeyi) biləndir,** (hər şeydən) **xəbərdardır".** (əl-Hücurat, 13)

Artıq Məkkeyi-Mükərrəmə Xudeybiyənin bir müjdəsi olaraq əfv, sülh, təhlükəsizlik və doğru yolun iç-içə olduğu ruhani bir fəthlə əsl sahiblərinə, yəni ciyərparələrinə sinəsini açmışdı. Min bir iztirab, zülm və məşəqqətlərlə dolu Məkkə həsrəti də artıq sona çatmışdı. İllərin kədəri şadlıqla əvəz olunmuşdu. Elə bunun şükrü olaraq tarixin ən böyük əfvini göstərmək üçün Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Məkkə xalqına:

"-*Qureyş camaatı! İndi mənim sizinlə bağlı nə edəcəyimi düşünürsünüz?,*-deyə soruşdu.

Qureyşlilər:

- Biz Sənin xeyir və yaxşılıq edəcəyinə ümid edirik. "Bizimlə bağlı xeyirli qərar verəcəksiniz!",-deyirik. Sən kərəm və yaxşılıq sahibi olan bir qardaşsan! Kərəm və yaxşılıq sahibi olan bir qardaşın oğlusan!...,-dedilər.

Bundan sonra Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

- Mən də Həzrət Yusifin qardaşlarına dediyi kimi:

"(Yusif) dedi: "Bu gün sizə (etdiklərinizə görə) heç bir məzəmmət

İPƏKYOLU NƏŞRİYYATI

yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir! (Mən Allahdan sizin bağışlanmanızı diləyərəm. O da sizi bağışlayar!)" (Yusuf, 92), deyirəm. İndi gedin, artıq sərbəstsiniz!",-buyurdu.

Başqa bir müraciətində də:

"Bu gün mərhəmət günüdür. Bu gün Allahın qureyşliləri İslamiyyətlə gücləndirəcəyi, üstün edəcəyi bir gündür",-buyurdu.

Kainatın fəxrinin ən böyük arzusu heç bir fərdin kənarda qalmaması şərti ilə bütün insanların müsəlman olmaları idi. Məkkənin fəthindən sonra ən güclü olduğu bir zamanda, bir vaxtlar ona hər cür zülm və işgəncə vermiş insanlardan intiqam ala bilmək imkanının olmasına baxmayaraq, bunu etmədi, ümumi əfv elan etdi. Bu onun Haqqın nəzəri ilə yaradılmışlara baxış tərzinin xariqüladə bir təzahürüdür.

*****

Uhud müharibəsində Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- əmisi Həzrət Həmzənin ciyərini çıxararaq çeynəyən Hind də Məkkənin fəthi günü iman edərək ümumi əfvdən faydalandı. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- tövhid kəlməsinin hörmətinə onu da bağışladı.

Əbu Cəhlin oğlu İkrimə tanınan İslam düşmənlərindən biri idi. Məkkənin fəthindən sonra Yəmənə qaçmışdı. Xanımı müsəlman olaraq onu Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yanına gətirdi. Aləmlərə rəhmət olaraq göndərilən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- İkriməni məmnuniyyətlə qarşılayaraq:

"Ey köçəri süvari, xoş gəldin!",-buyurdu və onun müsəlmanlara qarşı etdiyi zülmü üzünə vurmayıb, əfv etdi. (Hakim, III, 271/5059; Vaqidi, II, 851-852)

Həbbar bin Əsvəd də İslam düşmənlərinin liderlərindən biri idi. O, Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- qızı Zeynəbi -radiyallahu anha- dəvə ilə Məkkədən Mədinəyə hicrət edəndə nizəsi ilə qəsdən vuraraq dəvədən yıxmışdı. Həzrət Zeynəb hamilə olduğundan uşağını salmış və ağır yaralanmışdı. Bu yara sonra onun vəfatına səbəb olmuşdu. Həbbar bir çox belə günah etmişdi. Məkkənin fəthindən sonra qaçdı və ələ keçirilmədi. Rəsulullah -səllallahu əleyhi və səlləm- Mədinədə əshabı ilə oturduğu zaman onun hüzuruna gələrək müsəlman olduğunu bildirdi. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- onu da bağışladı. Ona həqarət edilməsini və irad tutulmasını qadağan etdi. Çünki Qurani-Kərimdə:

**"Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!"** (əl-Əraf, 199) buyurulurdu.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- canlı bir Quran idi. Quran əxlaqı da ən gözəl bir şəkildə onda özünü göstərirdi. Ona qarşı yönələn bütün günahları heç tərəddüd etmədən ürəkdən bağışlayırdı. Ancaq topluma qarşı işlənən günahlar üçün haqq öz yerini tutana və haqq sahibi haqqını alanadək Onu heç kim sakitləşdirə bilməzdi.

Ona görə də, Məkkədə misilsiz, görünməmiş bir əfv siyasətinin həyata keçirilməsi ilə birgə, bir sıra islaholunmaz xain müşriklərin də ümmətin mənafeyi xatirinə öldürülməsi ilə bağlı Peyğəmbər əmri verilmişdi.

*****

Məkkəlilər Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- bütün insanlığa nümunə olaraq həyata keçirtdiyi əfvin sevincini yaşayarkən günorta olmuşdu. Rəsulullah -səllallahu əleyhi və səlləm- hər zaman olduğu kimi, yenə əzan oxumaq üçün Həzrət Bilala əmr etdi. Bilal -radiyallahu anh- bir vaxtlar kölə olaraq dözülməz işgəncələr altında "Əhəd, Əhəd" deyə inlədiyi günləri xatırladı. Artıq zülm məğlub olmuşdu. İndi o azad idi və zəfər qazanmış bir iman ordusu ilə Məkkəyə gəlmişdi. Allaha şükür edərək Kəbeyi-Müəzzəmənin üstünə çıxdı. Təsirli bir əzan oxumağa başladı. O elə ürəkdən və yanıq bir səslə əzan oxuyurdu ki, bütün Məkkə dağları və səması bu ülvi səda ilə alışıb-yanırdı. Göylər gülümsəyir, yerlər, sevinirdi. O gün oxunan Məhəmməd əzanı möminlərə əbədi bir xatirə idi. Bu mənzərəni görən müşriklərin bir neçəsi: "Vay bizim halımıza!... Kölələr qədər də olmadıq! Onlar hansı zirvələrə yüksəldi, bizlər harada qaldıq?",- deyə əvvəllər etdiklərinə yəni o anadək həqiqətdən xəbərsiz qalmalarına heyfsləndilər.

### Məkkəlilərin beyəti

Günorta namazını qıldıqdan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Səfa təpəsinə çıxdı. Məkkəlilərin beyətlərini qəbul etdi. Öncə kişilər "müsəlmanlıq və cihad" üzrə Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- beyət etdilər. Sonra qadınlar beyət etdilər.

Qadınların beyəti ilə bağlı uca Allah Rəsulullaha -səllallahu əleyhi və səlləm- belə buyurmuşdu:

*"Ey Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqları, oğurluq və zina etməyəcəkələri, övladlarını öldürməyəcəkləri* (qız uşaqlarını diri-diri torpağa gömməyəcəkləri), *özgə kişilərdən olan uşaqlarını yalandan ərlərinə isnad etməyəcəkləri və heç bir yaxşı* (bəyənilən) *işdə sənin əleyhinə çıxmayacaqları barədə sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onların bağışlanmasını dilə. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!".* (əl-Mümtəhinə, 12)

Qadınların beyəti sözlə və Rəsulullahın -səllallahu əleyhi və səlləm- əlini batırdığı bir su qabına əllərini batırmaqla həyata keçirildi. Qadınların beyəti heç bir zaman əl tutaraq gerçəkləşdirilməmişdir.

**Əmanəti əhlinə verin!**

Rəsulullah -səllallahu əleyhi və səlləm- Kəbəyə gələndə Məscidi-Həramın bir küncündə oturmuşdu. Mücahidlər də onun ətrafında əyləşmişdilər. Allah Rəsulu Kəbənin açarını gətirmək üçün Həzrət Bilalı Osman bin Talhanın yanına göndərdi. Həzrət Bilal, Osmanın -radiyallahu anh- yanına gedib:

"-Rəsulullah -səllallahu əleyhi və səlləm- Kəbənin açarını götürməyimi əmr edir!,- dedi.

Osman:

- Olar!,-deyərək anası Sülafənin yanına getdi.

O zaman açar onun yanında idi.

- Ey əziz anam! Açarı mənə ver! Rəsulullah -səllallahu əleyhi və səlləm- mənim yanıma adam göndərdi və açarı ona verməyimi əmr etdi,-dedi.

Sülafə:

- Qövmünün şərəfləndiyi, öyündüyü bir şeyi götürüb əlinlə verməyindən Allaha sığınıram. O, bu açarı sizdən alandan sonra bir daha geri qaytarmayacaq!,- dedi.

Osman -radiyallahu anh-bir az səy göstərdikdən sonra açarı anasından alıb Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yanına gətirdi və:

- Bunu Sənə Allahın əmanəti olaraq verirəm!,-dedi.

İPƏKYOLU NƏŞRİYYATI

O açarın ona geri qaytarılmayacağından qorxurdu". (Vaqidi, II, 833; Heysəmi, VI, 177)

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- Kəbənin qapısını açdı. İçəri girərkən qapının bağlanılmasını əmr etdi. Uzun müddət orada qaldı. İki rükət namaz qıldı. (Vaqidi, II, 835; İbni-Sad, II, 137)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Kəbədən çıxdı. Fəth xütbəsini söylədikdən sonra: "Osman haradadır?",-deyə soruşdu. Osman bin Talha ayağa qalxdı. Rəsulullah -səllallahu əleyhi vəsəlləm-:

**"Allah sizə əmanətləri öz sahiblərinə** (onları almağa və qoruyub saxlamağa layiq olan kimsələrə) **verməyinizi və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi buyurur. Həqiqətən, Allahın bununla sizə verdiyi öyüd necə də gözəldir. Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir!"** (ən-Nisa, 58) ayəsini oxuduqdan sonra:

"Ey Əbu Talha oğulları! Uca Allahın əmanətini həmişəlik sizdə qalmaq və doğru hərəkət etmək şərti ilə götürün! Onu zalım olmadıqca heç kim sizin əlinizdən ala bilməz! Bu gün yaxşılıq və əhdə vəfa günüdür",-buyurdu. (İbni-Hişam, IV, 31-32; Vaqidi, II, 837-838; İbni-Sad, II, 137)

Bu hadisədən də göründüyü kimi, əmanətlərin əhlinə verilməsi çox önəmli bir məsələdir. Çünki əmanətlər əhlinə verildiyi zaman fərddə, ailədə və dövlətdə sabitlik və əmin-amanlıq davam etmişdir. Əksinə olanda isə böyük imperiyalar belə dağılmışdır. Tarix bu dediklərimizi sübut edən misallarla doludur.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əmanət məsələsinin həssaslığını və önəmini bir mübarək hədisində çox gözəl ifadə etmişdir:

*"Əmanət əhlinə verilmədiyi zaman qiyaməti gözlə!".* (Buxari, "Elm", 2; Əhməd, II, 361)

**Bənzəri olmayan bir vəfa**

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- fəthdən sonra Məkkədə on beş gün qaldı. Bu zaman ənsardan bəzi şəxslər narahat olmuşdular. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- bir daha Mədinəyə dönüb-dönməyəcəyini düşünürdülər. Çünki uca Allah ona doğub böyüdüyü mübarək və müqəddəs yerin fəthini qismət etmişdi. Səfa təpəsində dua edən Həzrət

İPƏKYOLU NƏŞRİYYATI

Peyğəmbər -səllallahu əleyhi və səlləm- dəyərli ənsarın bu narahatlığını hiss etdi. Duaları bitirdikdən sonra onların yanına gələrək:

"-Nə haqqında danışırsınız?,-deyə soruşdu.

Onlar da narahatlıqlarını bildirdilər. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- böyük bir vəfa örnəyi göstərərək belə buyurdu:

- Ey ənsar! Elə bir şey etməkdən Allaha sığınıram. Mən sizin məmləkətinizə hicrət etdim. Həyatım həyatınız, ölümüm də sizin yanınızdadır".

Bu sözlərdən sonra ənsarın narahatlığına son qoyuldu. (Müslüm, "Cihad", 84, 86; Əhməd, II, 538)

**Hüneyn müharibəsi**

**(11 Şəvval 8/1 Fevral 630)**

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Məkkənin fəthindən sonra yalnız Kəbədəki bütləri yıxmadı, ətrafda olan bütləri də yox etmək üçün mücahid qruplar yaratdı və onları şirkin o cansız daşlarını dağıtmaq üçün göndərdi. Yəni bir tövhid təmizliyi başlatdı. Ancaq bu vəziyyəti Hüneyndə yaşayan Həvazin qəbiləsi ilə Taifdə məskunlaşmış Bəni Sakif qəbiləsi qəbul edə bilmədi. Onlar müsəlmanlara hücum etmək qərarına gəldilər. Bunun üçün böyük bir ordu hazırladılar. Bir ölüm-dirim müharibəsinə getdiklərini düşünərək hər şeylərini özləri ilə götürdülər.

Onların bu hərəkətini öyrənən Allah Rəsulu da -səllallahu əleyhi və səlləm-öz ordusuna Məkkədən iki min nəfər daxil edərək onlara hücum etdi. Çox hikmətlidir ki, orduda illər boyu Allaha şərik qoşaraq müsəlmanlarla döyüşmüş və onlara çox əziyyət vermiş Əbu Süfyan da var idi. İndi isə o, İslam ordusunun sıralarında qələbə üçün vuruşmalı idi. Hətta, səksən nəfərədək məkkəli müşrik də bu ordunun tərkibində müharibədə iştirak etmişdi.

İslam ordusu çox mükəmməl bir ordu idi. Onlar göz qamaşdırıcı bir ehtişamla Hüneynə doğru irəliləyirdilər. Hər kəs indiyədək belə təchizatı olan, nizamlı, böyük bir ordunun Ərəbistanda görünmədiyini düşünürdü. Bu vəziyyət seçilmiş əshabın könlündə bir anlıq qürur yaratdı: "Belə bir ordu əsla məğlub edilməz!",-deyərək düşməni heçə saydılar və maddi güclərinə arxalanaraq qələbənin mütləq baş verəcəyinə inandılar. Bu bir anlıq təkəbbür də müsəlmanların ilahi imtahana məruz qalmalarına səbəb oldu:

İPƏKYOLU NƏŞRİYYATI

İslam ordusunun öndəki qüvvələri Hüneynə girişdəki dar yollarda özlərindən arxayın bir şəkildə irəliləyərkən sabahın alaqaranlığında qəflətən pusquya düşdülər. Böyük bir çaşqınlıq yarandı. Müsəlmanlar onların üzərinə yağış kimi yağan oxlar qarşısında özlərini itirdilər. İslam ordusunda tərəddüd və qorxu dolu bir dağınıqlıq yarandı. Bu arxadan gələnlərə də təsir etdi. Müsəlman ordusunun sıraları dağıldı. Onlar geri çəkildilər. Həvazin və Sakif qəbilələri də onları təqib etdilər.

O dəhşətli anlarda yerindən tərpənməyən, dayanmadan düşmənin üzərinə doğru hərəkət edən, mindiyi heyvanın başını çəkərək düşmənin arasına daxil olan yalnız Allah Rəsulu -səllallahu əleyhi və səlləm- oldu. O gün Rəsulullah -səllallahu əleyhi və səlləm- misilsiz bir cəsarət və dastanlara sığmayan bir şücaət nümunəsi göstərdi. Hətta, əmisi həzrət Abbas və Əbu Süfyan bin Haris -radiyallahu anhüma-Onun mübarək canının təhlükəyə məruz qalmaması üçün mindiyi heyvanın cilovunu tutmuşdular. Onlar heyvanın irəli getməsinə mane olmağa çalışırdılar.

İslam ordusunda qarışıqlıq davam edirdi. Onların arasında: "Bu gün sehr pozuldu",-deyə fəryad edənlər olduğu kimi, "Bu anarxiyanın qarşısı alına bilməz!",- deyənlər də var di. Bir çox adamlar qəm dəryasına qərq olmuşdular. Bir sıra məkkəlilər də "Həzrət Peyğəmbər öldü. Ərəblər keçmiş dinlərinə qayıdacaqlar!" deyə şayiələr uydururdular.

Ancaq Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- sağ idi və düşmənə müqavimət göstərirdi. Allaha təvəkkül edərək və təslimiyyət göstərərək əshabına müraciət edirdi: "Ey ənsar! Ey mühacirlər! Ey Allahın qulları! Bura gəlin! Mən Allahın qulu və Peyğəmbəriyəm!.."

Sonra Peyğəmbər -səllallahu əleyhi və səlləm- gur səsi olan əmisi Abbasa -radiyallahu anh- işarə etdi ki, İslam ordusuna müraciət etsin. Həzrət Abbas uca səslə:

"Ey Əqəbədə beyət edənlər! Ey Ridvan ağacı altında söz verənlər! Tez gəlin, Allahın Rəsulu buradadır!..",-deyərək çağırmağa başladı.

Bu dəvəti eşidən səhabə lebbeyk lebbeyk deyərək Allah Rəsulunun yanına qaçdı. Beləliklə, əsən bir küləklə dağılan kəpənəklərin yenidən böyük bir cazibə qüvvəsi ilə nurun ətrafına uçduğu kimi, onlar da həvəslə Varlıq Nurunun yanına qaçdılar. Bununla da mömin könüllər qorxudan xilas olaraq dincliyə və əmin-amanlığa qovuşdu. Yavaş-yavaş Allahın lütfü ilə bütün İslam ordusu özünü topladı. Bundan sonra Allah Rəsulu

-səllallahu əleyhi və səlləm- əllərini uca dərgaha açıb: "Allahım! Mənə vəd etdiyin zəfəri ehsan buyur!",-deyə dua etdi.

Bədir müharibəsində olduğu kimi, yerdən mübarək əlləri ilə bir ovuc torpaq götürərək düşmənlərə doğru atdı və seçilmiş əshaba:

"İndi sədaqətlə hücum edin!",-buyurdu. (Müslüm, "Cihad", 76-81; Əhməd, III, 157, V, 286; Ibni-Hişam, IV, 72; Vaqidi, III, 897-899)

Bu dəfə İslam ordusu döyüşə sanki yenidən başladı. Onlar böyük bir sürətlə müşriklərin üzərinə hücum etdilər. Onların şiddətli hücum və həmlələri düşməni pərişan etdi, düşmən ordusu dağıldı. Bu döyüşdə müsəlmanlardan yalnız dörd nəfər şəhid oldu, müşriklərdən isə yetmiş nəfər öldürülmüşdü. Düşmən elə məğlub edilmişdi ki, onların döyüş meydanına gətirdikləri hər şey müsəlmanlara qalmışdı. Ələ keçən qənimətin sayı-hesabı yox idi.

Şübhəsiz, bu hal uca Allahın möminlərə qismət etdiyi böyük bir lütf idi. Çünki onlar döyüşün əvvəlində məğlub olmuşdular. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- şücaəti, cəsarəti, uca Allaha ürəkdən yalvarışı və duası onlara zəfər qismət etdi. Uca Allah bu həqiqəti Qurani-Kərimdə belə bəyan edir:

"Allah sizə bir çox yerlərdə, həmçinin Hüneyn (vuruşu) günündə kömək etdi. O gün çox olmağınız xoşunuza gəlsə də, bir faydası olmadı, gen dünya sizə dar oldu (yer üzü genişliyinə baxmayaraq, sizə dar gəldi), sonra dönüb qaçdınız. Sonra da Allah Öz peyğəmbərinə və möminlərinə arxayınlıq nazil etdi, (köməyinizə mələklərdən ibarət) görmədiyiniz əsgərlər endirdi və kafirləri əzaba düçar etdi. Bu, kafirlərin cəzasıdır!". (ət-Tövbə, 25-26)

Belə ki o gün müşriklərin sırasında olub, ancaq sonradan iman edənlər uca Allahın möminlərə olan bu yardımını bildirmək məqsədi ilə özlərinə o anadək heç görmədikləri kimsələrin hücum etdiklərini heyrətlə etiraf etmişlər.

Məğlub olan Həvazin ordularından bir qismi Taifə, bir qismi Nəhləyə getdi, bir qismi də Evtasda ordu qərargahı qurdu.

Hüneyn müharibəsində qələbə qazanan Allah Rəsulu -səllallahu əleyhi və səlləm- qaçan düşmənləri təqib etmək əmri verdi. Əsir və qənimətləri də Ciranəyə göndərdi. Bundan sonra müharibəni başa çatdırmaq üçün Əbu

Musa əl-Əşarinin əmisi Əbu Amirin başçılığı ilə bir birliyi Evtas vadisinə göndərdi. Özü də İslam ordusu ilə birlikdə Taifə doğru hərəkət etdi.

### Evtas müharibəsi (Şəvval 8/Fevral 630)

Rəsulullah-səllallahu əleyhi və səlləm- Taif üzərinə hərəkət etdiyinə görə özü bu müharibədə iştirak etmədi. İslam ordusunun başçısı Əbu Amir -radiyallahu anh- şəhid oldu. Düşmən ordusunun başçısı da öldürüldü.

Dayısı şəhid olandan sonra Əbu Musa -radiyallahu anh- orduya özü başçılıq etdi. O, ordunun dağılmasının qarşısını aldı və hücumu mükəmməl bir şəkildə idarə edərək İslam bayrağını Evtasda zəfərlə dalğalandırdı. Geri qayıdanda Allah Rəsuluna dayısının şəhid olduğunu və vəfat edərkən söylədiyi vəsiyyətini çatdırdı. Kainatın Fəxri su istəyərək dəstəmaz aldı, əllərini qaldırıb: "Allahım! Qulun Əbu Amiri bağışla! Onu qiyamət günündə bu yaratdığın insanların çoxunun mövqeyindən daha uca bir məqama yüksəlt!",-deyərək dua etdi. Əbu Musanın istəyinə uyğun olaraq ona da dua oxudu. (Buxari, "Məğazi", 55)

### Taifin mühasirəsi (Şəvval 8/Fevral 630)

Hicaz bölgəsinin dünya cənnəti sayıla biləcək bir şəhəri olan Taifin bir təpə üzərində tikilmiş möhkəm bir qalası var idi. Buna görə də, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- tətbiq etdiyi mühasirə xeyli çətin oldu.

Bu mühasirə bir zamanlar Rəsulullaha -səllallahu əleyhi və səlləm- qarşı edilmiş zülmün intiqamı deyil, Hüneyn müharibəsinin davamı idi. Çünki Huneyndən qaçanlar, onların gənc başçıları Malik bin Avf da daxil olmaqla Taif qalasında gizlənmişdilər. Bəni Sakiflə birgə yeni bir müdafiə döyüşünə hazırlaşmışdılar.

Mühasirə zamanı bir çox hərbi taktika tətbiq edildi və yeni hərbi vasitələrdən istifadə olundu. Ancaq Taif çox möhkəm bir qala olduğu üçün edilən hücumlara qarşı ciddi müqavimət göstərirdi. Başqa yöndən də düşməni qaladan kənara çıxartmaq mümkün olmadı. Hətta, Xalid bin Vəlid onlardan döyüşmək üçün bir qəhrəman istəyəndə onlar cavab

olaraq: "Bizim qalamızda sənə qarşı döyüşə biləcək bir kimsə yoxdur!",-deyərək olduqları yerdən bir nəfəri belə, kənara çıxartmadılar. Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm-: "Düşmən tülkü kimi yuvasına girmişdir. Artıq onlar özləri ilə baş-başa qalsalar, onlardan bir zərər gəlməz!",-buyuraraq mühasirənin ləğv ediləcəyi təqdirdə, heç bir zərərin olmayacağına işarə etdi. Çünki O, təcavüzkar deyil, bir rəhmət və təbliğ Peyğəmbəri idi. Məkkəlilərin olduğu kimi, taiflilərin də doğru yola qovuşmalarını arzulayırdı. Çox keçmədən mühasirə ləğv edildi.

Seçilmiş əshab Rəsulullahdan -səllallahu əleyhi və səlləm- Taif mühasirəsində müsəlmanlara çox əziyyət verən, ziyan vuran Sakif qəbiləsinə bəd dua etməsini istədi. Rəhmət Peyğəmbəri isə onların doğru yola qovuşması üçün dua etdi: "Ey Rəbb! Sakifə hidayət nəsib eylə! Onları bizə doğru göndər!..". O, Allaha yalvararaq oradan ayrıldı. Nəticədə, bu duanın bərəkəti ilə qısa bir müddətdən sonra sakiflilər müsəlman olmaq üçün Allah Rəsulunun yanına gəldilər. (İbni-Hişam, IV, 134; Tirmizi, "Mənaqib", 73/3942)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- hicrətdən öncə ona qarşı çox sərt davranan, onu daşa basaraq bütün bədənini qana boyayan bir qövmə bəd dua etmədi. Onların doğru yola qovuşmasını böyük bir şövqlə arzuladı. Belə ki, bir il sonra onlar gəlib müsəlman olanda çox sevindi, onlara qonaqlıq verərək xeyli vaxtını onlarla keçirtdi.

Bu mühasirənin o an üçün ən önəmli qazancı Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- qaladakı kölələrin müsəlman olacaqları təqdirdə azadlığa qovuşacaqları vədinə cavab olaraq, bir çox kölənin düşmən sıralarından qaçaraq İslam dinini qəbul etmələri olmuşdur.

### Qənimətlərin bölünməsi

Taif mühasirəsini ləğv edən Allah Rəsulu -səllallahu əleyhi və səlləm-İslam ordusu ilə birlikdə qənimətlərin və əsirlərin toplandığı Ciranəyə gəldi. Bu zaman Əbu Musa əl-Əşari də Evtas döyüşündə qalib gələrək oraya gəlmişdi. İslam ordusu bütün düşmənlərini zərərsizləşdirmişdi. Artıq qənimətlərin bölüşdürülməsinin vaxtı çatmışdı. Bu müharibələrdə iyirmi dörd min dəvə, qırx min davar, dörd min ukiyyə gümüş ələ keçirilmiş, altı min nəfər əsir alınmışdı.

İPƏKYOLU NƏŞRİYYATI

Qənimətləri bölməmişdən əvvəl Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurdu: *"Yanında qənimət malı olanlar iynədən ipliyədək nə varsa, versinlər! Yaxşı bilin ki, qənimət malına xəyanət etmək qiyamət günü üçün eyib sayılır, o, bir atəşdir!"* (Muvatta, "Cihad", 22; Əhməd, V, 316)

Bu zaman Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- əsirlərin arasında Onun süd bacısı Həzrət Şeymanın olduğu da bildirildi. Rəsulullah -səllallahu əleyhi və səlləm- tez onu yanına gətirtdi. Üzərindəki uzun paltarını çıxartdı və Həzrət Şeymanın altına sərdi. Badiyədə bir yerdə böyüdüyü bu qiymətli süd bacısına böyük bir vəfa göstərib ona qarşı şəfqət göstərdi:

"-Xoş gəldin!,-dedi. Keçmiş günləri xatırladı və gözləri yaşla doldu. Ata və anasını soruşdu. Şeyma onların artıq vəfat etdiyini bildirdi. Allah Rəsulu onun başqa qohumları ilə bağlı da soruşdu. Sonra:

- İstəyirsənsə, sevgi və hörmət görərək yanımda qal! İstəyirsənsə, sənə mallar verib qəbilənin yanına göndərim. Mən sənin üçün bunu da edərəm,-buyurdu.

Şeyma:

- Sən mənə mal ver və qövmümün yanına göndər, -dedi. Sonra müsəlman oldu. Allah Rəsulu Şeyma Xatuna və ailə üzvlərindən sağ qalanlara dəvə və davar ayırdı. Şeyma Xatuna bir kişi və bir qadın kölə də verdi. Şeyma da onları bir-biri ilə evləndirdi". (İbni-Hişam, IV, 91-92; Vaqidi, III, 913)

Bundan sonra həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- qənimətlərin bölüşdürülməsinin vaxtını bir az da uzatdı. Bunun hikmətini başa düşməyib, itaəti zəif olanlar şikayət etdilər. Bədəvi ərəblər qənimətin bölüşdürülməsində israr etdilər. Nəticədə, Həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- Səmürə ağacının altında saxladılar. Peyğəmbərin -səllallahu əleyhi və səlləm- cübbəsi ağaca ilişib qaldı. Peyğəmbər -səllallahu əleyhi və səlləm- dəvəsini saxladı:

"Cübbəmi mənə verin! Əgər bu gördüyünüz acağlar qədər heyvanım olsa idi, onların hamısını sizə paylayardım. Siz də mənim xəsis, yalançı və qorxaq olmadığımı gördünüz!",-buyurdu. (Buxari, "Cihad", 24)

Peyğəmbərin -səllallahu əleyhi və səlləm- qənimətin bölüşdürülməsini uzatmasının hikməti ancaq Ciranəyə gəlişinin onuncu günü bilindi. Məğlub olan Həvazin qəbiləsindən bir heyət Allah Rəsulunun -səllallahu əley-

İPƏKYOLU NƏŞRİYYATI

hi və səlləm- yanına gəlmişdi. Onlar müsəlman olduqlarını bildirirdilər. Buna görə də, əsirlərinin və mallarının geri qaytarılmasını tələb edirdilər. Bu zaman Sad oğullarından biri ayağa qalxdı və:

"-Ey Rəsulullah! Bu kölgəlikdə olanlar sənin süd xalaların, bibilərin və Sənə süd əmizdirmiş olan qadınlardır! Əgər biz Şam, ya da İrak kralını əmizdirmiş olsaydıq və indiki vəziyyətə düşüb ondan şəfqət və ehsan istəsəydik, bizdən əsirgəməzdi. Sən isə süd əmizdirilib baxılanların ən xeyirlisisən!,- dedi.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurdu:

- Mən qənimətlərin bölüşdürülməsini bu günədək yubatdım. Ancaq siz xeyli gecikdiniz! Indi də ya əsirlərinizi, ya da mallarınızdan birini seçin!.

Bundan sonra heyət əsirlərini geri aldı. Allah Rəsulu da -səllallahu əleyhi və səlləm-:

- Mən sizə mənə və Əbdülmüttəlib oğullarına düşən əsirləri geri qaytarıram, başqaları üçün də sabah günorta namazından sonra yanıma gəlin!,-buyurdu.

Ertəsi gün Rəsulullah -səllallahu əleyhi və səlləm- əshabını toplayaraq onlara məsələni izah etdi. Özünün payına düşən əsirləri azad etdiyini bildirərək buyurdu:

*"-Sizdən hər kim əsirlərini əvəzsiz, könül rizası ilə verərək qardaşlarını məmnun etməkdən xoşlanırsa, belə etsin! Hər kim də öz payına düşəni əvəzsiz olaraq vermək istəmirsə, bunu Allahın ehsan edəcəyi ilk qənimətdən ödəyərik. İstəyən də belə etsin!.."*

Rəsulullahın -səllallahu əleyhi və səlləm- əshaba müraciət etməsi əsirlərin onların haqqı olması ilə bağlı idi.

Rəsulullahın -səllallahu əleyhi və səlləm- öz əsirlərini azad edib, onlardan da bunu tələb etməsinə cavab olaraq, bütün səhabə də eyni fəzilətdən faydalanmaq üçün könül xoşluğu ilə:

- Biz də əsirlərimizi Allah Peyğəmbərinə hibə etdik (bağışladıq)!,-dedilər". (Buxari, "Məğazi", 54; İbni-Hişam, IV, 134-135)

Beləliklə, o gün minlərlə hərbi əsir heç bir qarşılıq alınmadan Həvazinə geri qaytarıldı. Tarix belə bir mənzərəyə heç bir zaman şahid olmamışdı. Ancaq indi şahid olurdu ki, Allah Rəsulunun -səllallahu əleyhi

İPƏKYOLU NƏŞRİYYATI

və səlləm- ümmətinə aşıladığı misilsiz İslam əxlaqı hesabına bir dəqiqədə altı min əsir dünyəvi heç bir əvəz ödənilmədən sərbəst buraxılmışdı.

Bu hal əmdiyi südün haqqına qarşılıq olaraq, misilsiz bir vəfanın göstəricisidir. Zalım bir topluluğa çox gözəl fəzilət dərsidir. Halbuki, bəşər izləri silinmiş yaxşılıqları xatirinə belə gətirməz. "VƏFA" çox zaman ancaq lüğət kitablarında olan bir kəlmədir.

Bu misilsiz fəzilət nəticəsində bütün həvazinlilər birlikdə İslamı qəbul etdilər. Hətta, o zaman Taifdə olan qəbilənin başçısı Malik bin Avf da vəziyyəti öyrənəndə çaşdı və Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- dəvəti ilə o da İslamı qəbul etmək şərəfinə nail oldu. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ona yüz dəvə verərək yenidən qəbiləsinə başçı təyin etdi.

Bu hadisələrdən alınacaq dərs odur ki, ən gözəl təbliğ gözəl əxlaq ilə həyata keçirilir. Siyasət elminin bacarıqla tətbiq edilməsi böyük bərəkətə yol aça bilər. Əksinə, ağılsız hərəkətlər böyük zərərlərə yol açar.

*****

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- qənimətləri ən gözəl bir şəkildə paylamışdı. Qənimət beş yerə bölünmüş, dördü əsgərlərə verilmiş, bir hissəsi xəzinəyə qoyulmuşdu. Xəzinə malından istədiyi kimi istifadə etmək Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- aid bir məsələ idi. Belə ki Allah Rəsulu -səllallahu əleyhi və səlləm- qənimət mallarını bölməmişdən əvvəl önündəki dəvədən bir tük çəkərək əshaba belə buyurmuşdu:

"Mənim sizin qənimətinizlə bir dəvə deyil, bir dəvə tükü qədər də əlaqəm yoxdur… Niyə səbirsiz olmusunuz? Qənimət malları bu vadinin daşları və ağacları qədər olsa da, onları sizə paylayacağam. Bunların içindən beşdə birini ayırsam, o da yenə sizin kasıblarınız üçün sərf ediləcək". (Muvatta, "Cihad", 22; Əhməd, V, 316)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- qənimətlərin ilahi bəyana uyğun olaraq ona verilən beşdə birindən könüllərində İslama sevgi yaradılmaq istənilən şəxslərə artıqlaması ilə pay vermişdi.

Ürəklərində İslama sevgi yaradılmaq istənilən şəxslərə qənimətdən bol-bol pay verilməsini bir sıra şəxslər yanlış anladılar. Əshab arasında narahatlıq yarandı. Hətta, Təmim oğullarından Zül Huvaysıra adlı birisi həddi aşaraq:

İPƏKYOLU NƏŞRİYYATI

"- Ey Allahın Rəsulu! Ədaləti gözlə!,-deməyə cürət etdi.

Bunu eşidən Allah Rəsulu -səllallahu əleyhi və səlləm-çox kədərləndi:

- Eləmi? Mən də ədaləti qorumasam, kim ədalətli olar?,-buyuraraq etiraz edənə irad tutdu". (Müslüm, "Zəkat", 148)

Çox keçmədən mübarək ayə nazil oldu:

"Onlardan (münafiqlərdən) sədəqələr (onların bölünməsi) barəsində sənə eyib tutanlar da var. Əgər (sədəqədən) onlara bir şey verilsə, razı qalar, verilməsə, dərhal qəzəblənərlər. Kaş münafiqlər Allahın və peyğəmbərinin onlara verdiklərindən razı qalıb: **"Allah bizə kifayətdir. Allah bizə Öz nemətindən bəxş edəcək, Peyğəmbəri də** (sədəqədən). **Biz, həqiqətən, Allaha ürəkdən bağlananlarıq!",-deyəydilər!"** (ət-Tövbə, 58-59)

Bu mübarək ayələrdə Allah Rəsulunun böldüyü qənimətin, əslində, ilahi bir bölgü olduğu bildirilir və sağlam qəlb ilə qafil könül arasındakı fərq göstərilir.

Şikayətçilərin böyük bir qismi də ənsardan idi. Halbuki, Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- bu səxavətli bölgünü qənimət malının hamısından deyil, "fey" adlanan və istifadə edilməsi ancaq Rəsulullaha aid olan qənimətlərin beşdə biri əsasında etmişdi. Ancaq bu, bəzi ənsar gənclərinin qeyrətinə toxunmuşdu. Baş verən bu cür etirazların qarşısını almaq üçün Allah Rəsulu -səllallahu əleyhi və səlləm- hadisənin daha da böyüməsinə imkan vermədən bütün ənsarı topladı. Onlardan başqa heç kimin bu toplantıda iştirak etməsinə imkan vermədi. Məsələnin mahiyyətinin anlaşılması üçün uca Allahın onlara ehsan etdiyi nemətləri xatırladaraq belə müraciət etdi:

"Ey ənsar! Mənim haqqımda düşündüyünüz iradları eşitdim. Ancaq söyləyin, sizlər yolunu azmış müşriklər olduğunuz zaman uca Allah mənim vasitəmlə sizə doğru yolu göstərmədimi? Sizlər yoxsul insanlar olarkən mənim aranıza gəlməyimlə uca Allah hamınızı zəngin etmədimi? Aranızda olan kin və düşmənçilik sizi gəmirərkən mənim gəlişimlə uca Allah qəlblərinizi sağlamlaşdırıb birləşdirmədimi?"

Bu sualların hamısına ənsardan:

"Bütün minnət və nemət Allah və Rəsulu üçündür!",-cavabını alan Peyğəmbərimiz -əleyhissəlatü vəssəlam- çox mənalı və duyğulu sözlərinə davam etdi:

İPƏKYOLU NƏŞRİYYATI

"-Ey ənsar! Siz mənə: "Qövmün Səni inkar edərkən aramıza gəldin! Səni biz təsdiq etdik! Qövmün Səni tərk etdiyi zaman Sənə biz yardım etdik! Qövmün Səni qovdu, biz Səni bağrımıza basdıq! Sən yoxsul idin, biz Səni malımıza şərik etdik!..",-desəydiniz, mən də sizi təsdiq edər: "Çox doğru söyləyirsiniz!",-deyərdim…

Ey ənsar! Bir sıra şəxslərə verdiyim dünya malına görə, sizin söylədiyiniz sözlər doğrudurmu? Mən bir sıra şəxslərin qəlbində İslama sevgi yaratmaq üçün verdiyim və müsəlmanlığınızın güclü və kamil olduğuna güvənərək sizi məhrum etdiyim önəmsiz dünya malından ötrü canınız sıxıldımı, bundan nəfsiniz daraldımı?..

Ey ənsar! Hər kəs aldığı malla evinə gedərkən, siz də Peyğəmbərinizlə evlərinizə dönmək istəmirsinizmi?"

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bu sözlərindən sonra ənsarın gözlərindən yaş sel kimi axmağa başladı. Artıq onlar hıçqıra-hıçqıra ağlayırdılar və:

"Ey Rəsulullah! Bizlər Səninlə getmək istəyirik!",-deyərək Ona olan sevgilərini yenidən dilə gətirirdilər. Onlarla birlikdə Allah Rəsulu da ağladı. Rəsulullah -səllallahu əleyhi və səlləm- ənsarın belə təslimiyyət göstərməsini görəndən sonra onları sakitləşdirmək məqsədilə:

"Ey ənsar! Əgər hicrət şərəfi və fəziləti olmasaydı, mən, şübhəsiz, ənsardan biri olmaq istərdim… Ey ənsar! Əgər hər kəs bir yol tutub getsə, mən ənsarın yolu ilə gedərdim!..",-buyurdu.

Bu kədərli toplantıdan sonra ənsarın dilindən yalnız "Allahın Rəsulu bizə yetər!",-ifadələri eşidildi. Beləliklə, bir yanlış düşüncənin açdığı yara Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- mübarək sözləri ilə sarındı. (Buxari, "Məğazi", 56; Müslüm, "Zəkat", 135; Heysəmi, X, 31)

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bu örnək davranışından alacağımız bir çox dərslər var. İnsan təbiəti etibarı ilə ehsana və yaxşılığa təslim olur. Ehsan edilən kimsə düşməndirsə, düşmənçiliyi ortadan qalxar, bu şəxs ortada dayanırsa, daha da yaxınlaşar, yaxındadırsa, sevgisi artar.

Bir sözlə, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- ən gözəl örnək şəxsiyyət olmasının bir nümunəsi də qənimət bölgüsündə açıq bir şəkildə özünü göstərmişdir.

*****

İPƏKYOLU NƏŞRİYYATI

Rəsulullah -səllallahu əleyhi və səlləm- Ciranədə on üç gün qaldıqdan sonra ümrə üçün ehrama girərək oradan ayrıldı. Buna görə də, məkkəlilərlə onların ətrafında olanların Ciranədə ehrama girib ümrəni icra etmələri daha fəzilətli sayılmışdır.

İPƏKYOLU NƏŞRİYYATI

**Bir müsəlmanı öldürməyin cəzası**

Rəsulullah -səllallahu əleyhi və səlləm- Mədineyi-Münəvvərədən yola çıxmazdan öncə hədəfini gizlətmək üçün Əbu Katadəni bir az hərbi qüvvə ilə Nəcid tərəfə göndərmişdi. Bu birlik "İzam" adlanan bir yerə çatanda Amir bin Adbad adlı bir şəxslə qarşılaşdı. Amir müsəlmanlara salam verərək şəhadət kəlməsini söyləyib iman etdiyini bildirdi. Ancaq Əbu Katadə ilə birlikdə gələnlərdən Muhallim bin Cəssamə keçmişdə baş vermiş olan şəxsi bir ziddiyyətlə bağlı olaraq, Amirin həqiqətən müsəlman olmadığını söyləyərək onu öldürdü və əşyasını da qənimət kimi götürdü.

Bu zaman Amirin yaxınları gəlib, Muhallimə qarşı iddia qaldırdılar. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- hüzurunda uzun-uzadı bir mühakimədən sonra Amirin vərəsəsinin razılığı ilə qan bahasının ödənilməsinə qərar verildi və:

"-Muhallim gəlsin və Allah Rəsulu onun üçün bağışlanma istəsin!,- dedilər.

Muhallim gəldi, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ondan soruşdu:

- Amir müsəlman olduğunu söylədiyi halda, sən onu qətl etdin, elə deyilmi?

Bu dəfə Muhallim:

-Ey Allahın Rəsulu! Mənim üçün bağışlanma istə!",-demək məcburiyyətində qaldı.

Muhallimin bu ifadəsi günahı bilə-bilə etdiyinin etirafı idi. Başqa sözlə, müsəlman olduğu halda və heç bir günahı olmayan bir şəxsi öldürdüyündən, günahı bağışlanacaq bir günah deyildi. Əgər bu məsələ ilə bağlı ən kiçik bir güzəştə yol verilsəydi, sonralar cəmiyyətin içərisində belə cinayətlərin qarşısını almaq mümkün olmazdı. Buna görə də, aləmlərə rəhmət olaraq göndərilmiş olan Rəsulullah -səllallahu əleyhi və səlləm-

Muhallimin etdiyi bu ağır günaha görə, bağışlanma istəyini rədd etdi və hətta:

"Allah səni əfv etməsin!",-cümləsini söylədi.

Belə ki, Peyğəmbərin qəzəbinə düçar olaraq onun yanından ayrılan Muhallim evinə çəkildi. Bir həftə sonra da kədərindən öldü. Yaxınlarının onu dəfn etmək istədikləri torpaq bu cəsədi qəbul etmədi. Bir neçə dəfə dəfn etsələr də, yer hər dəfə onu qəbirdən kənara atırdı. Onlar çarəsizlik və çaşqınlıq içində Həzrət Peyğəmbərin yanına gələrək vəziyyəti danışdılar. Allah Rəsulu da -səllallahu əleyhi və səlləm-:

*"Bu torpaq ondan daha pis insanlara belə sinəsində yer vermişdir, ancaq uca Allah sizə bir ibrət vermək və "La ilahə illəllah"ın qədrini bildirmək istəyir!"*,- buyurub Muhallimi yenidən və qəbrinin üzərinə daş qoyaraq dəfn etmələrini söylədi. (Əhməd, V, 112; İbni-Macə, "Fitən", 1; İbni-Hişam, IV, 302; Vaqidi, III, 919)

Rəsulullah -səllallahu əleyhi və səlləm- "La ilahə illəllah"ın haqqına və hörmətinə riayət etməməyin nə qədər böyük bir faciə olduğunu və bir müsəlmana haqsızlıq etməyin, onu dünya mənfəətinə görə öldürməyin nə qədər ağır bir günah olduğunu göstərmək üçün belə davranmış, insanları bu cür hərəkətlərdən qətiyyətlə çəkindirmişdir.

Bu hadisə tövhid kəlməsini söyləyən hər kəsin müsəlman olaraq qəbul edilməsinin zəruri olduğunu bildirir. Bu vəziyyətdə olan bir şəxsin zahirən özünü göstərən bir küfrü yoxdursa, ona şübhə ilə yanaşmaq haramdır.

Bu vəziyyət müsəlmanların hökm verərkən zahiri davranışlara baxmalarının zəruriliyini və bu məsələnin nə qədər önəmli olduğunu da göstərir. Çünki insan zahiri davranışlara görə hökm edəndə belə, yanılma ehtimalı olduğu halda, ona təsdiq edilməsi mümkün olmayan mənəvi vəziyyətə görə başqalarını qiymətləndirmək səlahiyyəti verilsəydi, insanlar şəxsi qənaətlərinə görə çoxsaylı haqsızlıqlardan xilas ola bilməzdilər.

Zahiri davranışlara görə, hökm etməyin doğru olduğunu göstərən başqa bir səbəb də əməlləri yanlış olan bir sıra şəxslərin: "Sən mənim qəlbimə bax!" kimi bir bəhanə uydurmalarının qarşısını almaqdır. Yaşadığımız dövrdə tez-tez tətbiq edilən bu taktika İslamın qoyduğu hökm və onun Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- tərəfindən həyata keçirilən praktikası ilə zərərsizləşdirilmişdir. Zahiri davranışlara

görə hökm etmək münafiqlərin bir müddət həyata keçirtdikləri düzgün əməllərlə özlərini gizləyib, fitnəkarlıqlarını daha təsirli bir surətdə icra etmələrinə imkan verən bir zəiflik kimi görünsə də, bu, ədaləti subyektiv dəlillərlə təmin etmək kimi çox böyük problemlər yaradan vəziyyətin qarşısını almaq üçündür.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

## HİCRƏTİN DOQQUZUNCU İLİ

**Dil qılıncı**

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- zəkat verməkistəməyən Bəni Təmim qəbiləsinin üzərinə bir neçə əsgərlə Həzrət Uyeynəni göndərdi. Uyeynə də -radiyallahu anh- Təmim qəbiləsinə gözlənilmədən hücum edərək onları məğlub etdi. O, bir çox qənimət və əsirlə Mədineyi-Münəvvərəyə qayıtdı.

Bundan sonra Təmimin seçilmiş adamları əsirlərini qurtarmaq üçün böyük bir heyətlə və özləri ilə şairlər də götürərək Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yanına gəldilər. Məsciddə Allah Rəsulunu gözləyərkən səbirsizliklə:

"Artıq yanımıza gəl!,-deyə hörmətsizlik və kobudluq etdilər.

Rəsulullah -səllallahu əleyhi və səlləm- onların bu hərəkətindən narahat oldu. Buna cavab olaraq nazil olan ayədə belə buyuruldu:

"*(Ey Peyğəmbər!)* **Şübhəsiz, səni otaqların arxasından çağıranların çoxunun ağlı kəsmir!"** (əl-Hucurat, 4) (İbni-Hişam, IV, 223, 233)

Varlıq Nuru günorta namazından sonra məscidin həyətində oturdu. Bəni Təmim heyəti:

"-Səninlə şeirlə deyişmək, fəxriyyələr oxumaq məqsədi ilə şairimizi və xətibimizi də gətirdik!,-dedilər.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-:

- *Mən şeir söyləmək üçün göndərilmədim. Fəxriyyə söyləmək üçün də əmr olunmamışam. Ancaq sizlər bir söyləyin baxım!*,-buyurdu". (İbni-Əsir, "Üsdül-Qabə", I, 128)

Bəni Təmim qəbiləsindən olan bir neçə nəfər ayağa qalxdı və bəlağətli bir xütbə oxudu. Bundan sonra Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- əshabdan Sabit bin Qeysə -radiyallahu anh- işarə etdi. O, ayağa qalxdı və uca Allahın böyüklüyünə, Rəsulullahın -səllallahu əleyhi və səlləm- Peyğəmbərliyinə aid mükəmməl bir xütbə oxudu və təmimliyə qalib gəldi.

Bundan sonra Təmim oğullarından biri oxuduğu şeirə də məşhur şair Həssən bin Sabit -radiyallahu anh- cavab verərək İslam dininin şərəfinə, şanına aid çox gözəl və təsirli bir qəsidə söylədi.

Əshabın bu qələbəsinin səbəbi Qurani-Kərim kimi bir dil xariqəsi olan ilahi Kitaba könül vermək, "Cəvamiul-Kəlim" (az sözlə çox məna ifadə edən) və bütün insanların ən bəlağətli danışanı olan Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- tərbiyəsi ilə yetişmək idi. Rəsulullahın -səllallahu əleyhi və səlləm-təsiri ilə yaranan bu bərəkətin inikasını şair gözəl ifadə etmişdir:

Onu bir lahze görenler gül olur,

Sözüne şahid olan bülbül olur…

*****

Kab bin Züheyr də əvvəllər İslama qarşı döyüşən şairlərdən idi. Yazdığı həcvlərə görə, görüldüyü yerdə öldürülməklə qanı halal edilmişdi. Ancaq müsəlman olan qardaşı Büceyr ona nəsihət etmək məqsədi ilə bir şeir yazdı. O, bu şeirdə bildirdi ki, əgər qardaşı belə davam etsə, aqibəti kədərli olacaq. Kab da böyük bir qorxu içində seçilmiş əshabdan birinin yardımı ilə Həzrət Peyğəmbərin hüzuruna gəldi və adını söyləmədən beyət etdi. Diz çöküb oturdu. Sonra da:

"-Ey Allahın Rəsulu! Kab bin Züheyr tövbə edib müsəlman olaraq onu bağışlamağınız üçün Sizin hüzurunuza gəlmək istəyir. Onu qəbul edərsinizmi?,- deyə soruşdu.

Rəsulullahdan-səllallahu əleyhi və səlləm- "bəli" cavabı alanda sevinclə:

- Kab mənəm, ey Rəsulullah!..",-dedi. (İbni-Hişam, IV, 152; Hakim, III, 675/6480; Heysəmi, IX, 393)

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- onu əfv etməsinə şükür etdiyinin əlaməti olaraq Peyğəmbərin hüzuruna gəlməzdən əvvəl yazmış olduğu "Banət Süad" qəsidəsini oxumağa başladı. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- bundan çox məmnun qaldı. Mübarək çiynindəki xirqəsini çıxarıb Kaba -radiyallahu anh- geyindirdi. Beləliklə, qəsidənin adı ərəbcə xirqə mənasında olan "bürdə" kəlməsi ilə adlandırılaraq "Qəsideyi-Bürdə" deyildi.

İPƏKYOLU NƏŞRİYYATI

Kaba hədiyyə edilən mübarək xirqə onun vəfatından sonra Həzrət Muaviyə tərəfindən satın alındı. Hökmdarlar arasında birindən o birisinə keçərək bu günədək gəlib çatmış olan mübarək xirqə Topqapı Sarayında qorunur.

"Qəsideyi-Bürdə" adı ilə məşhur olmuş bir qəsidə də var ki, o da həzrət İmam Busiriyə aiddir. Ancaq bu ikinci qəsidənin doğru adı "Qəsideyi-Bürə"dir. "Bürə" xəstəlikdən sağalmaq mənasındadır və İmam Busirinin bu qəsidənin bərəkəti ilə iflic xəstəliyindən xilas olması münasibəti ilə bu adı almışdır. Hadisə belədir:

Həzrət İmam Busirinin bədəninin yarısı iflic olur. O da "Qəsideyi-Bürə"ni yazıb uca Allahdan şəfa istəyir. Qəsidəni yazıb bitirdiyi gecə yuxusunda Rəsulullahı -səllallahu əleyhi və səlləm- görür və bu nəti Ona oxuyur. Allah Rəsulu da-səllallahu əleyhi və səlləm-bundan məmnun qalaraq mübarək əlləri ilə İmam Busirinin bədəninin iflic olan hissələrini sığallayır. İmam Busiri oyananda xəstəliyindən heç bir əlamət qalmadığını görür və uca Allaha şükür edir. Səhər sevinc və şükür duyğuları ilə məscidə gedir. Kəşf sahibi, böyük vəli Həzrət Şeyx Əbur-Rəca ilə rastlaşır. Həzrət Şeyx:

"-Ey İmam! Aləmin Fəxrini öydüyün qəsidəni oxuyarsanmı?,-deyir.

İmam Busiri:

- Mənim bir çox nətim var. Hansını soruşursunuz?,-deyir.

Şeyx Əbur-Rəca:

-Bu gecə Rəsulullaha oxuduğun nəti istəyirəm. Çünki onu oxuyarkən Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- çox məmnun olduğunu gördüm,- deyir.

İmam Busiri heyrətlə soruşur:

- Bu qəsidə və gördüyüm yuxu ilə bağlı heç kimə bir şey deməmişəm, siz bunu haradan bilirsiniz?

Şeyx Əbur-Rəca:

- Ey İmam! Mən də orada idim!,-deyir və qəsidənin ilk beytini oxuyur:

Selem yaranını sen yadına aldın da mı,

Gözlerden akan yaşa karıştırırsın demi?..

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

"Ey könül, Selemlileri xatırladığın üçün gözündən qanlı yaş axıdırsanmı?"

Rəvayətə görə, bu qəsidə Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- hüzurunda oxunarkən Peyğəmbərimiz razı qaldığını ifadə etmək üçün mübarək bədənini bir ağacın yarpaqlarının zərif bir şəkildə sallanması kimi hərəkət etdirir və gülümsəyirdi. Elə buna görə də, bu nətin Rəsulullahın -səllallahu əleyhi və səlləm- ruhaniyyətinin təcəlli etməsi üçün xəstələrə şəfa olaraq oxunması bir ənənə olaraq davam etmiş, bu mədhiyyədə Allah Rəsulu vasitəsi ilə uca Allaha üz tutulmuşdur.

Fasiqin verdiyi xəbəri yoxlayın!

Hicrətin doqquzuncu ilində Rəsulullahın -səllallahu əleyhi və səlləm- Müstəliq oğullarının yanına zəkat toplamaq üçün göndərdiyi Vəlid bin Ukbə onu qarşılamaq üçün toplanan adamları görəndə qorxdu. Cahiliyə dönəmində onların arasında bir konflikt olmuşdu. Buna görə də, onu öldürəcəklərini düşündü. Geri dönüb Mədinəyə gəldi və vəziyyəti Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- olduğundan fərqli bir şəkildə, yəni onlara iftira ataraq danışdı:

"Ey Allahın Rəsulu! Onlar dinlərindən dönmüşlər. Zəkat vermədilər. Az qala məni də öldürəcəkdilər",-dedi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Müstəliq oğullarının yanına göndərmək üçün bir hərbi birlik hazırladı. Bəni Müstəliq qəbiləsi bunu eşitdi. Vəlidi qarşılamaq üçün toplanmış heyət tez Mədinəyə gəldi. Mədinədə onların üzərinə göndərilmək üçün hazırlanan hərbi birliyi gördülər. İşin əsl mahiyyəti öyrənildi. Bu zaman Cənab Haqq bütün möminlərə hər hansı bir məsələ ilə bağlı araşdırma aparmadan hökm verməmələrini bildirmək üçün vəhy göndərdi:

**"Ey iman gətirənlər! Əgər bir fasiq sizə** (pis) **bir xəbər gətirsə, dərhal** (onun doğruluğunu) **yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!** (Ey iman gətirənlər!) **Bilin ki, aranızda Allahın Peyğəmbəri var. Əgər o, bir çox işlərdə sizə uysaydı, siz** (çətinliyə düşər) **əziyyət çəkərdiniz. Ancaq Allah sizə imanı sevdirmiş, onu ürəklərinizdə süsləmiş, küfrə, itaətdən çıxmağa və (Allaha) asi olmağa qarşı sizdə nifrət oyatmışdır. Məhz belələri (bu xislət sahibləri) doğru yolda olanlardır!".** (əl-Hucurat, 6-7)

İPƏKYOLU NƏŞRİYYATI

Peyğəmbər -əleyhissəlatü vəssəlam-:

*"Ey Abbad! Onlarla birlikdə get! Zəkatlarını al! Mallarının ən yaxşılarını seçib götürmə!"*,-buyurdu.

Abbad bin Bişr Müstəliq oğullarının yanında on gün qaldı. Onlara Qurani-Kərim oxutdu, İslamı öyrətdi. (Əhməd, IV, 279; İbni-Hişam, III, 340-341; İbni-Sad, II, 161)

Bəzən bir fasiqin verdiyi yanlış xəbər ağızdan-ağıza dolaşaraq sonda fasiq olmadığı dəqiq bilinən, bir az da sadəlövh olan bir şəxsə çatar və o da bu xəbəri xoş bir niyyətlə sizə söyləmiş ola bilər. Bu vəziyyətdə bilinməlidir ki, xəbəri söyləyən fasiq olmasa da, əsli olmayan rəvayətlərə görə bir xəbərə inanıb, onu yaymaq da məsuliyyətdir. Çünki xəbər doğru olsa, bir problem yaranmaz, ancaq mənfi xəbər qul haqqına təcavüzə yol açar, insanı qeybət kimi böyük günahlara sürükləyər. Buna görə də, əsli bilinməyən rəvayətlər əsasında yayılan xəbərlərə qarşı ehtiyatlı olmaq zəruridir.

**Böyük bir iman imtahanı: Təbük səfəri**

**(Rəcəb 9/ Oktyabr-Noyabr 630)**

Təbük, Mədinə ilə Şamın düz ortasında olan bir şəhərin adıdır. Bu şəhərə edilən səfər Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- son səfəri olmuşdur. Bu səfər Mutə müharibəsinin davamı sayılır. Bizans imperatoru Mutə müharibəsinin ona çox təsir etdiyinə görə, müsəlmanların günü-gündən daha da güclənməsindən öncə Ərəbistanı işğal etmək niyyətində idi. Bunun üçün də xristian ərəblərdən istifadə etmək istəyirdi. Onun istifadə etmək istədiyi Qassanilər də onsuz da bu işə çoxdan hazır idilər. Vəziyyət belə olduğu bir zamanda Mədinəyə gələn ticarət karvanlarındakı adamlar düşmənin hazırlaşdığını müsəlmanlara bildirdilər. Onlar düşmənin tezliklə müsəlmanlara hücum edəcəklərini söylədilər.

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ümumi bir səfərbərlik elan etdi. O anadək olan hərbi işlər gizli saxlanılır, düşmənin bu işlərdən xəbər tutmasına imkan verilmirdi. Ancaq Təbük səfərində vəziyyət başqa cür oldu. Çünki yay fəslinin ən isti günləri idi. Düşmən güclü, gediləcək yer uzaq idi. Bundan başqa o il Mədinədə qıtlıq hökm sürürdü. Müsəlmanlar iqtisadi baxımdan çox çətinlik çəkirdilər.

İPƏKYOLU NƏŞRİYYATI

Bütün bunları fürsət hesab edən münafiqlər yenə köhnə fitnələrini davam etdirərək möminlərin düşüncəsini pozmağa başladılar. Baş münafiq olan Abdullah bin Übey:

"Məhəmməd Roma dövlətini uşaq oyuncağı hesab edir? Mən onun əshabı ilə birlikdə əsir düşəcəyini gözlərimlə görürəm!",-deyirdi.

Başqa bir qisim münafiqlər də:

"Belə isti bir havada səfərə çıxmaq olar?",-deməyə başladılar.

Bunlara cavab olaraq mübarək ayədə belə buyruldu:

**"**(Təbük döyüşündə iştirak etməyib) **arxada qalanlar** (münafiqlər) **Allahın Rəsuluna qarşı çıxaraq** (evdə) **oturub qalmalarına sevindilər. Allah yolunda malları və canları ilə cihad etmək istəmədilər və** (möminlərə)**: "Bu istidə döyüşə çıxmayın!",-dedilər.** (Ey Peyğəmbərim!) **De: "Cəhənnəm odu daha istidir!". Kaş biləydilər!"**. (ət-Tövbə, 81)

Bədəvilərdən bəziləri də uydurma bəhanələr söyləyərək Həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- icazə aldılar. Bunu mübarək ayə belə xəbər vermişdir:

**"Bədəvilərdən** (Təbük döyüşünə getməmək üçün) **izn almağa üzrxahlar gəldi. Allaha və Onun Peyğəmbərinə yalan söyləyənlər isə** (üzr belə istəməyib evlərində) **oturdular. Onlardan kafir olanlara şiddətli bir əzab üz verəcək".** (ət-Tövbə, 90)

Bundan sonra Qurani-Kərim möminlərlə münafiqləri bir-birindən ayırmaq üçün dəqiq ölçülər qoydu:

**"Əgər o** (dəvət olunduqları yürüş), **asan əldə edilən mənfəət** (dünya malı, yaxud qənimət) **və orta** (mənzilli) **bir səfər olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Ancaq yorucu** (məşəqqətli) **məsafə** (Təbük səfəri) **onlara uzaq gəldi. Bununla belə onlar: "Əgər gücümüz çatsaydı, biz də sizinlə bərabər səfərə çıxardıq",-deyə Allaha and içəcəklər. Onlar** (yalandan Allaha and içməklə) **özlərini həlak edirlər. Allah isə onların yalançı olduqlarını bilir".** (ət-Tövbə, 42)

**"Allaha və axirət gününə iman gətirənlər malları və canları ilə cihad etmək barəsində səndən izin istəməzlər** (o saat cihada çıxarlar). **Allah mütəqqiləri tanıyandır! Səndən** (cihada çıxmamaq üçün) **izin istəyənlər ancaq Allaha, axirət gününə iman gətirməyənlər və ürəkləri**

İPƏKYOLU NƏŞRİYYATI

**şəkk-şübhəyə düşənlərdir. Onlar öz şübhələrində tərəddüd edib dururlar".** (ət-Tövbə, 44-45)

Münafiqlər səfər üçün heç bir hazırlıq görməmişdilər. Bu da onların döyüşmək niyyətlərinin olmadığını açıqca göstərirdi. Uca Allah buyurur:

**"Əgər onlar (münafiqlər cihada) çıxmaq istəsəydilər, onlar hazırlıq görərdilər…".** (ət-Tövbə, 46)

Münafiqlərin özlərinin əsl simalarını göstərərək hərbi səfərdə iştirak etməmələri Allahın lütfü idi. Belə ki Abdullah bin Übey bu səfərdə də Uhud müharibəsi zamanı etdiklərini təkrarlayaraq geri qayıtdı. Bu məsələ ilə bağlı uca Allah belə buyurur:

**"…Ancaq onların davranışı Allaha xoş gəlmədi, buna görə də** (cihada çıxmaqlarına) **mane oldu. Onlara: "**(Evdə) **oturanlarla** (qocalar, zəiflər, qadınlar və uşaqlarla bərabər) **siz də oturun!",-deyildi. Əgər** (münafiqlər) **sizinlə birlikdə** (cihada) **çıxsaydılar, yalnız içinizdə pozuntunu** (fəsadı) **artırar və sizi fitnəyə uğratmaq üçün aranıza soxulardılar. İçinizdə olanlara qulaq asanlar da var. Allah zalımları tanıyandır!"** (ət-Tövbə, 46-47)

Hələ döyüş başlamamış pozuçuluq işləri ilə məşğul olan münafiqlər döyüş zamanı çox təhlükəli olurdular. Onlar fitnə, yalan, iftira və qorxu ilə bütün İslam ordusunun əhval-ruhiyyəsini pozurdular və bir çiban yarası kimi möminlərə əzab verirdilər. Buna görə də, uca Allahın lütfü ilə bu səfərin məşəqqətləri münafiqlərə çox əzablı göründü və onlar bu döyüşdə iştirak etmədilər. Əshab onların fitnəsindən xilas oldu.

Münafiqlər bir sıra bəhanələr uydurараq döyüşə getməmək üçün icazə istəyirdilər. Onlar bu icazə məsələsini o dərəcəyə çatdırdılar ki, bəziləri oralarda Rum qızlarını görərək fitnəyə düşəcəklərini ifadə etməkdən belə çəkinmədi. Beləliklə, onlar üzdə haqq dostları olduğunu göstərib münafiq olduqlarını gizlətməyə çalışırdılar. Ancaq uca Allah onların bu fitnəkarlığını üzə çıxartdı:

**"Onlardan** (münafiqlərdən)**: "Mənə** (döyüşə getməməyə) **izin ver, məni fitnəyə salma!",-deyənlər də var. Bilin ki, onlar** (özləri) **fitnəyə düşmüşlər. Şübhəsiz, cəhənnəm kafirləri bürüyəcək!".** (ət-Tövbə, 49)

Bir yandan münafiqləri acı əzabla qorxudan uca Allah, başqa yöndən onların təsiri altına düşərək bir az tərəddüd edən möminləri də xəbərdar edirdi:

İPƏKYOLU NƏŞRİYYATI

**"Ey iman gətirənlər! Sizə nə oldu ki, "Allah yolunda döyüşə çıxın!",-deyildikdə yerə yapışıb qaldınız. Yoxsa axirətdən vaz keçib dünya həyatına razı oldunuz? Halbuki, dünya malı axirət yanında** (axirətlə müqayisədə) **yalnız cüzi bir şeydir! Əgər** (sizə əmr olunan bu döyüşə) **çıxmasanız, Allah sizə şiddətli bir əzab verər və sizi başqa bir tayfa ilə əvəz edər** (yerinizə başqa bir tayfa gətirər)**. Siz isə Ona** (döyüşə çıxmamağınızla Allaha və Peyğəmbərinə) **heç bir zərər verə bilməzsiniz. Allah hər şeyə qadirdir!".** (ət-Tövbə, 38-39)

"(Ey möminlər!) **Ağırlı-yüngüllü** (qocalı-cavanlı, atlı-piyada, güclü-gücsüz, dövlətli-kasıb) **hamınız cihada çıxıb malınız və canınızla Allah yolunda vuruşun! Bilsəniz bu sizin üçün nə qədər xeyirlidir".** (ət-Tövbə, 41)

Bu xəbərdarlıqlardan sonra möminlərdə bir canlanma hiss olundu. Könüllərindəki tərəddüdün yerini peşmançılıqla dolu bir hücum ovqatı tutdu. Coşqun bir iman səfərbərliyi başlandı. Çünki düşmənin İslam ölkəsinə hücumu zamanı cihad bir fərz idi və bütün möminlər buna əməl etməyə borclu idilər. Ancaq Allahın bu əmrini yerinə yetirməyə borclu olmayaraq cihaddan kənarda qalanlar isə mübarək ayədə belə göstərildi:

**"Allaha və Onun Peyğəmbərinə sadiq qalmaq** (heç bir pisliyə meyl etməmək) **şərti ilə acizlərə** (qocalara və anadangəlmə zəiflərə)**, xəstələrə və** (cihad yolunda) **sərf etməyə bir şey tapa bilməyənlərə** (cihadda öz xərcini təmin etməyə qadir olmayanlara döyüşə getməməkdə) **heç bir günah yoxdur. Yaxşı işlər görənləri də (**üzrlü səbəbə görə evdə qaldıqda) **məzəmmət etməyə heç bir əsas** (lüzum) **yoxdur. Allah bağışlayandır, rəhm edəndir!".** (ət-Tövbə, 91)

Mübarək ayənin bəyan etdiyinə görə, döyüşdən azad olanlar məmləkətlərində fitnəyə imkan verməz, yalan xəbərlər yaymaz, döyüşdə iştirak edən mücahidlərin ailələrinə yardım edər və saleh əməl sahibi olarlarsa, onlara müharibədə iştirak etmədiklərinə görə günah yazılmaz. Ancaq onların müharibədə iştirak etmələrini qadağan edən hər hansı bir əmr də olmadığından istəsələr, orduya yük olmamaq şərti ilə döyüşdə iştirak edə bilərlər.

Təbük səfərinə hazırlığın başladığı zaman seçilmiş əshab Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə Allah yolunda canlarını fəda etmək səfərbərliyinin ülvi həyəcanını yaşayırdı. Ancaq seçilmiş əshabın yox-

İPƏKYOLU NƏŞRİYYATI

sullarından olan yeddi nəfər səfərdə iştirak etmək üçün minik heyvanı tapa bilməmişdi. Çox zaman iki əsgərə, hətta, bəzən üç əsgərə bir dəvə düşürdü və onlar dəvəyə növbə ilə minməli idilər. Ancaq səfərdə iştirak etməyi və hər an Allah Rəsulu ilə birgə olmağı ürəkdən arzu edirdilər. Bununla birgə, növbə ilə olsa belə, minməyə bir dəvə tapa bilməyən yoxsul səhabələr də var idi. Onlar Allah Rəsulunun yanına gələrək vəziyyəti danışdılar. Peyğəmbər -səllallahu əleyhi və səlləm- onlara minmək üçün dəvə olmadığını bildirdi. Səhabələr ağlaya-ağlaya geri döndülər. Allah yolunda tökülən bu göz yaşlarına cavab olaraq mübarək ayədə belə buyuruldu:

"(Döyüşə getməyə minikdən ötrü) **yanına gəldikdə: "Sizin minməyiniz üçün bir heyvan tapmıram",-deyərkən** (cihad yolunda) **sərf etməyə bir şey tapa bilmədikləri üçün kədərdən gözlərindən yaş axa-axa geri dönənlərdə də heç bir günah yoxdur!".** (ət-Tövbə, 92)

İbni Yamin ikisinə bir dəvə, yemək üçün də bir az xurma verdi. Həzrət Abbas göz yaşı axıdanların ikisinə, Həzrət Osman da üçünə minik verdi. Bir neçə ehtiyac sahibinə də sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- minik verdi. Səfərdən azad olduqları halda, Allah Rəsulundan ayrı qalmaq onlara ağır gələn və qəlbləri uca Allahın sevgisi ilə dolu olan bu səhabələr sonsuz istəklərinin və məhəbbətlərinin əvəzində səfərdə iştirak etmək nemət və şərəfinə nail oldular.

### İnfaq səfərbərliyi

Səfər ərəfəsində Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ordunun ehtiyaclarını təmin etmək üçün əshabını infaq səfərbərliyinə çağırmışdı. Halbuki, o zaman Mədinədə böyük bir qıtlıq var idi. Buna baxmayaraq, seçilmiş əshab fədakarlıq və iman vəcdi ilə fani və dünyəvi bütün mənfəətlərini bir tərəfə qoyaraq infaq yarışına girişdilər. Həzrət Əbu Bəkir -radiyallahu anh- malının hamısını gətirdi. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm-:

"-Əbu Bəkirin malından istifadə etdiyim qədər başqa heç bir kimsənin malından faydalanmadım…,-sözləri qarşısında göz yaşlarını saxlaya bilməyən Əbu Bəkir -radiyallahu anh-:

- Mən və malım yalnız sənin üçün deyildirmi, ey Rəsulullah?!",- dedi. (İbni-Macə, "Müqəddimə", 11)

İPƏKYOLU NƏŞRİYYATI

Bu sözləri ilə Həzrət Əbu Bəkir bütün varlığı ilə özünü Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- həsr etdiyini və onda fani olduğunu göstərdi.

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm-:

*"-Uşaqlarına nə saxladın, ey Əbu Bəkir?,-sualına da böyük bir iman vəcdi ilə:*

*- Allah və Rəsulunu saxladım, ey Rəsulullah!...,- şəklində cavab verdi".* (Tirmizi, "Mənaqib", 16/3675)

Həzrət Ömər -radiyallahu anh- malının yarısını gətirmişdi. O, bu dəfə infaq məsələsində Həzrət Əbu Bəkirdən üstün olacağını düşünmüşdü. Ancaq bu dəfə də ona çata bilmədi.

Həzrət Osman da -radiyallahu anh- üç yüz dəvəni bütün təchizatı ilə birlikdə hazırlayaraq orduya verdi, ordu üçün min dinar pul hazırladı. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- onun haqqında da belə buyurdu:

"Osmana fədakarlıqla infaq etdiyinə görə bundan sonra edəcəyi heç bir şey zərər verməz!". (Tirmizi, "Mənaqib", 18/3700; Əhməd, V, 63)

Bununla da, Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-onu Peyğəmbər sevgisi ilə mükafatlandırdı.

Bundan başqa Həzrət Osmanın ailəsi də bütün qiymətli əşyalarını Allah yolunda infaq etdi. Bütün xanım səhabələr nə qədər bəzək və zinət əşyaları var idisə, gətirib Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- qarşısına qoydular. On bir yaşı olan kiçik bir dindar qız da o körpə olarkən qulağına taxılmış sırğaları çıxmayanda həyəcanlandı və qulağını yırtaraq sırğaları çıxartdı. O, bu qanlı sırğaları Allah Rəsulunun qarşısına qoydu.

Varlı olmayan, verməyə bir şey tapmayan səhabələr belə, mal və canla fədakarlıq etməyin həyəcanı ilə yaşayırdılar. Bunlardan Əbu Aqil -radiyallahu anh- bütün gecə çalışaraq bir kilo xurma qazanmışdı. Xurmanın bir qabını ailəyə, bir qabını da orduya verdi. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-: "Allah sənin gətirib verdiyini də, evdə saxladığını da bərəkətləndirsin!",-buyurdu və gətirilən xurmanın toplanan yardımların içinə qoyulmasına əmr etdi. (Təbəri, "Təfsir", X, 251)

İPƏKYOLU NƏŞRİYYATI

Münafiqlər isə belə hədiyyələri ələ saldılar, Əbu Aqili də ikiüzlülükdə ittiham etdilər. Ukbə bin Amr -radiyallahu anh- belə söyləyir:

"Sədəqə ayəsi nazil olanda kürəyimizdə yük daşıyaraq əldə etdiyimiz qazancdan infaq etməyə başladıq. Bu zaman bir adam gəldi və çoxlu sədəqə verdi. Münafiqlər: "Özünü göstərir",-dedilər. Bir başqa şəxs gəldi, o da bir qab xurma verdi. Yenə münafiqlər: "Allahın bunun bir qab xurmasına ehtiyacı yoxdur",-dedilər. Bundan sonra:

**"Könüllü surətdə** (bol) **sədəqə verən möminlərə tənə edənləri və güc-bəla ilə əllərinə düşənləri təsəddüq edən kəsləri məsxərəyə qoyanları Allah Özü məsxərəyə qoyacaq. Onlar şiddətli bir əzaba düçar olacaqlar"** (ət-Tövbə, 79) mübarək ayəsi nazil oldu. (Buxari, "Zəkat", 10, Müslüm, "Zəkat", 72)

Hədisin müxtəlif rəvayətlərindən anlaşıldığına görə, çox pul gətirən şəxs Əbdürrəhman bin Avf -radiyallahu anh-, bir qab xurma gətirən şəxs də Əbu Aqil -radiyallahu anh- olub.

Başqa yöndən enən xəbərdarlıq ayələrindən sonra könüllərinə ilahi əzab qorxusu düşən möminlərin hamısı bir yerdə müharibədə iştirak etmişdi. Belə ki Mədineyi-Münəvvərə bomboş qalmışdı. Ancaq müharibə uzun çəksə, dövlətin mərkəzində xoşagəlməz hadisələr meydana çıxa bilər və dövlət zəifləyərdi. Nəticədə, din zəifləyər, ordunun təchizatı təmin edilməzdi. Bundan başqa, millətlərin varlığını təmin edən yuxarı təbəqənin (elitanın) olmaması dövlətin çökməsinə yol aça bilərdi. Buna imkan verməmək üçün müharibədə iştirak etməklə bağlı uca Allah bir ölçü müəyyən etdi.

**"**(Ehtiyac olmadıqda) **möminlərin hamısı birdən** (cihada, döyüşə) **çıxmamalıdır. Barı, hər tayfadan bir dəstə** (elm öyrənmək, sonra da onu dindaşlarına öyrətmək üçün) **qalsın ki, camaatı** (döyüşdən) **qayıtdığı zaman onları** (Allahın əzabı ilə) **qorxutsun. Ola bilsin ki, onlar** (əldə etdikləri biliklər sayəsində yaramaz işlərdən, nalayiq hərəkətlərdən) **çəkinsinlər!".** (ət-Tövbə, 122)

Bu ilahi əmrə uyğun olaraq Allah Rəsulu -səllallahu əleyhi və səlləm- arxa cəbhənin təhlükəsizliyi üçün Həzrət Əli -radiyallahu anh- ilə Məhəmməd bin Məsləməni -radiyallahu anh- Mədinədə saxladı.

İPƏKYOLU NƏŞRİYYATI

**Səatül-Usrə: Çətinlik zamanı**

Nəhayət, bütün ağır şərtlərə və sıxıntılara baxmayaraq, ordu böyük bir ehtişamla hərəkət etdi. Ancaq ordu bir çox sıxıntıya səbir və dözüm göstərməli idi. Çünki şərtlər olduqca çətin və ağır idi. Bu səfəri çətinləşdirən səbəblər aşağıdakılar idi:

Şiddətli quraqlıq.

Yolun uzun və piyada yeriməyə əlverişli olmayan bir çöl olması.

Məhsulun və meyvələrin toplanma mövsümü olması.

Havanın çox isti olması.

Bizans ordusunun sayının çoxluğuna baxaraq onların güclü olduğunun düşünülməsi.

Elə bütün bu çətinliklərə görə də, bu müharibəyə "Qəzvətül-Usrə" ("Çətinlik müharibəsi"), orduya "Ceyşül-Usrə" ("Çətinlik ordusu"), səfər günlərinə də "Səatül-Usrə" ("Sıxıntı və çətinlik zamanı") deyilmişdir.

Ordu hərəkət etdikdən bir müddət sonra Həzrət Əli -radiyallahu anh-münafiqlərin fitnəkarlıq etməsindən çəkinərək Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yanına getdi və müharibədə iştirak etmək üçün icazə istədi:

"-Ey Rəsulullah! Münafiqlər məndən xoşunuz gəlmədiyi üçün arxa cəbhədə saxladığınızı söyləyirlər! Mənə də səfərə getmək üçün icazə verin!,- dedi.

Allah Rəsulu da-səllallahu əleyhi və səlləm-:

- Ey Əli! Onlar yalan söyləmişlər. Mən səni arxada qoyub getdiklərimə vəkil təyin etdim. Tez geri dön, həm öz ailənə, həm də mənim ailəmə göz-qulaq ol, onlar üçün mənim vəkilim ol! Ey Əli! Mənim yanımda sənin dəyərinin (Tura gedərkən) Musanın yanında Harunun dəyəri kimi olmasına razı deyilsənmi? Bir fərqlə ki, məndən sonra Peyğəmbər gəlməyəcək",- buyurdu. (İbni-Hişam, IV, 174; Buxari, "Məğazi", 78; Müslüm, "Fədailüs-Səhabə", 31)

Bu iltifata nail olan Həzrət Əli böyük bir razılıq və sevinc içində vəzifəsini icra etmək üçün geri qayıtdı.

İslam ordusu onların keçdiyi yolun üzərində olan Səmud qövmünün həlak olduğu Hicr adlı yerdən keçərkən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- seçilmiş əshaba:

İPƏKYOLU NƏŞRİYYATI

"Biz bu vadidən qaçaraq keçməliyik!", -buyurdu. (Vaqidi, III, 1008)

Bundan sonra Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

"Özlərinə zülm edənlərin yurduna ağlayaraq girin, yoxsa, onların başına gələnlər sizin də başınıza gələr",-buyurdu.

Sonra onlar başlarını örtərək o bölgədən sürətlə keçdilər. Oradan götürdükləri suyu yerə tökdülər. Onlar israf məsələsinə çox həssas yanaşmalarına baxmayaraq, bu su ilə yoğrulmuş olan xəmirləri də atdılar. (Buxari, "Ənbiya", 17; "Təfsir", 15/2; Müslüm, "Zühd", 39)

Çünki qəhr edilmiş məkanlar düçar olduğu fəlakətin acısını qiyamətədək davam etdirir. Başqa sözlə, qəhrin baş verdiyi yerlərdə, üsyan və günah olan məkanlarda mənəvi baxımdan davam edən qəhrin mənfi təsirinə məruz qalmamaq üçün Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- buyurduğu kimi bu yerlərdən sürətlə keçmək zəruridir.

İslam ordusu Təbükdə iyirmi gün qaldı. Rəsulullah -səllallahu əleyhi və səlləm- daha irəli getmək istəmədi. Çünki O, İslamı insanlara qılıncla qəbul etdirmək arzusunda deyildi. Həm də Bizans dövlətinə zəruri olduğu qədər göz dağı verilmiş, nəticədə, onların qarşısına heç bir düşmən çıxmamışdı. Bundan başqa o zaman Suriyanı taun xəstəliyi bürümüşdü. Taun isə yoluxucu və öldürücü bir xəstəlik olduğundan Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

**"Bir bölgədə taun xəstəliyinin olduğunu eşitsəniz, oraya getməyin! Siz o bölgədə olsanız, əsla oradan çıxmayın!"**,-buyurdu. (Buxari, "Tibb", 30)

Bundan sonra Peyğəmbər -səllallahu əleyhi və səlləm- seçilmiş əshabla məsləhətləşərək Mədinəyə qayıtmağa qərar verdi.

Bu zaman Əbu Haysəmə -radiyallahu anh- orduya çatdı. O, başlanğıcda səfərin çətinliyinə görə Mədinədə qalmış, orduya qoşulmamışdı. Bir gün bağçasındakı çardaqda xanımları ona gözəl bir süfrə hazırlamış, onu yeməyə çağırmışdılar. Əbu Haysəmə bu mənzərəni görəndə Allah Rəsulu -səllallahu əleyhi və səlləm- və əshabının halı yadına düşdü, ürəyi sızladı və öz-özünə:

"Onlar bu istidə Allah yolunda çətinliklərə dözdüyü halda, mənim bu etdiyim doğrudurmu?!",-dedi. Böyük bir peşmançılıqla onun üçün ha-

zırlanan süfrəyə əlini belə vurmadı, dərhal yola düşdü, Təbükdə İslam ordusuna qoşuldu. Onun gəldiyini görən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu davranışdan məmnun oldu və:

"Ey Əbu Haysəmə! Az qalmışdı ki, həlak olasan!...",-buyuraraq onun bağışlanması üçün uca Allaha dua etdi. (İbni-Hişam, IV, 174; Vaqidi, III, 998)

Uca Allah qullarının gücü çatmayan bir işi onlara yükləməz. Ancaq gücləri çatacaqları işlərin yerinə yetirilməsindən də sorğu-suala çəkər. Elə Əbu Haysəmənin etdiyi də gücü çatacaq bir işin əvəzinin ödənilməsi idi.

Bu hadisələr bizim üçün canlı bir öyüddür. Maddi və mənəvi imkanlarımızı haqq yolunda nə qədər sərf edə bildiyimizi ölçmək və mömin olmağın məsuliyyətini anlamaq üçün bir vasitədir.

**Təbük şəhidi**

Təbük səfərində yalnız bir səhabə şəhid olmuşdu. Bu səhabə müşrik bir qəbilə içərisindən İslam dinini qəbul edərək şərəflənən Abdullah Zül-Bicadeyndir.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

- Sən Allah yolunda döyüşə getsən və hümma xəstəliyinə tutularaq ölsən, şəhidsən!!",-buyurdu.

Doğrudan da, onun şəhadəti möcüzəli bir şəkildə Allah Rəsulunun buyurduğu kimi oldu. Cənazəni qucağına alan Rəsulullah -səllallahu əleyhi və səlləm- onu qəbirdə yatacağı yerə və yönə yerləşdirdikdən sonra belini düzəltdi və belə dua etdi:

*"Ey Rəbb! Mən ondan razıyam, hər zaman razı oldum, Sən də razı ol!...".*

Abdullah bin Məsud -radiyallahu anh- sözlərinə davam edərək deyir:

"Bu mənzərənin qarşısında çox duyğulandım. Zül-Bicadeynə qibtə etdim. O an: "Nə olardı, bu qəbrin sahibi mən olardım",-deyə çox arzuladım". (İbni-Hişam, IV, 183; Vaqidi, III, 1013/1014; İbni-Əsir, "Üsdül-Qabə", III, 227)

İPƏKYOLU NƏŞRİYYATI

**Münafiqlərin xəyanətləri və Məscidi-Dirar**

Geriyə dönüş başlayanda münafiqlərdən bir qrup gecə vaxtı dar bir boğazda Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- qarşı sui-qəsd hazırlamışdılar. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- bundan xəbərdar oldu. Huzeyfətül-Yəmanini onların üzərinə göndərdi. Huzeyfə də -radiyallahu anh-oraya gedib:

"Ey Allahın düşmənləri! Çəkilin!",-deyə hayqıraraq münafiqlərin hamısını dağıtdı. (Əhməd, V, 453)

Ancaq Allah Rəsulunu -səllallahu əleyhi və səlləm- münafiqlərin ikinci bir tələsi də gözləyirdi. İslamiyyətin getdikcə güclənməsi ilə birlikdə, Mədinə və Məkkədən ayrılan Əbu Amir Fasiq adlı həzrəcli bir xristian Bizansa sığınmışdı və fasiləsiz olaraq münafiqləri qızışdırırdı. Bu fəsad qazanını qaynatmaq üçün Quba məscidinin bir az aşağısında bir məscid tikmişdilər. Bu, məşhur Dirar məscidi idi…

Onlar planlaşdırdıqları sui-qəsdi həyata keçirtmək üçün Rəsulullahı -səllallahu əleyhi və səlləm- Təbük səfərindən əvvəl bura dəvət etmişdilər, ancaq Onun:

"Səfərdən qayıdarkən, inşallah, gələrəm!" dediyinə görə İslam ordusunun qayıdışını gözləyirdilər.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Mədinəyə bir dayanacaq məsafə yaxınlaşanda Cəbrail –əleyhissəlam-gəldi və adi bir məscid kimi tikilən, əslində isə bir fitnə yuvası olan bu binanın inşa edilməsinin əsl məqsədini xəbər verdi. Beləliklə, məscidə qarşı məscidlə, dinə qarşı dindən istifadə etməklə Allah Rəsuluna -səllallahu əleyhi və səlləm-, başqa sözlə bütün müsəlmanlara qarşı münafiqlər tərəfindən hazırlanan bu hiyləgər plan pozuldu. Çünki uca Allah açıq bir şəkildə bu həqiqəti bildirirdi:

"(Quba məscidinə və müsəlmanlara) **zərər vurmaq, küfr etmək, möminlər arasına təfriqə salmaq məqsədilə, əvvəllər Allaha və Onun Peyğəmbərinə qarşı müharibə edən kimsədən** (gəlib onlara rəhbərlik edəcəyi təqdirdə) **göz-qulaq olmaq üçün məscid düzəldən və: "Biz** (bununla) **yaxşılıqdan başqa bir şey istəmədik",-deyə and içənlərin** (münafiqlərin), **həqiqətən, yalançı olmaları barədə Allaha Özü şahidlik edəcəkdir!** (Ey Rəsulum!) **Orada heç vaxt namaz qılma. İlk gündən binası təqva** (Allahdan qorxub pis əməllərdən çəkinmək) **üzərində qurulmuş məscid** (Quba məscidi) **namaz qılmağına daha layiqdir. Ora-**

İPƏKYOLU NƏŞRİYYATI

**da paklanmağı sevən insanlar var. Allah pak olanları** (özlərini cismən təmizləyənləri, mənəvi qüsurlardan, çirkinliklərdən qorumağa çalışanları) **sevər!"**. (ət-Tövbə, 107-108)

Bu dəfə məsələ yalnız nifaqla məhdudlaşmamış, açıq bir fitnəkarlıq və gizli plana çevrilmişdi. Buna görə də, münafiqlərin əsl məqsədlərinin ifşa edilməsi və məscid adı ilə tikilən hiylə yuvasının yandırılması zəruri idi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ilahi əmrə uyğun hərəkət etdi və Mədinəyə çatanda Dirar məscidini yandırdı. (İbni-Hişam, IV, 185)

### Kiçik cihaddan böyük cihada

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- iştirak etdiyi son səfər olan Təbük məşəqqətlərlə dolu, çətin bir səfər idi. İslam ordusu min kilometr yol getmiş və geri qayıtmışdı. Onlar Mədinəyə yaxınlaşanda çox dəyişmişdilər. Dəriləri sümüklərinə yapışmış, saç-saqqalları bir-birinə qarışmışdı. Belə bir vəziyyətdə Rəsulullah -səllallahu əleyhi və səlləm- onlara:

"-İndi kiçik cihaddan böyük cihada dönürük!,-buyurdu.

Əshab heyrət içində:

- Ey Rəsulullah! Halımızı görürsən! Bundan daha böyük cihad olar?,-dedi.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

- İndi böyük cihada (nəfs cihadına) gedirik!",-buyurdu. (Süyuti, II, 73)

Nəfs cihadı qəlbi sağlamlaşdıran mənəvi tərbiyədir. Məqsəd əxlaqı yüksəltmək və insanı mənəvi baxımdan kamilləşdirməkdir, "İnsani-kamil" olmaqdır. Bunun yolu da ilahi həqiqətlərlə yoğrulmuş bir ağıl, imanla, gözəl əxlaqla bəzənmiş bir qəlb, Quran və sünnənin ruhaniyyəti ilə formalaşmış hal və davranışlarla "tövhidin meracına yüksələrək" kamala çatmaqdır.

*****

Rəsulullahın -səllallahu əleyhi və səlləm- Mədinəyə gəlişi ilə birlikdə bütün xalq həyəcanla Onu və İslam ordusunu qarşıladı. Uşaqlar da Peyğəmbərimizi Səniyətül-Vədada qarşılamaq üçün yollara düzülmüşdülər.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

**Tövbələri qəbul edilməyən üç səhabə**

Kişilərdən Mədinədə qalıb Təbük səfərində iştirak etməyən üç qrup var idi:

1. Üzürlü olanlar: Bunlar mübarək ayədə göstərilən şəxslər olub, istədikləri halda səfərdə iştirak etməyənlərdir. Onlarla bağlı Allah Rəsulu -səllallahu əleyhi və səlləm- İslam ordusuna:

*"Mədinədə elə qruplar var ki, getdiyimiz elə bir yer və keçdiyimiz elə bir vadi yoxdur ki, onlar da bizimlə birlikdə olmamış olsunlar. Çünki onlar üzürlü olduqlarına görə arxada qalmışlar".* (Buxari, "Məğazi", 81; Müslüm, "İmarə", 159)

Başqa bir hədisi-şərifdə də:

"Əməllər niyyətlərə görədir!...",-buyurulur. (Buxari, "Bədül-Vəhy", 1)

2. Münafiqlər: Bunlar bir çox səbəblərlə birlikdə həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- bu səfərdən dönməyəcəyini düşünürdülər. Ona görə də, səfərdə iştirak etmədilər. Ancaq Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- sağ-salamat böyük bir uğurla geri qayıtdığını görəndə tez yanına qaçdılar və min bir yalan söyləyərək üzr istədilər. Bu münafiqlərin sayı səksən nəfər olardı. Uca Allah onlarla bağlı belə buyurdu:

**"**(Münafiqlər) **sizdən olmaya-olmaya mütləq sizdən olduqları barədə Allaha and içərlər. Ancaq onlar** (əslində, sizin onları öldürmənizdən ehtiyat edən, buna görə də, zahirən özlərini müsəlman kimi göstərən) **qorxaq bir zümrədir. Əgər onlar bir sığınacaq, ya da** (gizlənmək üçün) **mağara, ya da girməyə bir deşik** (yer) **tapsaydılar, tələsik ora üz tutardılar".** (ət-Tövbə, 56-57)

**"**(Döyüşdən geri dönüb) **yanlarına qayıtdığınız zaman onlar sizdən üzr istəyərlər.** (Onlara) **belə de: "**(Əbəs yerə) **üzr istəməyin, onsuz da sizə inanmayacağıq. Allah əhvalınızdan bizi xəbərdar etmişdir.** (Bundan belə) **əməlinizi Allah da görəcək, Onun Peyğəmbəri də". Sonra qeybi və aşkarı bilənin** (Allahın) **hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir! Yanlarına qayıtdığınız zaman onlardan vaz keçməniz** (onları məzəmmət etməməniz) **üçün** (yalandan) **Allaha and içəcəklər. Siz də onlardan vaz keçin!** (Qoyun qiyamət günü əzabı daha şiddətli olacaq küfr və nifaqlarında davam etsinlər). **Çünki onlar murdardırlar və qazandıqlarının** (qazandıqları günahların) **cəzası olaraq düşəcəkləri yer də cəhənnəmdir!".** (ət-Tövbə, 94-95)

İPƏKYOLU NƏŞRİYYATI

Bu mübarək ayələrin hökmünə uyğun olaraq münafiqlər artıq İslam cəmiyyətindən təcrid edildilər. Onlara "murdar" deyilərək müsəlmanlardan sayılmadılar. Onların İslam uğrunda edilən cihadda iştirak etmələri də qadağan olundu.

1. Üzürlü olmayanlar: Bunlar da iki qrupdur:

a. Bunların hər hansı bir üzürlü səbəbləri yox idi, ancaq onlar münafiqlərdən də deyildilər. Bununla belə, müharibədə iştirak etmədilər. Ancaq bu şəxslər Allah Rəsulu -səllallahu əleyhi və səlləm- hələ Təbükdən qayıtmamışdan əvvəl səhvlərini anlayaraq çox peşman oldular. Onlar etdikləri yanlış hərəkətin cəzası olaraq özlərini məscidin dirəklərinə bağladılar. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- onları bu dirəklərdən açmadıqca belə qalacaqlarına and içdilər. Rəsulullah -səllallahu əleyhi və səlləm- səfərdən qayıtdı və onların vəziyyətini öyrəndi: "Mən də onlarla bağlı əmr alanadək onları dirəkdən açmayacağıma and içirəm",-buyurdu. Bundan sonra aşağıdakı mübarək ayə nazil oldu:

**"**(Münafiqlərin) **bir qismi də günahlarını etiraf etdi. Onlar** (əvvəl etdikləri) **yaxşı bir əməllə** (sonradan etdikləri) **pis bir əməli bir-birinə qarışdırmışlar. Ola bilsin ki, Allah onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir".** (ət-Tövbə, 102)

Bu mübarək ayənin enməsindən sonra Rəsulullah -səllallahu əleyhi və səlləm- peşman olaraq özlərini dirəklərə bağlayan bu səhabələri azad etdi.

b. Bu şəxslərin də hər hansı bir üzürlü səbəbləri yox idi. Onlar da münafiqlərdən deyildilər, ancaq müharibədə iştirak etməmişdilər. Onlar peşman olub özlərini məscidin dirəklərinə də bağlamamışdılar. Onlar üç nəfər idilər. Şair Kab bin Malik, Mürarə bin Rəbi və Hilal bin Meyə adlı bu üç səhabə münafiqlər kimi yalan söyləmədilər. Onlar Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- bildirdilər ki, heç bir üzürlü səbəb olmadan müharibədə iştirak etməmişlər. Ancaq etdiklərindən çox peşmandırlar və Peyğəmbərdən əfv istəyirlər.

İlahi əmrlərə riayət etmək məsələsində çox diqqətli olan Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu üç səhabəni bağışlamadı. Hətta, ilahi vəhyin gəlməsini gözlədiyindən onların salamını belə almadı. Bütün məsələlərdə əshabı da Peyğəmbər kimi hərəkət etdi.

İPƏKYOLU NƏŞRİYYATI

Bu üç səhabə bütün müharibələrdə iştirak etmişdi. Kabdan başqa, o biri iki səhabə Bədir müharibəsində də iştirak etmişdi. Təbük müharibəsində iştirak etməməklə yol verdikləri xətaya görə onlara qarşı göstərilən bu münasibət dünyanı onların gözündə bir zindana çevirdi, dünya onlara dar gəldi. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- salamlarını almayacaq dərəcədə onlardan üz çevirməsi nəticəsində yer üzü bu səhabələrə yad görünürdü. Hətta, xanımları belə, onlar üçün yad adamlar idilər. Edəcək heç bir şey qalmamışdı. Buna görə də, onlar gecə-gündüz ağladılar. Əriyən bir şama döndülər. Səhv etmişdilər, ancaq ixlas, doğruluq, sədaqət, səmimiyyət, təslimiyyət, peşmançılıq və tövbədən uzaqlaşmamışdılar. Əlli gün keçdi. Nəhayət, doğru danışmaları və səmimi bir şəkildə tövbə etmələrinin mükafatı olaraq, bu mübarək ayə ilə əfv olundular:

**"Həmçinin** (Təbük döyüşündən) **geri qalmış üç nəfərin də** (tövbələrini qəbul etdi). **Belə ki dünya onlara dar olmuş, ürəkləri** (qəm-qüssədən) **təngə gəlib sıxılmışdı. Onlar Allahdan** (Allahın əzabından) **yalnız Onun Özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Allah onlara** (əvvəlki hallarına) **qayıtmaq üçün tövbə nəsib etdi və tövbələrini qəbul buyurdu. Şübhəsiz, Allah tövbələri qəbul edəndir, rəhmlidir! Ey iman gətirənlər! Allahdan qorxun və** (imanında, sözündə, işində) **doğru olanlarla olun!** (Peyğəmbər və onun sadiq səhabələri ilə birlikdə olun!)**".** (ət-Tövbə, 118-119)

Bu üç səhabə Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ilə bütün müharibələrdə iştirak etdikləri halda, yalnız bir döyüşə getmədikləri üçün bu qədər ağır bir cəzaya düçar oldular. Bu hadisə üzürsüz bir səbəblə yaxşılıqları əmr edib, pisliklərdən çəkindirənlərdən olmayanlara və Allah yolundakı tövhid mücadiləsindən kənarda qalanlara çox böyük bir xəbərdarlıqdır.

Bədir müharibəsində iştirak edib, Bədir qazisi olanlar sonrakı səhvlərinə görə, bu dərəcədə ağır bir əvəz ödəyirlərsə, bizim kimi insanların halı necə olacaq deyə düşünmək və uca Allahın əmrinə uyğun olaraq sadiqlərlə birgə olmaq üçün ciddi çalışmaq lazımdır.

Səatül-Usrədən anlaşıldığı kimi, bir müsəlman əsla rahatlığa, zövq və səfaya meyl etməməli, qarşılaşdığı hər cür çətinlikdə mücadilə edərək Allah yolunda irəli getməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

**İbadətsiz dində xeyir yoxdur**

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- hədəf olaraq seçdiyi fəthləri həyata keçirib Məkkəyə dönəndə Taifin başçısı Urvə bin Məsud qaça-qaça onun arxasınca gəlmiş və müsəlman olmuşdu. Sonra o, Taifə dönərək qəbiləsini İslam dininə dəvət etməyə başladı. Ancaq bir zamanlar onlara İslamı təbliğ etməyə gələn Həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- daşa basan bu insanların Urvəyə münasibəti çox sərt oldu. Onu oxla vurub şəhid etdilər.

Bundan sonra Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- müsəlman olub vəzifəsi özünə qaytarılan Həvazin qəbiləsinin rəisi Malikə -radiyallahu anh- taifliləri sıxışdırmaq üçün əmr etdi. Bu əmrə uyğun olaraq Malik tez-tez onlara hücum etdi və taiflilər öz qalalarına girərək oradan kənara çıxa bilmədilər. Nəhayət, onlar çox yoruldular və qəbilənin liderlərini Mədinəyə göndərdilər.

Rəsulullah -səllallahu əleyhi və səlləm- Sakif heyətini onların qəlblərini yumşaltmaq üçün məsciddə qəbul etdi.

Qəbilənin təmsilçiləri gecə oxunan Qurani-Kərimi, əshabın təhəccüd namazında oxuduğu surələri və müsəlmanların beş vaxt namazda səf-səf duruşlarını seyr edirdilər.

Sakif heyəti namaz qılmamaq şərti ilə imana gəlib, itaət edəcəyini bildirdi. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- onların bu təkliflərini:

*"Namazsız bir dində xeyir yoxdur!",*-deyərək rədd etdi. (Əbu Davud, "Xərac", 25-26/3026)

Taiflilər bu səfər zamanı Lat adlı bütlərinin üç il öz yerində qalmasını, ona toxunulmamasını istəyərək axmaq bir təklif də irəli sürdülər. Bu təklif qəbul edilmədi. Onlar: "Heç olmasa, bir ay yanımızda qalsın",-dedilər. Bu təklif də qəbul olunmadı. Nəhayət, çarəsiz qalaraq imana gəldilər. Bu dəfə də heç olmasa, Lat bütünü onların özlərinin uçurtmamasını istədilər. Rəsulullah da -səllallahu əleyhi və səlləm- "Mütləq siz yıxacaqsınız!",-deyə israr etmədi. O, bu iş üçün Əbu Süfyan ilə Muğirəni göndərdi. Çox qəribədir ki, büt dağıdılarkən Sakif qəbiləsinin qadınları evlərindən kənara çıxıb yas tutdular və ağladılar. Ancaq İslamın ucalığını və əxlaq sistemini öyrəndikcə onların hamısı səmimi bir müsəlman oldular, bütlərin adlarını belə, tamamilə unutdular.

Sakif təmsilçilərinə İslamın fərzləri və ehkamı öyrədildi. Kainatın fəxri -səllallahu əleyhi və səlləm- Ramazan ayının qalan hissəsində oruc tutmalarını da onlara əmr etdi. Bilal Həbəşi onların saxur və iftar yeməklərini yanlarına aparırdı.

Beləliklə, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- Məkkə dövrünün doqquzuncu ilində taiflilərin zülmünə qarşılıq olaraq onların doğru yola qovuşması üçün etdiyi mərhəmətin bir ifadəsi olan duası uca Allah yanında qəbul olundu.

**Təbük səfərindən sonra baş verən hadisələr**

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- misirli Həzrət Mariyadan İbrahim adlı bir oğlu dünyaya gəlmişdi. Həzrət İbrahim Təbük səfərindən sonra xəstələndi və bir müddət sonra vəfat etdi. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- buna çox kədərləndi. Mübarək gözlərindən səssiz-səssiz mərhəmət damcıları axdı. O, belə buyurdu:

*"Göz ağlar, qəlb də kədərlənər, ancaq biz Rəbbimizin razı olacağı sözdən başqa bir söz söyləmərik! Vallah, ey İbrahim! Biz sənin ayrılığından çox kədərliyik!"*,-buyurdu. (Buxari, "Cənaiz", 44; İbni-Sad, I, 138)

*****

Rəcəb ayında Həbəş Nəcaşisi vəfat etdi. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- arada dəniz olduğuna və quru yolla çox uzun bir məsafə olmasına baxmayaraq, Nəcaşinin vəfatını həmin gün əshabına xəbər verdi. Qiyabi cənazə namazı qıldırdı. (Müslüm, "Cənaiz", 62-68; Əhməd, III, 319; IV, 7)

Sonradan Nəcaşinin, həqiqətən, Allah Rəsulunun dediyi gün vəfat etdiyi öyrənildi.

*****

Şaban ayında da Həzrət Peyğəmbərin mübarək qızı, həzrət Osmanın -radiyallahu anh- möhtərəm xanımı olan Ümmü Gülsüm -radiyallahu anha-Rəhmanın rəhmətinə qovuşdu.

**Elçilər ili**

Məkkə fəth edilmiş, Hüneyn döyüşü qazanılmış, Taif xalqı mühasirədən bir il sonra müsəlman olmuş və çətin Təbük səfəri də uğurla başa

İPƏKYOLU NƏŞRİYYATI

çatmışdı. Artıq Ərəbistan yarmadasında islamiyyətin qarşısında mane ola biləcək heç bir şey qalmamışdı.

Beləliklə, İslamın ehtişam və ülviliyini doğru bir şəkildə tanımaq fürsəti əldə edən Ərəbistan qəbilələri Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yanına heyətlər göndərərək Ona bağlı olduqlarını bildirməyə başladılar. Yəmən, Hadramvet, Bəhreyn, Əmman, Suriya və İrandan gələn bu heyətlər ya müsəlman olmaq, ya da İslam dinini qəbul etdiklərini bildirmək üçün gəlir və Allah Rəsulundan -səllallahu əleyhi və səlləm- onlara İslamı öyrədəcək müəllimlər, mürşidlər istəyirdilər.

Gələn heyətlərin İslamı şəxsən Rəsulullahdan -səllallahu əleyhi və səlləm- öyrənərək geri qayıdıb öz qəbilələrinə izah etmələrinin gözəl bir misalı Bəni Tuciblilərdir. Onlardan on üç nəfərlik bir heyət Allah Rəsulunun yanına gəldi. Zəkat mallarını da özləri ilə gətirmişdilər.

Bu yolla İslam gün keçdikcə bütün Ərəbistana yayıldı. İnsanlar qrup-qrup gələrək İslamı qəbul edirdilər. Mədinə hər gün yeni gələn müsafirlərlə dolub-daşırdı. Allah Rəsulu da -səllallahu əleyhi və səlləm- gələnləri ən gözəl bir şəkildə qarşılayır, onları qonaq edir, hamısının halına, davranışına və adətlərinə görə söhbətlər edir, onların yaşadıqları bölgələrin vəziyyəti ilə bağlı məlumat alır, istəklərini dinləyib, suallarına cavab verir, məsələlərini həll edir, könüllərinə İslamın nur, dinclik və sevincini ilmə-ilmə nəqş edirdi.

Artıq keçmiş çətin günlərin yerinə bərəkətli günlər gəlmişdi. Uca Allah Onun nəsib etdiyi bu bərəkətin şükrünü ödəməklə bağlı Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- və Onun simasında bütün möminlərə belə buyurmuşdur:

**"**(Ey Peyğəmbər!) **Allahın köməyi və zəfər** (Məkkənin fəthi) **gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə** (İslama) **daxil olduqlarını gördüyün zaman Rəbbini həmd-səna ilə təqdis et** (Onu bütün naqis sifətlərdən uzaq tutub pak bil, "Sübhanəkə Allahümmə və bihəmdikə" kəlməsini de) **və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri** (çox) **qəbul edəndir!".** (ən-Nəsr, 1-3)

İslamın hicrətdən sonra doqquzuncu ildə Ərəbistanda belə sürətlə yayılması və Mədinəyə mübarək dini öyrənmək üçün qəbilə elçilərinin dəstə-dəstə gəlməsi münasibəti ilə bu ilə "elçilər ili" deyildi.

İPƏKYOLU NƏŞRİYYATI

**Həcc vəzifəsi**

Hicrətin doqquzuncu ilinədək həcc, Həzrət İbrahimin -əleyhissəlam- hənif dininə görə icra edilirdi, ancaq müşriklər həcc ziyarətinə bir sıra yanlış, uydurma əməllər də daxil etmişdilər. Bu il isə Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Həzrət Əbu Bəkri həcc əmiri təyin edərək islami həcci müsəlmanlara öyrətmək üçün üç yüz nəfərlik bir karvanla Məkkəyə göndərdi. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- özü onuncu ildə həcc ziyarəti edəcəyini bildirdi. Qurban kəsilmək üçün də boyunlarına nişan taxdığı iyirmi dəvəni onlarla birlikdə göndərdi.

Həzrət Əbu Bəkir -radiyallahu anh- həcc karvanı ilə yola çıxdığı zaman Tövbə surəsinin ilk ayələri nazil oldu. Beləliklə, bütlərdən təmizlənmiş olan Allahın Evinin müşriklərdən təmizlənməsi əmr edildi. Çünki o vaxtadək müşriklərin Kəbədə ibadət etmələrinə toxunulmamışdı. Ancaq əsl mahiyyətini qazanmış olan Kəbeyi-Müəzzəmədə müşriklərin əl çalaraq və çılpaq bir şəkildə, qeyri-əxlaqi formada özlərinə görə ibadət etmələri tövhid inancına uyğun deyildi və onların bu hərəkətləri xalq arasında da qarışıqlığa yol açırdı. Tövbə surəsinin bu zaman enən ayələri Kəbədə tövhid inancına qarşı edilən hörmətsizliyə son qoyan ayələr oldu. Uca Allah buyurur:

**"Allahdan və Onun Peyğəmbərindən saziş bağladığımız müşriklərə** (onlarla olan əhdlərin pozulması, əlaqələrin kəsilməsi barədə) **bir xəbərdarlıq!** (Ey müşriklər!) **Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz** (Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz)**. Allah kafirləri** (dünyada və axirətdə) **rüsvay edəcək! Allahdan və Onun Peyğəmbərindən böyük həcc günü** (Zülhiccə ayında vacib, fərz olan həcc, Qurban bayramı və ya Ərəfə günü) **insanlara bir bildiriş! Allahın və Onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur. Əgər** (küfrdən və şirkdən) **tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Əgər** (imandan) **üz döndərsəniz, bilin ki, Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz.** (Ey Peyğəmbərim!) **Kafir olanları şiddətli bir əzabla müjdələ! Müqavilə bağlandıqdan sonra sizə qarşı bir əskiklik etməmiş** (onun şərtlərini pozmamış) **və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla əhdinizə axıra qədər** (müddəti bitənədək) **vəfa edin. Şübhəsiz, Allah müttəqiləri** (əhdi nahaq yerə pozmaqdan çəkinənləri) **sevər!".** (ət-Tövbə, 1-4)

"Ey iman gətirənlər! Müşriklər (batinləri xəbis, etiqadları puç və iyrənc olduğuna, su başına çıxdıqdan sonra yuyunmadıqlarına, dəstəmaz alma-

İPƏKYOLU NƏŞRİYYATI

dıqlarına və cənabət qüslü etmədiklərinə görə), doğrudan da murdardırlar. Özlərinin bu ilindən (hicrətin doqquzuncu ilindən) sonra Məscidül-hərama yaxınlaşmasınlar. Əgər yoxsulluqdan (ehtiyacdan) qorxursunuzsa, (bilin ki) əgər Allah istəsə, Öz nemətindən (verib) sizi mütləq zəngin edəcəkdir. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!". (ət-Tövbə, 28)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu mübarək ayələri elan etməsi üçün Həzrət Əlini -radiyallahu anh- Həzrət Əbu Bəkrin -radiyallahu anh-arxasınca Məkkəyə göndərdi.

Həzrət Əli -radiyallahu anh- bayramın birinci günü Əqəbə Cəmrəsi yanında ayağa qalxaraq Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- ona verdiyi bu vəzifəni bir xütbə oxuyaraq yerinə yetirdi. Tövbə surəsindən müəyyən qədər ayələr oxuduqdan sonra Rəsulullahın -səllallahu əleyhi və səlləm- ümumiləşdirdiyi bu dörd maddəni hər kəsə çatdırdı:

1. (Hər kəs bilsin ki), cənnətə ancaq möminlər girə biləcək.

2. Kəbə heç bir zaman çılpaq olaraq təvaf edilməyəcək (müşriklərin bu şəkildə icra etdikləri bidətlərə son qoyulacaq).

3. Bu ildən sonra heç bir müşrik Beytullaha yaxınlaşmayacaq.

4. Yalnız Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ilə müqavilə bağlamış olan və buna sadiq qalan müşriklər haqqında göstərilən müddət bitənədək müqavilənin şərtləri olduğu kimi qalacaq.

Bu ildən sonra artıq heç bir müşrik həccə getməmiş və Kəbə çılpaq olaraq təvaf edilməmişdir.

Bu ildən sonra şirkin onları bədbəxt etdiyini anlayan axırıncı müşriklər də, nəhayət, imanı seçmişlər.

Bu ildən sonra Kəbeyi-Müəzzəmə bütlərdən təmizləndiyi kimi, müşriklərdən də təmizlənərək Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- edəcəyi böyük həcc üçün hazırlanmışdı.

İPƏKYOLU NƏŞRİYYATI

# HİCRƏTİN ONUNCU İLİ

## Varlıq nurunun ilk və son həcci: VİDA HƏCCİ

Həccin fərz olmasından sonra Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- etdiyi ilk və son həcc Vida həccidir. Rəsulullah -səllallahu əleyhi və səlləm- bu həccində müsəlmanlarla vidalaşanda insanlar: "Bu, vida həccidir",-demişlər. Ona görə də, bu həcc Vida həcci adlandırılmışdır. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- isə bundan "Həccətül-İslam" adı ilə bəhs edərdi.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- bütün müsəlmanları Ərəbistanın başdan-başa müsəlman olduğu, İslamın əzəmət və hakimiyyətinin son dərəcə gücləndiyi, hicrətin onuncu ilinə uyğun gələn bu həccə dəvət etdi.

Allah və Rəsulunun sevgisi ilə dolub-daşan könüllər bu dəvəti qəbul etdi. Bu xəbər Mədinədən kənara yayılan kimi insanlar hər tərəfdən axın-axın gəldilər. Yolda onlara qoşulanların sayı-hesabı yox idi. Ətraf insanlarla dolu idi. Dörd bir yandan Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ilə həcc edə bilmək üçün gələn möminlərin sayı təqribən yüz iyirmi min idi. Onların hamısı tək bir ürək kimi xəyal edilməsi mümkün olmayan ülvi bir mənzərə nümayiş etdirirdilər.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu yolla da ümmətinə necə həcc etməyin zəruri olduğunu şəxsən göstərərək bütün vəzifələrini yerinə yetirəndən sonra Ərəfatda, bugünkü Nəmirə məscidinin olduğu yerdə, dəvəsinin üzərində məşhur "Vida xütbəsi"ni söylədi:

"Ey insanlar!

Sözlərimi diqqətlə dinləyin! Bilmirəm, bəlkə bu ildən sonra sizinlə burada bir daha əbədi olaraq bir yerdə olmayacağam!

Ey insanlar!

Bu günləriniz necə müqəddəs bir gündürsə, bu aylarınız necə müqəddəs bir aydırsa, bu şəhəriniz (Məkkə) necə mübarək bir şəhərdirsə, canlarınız, mallarınız, namuslarınız da eləcə müqəddəsdir. Bunlara qarşı hər cür təcavüz haramdır.

İPƏKYOLU NƏŞRİYYATI

Əshabım!

Sabah Rəbbinizə qovuşacaqsınız və bugünkü hər bir hal və hərəkətinizə görə, mütləq sorğu-sual ediləcəksiniz! Əsla, məndən sonra köhnə dəlalətlərə (azğınlıqlara) dönüb, bir-birinizin boynunu vurmayın! Xəbəriniz olsun ki, Mən öncədən gedib Hovuzun başında sizi gözləyəcəyəm! Başqa ümmətlərlə müqayisədə sizin çoxluluğunuzla sevinəcəyəm. Əsla, günah edərək üzümü qara etməyin!

Əshabım!

Kimin yanında bir əmanət varsa, onu sahibinə versin! Faizin hər növü ləğv edilmişdir, ayağımın altındadır. Ancaq borcunuzun miqdarını vermək zəruridir. Nə zülm edin, nə də zülmə məruz qalın! Allahın əmri ilə faizlə məşğul olmaq artıq qadağandır. Cahiliyə dövründən qalma bu çirkin adətin hər çeşidi ayağımın altındadır. İlk ləğv etdiyim faiz də Əbdülmüttəlibin oğlu (əmim) Abbasın faizidir.

Əshabım!

Cahiliyə dövründə olan qan davaları da tamamilə ləğv edilmişdir. Ləğv etdiyim ilk qan davası (babam) Əbdülmüttəlibin nəvəsi Rəbiyənin qan davasıdır.

Ey insanlar!

Bu gün şeytan sizin bu torpaqlarınızda yenidən hakimiyyət qurmaq gücünü və təsirini əbədi olaraq itirmişdir. Ancaq siz bu ləğv etdiyim şeylərdən başqa, kiçik hesab etdiyiniz şeylərdə ona qulaq assanız, bu onu sevindirəcəkdir. Dininizi qorumaq üçün bunlardan da çəkinin!

Ey insanlar!

Qadınların haqlarına əməl edin! Onlara şəfqət və sevgi ilə münasibət göstərin! Onlar haqqında Allahdan qorxmağınızı tövsiyə edirəm. Siz qadınları Allahın əmanəti olaraq aldınız. Onların namuslarını və həyalarını Allahın adına söz verərək halal etdiniz! Sizin qadınlar üzərində haqqınız, onların da sizin üzərinizdə haqları var. Sizin qadınlar üzərindəki haqqınız onların ailə şərəfini heç bir kimsənin ayağı altına atmamalarıdır. Qadınların da sizin üzərinizdəki haqları halal və qanuni yolla hər cür yeyəcək və geyəcəklərini təmin etməyinizdir. Bir qadının ərinin icazəsi olmadan onun malından hər hansı bir şeyi başqasına verməsi halal deyil!

İPƏKYOLU NƏŞRİYYATI

Kölələrinizə gəlincə isə onlara yediyinizdən yedirtməyə, geyindiyinizdən geyindirməyə diqqət göstərin! Bağışlaya bilməyəcəyiniz bir səhv etsələr, icazə verin! Ancaq onlara əsla əziyyət verməyin! Çünki onlar da Allahın qullarıdır.

Ey möminlər!

Sözümü diqqətlə dinləyin və yadınızda yaxşı saxlayın! Müsəlman müsəlmanın qardaşıdır, beləliklə, bütün müsəlmanlar qardaşdırlar. Din qardaşına aid olan hər hansı bir haqqa təcavüz halal deyil. Onlar özləri istəsələr, könül xoşluğu ilə verə bilərlər…

Haqsızlıq etməyin! Haqsızlığa da boyun əyməyin! Əhalinin haqlarını pozmayın!

Əshabım!

Özünüzə də zülm etməyin! Özünüzün də üzərinizdə haqqınız var.

Ey insanlar! Hər cani etdiyi cinayətə görə şəxsən məsuliyyət daşıyır. Heç bir caninin cinayətinin cəzasını övladı çəkə bilməz! Heç bir övladın cinayətinin məsuliyyəti də atasının üzərində deyil!

Ey insanlar!

Uca Allah hər bir haqq sahibinə haqqını (Quranda) vermişdir. Varisə vəsiyyət etməyə lüzum yoxdur. Uşaq kimin döşəyində doğulmuşdursa, ona aiddir. Zina edən üçün məhrumiyyət var. Atasından başqasına aid olduğunu iddia edən soysuz, ya da ağasından başqasına aid olduğunu iddia edən nankor kölə Allahın qəzəbinə, mələklərin və bütün müsəlmanların lənətinə düçar olsun! Uca Allah belə insanların nə tövbələrini, nə də ədalət və şahidliklərini qəbul edər.

Ey insanlar!

Rəbbiniz birdir. Atanız da birdir. Hamınız Adəmin uşaqlarısınız. Adəm isə torpaqdandır. Allah yanında ən qiymətli olanınız, Ona qarşı ən çox təqva sahibi olanınızdır. Ərəbin ərəb olmayandan təqva ölçüsündən başqa bir üstünlüyü yoxdur.

Ey insanlar!

Ardıcıl olaraq dönən zaman Allahın göyləri və yerləri yaratdığı gündəki vəziyyətinə qayıtmışdır. Bir il ay ölçüsü ilə on iki aydır. Bunlardan

dördü həram olan aylardır. Bunlardan üçü ardıcıl olaraq: Zilqədə, Zilhiccə və Məhərrəm, dördüncüsü də Rəcəbdir. Bu il həram ayları köhnə yerinə gəldi. Həcc mövsümü Zilhiccənin onuncu gününə düşdü.

Ey möminlər!

Sizə bir əmanət qoyub gedirəm. Ona sıx sarıldıqca yolunuzu heç vaxt çaşmazsınız. Bu əmanət Allahın kitabı olan Qurandır.

Ey insanlar!

Allaha ibadət edin! Beş vaxt namaz qılın! Ramazan orucunu tutun və əmrlərinə itaət edin! Ancaq belə etdiyiniz halda, Rəbbinizin cənnətinə girərsiniz.

Ey insanlar!

İfrat hərəkətlərdən çəkinin! Əvvəlkilərin məhv olmalarının səbəbi din məsələsində ifratçılığa yol verməleri ilə bağlı idi. Həcc əməlinin üsul və qaydasını məndən öyrənin! Bilmirəm, bəlkə, bu ildən sonra bir daha sizinlə burada görüşməyəcəyəm. Bu nəsihətlərimi burada olanlar olmayanlara çatdırsın! Ola bilər ki, bildirilən kimsə sözlərimi burada olub eşidəndən daha yaxşı anlayaraq qoruyar!"

Sözünün bu yerinə çatanda Allah Rəsulu -səllallahu əleyhi və səlləm- yüz mindən çox olan səhabəsindən soruşdu:

"- Ey insanlar! Sabah məni sizdən soruşacaqlar, nə deyəcəksiniz?

Bütün seçilmiş əshab:

- Allahın elçiliyini yerinə yetirdin, vəzifəni yerinə yetirdin, bizə vəsiyyət və nəsihət etdin, deyərək şahidlik edəcəyik.

Bu şahidlikdən sonra Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- dinin təbliği ilə bağlı:

- Əshabım! Təbliğ etdimmi? Təbliğ etdimmi? Təbliğ etdimmi?, -deyərək üç dəfə təsdiq cavabı eşitdi. Sonra əllərini səmaya qaldıraraq uca Allahın şahidliyini istədi:

*"Şahid ol, ey Rəbb! Şahid ol, ey Rəbb! Şahid ol, ey Rəbb!"*. (Müslüm, "Həcc", 147; Əbu Davud, "Mənasiq", 56; İbni-Macə, "Mənasiq", 76, 84; Əhməd, V, 30; İbni-Hişam, IV, 275; Həmidullah, "əl-Vəsaiq", s. 360)

*****

Vida xütbəsi bəşəri münasibətlərin tənzimi, dinin xülasəsi və eyni zamanda da bir insan haqları bəyannaməsidir. Belə ki, 1789-cu ildə baş vermiş böyük Fransa inqilabının ideoloqlarından biri olan filosof La Fayette məşhur "İnsan Haqları Bəyannaməsi" elan edilməmişdən öncə bütün hüquq sistemlərini araşdırmış və Peyğəmbərin -səllallahu əleyhi və səlləm- Vida xütbəsində elan etdiyi bütün dünyaya bir məşəl olacaq bu ədalət və insanlıq prinsiplərini öyrənəndən sonra:

"Ey şanlı Məhəmməd! Ədalət məsələsində elə bir zirvəyə yüksəlmisən ki, kimsənin bu günədək o səviyyəyə çatması mümkün olmamış və bundan sonra da olmayacaqdır!...",-demişdir.

**Bu gün dininizi tamamladım**

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- vəqfədə olarkən günəş batdığı zaman enən mübarək ayə ilə dinin tamamlanaraq kamala çatdığı bildirildi:

**"… Bu gün kafirlər dininizdən** (onu məhv edə bilmədikləri üçün) **əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun! Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim…"** (əl-Maidə, 3)

Həzrət Əbu Bəkir -radiyallahu anh- bu mübarək ayəni eşidən kimi yüksək anlayış qabiliyyəti ilə hər şeyi anladı. "Tamamlanan nemət"in mənasını dərindən başa düşdü. "Dinin kamala çatması"nın arxasınca gələcək olan hadisəni hiss etdi.

Bu ayə anlayış qabiliyyəti yüksək olan şəxslər üçün Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bir növ Allahın hüzuruna getmək xəbəri idi. Allah -cəllə cəlalühü-yaxın zamanda Peyğəmbərini, Dostunu əbədiyyət aləminə dəvət edəcəkdi. Əbu Bəkirin -radiyallahu anh- gözləri yaşla doldu. Hələ başqaları bir şey hiss etmədiyi vaxt o, ürəyinə düşən ayrılıq kədəri ilə için-için ağlamağa başladı.

Çünki iyirmi üç ildə enən müqəddəs əmanət qiyamətədək gələcək ümmətə bir rəhmət olaraq tamamlanmışdı.

*****

İPƏKYOLU NƏŞRİYYATI

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- Vida həccində Mina ilə Müzdəlifə arasındakı Bətni-Muhassirdən sürətlə keçdi. Əshabı heyrətlə:

"- Ey Allahın Rəsulu! Nə baş verdi ki, buradan sürətlə keçdiniz?, -deyə soruşdu.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

- *Uca Allah bu yerdə Əbabil quşlarını göndərərək Əbrəhənin fil ordusunu həlak etmişdi. O qəhrdən bir hissə bizə toxunmasın deyə addımlarımı sürətləndirdim..."*,-buyurdu. (Nəvəvi, "Şərhu Müslüm", XVIII, 111; Ibni-Qəyyum, II, 255-256)

Ona görə də, həcdə bu yerdə vəqfə (duruş yeri) yoxdur.

Rəhmət və qəhrin təcəllisi bəzən cansız aləmə də təsir edir. Buna görə də, rəhmətin təcəlli etdiyi Kəbə, məscidlər, salehlərin məclisləri kimi məkanlardan istifadə edilməlidir. Bunun əksinə, günah və üsyanın olduğu, başqa sözlə, qəhrin təcəlli etdiyi yerlərdən də qaçmaq zəruridir.

Cansızlar da təsir və əks təsir qanununa tabedir. Belə ki Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- üzərində xütbə oxuduğu xurma kötüyü o nurani hissiyat ilə dolmuş, Rəsulullah -səllallahu əleyhi və səlləm- başqa bir yerdə xütbə oxumağa başlayanda da için-için ağlamışdı. Bu hadisəni bizə çatdıran mübarək hədislər ağızdan-ağıza danışılaraq yayılmışdır.

Həzrət Mövlana bu məsələ ilə bağlı belə deyir:

"Hava, torpaq, su və od hamısı Allahın quludur və Ona itaət edərlər. Onlar sənə, mənə görə cansız, ancaq Allahın hüzurunda canlıdırlar".

*****

Rəsulullah -səllallahu əleyhi və səlləm- və müsəlmanlar "Vida təvafı"nı etdikdən sonra Mədineyi-Münəvvərəyə qayıtdı. (Buxari, "Həcc", 21, 70, 128; Müslüm, "Həcc", 147; İbni-Macə, "Mənasiq", 84)

Ancaq uca Allah nemətini tamamladığı və dinini başa çatdırdığı üçün artıq ən böyük ayrılıq və vüsalın vaxtı gəlmişdi.

İPƏKYOLU NƏŞRİYYATI

## HİCRƏTİN ON BİRİNCİ İLİ

### Vüsal və Böyük Vida: UCA DOSTA ÜLVİ YOLÇULUQ

Peyğəmbərlər silsiləsinin ilk və son həlqəsi Seyyüdül-Kövneyn, Rəsulus-Səkaleyn, İmamül-Hərameyn, Varlıq Nuru, Aləmlərə rəhmət həzrət Məhəmməd Mustafa -səllallahu əleyhi və səlləm- Vida həccindən sonra qızdırması olan bir xəstəliyə tutuldu. Bu xəstəlik Onun ümmətindən ayıracaq, ömrü boyu arzu etdiyi Uca Dostuna qovuşduracaq bir ölüm xəstəliyi idi. Onsuz da Nəsr surəsinin nüzulu ilə əcəlinin yaxınlaşdığını öyrənmiş olan Allah Rəsulu -səllallahu əleyhi və səlləm- artıq son yolçuluğa hazırlaşırdı. Ölülərlə də, dirilərlə də üstüörtülü bir şəkildə vidalaşırdı. Belə ki xəstələnməmişdən bir gün öncə Mədinənin "Cənnətül-Baqi" adlanan məzarlığına getmiş, ölülər üçün: "Ey böyük Allahım! Burada yatanlardan əfvini əsirgəmə!",- deyərək dua etmişdi. (Əhməd, III, 489)

Qəbirstanlıqdan dönəndən sonra minbərə çıxaraq əshabına sanki vida mahiyyətində olan bu xutbəni söyləmişdi:

**"Mən sizin Kövsər hövuzuna ilk çatanınız olacağam və sizi orada qarşılayacağam! Sizinlə görüş yerimiz Hovuzdur. Mən indi onu görürəm! Mən sizin haqqınızda şahidlik edəcəyəm! İndi mənə yerin xəzinələri və onların açarları verildi. Vallah, sizin məndən sonra müşrikliyə dönməyinizdən qorxmuram! Ancaq mən sizin dünya ehtirasına qapılacağınızdan və dünya malına görə bir-birinizi qısqanacağınızdan, bir-birinizi öldürəcəyinizdən və sizdən öncəkilərin yox olub getdikləri kimi sizin də yox olub gedəcəyinizdən qorxuram!.."** (Buxari, "Cənaiz", 73; Müslüm, "Fədail", 31)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- minbərdən endikdən sonra halsız oldu və səadət evinə çəkildi. Gün keçdikcə xəstəliyi daha da şiddətləndi. Xəstəliyi çox ağırlaşdı və nəzakət örnəyi olan Allah Rəsulu -səllallahu əleyhi və səlləm- xanımlarından icazə alaraq həzrət Aişənin evində yaşadı. (Buxari, "Tibb", 22; Əhməd, VI, 34, 38; Bəlazuri, I, 545)

Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- o anadək belə bir ağır xəstəliyi olmamışdı. Onun həyatı gözəl və təmiz bir həyat olduğundan heç bir xəstəliyə tutulmamışdı. Ancaq iyirmi üç il davam edən və adi insanın

gücünün çatmayacağı ülvi və əzəmətli bir peyğəmbərlik vəzifəsi Onu bir xeyli yormuş, çoxsaylı düşmənlərin etdiyi saysız-hesabsız pisliklər də Ona çox əziyyət vermişdi, bədənini zəiflətmişdi. Buna görə də, xəstəlik Ona təsir etmişdi.

Başqa yöndən də bu xəstəlik Onun üçün böyük bir məqama və yüksək dərəcələrə çatmaq üçün vasitə olacaqdı. Bu xəstəliyin yaranmasında Xeybərdəki zəhərlənmə hadisəsinin də təsiri böyük olmuşdu. Belə ki Allah Rəsulu -səllallahu əleyhi və səlləm- xəstəliyinin ağırlaşdığı bir zamanda Həzrət Aişə anamıza:

*"Ey Aişə! Xeybərdə dadmış olduğum zəhərli ətin acısını hər zaman hiss etdim. Indi qəlbimin damarının qopacağını hiss edirəm"*,- buyurmuşdu. (Buxari, "Məğazi", 83)

Ənəs bin Malik -radiyallahu anh- da demişdir:

"Rəsulullahın kiçik dili üzərində bu zəhərin izini və təsirini gördüm!..". (Müslüm, "Səlam", 45)

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- bu zəhərin təsiri ilə şəhid olaraq vəfat etmiş, peyğəmbərlik vəzifəsi ilə şərəfləndirən uca Allah ona bir də şəhidlik mərtəbəsini vermişdir. (İbni-Hişam, III, 390; Vaqidi, II, 678-679; Heysəmi, VI, 153)

*****

Rəsulullah -səllallahu əleyhi və səlləm- tutulduğu humma xəstəliyinin hərarətindən ocağın üstündə qaynayan suyun damlası kimi idi. Onun ziyarətinə gələn Əbu Səid əl-Hudri:

"- Ey Allahın Rəsulu! Hummanız çox şiddətlidir!,-deməkdən özünü saxlaya bilməmişdi.

Xəstə olduğundan son günlər camaatla görüşə bilmədi. Həzrət Əbu Bəkri -radiyallahu anh- camaata onun yerinə imamlıq etməsi üçün təyin etdi. Bir ara özünü bir az yaxşı hiss edərək məscidə getdi. Seçilmiş əshaba nəsihət etdi və:

"Şanı uca olan Allah bir qulunun dünya və onun bəzəyi ilə öz yanındakı nemətlər arasında seçim etməsini istədi. O qul da Allah yanındakıları seçdi!...",- buyurdu.

Bu sözlərdən sonra həssas və incə qəlbli Həzrət Əbu Bəkir -radiyal-

lahu anh- Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- onlara bir vida sözü söylədiyini hiss etdi. Böyük bir kədərə qapıldı. Ürəyi qəmgin oldu, gözlərindən yaş axmağa başladı. Hıçqıra-hıçqıra:

"Anam, atam Sənə fəda olsun, ey Rəsulullah! Sənə atalarımızı, analarımızı, canlarımızı, mallarımızı və övladlarımızı fəda edərik!..",- dedi. (Əhməd, III, 91)

Camaatın içində Ondan başqa heç kimsə Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- dərin hissiyatını qavraya bilməmiş, bu incəliyi hiss etməmişdir. Çünki mübarək ayədə göstərilən Sevrdəki "ikinin ikincisi" yalnız Əbu Bəkir -radiyallahu anh- idi.

Rəvayətə görə, Rəsulullah -səllallahu əleyhi və səlləm- onun haqqında:

"Qəlbimdə nə varsa, Əbu Bəkirə verdim!",-buyurmuşdur.

Səhəri gün Rəsulullahın -səllallahu əleyhi və səlləm- bu əziz dostunun ağladığını görəndə heyrətlə bir-birilərinə:

*"Rəsulullah -səllallahu əleyhi və səlləm- Rəbbinə qovuşmağa üstünlük verən saleh şəxsdən danışarkən bu qocanın ağlamasına təəccüb etmədinizmi?!"*,- dedilər. (Buxari, "Səlat", 80)

Ancaq həzrət Əbu Bəkrin həssas və incə qəlbi böyük vidanı sezmiş və ayrılıqdan şikayət edən bir ney kimi fəryada başlamışdı. Ancaq Rəsulullahın -səllallahu əleyhi və səlləm- xəstəliyi çox ciddiləşəndə başqa səhabələr də yaxınlaşmaqda olan böyük ayrılıq və vüsalı hiss edərək göz yaşı tökməyə başladılar. Mühacir və ənsar məclisləri matəmə büründü. Onun ətrafındakılar:

"Ey Rəsulullah! Şəfa üçün Allaha dua et!",-dedilər. Hər zaman sağlamlıq üçün dua edən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu dəfə dua etmədi.

Həzrət Aişə -radiyallahu anha-belə söyləyir:

"Rəsulullah -əleyhissəlatü vəssəlam- xəstələndiyi zaman Fələq və Nas surələrini oxuyub əllərinə üfürər və sonra əlini bədəninə sürtərdi. Xəstəliyinin şiddətləndiyi zaman mən də bu surələri oxuyub əllərimə üfürdüm və əlimi Onun mübarək bədəninə sürtməyə başladım. Rəsulullahın -səllallahu əleyhi və səlləm- əvvəllər xəstələndiyi zaman Cəbrailin Peyğəmbərə söylədiyi Allaha sığınma duasını da oxudum:

"Ey insanların Rəbbi! Bu xəstəliyi sağalt! Şəfa ancaq Sənin əlindədir. Səndən başqa şəfaverici yoxdur! Elə bir şəfa ver ki, heç bir xəstəlik qalmasın!"

Ancaq bunu eşidən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- mübarək başını çevirərək:

"Üzərimdən əlini götür! Bu dua oxumağın artıq mənə bir fayda verməz! Mən vaxtımı gözləyirəm…",-buyurdu. (Əhməd, VI, 260-261; İbni-Sad, II, 210)

Həzrət Aişə anamız sözünə belə davam edir:

"Rəsulullah -səllallahu əleyhi və səlləm- möhtərəm qızı, dərin və incə ruhlu Fatiməni çağırtdırdı. O gələndə "Salam, qızım", buyurduqdan və yanında oturtduqdan sonra ona gizlicə bir şey söylədi. Fatimə ağladı. Sonra yenə ona gizlicə bir şey söylədi. Bu dəfə isə Fatimə sevinərək güldü.

Mən gülüşün ağlamağa, sevincin kədərə bu dərəcədə yaxın olduğunu ogünkü kimi hiss etməmişdim. Fatimədən ağlamağının və gülüşünün səbəbini soruşdum:

*"Peyğəmbər -səllallahu əleyhi və səlləm- bu xəstəliyin nəticəsində vəfat edəcəyini xəbər verdi. Mən ağladım. Sonra mənim ailə üzvləri arasından ona qovuşacaq ilk şəxs olacağımı söylədi. Mən də sevindim"*,-dedi. (Buxari, "Məğazi", 83)

Xəstəlik zamanı Allah Rəsulu -səllallahu əleyhi və səlləm- özünü bir az yaxşı hiss edən kimi camaata bir neçə dəfə namaz qıldırdı. Bir dəfə namaz qıldırandan sonra könüllərini Peyğəmbərlərinin Allaha qovuşacağı duyğusu ilə kədər və matəm bürüyən seçilmiş əshaba belə buyurdu:

"Ey insanlar!

Eşitdim ki, sizlər Peyğəmbərinizin vəfat edəcəyindən qorxursunuz! Məndən əvvəl göndərilib ümməti içərisində daimi olaraq qalmış bir Peyğəmbər varmı ki, mən də sizin aranızda daimi olaraq qalım? Yaxşı bilin ki, mən Rəbbimə qovuşacağam! Ona siz də qovuşacaqsınız! Sözsüz, bütün işlər uca Allahın icazəsi ilə baş verir.

Yaxşı bilin ki, mən sizdən öncə gedəcək və sizi gözləyəcəyəm! Diqqətli olun, sabah axirətdə sizinlə görüş yerimiz Kövsər hovuzunun başıdır. Sabah mənimlə görüşmək istəyən əlini və dilini günahdan qorusun! Ey insanlar! Günah nemətlərin dəyişdirilməsinə səbəb olur. Xalq yaxşı olanda

İPƏKYOLU NƏŞRİYYATI

idarəçilər də yaxşı olur. Xalq pis olduğu zaman isə idarəçilər də pis olur. Varlığım qüdrət əlində olan Allaha and içirəm ki, mən indi Hovuzumun üzərində durur, bu durduğum yerdən Hovuzuma baxıram…"

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bu sözlərini deyərkən hıçqıraraq ağlayan Əbu Bəkrə -radiyallahu anh- baxdı və:

"Ey Əbu Bəkir! Ağlama!..",-buyuraraq davam etdi:

*"Ey insanlar! İnsanların içərisində canı, malı və dostluğu ilə mənə münasibətdə Əbu Bəkirdən daha fədakar və səxavətli olan bir kimsə yoxdur! Əgər Rəbbimdən başqa, insanların arasından bir dost seçmiş olsaydım, şübhəsiz, Əbu Bəkri dost seçərdim…*

*Məscidə açılan bu qapıları bağlayın! Yalnız Əbu Bəkrin qapısı açıq qalsın! Mən Əbu Bəkrin qapısının üzərində bir nur görürəm".* (Buxari, "Səlat", 80; İbni-Sad, II, 227)

"Əshabım!

Mən də bir insanam. Aranızda olan bəzi şəxslərin mənim üzərimdə haqqı ola bilər. Mən hansı şəxsin bədəninə toxunmuşamsa, buyursun, bu mənim bədənim! Gəlsin, o da toxunsun, haqqını alsın! Kimin kürəyinə vurmuşamsa, bu mənim kürəyim! Gəlsin, vursun! Kimin malından səhvən almışamsa, bu mənim malım! O da gəlsin alsın!

Ey Allahım! Mən ancaq bir insanam! Müsəlmanlardan hansı bir şəxsə ağır bir söz söyləmiş, ya vurmuş, ya da lənət etmişəmsə, Sən bunu onun haqqında bir təmizlik, savab və rəhmət vasitəsinə çevir!" (Əhməd, III, 400)

*"Allahım! Hansı möminə ağır bir söz söyləmişəmsə, Sən sözümü qiyamət günündə o mömin üçün Sənə yaxın olmaq vasitəsinə çevir!"* (Buxari, "Dəavat", 34; Darimi, "Müqəddimə", 14; İbni-Sad, II, 255; Təbəri, "Tarix", III, 191; Hələbi, 463-464)

Beləliklə, Allah Rəsulu-səllallahu əleyhi və səlləm-sanki hamı ilə halallaşırdı. Bu sözlərdən sonra yorğun bir şəkildə yenidən evinə qayıtdı. Bir daha namaz qılmağa gedə bilmədi. Ancaq bircə dəfə özünü bir az yüngül hiss etdi və həzrət Əbu Bəkrin arxasında namaz qıldı.

Nəhayət, son olaraq Rəbül-Əvvəl ayının 12-də, bazar ertəsi sübh çağı yenə özündə bir az yüngüllük hiss etdi. Ancaq camaatın yanına getməyə gücü çatmadı. Bundan sonra evinin qapısının pərdəsini qaldırdı və bu zaman həzrət Əbu Bəkrin imamlığı ilə sübh namazı qılan sevimli əshabını

İPƏKYOLU NƏŞRİYYATI

son dəfə seyr etdi. Onları yan-yana birgə namaz qılarkən görməkdən məmnun qalaraq sevinc içində gülümsədi. Bir yandan şiddətli xəstəliyin acısını hiss edirdi, başqa yöndən də arxada səhabələrdən ibarət bir camaat qoyub getməyin və Allah tərəfindən verilən vəzifənin sevincini yaşayırdı. (Buxari, "Məğazi", 83, "Azan", 46, 94; Müslüm, "Səlat", 98; Nəsai, "Cənaiz", 7)

Bu hadisəni danışan Həzrət Aişə anamız deyir:

"Rəsulullah-səllallahu əleyhi və səlləm-əshabının namaz qılmasına gülümsəyərək baxırdı. Allah Rəsulunu heç bir zaman belə sevincli bir halda görməmişdim". (İbni-Hişam, IV, 331)

O gün Allah Rəsulu-səllallahu əleyhi və səlləm- Aişənin-radiyallahu anha- yanında olan altı-yeddi dinarı yoxsullara paylamağı əmr etdi. Bir müddət sonra da dinarların necə olduğunu soruşdu. Həzrət Aişənin onun xəstəliyi ilə bağlı olaraq narahatlıq keçirtdiyinə görə, dinarları paylamağı unutmuş olduğunu öyrənəndə onları gətirdib ovcunun içinə qoydu. Sonra:

"Allahın Peyğəmbəri Məhəmməd bunları yoxsullara paylatdırmadığı, yanında saxlatdırdığı halda, Rəbbinə qovuşmağı doğru saymayacaq!..",- sözlərinin ardından onların hamısını ənsar yoxsullarından beş evin ailəsinə paylatdırdı:

"İndi rahat oldum!..",- buyuraraq bir yüngül yuxuya getdi. (Əhməd, VI, 104; İbni-Sad, II, 237-238)

Budur, ardı-arxası kəsilməyən bir infaq…

O gün Allah Rəsulu-səllallahu əleyhi və səlləm-Əhli-Beytinə belə söylədi:

"Ey insanlar! Atəş alovlandı. (Diqqətli olun), qaranlıq gecə kimi fitnələr gəlir!.. (Sanki gələcək hadisələri gözlər önündə canlandırırdı). Mən, ancaq Allahın Kitabı olan Quranın halal etdiyini halal, onun haram etdiyini də haram saydım!

Ey Rəsulullah Məhəmmədin qızı Fatimə! Ey Safiyyə! Allah yanında qəbul olunan əməlləriniz olsun! (Saleh əməlləriniz yoxdursa, mənə arxayın olmayın) Çünki mən (qulluq etmədiyiniz təqdirdə) sizi Allahın əzabından xilas edə bilmərəm!". (İbni-Sad, II, 256; Buxari, "Mənaqib", 13-14; Müslüm, "İman", 348-353)

O gün Allah Rəsulu-səllallahu əleyhi və səlləm-buyurdu:

İPƏKYOLU NƏŞRİYYATI

"Aman! Namaza! Namaz qılmağa davam edin! Aman! Əllərinizin altında işləyən insanlara yaxşı münasibət göstərin! Onlarla bağlı Allahdan qorxun! (Onları geyindirin, qarınlarını doydurun! Onlara yumşaq söz söyləyin!)". (Əbu Davud, "Ədəb", 123-124/5156; İbni-Macə, "Vəsayə", 1)

O gün Allah Rəsulu-səllallahu əleyhi və səlləm-böyük bir həvəslə misvaqdan istifadə etdi.

Həzrət Aişə anamız buyurur:

"Rəsulullah dişlərini misvaqla təmizləyərkən sanki Onun əvvəllər misvaqdan bu qədər gözəl istifadə etdiyini görməmişdim!". (Buxari, "Məğazi", 83; İbni-Sad, II, 261)

Allah Rəsulunun-səllallahu əleyhi və səlləm-yanında kiçik bir su qabı var idi. Peyğəmbərimiz-səllallahu əleyhi və səlləm-tez-tez əllərini bu qabın içindəki suya batırıb üzünə sürtürdü və:

*"La ilahə illəllah, şübhəsiz, ölümün ağlı başdan çıxaran şiddəti və əzabı var!"*,- buyururdu. (Buxari, "Məğazi", 83)

O gün Allah Rəsulu-səllallahu əleyhi və səlləm-uca Allaha belə dua etdi:

*"Ey Allahım! Məni mərhəmətinlə əhatə et! Məni uca Dosta qovuşdur! Ey Allahım! Məni mərhəmətinlə əhatə et! Mənə rəhmətini ehsan et! Məni uca Dosta qovuşdur!"*. (Buxari, "Məğazi", 83; Əhməd, VI, 126)

O gün Allah Rəsulu-səllallahu əleyhi və səlləm-qızı Fatiməyə təsəlli verdi:

"Ey qızım! Əsla, ağlama! Mən ölən zaman:

"innə lilləhi və innə ileyhi raciun" de!" (İbni-Sad, II, 312)

O gün Allah Rəsulu-səllallahu əleyhi və səlləm-Uhud müharibəsinin ən çətin anlarında "Rəsulullah öldü" şayiəsi ilə dağılmağa başlayan əshabını xəbərdar etmək məqsədi ilə Onun özü ilə bağlı nazil olmuş bu mübarək ayəni oxudu:

**"Məhəmməd ancaq bir Peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz?** (Dininizdən dönəcək və ya döyüşdən qaçacaqsınız?) **Halbuki, geri dönən kəs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükür edənlərə mükafat verər".** (Ali-İmran, 144)

İPƏKYOLU NƏŞRİYYATI

O gün Allah Rəsulunun-səllallahu əleyhi və səlləm-yanına vəhy mələyi Cəbrail –əleyhissəlam-gələrək:

"Sənə salam olsun, ey Allahın Rəsulu! Bu gəliş Sənin üçün yer üzünə gəlişimin sonuncusudur!,-dedi". (İbni-Sad, II, 259)

O gün Allah Rəsulu -səllallahu əleyhi və səlləm- daha öncə buyurduğu:

*"Heç bir Peyğəmbərin ruhu cənnətdəki yerini görmədikcə alınmaz! Sonra yerinə getməsi öz arzusu ilə olar!"*,-sözlərinin təcəllisi baş verdi. (Buxari, "Məğazi", 83, 84; Əhməd, VI, 89)

O gün Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yanına Əzrail-əleyhissəlam-gəldi və onun yanına girmək üçün icazə istədi. İcazə aldıqdan sonra Peyğəmbərin qarşısında duraraq:

"Ey Rəsulullah! Ey Əhməd! Uca Allah məni Sənin yanına göndərdi. Sənin hər bir əmrinə itaət etməyimi əmr buyurdu. Əgər Sən arzu etsən, ruhunu alacağam! Arzu etməsən, ruhunu Səndə saxlayacağam!",-dedi.

Bu zaman onların yanında olan Cəbrail də -əleyhissəlam-:

"Ey Allahın Rəsulu! Uca Allah sənin üçün darıxır!",-dedi. O gün Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ondan icazə istəyən ölüm mələyinə:

"Ey Əzrail! Allah yanında olan daha xeyirli və daha davamlıdır! Ey ölüm mələyi! Tez ol, əmr olunduğun şeyi yerinə yetir, ruhumu al!",-buyurdu. (İbni-Sad, II, 259; Heysəmi, IX, 34-35; Bəlazuri, I, 565)

Bundan sonra Peyğəmbər -səllallahu əleyhi və səlləm- mübarək əllərini yanındakı su qabına batırıb isladaraq üzünə sürtdü və ilahi həsrətlə dolu həyatının vüsal qapısından keçərkən tövhid kəlməsini tərənnüm edərək:

"Ey Allahım! Uca Dost, Uca Dost!",-deyə-deyə mübarək ruhunu təslim etdi. Üzünü islatdığı mübarək əli yanındakı su qabının içinə düşdü!.. (Buxari, "Məğazi", 83)

Uzun illər bundan öncə nazil olan:

"(Ey Peyğəmbər!) **Şübhəsiz, sən də öləcəksən, onlar da öləcək!"** (əz-Zumər, 30) mübarək ayəsi təcəlli etdi.

Ey Allahım! Məhəmməd Mustafaya -səllallahu əleyhi və səlləm-,

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

ailəsinə və əshabına səlat et. Onların hamısını mübarək et və onlara salam eylə!.. Bu, daimi bir səlat və salam olsun!..

*****

Allah Rəsulu-səllallahu əleyhi və səlləm- Mədinəyə qayıtmasından sonra on üç gün davam edən ağır xəstəliyi nəticəsində 632-ci miladi ilinin iyun ayının 8-də, hicri 11-ci ilin rəbiül-əvvəl ayının 12-də, bazar ertəsi günü artıq vəfat etmiş, Ona camal üfüqləri açılmış, O uca Həbib uca Dostuna, yəni ən böyük Dost olan uca Allaha qovuşmuşdu.

Seçilmiş əshab bunu hiss edirdi ki, doğub-batan günəşin heç dəyişməyən işığında gizli bir şey solur. Belə ki o gündən sonra Peyğəmbərin müəzzini Bilal Həbəşi -radiyallahu anh- o səmaları dolduran gözəl səsi ilə bir daha əzan oxumadı. Nə vaxt əshab israr edib Həzrət Bilalın əzan oxumasını istədisə, mehrabda Allah Rəsulunu görməyən Bilal Həbəşinin hıçqırıqlarla boğazı tutuldu, səsi kəsildi, yenə əzan oxuya bilmədi. İçini qovuran eşq atəşini söndürə bilmək üçün Mədinədən uzaqlaşdı, Şama getdi. Bir gün yuxusunda Rəsulullahı -səllallahu əleyhi və səlləm- gördü. Peyğəmbərimiz:

"Bu ayrılıq nədir, ey Bilal? Məni ziyarət etmək vaxtı çatmadımı?",- deyə onu tənqid etdi.

Bundan sonra Bilal -radiyallahu anh-kədərlənərək oyandı və tez yola çıxdı. Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- mübarək qəbrini ziyarət etmək üçün Mədinəyə gəldi. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- hüzurunda ağlayıb üz-gözünü qəbrinə sürtdüyü vaxt Həzrət Həsən ilə həzrət Hüseyn gəldilər. Bilal -radiyallahu anh- onları bağrına basıb öpməyə başladı. Onların:

"Ey Bilal! Sənin əzanını eşitməyi çox istəyirik!",-deyə israr etdilər. Həzrət Bilal əzan oxumağa başladı. O zaman Mədinə sarsıldı. "Əşhədü ənnə Məhəmmədər –Rəsulullah",- deyəndə qadın-kişi bütün insanlar Allah Rəsulunun dirildiyini zənn edərək Məscidi-Nəbəvinin yollarına töküldülər. Rəsulullahın -səllallahu əleyhi və səlləm- vəfatından sonra Mədinədə insanların bu qədər çox ağladığı bir günü heç kim görməmişdi. (İbni-Əsir, "Üsdül-Qabə", I, 244-245; Zəhəbi, "Siyər", I, 357-358)

Onun iki çiyin sümüyü arasında Peyğəmbərliyi ilə bağlı ilahi bir nişan var idi. Bir çox səhabə bu nişanı öpmək eşqi və həsrəti ilə alışıb-yanırdı. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- əbədi aləmə köçərkən mü-

barək üzündə heç bir dəyişiklik hiss olunmadığı üçün seçilmiş əshab Onun axirətə köçməsi məsələsində şübhəyə düşdülər. Bundan sonra Peyğəmbərimizin yaxınlarından Əsma binti-Ümeys -radiyallahu anha-kürəyindəki mübarək peyğəmbərlik möhrünü axtardı. O, möhrün yox olduğunu gördü. Əmin oldu ki, Peyğəmbər -səllallahu əleyhi və səlləm- axirət aləmini şərəfləndirmişdir.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- vəfat edəndə nə dinar, nə dirhəm, nə də bir kölə qoyub getdi. Yalnız mindiyi ağ qatırı, silahı və yolçular üçün vəqf etdiyi (Fədək və Xeybərdəki) ərazisi qaldı.

Rəsulullah -səllallahu əleyhi və səlləm- bazar ertəsi günü vəfat etdi və ikinci gün dəfn edildi. İnsanlar namazını (camaat halında deyil) tək-tək qıldı, heç kimsə imamlıq etmədi. Bir qismi: "Minbərin yanında dəfn edilsin",-dedi. Bəziləri: "Baqi" məzarlığında dəfn edilsin",-dedi. Həzrət Əbu Bəkir -radiyallahu anh- gəldi və Rəsulullahın -əleyhissəlatü vəssəlam-:

"Hər Peyğəmbər öldüyü yerdə dəfn edilir",-buyurduğunu eşitdiyini söylədi. Bundan sonra orada məzar qazıldı.

Din tamamlanmış, səhabə Onun dini təbliğ etdiyini şəxsən təsdiq etmiş və uca Allaha bu məsələ ilə bağlı onların şahidliyi ərz olunmuşdu. Bundan sonra Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- əbədiyyət aləminə çağrılmışdı. İndi O, məşhərdə, siratda, Kövsər hovuzunun başında ümmətini gözləyir.

Şəfaət, ya Rəsulallah!

Mədət, ya Rəsulallah!

Yetiş, ya Rəsulallah!..

*****

Rəbiül-əvvəl ayının 12-si, bazar ertəsi günü doğulub dünyanı şərəfləndirmişdi. Rəbiül-əvvəl ayının 12-si bazar ertəsi günü uca Allah tərəfindən Ona peyğəmbərlik vəzifəsi verilmişdi. Həzrət Əbu Katadə belə rəvayət edir:

Yenə bir rəbiül-əvvəl ayının 12-də, bazar ertəsi səhər Mədinəyə girərək yeni qurulan və qiyamətədək davam edəcək İslam dövlətinin təməlini qoymuşdu. Nəhayət, rəbiül-əvvəl ayının 12-də, bazar ertəsi günü də axirət aləminə köçdü. İndi O, axirət aləmində şəfqətlə şəfaət üçün ümmətini gözləyir.

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm-dünyadan səadət aləminə köçməsi ilə Ondan məhrum olan dünyanın vəfasızlığını həzrət Əziz Mahmud Hüdayi bu misraları ilə təsvir edir:

Kim umar səndən vəfanı,

Yalan dünya deyilmisən?

Muhammədül-Mustafanı

Alan dünya deyilmisən?

Uca Allah:

**"Məhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o, ölsə, ya da öldürülsə, siz geri dönəcəksinizmi?** (Dininizdən dönəcək, ya da döyüşdən qaçacaqsınız?) **Halbuki, geri dönən kəs Allaha heç bir zərər yetirməz. Ancaq Allah şükür edənlərə mükafat verər"** (Ali-İmran, 144) buyurmuşdur.

İnsanlar bu ayəni eşidən kimi artıq Peyğəmbərin -səllallahu əleyhi və səlləm- vəfat etdiyinə qəti olaraq inandılar. Onlar elə çaşmışdılar ki, Əbu Bəkir -radiyallahu anh- bu ayəni oxuyanadək sanki onun nazil olduğunu bilmirdilər.

Həzrət Ömər -radiyallahu anh- deyir:

"Vallah, o günədək bu ayəni sanki heç eşitməmişdim! Onu Əbu Bəkirdən eşidəndə dəhşətə gəldim. Ayaqlarımın üstündə dura bilmirdim. Dizlərim titrədi və durduğum yerə yıxıldım". (İbni-Sad, II, 266-272; Buxari, "Məğazi", 83; Heysəmi, IX, 32; Əbdürrəzzaq, V, 436)

Həzrət Ömər, həzrət Əbu Bəkrin çıxışından sonra Rəsulullahın -səllallahu əleyhi və səlləm- üzərinə əyilib alnından öpdü. Ağlayaraq ona belə müraciət etdi:

"Atam, anam Sənə fəda olsun, ya Rəsulallah!" deyərək hönkürməyə başladı.

Bütün müsəlmanların Allah Rəsulunu -səllallahu əleyhi və səlləm- dünyadakı hər kəsdən və hər şeydən daha çox sevmələri, Onun əmr və qadağalarını öz arzularından üstün tutmaları və Onun bütün söz və əməllərinə tabe olmaları dini bir vəzifədir.

İPƏKYOLU NƏŞRİYYATI

**Ən gözəl örnək**

Yaradılmışlar içində Allahın ilahi adlarının hamısından pay almaq şərəfi ancaq insana bəxş edilmişdir. Bununla birlikdə, uca Allah ilahi imtahan üçün insanı üsyankarlıq və təqva ilə təchiz etmiş, onu həm xeyir işlər, həm də şər işlər görməyə uyğun olan bir keyfiyyətdə yaratmışdır.

Bu baxımdan dinin məqsədi belə zidd keyfiyyətlərlə yaradılan insandakı nəfsani mənfilikləri yox sayılacaq dərəcədə azaltmaq, buna qarşılıq nurani vəsfləri də ən yüksək səviyyəyə çatdırmaqdır. Ancaq bu məqsədin gerçəkləşdirilməsi üçün insanın ən gözəl bir örnəyə ehtiyacı var. Peyğəmbərlərin göndərilməsindəki hikmətlərdən biri də onların insanlar üçün tabe olacaqları mükəmməl bir nümunəvi şəxsiyyət olmalarıdır. Uca Allah buyurur:

**"Biz hər bir peyğəmbəri ancaq ona Allahın izni ilə itaət olunsun deyə göndərdik…".** (ən-Nisa, 64)

Bu keyfiyyət Allah Rəsulunda -səllallahu əleyhi və səlləm- ən yüksək səviyyədə olmuş və buna görə də, uca Allah mübarək ayədə belə buyurmuşdur:

**"Həqiqətən, Allah Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər** (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"** (əl-Əhzab, 21)

Həyatının hər bir anı ən incə detalınadək təsbit olunan tək Peyğəmbər və tək insan Həzrət Məhəmməd Mustafadır. Onun bütün əməlləri, söz və duyğuları anbaan qeyd edilərək tarixdə bir şərəf lövhəsi kimi qalmışdır. Onun həyatı qiyamətədək gələcək nəsillərə örnəkdir. Qurani-Kərimin Qələm surəsində Onunla bağlı belə buyurulur:

وَاِنَّكَ لَعَلٰى خُلُقٍ عَظِيمٍ

**"Şübhəsiz, sən böyük bir əxlaq üzərindəsən".** (əl-Qələm, 4)

Rəsulullahın -səllallahu əleyhi və səlləm- xarakteri və mübarək şəxsiyyəti ancaq bəşəri idrakın dərk edə biləcəyi təzahürləri ilə belə, bəşəri davranışlar sisteminin əlçatmaz zirvəsidir. Çünki Allah -cəllə cəlalühü- o mübarək varlığı bütün insanlığa ən gözəl örnək olaraq ərmağan etmişdir. Buna görə də, onu insan cəmiyyəti içində ən aciz təbəqə sayılan "yetim uşaq" səviyyəsindən başlayaraq həyatın bütün mərhələlərindən keçirib, qüdrət və səlahiyyət baxımından ən uca nöqtəyə, yəni peyğəmbərlik və dövlət başçılığınadək yüksəltmişdir. Bu da onunla bağlıdır ki, bəşəri mərhələlərin hər hansı birində olanlar Ondan özləri üçün ən mükəmməl

İPƏKYOLU NƏŞRİYYATI

əməli davranışları örnək götürüb öz iqtidar və istedadları ölçüsündə gerçəkləşdirməyə meyl edə bilsinlər. Bu da ona olan sevgi və onun ruhaniyyətinə bürünə bilmək ölçüsündə gerçəkləşə bilər.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- din liderliyi ilə örnəkdir, dövlət başçısı olmaqla örnəkdir, ilahi məhəbbət bağına girənlərə örnəkdir, Rəbin nemətlərinə qərq olduğu zamanlar şükür və təvazökarlıqda örnəkdir.

O, çətin zamanlar və məkanlardakı səbir və təslimiyyəti ilə örnəkdir. Qənimət qarşısında səxavətliliyi və gözütoxluğu ilə örnəkdir. Ailəsinə şəfqəti ilə örnəkdir. Zəiflərə, kimsəsizlərə, kölələrə mərhəməti ilə örnəkdir. Günahkarları əfv etməsi, onlara dözümlü yanaşması ilə örnəkdir.

Əgər sərvət sahibi olan zəngin bir insansansa, bütün Ərəbistana hakim olan, bütün ərəb böyüklərini məhəbbətlə özünə ram edən O uca Peyğəmbərin təvazökarlıq və səxavətini düşün!

Əgər zəif bir insansansa, Məkkədə zalım və amansız müşriklərin idarəçiliyi altında yaşayan Peyğəmbərin həyatından örnək al!

Əgər qalib bir fatehsənsə, Bədir və Huneyndə düşməninə qələbə çalan, cəsarət və təslimiyyət Peyğəmbərinin həyatından ibrət al!

Allah göstərməsin, əgər məğlubiyyətə uğramısansa, o zaman da Uhud müharibəsində şəhid olan, ya da yaralanıb yerə yıxılan əshabı arasında şücaət və cəsarətlə gəzən, Allaha təvəkkül edən Peyğəmbəri xatırla!

Əgər müəllimsənsə, məsciddə Suffə əshabının qəlbinə incə, zərif və həssas könlünün feyzlərini axıdaraq ilahi əmrləri təlim edən Peyğəmbəri düşün!

Əgər tələbəsənsə, Ona vəhy gətirən Cəbraili-Əminin qarşısında oturan Peyğəmbəri düşün!

Əgər öyüd verən bir vaiz və özünə arxayın bir mürşidsənsə, Məscidi-Nəbəvinin içində əshabına hikmət öyrədən Peyğəmbəri dinlə! Onun gözəl səsini eşit və könül ver!

Əgər haqqı ucaltmaq, onu qorumaq və təbliğ etmək istəyirsənsə, bu məsələdə səni müdafiə edən bir köməkçin yoxdursa, Məkkədə hər cür yardımdan məhrum olduğu halda, zalımlara haqqı bəyan edib, onları doğru yola dəvət edən Peyğəmbərin həyatına bax!

Düşmənə qələbə çalıb, onun belini qırdınsa, qarşındakının inadını qəhr edib, ona üstün gəldinsə, batili pərişan edib, haqqı elan etdinsə, Məkkənin fəthi günü müqəddəs şəhərə qalib bir sərkərdə olduğu halda, böyük

bir təvazökarlıqla, dəvəsi üzərində səcdə edərcəsinə əyilərək girən, şükür duyğuları içində yaşayan Peyğəmbəri gözünün önünə gətir!

Əgər əkin sahəsi olan bir insansansa, oradakı işlərini yoluna qoymaq istəyirsənsə, Bəni-Nadr, Xeybər və Fədək ərazisinə malik olduqdan sonra bu əraziləri islah və ən yaxşı şəkildə idarə edəcək şəxsləri vəzifəyə təyin edən Peyğəmbərdən örnək al!

Əgər kimsəsizsənsə, Abdullah və Əminənin yetimi, ciyərparası olan məsumu, nurlu Yetimi düşün!

Əgər həddi-buluğa çatmış gəncsənsə, Məkkədə çobanlıq edərək Peyğəmbərliyə namizəd olan gəncin gözəl həyatına bax!

Əgər ruhi gücü çox olan bir yuva qurmaq istəyən gəncsənsə, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- ailə həyatına və tövsiyələrinə diqqət yetir. Təqvaya üstünlük ver ki, iki cahan səadətinə qovuşa biləsən!

Əgər ticarət karvanları ilə yola çıxan bir tacirsənsə, Suriyadan Busraya gedən karvanın ən böyüyü olan şəxsin əhvalını düşün!

Əgər qazı və hakimsənsə, Məkkənin böyükləri bir-birinə hücum edib vuruşacağı zaman Həcəri-Əsvədi Kəbədəki yerinə qoymaq məsələsində Onun ədalətli və ağıllı davranışını düşün!

Bir daha tarixə yönələrək Mədinədə, Məscidi-Nəbəvidə oturub yoxsulluq içində yaşayan bir kasıbla, var-dövləti olan bir zənginə eyni münasibət göstərərək insanlar arasında ədalətli hökm verən O Peyğəmbərə bax!

Əgər bir ailə başçısısansa, Həzrət Xədicənin və həzrət Aişənin əri olan O mübarək şəxsin təmiz xarakterinə, dərin hissiyatına və şəfqətinə, bütün xanımları arasında ədalətlə hökm verməsinə diqqət yetir!

Əgər uşaq atasısansa, Fatimətüz-Zəhranın atası və Həzrət Həsən ilə Hüseynin babası olan bu şəxsin onlara qarşı davranışlarını öyrən!

Sən kim olursansa-ol, hansı əhval-ruhiyyə içində yaşayırsansa-yaşa, səhər-axşam, hər vaxt və hər an Həzrət Məhəmməd Mustafanı -səllallahu əleyhi və səlləm- özün üçün ən mükəmməl mürşid və ən gözəl bir rəhbər olaraq görə bilərsən…

O elə bir mürşiddir ki, Onun sünnələri vasitəsi ilə bütün yanlış olan şeyləri düzəldə bilərsən… Cığırından çıxan işlərini yoluna qoyar, əyri-əksiyini islah edərsən…

Onun nuru və rəhbərliyi ilə həyatın çətinliklərindən xilas olub gerçək xoşbəxtliyi tapa bilərsən!...

İPƏKYOLU NƏŞRİYYATI

Əgər özünü maddiyyatçılığa ram olmaqdan qurtarıb, ruhani bir həyat yaşamaq istəyirsənsə, O, mübarək Peyğəmbərin yetişdirmiş olduğu Bilal, Yasir və Səvbanları tap! Onlarla birgə və sədaqətli ol ki, həssas, incə, zərif və duyğulu bir könülə sahib olasan. Unutma ki, cahiliyə insanları Allah Rəsu-lunun -səllallahu əleyhi və səlləm- yardımı ilə hidayətə qovuşub Onun ətrafında pərvanə olduqları üçün sadiq insanlara çevrildilər. Əshabi-Kəhfin Kitmiri belə, sadiqlərin məhəbbətindən pay aldığı üçün böyük bir lütf qazanmışdı. Bunun əksinə olaraq, Həzrət Lutun arvadı və Həzrət Nuhun oğlu Kənan fasiq və zalımlarla oturub durduqlarına görə, Allah onları qəhr etdi. Onlar və onlar kimi olanlar nəfsin girdablarında boğularaq zalımlar topluluğu ilə birlikdə həlak oldular.

Ona görə də, ömür təqvimini Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- sadiq və saleh aşiqləri olan zikr əhli ilə bərabər olaraq tərtib et ki, qafillərdən olmayasan!

Bil ki, Onun xarakteri nadir, zərif və müşk ətirli güllərlə bəzənmiş bir gülüstan idi.

Onun ruhu müstəsna olduğu kimi, bədən quruluşu da gözəl və misilsiz idi. Onun bu ülvi dəyərlərinə görə uca Allah buyurur:

**"Ey iman gətirənlər!** (Sözləriniz, iş və hərəkətlərinizdə) **Allahdan və Peyğəmbərindən önə keçməyin. Allahdan qorxun. Həqiqətən, Allah** (hər şeyi) **eşidəndir,** (hər şeyi) **biləndir! Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən əməlləriniz puç olar".** (əl-Hucurat, 1-2)

Bu mübarək ayələr bütün möminləri Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- qarşı ədəbli olmağa dəvət edir.

Qurani-Kərimdə başqa peyğəmbərlərə adları ilə müraciət edildiyi halda Həzrət Peyğəmbərə "Ey Məhəmməd!",-deyə bir müraciət şəkli yoxdur. Ona "Ey Nəbi", "Ey Rəsul" şəklində müraciət edilmişdir. Uca Allah bütün möminlərin də bu ədəbə riayət etməsi üçün buyurur:

**"Peyğəmbəri çağırmağı öz aranızda bir-birinizi çağırmanızla eyni tutmayın…".** (ən-Nur, 63)

Bu mübarək ayə Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yalnız adı ilə çağırılmasının ümmətin tərbiyəsinə uyğun olmadığını bildirir. Onun adı ilə birgə, ülvi və müqəddəs vəsflərinin deyilməsinin də zəruri olduğunu bəyan edir. Başqa sözlə Allah Rəsulu -səllallahu əleyhi və səlləm- Nəbi, Rəsul, Rəsulullah, Həbibullah, Fəxri Aləm, Rəsuli-Əkrəm və bu kimi

İPƏKYOLU NƏŞRİYYATI

adlarla yad edilməli, bundan başqa Əhzab surəsinin 56-cı ayəsindəki ilahi fərmana uyğun olaraq mübarək adı hər dəfə çəkiləndə Ona səlat və salam deyilməlidir. Bu, Peyğəmbərə -səllallahu əleyhi və səlləm- münasibətdə uca Allahın bütün ümmətə əmr etdiyi bir ədəb ölçüsüdür. Mübarək ayədə buyurulur:

**"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat deyirlər** (xeyir-dua verirlər)**. Ey iman gətirənlər! Siz də Ona Salavat deyib layiqincə salamlayın!".** (əl-Əhzab, 56)

O, Quranı yalnız öyrədən bir müəllim deyildi, eyni zamanda Quranı yaşayan canlı bir örnək idi. Cabirdən -radiyallahu anh- rəvayət edilən bir mübarək hədisdə həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

"Allah -cəllə cəlalühü- məni gözəl əxlaqı tamamlamaq üçün göndərdi". (Muvatta, "Hüsnül-Xuluq", 8)

1400 ildən çox bir zaman ərzində yazılan bütün İslami əsərlər bir kitabı, yəni Qurani-Kərimi və bir insanı, yəni Həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- izah etmək üçündür. Uca Allah yalnız Onun üçün: لَعَمْرُكَ **"Sənin canına and olsun ki…"** (əl-Hicr, 72) buyuraraq Onun həyatına and içmişdir.

Məhəmmədin həqiqətinə yaxınlaşa bilmək ağıldan daha çox, məhəbbət və eşqlə mümkündür. Bütün sirlər Məhəmməd həqiqəti ilə öyrənilə bilər. Bu da Rəsulullahın -səllallahu əleyhi və səlləm- ən gözəl örnəyindən nümunə götürmək, nəfsani dünya zövqlərindən uzaqlaşıb ibadət, qulluq və mərifət sirlərini öyrənməklə mümkündür. İnsan, Məhəmməd ruhaniyyətindən nəsib almağa başlayanda incə mənalar və misilsiz kəşflər qaynağına çevrilir və ilahi təcəllilərin sirləri, nurları və həqiqətləri onda əks olunur.

Şübhəsiz, Quranın mənaları Allah Rəsulunun ruhaniyyətinə bürünən qəlbin sirlərinə görə aşkar olar. Çünki bizim üçün yeganə ən gözəl örnək olan Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- tabe olmaq məsələsi ilə bağlı uca Allah mübarək ayələrdə belə buyurur:

**"… Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi qadağan edirsə ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir".** (əl-Həşr, 7)

**"Ey iman gətirənlər! Allaha itaət edin, peyğəmbərə itaət edin və** (şəkk-şübhə, riya, küfr və nifaq kimi şeylərlə) **əməllərinizi puça çıxartmayın!".** (Məhəmməd, 33)

İPƏKYOLU NƏŞRİYYATI

**"Allaha və peyğəmbərə itaət edənlər** (axirətdə) **Allahın nemətlər verdiyi nəbilər** (peyğəmbərlər), **siddiqlər** (tamamilə doğru danışanlar, etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər), **şəhidlər və salehlərlə** (yaxşı əməl sahibləriylə) **bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!".** (ən-Nisa, 69)

"(Ey Rəsulum!) **De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir!" Söylə: "Allaha və peyğəmbərə itaət edin! Əgər üz döndərərsinizsə, şübhəsiz, Allah da kafirləri** (haqdan üz çevirənləri) **sevməz!".** (Ali-İmran, 31-32)

**"Allaha və Onun peyğəmbərinə itaət edənlər, Allahdan qorxub çəkinənlər-məhz belələri uğura çatanlardır** (əbədi səadətə-cənnətə qovuşanlardır)**".** (ən-Nur, 52)

**"Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar** (həyandırlar). **Onlar** (insanlara) **yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allaha və peyğəmbərinə itaət edərlər. Allah, əlbəttə, onlara rəhm edəcək. Allah, həqiqətən, yenilməz qüvvət sahibi, hikmət sahibidir!".** (ət-Tövbə, 71)

**"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz, Allaha itaət etmiş olur. Kim üz döndərsə,** (qoy döndərsin)**! Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik".** (ən-Nisa, 80)

**"Məgər bilmirlər ki, Allaha və Onun peyğəmbərinə qarşı çıxanı içində əbədi qalacağı cəhənnəm atəşi gözləyir. Bu isə çox böyük rüsvayçılıqdır".** (ət-Tövbə, 63)

**"Allaha və Onun peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir!".** (əl-Ənfal, 46)

Şübhəsiz, mömin Rəsulullahın -səllallahu əleyhi və səlləm- sevgisi qarşısında ilahi həyəcanı və gözəl duyğuları hiss etdiyi ruhunu nəfsə bağlı olan bütün əlamətlərdən boşaltdığı vaxt Onun məhəbbət və örnək şəxsiyyətindən pay almaq yoluna girmiş olur.

*****

Onun mübarək şəxsiyyətindən pay alaraq, Onda faniləşən ümmətin könül ərləri qiyamətədək Allah Rəsulunun sevgisinə bağlı olan çox gözəl örnəklər ortaya qoymuşlar. Allah Rəsulunun həqiqətində həyat tapmışlar.

Altmış üç yaşında özünə məzar kimi bir yer qazdırıb həyatını və iba-

İPƏKYOLU NƏŞRİYYATI

dətlərini orada davam etdirərək:

"Bu yaşdan sonra mənə torpaq üstündə gəzmək haramdır",-deyən, böyük eşq və vəcd qəhrəmanı Seyid Əhməd Yəsəvi bu faniləşmə yolunda abidəyə çevrilənlərdən biridir. Yaşadığı torpaqlara təbərrük olaraq "Həzrət Türküstan" deyilmişdir. Veysəl Qaraniyə, Rəsulullahın Uhudda bir dişinin qırıldığı xəbəri çatanda hansı dişinin qırıldığını bilmədiyi üçün bütün dişləri ona yad olmuşdu. O dişlərinin hamısını çəkdirib, Peyğəmbərlə eyniləşmək və onda fani olmaq sirrini pozacaq o bilinməyən dişi ataraq fərəhlənmişdi. (Fəridəddin Əttar, s. 23)

İmam Malik -radiyallahu anh- Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə eyniləşməyin vəcdi içərisində yaşadı. Mədineyi-Münəvvərədə heyvana minmədi. Mədinə həramı daxilində ayaqyoluna getmədi. Rövzədə imam olarkən çox zəif səslə danışdı. Dövrün xəlifəsi olan Əbu Cəfər Mənsur yüksək səslə danışanda:

"Ey xəlifə! Bu məkanda səsinin tonunu alçalt! Allahın xəbərdarlığı səndən daha fəzilətli insanların üzərinə endi!..", -buyurdu və bu mübarək ayəni oxudu:

**"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən əməlləriniz puç olar".** (əl-Hucurat, 2)

Həzrət İmam Malik ona zülm edən Mədinə valisinə haqqını halal etmiş və belə buyurmuşdur:

"Məhşərdə Rəsulullahın -səllallahu əleyhi və səlləm- nəvəsi olan bir şəxsə qarşı iddia irəli sürməkdən həya edirəm!..".

*****

Bəzmi-aləm Validə Sultan:

Muhabbetten Muhammed oldu hasıl,

Muhammedsiz muhabbetten ne hasıl?!

deyərək, ruhun qidasının ancaq Rəsulullah məhəbbəti olduğunu çox gözəl tərənnüm etmişdir.

Aşiq Yunus da Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- olan məhəbbətinin atəşində yandığını belə ifadə edir:

Arayı arayı bulsam izini,

İzinin tozuna sürsem yüzümü,

Hak nasib eylese görsem yüzünü,

Ya Muhammed canım arzular Seni…

Şair Nəbi 1678-ci ildə dövlət adamları ilə birlikdə həcc səfərinə çıxır. Karvan Mədinəyə yaxınlaşarkən Nəbi həyəcanından yata bilmir. Karvanda olan bir paşanın qafillik edərək ayağını Mədineyi-Münəvvərəyə doğru uzatdığını görür. Bu hal ona çox təsir edir. Şair bir nət yazmağa başlayır.

Sübh namazına yaxın karvan Mədineyi-Münəvvərəyə yaxınlaşarkən Nəbi yazdığı nətin Məscidi-Nəbinin minarələrindən oxunduğunu eşidir:

Sakın terki-edebden kuyi-Mahbubi Hudadır bu,

Nazargahi-ilahidir, makami-Mustafadır bu!..

(Uca Allahın nəzərgahı və Onun sevimli Peyğəmbəri Həzrət Məhəmməd Mustafanın -səllallahu əleyhi və səlləm- məqamı və şəhəri olan bu yerdə ədəb qaydalarına hörmətsizlik etməkdən çəkin!..)

Murəati-edeb şartıyla gir Nabi bu dergaha,

Metafi-kudsiyandır, busegahi-enbiyadır bu.

(Ey Nəbi, bu dərgaha ədəb qaydalarına əməl edərək daxil ol! Bura mələklərin ətrafında pərvanə kimi dolandığı və bütün peyğəmbərlərin öpdüyü mübarək bir məqamdır).

Bunu eşidən Nəbi çox həyəcanlanır və axtarıb müəzzini tapır:

"- Bu nəti kimdən və necə öyrəndiniz?,- deyə soruşur.

Müəzzin:

- Bu gecə Allah Rəsulu -səllallahu əleyhi və səlləm- yuxumuzda bizə:

- Ümmətimdən Nəbi adlı bir şair məni ziyarət etməyə gəlir. Bu şəxsin qəlbi mənə sevgi və məhəbbətlə doludur. Bu sevgisinə görə də, onu Mədinə minarələrindən öz nətini oxuyaraq qarşılayın!..",-buyurdu. Biz də bu Peyğəmbər əmrini yerinə yetirdik",-deyir.

Nəbi hıçqıra-hıçqıra ağlamağa başlayır. O, həm ağlayır, həm də bunları söyləyir:

"Deməli, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- mənə "ümmətim" dedi! Deməli, iki dünyanın günəşi məni ümmət olmağa qəbul etdi!.."

*****

Həzrət Məhəmmədə -səllallahu əleyhi və səlləm- mövlud yazan Süleyman Çələbi:

"Bir əcəb nur kim günəş pərvanəsi…" misrası ilə Günəşin Allah Rəsuluna pərvanə olub onun ətrafında fırlandığını, yəni cansız cisimlərinin belə, Ona aşiq olduğunu çox gözəl ifadə etmişdir.

"Muhibbi" təxəllüsü ilə şeirlər yazan Qanuni Sultan Süleyman, həzrət Məhəmmədə -səllallahu əleyhi və səlləm-belə yalvarır:

Nuri-alemsin bugün hem dahi mahbubi-Hüda,

Eyleme aşıkların bir lahza kapından cüda…

Azərbaycanın tanınmış şairlərindən olan Məmməd Aslan Hz. Peyğəmbərə (s.ə.s) qarşı olan hörmət və sevgisini bu kəlimələrlə tərənnüm etmişdir.

Bu kirlənmiş dodaqlarla səni öymək nə günah,

O dil-dodaq öysün səni: virdi Quran, Bismillah!

Nida gəlir göylərdən: La ilahə illəllah!

Bu kəlamı-Kəlamullah! Müşk qoxuyan vücüdu!

Sən öyrətdin hümmətinə Haqq önündə sücudu.

Yenə müasir Azərbaycan ədəbiyyatının şairlərindən olan Zəlimxan Yaqub Peyğəmbər sevgisini öz misralarında bədii düşüncələrlə belə ifadə etmişdir.

Sısqa çayı gurlandırar,

Zülmətləri nurlandırar,

Yoxsul qəlbi varlandırar,

Daşar peyğəmbər sevgisi.

Nə yönünü şaha tutar,

Nə özünü baha tutar,

Üzünü Allaha tutar,

Yaşar peyğəmbər sevgisi.

İPƏKYOLU NƏŞRİYYATI

Həzrət Əli -radiyallahu anh- deyir:

"Mən Məkkədə Allahın Rəsulu ilə gəzirdim. Bir gün bir yerdə Məkkədən kənara çıxdıq. Qarşısından keçdiyimiz hər daş və ağac Ona: "Səlat və salam Sənin üzərinə olsun, ey Allahın Rəsulu!..",-deyərək salam verməyə başladı. (Tirmizi, "Mənaqib", 6/3626)

Cansız əşyalardakı bu sevgi və məhəbbətin başqa təzahürü də aşağıdakı hadisədə özünü göstərmişdir:

"Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir səfərdə olarkən qarşılaşdığı bir bədəviyə tövhidi təbliğ etdi. Bədəvi Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bu dəvətinə cavab olaraq Ondan peyğəmbərliyi ilə bağlı bir dəlil istədi. Həzrət Peyğəmbər də -səllallahu əleyhi və səlləm- qarşıda olan bir ağacı işarə ilə yanına çağırdı. Ağac dərhal Peyğəmbərin əmrinə əməl edərək torpağı yara-yara Onun yanına gəldi və Rəsulullahın -səllallahu əleyhi və səlləm- qarşısında şəhadət kəlməsini söylədi. Sonra Peyğəmbərin əmri ilə yenidən öz yerinə getdi. Bu möcüzəni heyrətlə müşahidə edən bədəvi qövmünün yanına dönərkən belə deyirdi:

"Əgər qövmüm mənə tabe olsa, onları sənin yanına gətirərəm, əks təqdirdə mən yenidən geri qayıdıb Səninlə birlikdə olaram". (Heysəmi, VIII, 292)

*****

Yalnız cansızlar deyil, heyvanlar və başqa varlıqlar da Allah Rəsulunu -səllallahu əleyhi və səlləm- tanıyır və Ona itaət edirdi. Bu məsələni Cabir bin Abdullah -radiyallahu anh- aşağıdakı rəvayətlə belə izah edir:

"Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə birlikdə bir səfərdən qayıdırdıq. Mədinədə Nəccar oğullarının bağçalarına çatanda öyrəndik ki, bağçaların birində heç kimi içəri buraxmayan, içəri girməyə cəhd göstərənlərə hücum edən bir dəvə var. Vəziyyəti Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- danışdılar. O, bağçaya getdi, içəri girdi və heç kimi yanına buraxmayan o dəvəni çağırdı. Rəsulullahın -səllallahu əleyhi və səlləm- səsini eşidən dəvə dodağını yerə sürtəcək qədər başını əyərək Onun yanına gəldi və qarşısında yerə çökdü. Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

"Mənə bir ip gətirin!",-buyurdu.

Ona gətirilən ipi dəvənin boynuna keçirərək sahibinə verdi. Sonra orada olanlara belə buyurdu: "Cinlərin və insanların üsyankar olanlarından başqa, yer və göydə olan bütün varlıqlar mənim Allah Rəsulu olduğumu bilirlər". (Əhməd, III, 310)

İPƏKYOLU NƏŞRİYYATI

Biz düşünməliyik ki, cansızlar və heyvanlar aləmindəki bu sevgi ilə müqayisədə, görəsən, biz Allah Rəsuluna nə qədər təslim oluruq, Onun yolunda nə qədər fədakarlıq edə bilirik?!

Xüsusilə, bu günlərdə Onun ruhaniyyətinə çox möhtacıq… Şairin: "Qalx, ey Peyğəmbər, qiyamət qopur!..",-deyərək ifadə etdiyi təlatümlü bir zaman içindəyik…

Salavatlarımız, yəni Onunla salamlaşmağımız, Ona olan sevgimiz bizim üçün böyük bir təsəlli qaynağıdır…

İncə ruhlu zərif möminlər Rəsulullahın həqiqətinə yaxınlaşmaq üçün Onun ruhaniyyəti ətrafında pərvanə olub, Onun yolunda fani olmağı dünyanın ən böyük neməti sayaraq ilahi ləzzətlərə qərq olmuşlar.

*****

Burada kəlmələrin məhdud imkanları ilə ümumiləşdirməyə çalışdığımız bu yüksək yaradılışdakı xüsusiyyətlər həzrət Məhəmməddən düşüncəmizə damcılayan şəbnəmlərdir. Allaha qovuşmağın sirri Allahın kitabına və Həzrət Məhəmmədin sünnəsinə, yəni yüksək əxlaq və davranışlarına qəlb səmimiyyəti ilə yaxınlaşa bilmək, Allah və Rəsulunun sevdiklərinə məhəbbət, sevmədiklərinə də nifrət bəsləməkdir.

Tarix boyunca Həzrət Peyğəmbərin ən gözəl örnəyindən nəsib alan mübarək möminlər imanlarını çox gücləndirmiş, fitrətlərindəki müqəddəs imkanları kamilləşdirərək insanlığa ülvi nümunələr olmuşlar.

Aciz bir müəllifin Məhəmməd həqiqəti ilə bağlı düşüncəsinə və onun istifadə edə bildiyi kəlmələrin məhdud çərçivəsinə sığışanlar da budur!..

Etiraf edirik ki, Həzrət Məhəmmədlə bağlı gerçəklərin yalnız bir hissəsini əhatə edən bu əsərdə sözlərlə məlum və məchul oxucularına təqdim olunanlar sonsuz bir okeandan bir neçə damladır. Belə ki, bu ifadələr dərin bir sükutun əzəmətli qapısı qarşısında tükəndi…

Ya Rəbb! Kəlmələrin məhdud imkanları ilə anlatmağa cürət etdiyimiz bu mövzunu bizlər üçün bir rəhmət və bərəkət vasitəsinə çevirərək Məhəmməd həqiqətindən pay ala bilməyi nəsib et və ehsan buyur! Bizləri sevginin cövhəri və qaynağı olan Rəsulullahın böyük şəfaətinə nail eylə!

Amin!...

İPƏKYOLU NƏŞRİYYATI